1-ci Dərs

# Allah Danışıb!

## Giriş

Sülh olsun sizə. Allahnan əbədi və həqiqi sülhdə olmağı istəyən və Onun yaratdığı möminlik yolunu başa düşməyi və ona itaət etməyi istəyən Allahın, Sülh Allahının adı ilə sizləri salamlayırıq. Biz ***Salehlik Yolu*** adlanan proqramı sizə təqdim etməyə çox şadıq. Biz bu proqramı ona görə ***Salehlik Yolu*** adlandırırıq ki, onun içində biz günahkar adamların Allah qarşısında necə saleh olmalarını açan peyğəmbərlərin yazılarını araşdırmağı planlaşdıraq.

Sən hansı yoldasan? – salehlik yolunda yoxsa ədalətsizlik? Sən Allahdan gələn salehlik yolunu bilmək istəyirsən? Allahın kəlamı deyir: *"Nə bəxtiyardır **salehlik** üçün acıb-susayanlar! Çünki onlar doyacaq."* (Matta 5:6)

Siz deyə bilərsiz, "Biz artıq salehlik yolunu bilirik. Bizə əvvəlki peyğəmbərlərin yazılarını bilməyə ehtiyac yoxdur. Bildiyimiz kifayətdir!" Əgər sən də belə fikirləşirsənsə, onda qulaq as, gör Allahın peyğəmbəri Süleyman nə yazıb. *"Yol var ki, insanın qarşısında düz görünür, amma sonu ölümdür."* (Süleymanın Məsəlləri 14:12)

Müqəddəs kitabda, Zəburda, Süleymanın atası olan Davud peyğəmbər Allahın yaratdığı salehlik yolu haqqında çox danışmışdı. Onu öyrənməyə hər kəsin ehtiyacı var demişdi. O yazmışdı , «*Saleh olan yoxdur, Bir nəfər belə, yoxdur. Hamısı yoldan azıb, Onlardan fayda yoxdur. Bir nəfər də olsun Yaxşı iş görən yoxdur*». (Romalılara 3: 10,12, Zəbur 14:1-3). Buna görə də Davud belə bir dua yazdı: "*Ya Rəbb, yollarını mənə göstər, Öz yollarını mənə öyrət. Məni haqq yolu ilə apar, həqiqətini mənə öyrət.*" (Zəbur 25:4,5)

Əgər Rəbb Allahımız həqiqət yolunu bizə göstərməsə, biz heç vaxt salehlik yolunu bilmərik. Biz izdihamda itmiş uşaq və ya səhralıqda itmiş quzu kimi olardıq. Lakin Allahın Sözü bizə deyir: "*O heç kəsin həlak olmasını istəmir, amma hər kəsin tövbə etməsini istəyir."* (2 Peter 3:9) *"O bütün insanların xilas olub həqiqəti dərk etməsini istəyir."* (1 Timoteyə 2:4) **Dostlar, Allaha aparan həqiqət yolunda olmağından əmin olmaqdan daha mühüm bir şey yoxdur**.

***Salehlik Yolu*** proqramında biz Müqəddəs Yazıları ardıcılıqla oxuyacağıq. Biz, Allahın peyğəmbərləri haqqında bir-bir, əvvəldən axıra kimi öyrənəcəyik. Biz Kəlamda olan hekayələri başlanğıcdan, Allahın Özünün başladığı yerdən başlayacağıq.

Biz Allah və peyğəmbərlər haqqında çox vacib şeyləri öyrənəcəyik. Biz görəcəyik ki, çox peyğəmbərlərin Müqəddəs Kəlamı yazmalarına baxmayaraq, onların hamısının **yalnız bir ilham mənbəyi var idi**: **Allah**. Müqəddəs Kəlamda **çoxlu hekayələr** var, **yalnız ən əsas məlumat budur**: **Allah qarşısında insanların necə saleh ola bilmələri haqqında Xoş Xəbər.**

Buna görə də, biz xahiş edirik ki, **Salehlik Yolu** proqramına diqqətlə qulaq asasınız. Müqəddəs Kitabdan biz bilirik ki, Allah Onu axtaranlara mükafat verir. (İbranilərə 11:6) Onu həqiqətən axtaranlara O bu vədi verir: *"... əgər bütün qəlbinizlə axtarsanız, tapacaqsınız."* (Yeremiya 29:13)

***Salehlik Yolu*** proqramında, biz Allah və Onun Sözü haqqında biliklərimizi artıracağıq. Sən

bilirsən Allah necədir? Şeytan haradan gəlib? Allah nə üçün insanları yaradıb? Və ya Allahın yaratdığı gözəl dünyaya günah necə daxil olub? Sən heç Allahın peyğəmbəri Nuh və daşqın haqqda heyrətamiz hekayəni oxumusan? Sən Allahın peyğəmbərlərinin nə yazdıqlarını doğurdanmı bilirsən? Sən heç bilirsənmi nə üçün İbrahim Allahın dostu adlandı? Sən dostlarına və ya uşaqlarına peyğəmbərlərin yazdıqları haqqda aydın başa sala bilərsənmi?

Min illər əvvəl Əyyub peyğəmbər sual verdi: *"Allah qarşısında insan necə haqlı çıxa bilər?"* (Əyyub 9:2) Sən, Əyyubun sualına Allahın cavabını bilirsən? **Sən** heç bilirsən Allah qarşısında necə saleh ola bilərsənmi? Əgər bu suala və digər suallara Allahın cavabını bilmək istəyirsənsə, biz səni ***Salehlik Yolu*** proqramına qulaq asmağa dəvət edirik.

Allahın Sözü həqiqətən dərin, gözəl, canlı və qüdrətlidir. Bundan əlavə: Allahın Sözü heç nəyi gizlətmir. O bizə insanın həqiqətən necə olduğunu göstərir. Beləliklə Müqəddəs Kəlam deyir: *"Allahdan gizli heç nə yoxdur. Lakin Onun gözləri qarşısında hər şey çılpaq və açıq-aşkardır. Biz Ona hesabat verəcəyik."* (İbranilərə 4:13)

Çox mühüm bir həqiqət var ki, biz onu bu gün başa düşməliyik. O budur: **Allah danışıb!** Külli-İxtiyar Allah danışıb! Allah bəşəriyyətə danışıb və Allah səninlə də danışmaq istəyir! Əgər sən, çox uzaqda yaşayan, qüdrətli bir padşahdan məktub alsaydın, oxuymazdın? Onun məktubda sənin üçün nə yazdıqlarına əhəmiyyət verməzdin? Onda, Küll-İxtiyar Allahın bizimlə danışmasına biz nə qədər çox əhəmiyyət verməliyik!

Allah insanla necə danışıb? Müqəddəs Kəlam deyir: *"Allah qədim zamanlarda dəfələrlə və müxtəlif yollarla əcdadlarımıza **peyğəmbərlər vasitəsilə** müraciət etmişdi."* (İbranilərə 1:1) Bəli, Allahın insanlarla danışmağının ən əsas üsullarından biri **peyğəmbərlər vasitəsilə** olub. Keçmişdə, Allah xüsusi adamlar seçərdi ki, Onun Sözünü insanlara bəyan etsin və yazsın. Allahın Sözü deyir: *"Hər şeydən əvvəl bunu bilməlisiniz ki, Müqəddəs Yazılardakı peyğəmbərlik sözlərinin heç birini şəxsən şərh etmək olmaz. Çünki heç vaxt peyğəmbərlik insan iradəsi ilə qaynaqlanmamışdır, lakin Müqəddəs Ruh tərəfindən yönəldilən insanlar Allahdan gələn sözləri söylədi."* (2 Peter 1:20,21)

Allah Özü də Müqəddəs Yazıları yaza bilərdi və ya Öz mələklərindən də istifadə edərdi ki, bunu yazsın. Amma O, bunu etmədi. Allah adi insanları seçdi ki, bu işi etsinlər. Biz bu adamları peyğəmbər adlandırırıq. Allah onların zehninə nə yazmaq lazım olduğunu qoyurdu və onlar bunu yazırdılar. Lakin Allah izin verirdi ki, onlar Müqəddəs Yazıları öz sözləri ilə yazsınlar. **Allah hər bir sözü ilhamlandırmışdı, buna baxmayaraq hər bir peyğəmbərin fərdiliyini də nəzərə almışdı.** Orada sənin və mənim kimi adamların fikirləri, duaları və problemləri var. Allahın insanlarla davranışı hekayələri vasitəsilə O necədir və Ona necə yaxınlaşa bilməyimizi göstərmək istəyir.

Nə üçün Allah peyğəmbərləri ilhamlandırdı ki, Müqəddəs Yazıları yazsınlar? Ona görə ki, bütün nəsillərin adamları Allahın onlardan nəyi bilmək istədiklərini bilsinlər. Allah ona görə peyğəmbərlə danışdı ki, O, bizim ilə onların yazdıqları sözlər vasitəsilə danışmaq istəyir! Peyğəmbərlərin vasitəsilə deyilən Allahın bütün sözləri bugünki gündə yaşayan bizlər üçün də uyğundur. Allah istəyir ki, bizim hər birimiz peyğəmbərlərin verdikləri məlumatları bilək.

Ola bilsin ki, bəzi adamlar belə fikirləşir, "Eh! Mənə peyğəmbərlərin yazdıqlarını bilmək lazım

deyil. Onların sözləri mənim üçün vacib deyil. Hər peyğəmbərin yerinə yetirməyə öz tapşırığı var idi. Peyğəmbər gəldi, öz işini gördü və getdi. Başqası gəldi, öz işini gördü və getdi və.s. Bu günki bizlərin isə bunları bilməyə ehtiyacı yoxdur!" Sən də belə fikirləşirsən? Allahın fikirləri bununla razı deyil! Rəbb Allahın dediklərinə qulaq as:

*"Sizə doğrusunu deyirəm: göy və yer keçib getmədən, hər şey icra olmadan Qanundan ən kiçik bir hərf və ya bir nöqtə belə, yox olmayacaq. Beləliklə, bu əmrlərdən ən kiçiyindən birini kim pozarsa və başqalarına da bu cür öyrədərsə, Səmavi Padşahlıqda ən kiçik sayılacaq. Amma kim bu əmrləri yerinə yetirər və başqalarına da öyrədərsə, Səmavi Padşahlıqda böyük sayılacaq."* (Matta 5:18,19) *"Bütün Müqəddəs Yazılar Allahdan ilham almış və təlim, məzəmmət, islah, salehlik tərbiyəsi üçün faydalıdır."* (2 Timoteyə 3:16)

Həqiqətən də, peyğəmbərlərin yazdıqları bütün şeylər dəyərlidir. Çünki onlar bunu yazdılar ki, hər bir dövrün adamı Allahın yaratdığı qurtuluş yolunu tanıya bilsin. Sən heç bilirsən Allahın peyğəmbərləri nə yazmışdılar? Allah istəyir ki, biz Onun Sözünü bilək, Onun Sözünə inanaq və itaət edək! Müqəddəs Yazılar deyir: "Həmçinin bizdə daha əmin olan peyğəmbərlik sözləri var. Onlar qaranlıq yerdə işıq saçan bir çırağa bənzəyir. Səhər açılıb dan ulduzu ürəklərinizdə doğana qədər bu sözlərə diqqət verirsinizsə, yaxşı edirsiniz." (2 Peter 1:19)

Bəli, biz bəzən Allahın Kitabına qarşı çıxan adamlar haqqında eşidirik. Onlar deyirlər: "Heç kim buna etibar edə bilməz! Burda çoxlu səhvlər var. Bu dəyişdirilib!" Amma kim Həqiqət Sözü ilə dalaşırsa, o, Allahın Özü ilə dalaşır. "Daş qayaya rast gəlib!" İnsan Allahın həqiqi Sözünü dəyişə bilməz – amma Allahın həqiqi Sözü insanı dəyişə bilər! Allah qüdrətlidir və Öz Əbədi Sözünü qorumağa qadirdir. Buna görə də Rəbbin Özü İncil adlanan kitabda belə deyir: ***"Yer və göy keçib gedəcək, amma Mənim sözlərim əsla keçib getməyəcək."*** (Matta 24:35)

Bir çox adamlar Allahın sözünə qarşı çıxmaq istəyirlər, çünki bu onların iç üzünü aşkara çıxardır. Allahın Öz sözü haqqında dediyinə qulaq as: *"Allahın kəlamı canlı və təsirlidir, hər ikiağızlı qılıncdan da itidir, canla ruhu, oynaqlarla iliyi bir-birindən ayıraraq keçir, ürəyin fikir və niyyətlərini ayırd edir. Allahdan gizli heç nə yoxdur. Lakin Onun gözləri qarşısında hər şey çılpaq və açıq-aşkardır."* (İbranilərə 4:12)

Bəli, Allahın sözü canlı və təsirlidir; o, ürəyə danışır. Baxmayaraq ki, Müqəddəs Yazılar dünyada ən qədim yazı toplusudur, bü günki gündə də hər bir insana uyğundur. Heç bir şey Allahın sözü qədər vacib deyil. Allahın sözü çörək kimidir. Bu dadlı və qidalıdir Amma bunu yeməyənə qədər mənə heç bir faydası yoxdur. Eyni yolla da mən, Allahın sözünü daxilimə hopdurmalıyam ki, qəlbim qidalansın. Buna görə də Allah deyir: *"İnsan yalnız çörəklə deyil, Allahın ağzından çıxan hər kəlmə ilə yaşayar."* (Matta 4:4) *"Nə bəxtiyardırlar salehlik üçün acıb-susayanlar! Çünki onlar doyacaq."* (Matta 5:6) Sən Allahın Sözü üçün acmısan? Bu qidadır. Çox dadlı qidadır. Bu sənin bədənini yox lakin qəlbini və ruhunu qidalandıran bir qidadır.

Beləliklə, biz Allahdan qorxan və Onun Sözünə hörmət edən sizlərə deyirik: *Salehlik Yolu* proqramına müntəzəm olaraq qulaq asmağa səy göstərin. Bu yolla, çox illər əvvəl Allahın peyğəmbərlər vasitəsilə nə dedikləri haqqında sənin biliyin artacaq və həmçinin Müqəddəs Allah qarşısında necə saleh olmağı öyrənəcəksən. Allah danışıb, Allah səninlə də danışmaq istəyir!

Bu dərslərdə biz, heç nəyə və ya heç kimə deyil, yalnız Allahın peyğəmbərlərinin yazılarındakı

sözlərinə bel bağlayırıq. Bu proqramı öyrədən bizlər, Allahın həqiqəti haqqında, Onun Müqəddəs Yazılarda bizə açdıqlarından başqa bir şey bilmirik. Yəhya peyğəmbər də İncildə belə demişdir: *"İnsana göydən verilməsə, o heç nə ala bilməz."* (Yəhya 3:27) Biz öz biliyimizə arxalanmırıq. **Biz yalnız Allahın Sözünə arxalanırıq.** Bizim arzumuz, Allahın peyğəmbərlər vasitəsilə Öz Sözündə bəyan etdiklərini tanıtmaqdır.

Sən heç bilirsən Allah Peyğəmbərlərin Yazılarında nə deyib? Sən də həqiqi salehlik, Allahın Sözünə acıb və susayanlar arasındasan? Öz Müqəddəs Sözlərində Allah Özünü və Öz qurtuluş yolunu açıb. Dəvət edirik ki, siz də bizimlə *Salehlik Yolu* proqramında Müqəddəs Yazıları araşdırasınız ki, Allahın nə demək istədiyini həqiqətən başa düşəsiniz. Allahın Sözü bizə deyir: *"Bundan əvvəl yazılanların hamısı bizi öyrətmək üçün yazıldı ki, dözümlə və Müqəddəs Yazıların ürək-dirəyi ilə ümidimiz olsun."* (Romalılara 15:4)

Qoy biz hamımız bir şeydən əmin olaq ki, Allah danışıb və O istəyir ki, hamı qulaq assın və yaşasın! Yaşlı və cavan, kişi və qadın, varlı və kasıb, Allah sizin hər birinizə deyir: *"Qulaq asın, Mənim yanıma gəlin, dinləyin ki, sağ qalasınız."* (Yeşaya 55:3)

Allahın bu dəyərli çağırışını dərindən düşünərkən, qoy Allah sizə xeyir-dua versin:
***"Qulaq asın, Mənim yanıma gəlin, dinləyin ki, sağ qalasınız."*** (Yeşaya 55:3)

2-ci Dərs

# Allah Necədir?

**Yaradılış 1**

Sizə sülh olsun. Onunla əbədi və həqiqi sülhdə olmağı istəyən , Onun yaratdığı möminlik yolunu başa düşməyi və ona itaət etməyi istəyən Allahın, Sülh Allahının adı ilə sizləri salamlayırıq. Bu proqramda biz Allahın peyğəmbərlərinin hekayələrini sizə bir-bir söyləyəcəyik. Biz həmçinin peyğəmbərlərin yazdığı Müqəddəs Yazıları da araşdırmağı nəzərdə tuturuq; bunlar, Onun qarşısında saleh sayılmaq üçün Allahın qoyduğu salehlik yolunu bəyan edirlər.

Birinci proqramımızda, biz Peyğəmbərlərin Yazılarını müzakirə etdik. Öyrəndik ki, Müqəddəs Yazıları yazan çoxlu peyğəmbərlər var idi, amma bir ilham mənbəyi. Bu Allahdır. Ötən dərsimizdə, biz siznən çox vacib bir fikirə nəzər saldıq. **Allah danışıb!** O, peyğəmbərlər vasitəsilə bəşəriyyətə danışıb və O istəyir ki, bizim hər birimiz Ona qulaq asaq. Allah, Peyğəmbərlərin Yazıları vasitəsilə bizə danışmaq istəyir. Allah heç vaxt dəyişmir. Nə də ki, Onun Sözü. Bütün nəsillər boyu Allah Öz Sözünü qoruyub. *"Müqəddəs Yazı ki pozula bilməz."* (Yəhya 10:35). *"Dünya və ondakı ehtiras keçib-gedir....amma Rəbbin Sözü əbədi qalır!"* (1 Yəhya 2:17; 1 Peter 1:25). Müqəddəs Kəlam belə deyir.

Bu gün biz Müqəddəs Yazıların birinci hissəsi ilə tanış olacağıq. Bu Tövrat adlanır. Allah bu kitabı, Musa adlı bir adamın ürəyinə qoymuşdu. Allah Musaya nəyi yazmağı dedi, o da bunları yazdı. Musanın vaxtından 3500 il keçib. Tövrat beş kitabdan ibarətdir. Birinci kitab Yaradılış adlanır. Çünki bu kitab bizə başlanğıcda nələr baş verdiyini söyləyir.

Tövratın birinci kitabını yaxşı bilmək bizim üçün çox vacibdir, çünki bu Allahın qoyduğu təməldir ki, peyğəmbərlərin kitablarında da Allahın nə demək istədiyini başa düşə bilək. Bu kitabı öyrəndikcə, biz öz bildiklərimizi dərinləşdirəcəyik. Allah və Onun necə olduğu haqqda öyrənəcəyik. Mələklər və Şeytan, göylər və yer, heyvanlar və insanlar haqqında öyrənəcəyik. Biz, günahın dünyaya necə daxil olması, bununla necə böyük fəlakət və kədər gətirdiyini öyrənəcəyik. Həmdə günahkarın Allaha qayıtması və Onunla gözəl ünsiyyət yaratması üçün Rəbb Allahın təmin etdiyi xilas yolunu diqqətnən nəzərdən keçirəcəyik. İlk hekayələrdə biz ilk insanları, ilk günahı və ilk qatili görəcəyik. İlk yalançı dinlər, ilk peyğəmbərlər və ilk millətlər haqqında oxuyacağıq. Biz Adəm və Həvva, Habil və Qabil, Nuh və daşqın, Allahın peyğəmbəri İbrahim və nə üçün onun *Allahın dostu* adlanması hekayələrinə baxacağıq. İsmayıl və İshaqı, Esav və Yaqub,Yusif və onun qardaşları hekayələrinə baxacağıq. Tövratın ilk kitabı bütün bu hekayələrdən və daha başqa hekayələrdən ibarətdir.

Ona görə də, dostlar, Peyğəmbərlərin Müqəddəs Sözlərini öyrənmək vaxtı gəlib çatdığı üçün sizdən diqqətlə qulaq asmağınızı xahiş edirik. Tövratın birinci kitabında biz birinci fəsil, birinci ayəni oxuyuruq: ***"Başlanğıcda Allah göyləri və yeri yaratdı."*** (Yaradaılış 1:1) Biz dərslərimizi Müqəddəs Yazılarda buradan başlayırıq.

Bu ayədə biz bir şeyə nəzər salmalıyıq. Allah yeri və göyü yaratmazdan əvvəl nə mövcud idi? Müqəddəs Yazılar bizə göstərir ki, Allahdan başqa heç nə mövcud deyildir. Buna görə də

yazılıb: *"Başlanğıcda ... Allah."* Görüb və toxuna bildiyimiz hər şeyin öz başlanğıcı var. Beləliklə, uzun minilliklər əvvəl nə göy, nə yer, nə dənizlər, nə də ki ağaclar var idi. Başlanğıcda, Allah göyü və yeri yaratmazdan əvvəl nə günəş, nə ay, nə ulduzlarç nə insan, nə də ki, mələklər var idi. Vaxt var idi ki, bildiklərimizdən heç bir şey mövcud deyildi — yalnız **Allah** mövcud idi.

Buna görə də biz Müqəddəs Yazılardan birinci kitabın birinci ayəsini oxuyuruq: "*Başlanğıcda **Allah** yeri və göyü yaratdı."* Müqəddəs Yazılar belə demir: "Başlanğıcda Allah **və** mələklər" və ya "Başlanğıcda Allah **və** insan." Yox. Müqəddəs Yazılar bizə deyir: *"Başlanğıcda ... **Allah**.*" Başlanğıcda, heç bir şey mövcud olmayanda, mələklər və ya insanlar mövcud olmamışdan əvvəl....yalnız Bir varlıq var idi. O, Allahdır!

Bəzi adamlar belə deyirlər: "Mən Allahı görə bilmirəm, ona görə də Allah yoxdur." Allahın olmasını inkar edən şəxslərə bir neçə sual verə bilərik. Sən heç atom görmüsən? Ya da ki, nəfəs aldığın oksigeni görmüsən? Küləyi bəs? Sən küləyi görə bilməzsən, amma sən bilirsən ki, külək var. Çünki sən küləyin etdiklərini görə bilərsən. külək əsəndə ağacın tərpənməyini görə bilərsən, amma küləyin özünü heç kim görə bilməz. Sən küləyi tuta bilməzsən, amma sən onun sərin hava verməsini hiss edə bilərsən. Allah da belədir. Biz Allahı görə bilmərik, çünki Allah gözə görünməzdir. Buna baxmayaraq, biz bilirik ki, Allah var. Çünki biz **Allahın yaratdıqlarını görürük.** Müqəddəs Yazılar deyir: *"Dünyanın yaradılışından bəri Allahın gözə görünməyən xüsusiyyətləri, yəni əbədi qüdrəti və ilahiliyi Onun yaratdıqları vasitəsilə üzə çıxır. "* (Romalılara 1:20)

Tövratın birinci ayəsində biz bunu da öyrənə bilərik: **Allahın başlanğıcı yoxdur.** Başlanğıcda Allah yaradılmamışdır. Allah Əbədiyyətin Rəbbidir. Dünyada bildiyimiz və gördüyümüz hər şeyin başlanğıcı var. Amma Allahın başlanğıcı yoxdur. Onun bərabəri yoxdur. Başlanğıcda yalnız O var idi. Heç kim Onu dünayaya gətirməyib. Heç kim Onu yaratmayıb və O Özü-Özünü yaratmayıb. Buna görə də biz Müqəddəs Yazılarda oxuyuruq: *"Başlanğıcda ... **Allah**."* Yalnız Onun başlanğıcı yoxdur. O yeganə varlıqdır ki, həmişə mövcud olub və əbədi yaşayır. O dünən necə idisə, bu gün də elədir və əbədi olaraq elə olacaqdir. **Allah heç vaxt dəyişmir.**

Biz həmçinin bu ayədən daha bir şey öyrənə bilərik: *"Başlanğıcda Allah göyü və yeri yaratdı."* **Allah böyükdür!** Hər şeyi və hamını yaradan Allah hər şeydən böyükdür. O, yaradılan hər şeyin Rəbbidir. Həqiqətən, bütün ürəyimizlə biz bəyan edirik: "Allah böyükdür!" O dünyada olan hər şeydən – okeanlardan, küləklərdən, günəşdən və ulduzlardan da böyükdür! O, bütün ruhlardan və insanlardan daha ağıllı və qüdrətlidir. O, əbədi olaraq izzətə layiqdir! Evi tikən tikilmiş evdən daha vacib olduğu kimi, Allah da hər şeydən üstündür. Çünki O, hər şeyi yaradıb. Allah böyükdür! O, Öz qüdrəti ilə yaşayır. O heç nədən və heç kimdən asılı deyil. Onun heç nəyə, heç kimə ehtiyacı yoxdur. O, qüdrətlidir!

Biz insanların çox ehtiyacları var. Biz hər gün nəfəs almalıyıq, yatmalıyıq və yeyib-içməliyik. Bizə günəş və yağış, qida və su, paltar və ev, ata və ana, dostlar və pul və daha çoxlu başqa şeylər lazımdır. Bizim nə qədər ehtiyaclarımız var! Amma hər şeyi yaradan Rəbbin heç bir ehtiyacı yoxdur! O acmır, susamır, heç vaxt yorulmur. Onun bizim kimi insan bədəni yoxdur. O hüdudsuzdur. O, Əbədi Allahdır. **O, Külli-İxtiyardır.**

İndi belə bir sual meydana gəlir: Əgər Allah insana oxşamırsa və bizim kimi bədəni yoxdursa, onda O necədir? Müqəddəs Yazılar bu suala aydın cavab verir: *"Allah **ruhdur** və Ona ibadət edənlər ruhda və həqiqətdə ibadət etməlidir."* (Yəhya 4:24) Allah necədir? **Allah ruhdur.** İnsan cism və ruhdan, Allah isə yalnız ruhdan ibarətdir. Allahın Ruhunun heç bir məhdudiyyəti yoxdur. O, hər bir yerdədir. Allah hər şeydən və hamıdan üstündür. O, hər şeyi tamamlayır. O, hər şeyi görür. Gecə və gündüz Allah üçün eynidir. Həttə sən otağında gizlənsən də, Allah oradadır və səni görür. **Allah hər şeyi bilir**. O, sənin fikirlərini və ürəyinin niyyətlərini bilir. Allah böyükdür!

Beləliklə, Allah necədir? Biz bu gün öyrəndiklərimizi belə yekunlaşdıra bilərik: **Allah heç kimə bənzəmir.** Allah Allahdır və Onun bərabəri yoxdur. Gələcək *Salehlik Yolu* dərslərimizdə, biz Allahın xasiyyəti haqda biliklərimizi artıracağıq. Müqəddəs Yazılarda Allahın yüzlərlə adları var. O, Rəbbdir. Qüdrətlidir. Yaradandır. Nurdur. Ədalətlidir. Müqəddəsdir. Mərhəmətlidir. Məhəbbət Allahıdır. O, yaşayan və həqiqi Allahdır!

Həqiqətən də, başlanğıcda göyləri və yeri yaradan, **Böyük Allahdır**. Müqəddəs Yazılar Onun haqqında deyir:
*"Allahın zənginliyi və böyük, hikməti və biliyi nə dərindir!... hər şeyin mənbəyi Odur, hər şey Onun vasitəsilə və Onun üçün var oldu.."* (Rom 11:33,36) *"O, bəxtiyarlıq mənbəyi olan tək Hökmdar, şahların Şahı və ağaların Ağasıdır. Yeganə ölməzliyə malik olan, əlçatmaz nurda yaşayan Odur. Onu insanlardan heç kəs görməyib və görə də bilməz. Ona izzət və əbədi qüdrət olsun. Amin."* (1 Timoteyə 6:15,16)

Başqa bir yerdə, Allahın peyğəmbəri Musa gözəl bir nəğmədə Allahı belə izzətləndirir: "*Ey Külli-İxtiyar Allah, Sənin işlərin böyük və heyrətlidir. Ey millətlərin Padşahı, Sənin yolların ədalətli və həqiqidir. Ya Rəbb, kim Səndən qorxmaz, kim Sənin adını izzətləndirməz, Çünki yalnız Sən müqəddəssən. bütün millətlər gəlib Sənin önündə səcdə edəcək, çünki Sənin ədalətli hökmlərin aşkar oldu".* (Vəhy 15:3,4) Allah hədsiz böyükdür! Allahın Sözünün birinci ayəsi buna görə deyir: *"Başlanğıcda ... **Allah**!"*

Beləliklə dostlar, gəlin bu gün eşitdiyimiz həqiqətləri yaddaşımızda saxlayaq: "*Başlanğıcda ... **Allah**.*" Başlanğıcda yalnız Allah mövcud idi və buna görə də, başlanğıcda baş verənlər haqqında həqiqəti bizə **yalnız Yaradanın Özü** aça bilər. Bundan sonra da nələr baş verəcəyini və Özü haqqında həqiqətləri **yalnız Allah** bizə aça bilər.

Bəli, biz bilirik ki, bəzi adamlar deyir: "Heç kim Allahı tanıya bilməz və gələcəkdə nə olacağını bilməz!" Buna baxmayaraq, Peyğəmbərlərin Yazıları bizə deyir ki, biz Allahı tanıya bilərik və əbədi həyatımızın harda keçəcəyini bilə bilərik. Çünki Allahın Sözü deyir: *"Bunaları sizlərə.... yazdım ki, əbədi həyata malik olduğunuzu **biləsiniz**....Həqiqi Allah və əbədi həyat Odur."* (1 Yəhya 5:13,20) *"Allahın Onu sevənlər üçün hazırladıqlarını nə göz görüb, nə qulaq eşidib, nə də insanın ürəyi dərk edib. Bizə isə **Allah bunları öz Ruhu ilə açdı**; Çünki Ruh hər şeyi, Allahın dərin düşüncələrini belə araşdırır."* (1 Korinflilərə 2:9,10)

Bu gün bizə qulaq asanlar, **siz Allahı şəxsən tanıyırsınızmı?** Yoxsa O sizin üçün sadəcə çox-çox uzaqlarda olan, ağlasığmaz böyük Yaradandır? Əziz dostlar, Allah istəyir ki, siz Onu

tanıyasınız və Onunla əbədi yaşayasınız!  Peyğəmbərlərin Yazıları bizə Allahla necə gözəl və yaxın münasibətimiz ola biləcəyini öyrədir. Amma biz öz qulaqlarımızı, zehnimizi və ürəklərimizi Allahın bizə nə deyəcəyi üçün açmalıyıq. Allahın Öz Müqəddəs Sözündə dediyinə qulaq as: *"Ey yer üzünün qurtaracağınadək hər yerdə yaşayanlar, Mənə tərəf dönün və xilas olun! Çünki Mən Allaham və başqası yoxdur!"* (Yeşaya 45:22)

Bu gün bizimlə olduğunuza görə çox sağ olun. Bizim gələn proqramımızda biz valehedici bir mövzuya baxacağıq: Mələklər və şeytan. Onların haradan gəldikləri haqqında əsl hekayəni bilirsən?

Müqəddəs Yazılarda olan bu ayəyə nəzər saldıqca Rəbb sizə xeyir-dua versin:

***"Allah Ruhdur və Ona ibadət edənlər ruhda və həqiqətdə ibadət etməlidirlər."*** (Yəhya 4:24)

3-cü Dərs

# Şeytan və Mələklər

**Yeşaya 14; Yezekel 28**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək və Ona itaət edək və həmçinin, Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən proqramımızda, biz Müqəddəs Yazılardan bu ayəni oxuduq: "*Başlanğıcda Allah göyləri və yeri yaratdı.*" (Yaradılış 1:1) Biz gördük ki, Allahdan başqa hər şeyin öz başlanğıcı var. Başlanğıcda, heç bir şey mövcud olmayanda, yalnız Bir varlıq var idi. O, **Allah** idi. Başlanğıcda yalnız O var idi. Allah, Əbədiyyətin Rəbbidir. Allah böyükdür və Onun bərabəri yoxdur! Onun əvvəli və sonu yoxdur. Onun heç bir ehtiyacı yoxdur. O heç nə ilə məhdudlaşmır. Allah ruhdur və eyni vaxtda hər yerdə ola bilər. O, hər şeydən və hamıdan yüksəkdədir. O, hər şeyi tamamlayır. O, hər şeyi görür. O, hər şeyi bilir. O, bənzərsizdir. Allah böyükdür! Buna görə də, Müqəddəs Yazılar deyir: "*Ölməzliyə yeganə malik olan, əlçatmaz nurda yaşayan, insanlardan kimsənin görmədiyi və görməyə qadir olmadığı Allah, Məsihin zühurunu vaxtında gerçəkləşdirəcəkdir. Allaha hörmət və əbədi qüdrət olsun! Amin*!" (1 Timoteyə 6:16)

Bu gün biz Peyğəmbərlərin Yazılarından üçüncü dərsi öyrənməyə başlayacağıq. Biz, Allahın Sözünün **mələklər və şeytan** haqqında nə öyrətdiyinə nəzər salmaq istəyirik. Sən heç bilirsənmi mələklər, Şeytan və cinlər haradan gəlib? Əgər Allah bizə söyləməsəydi, biz bu şeylər haqqında bilməzdik. Amma Allah Öz Sözündə onlar haqqında bizə deyir. Buna görə də, gəlin Müqəddəs Yazıları diqqətlə nəzərdən keçirək ki, mələklər və şeytan haqqında həqiqətləri öyrənək.

Xatırlatmaq istəyirik ki, *Salehlik Yolu* proqramında, biz Peyğəmbərlərin Yazılarını ardıcılıqla öyrənirik, başlanğıcdan axıra qədər. Ötən dərsdə biz Allahın Özü haqqında bu səbəbdən öyrəndik ki, başlanğıcda olan O idi. Gələn dərsimizdə biz, Allahın dünyanı və onun içindəkiləri necə yaratdığını söyləyəcəyik. Amma Allah insanları və yaşadığımız dünyanı yaratmazdan əvvəl, başqa bir şeyi yaratdı: **mələkləri**.

Allahın Sözü bizə mələklər haqqında çox şey söyləyir. Gəlin bu məxluqlar haqqında mühüm həqiqətləri cəmləyək. Allahın Sözü deyir ki, çox-çox əvvəllər ruh olan Allah, mələklər adlanan çoxlu digər ruhları yaratmışdı. Müqəddəs Yazılar deyir ki mələklər ruhdurlar. (İbranilərə 1:14) *"O, Öz mələklərini küləklərə və Öz xidmətçilərini od alovuna döndərir."* (İbranilərə 1:7) Beləliklə, Müqəddəs Yazılar bizə öyrədir ki, mələklər də Allah kimi ruhdurlar. Onların görünüşləri külək və alovla müqayisə edilib. Biz küləyi görə bilmərik. Heç kim alova toxuna bilməz. Allahın mələkləri də belədir. Allah onları bizim kimi bədəndə yaratmayıb. Biz insanlar cism və ruhdan ibarətik. Amma mələklər ancaq ruhdan ibarətdirlər. Buna görə də, biz onları görə bilmərik.

Allah nə qədər mələk yaradıb? Müqəddəs yazılar bu haqqda nə deyir? Orada deyilir ki, Allah heç kimin sayıb qurtara bilmədiyi qədər ruhlar yaradıb. *Göylərdə, Allahın yanında saysız-hesabsız mələk var. (*Vəhy 5:11) Bizim Rəbbimiz Allah böyükdür! Heç bir məhdudiyyəti olmayan Allah, Özü üçün minlərlə və minlərlə gözəl, yaxşı və müdrik mələklər yaradıb. Müqəddəs Yazılar deyir ki, Allahın mələklərinin **böyük gücü** var.

Onlar bizdən güclüdürlər. Lakin bütün yaradılan məxluqlar kimi, onların da məhdudiyyətləri var. Onlar **hər şeyə qadir deyillər.** Hər yerdə ola bilmirlər və həmçinin hər şeyi də bilmirlər. Onlar sadəcə məxluqlardırlar. Yalnız biri məhdudsuzdur. O, Allahdır.

Mələklər haqda başa düşməli olduğumuz digər şey budur: Allah mələkləri yaradanda, onların hamısı müqəddəs məxluqlar idilər. Başlanğıcda, heç bir pis mələk yox idi. Başlanğıcda, İblis yox idi. Heç bir pis ruh yox idi. Allah heç bir pis mələk yaratmamışdı. Biz bu həqiqəti yadda saxlamalıyıq: Allah hər şeyi edə bilər. Yalnız bir şeyi edə bilməz. Allah heç vaxt pis olan şeyi etməz. Gəlin bunu unutmayaq. Allah **yaxşı** olduğu üçün , pis bir şeyi yarada bilməz. Allah **kamil** olduğu üçün , səhv edə bilməz. **Pak və müqəddəs** olduğu üçün Ondan günahlı bir şey gələ bilməz. Allahın düşündüyü, dediyi və etdiyi hər bir şey kamildir. Buna görə də, Müqəddəs Yazılar deyir: "*Allah pisliklə imtahan olunmur və Özü də heç kimi imtahan etmir."* (Yaqub 1:13) Bəs onda pislik haradan gəlir? Biz Allahın cavabına baxacağıq. Bundan əvvəl, biz mələklər haqqında başqa bir şey bilməliyik.

Allah nə üçün mələkləri yaratdı? Müqəddəs Yazılar deyir ki, Allah onları göylərin sevincində həmişəlik Özü ilə birlikdə olmaq, **Onu sevmək, Onu mədh etmək və Ona xidmət etmək** üçün yaratdı. Onların hamısı Allahın idi, çünki O, onları yaratmışdı. Onların hamısı Allahın "evində", göylərdə, aydan, günəşdən və ulduzlardan da uzaqlarda yaşayırdılar. Sən heç bilirsən ki, **Allahın yaşadığı xüsusi bir yer** var? Doğrudur, ötən dərsimizdə biz öyrəndik ki, Allah hər yerdədir. Amma Müqəddəs Yazılar bizə həmçinin kainatda olan müqəddəs, nurla və gözəlliklə dolu olan, Allahın yaşadığı və Özünün bütün izzətini göstərdiyi yer haqqında öyrədir. Bura Allahın peyğəmbərlərinin ***Allahın hüzuru olduğu yer*** yada ***Cənnət*** adlandırdığı yerdir. Burada Allah Öz müqəddəs mələkləri ilə yaşayır.

Mələklər haqqında başqa bir şey də bilməliyik. Mələklərin **hamısı eyni deyil**. Bəzi mələklər daha gözəldirlər və bəziləri digərlərindən daha müdrikdilər. Bəzi mələklər göylərdə Allahın taxtını əhatə edir. Başqaları adamlara kömək edir və qoruyur. **Cəbrayıl** və **Mikayıl** kimi digər mələklər isə Allahın hüzurunda dayanır və yerə xüsusi məqsədlər üçün göndərilirlər.

Bəzi mələklər digərlərinə nəzarət edirlər. Müqəddəs Yazılar deyir ki, Allah mələkləri yaradanda, onaların arasında biri var idi ki daha gözəl, qüdrətli və ağıllı idi. O, ağılda, gücdə və səlahiyyətdə digər mələklərdən üstün idi. Bu mələk Allaha ibadət etməli, Onu sevməli və həmişəlik Ona itaət etməli idi. Çünki onu Allah yaratmışdı və ona xeyir-dua vermişdi. Amma Müqəddəs Kitabda biz oxuyuruq ki, bu mələk Allaha qarşı çıxdı və onun ürəyi qürurla dolu idi.

İnanılmazdır! Allahın ona verdiklərindən başqa heç bir şeyi olmayan mələk, Allahın izzətini oğurlamaq istədi! Yalnız o Allaha qarşı yox, həmçinin mələklərin üçdə bir hissəsi də Rəbb Allaha qarşı çıxdı və onun ardınca getməyi seçdilər. (Vəhy 12:4)

Allah bu mələklərinin nə etmək istədiklərini əvvəlcədən bilirdi. Ötən dərsimizdə öyrəndiyimiz kimi, heç kim Allahdan gizlində bir şey edə bilməz. Çünki nə isə baş verməzdən əvvəl, Allah hər şeyi bilir! Allah bu mələklərin ürəyində olan günahı görürdü.

Sonra nə baş verdi? Allah nə etdi? Allah, Ona qarşı üsyan edən mələklərə izn verdimi Onun yerini tutsun? Allah günaha barmaqarası baxa bilərdimi? **Allah qürur və üsyan günahı ilə birgə yaşaya bilərdimi?** Heç vaxt! Peyğəmbərlərin Yazıları bizə öyrədir ki, bizim Allahımız müqəddəsdir və pisliyə baxa bilmir! Allah günaha dözə bilmir. O, Öz izzətini başqasına verə bilməz. Allah bənzərsizdir. Heç kim Onu əvəz edə bilməz! Ona görə də Müqəddəs Yazılar deyir ki, **Allah pis mələkləri Öz müqəddəs hüzurundan qovdu**. Müqqədəs Yazıda deyilir "*Mən Şeytanın ildırım kimi göydən düşməyini görmüşdüm."* (Luka 10:18) Onlar göylərdə, Allahın evində yaşaya bilməzdilər. Çünki onlar Allahın yerini tutmaq istəyi ilə günah etmişdilər. Ona görə də Allah onları qovdu. Müqəddəs olan Allah, ona qarşı çıxan hər bir kəsi əlbəttə mühakimə etməli və cəzalandırmalıdır.

Öz qüruruna görə səmadan qovulan mələk kim idi? O, şeytan yada iblis adlanır. Şeytan sözü İbrani dilində *düşmən* deməkdir. Şeytan Allahın düşməni oldu. Bildiyimiz kimi, şeytan və onun mələkləri hələ də Allaha və yaxşı olan hər şeyə qarşı çıxırlar. Onlar, Allahın Sözünü rədd və inkar edirlər. Şeytan Allaha qarşı vuruşur və çalışır ki, Allahın planını dağıtsın və ona əngəl olsun. Amma Allah böyük Hakimdir və heç kim Ona qalib gələ bilməz!

Müqəddəs Yazılar deyir ki, Allah Şeytan və onun mələklərini qovandan sonra onlar üçün heç vaxt sönməyən cəhənnəm alovları yaratdı. Gün gələcək ki, Allah şeytanı, onun mələklərini və onun ardınca gedən hər bir kəsi ora atacaqdır. Beləliklə yazılıb: *"onlar gecə və gündüz, əbədi olaraq işgəncə çəkəcəklər."* (Vəhy 20:10)

Lakin Müqəddəs Yazılar bizə öyrədir ki, şeytan hələ cəhənnəmdə deyil. Allahın Sözü deyir ki, **şeytan dünyadadır** və Allaha qarşı mübarizə aparır. O, məhvedəndir. O, Allahın işini məhv etmək istəyir. O, Allahın yaratdığı adamları məhv etmək və özü ilə cəhənnəmə aparmaq istəyir. Allahın Sözü deyir ki, **əksər insanlar şeytanın idarəsi altındandır, amma onlar bunu bilmirlər**. Çünki şeytan **yalançıdır**. Beləliklə, Müqəddəs Yazılar deyir: "*Şeytan da işıq mələyi cildinə girir.*" (2 Korinflilərə 11:14) O insanları aldatmağa çalışır ki, onlar Allahın Sözünə diqqət yetirməsinlər. Ona görə də Allahın Sözündə yazılıb: "*Ayıq durun, oyaq olun. Çünki düşməniniz olan iblis nərildəyən və kimisə aşırmaq istəyən aslan kimi dolaşır.*"(1 Peter 5:8) Ayıq ol! İblis səni həmişəlik məhv etmək istəyir!

Allaha şükür olsun! O bizə Öz Sözünü verib ki, şeytanın hakimiyyətindən qurtula bilək. Müqəddəs Yazılar deyir: "*Siz həqiqəti biləcəksiniz və həqiqət sizi azad edəcək* ." (Yəhya 8:32) Şeytanın dəhşətli niyyətlərindən səni azad edə bilən həqiqəti bilirsən? Gəlin unutmayaq: Şeytan bizdən daha müdrikdir. Amma **Allah** Şeytandan da müdrikdir. Şeytan bizdən daha güclüdür. Amma **Allah** şeytandan da güclüdür. Səni şeytanın hakimiyyətindən azad edə bilən Həqiqət Sözünü bilirsən? Bir çox insanlar Allahın həqiqətini eşitməyi xoşlamırlar. Nə üçün insanlar həqiqətə qulaq asmağı rədd edirlər? Bu ona görədir ki, şeytan onları aldadıb. O, adamları doğru olmayana inanmağa ruhlandırır. Əslində, həqiqəti eşitmək həmişə şirin olmur. "Həqiqət acı olur." Amma əgər sən Allahın həqiqətlərini bilirsənsə və ona inanırsansa, sən şeytanın hakimiyyətindən azad olacaqsan. **Allahın həqiqəti** insanları **şeytanın yalanlarından** azad edə bilər. Amma sən əvvəlcə bu həqiqəti bilməlisən və ona inanmalısan!

Allahın Sözündə nə deyildiyinə qulaq asın: "*Sevimlilərim, hər ruha **inanmayın**, amma ruhları **sınaqdan keçirin** ki, onların Allahdan olub-olmadığını biləsiniz. Çünki dünyada*

*çoxlu yalançı peyğəmbərlər yayılmışdır*." (1 Yəhya 4:1) "*Peyğəmbərlik sözlərinə xor baxmayın. Hər şeyi sınaqdan keçirin və yaxşı olandan möhkəm tutun. Hər cür şərdən uzaq durun.* " (1 Salonikliləra 5:20-22) **Allahın Peyğəmbərlərinin nə yazdıqlarını həqiqətən bilirsənmi?** Sən Həqiqət Sözünü başa düşürsən? Öz ürəyində ona inanırsan?

Dostlar, dinlədiyiniz üçün çox sağ olun. Sizi dəvət edirik ki, gələn dərsdə Allahın dünyanı necə yaratmasını öyrənərkən bizə qoşulasınız.

Gələn dərsdə də sizinlə görüşmək ümidi ilə ayrılırıq. Allahın Sözündə olan bu gözəl vədə nəzər saldıqca, qoy Allah sizə xeyir dua versin!

**"*Siz həqiqəti biləcəksiniz; və həqiqət sizi azad edəcək.*" (Yəhya 8:32)**

**4-cü Dərs**

# Allahın Dünyanı Yaratması

Yaradılış 1

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və həmçinin, Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gündə də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz, Allahın peyğəmbərlərinin **mələklər və şeytan** haqqında yazdıqlarını oxuduq. Biz öyrəndik ki, başlanğıcda Allah mələklər adlandırdığı sayzız-hesabsız ruhlar yaratdı. Mələklər arasında biri daha gözəl, ağıllı idi. Amma gün gəldi ki, o öz qəlbində özünü izzətləndirdi və Allaha qarşı çıxdı. Allahın yerini tutmaq istədi. Hətta, bir çox mələklər də onun ardınca getməyi seçdilər. Amma Allah, ona qarşı üsyan edənlərə dözə bilmədiyi üçün pis mələkləri Öz müqəddəs hüzurundan qovdu. Allah şeytanı və onun mələklərini qovandan sonra, onlar üçün heç zaman sönməyən, alovlu cəhənnəm yaratdı. Bir gün Allah şeytanı və onun ardınca gedənləri ora atacaq. Amma şeytan hələ cəhənnəmə atılmayıb. O dünyadadır. O axtarır ki, kimisə aldadıb məhv etsin.

Bu gün Peyğəmbərlərin Yazılarında dördüncü dərsimizdir. Tövratın birinci Yaradılış adlanan kitabında, birinci fəsildə, ilk iki ayədə deyilir: "*Başlanğıcda Allah göyləri və yeri yaratdı. Yer quruluşsuz və boş idi. Dərin sular üzərində qaranlıq var idi.*" (Yaradılış 1:1,2)

Başlanğıcda, Allah göyləri və yeri yaradanda, yerdə heç nə yaşamırdı. Hər yer quruluşsuz və qaranlıq idi. Amma Allah, Onu tanımaq, sevmək və itaət etmək bacarığı olan insanlar yaratmağı nəzərdə tutdu. Amma insanı yaratmamışdan əvvəl, onun həqiqi bolluqda yaşaması üçün Allah gözəl dünya yaratmağı qərara aldı. Bu gün biz Allahın insanlar üçün dünyanı necə yaratdığını və hazırladığını öyrənəcəyik

Allahın dünyanı necə yaratması haqqında Müqəddəs Yazılar nə deyir? Orada deyilir: "*... altıncı gün ərzində Rəbb göyləri və yeri, dənizi və kainatdakı hər şeyi yaratdı.*" (Çıxış 20:11) İndi gəlin görək Tövratın birinci fəsilində o altı gündə Allah nə yaratdı.

1) Birinci günlə əlaqədar, Müqəddəs Yazılar deyir:

"*Allahın Ruhu suların üzərində dolaşırdı. Allah dedi: «Qoy işıq olsun». İşıq oldu. Allah gördü ki, işıq yaxşıdır. Sonra O, işığı qaranlıqdan ayırdı. Allah işığı «gündüz», qaranlığı isə «gecə» adlandırdı. Axşam oldu, səhər açıldı; bu, birinci gün idi.*" (Yaradılış 1:2-5)

Beləliklə, birinci gün Allah əmr etdi: "Qoy qaranlıqda **işıq** olsun."

2) Müqəddəs yazılar ikinci günə aid deyir:

"*Sonra Allah dedi: «Qoy suların arasında bir qübbə olsun və suları bir-birindən ayırsın». Allah qübbəni düzəltdi və qübbənin altındakı suları onun üstündəki sulardan ayırdı. Belə də oldu. Allah qübbəni «göy» adlandırdı. Axşam oldu, səhər açıldı; bu, ikinci gün idi.*" (Yaradılış 1:6-8)

İkinci gün Allah **yeri əhatə edən səmanı** yaratdı. Bu bizim nəfəs aldığımız hava olan atmosferdir. Bu hər şeyi və hamını günəşin yandırıcı istisindən və digər zərərli şeylərdən qoruyur.

3) Üçüncü gün Allah **okeanları, quru torpağı və bitkiləri** yaratdı. Müqəddəs Yazıların nə dediyinə qulaq as:

*"Sonra Allah dedi: «Qoy göyün altındakı sular bir yerə yığılsın ki, quru görünsün». Belə də oldu. Allah qurunu «yer», su yığınlarını isə «dənizlər» adlandırdı. Allah gördü ki, bu, yaxşıdır. Sonra Allah dedi: «Qoy yer üzü bitkilər yetirsin: toxumlar bitirən ot-ələf və torpaqda hər növ bəhərli ağaclar yetişsin. Ağaclar meyvə gətirsin və toxumları meyvələrinin içində olsun». Belə də oldu. ...Allah gördü ki, bu, yaxşıdır. Axşam oldu, səhər açıldı; bu, üçüncü gün idi."* (Yaradılış 1:9-13)

Beləliklə, üçüncü gün Böyük Rəssam olan Allah, dənizləri və çayları, özünün meyvələri və toxumları olan minlərcə müxtəlif cür ağac və bitkiləri yaratdı. Sonra yaratdıqları ilə əlaqəli olaraq Allah dedi: "*Bu yaxşıdır!*" Allahın etdiyi və yaratdığı hər şey yaxşı, gözəl və kamildir! Biz artıq görmüşük ki, Allahın edə bilmədiyi yalnız bir şey var. Allah pis bir şey edə bilməz. Çünki **Allah yaxşıdır!**

Ola bilsin ki, sizlərdən bəzisi soruşur: "Əgər Allah yaxşıdırsa, onda nə üçün dünya pislik və mübarizə ilə doludur? Nə üçün mənim tarlam bu il yaxşı məhsul vermədi? Nə üçün mənim övladım xəstədir? Əgər Allah yaxşıdırsa, nə üçün insanlar pislik edirlər?" Həqiqətən də bunlar vacib suallardır və gələn dərslərimizdə biz Müqəddəs Yazıların verdiyi qaneedici cavabları eşidəcəyik. Bu gün üçün isə gəlin fikrimizi bu mühüm həqiqətə yönəldək: Allah yaxşıdır və buna görə **yaratdığı hər şey də yaxşıdır**.

Gəlin bir az vaxt götürək və **Allahın yaxşılığı** haqqında fikirləşək. Biz bir az əvvəl eşitdik ki, üçüncu gün O, ağacları necə yaratdı. Sən heç bilirsən nə üçün Allah ağacları meyvələri ilə yaratdı? Allaha onlar lazım idi? Allah gözəl meyvələr yaratdı ki, Öz aclığını doydursun? Xeyir! Yaradan Allah heç vaxt acmır və heç bir şeyə ehtiyacı yoxdur! Onda nə üçün Allah bu ağacları yaratdı? Müqəddəs yazılar bizə göstərir ki, Allah hər şeyi yaradacağı adam üçün yaratdı.

**Sən Allahın yaxşılığını dərk edirsən?** Sən heç dadlı şaftalını yeyib və ya gözəl gülü iyləyib Allahın yaxşılığını görə bilməzsən? Ağac görsən heç onun üçün Yaradana təşəkkür etməzsən? Həyat ağaclarsız çox dəhşət olardı! Yemək bişirmək üçün bizim odunumuz və qayıq, yaxud ev düzəltmək üçün taxtamız olmazdı. Günün isti çağında dincəlmək üçün kölgəli yerimiz və ya çay üçün yarpaq, dərmanımız olmazdı. Ağaclar Allahın yaratdığı minlərcə gözəl şeylərdən biridir ki, bizim xoşbəxtliyimiz üçün yaradılıb. Allah istəyir ki, biz Onun yaxşılığını bilək. Davud peyğəmbər Məzmurlarda deyir: "*Rəbb nə **yaxşıdır**!*" (Zəbur 100:5)

4) Dördüncü gün Allah dedi: *"Qoy göy qübbəsində gecəni gündüzdən ayıran çıraqlar olsun. Onlar işarələri, fəsilləri və günlərlə illəri göstərsin."* (Yaradılış 1:14) Allah sadəcə əmr etdi və **günəş, ay və ulduzlar** səmada peyda oldurlar. Sonra yer günəş ətrafında fırlanmağa, ay isə yer ətrafında fırlanmağa başladı.

**Dünyadakı bütün bu şeyləri yaratmaq üçün Allah nədən istifadə etdi?** Müqəddəs Yazılar nə deyir? Orada yazılıb:

"*Kainat **Allahın kəlamı ilə** yarandı, beləcə də görünən şeylər görünməyənlərdən törədi.*" (İbranilərə 11:3) "*Başlanğıcda **Kəlam** var idi. Kəlam Allahla birlikdə idi. Kəlam Allah idi. O, başlanğıcda Allahla birlikdə idi. Hər şey **Onun vasitəsilə** yarandı və yaranan şeylərdən heç biri Onsuz yaranmadı.*" (Yəhya 1:1-3)

Biz artıq gördük ki, birinci gün Allah sadəcə **dedi**: *"Qoy işıq olsun!"* və işıq oldu. İkinci gün Allah **dedi**: *"Qoy boşluq olsun!"* və boşluq oldu. Üçüncü gün Allah yenidən **danışdı** və nə danışdısa o həyata keçdi. Beləliklə, Allah dünyada olan hər şeyi yaratmaq üçün nədən istifadə etdi? Allah öz Sözündən başqa heç nədən istifadə etmədi! Etdiyi yegane şey danışığı idi və nə dedisə hamısı yerinə yetdi. Allah hər şeyi Öz Sözü ilə yaratdı. Müqəddəs Yazılar deyir ki, Allah hər şeyi **Öz Qüdrətli Sözü** ilə ancaq yaratmadı, həmdə birlikdə saxlayır. Ayın və günəşin öz vaxtında səmada peyda olması **Allahın sözünün qüdrəti** ilədir. Günəşin müəyyən vaxtda çıxması və batması Allahın əmri ilədir. Sadəcə fikirləş, günəşin sabah çıxıb ya çıxmayacağını bilməmək gör necə də çətin olardı! Müqəddəs Yazılar deyir: ***"Allah sadiqdir!"*** (1 Korinflilərə 1:9) Ona etibar etmək olar. O heç vaxt sözünü geri götürmür. O heç vaxt dəyişmir. *"Rəbbin kəlamı isə **əbədi** qalır."* (1 Peter 1:25)

5) Beşinci gün, Allah çoxlu və hər növ **balıqlar və quşlar** yaratdı. Müqəddəs Yazılar deyir:

*"Qoy sular çoxlu canlı məxluqlarla qaynaşsın, yer üstündəki göy qübbəsində quşlar uçsun. Allah nəhəng su əjdahalarını və suda qaynaşan hər növ bütün sürünən canlı məxluqları, həmçinin hər növ bütün qanadlı quşları yaratdı. Allah gördü ki, bu yaxşıdır. Allah onlara bərəkət verərək dedi: "Törəyib çoxalın və dənizlərdəki suları doldurun, quşlar da yer üzündə çoxalsın." Axşam oldu, səhər açıldı; bu beşinci gün idi."* (Yaradılış 1:20-23)

6) Altıncı gün haqqda isə Müqəddəs Yazılar deyir ki, Allah **heyvanları və insanı** yaratdı. Bu mühüm hadisəni biz indi başa salmayacağıq. Rəbbin izni olsa, gələn dərsdə, Allahın **necə** və **nə üçün** ilk insanı yaratması haqqında Müqəddəs Yazıları nəzərdən keçirəcəyik.

Bu gün biz, **Allahın yaxşılığını** nəzərdən keçirdik. Biz oxuduq ki, Allahın peyğəmbəri Davud belə yazmışdı: *"Dadın, görün Rəbb nə qədər şirindir."* (Zəbur 34:8) Dostlar, siz həqiqətən Allahın yaxşılığını dadmısınız? Hər gün biz Allahın verdiyi müxtəlif cür yeməkləri yeyirik amma həqiqətən biz Allahın yaxşılığını "dadmışıq"? Əgər sən doğurdan da Allahın yaxşılığını dadmaq istəyirsənsə, onda sən Allahın Sözünə qulaq asmalısan və inanmalısan. Müqəddəs yazıalr deyir: *"İnsan yalnız çörəklə yaşamaz, lakin Allahın ağzından çıxan hər bir sözlə yaşar."* (Matta 4:4) Bizim sonrakı dərsimizdə, biz öyrənəcəyik ki, insan təkcə bədənə deyil, həm də ruha malikdir. Bizim ruhumuz Allahın Sözü ilə qidalanmalıdır. Allahın Sözü yaxşı və müqayisə edilməzdir. Amma biz onun üçün acmalıyıq. Sənin ruhun, mədənin yeməyə acması kimi, Allahı və Onun əbədi Sözünü dərk etmək üçün acmır? Əgər sən Allahın Sözü üçün belə acsan, bu dünyada Allah ilə kamil olan sülh və göylərdə çürüməyən miras verən Həqiqəti tapacaqsan! Biz bilirik ki, bu düzdür, çünki Allah Özü belə vəd edir: *"Salehliyə can atıb ona susayanlar nə bəxtiyardırlar! Çünki onlar doyacaqlar."* (Matta 5:6) Amin.

Diqqətinizə görə çox sağ olun. Biz çox istəyirik ki, gələn dərs siz Allahın ilk insanı necə yaratmasını və daha vacibi, onu nə üçün yaratmasını öyrənəndə bizə qoşulasınız....

Qoy Allah sizə xeyir-dua versin və Onun gözəl dəvətini heç vaxt unutmayasız:

***"Dadın, görün Rəbb nə qədər şirindir!"*** (Zəbur 34:8)

5-ci Dərs

# Allah İnsanı nə ÜçünYaratdı

**Yaradılış 1,2**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək və Ona itaət edək və həmçinin, Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gündə də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən proqramda  biz oxuduq ki, Allah göyləri, yeri, okeanları və onların içində olan hər şeyi yaratdı. Rəbb Allah Öz Sözündən başqa heç nədən istifadə edməyərək  hər şeyi altı günə yaratdı. Biz həmçinin gördük ki, nə üçün Allah dünyanı yaratdı. O bunu, Öz izzətinə görə yaratmağı  nəzərdə tutduğu adamlar üçün yaratdı. İnsanların həqiqi bolluqda yaşaması üçün gözəl və heyrətamiz yeri yaradan Allah necə də mərhəmmətlidir!

Bu gün biz, Müqəddəs Yazıları nəzərdən keçirməyi və həmçinin Allahın ilk insanı necə yaratmasını dəqiqliklə öyrənəcəyik. Rəbbin köməkliyi ilə, biz həmçinin Allahın insanı **nə üçün** yaratmasını başa düşməyə çalışacağıq. Tovratın Yaradılış kitabında, birinci fəsildə və iyirimi altıncı ayədə Allahın Sözü deyir:

*"Sonra Allah dedi: "Öz surətimizə və bənzərimizə görə insanı yaradaq. Qoy o, dənizdəki heyvanlara, göydəki quşlara, yerdəki heyvanlara, bütün yer üzünə və yerdə sürünən canlıların hamısına hökmranlıq etsin."**Allah insanı Öz surətində yaratdı, Allahın surətində yaratdı, Onları kişi və qadın olaraq yaratdı.**"* (Yaradılış 1:26,27)

Bu, hamının dərk etməsi vacib olan dərin və gözəl həqiqətdir: **Allah ilk kişi və qadını Öz surətində yaratdı!** Bu haqda düşün! Allah insanı Ona bənzəmək üçün yaratdı! Həqiqətən, insan Allahın yaratdığı digər məxluqlar arasında ən alisidir. Yalnız insan **Allahın** surətində yaradıldı.

Beləliklə, Allahın Sözü bununla nə demək istəyir: *"Allah insanı Öz surətində yaratdı"*? İkinci fəsil, yeddinci ayədə Müqəddəs yazı deyir: *"Rəbb Allah yerin torpağından insanı düzəltdi və onun burnuna həyat nəfəsi üfürdü. Beləcə insan canlı bir varlıq oldu."* (Yaradılış 2:7) Bu ayədə biz görürük ki, Allah ilk insanı iki ünsürlə yaratdı: **cisim və ruh**. İnsan sadəcə fiziki varlıq deyil. Onun cismi və ruhu var. Allah insanı iki mərhələdə yaratdı: Müqəddəs Yazıların nə dediyinə yenidən qulaq as:  **Birinci**: "*Rəbb Allah yerin torpağından insanı düzəltdi*" **ikinci**: "*Onun burnuna həyat nəfəsi üfürdü. Beləcə insan canlı bir varlıq oldu.*"

Bu Yazılardan biz öyrənirik ki, Allah insanı yaradanda, O birinci cismani bədən yaratdı. Nə üçün Allah bədəni birinci yaratdı? O bədəni birinci yaratdı ki, insanın ruhunun yaşaması üçün yer olsun. Sən heç bilirsənmi ki, sənin bədənin sənin evindir, ruhunun yaşadığı müvəqqəti "çadır"dır? Müqəddəs yazı belə öyrədir: *"evimiz olan bu dünyəvi çadır"* (2 Korinflilərə 1:5) Allah insan bədənini yaratdı ki, ruhu orada yaşasın.

Allah insan bədənini birinci nə ilə yaratdı? Müqəddəs yazılar deyir ki, Rəbb bunu yerin torpağından yaratdı. Yaşadığımız bu müasir dövrdə biz bilirik ki,  yerin torpağı təqribən 20 kimyəvi maddədən ibarətdir. Alimlər deyirlər ki, həmən o 20 kimyəvi maddələr insan bədənində də var. Buna görə də Davud peyğəmbər Məzmurlarda yazdı: *"Çünki necə*

*yarandığımızı bilir, torpaqdan düzəlməyimizi unutmur!"* (Zəbur 103:14) Bəli, bədən torpaqdan yaranıb, amma bu o deməkdeyil ki, dəyəri yoxdur! İnsan bədənində yeddi min-min-min-min-dən (yəni 70 trilyon) çox hissələr var ki, biz bunu hüceyrə adlandırırıq. Bütün o hissələr bir-birinə hörülüb və kamil ahəngdə işləmək üçün düzəldilib. İnsan bədəni möcüzədir! Bizim bədənimizdə Allah beyin, ürək, ağ ciyərlər, mədə, qara ciyər, bağırsaq, sümüklər, əzələ, dəri, gözlər, burun, ağız və daha artıq heyrətləndirici üzvlər yerləşdirib. Hər bir üzv öz vəzifəsini "bilir". Yalnız Allah bunu yarada bilərdi! Buna görə də Davud peyğəmbər yazdı: *"Sən məni ecazkar, əsrarəngiz yolla yaratmısan, ona görə şükür edirəm. Nə qədər xariqəli işlər görmüsən! Bunu ürəkdən yaxşı dərk edirəm!"* (Zəbur 139:14)

Bəli, insan bədəni təsviredilməz qədər ecazkardır! Amma **bədəni** Allah Öz surətində yaratmışdı? Xeyir! Bu ola bilməz. Çünki Allah ruhdur. Allah insanın fiziki formasını Öz surətində yaratmadı. Bəs onda Müqəddəs Yazılar *"Allah insanı* ***Öz surətində*** *yaratdı"* deməklə nə demək istəyir? Bu o deməkdir ki, Allah **insanın ruhunu** öz surətində yaratdı.

Biz artıq nəzərdən keçirdik ki, Allah birinci bədəni yerin torpağından yaradanda, o cansız idi. Nə üçün Allah ruhu ora yerləşdirməzdən əvvəl, birinci insanın bədənin yaratdı? Nə üçün Külli-İxtiyar Allah, insanı başqa məxluqları yaratdığı kimi sadə bir yolla yaratmadı? Bəlkə Allah bunu ona görə etdi ki, bizə öyrətsin ki, insanın özlüyündə heç bir gücü yoxdur. İnsan özünə həyat verə bilməz və yaşayan heç bir şeyi yarada bilməz. Allah, Həyatın Rəbbidir və həyat yalnız Ondadır. Həyat insandan gəlmir; bu Allahın hədiyyəsidir! Müqəddəs Yazılar deyir: *"Rəbb Allah onun burnuna həyat nəfəsi üfürdü. Beləcə insan canlı bir varlıq oldu."* Allahın yaratdığı bədən yaşamağa başladı. Nə üçün o canlandı? Çünki Allah, Həyatın Rəbbi ona can verdi! Allah Öz həyatından cansız bədənə üfürdü. Allahda olan həyat indi insanda idi. Beləliklə, insan yaşayan canlı varlıq oldu.

Beləliklə, Allah Öz surətində nəyi yaratdi? **Ruhu**! Allah insanın ruhunu Öz surətində yaratdı! Sən heç bilirdinmi ki, Allahın Ruhuna aid olan müəyyən xüsusiyyətlər, insan ruhunda da var? Bu dərsi yekunlaşdırmazdan əvvəl biz istəyirik ki, Allahda və insanda olan üç xüsusiyyəti nəzərdən keçirək. Allahla eyni olan bu üç xüsusiyyət haqqında düşündükcə biz Müqəddəs Yazıların belə dediyini daha yaxşı başa düşə bilərik: *"Allah insanı Öz surətində yaratdı."* Allahın insanın ruhunda yerləşdirdiyi üç xüsusiyyət bunlardır:

Birinci: Allah insana **ağıl** verdi ki, o **Allahı tanısın**.

İkinci: Allah insana **ürək** verdi ki, **Allahı sevsin**.

Üçüncü: Allah insana **iradə** verdi ki, **Allaha itaət etsin**.

Ağılın, ürəyin və iradənin sahibi Allah olduğu üçün, O, insanın canında ağılı, ürəyi və iradəni yerləşdirdi. Gəlin görək bunlar nə deməkdirlər.

1) Birinci, Allah insana Onu dərk etmək qabiliyyətinə malik olan ağıl və düşüncə verdi. Allah insanı belə qüdrətli ağıl ilə yaratdı ki, Onunla yaxın ünsiyyətdə olsun. Allahın peyğəmbəri İbrahimin həyatı haqqında oxuyanda biz görəcəyik ki, o ***Allahın dostu*** adlandı. İbrahim Allahı şəxsən tanıyırdı və Onunla ruhən yaxın ünsiyyəti var idi. Allah ancaq İbrahimə dostu olmaq şərəfini vermir, biz də "**Allahın dostları**" ola bilərik. Allah istəyir ki, biz Onunla yaxın ünsiyyətdə olaq. Ona görə də, insanın canında O, ağıl yerləşdirib ki, Allahın ruhu ilə həmahəng ola bilsin.

Bəlkə biz  sual ilə dediklərimizi aydınlaşdıra bilərik. İnsanı heyvandan nə fərqləndirir? **Ağıl**. İnsanın ağlı və ruhu, heyvanın ağlından çox fərqlidir. Nə üçün heyvan bu proqramı başa düşə bilməz? Çünki onlarda bizdə olan kimi ağıl yoxdur. Dostlar, nə üçün siz bu sözləri başa düşürsünüz? Çünki bizdə eyni ağıl, insan ağlı var. Oxşar yolla insanın ruhu da Allahın Ruhu ilə uyğunlaşmaq üçün yaradılıb.

Əlbəttə, bunu deməklə biz düşünməməliyik ki, bizim ağlımız müdriklikdə və bilikdə Allahın ağlı ilə bərabərdir. Heç vaxt! Allahın müdrikliyi dərindir və Onun biliyi insan müdrikliyini ötüb keçir. Biz bunu başa düşməliyik: Allah insana, Canlı Allahla mənalı ünsiyyətdən həzz almaq imkanı olan ruh verib. Allah istəmir ki, sən Onu tanımayan heyvanlar kimi olasan! Heyvanın beyni var amma Allah haqqında fikirləşə bilmir. Heyvanın ağzı var amma o, onu gündəlik təmin etdiyi yemək üçün Allaha  minnətdarlıq edə bilmir. Onun gözləri var, amma Müqəddəs Yazıları oxuya bilmir. Onun qulaqları var, amma Allahın Sözünə qulaq asa bilmir. Lakin Allahın surətində yaradılan insan Rəbb Allahı tanıya bilər. Bəli, sən bu gün **Allahı tanıya bilərsən**! Əgər sən Onun yaratdığı qurtuluşun saleh yoluna inansan və onu qəbul etsən, öz Yaradanınla gözəl ünsiyyətə malik ola bilərsən.  Gələn dərslərimizdə biz, Allahın qurtuluş yolunu daha aydın başa salacağıq. Amma bu gün biz başa düşməliyik ki, Allah insana Onu tanımaq qabiliyyətinə malik olan ruh verib.

2) Allah insanı Öz surətində yaradanda, O insanın canında başqa bir şey də yerləşdirdi. **Ürək**. Allah insana ürək verdi ki, o Allahı **sevə bilsin**. Biz qan ötürən orqan haqqında danışmırıq. Öz **canında, hisslərində və fikirlərində hiss etdiklərin** haqqında danışırıq. Biz sənin ürəyinin niyyətləri haqqında danışırıq. Allah ilk insana, Özünün  hiss etdiyi emosiyaları hiss etmək qabiliyyəti verdi. Allah sevə bilir, nifrət edə bilir, sevinə bilir, kədər və mərhəməti hiss edə bilir. Buna görə də, Allah insanın canında sevmək və nifrət etmək hisslərinə malik olan  ürək yerləşdirib. Allah istəyir ki, insan Allahın sevdiyini sevsin və Allahın nifrət etdiyinə nifrət etsin. Allah istəyir ki, biz Onu bütün ürəyimizlə sevək. Buna görə də Allah insanı Öz surətində yaratdı və ona ürək verdi.

3) Allah Öz surətində yaratdığı insana daha bir şey də verdi. Bu **iradə** idi.  Allah hər bir şəxsə izn verir ki, **öz yolunu seçsin**. Allahın Özündə  nə edəcəyi və ya nə etməyəcəyi haqda səlahiyyət var. Beləliklə, Allah insanları Özü üçün mühüm seçimlər etmək üçün  ixtiyarlı və məsuliyyətli yaratdı.  O, insanı elə yarada bilərdi ki, Onun iradəsini mexaniki olaraq edə bilərdi və heç bir seçimi olmazdı. Amma Allah insana azad iradə və məsuliyyət verdi ki, Allaha itaət edib-etməməyini  seçsin. O, insanı sadəcə robot kimi yaratmaq istəmədi. Allah insanı hər gün çıxan günəş kimi yaratmadı. Günəş hər gün "mexaniki olaraq" Allahın iradəsini yerinə yetirir.  İnsan isə belə deyil. **İnsan xüsusi yaranışdır.** Allah bizi Özü üçün yaratdı, və istəyir ki, biz Onu sevməyi və Ona ibadət etməyi seçək. Allah insana böyük məsuliyyət verib! İnsanın özü seçməlidir Allahın ardınca getsin, yoxsa Şeytanın. Allahın Sözünü sevsin, yoxsa nifrət etsin. Allah heç kimi məcbur etməyəcək ki, Onun Sözünə inansın. O bizi heç vaxt məcbur etməyəcək ki, Onu sevək və Ona itaət edək. Sevgi əgər məcbur edilirsə, onda bu sevgi deyil. Allah bizə imkan verir ki, hansı yolla gedəcəyimizi özümüz seçək. Amma axırda Allah, Onun padşahlığını rədd edən hər bir kəsi mühakimə edəcəkdir. Çünki Allah insanları **Özü üçün** yaratmışdı.  Bunu Müqəddəs Yazılar deyir.

Biz bu yer üzündə Allaha görəyik. Biz burada özümüz üçün, pulumuz üçün və ya digər şeylər üçün deyilik. **Allah bizi Özü üçün, Öz  məmnunluğu və izzəti üçün  yaratdı.** Allah bizi Onu tanımaq, Onu sevmək və əbədi olaraq Ona itaət etmək qabiliyyəti ilə yaratdı! Bəli....əbədi olaraq! Əbədi olan Allah bizim hamımıza əbədi can verib. Bu Allahın iradəsidir ki, bu gün,

sabah və bütün əbədiyyət boyu Onunla bizim dərin və gözəl münasibətimiz olsun. Bu səbəbə görə də Allah insanı öz surətində yaratdı.

Allahın insan üçün olan niyyətini xatırladan Müqəddəs Yazılardan bu ayələrə qulaq as: *"Allahımız Rəbb, bir olan Rəbbdir! Və Allahın olan Rəbbi bütün ürəyinlə, bütün canınla, bütün düşüncənlə və bütün qüvvətinlə sev."* (Mark 12:29,30)

Bizi dinlədiyiniz üçün çox sağ olun. Allah izn versə, gələn proqramda biz ilk insanlar, Adəm və Həvva haqqında öyrənəcəyik.

Qoy Allah sizə xeyir-dua versin və indiyə qədər deyilən ən böyük əmrin vacibliyini və mənasını anlamaq üçün qözüaçıqlıq versin.

***"Allahın olan Rəbbi bütün ürəyinlə, bütün canınla, bütün düşüncənlə və bütün qüvvətinlə sev."*** (Mark 12:30)

6-cı Dərs

# Adəm və Həvva və Cənnət Bağı

**Yaradılış 2**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və, Onunla həmişəlik əbədi sülhdə olaq. *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Başlanğıcda nə baş verdiyi haqda dərslərimizi davam etdiririk. Bu dərsdə biz Adəm və Həvva və onların yerdəki ilk günü haqqda öyrənəcəyik.

Biz artıq Tövratda oxuduq ki: *"Altı gün ərzində Rəbb göyləri və yeri, dənizi və kainatdakı hər şeyi yaratdı."* (Çıxış 20:11) Biz həmçinin altıncı gündə Allahın insanı necə yaratmasını da nəzərdən keçirdik. Allah insanı **bədən və canla** yaratdı. Allah insanın bədənini yerin torpağından yaratdı və sonra orada əbədi can yerləşdirdi. Allah insanın canını Öz surətində yaratdı. Bu deməkdir ki, Allah insanın canında xüsusi **ağıl** yerləşdirdi ki, insan **Allahı tanıya** bilsin. Allah insana qəlb verdi ki, Onu sevə bilsin. O həm də **iradə** verdi ki, **itaət etməyi** ya da ki, Ona qarşı çıxmağı seçsin.

İlk insanı yaradandan sonra, yaradılış işindən dincəlməzdən əvvəl O, başqa şeylər də etməli idi. Həmin işlər haqqında biz bu gün öyrənəcəyik. Gəlin Tövratı oxumağı davam edək. Yaradılış kitabının 2-ci fəsil, 7-ci ayəsi ilə başlayaq. Müqəddəs Yazılar deyir:

*"Rəbb Allah yerin torpağından insanı düzəltdi və onun burnuna həyat nəfəsi üfürdü. Beləcə insan canlı bir varlıq oldu. Sonra Rəbb* ***Allah şərqdə yerləşən Edendə bir bağ saldı və düzəltdiyi insanı orada yerləşdirdi****."* (Yaradılış 2:7,8)

Müqəddəs Yazılar bizə Allahın yaratdığı adamlar üçün necə gözəl yer hazırladığı haqqda danışır. Bağ Eden və ya Cənnət Bağı adlanırdı. Bəzi adamlar fikirləşir ki, Allahın ilk adamları yerləşdirdiyi bu bağ göylərdə idi. Amma Müqəddəs Yazılar bizə göstərir ki, bu yerdə yerləşirdi. Allahın peyğəmbərlərinin Yazıları yerdə yerləşən Eden Bağını və göylərdə, Allahın hüzurunda olan Cənnəti heç vaxt qarışdırmır.

Müqəddəs Yazılar deyir:
*"Rəbb Allah torpaqda gözəl görünüşlü və yemək üçün şirin meyvəli cürbəcür ağaclar yetirdi. O həmçinin bağın ortasında həyat ağacını və xeyirlə şəri bilmə ağacını bitirdi. Bağı suvarmaq üçün Edendən bir çay çıxırdı, oradan isə dörd qola bölünürdü.... Rəbb Allah insanı götürüb Eden bağına qoydu ki, oranı becərsin və saxlasın."* (Yaradılış 2:9,10,15)

Beləliklə biz görürük ki, Allah ilk insan, Adəmə həqiqi bolluqda yaşamaq üçün gözəl yer verdi. Allah onu, görünüşü gözəl və yemək üçün dadlı meyvələri olan ağacları ilə dolu möhtəşəm bir bağda yerləşdirdi. Bu heyrətamiz yerdə hər şey mükəmməl və gözəl idi. Adəmin hissləri canlı idi; onun gözləri gözəllikləri görür, onun qulaqları ağaclarda oxuyan quşların nəğmələrini duyur və onun hissləri bağa yayılan güllərin qoxusunu canına çəkirdi. Allah Adəmə onun zövgunu oxşamaq üçün hər şey verdi. Biz burda oxuyuruq ki, Allah Adəmə məmnun olması üçün bağın qayğısına qalmaq tapşırığını da verdi.

Eden bağında baş verən ən gözəl şey o idi ki, günün sərinliyində, Allahın Özünün, Öz surətində yaratdığı adam ilə danışmaq üçün bağa gəlməsi idi. (bax Yaradılış 3:8) Nə üçün Allah Adəmə baş çəkməyə gəlirdi? Allah Adəmə ona görə baş çəkirdi ki, **O insanı Özü ilə ünsiyyət üçün**

**yaradıb.** Allahın məqsədi o idi ki, O və insanlar birgə ünsiyyətə, söhbətə, sevincə malik ola bilsinlər və əbədiyyəti eyni fikir və bir ürəklə keçirsinlər. Bəli, Allah istəyirdi ki, insan Onunla həmişəlik dərin və gözəl münasibətdə böyüsün.

İndi isə, Allahın ilk insanı yerləşdirdiyi bağ haqqında başqa bir şey bilməliyik. Bağın ortasında, Allah iki mühüm ağac əkdi. Biri *həyat ağacı* idi, digəri isə *xeyirlə şəri bilmə ağacı*. Müqəddəs Yazıların nə dediyinə qulaq as: *"Allah insana əmr edib dedi, "Bağdakı bütün ağacların bəhrəsindən* ***istəyəndə yeyə bilərsən****. Ancaq xeyirlə şəri bilmə ağacının* ***meyvəsindən yemə,*** *çünki ondan yeyən gün hökmən öləcəksən."* (Yaradılış 2: 16, 17)

Nə üçün Allah xeyiri və şəri bilmə ağacından yeməyi Adəmə qadağan etdi? Allah simicdir? Xeyir! O simic deyil! Əslində Onun adlarından biri "Səxavətlə verəndir!" (Yaqub 1:5) Allah Adəmə dedi, "Sən bütün ağaclardan yeyə bilərsən....birindən başqa." Bu çətin əmr idi? Xeyir, deyildi. Allah, Öz lütfü ilə Adəmə xoşbəxt olması üçün hər şey vermişdi. Heç bir yaxşı şeyi ondan əsirgəməmişdi. Amma Allah, Öz kamil planında Adəmin qarşısında sadə sınaq yerləşdirdi. O Adəmə imkan versin ki, Allahı sevdiyini Onun əmrinə itaət etməklə göstərsin. Rəbb Allahın Öz Sözündə dediyi kimi: *"Kim Məni sevərsə, sözümə riayət edər....Məni sevməyən, sözlərimə riayət etməz."* (Yəhya 14:23,24) Allah Adəmin sevgisini və sadiqliyini yoxlayırdı. Ona görə də ona bu sadə əmri verdi. Allah insanı robot kimi yaratmadı. O, insanı ağıl, ürək və azad iradə ilə yaratdı ki, Allahı sevməyi və Ona itaət etməyi seçə bilsin.

Allah Adəmə qadağan olunmuş ağacdan yesə nə baş verəcəyi haqda nə dedi? Gəlin Müqəddəs Yazıları yenidən oxuyaq. Allah dedi: *"Ancaq xeyirlə şəri bilmə ağacının* ***meyvəsindən yemə,*** *çünki ondan yeyən gün hökmən öləcəksən!"* Beləliklə, Allah Adəmə xəbərdarlıq etdi ki, Onun əmrinə itaətsizlik ölüm törədəcəkdir. Allah Öz yaratdığı adamı çox sevirdi; ona görə də bu sözləri deyərək ona xəbərdarlıq edirdi: Adəm, əgər sən itaət etməsən, öləcəksən. Çünki müqəddəs qanunum bunu tələb edir: "*günah işlədən adam öləcək.*" (Yezekel 18:20)

Bəlkə kimsə soruşa bilər: günah nədir? Müqəddəs Yazılar deyir: "*Qanunsuzluq günahdır."* (1 Yəhya 3:4) "*Hər cür haqsızlıq günahdır.*" (1 Yəhya 5:17) *"Yaxşılıq etməyi bilən, amma etməyən, günah işlədir."* (Yaqub 4:17) Allahla razılaşmayan hər bir şey günahdır. **Allaha qarşı günah edənlərlə nə baş verəcək?** Allahın sözü deyir: *"Günah işlədən adam öləcək."* (Yezekel 18:20). Başqa bir ayədə isə deyilir, *"günahın əvəzi* ***ölümdür.****"* (Romalılara 6:23) **Ölüm nədir?** Bəziləri fikirləşir ki, ölüm bir daha mövcud olmamaqdır; hər şey bitib və sən daha heç nə bilmirsən. Amma əgər biz Peyğəmbərlərin Yazılarına etibar etsək, onda biz bunun ölüm olmadığını görəcəyik. Müqəddəs Yazılarda, İbrani dilində belə yazılıb: ölüm **ayrılığı** göstərir. Ölüm həyatdan ayrılmaq deməkdir.

**Allah Adəmə deyəndə:** "Xeyirlə şəri bilmə ağacının meyvəsindən yemə, çünki ondan yeyən gün hökmən öləcəksən." Allah bunu deyirdi: Adəm, əgər sən Mən qadağa etdiyim ağacdan yesən, həmən gün sən öləcəksən. Yəni, sən **Məndən ayrı düşəcəksən.** Əgər mənə itaət etməsən, Mənimlə bir daha yaxın münasibətdə ola bilməzsən. Mən müqəddəsəm, Mən günaha və Mənim yolumu rədd edənə dözə bilmərəm. Mən şeytanı və onun mələklərini günah edəndə qovdum. Əgər sən günah etsən, Mən səni də qovacağam. Əgər sən qadağa olunmuş bu ağacdan yesən, **sənin bədənin** qocalmağa başlayacaq və nəhayət öləcək. Yəni ki, canın bədənini tərk edəcək. Və bu hamısı deyil. Əgər sən Mənə itaət etməsən, yalnız sənin bədənin ölməyəcək, hətta **sənin canın** belə Şeytan və onun mələkləri üçün yaradılmış yerə gedəcək. Həmin yerdə sən Məndən həmişəlik və əbədilik ayrı düşəcəksən!

Beləliklə, biz görürük ki, günah üç dəhşətli ayrılığı gətirir. **Birinci**, sənin canın bu dünyada Allahdan ayrı olur. Bu o deməkdir ki, ürəyində olan günaha görə Müqəddəs olan Allahla

ünsiyyətin yoxdur. **İkinci,** sənin canın öləcəyin gündə sənin bədənindən ayrılacaqdır. Bu o deməkdir ki, sənin bədənin öləcək və sənin canın Allahla mühakimə üçün görüşəcək. **Üçüncü,** sənin **canın və bədənin od gölündə əbədilik Allahdan ayrı düşəcəkdir.**

Allahın Sözünün səlahiyyətinə əsasən, ölüm nədir? Qısaca, **ölüm - həyat mənbəyi olan Allahdan ayrı düşməkdir.** Günah insanı Allahdan ayırır. Allah müqəddəsdir və günahla bir yerdə ola bilməz. Günah edən can kəsilən və kənara atılan **ağacın budağı** kimidir. Budaq ağacın bir hissəsi olmayanda nə baş verir? Kəsilmiş budaq diri ola bilər? Xeyir, ölüdür! Yarpaqları birdən birə solmur amma onlar artıq ölməyə başlayıblar. Eyniylə, əgər sən Allahın təmin etdiyi günahların əhvini qəbul etməmisənsə, sən fikirləşə bilərsən ki, sən yaşayırsan amma Müqəddəs Yazıları deyir ki, Allahın qarşısında, sən *"təqsirlərin və günahların üzündən ölüsən."* (Efeslilərə 2:1) *"Lakin şər əməlləriniz Allahınızla sizin aranızda ayrılıq saldı."* (Yeşaya 59: 2) Sən beləsən: *"**Budaq kimi çölə atılan və quruyan**; və bu cür budaqlar yığılıb oda atılır və yandırılır."* (Yəhya 15:6)

Ağaca bağlı olmayan budaq heç bir meyvə gətirə bilməz. Günahlı insan da Allah qarşısında belədir. O, Allaha xoş olan heç bir şey edə bilməz. Çünki onun **həqiqi həyat Mənbəyi** olan **Allahla münasibəti yoxdur**. Günahkarlar yalnız Allahın ədalətli mühakiməsini gözləyə bilərlər. Buna baxmayaraq, Allah, Onun qarşısında necə saleh ola bilməyimizi və günahlarımızın yuyulduğundan əmin olmağımızı bəyan etmişdir. Bizim gələn dərslərimizdə biz bunu nəzərdən keçirəcəyik.

İndi isə gəlin bu fəslin qalan hissəsini oxuyaq. Müqəddəs Yazılar bizə Allahın ilk qadını yaratması haqqında deyir. Dinlə:

*"Rəbb Allah yenə dedi: «İnsanın tək olması yaxşı deyil, Mən ona münasib olan bir köməkçi yaradacağam». O zaman Rəbb Allah insana dərin yuxu göndərdi və o yuxuya getdi. Onda Rəbb Allah onun qabırğasının birini götürdü və yerini ətlə örtdü. Rəbb Allah insandan götürdüyü qabırğadan qadını düzəltdi və onu insanın yanına gətirdi. İnsan dedi: «Bax, nəhayət, bunun sümüyü mənim sümüyümdən, bədəni mənim bədənimdəndir. Adına "qadın" deyiləcək, çünki o, kişidən götürülüb». Buna görə də kişi öz ata-anasını tərk edib, qadınına qovuşacaq və onlar bir bədən olacaq. Adəm və arvadı - hər ikisi də çılpaq idi, ancaq bundan utanmırdılar.* (Yaradılış 2:18,21-25)

Beləliklə, biz görürük ki, **nigahı** Allah yaradıb. Allah bir kişi və bir qadın yaratdı ki, onalr bir-birlərini sevsinlər, həyatlarını bölüşsünlər və Allahı izzətləndirən xoşbəxt ailəyə malik olsunlar. Adəmi sevən Allah, istəyirdi ki, o tam xoşbəxt olsun. Ona görə də ona bu gözəl hədiyyəni: **həyat yoldaşını** verdi! Allah istəyirdi ki Adəm öz həyat yoldaşını sevsin, onun qayğısına qalsın və özünü sevdiyi kimi, onu da sevsin. Bundan daha vacib isə, Allah istəyirdi ki, kişi və qadın Onunla dərin münasibətdən zövq alsınlar. Onu tanısınlar, sevsinlər və əbədilik Ona itaət etsinlər. (bax Efeslilərə 5:21-33; 6:1-4)

Beləliklə, Allah Öz yaradılış işini bitirdi. Müqəddəs Yazılar deyir:

*"Allah gördü ki, yaratdığı hər şey **çox yaxşıdır**. Axşam oldu, səhər açıldı; bu altıncı gün idi. Göylər və yer, oradakı hər şey beləcə tamamlandı. Allah yeddinci günə qədər gördüyü işləri qurtardı və **yeddinci gün gördüyü işlərdən ayrılıb istirahət etdi**. Allah yeddinci günə bərəkət verdi və onu təqdis etdi, çünki gördüyü bütün yaratma işini qurtarıb həmin gün istirahət etdi."* (Yaradılış 1:31-2:3)

Nə üçün Allah yeddinci gündə dincəldi? Yorğun olduğuna görə? Xeyir. Allah heç vaxt yorulmur! Müqəddəs Yazılar deyir ki, Allah ona görə dincəldi ki, O "işini bitirmişdi!" Hər şey mükəmməl idi. Ona görə də Allah yeddinci gündə Öz işlərindən dincəldi. Buna görə də həftədə yeddi gün var.

Dostlar, bizi dinlədiyinizə görə çox sağ olun. Allahın izni ilə gələn dəfə biz, günahın dünyaya necə daxil olması haqqda öyrənəcəyik....

Onun Sözündən bu həqiqəti dərindən düşündükcə, qoy Allah sizə xeyir-dua versin:

***"Günahın əvəzi ölüm, Allahın ənamı isə ... əbədi həyatdır....!"*** (Romalılara 6:23)

7-ci Dərs

# Günahın Dünyaya Daxil Olması

**Yaradılış 3**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək , Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Keçən iki dərsimizdə biz, Allahın necə iki insanı yaratmasını öyrəndik. Müqəddəs Yazılar deyir, *"Allah insanı Öz surətində yaratdı, Allahın surətində yaratdı, onları kişi və qadın olaraq yaratdı."* (Yaradılış 1:27) Kişinin və qadının canının içərisində Allah, Onu tanımaq qabiliyyətinə malik olan ruh və Onu sevə bilən ürək yerləşdirdi. Allah onlara azad iradə verdi ki, Allaha itaət edib etməməyi özləri seçə bilsinlər. Biz gördük ki, Allah insanı yerdə, Eden adlanan Cənnət Bağında, gözəl bir Bağda yerləşdirdi. O, ilk kişi Adəmə və ilk qadın Həvvaya sülhdə və həqiqi bolluqda yaşamaq üçün lazım olan hər şeyi vermişdi. Allah istəyirdi ki, insanlar Onu tanısınlar, Onu sevsinlər və əbədi olaraq Ona ibadət etsinlər.

Beləliklə, biz gördük ki, Allah Öz kamil planını saxlayaraq, yaratdığı insan qarşısında sadə bir sınaq qoydu. Bağın ortasında, Allah xeyiri və şəri bilmə ağacı yerləşdirdi və insana əmr edərək dedi: *"Bağdakı bütün ağacların bəhrəsindən istəyəndə yeyə bilərsən. Ancaq xeyirlə şəri bilmə ağacının meyvəsindən yemə, çünki ondan yeyən gün hökmən öləcəksən."* (Yaradılış 2:16)

Nə üçün Allah Adəmi bu yolla sınayırdı? Allah Adəmin ürəyinin vəziyyətini göstərmək istəyirdi. Allah Adəmi günah etməyə səbəb olmaq  üçün yox, amma ona xeyir-dua vermək, onu gücləndirmək üçün sınağa çəkdi. Allah Adəmin qarşısında sınaq qoydu ki, onun sevgisini yoxlasın. Əgər Adəm sınağı keçib, Allaha itaət etsə, o sübut edəcək ki, Allahı ürəyində sevir. Əgər Adəm sınağa tab gətirsəydi və günaha qarşı dursaydı, bu sınaq onu gücləndirərdi, çünki Müqəddəs Yazılar deyir: *"Dözümdən Allaha xoş gəlmə, Allaha xoş gəlmədən ümid yaranır."* (Romalılara 5:4)

Bu gün biz, yaradılış Kitabının üçüncü fəslinə gəlmişik. Bu fəsil bizə günahın dünayaya necə daxil olmasını göstərir. Əgər biz bu fəsil ilə tanışıqsa, onda biz bilirik ki, nə üçün insanın ürəyi hiyləgərdir, pis niyyətlidir. Və nə üçün dünya əzab və ağrı ilə doludur.

Biz artıq gördük ki, başlanğıcda, Adəm və Həvva bütünlüklə kifayətləndikləri və zövq almaqları üçün hər şeyin olduğu Cənnət bağında idilər. Bunların hamısından ən gözəli isə, günün sərinliyində Adəm və Həvva ilə söhbət etmək üçün hər **gün Rəbb Allahın bağa gəlməsi idi**. Allah ona görə onlara baş çəkirdi ki, onlarla mənalı və gözəl münasibəti olsun.

Amma Müqəddəs Yazılar deyir ki, bağda daha bir şəxs var idi. Bilirsiz bu kim idi? Bu şeytan idi. Allahın düşməni, iblis. Allah dünyanı və onun içində olan hər şeyi yaradanda, şeytan müşahidə edirdi. Allah Adəmə əmr edəndə ki, xeyiri və şəri bilmə ağacından yeməsin, şeytan qulaq asırdı. Və o sadəcə müşahidə edib qulaq asmırdı, Allahın gözəl işini korlamaq üçün plan cızırdı. Şeytan, Allahın yaratdığı insanı azdırmağı planlaşdırırdı ki, o Allaha itaət etməsin, günah işlətsin, Allahdan ayrı düşsün və məhv olsun! Allah isə şeytanın bütün planlarını bilirdi amma Adəm və Həvva bu haqqda heç nə bilmirdilər.

Bir gün, Adəm və Həvva qadağan olunmuş ağaca yaxın yerdə durmuşdular. Şeytan ilan cildində gəldi və onlarla danışmağa başladı. Beləliklə, Müqəddəs Yazılar deyir: *"Rəbb Allahın*

*yaratdığı bütün çöl heyvanlarının ən hiyləgəri ilan idi. İlan qadına dedi: "Doğrudanmı, Allah siz "bağda olan heç bir ağacın bəhrələrindən yeməyin" deyib?"* (Yaradılış 3:1)

Nə üçün şeytan ilan cildində özünü göstərdi? Müqəddəs Yazılar bizə belə cavab verir: *"Rəbb Allahın yaratdığı bütün çöl heyvanlarının ən hiyləgəri ilan idi."* Şeytan azdırandır və buna görə də özünü çox müdrik kimi təqdim etdi. Şeytan, Adəm və Həvvanın yanına böyük, qırmızı bir əjdaha kimi gəlib belə demədi, "Sülh olsun sizə! Adəm və Həvva. Mən iblisəm. Allahın düşməni! Mən bu gün sizi həyat mənbəyi olan Rəbbdən, Allahdan döndərmək üçün yoldan çıxartmaq üçün gəldim ki, siz həmişəlik məhv olasınız!" Şeytan belə etmədi! Bəs onda o onlara nə cür göründü? Gözəl və müdrik bir məxluq kimi. O onlarla ilan vasitəsilə danışmağı seçdi. Çünki günah dünyaya daxil olmazdan əvvəl, ilan bütün heyvanlardan ən hiyləgəri idi.

Şeytan indi də elədir. O çevikdir. O, adətən nə təqdim edirsə, yaxşı bir şey kimi təqdim edir. Müqəddəs Yazılar deyir: *"İblis də işıq mələyi cildinə girir."* (2 Korinflilərə 11:14) Buna görə də, Allah bunu deyərək bizə xəbərdarlıq edir: "Yalançı peyğəmbərlərdən özünüzü gözləyin! Onlar yanınıza quzu cildində gələrlər, amma daxilən yırtıcı qurddurlar." (Matta 7:15) Şeytan yalançıdır. Ona görə də o, Adəm və Həvvaya ağıllı ilan cildində görsəndi. Ona görə də, o Həvva ilə danışmaq istədi nəyinki Adəmlə. Çünki o fikirləşdi ki, Həvvanı aldatmaq daha asan olar. Şeytan bilirdi ki, ağac barədə əmri Allah Həvvanı yaratmazdan əvvəl Adəmə vermişdi. Buna baxmayaraq Həvva da Allahın əmrini bilirdi. İblis ağıllıdır və o nə əldə etmək istədiyini dəqiq bilirdi. Şeytan fikiləşdi ki, əgər o xeyiri və şəri bilmə ağacından yemək üçün qadını yola gətirsə, bəlkə Adəm də Allaha itaət etməyərək onun etdiyini edəcəkdir.

Beləliklə, Müqəddəs Yazılar deyir: "İlan qadına dedi: "Doğurdanmı, Allah sizə 'bağda olan heç bir ağacın bəhrələrindən yeməyin' deyib?" Siz görürsüz şeytan nə etməyə çalışırdı? O, Allahın Sözünə əminlik haqqında Həvvanın beyninə şübhə salmağa çalışırdı. Buna görə o dedi: *"Allah....dedi? Allah **doğurdanmı** dedi...?*" Şeytan hələ də bu üsuldan istifadə edir. O, Həqiqət Sözünə qarşı vuruşur. Çünki o bilir ki, Allahın Sözündə onu məhv edən və nüfuzdan salan güc var. O bilir ki, nur qaranlığı qovduğu kimi, həqiqət də yalanı qovur.

Indi isə gəlin qadın ilə iblis arasındakı söhbətə baxaq. Müqəddəs yazılar deyir:

*"Qadın ilana dedi: «Bağdakı ağacların bəhrələrindən yeyə bilərik. Amma bağın ortasındakı ağacın meyvələri barədə Allah deyib: "Ondan yeməyin və ona toxunmayın, yoxsa öləcəksiniz!"» İlan qadına dedi: «Yox, əsla ölməzsiniz. Əksinə, Allah bilir ki, o meyvələrdən yediyiniz gün gözləriniz açılacaq və xeyirlə şəri bilərək Allah kimi olacaqsınız»."* (Yaradılış 3:2-5)

Bu heyrətamizdir! Əgər qadağan olunmuş meyvədən yesəydilər, Adəm və Həvvaya nə baş verəcəyi haqqda Allah nə demişdi? O dedi, *"Sən **öləcəksən**!"* Şeytan nə dedi? O dedi: *"Sən **ölməyəcəksən**!"* Beləliklə, şeytan Allahın Sözünə şübhə gətirməklə dayanmadı, o hətta onu inkar etdi! Sən bu haqqda nə fikirləşirsən? Kim həqiqəti danışırdı? Allah yoxsa şeytan? Müqəddəs yazılar deyir ki, Allah heç vaxt yalan demir. Şeytanda isə həqiqət yoxdur, *"Onda həqiqət yoxdur. Yalan söylədiyi zaman, öz xasiyyətindən söyləyir; çünki yalançıdır və yalanın atasıdır."* (Yəhya 8:44)

Amma biz yadda saxlamalıyıq ki, şeytan yalnız yalançı deyil. O həm də hiyləgərdir. O çevikdir; o düz olmayanı götürür və düz olanla qarışdırır. Biz bunu şeytanın Adəm və Həvvaya dediklərində görə bilərik, "o meyvələrdən yediyiniz gün gözləriniz açılacaq və xeyirlə şəri biləcəksiniz." Şeytan deyəndə ki, "siz Allah kimi olacaqsınız!" bu yalan idi. Çünki günah edən Allah kimi yox amma şeytan kimi ola bilər. Amma şeytan deyəndəki, "siz xeyirlə şəri

biləcəksiniz" o düzünü deyirdi. Çünki Adəm və Həvva günah işlədəndən sonra şərin nə olduğunu bildilər. Buna baxmayaraq, şeytan onlara bu biliyin gətirəcəyi acılıqlardan deməmişdi. Allah dedi, "əgər bu ağacdan yesəniz, öləcəksiniz!" Amma şeytan dedi, "əgər bu ağacın meyvəsindən yesəniz ölməyəcəksiniz!" Şeytan yalançıdır. Buna görə də Allah deyəndə ki, "sən öləcəksən!" şeytan bunu deyərək inkar etdi, "sən ölməyəcəksən!"

Artıq Adəm və Həvva üçün Allahın Sözü və Şeytanın sözü arasında seçim etmək vaxtı gəlib çatmışdır. Onların qarşısında seçim bu idi: Onlar Allahın Sözünə yoxsa Şeytanın sözlərinə inansınlar? Onlar həqiqəti yoxsa yalanı qəbul edsinlər? Onlar Nur Allahının ardınca gedəcəklər yoxsa zülmətin ?

Gəlin oxuyaq görək onlar hansı seçimi etdilər. Müqəddəs Yazılar deyir: *"Qadın gördü ki, ağacın meyvəsi yemək üçün yaxşıdır, gözə xoş görünür və bu ağac insana dərrakə verməyi vəd edir. Buna görə də o həmin meyvədən dərib yedi. Sonra yanında olan ərinə də verdi, o da yedi."* (Yaradılış 3:6)

Valehedici! Allah insanı Öz surətində yaratdı ki, o, Allahı tanıya bilsin, Onu sevə bilsin və əbədiyyət boyu Ona itaət etsin. Amma insan nə etdi? O Allahı kifayət qədər sevdi ki, Onun əmrinə itaət etsin? Xeyir! O, sevgi Allahına itaət etməməyi seçdi və Şeytanın, Allahın və insan düşmənin ardınca getməyi seçdi!

Bu necə də kədərli bir məqam idi! Bizim ulubabalarımız Adəm və Həvva qadağan olunmuş ağacın meyvəsindən yeməklə, Allahdan üz döndərdilər. Allahın Sözü deyir: *"Beləliklə, günah bir insan vasitəsilə, ölüm də günah vasitəsilə bu dünyaya gəldi. Beləcə ölüm bütün insanlara yayıldı, çünki hamı günah etdi!"* (Romalılara 5:12) Biz bunu istədik ya istəmədik, bu belədir!

"Ot öz kökü üstə bitər." Sən, mən və bütün insanlar Adəmə oxşayırıq. Biz günahlı doğulmuşuq və öləcəyik. Çünki biz Adəmdən törənmişik. Allahın əmrinə itaət etməyən ilk adam, bizim ulubabamızdır və biz də tamamilə ona oxşayırıq. Aramızda kim deyə bilər ki, mən həmişə Allahın əmrinə itaət etmişəm? Bizdən heç birimiz! Onda, Allahın əmrlərinə itaət etməyən bu təbiət bizə hardan gəlib? Adəmdən. Dəhşətli, keçici xəstəlik kimi, Adəmdə olan günah bizim hamımıza yayıldı. Həqiqətən, "bir çürük qoz, bir çuvalı bərbad edir."

Buna baxmayaraq, ümid hələ ölməyib. Çünki Allahın Sözü həmçinin bəyan edir: *"Deməli, necə ki bir təqsir üzündən bütün adamlar məhkum olundu, eləcə də bir saleh əmələ görə bütün adamlara yaşamaq üçün salehlik verildi."* (Romalılara 5:18) Gələcək dərslərimizdə Allahın yaratdığı, günahlı insanların Allaha qayıda biləcəyi saleh qurtuluş yolunu öyrənəcəyik.

Gələn dəfə, biz Adəm və Həvvanın salehlik yolundan uzaqlaşdıqdan və qeyri-salehlik yoluna getdikdən sonra nə baş verdiyini görmək üçün davam edəcəyik.

Bu təməl həqiqətini yadda saxlayarkən Rəbb sizə xeyir-dua versin:

***"Beləliklə, günah bir insan vasitəsilə, ölüm də günah vasitəsilə bu dünyaya gəldi. Beləcə ölüm bütün insanlara yayıldı, çünki hamı günah etdi."*** ( Romalılara 5:12)

8-ci Dərs

# Adəmin Günahı Nəyi Törətdi

**Yaradılış 3**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək və Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gündə də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Tövratı oxuyarkən biz öyrəndik ki, Rəbb Allah ilk insanları Öz surətində yaratdı. Biz Allahın onları nə üçün yaratdığını da öyrəndik. Allah istəyirdi ki, onlar Allahı bütün ağılları, ürəkləri və bütün qüvvələri ilə sevsinlər və nəticədə Onunla gözəl və dərin münasibətdən əbədiyyət boyu zövq alsınlar.

Beləliklə, biz gördük ki, Allah Adəmin Ona itaət etmək üçün kifayət qədər sevib-sevməmədiyini yoxlamaq üçün onun qarşısına **sadə bir sınaq** qoyur. İlk qadın yaradılmazdan qabaq Allah Adəmə əmr etmişdi: *"Bağdakı bütün ağacların bəhrəsindən istəyəndə yeyə bilərsən. Ancaq xeyirlə şəri bilmə ağacının meyvəsindən yemə, çünki ondan yeyən gün hökmən öləcəksən."* (Yaradılış 2:16, 17) Bununla Allah Adəmi sınadı və ona xəbərdarlıq etdi ki, itaətsizliyin əvəzi ölüm və Allahdan ayrı düşmə olacaqdır. Allah Adəmi sevirdi və istəyirdi ki, onlar Onunla həmişə ünsiyyətdə qalsın. Amma ötən dərsimizdə biz oxuduq ki, Adəm və Həvva iblisə qulaq asdılar və Allahın qadağan etdiyi ağacın meyvəsindən yeməklə **Allaha itaətsizlik etdilər**.

İndi biz, **Adəm və Həvvanın Allaha qarşı günah işlədəndən sonra nə baş verdiyini** görmək üçün Tövratda, Yaradılış kitabının 3-cü fəsilini öyrənməyi davam etdiririk. Müqəddəs Yazılarda yeddinci ayədə deyilir: *"**O vaxt** ikisinin də gözləri açıldı və çılpaq olduqlarını bildilər. Buna görə də əncir yarpaqlarını bir-birinə hörüb özlərinə fitə düzəltdilər."* (Yaradılış 3:7)

Allaha itaətsizlik edəndən sonra, Adəm və Həvvanın etdiyi ilk şey nə idi? **Onlar öz ayıb və təqsirlərini örtməyə çalışdılar.** Biz artıq öyrəndik ki, Adəm və Həvva xeyiri və şəri bilmə ağacından yeməzdən əvvəl onların "*ikisi də çılpaq idi, ancaq bundan utanmırdılar."* (Yaradılış 2:25) Amma indi onların öz bədənləri haqqında fikirləri dəyişdi. İndi onları mühakimə edəcək Müqəddəs Olanın qarşısında təqsirkar və utancaqlıq hiss etdilər. Beləliklə öz təqsirlərini gizlətmək üçün onlar əncir ağacından yarpaqları hörüb, öz çılpaqlıqlarını örtdülər. Buna baxmayaraq, bədənləri üçün yarpaqdan düzəltdikləri örtük də onların ürəklərindəki təqsiri silmədi.

Müqəddəs Yazılar deyir: "*Onlar günün sərinliyində bağda gəzişən Rəbb Allahın səsini eşitdilər. Adəm və onun arvadı Rəbb Allahın hüzurundan qaçıb bağdakı ağacların arasında gizləndilər."* (Yaradılış 3:8) Günah işlədəndən sonra hər şey Adəm və Həvva üçün necə də fərqli idi! Allaha itaətsizlik etməzdən əvvəl, Rəbb Allah onlarla danışmaq üçün bağa gələndə onlar sevinirdilər. Amma indi, onlar Allahın müraciət etməsini eşidəndə, qorxu və utancaqlıqla əsməyə başladılar və bağdakı ağacların arxasında Allahdan gizlənməyə cəhd göstərdilər! Nə üçün Adəm qorxdu və gizləndi? Bunu tapmaq çətin deyil. Əgər kimsə başqasının evindən oğurluq edərkən ev yiyəsinin gəlməsini eşitsə, nə edər? O gizlənməyə çalışar. Eyniylə də Allahın qadağan etdiyi işi görən Adəm gizlənməyə çalışırdı. Adəm çox yaxşı bilirdi ki, Allaha qarşı günah işlətmişdi.

Allahın əmrinə itaətsizlik edəndən sonra Adəm qorxmalı idi? Sözsüz! Nə üçün? Çünki Allah

ona aydın demişdi: *"xeyiri və şəri bilmə ağacından yediyin gün **sən mütləq öləcəksən!**"* Allah Öz Sözünü yerinə yetirəcəkmi? Adəm doğurdan öləcək? Sən necə fikirləşirsən? **Allah Öz yaratdığı insanlara cəza verəcəkmi**? Bəziləri deyir ki, suala sualla cavab verməzlər. Amma biz bu sualı digər bir sualla cavablandıra bilərik. Allahın qaydasını rədd edəndən sonra Rəbb, şeytana nə etdi? Günah işlədən şeytan və mələklərə Allah bəraət verdi? Xeyir! Allah onlara haqq qazandırmadı! Allah onları Öz müqəddəs hüzurundan qovdu. Bundan başqa, Allah onlar üçün əbədi alov yaratdı! Şeytan kimi, Adəm də Allahın qaydasına qarşı çıxdı. Allah sadəcə , "elə də bir şey deyil!" deyə bilərdi və Adəmi mühakimə etmədən azad edərdi? Heç vaxt! **Allah müqəddəsdir və O günahı mühakimə etməlidir!**

Dahi adamlardan biri olan Leonardo da Vinçi deyib, "Pisliyi cəzalandırmayan, pisliyin olmasını əmr edir!" Allah heç vaxt pisliyi bəyənmir. O bunu cəzalandırmalıdır. Habaqquq Peyğəmbər yazıb***: "Sənin gözlərin çox təmizdir, Şəri görən gözün yoxdur, Pis əməllərə dözə bilmirsən. "*** (Habaqquq 1:13) Bəli, *"Rəbb Öz xalqını mühakimə edəcək» deyəni tanıyırıq. Var olan Allahın əlinə düşmək dəhşətdir!"* (İbranilərə 10:30,31) Allahın müqəddəs təbiəti hər bir günahı mühakimə etməyi və cəzalandırmağı tələb edir. Buna görə də Adəm və Həvvanı etdiyi günaha görə Allah onları cəzalandırmalı idi. Buna görə də biz sonrakı ayədə oxuyuruq: *"Rəbb Allah Adəmi səsləyib dedi: «Haradasan?»"* (Yaradılış 3:9)

Adəm günah işlədəndən sonra Allah nə etdi? Allah Adəmi axtararaq onu çağırdı, **"Haradasan?"** Adəm Allahı axtarmağa getdi? Xeyir! O Allahdan gizlənməyə çalışırdı! Nə üçün Allah Adəmi səslədi? O məgər bilmirdi Adəm haradadır? Hər şeyi görən və eşidən Allah, Adəmin harada gizləndiyini dəqiqliklə bilirdi! Allah Adəmi ona görə çağırdı ki, o, Allah qarşısında öz günahını bilsın və Ona etiraf etsin. Adəmin günah etməsinə baxmayaraq Allah onu hələ də sevirdi.

Allah "haradasan?" deyə səsləyəndə Adəm nə cavab verdi? Müqəddəs Yazılar deyir:

*O cavab verdi: «Bağda səsini eşitdim və çılpaq olduğum üçün qorxdum, ona görə də gizlənmişəm». Rəbb Allah dedi: «Kim sənə bildirdi ki, çılpaqsan? Sənə yeməyi qadağan etdiyim ağacın meyvəsindən yeməmisən ki?» Adəm dedi: «Mənimlə birgə olmaq üçün verdiyin qadın o ağacın meyvəsindən verdi, mən də yedim». Rəbb Allah qadına dedi: «Sən niyə belə etdin?» Qadın dedi: «İlan məni yoldan çıxartdı, mən də yedim».* (Yaradılış 3:10-13)

Adəm və Həvvanın Allaha necə cavab vermələrini eşitdin? **Hər ikisi kimisə günahlandırmağa çalışdı**. Adəm belə deməklə həm Allahı, həm də Həvvanı günahlandırdı: Bu mənim günahım deyil! **Sənin** mənə verdiyin qadın---bu **onun** günahıdır! Həvva isə belə deyərək ilanı günahlardırdı: Məni günahlandırma---**ilan** məni aldatdı! Amma insanın ürəyini bilən Allah, bilirdi ki, onların **hər ikisi** günahkardır. Allah onlara ağacın meyvəsindən yeməyi məcbur etmədi. Şeytan da onlara yeməyi məcbur etmədi. Şeytan insanları imtahana çəkə və aldada bilər amma o heç kimi günah işlətməyə məcbur edə bilməz. **Həvva** şeytanın aldatmasına baxmayaraq, o, Allah qarşısında günah işlətdi. Adəm isə, Müqəddəs yazılar deyir ki, o aldanmadı. (1 Timoteyə 2:14) O, şüurlu surətdə öz yolu ilə getməyi seçdi. Adəm, Allahın nə əmr etdiyini dəqiq bilirdi, amma o salehlik yolundan yayınmağı və salehsizlik yolu ilə getməyi seçdi. Və o Allaha itaətsizlik etməklə kifayətlənmədi, amma başqasını da günahlandırmaqla günahının üzərinə günah əlavə etdi.

Bu günə qədər də insanlar öz günahlarını başqalarının üstünə atmağa çalışırlar. Amma Allah həqiqəti bilir. Müqəddəs Yazılar vasitəsilə Allah insanlara deyir: **Sən haradasan**? Mənə cavab ver! Sən nə etdin? Nə üçün sən Mənim Sözümə inanmağı və itaət etməyi rədd edirsən? Nə üçün sən Mənim xiyirxahlığıma xor baxırsan? Öz günahına görə nə üçün başqalarını

günahlandırmağa çalışırsan? *"Rəbb deyir: Varlığıma and içdim, Hər diz önümdə çökəcək, hər dil Allah olduğumu bildirəcək». Beləcə hər birimiz özü üçün Allaha hesabat verəcək."* (Romalılara 14:11,12)

İndi gəlin görək Allah ilanı, şeytanı, Həvvanı və Adəmi necə mühakimə etdi. Müqəddəs Yazılar deyir:

*"Rəbb Allah **ilana** dedi: «Sən bunu etdiyin üçün bütün ev heyvanları və çöl heyvanları arasında lənət qazanırsan. Qarnın üstündə sürünəcəksən, bütün ömrün boyu torpaq yeyəcəksən. Mən səninlə qadın arasına, sənin balanla onun övladı arasına düşmənçilik salıram. Bu övlad sənin başından vuracaq, sən də onu dabanından sancacaqsan». Sonra Rəbb Allah **qadına** dedi: «Hamilə olanda sənə çox əziyyət verəcəyəm, Uşaqlarını ağrı içində doğacaqsan. Ərinə meylli olacaqsan, o sənə ağalıq edəcək». Sonra Rəbb Allah **Adəmə** dedi: «Arvadının sözünə qulaq asdığın üçün, Qadağan etdiyim, "meyvəsini yemə" dediyim ağacdan yediyin üçün sənə görə torpaq lənətlənir. Ömrün boyu zəhmətlə torpaqdan yemək əldə edəcəksən.*
*O sənə tikan və qanqal bitirəcək, sən də çöldəki ot-ələfi yeyəcəksən. Alın tərinlə çörək yeyəcəksən. Axırda torpağa qayıdacaqsan, çünki oradan götürülmüsən,*
*Ona görə ki yerin torpağısan, torpağa da qayıdacaqsan»."* (Yaradılış 3:14-19)

Onların günahlarının nəticəsini görürsən? Bu qəm və ağrı, tikanlar və qanqallar, zəhmətlə və alın təri ilə qazanmaq, xəstəliklər və ölüm gətirdi. Bəli, *"günahın əvəzi ölümdür!"* (Romalılara 6:23) Qadağan olunmuş ağacdan yeyəndə nə baş verəcəyi haqqda Allah Adəm və Həvvaya nə demişdi? O dedi, "həmən gün öləcəksən." Adəm və Həvva yedikləri gün dəfn olundular? Xeyir. Bəs onlar həmən gün öldülər? Əlbəttə, öldülər! Həmən gün Adəm və Həvva öz canlarında öldülər. Çünki onların artıq Allah ilə münasibətləri yox oldu.

Biz artıq öyrənmişik ki, ölüm **Allahdan ayrı düşmək deməkdir**. Adəm və Həvva Allaha itaətsizlik edəndə, onlar özlərini **Həyat Mənbəyi** olan Allahdan ayırdılar. Onlar iblisə inanmağı və onunla getməyi seçəndə, onlar Allahla dostluqdan məhrum oldular. Allahın düşməni olan şeytana qoşulduqlarına görə, onlar da Allaha düşmən oldular. Allahla olan münasibətləri məhv etdilər. Misal üçün. Əgər sənin düşmənin varsa və dostun da ona qoşulursa, onda dostunun da sənin düşmənin olması doğru deyil mi? Dostunla olan münasibətin məhv oldu. Necə ki, deyilir: "Sənin dostunun düşməni sənin də düşmənindir." Eyni yolla, kim Şeytana itaət edirsə o Allahın düşmənidir. Günah insanı Allahdan ayırır.

Bu dərsi qurtarmazdan əvvəl, bizim anlamalı və yadda saxlamalı daha bir şey var. O budur: Biz hamımız bu dünyaya *"təqsirlərimiz və günahlarımız üzündən ölü"* (Efeslilərə 2:1) və *"Allah həyatına yad"* (Efeslilərə 4:18) kimi gəlirik. Ola bilər ki, bu bizim xoşumuza gəlməsin, amma Allahın Sözü belə deyir. Adəmin Allaha itaətsizlik etdiyi gün, o günahkar oldu. Günah işlədən Adəm, bütün insaniyyətin atasıdır. Beləliklə, Adəmin günahının nəticəsi budur ki, onun bütün nəsli günahkardır. "Ot öz kökü üstə bitər." Adəmin günahı Allahdan ayrı düşməyə səbəb oldu. Öz üzərində Allahın idarəsini rədd edən Adəm, bütün insanların atasıdır. Nəticədə isə Adəmin bütün nəsli Allahdan ayrı doğulurlar. Necə ki atalar sözündə deyilir ***"Bir qoz bir çuvalı bərbad edir."*** Allahın Sözü də eyniylə bunu bəyan edir: "*Beləliklə, günah bir insan vasitəsilə, ölüm də günah vasitəsilə bu dünyaya gəldi. Beləcə ölüm bütün insanlara yayıldı, çünki hamı günah etdi."* (Romalılara 5:12)

Özünü Allahdan ayrı salan, bizim ulu babamız Adəm, **ağacdan kəsilmiş bir budaq kimidir**. Budaq ağaca bitişik olmayanda nə baş verir? O quruyur və ölür. Və kəsilmiş budağın hissələri olan digər budaqlarda nə baş verir? Onlar yaşayırlar? Xeyir. Onlar da ölüdülər. Çünki onlar da

quru budağa məxsusdurlar. Eyni yolla Adəmin bütün övladları da ağacdan kəsilmiş budağın şaxəcikləri kimidirlər. Öz günahına görə Adəm quru budaq kimidir və biz də onunla birik. Ulubabamız Adəmin günahı hamımıza təsir edib. Biz hamımız onun xasiyyətini və hökmünü gözləyirik.

Davud peyğəmbər Məzmurlarda yazır: *"Mən* ***doğulandan bəri günahkaram****, ana bətnindən belə, təqsirkaram."* (Zəbur 51:5) Günah – bütün dünyaya yayılan ölümcül xəstəlik olan QİDS kimidir. QİDS insan bədəninə daxil olanda, heç vaxt oranı tərk etmir. QİDS-ə yoluxmuş adam, onu öz övladına da ötürə bilər. QİDS öldürücüdür və hələ də onun əlacı tapılmayıb. Günah da bunun kimidir. O bütün dünyaya yayılan bir fəlakət kimidir. Günah – insanın əbədi məhv olmasına səbəb olan öldürücüdür və **insan bunun qarşısını almağa qadir deyil.**

Amma bu gün biz şad ürəknən Allaha şükür edirik. Çünki günahın cəzasından və hakimiyyətindən xilas olmağı Allahın Özü bizim üçün təmin etdi. Lakin biz Allahın çarəsinə inanmalı və onu qəbul etməliyik. Allah izn versə, gələn dərsimizdə biz günahdan, Şeytandan və cəhənnəmdən günahlı insanaları qurtarmaq üçün, Allahın Adəm və Həvvaya və onların bütün nəslinə verdiyi Xilaskar haqqında gözəl vədə baxacağıq.

Davud peyğəmbərin yazdığı bu sözlər haqqında düşündükcə Rəbb sizə xeyir-dua versin:

***"Mən doğulandan bəri günahkaram, ana bətnindən belə, təqsirkaram."*** (Zəbur 51:5)

9-cu Dərs

# Gözəl Vəd

**Yaradılış 3**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək və Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Biz ötən proqramımızda qadağan olunmuş ağacdan meyvəni yeməklə Adəm və Həvvanı Allahın yolundan necə ayrı düşdüyünü gördük. Beləliklə, Allahın Öz surətində yaratdığı insan, Allahın düşməni olan şeytanın ardınca getməyi seçdi. Adəm və Həvva günah etməzdən əvvəl, Allah nə vaxt bağa onlarla söhbət etməyə gələrdisə onlar sevinərdilər. İndi isə onlar Allahın səsini eşidəndə **qorxdular, utandılar və bağdakı ağacların arxasında Allahdan gizlənməyə çalışdılar!** Amma Allah Adəm və Həvvanı izləyirdi, onlarla danışdı və onların günahının dünyaya bədbəxtlik və əziyyət, tikanlar və qanqallar, xəstəliklər və **ölüm** gətirəcəyini bəyan etdi.

Nəticə etibarı ilə, o gündən bu günə qədər ölüm kölgəsi Adəmin nəsli üzərində dolaşır. Adəmin bütün övladları artıq bətndə günahlıdırlar və şər təbiətlə dünyaya gəlirlər. Biz bunu istəsək də istəməsək də, **bizim hamımız ulubabamız Adəmin xasiyyətini daşıyırıq.** *"Ot öz kökü üstə bitər."* Adəmin günahına görə hamımız günahlı doğuluruq. Həqiqətən də, *"Bir dana bir naxırı korlayır."* Beləliklə, Adəmin günahı onu Allahdan ayırdığı kimi, bizim günahımız da bizi Allahdan ayırıb. Müqəddəs Yazılar belə deyir:

*"Beləliklə, günah bir insan vasitəsilə, ölüm də günah vasitəsilə bu dünyaya gəldi. Beləcə ölüm bütün insanlara yayıldı, çünki hamı günah etdi."* (Romalılara 5:12) *"Çünki hamı günah edib, Allahın izzətindən məhrum olub."* (Romalılara 3:23) *"Lakin şər əməlləriniz Allahınızla sizin aranızda ayrılıq saldı. Günahlarınıza görə Onun üzü sizdən döndü. "* (Yeşaya 59:2)

Bunu eşitmək elə də xoş deyil amma bu belədir. "Həqiqət acı olar."

**Deməli, biz Adəmin bir günahının bütün insan nəslini Allahdan necə ayırdığını görürük.** Adəmin Allaha itaətsizlik etdiyi gün, Adəm və hələ dünyaya gəlməmiş körpəyə qədər bütün bəşəriyyət nur padşahlığını tərk etdi və zülmət padşahlığına daxil oldu. Allahın Padşahlığında artıq onlara yer yox idi. Günahlarına görə onların payı, onları öz əsiri və qulu kimi ələ keçirmiş olan **şeytanla** idi. İndi artıq onalar bu həyatda günaha qul olmaqdan, ölüm qorxusundan başqa heç nəyə ümid edə bilməzlər. Bundan sonra isə əbədi atəşdə sonsuz cəza!

Əgər Müqəddəs Yazılar burada bitsəydi, biz kitabı bağlayardıq və dənizdə itkin düşən və xilas etmək ümidi olmayan şəxs kimi acı-acı hönkürərdik. Əgər Allah Adəmin övladlarını xilas etmək üçün xilas yolu açmasaydı biz əbədilik məhv olardıq! Amma Rəbb Allaha şükür olsun ki, Peyğəmbərlərin yazıları Adəmin günah hekayəsi ilə bitmir. **Mərhəməti bol olan Allah, Adəmin övladları üçün xilas qapısı açdı!** Allahın Sözü deyir:

*"Günah çoxalan yerdə Allahın lütfü daha da çoxaldı."* (Romalılara 5:20) *"Qorxmayın! Mən sizə bütün xalqı çox sevindirəcək bir Müjdə gətirmişəm."* (Luka 2:10) *"Allahın bütün insanlara xilas gətirən lütfü zühur etdi!" (Titə 2:11)*

Biz artıq öyrəndiyimiz kimi, Allah müqəddəsdir və buna görə də günahlı insanları mühakimə etməlidir. Allah ədalətlidir və günahı sadəcə "unuda" bilməz. O hər bir günahı

cəzalandırmalıdır. Günahın cəzası da ölüm və Allahdan əbədilik ayrı düşməkdir. Allah heç vaxt dəyişmir və günahın cəzası olan ölüm də heç vaxt dəyişmir. Bu gün biz Müqəddəs olan Allahın günahlı insanları günahın cəzasından qurtarmaq üçün hazırladığı planı Müqəddəs Yazılardan oxumağa başlayacağıq. Biz öyrənəcəyik ki, Allah yalnız Müqəddəs deyil, O həm də Mərhəmətlidir! **Bizim Hakimimiz Allah, bizim Xilaskarımız olmaq istəyir!**

Bu gün biz görəcəyik ki, Adəm və Həvva günah işlətdikləri gün Allah günahlı insanları xilas etmək üçün Öz gözəl planını bildirməyə başladı. Gəlin indi Tövratda,Yaradılış kitabında oxumağa davam edək ki, bu Xoş Xəbər haqqında öyrənə bilək. Biz 3-cü fəsil, 15-ci ayəni oxuyuruq: Allah ilan cildinə girən şeytana dedi*, **"Mən səninlə qadın arasına, Sənin balanla onun övladı arasına düşmənçilik salıram. Bu övlad sənin başından vuracaq, sən də onu dabanından sancacaqsan».***

Bu çətin ayədə çoxlu dərin və mühüm həqiqətlər var. Allahın peyğəmbərləri gələcəkdə xırdalıqlarla izah edəcəkdilər. Bu ayə belə cəmləşdirilə bilər: Allah Adəmin övladlarını Şeytanın hakimiyyətindən xilas etmək planını bildirməyə başlayırdı. Bu ilk ayədir ki, müqəddəs Qurtarıcının gəlməsi barədə danışır. Bu ayədə gəlin Allahın vəd etdiyi Qurtarıcı haqda üç həqiqətə baxaq.

1) Adəm və Həvva günah işlədəndə Allahın elan etdiyi başqa bir şey də var idi. Qutarıcı haqqında Allah şeytana dedi: "Sən onun dabanından sancacaqsan." Beləliklə Allah bildirir ki, şeytan Allahın göydən göndərəcəyi Qurtarıcıya necə əzab verəcək. Gələn dərslərimizdə biz şeytanın Qurtarıcını təqib etmək, Ona iztirab vermək və öldürmək üçün insanları necə qızışdırmasını peyğəmbərlərin qabaqcadan xəbər vermələrində görəcəyik. Yaralanmış Qurtarıcı Allahın planının bir hissəsi olacaqdır. Bizi Allaha qaytarmaq üçün dünyanın Qurtarıcısı günaha görə qurban kimi ölməliydi; saleh olan, salehsizlər üçün. O günahın əvəzi olan ölüm üçün Öz həyatını könüllü verməliydi.

2) Qurtarıcı haqqda ikinci həqiqət o idi ki, Allah ilanda olan şeytana dedi ki, "o (Qurtarıcı) onun (şeytanın) başını əzəcək." Bu şeytan üçün pis xəbər idi, amma şeytanın, günahın və cəhənnəmin hakimiyyətindən qurtulmaq istəyənlər üçün isə şad xəbər idi! Beləliklə Allah xəbər verməyə başladı ki, **Qurtarıcı sonda iblisi məğlub edəcək** və günahın köləsi olan Adəmin övladlarını azad edəcəkdir.

3) Axırıncısı, biz görürük ki, dünyada **iki qrup adam** olacaqdır: şeytanın adamları və Allahın adamları. Şeytanın adamları Allahın Sözünə inanmağı rədd edənlərdir. Allahın adamları isə Allahın Sözünə inanan və ümidlərini vəd olunmuş Qurtarıcıya bağlayanlardır. (Yəhya 1:9-13)

**Beləliklə, Adəm və Həvva günah işlətdikləri gün Allah günahlı insanları qurtarmaq üçün Öz gözəl planını elan etməyə başladı.** Gələn dərslərimizdə biz tədricən Allahın peyğəmbərlərinin iblisin əlindən günahlı insanları azad edən, gələcək olan müqəddəs Qurtarıcı haqqında xəbər vermələrini görəcəyik. Əgər dediklərimiz sizə aydın deyilsə, narahat olmayın. Çünki biz ardıcılıqla oxumağımızı davam etdirdikcə, hər şey aydınlaşacaq. Bu atalar sözünü yadda saxlayın: "Axtaran tapar." Allah deyir: *"Bunları gümüş kimi axtarsan, gizli xəzinə kimi arasan, onda Rəbb qorxusunu anlayarsan, Allahı tanıyarsan."* (Süleymanın Məsəlləri 2:4,5)

Onda gəlin Tövrat kitabının üçüncü fəsilini oxumağı bitirək. Müqəddəs yazılar deyir:

*"Onda Rəbb Allah Adəmlə arvadı üçün dəridən paltar düzəltdi və onlara geyindirdi.*

*Sonra Rəbb Allah dedi: «Budur, insan xeyirlə şərin nə olduğunu bilərək bizlərdən biri kimi oldu. Qoy indi əlini uzadaraq həyat ağacının meyvəsindən dərib yeməsin və əbədi yaşamasın!» Rəbb Allah insanı Eden bağından çıxartdı ki, o özünün də bir qismindən götürüldüyü torpağı becərsin. Rəbb Allah insanı qovdu. O, Eden bağının şərqinə keruvlarını və hər tərəfə fırlanan odlu qılıncını qoydu ki, həyat ağacına gedən yolu qorusunlar."* (Yaradılış 3:21-24)

Üçüncü fəsil burada bitir. Bitirməzdən əvvəl gəlin bu ayələrdə olan mühüm həqiqətlərə nəzər salaq.

Müqəddəs Yazılar deyir: "*Rəbb Allah Adəmlə arvadı üçün dəridən paltar düzəltdi və onlara geyindirdi."* Yadındadır Adəm və Həvva xeyir və şəri bilmə ağacının meyvəsindən yeyəndən sonra nə etdilər? **Onlar əncir yarpaqlarını hördülər** və Allah qarşısında öz ayıblarını örtmək üçün büründülər. Özləri üçün yarpaqdan düzəltdikləri paltarı Allah qəbul etdi? Xeyir, qəbul etmədi! Nə üçün Allah onların özləri üçün düzəltdiyi paltarı qəbul etmədi? Çünki Allah Adəm və Həvvaya öyrətmək istəyirdi ki, O **kamildir** və insanların **qeyri-kamil** işlərini qəbul etməz. Bununla bağlı Müqəddəs Yazılar deyir: "*Hamımız elə bil ki murdarlandıq**, bütün saleh əməllərimiz murdar əskiyə bənzəyir.*** *Hamımız yarpaq kimi soluruq, Şər əməllərimiz bizi külək tək sovurub-aparır."* (Yeşaya 64:6) Allah qarşısında insan öz günahını örtmək üçün heç nəyə qadir deyil.

Amma Allah insan üçün belə etdi. **O heyvan öldürdü**, dərisini çıxardıb Adəm və Həvva üçün **dəridən paltar düzəltdi**. Bəli, **Allah heyvandan ilk qurbanı etdi**. Allahın öldürdüyü heyvanın qanının axmasını ilk dəfə görmək Adəm və Həvva üçün necə də dəhşətli bir səhnə olmalı idi! Heyvan qanı axıtmaqla Allah, Adəm və Həvvaya *"günahın əvəzi **ölümdür**"* (Romalılara 6:23) və "***qan axıdılmadan bağışlanma olmur"*** (İbranilərə 9:22) öyrətmək istəyirdi. Allahın bağışlamasının əsas qanunu budur: *"qan axıdılmadan bağışlanma olmur."* Günahın əvəzi ödənilməlidir. Günahın əvəzi ölümdür. Allah yalnız əvəzi ödənilmiş günahları bağışlaya bilər. Təqsirli günahkara görə saf və günahsız qurban ölməlidir. Bu Allahın salehliyinə xətər gətirmədən insanların günahlarını bağışlayacağı yeganə yoldur.

Beləliklə, Allah günahlı insanlara günahın əvəzi ölüm olduğunu xatırlatmaq üçün heyvan qurbanı müəyyən etdi. Heyvan qurbanı, günahı ödəmək Öz qanını tökəcək olan dünyaya gələcək müəqəddəs Qurtarıcının rəmzi idi. Bunun haqqında biz sonra daha çox öyrənəcəyik. İndi, gəlin yadda saxlayaq ki, Allah Adəm və Həvvanın eyibini örtmək üçün heyvan qanı tökdü.

Bundan sonra, **Allah Adəm və Həvvanı Edendəki Cənnət Bağından qovdu**. O həyat ağacına olan yolu qorumaq üçün ora odlu qılınclı mələk qoydu. Adəm və Həvva Allahın qadağan olunmuş ağacından yeməklə ölüm yolunu seçdilər. Nəticədə isə, onlar artıq Cənnət Bağının gözəl bərəkətlərdən zövq ala bilmədilər. Biz artıq günahına görə Allahın indi şeytan adlanan mələyini Öz hüzurundan necə qovduğunu bilirdik. İndi isə Allahın öz günahlarına görə Adəm və Həvvanı da qovduğunu görürük. Allah Müqəddəsdir və **müqəddəs olmayan hər bir şeyi cəzalandırmalıdır.**

Beləliklə əziz dostlar, gəlin bu iki fikri yadımızda saxlayaq: Birincisi, **Allah Salehdir**. Allah günaha dözə bilməz. Buna görə də O Adəm və Həvvanı mühakimə etdi və bağdan qovdu. İkincisi, **Allah Mərhəmətlidir**. Adəm və Həvva Allahın mərhəmətinə layiq deyildi. Onlar yalnız Allahın mühakiməsinə layiq idilər. Amma Allah istəmir ki, insanlar məhv olsunlar. Buna görə də, Allah günahlı insanları şeytanın səltənətindən xilas etmək üçün və onları Allahın nurlu və izzətli padşahlığına gətirmək üçün Qurtarıcı göndərməyi vəd etdi.

Aldanma: **Allahın mərhəməti heç vaxt Allahın salehliyinə zidd ola bilməz.** Allahın bu iki xüsusiyyəti bir yerdə fəaliyyət göstərir. Gələcək dərslərimizdə biz Allahın salehliyinə zidd olmayaraq günahlı insanlara necə mərhəmət göstərdiyini aydın görəcəyik.

Biz sizinlə Adəm və Həvvanın Allahın yolundan çıxan günü, Allahın etdiyi gözəl vəd haqqında danışırdıq. Ümid edirik ki, günahlarından səni xilas etmək üçün göndərdiyi Qurtarıcı haqqında Allahın gözəl vədini tam anlayana qədər bu dərslərə qulaq asmağa davam edəcəksən.

Dinlədiyiniz üçün çox sağ olun. Sizi dəvət edirik ki, gələn proqramımızda Adəm və Həvvanın ilk iki oğlu Habil və Qabil haqqında vacib şeyləri öyrənmək üçün bizə qoşulasınız…

Bu ayə haqqında düşündükcə Allah sizə xeyir-dua versin:

***"Günah çoxalan yerdə Allahın lütfü daha da çoxaldı."*** (Romalılara 5:20)

10-cu Dərs

# Qabil və Habil: Qurban yolu

Yaradılış 4

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək və Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dəfə Tövratdakı dərsimizdə biz gördük ki, Adəm və Həvva günah işlədəndən sonra Allah Adəmin övladlarını şeytanın, günahın və cəhənnəmin hakimiyyətindən xilas etmək üçün dünyaya Qurtarıcı göndərəcəyi haqqında Öz planını göstərməyə başladi. Biz gördük ki, Adəm və Həvvanın özləri üçün yarpaqdan düzəltdikləri paltarı Allah necə rədd etdi. Və biz öyrəndik ki, günahlı insanlar öz ayıblarını heç nə ilə örtə bilməzlər. Müqəddəs Olan onları mühakimə edməlidir. Yalnız Allah günahlı insanları öz təqsirlərindən xilas edə bilər. Beləliklə, biz Allahın heyvan qurban verməsini, dəridən paltar düzəltməsini və onları Adəm və Həvvaya geyindirməsini gördük. **Allah ilk qan qurbanı etdi.** Biz həmçinin yer üzündə iki cür insan qrupu olacağı haqqında gördük: Allahın Sözünə inanmağı rədd edənlər və ona inananlar.

Bu gün biz Adəm və Həvvanın ilk iki oğlu haqqında oxuyacağıq: Allaha inanmağı rədd edən Qabil və Allaha inanan Habil. Adəm və Həvva artıq Cənnət Bağından kənarda yaşayırdılar. Günahlarına görə Allah onları qovdu. Günahlarına görə onlar Cənnət Bağının bərəkətindən məhrum oldular. Onların günahları Allahla münasibətlərini korlamışdır. Buna baxmayaraq, Allah onları hələ də sevirdi və qayğısına qalırdı.

İndi isə Tövratdan oxuyaq. Yaradılış kitabının 4-cü fəsilində yazılıb: "*Həvva hamilə olub Qabili doğdu. Həvva dedi: «Rəbbin köməyi ilə bir insan qazandım». Sonra o, Qabilin qardaşı Habili doğdu. Habil çoban oldu, Qabil isə əkinçi."* (Yaradılış 4:1,2)

Adəm və Həvvanın iki oğlu var idi. Qabil və Habil. Onlar da valideynləri kimi, günahlı idilər. Adəmin günahı keçici xəstəlik kimi, öz övladlarına yayıldı. Qabil və Habil günahda doğulmuşdular. Beləliklə Müqəddəs Yazılar deyir: "*Özünə bənzər, öz surətində bir oğlu oldu ."* (Yaradılış 5:3) **Qabil və Habil günahlı təbiətlə doğulmuşdular.** Uşaqlar fiziki olaraq böyüdülər və bilikləri artdı. Qabil əkinçi oldu. O ciddi zəhmətkeş idi və ağır işdən çəkinmirdi. Habil isə çoban idi. Hər ikisi Allah haqqında bilirdi. Onlar bilirdilər ki, Allah var , O Müqəddəsdir və günaha nifrət edir. Hər ikisi də bilməli idilər ki, **Allaha yaxınlaşmaq üçün, Allahın buyurduğu qantökmə qurbanı vasitəsilə gəlməlidilər.**

Günlərin bir günündə Qabil və Habil Allaha ibadət etmək və qurban təqdim etməyə qərar verdilər. Beləliklə Müqəddəs Yazılar deyir:

*"Bir müddət keçəndən sonra Qabil torpağın bəhrəsindən Rəbb Allaha təqdim gətirdi. Habil də sürüsündə ilk doğulan heyvanlardan bir neçəsini və onların piyini təqdim etdi.* ***Rəbb Habili və onun təqdimini qəbul etdi, ancaq Qabili və onun təqdimini qəbul etmədi.*** *Buna görə də Qabil bərk qəzəblənib qaşqabağını salladı."* (Yaradılış 4:3-5)

Nə baş verdiyinə nəzər salaq. Iki nəfər Allaha ibadət etmək istədi. Hər ikisi Allaha qurbanlar təqdim etdi. Amma Müqəddəs Yazılar deyir: ***"Rəbb Habili və onun təqdimini qəbul etdi, ancaq Qabili və onun təqdimini qəbul etmədi."*** Nə üçün Allah Habilin qurbanını qəbul etdi, amma Qabilin qurbanını rədd etdi? Bu iki qurban arasında nə fərq var idi?

Həqiqətən də Qabil və Habilin qurbanları çox fərqli idi. Qabil Allaha gözəl tərəvəzlər və dadlı meyvələr gətirmişdi. Habil isə qüsursuz quzu. Allah Habilin günahlarını bağışladı amma Qabilin günahlarını bağışlamadı.

Nə üçün Allah quzu gətirən Habilin günahlarını bağışladı amma meyvə-tərəvəz gətirən Qabilin günahlarını bağışlamadı? Bu ona görə idi ki, Allah meyvə-tərəvəzi xoşlamır? Xeyir. Bu səbəb deyil! Bəs onda nə üçün Allah Habili saleh saydı amma Qabilin günahını bağışlamadı? Səbəb budur: Habil Allahın tələb etdiyi qurbanı gətirdi, lakin Qabil başqa bir şey gətirdi. Öz salehliyinə xətər yetirməyərək onların günahlarını bağışlamaq üçün Allah nə tələb edirdi? O, qan tələb edirdi, yəni nöqsansız heyvanın **həyatını**. Habil Allaha inandı və Allahın tələb etdiyi qurbanı gətirdi. Beləliklə Müqəddəs Yazılar deyir: "*İman vasitəsilə Habil Allaha Qabildən daha yaxşı bir qurban təqdim etdi. Bunun vasitəsilə saleh olduğu təsdiq olundu, çünki Allah onun təqdimləri barədə şəhadət etdi."* (İbranilərə 11:4) Habil Allaha inandı. Qabil isə Ona inanmadı.

Allaha inanmaq nə deməkdir? Allaha etibar edərək, Onun Sözünə itaət etməkdir. Allaha inanmaq, Allahın dediyini doğru qəbul etmək deməkdir. Əgər sən desən, "Mən Allaha inanıram," amma Müqəddəs Yazılarda Allahın dediklərinə inanmırsansa, onda sən Allaha həqiqətən inanmırsan. **Allah və Onun Sözü birdir.** Əgər sən Allaha inanırsansa, onda sən Onun Sözünə də inanacaqsan və itaət edəcəksən. Allahın Sözünə inanmırsansa, onda sən Allahın Özünü rədd edirsən.

Allah Habili ona görə qəbul etdi ki, Habil Onun Sözünə inandı və Allahın əmr etdiyi kimi quzunun qanı ilə gəldi. Allah Qabili ona görə qəbul etmədi ki, o Allahın Sözünə ürəkdən inanmamışdır. Qabil Allaha inandığını iddia edirdi amma onun hərəkətləri buna zidd idi. Çünki o Allahın əmr etdiyi kimi qan qurbanı gətirməmişdi.

Kimsə soruşa bilər, "Nə üçün Allah heyvan qurbanı əmr etdi?" Nə üçün Allah "*Qan tökülmədən günahların bağışlanması yoxdur*" dedi? Səbəb budur: Allahın müqəddəs qanunu deyir ki, **günahın əvəzi ölümdür!** Buna görə də qan tökülməli idi. Allah "Günahın əvəzi meyvə və tərəvəzlərlə ödənilə bilər" demədi. Ya da ki, "Günahın əvəzi dua, oruc və yaxşı işlər görməklə ödənilir" demədi. Xeyir! Öz Müqəddəsliyində Allah belə dedi: Günahın əvəzi **ölümdür!**

Peyğəmbərlərin Yazılarında Allah bizə göstərir ki, hər bir insan, Adəmin hər bir övladı günah işlədib və hər bir günahlı insanın Müqəddəs Olan Allah qarşısında **böyük borcu** var. Günahkar ölməlidir və sonra günahın borcunu əbədi olaraq cəhənnəmdə ödəməlidir. Günahın borcu böyükdür və sən Allah qarşısında onu ödəmək üçün heç vaxt kifayət qədər yaxşı işlər görə bilməzsən. **Günahın əvəzi ölüm və cəhənnəmdir,** ona görə də yaxşı işlər heç cür onu ödəyə bilməz!

Bunu təsvir etməyə çalışaq . Tutaq ki, mənim bir nəfərə böyük məbləğdə borcum var və mən gedib ona deyirəm, "Mən bilirəm ki, sənə çoxlu pul borcluyam. Amma mənim heç pulum yoxdur və borcumu sənə pulla qaytara bilmirəm. Lakin sənə ödəmək üçün başqa planım var. Hər gün, mən sənin evinin eyvanını süpürəcəyəm. Beləliklə, mən borcumu ödəyənə qədər sənin üçün işləyəcəyəm." Borc verən mənim fikrimə necə cavab verməlidir? Ola bilsin o

hirslənəcək, ya da mənə güləcək. Amma dəqiq olan odur ki, o mənim fikrimi qəbul etməyəcək! Nə üçün borc verən mənim planımı qəbul etməyəcək? Çünki bu böyük borcu ödəmək üçün onu qane etməyən "yaxşı işlərim" kifayət deyil.

Eyniylə də heç kim günahın əvəzini yaxşı işlərlə ödəyə bilməz. Günahın əvəzini –pul və ya yaxşı işlər yox yalnız bir şey ödəyə bilər – **ölüm.** Günahın əvəzi ölüm və mühakimədir. Nəticə etibar ilə Allah, Qabil və Habilin günah borcunu da öz əllərinin işlərinə əsasən ləğv edə bilməzdi. Allahın planında onların günahlarının borcunu ödəmək qurbanın qanı ilə idi. Təqsirkarın yerinə təqsirsiz ölməlidir.

Günahların bağışlanması insanın yox Allahın planına əsaslanır. Bu **əvəzetmə qurbanına əsasən** Allah, Adəmin övladlarının günahların bağışlanması və xilası üçün yol açdı. Qabaqkı nəsillərə, hər bir günahkar üçün Allaha nöqsansız heyvan qurbanı təqdim etməyi buyurmuşdur. Günahlı şəxsin əvəzinə nöqsansız heyvan ölməli idi. Qurbanın qanına görə, Allah Adəmin övladları ilə bir müddət səbirli olub, onların günahlarını örtə bilərdi. Amma heyvanların qanı insanların günahlarının borcunu ləğv edə bilməzdi. Çünki heyvanın dəyəri insanın dəyəri ilə eyni deyildir. Buna görə də Müqəddəs Yazılar deyir ki, heyvan qurbanları "*gələcək nemətlərin **əsli deyil, kölgəsi** var.... Çünki buğaların və **təkələrin qanı ilə günahları aradan qaldırmaq qeyri-mümkündür**."* (İbranilərə 10:1,4)

Beləliklə, heyvan qurbanı haqqında yadda saxlamalı ən mühüm şey budur ki, onlar Adəmin nəslini günahın borcundan xilas etmək üçün dünyaya gələcək olan Qurtarıcının sadəcə olaraq **nümunəsi** idi. Allahın vəd etdiyi bu Qurtarıcı, "S*aleh olan da saleh olmayanlar uğrunda, onların günahları üçün bir dəfə əzab çəkdi ki, sizi Allahın hüzuruna gətirsin."* (1 Peter 3:18) İncildə yazıldığı kimi: *"Onun barəsində bütün peyğəmbərlər şəhadət edir ki, **Ona iman edən hər kəsin günahı Onun adı ilə bağışlanır**."* (Həvarilərin İşləri 10:43)

Amma əvvəlki nəsillərdə Allahın xilas planı heyvan qurbanı tələb edirdi. Lakin Qabil Allahın planına məhəl qoymadı. Qabil öz düzəltdiyi başqa bir yol ilə gəldi. Qabil **ilk yalan dini** yaratdı. O Allaha öz əllərinin işlərini gətirdi. O Allaha becərilmiş, lənətli yerin məhsulu, qan olmayanı qurban etdi. Allah qansız "qurbanı" qəbul etdi? Xeyr! Allah qəbul etmədi.

Habil isə Allaha qüsursuz quzu gətirdi və kəsdi ki, qan axsın. Bundan sonra isə onu yandırdı. Həmin qurbana görə, Allahın qarşısında Habilin vicdanı təmiz idi. O özlüyündə ölümə layiq olduğunu bilirdi, amma nöqsansız quzu onun əvəzinə öldü. Beləliklə, Habilin gətirdiyi qurban dünyaya gələn, günahkarların yerinə ölən, onların günahlarına görə cəzanı daşıyan Qurtarıcıya işarə idi.

Mühüm bir sual verməklə biz bu dərsi yekunlaşdırmaq istəyirik. Nə üçün Allah Qabilin qurbanını qəbul etmədi? Qabil Habildən daha böyük günahkar idi? Bu səbəb deyil. Onların hər ikisi günhkar idi. Hər ikisi Allaha qurban təqdim etdi. Biz ötəri baxanda deyə bilərik ki, ola bilsin Qabilin qurbanı Habilin qurbanından daha təqdimə layiq idi. Meyvə və tərəvəzlər gözəldir amma kəsilmiş quzu və onun qanı elə də xoşagələn mənzərə deyil! Amma, günah Allah üçün iyrənc şeydir. Allahın buyurduğu bağışlanma yolu bəyan edir: ***"Qan tökülmədən bağışlanma yoxdur!"*** Bu baxımdan, Allah Qabili və onun qurbanını rədd etdi. Çünki Qabil Allahın saleh xilas yoluna hörmət etmədi.

Heç kim Allahın yaratdığı saleh yoldan başqa yolla Allaha gələ bilməz! **Allahın yolu kamil və dürüstdür!** Bu riyaziyyat kimidir. Əgər məktəbdə müəllim soruşsa, "İki üstə gəl iki neçə edir?" Burada yalnız bir düz cavab var. **İki üstə gəl iki dörd edir.** Üç cavab verən şagird səhvdir. Beş cavab verən də səhvdir. Dörd yarım deyən də səhvdir. İki üstə gəl iki yalnız dörd

ola bilər! Allahın yaratdığı saleh xilas yolu da belədir. Bir Allah var, günahkarların Allahla, Müqəddəs Olanla barışmaları üçün **bir yol** var! Bu **tamamən kamil Qurbanın yoludur**.

Sən bu gün, **günahlarının borcunu həmişəlik ödəmək** üçün Allahın təmin etdiyi müqəddəs Qurban haqqında Allahın Sözünün nə dediyini bilirsən? Sən heç bilirsən ki, Allahın Özü sənin günahlarının bağışlanması və Onun qarşısında təmiz ürəyə malik olmaq üçün yerə qüdrətli Xilaskarı göndərdi? Gələn dərslərimizdə biz, bu gözəl Xilaskar haqqında daha çox öyrənəcəyik. Müqəddəs Yazılar Onun haqqında deyir:
"*Ondan başqa heç kimdə xilas yoxdur. Çünki səma altında biz insanlara verilən başqa bir ad yoxdur ki, onun vasitəsilə xilas olaq."* (Həvarilərin İşləri 4:12)

Dostlar, biz bu gün burada dayanmalıyıq. Allahın iradəsi ilə, gələn dəfə biz Qabil və Habil haqqında dərsimizi bitirəcəyik….

Allahın əsas bir qanununu nəzərdən keçirdikcə Allah sizə xeyir-dua versin:

***"Qan axıdılmadan bağışlanma olmur."* (İbranilərə 9:22)**

11-ci Dərs

# Tövbə etməyən Qabil

**Yaradılış 4**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək və Ona itaət edək və həmçinin, Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gündə də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz Adəm və Həvvanın ilk iki oğlu Qabil və Habil haqqında öyrəndik. Biz onların hər ikisinin necə Allaha ibadət etmək və Ona qurban təqdim etmək istədiklərini eşitdik. Qabil becərdiyi məhsuldan topladı və Allaha qurban gətirdi. Lakin Habil isə günahı örtən qurban kimi qüsursuz quzunu kəsdi. Müqəddəs Yazılar deyir: "***Rəbb Habili və onun təqdimini qəbul etdi, ancaq Qabili və onun təqdimini qəbul etmədi."*** (Yaradılış 4:4-5)

Nə üçün Allah Habili qəbul etdi amma Qabili qəbul etmədi? Allahın salehlik yolu **qan qurbanı** tələb edirdi. Allah Habili saleh saydı. Çünki o Allahln Sözünə inandı və Allahın tələb etdiyi qurbanı gətirdi. Qabil isə Allaha öz cəhdləri ilə yaxımnlaşmağa çalışdı və buna görə də Allah onu qəbul etmədi.

Indi biz **Qabil və Habil haqqında dərsimizi bitirməyi planlaşdırırıq**. Allah Qabilin qurbanını rədd edəndən sonra bilirsən nə baş verdi? Yaradılış kitabı 4-cü fəsil, 5-ci ayədə Müqəddəs Yazılar deyir: *"Qabil bərk qəzəblənib qaşqabağını salladı."* (Yaradılış 4:5) Qabil nə üçün qəzəbləndi? Bunu başa düşmək elə də çətin deyil. Təsvir edək. Əgər mən pis bir şey etsəm və kimsə mənə: "Sən səhv etdin! Yolunu düzəlt və düz olanı et!" desə, məni məzəmmət edənə mən necə cavab verməliyəm? Mən ya həlimliklə onun sözlərini qəbul edib, **yolumu dəyişəcəyəm** ya da ki, qəzəblənəcəyəm və **öz səhvlərimdə yoluma davam edəcəyəm**.

Allah Qabili ona görə məzəmmət etdi ki, qurban kimi təqdim etdiyi öz əllərinin işlərinin Allahın qarşısında faydasız olduğunu başa düşsün. Allah istəyirdi ki, Qabil tövbə etsin və Habil kimi qüsursuz quzu qurbanı gətirsin. Allah Qabili düz yola, bağışlanma yoluna yönəltmək istəyirdi. Amma Qabil qüruruna görə Allah qarşısında öz günahlarını etiraf etmək istəmədi. Əksinə, o qəzəbləndi və ruhdan düşdü.

Beləliklə, "*Rəbb Qabilə dedi: «Niyə qəzəblənmisən? Niyə qaşqabağını sallamısan? Əgər yaxşı iş görürsənsə, Mən qəbul etmərəmmi? Əgər yaxşı iş görmürsənsə, günah qapının ağzında durub. Onun meyli sənədir, ancaq sən ona üstün gəlməlisən».* (Yaradılış 4:6,7) Nə üçün Allah Qabili bu cür suala tutdu? O Qabilin məhv olmasını istəmədiyinə görə ona sual verdi. Allah istəyirdi ki, Qabil öz günahından tövbə etsin və düz yola gəlsin. Allah Qabili və onun nəslini məhv etməklə hədələyən, dəhşətli düşməndən xəbərdarlıq edirdi. O düşmənin adı **Günahdır**!

**Günah nə deməkdir?** Günah **dünyanın problemidir.** Bu bizim ən qatı düşmənimizdir. Günah zəhərlə dolu olan ilan kimidir. Bu böyük meşəni yandıra bilən kiçik qığılcım kimidir. Günah Şeytanın dünyanı yandırdığı məşəldir. Allahın Sözü deyir, " *kimsə bir yaxşı işi görməli olduğunu bilib onu etmirsə, **günah** edir."* (Yaqub 4:17) *"günah Qanunu pozmaqdır…. Günahını davam etdirən şəxs iblisdəndir, çünki iblis başlanğıcdan bəri günah*

*edir. "* (1 Yəhya 3:4,8) Günah, bədənimizin bütün üzvlərində hərəkət edən, düz və yaxşı olana qarşı vuruşan qüvvədir. Günah, Allahın iradəsi ilə razılaşmayan hər bir şeydir. Günah, Allahın Sözünə inanmamaq və Ona itaət etməməkdir. **Öz yolu ilə getmək, günahdır.** (Bax Yeşaya 53:6)

Allaha inanmağı və Ona itaət etməyi rədd edib, öz yolu ilə gedən adamların sonu nə olacaqdır? Müqəddəs Yazılar deyir, "*Onlara Rəbbin hüzurundan və qüdrətinin izzətindən məhrum qalıb əbədi olaraq məhv edilmə cəzası veriləcək."* (2 Saloniklilərə 1:9) Allahın qoyduğu salehlik yolu ilə gələnlərə əbədi həyat veriləcəkdir. Lakin həqiqətə qarşı ürəklərini sərtləşdirənlər isə Allahın qəzəbi və məhkəməsi ilə üzləşəcəklər. Buna baxmayaraq Müqəddəs Yazılar deyir ki, Allah .."*heç kəsin həlak olmasını istəmir, amma hər kəsin tövbə etməsini istəyir!"* (2 Peter 3:9) **Allah istəmirdi ki, Qabil öz günahında məhv olsun.** Onun Qabildən istədiyi bu idi ki, o tövbə etsin, seçdiyi salehsizlik yolundan üz döndərsin və salehlik yolunu seçsin.

Ötən dərsimizdə gördüyümüz kimi, Rəbb Allah günahlı insanların Onun qarşısında necə saleh ola bilmələri planını açmışdı. **Habil Allahın planına inandı** və günahı örtən qurban kimi qüsursuz quzu kəsdi. Habil Allahın dediyinə inandı: "G*ünahın əvəzi ölümdür,"* və *"qan axıdılmadan bağışlanma olmur!"* (Romalılara 6:23; İbranilərə 9:22) Quzunun axıdılan qanına görə Allah qarşısında Habilin vicdanı təmiz idi. Habil bilirdi ki, o günahlı idi və Allahın cəzasına layiq idi. Lakin o həmçinin bunu da bilirdi ki, o tam Allahın tələb etdiyi kimi qüsursuz quzu qurbanı etmişdi. Habilin qurban verdiyi quzu, dünyaya gələcək olan, Öz həyatını qurban verməklə insanların günah borcunu həmişəlik ödəyəcək Xilaskarın nümunəsi idi. Qabil özünü elə göstərirdi ki, guya Allaha inanır, amma onun əməlləri bunu inkar edirdi. **Qabil Allaha ağzı ilə hörmət edirdi, amma onun ürəyi Allahdan çox uzaq idi.** Allah quzunun qanını tələb edirdi, amma Qabil Allaha öz əllərinin məhsulunu təqdim etdi. Qabilin ibadəti Allah qarşısında tam faydasız idi. Çünki o Allahın yolunu qəbul etmədi.

İndi isə gəlin sonrakı ayəni oxuyub görək faydasız qurbanına görə Allah onu məzəmmət edəndən sonra Qabil nə etdi? Müqəddəs Yazılar deyir, *"Sonra Qabil qardaşı Habilə bir söz dedi və onlar çölə getdilər. Orada Qabil qardaşı Habilin üstünə hücum çəkib onu öldürdü."* (Yaradılış 4:8) Qabil nə etdi? O tövbə etdi? O Allaha inandı və günaha görə quzunun qanını qurban gətirdi? Xeyr! **Qabil qardaşı Habilə hücum etmək və onu öldürməklə günahın üstünə günah əlavə etdi.**

İnanılmazdır! Allahın onun günahlarının bağışlaması üçün quzunun qanını tökməyi rədd edən Qabil, indi öz saleh qardaşının qanını tökdü! Sən bu haqqda nə düşünürsən? Öz qardaşını öldürmək fikrini Qabilin beyninə kim saldı? Qabil kimə qulaq asırdı? Qabil şeytana qulaq asırdı. Müqəddəs Yazılar deyir ki, Qabil öz qardaşını ona görə öldürdü ki, çünki özü "*şərdən idi"* (1 Yəhya 3:12) Biz artıq Allahın dünyada iki qrup insan- Allahın adamları və şeytanın adamları olacağı haqqda xəbər verdiyini öyrənmişik. **Habil Allaha məxsus idi.** Çünki o Allaha itaət edəcək qədər Onun Sözünə inanırdı. **Qabil isə şeytana məxsus idi**. Çünki o Allahın Sözünə inanmırdı.

İndi isə gəlin Qabilin öz gənc qardaşını öldürməsindən sonra Allahın ona nə dedikərinə qulaq asaq.

"*Sonra Rəbb Qabildən soruşdu: «Qardaşın Habil haradadır?» O dedi: «Bilmirəm, məgər mən qardaşımın keşikçisiyəm?» Rəbb dedi: «Sən nə etdin? Qardaşının qanının səsi torpaqdan Mənə fəryad edir. Buna görə də bu torpaqda lənət almısan; o torpaq ki sənin*

*əlinlə tökülən qardaş qanını udmaq üçün ağzını açdı. Torpağı becərdiyin zaman o daha gücünü sənə verməyəcək. Yer üzündə qaçaq və sərgərdan olacaqsan».* (Yaradılış 4:9-12)

Beləliklə Allah "*Torpağı becərdiyin zaman o daha gücünü sənə verməyəcək"* deyərək Qabili cəzalandırdı. Belə bir atalar sözü var: "Ətini yeyib, sümüyünü atmamaq." Eyni ilə də, Allah Qabili mühakimə etmək üçün yox, lakin günahından tövbə etmək, həqiqətə inanmaq və xilas olmaq üçün cəzalandırdı. Amma Qabil nə etdi? O tövbə etdi? Xeyr, o tövbə etmədi. Müqəddəs Yazılar deyir: "*Beləcə Qabil Rəbbin hüzurunu tərk etdi və Eden bağından şərqdə – Nod torpağında yaşamağa başladı*." (Yaradılış 4:16) Allahın Sözünü rədd edən Qabil, Onu öz həyatından çıxardaraq, Allahdan üz çevirdi. **Allah Qabildən yox, amma Qabilin özü Allahdan uzaqlaşdı.**

Bu gün Adəmin nəslinin əksəriyyəti öz yolları ilə getməyə davam edərək və Allahın səsinə öz ürəklərini sərtləşdirərək Qabilə oxşayırlar. Ağızları ilə onlar, "Allah böyükdür!" deyirlər amma ürəklərində onlar, "Allah uzaqdadır. Heç kim Onu tanıya bilməz!" deyə fikirləşirlər. Amma Allahın Sözü göstərir ki, **Allah bizim heç birimizdən uzaqda deyil**. Çünki O hamımıza həyat və digər şeyləri də verəndir. O bizə ürək döyüntülərimizdən də yaxındır. Allah səni şəxsən tanıyır və istəyir ki, sən də Onu şəxsən tanıyasan! (bax Həvarilərin İşləri 17:24-31; Romalılara 10:1-13)

Bəs onda nə üçün çox insanlar Allahı şəxsən tanımırlar? Allahın Kəlamı bu suala cavab verir. Allah deyir, "*Mühakimə bundan ibarətdir ki, dünyaya nur gəldi, amma insanlar qaranlığı nurdan daha çox sevdi, çünki əməlləri şər idi. Pislik edən hər kəs nura nifrət edər, əməllərinin üzə çıxmaması üçün nura tərəf gəlməz."* (Yəhya 3:19-20)

İnsanlar Allahı tanımırlar. Çünki onlar da Qabil kimi öz arxalarını Allahın Sözünə tərəf çeviriblər. Allahın peyğəmbəri Davud yazıb: "*Sözün addımıma çıraqdır, yollarıma işıqdır.*" (Məzmur 119-105) Əgər sən arxanı Allahın Sözündəki işığa çevirsən, onda sən günahın qaranlığında qalacaqsan və heç vaxt Allahı tanıya bilməyəcəksən. Sənin üçün Allah həmişə uzaq görünəcək. Amma Allah istəyir ki, sən biləsən ki, O uzaqda deyil. O sənin arxandadır. O sənin yanındadır. O sənin düz qarşındadır. Allah səni sevir və səninlə yaxın ünsiyyətdə olmaq istəyir. Amma sən öz ürəyini sərtləşdirən və Allahın salehlik yolunu rədd edən Qabil kimi olmamalısan**. Allah istəyirdi ki, Qabil tövbə etsin**. Bu günə qədər Allah hər bir insana tövbə etməyi, Ona dönməyi və Onun Sözünə inanmağı əmr edir.

Sən bilirsən tövbə etmək nə deməkdir? Bu *öz düşüncələrini və hərəkətlərini dəyişmək deməkdir*. Təvbə etmək, **Allah qarşısında** "Öz düşüncələrimdə Sənin yaratdığın salehlik yolu barədə səhv idim!" deməklə **etiraf etmək deməkdir**. Tövbə etmək, Allahla razılaşmaqdır ki, Onun ədalətli məhkəməsindən özünü xilas etmək üçün başqa yol yoxdur və sonra Ona dönmək və Onun xilas yoluna tabe olmaqdır.

Həqiqətən tövbə edən adam Gəncə--Bakı qatarı ilə səyahət edən adam kimidir. O bilet alır və qatara minir. Sonra o yol gedərkən görür ki, onun qatarı Tibilisiyə gedir! Tibilisiyə gedib çıxsa o nə etməlidir? O "tövbə" etməli, yəni etiraf etməlidir ki, səhv gedir. Qatardan düşüb, sonrakı Gəncəyə gedənə minməlidir. Beləliklə biz görürük ki, həqiqi tövbənin iki tərəfi var: səhvi rədd etmək və düzü qəbul etmək. **Həqiqi tövbəyə iki hərəkət daxildir.** Birinci, Allahın himayəçiliyini əldə etmək üçün sən günahlarını, bütlərini və öz cəhdlərini tərk etməlisən. İkincisi isə, Allaha və Onun xilas yoluna dönməlisən. Bu həqiqi tövbədir.

Qabil isə heç vaxt tövbə etmədi. Qabil **öz yolu ilə** getməyi seçdi. O Allahın yaratdığı **xilas**

**yoluna** tabe olmağı rədd etdi. Buna görə də Müqəddəs Yazılar deyir: *"...onlar Qabilin yolu ilə getdilər... onlar üçün Allah qatı qaranlığı əbədi saxlayır."* (Yəhuda 11, 13)

Mənim əziz dostlarım, **qoy biz Qabil kimi olmayaq**! Gəlin biz Allahın dediyi, *"tövbə etməsəniz, hamınız onlar kimi məhv olacaqsınız!"* (Luka 13:3) mühüm xəbərdarlığa diqqət yetirək! Allahın məhkəməsi hökmən olacaq və günahlarından təmizlənməyən hər bir adam mühakimə olunacaqdır.

Qoy bu haqqda heç bir yanlışlıq olmasın: Yaxşı işlərinlə sən heç vaxt Allah qarşısında saleh olmayacaqsan. Qabil kimi, çox insanlar inanırlar ki, öz dinlərinin qayda-qanunlarını izləməklə onlar Allahın məhkəməsindən qurtulacaqlar. Amma dindar olmaq adamı saleh etmir. Allahın Kəlamı deyir:

*"Qanuna əməl etməklə heç bir insan Allahın önündə saleh sayılmayacaq... Hamımız elə bil ki murdarlandıq, **bütün saleh əməllərimiz murdar əskiyə bənzəyir**.... Çünki iman vasitəsilə, lütflə xilas oldunuz və bu, **sizin nailiyyətiniz deyil, Allahın hədiyyəsidir**. **Əməllərlə deyil** ki, heç kim öyünə bilməsin!"* (Romalılara 3:20; Yeşaya 64:6; Efeslilərə 2:8,9)

Dinlədiyiniz üçün çox sağ olun. Allahın iradəsi ilə gələn dərsdə biz, Xanok peyğəmbər də daxil olmaqla Adəmin nəslinin bəzi üzvləri haqqında öyrənəcəyik. ...

Bu gün eşitdiklərinizi diqqətlə nəzərdən keçirdikcə, Rəbb sizə xeyir-dua versin. Müqəddəs Yazılar deyir:

***"O heç kəsin həlak olmasını istəmir, amma hər kəsin tövbə etməsini istəyir. Tövbə etməsəniz, hamınız onlar kimi məhv olacaqsınız...!"*** ( 2 Peter 3:9, Luka 13:3)

12-ci Dərs

# Xanok Peyğəmbər

**Yaradılış 4, 5**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək və Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Biz ötən iki dərsimizdə Adəm və Həvvanın ilk iki oğlu haqqında öyrəndik: Qabil və Habil. Allaha ibadət etmək üçün onların Allaha necə qurban təqdim etdiklərini eşitdik. Habil Allaha inandı və quzunun qanını gətirdi, amma Qabil Allaha öz səyi vasitəsilə yaxınlaşmağa çalışdı. Allah Habilin qurbanını qəbul etdi, lakin Qabilin qurbanını rədd etdi. Allah Qabili tövbəyə çağırdı amma Qabil daha da qəzəbləndi və öz qardaşı Habili öldürdü.

Bu gün biz Tövrat kitabında davam edəcəyik və Yaradılış kitabının dördüncü, beşinci fəsillərini öyrənəcəyik. Allahın Sözü bizə deyir ki, Adəm və Havvanın "*çoxlu oğlu və qızı oldu.*" (Yaradılış 5:4) Amma Adəmin nəsli içində Allah təkcə iki ailə hekayəsini bildirib: Qabilin və onun kiçik qardaşlarından olan Şetin ailəsini.

Birincisi, biz **Qabilin ailəsinə** baxacağıq. Qabil öz qohumundan arvad seçdi və onların övladları oldu. Amma "Ot öz kökü üstə bitər" deyildiyi kimi, Qabilin də nəsli öz atalarının düşündüyündən, danışdığından və hərəkətindən fərqli olmadı. Ataları kimi onlar da **Allahın Sözünə hörmət etmədilər**. Onlar bilikli, ağıllı idilər, amma Allahı tanımırdılar. Onlar yalnız dünyəvi şeyləri dəyərləndirirdilər. Onlar şəhər tikdilər, alətlər, fleyta, arfa və buna oxşar digər şeylər düzəltdilər. Qabilin nəslindən biri də Tubal-Qabil idi. O ixtiraçı idi və bürünc və dəmiri düzəltmişdi. Buna baxmayaraq gözəl əl işi gözəl ürək yaratmır!

Qabilin nəslindən olan Lemek, Adəmdən sonra yeddinci nəsil idi. Lemek ulubabası Adəmin izləri ilə getdi—fərq odur ki, o daha da pis idi. Lemekin iki arvadı var idi. Qabil kimi o da qatil oldu. Müqəddəs Yazılar deyir ki, Lemek iki adam öldürdü və Qabildən də pis olduğu üçün lovğalandı! Qabil və onun bütün nəsli kimi, Lemek də Allahın iradəsinə fikir vermədi. Lemek xudbin və pul sevən idi. O qürurlu və lovğa idi. O Allahı sevməkdənsə kefi, səfanı sevirdi. Şeytan onun sahibi idi, amma onun bundan xəbəri yox idi. Lemek belə idi. Çünki o Qabilin yolu ilə getməyi seçdi. Gəlin Lemekin adını yadımızda saxlayaq, çünki bu dərsi bitirməzdən əvvəl ona dönəcəyik.

Şükür Allaha ki, Müqəddəs Yazılar Qabilin və onun natəmiz nəslinin hekayəsi ilə bitmir, həm də Şetin ailəsi haqqında da bizə danışır. Allah öldürülmüş Habilin yerinə Adəm və Həvvaya "***başqa bir oğul bəxş etdi...*** " (Yaradılış 4:25) Onun adı Şet idi. Şet 'seçilmiş' deməkdir. Allah Habili əvəz etmək üçün Şeti seçdi. Nə üçün Şet Habili əvəz etməli idi? Cavab budur. Cənnət Bağında Allah şeytanı məğlub etmək və Adəmin nəslini onun hakimiyyətindən xilas etmək üçün Birini göndərməyi vəd etmişdir. Həmən Xilaskar Allaha inanan Habilin ailəsindən çıxa bilərdir. Amma şeytan Habili öldürmək üçün Qabili yoldan çıxartdı. Dünyaya Xilaskarı göndərmək üçün şeytan Allahın planına mane olmaq istəyirdi. Amma Allahın müdrikliyi şeytanınkından daha böyükdür. Adəmin övladlarını öz günahlarından xilas etmək üçün Allahın gözəl planı var idi və heç kim buna mane ola bilməzdi. Hətta şeytan da! Ona görə də, Allah Öz planını qoruyaraq Adəm və Həvvaya Qabilin öldürdüyü Habilin yerinə Şeti verdi. Beləliklə, Qurtarıcı haqqda **Allahın planı** davam etdi.

Şet həqiqi imanlı idi. Böyük qardaşı Habil kimi, Şet də Allahın yaratdığı xilas yolunu seçdi.

Şet də Adəmin bütün nəsli kimi günahda doğuldu. Buna baxmayaraq oAllahın vədlərinə inanırdı və günahları örtmək üçün quzunun qanını qurban kimi Allaha gətirərək öz imanını göstərmişdi. Şet haqqında digər qeyd ediləsi şey budur ki, o övladlarını Allahın həqiqətində böyütdü. Buna görə də Müqəddəs Yazılar deyir: *"Şetin də bir oğlu oldu və adını Enoş qoydu. O zaman insanlar Rəbbin adını çağırmağa başladı.*" (Yaradılış 4:26)

Beləliklə, biz Adəmdən yaranan iki ailə xəttini görürük: Qabilin ailəsi və Şetin ailəsi. Bilirsən bu iki ailə xətti nəyin rəmzidir? Bu Adəmin vaxtından bu günə qədər dünyada olan **iki növ insan qrupunun rəmzidir**. Allahın gözlərində dünyada iki növ insan qrupu var. O etnik qruplar arasında və ya qadınla kişi, zənginlə kasıb arasında fərq qoymur. Allah heç kim haqqında mənfi rəydə deyil; amma O dünyadakı adamları iki qrupa böldü. Bu iki qrup adamlar kimlərdir? Onlar **Allahın Sözünə inanan** və A**llahın Sözünə inanmayanlardır**; Allahı **tanıyanlar** və Allahı **tanımayanlardır**; **nurda yeriyənlər** və **qaranlıqda yeriyənlərdir**; **günahları bağışlananlar** və **günahları bağışlanmayanlardırlar.** Allaha inanan, Onun yaratdığı salehlik yolunu seçən hər bir kəs Şet və onun ailəsi xilas olduğu kimi xilas olacaq və cənnətə gedəcək. Allahın salehlik yolunu seçməyən, Qabil və onun ailəsi kimi məhv olacaq və cəhənnəmə gedəcək.

Müqəddəs Yazılar deyir ki, Adəm 930 il yaşadı və sonra öldü. O vaxtlar insanlar çox qoca olana qədər yaşayırdılar, amma onlar da hamı kimi öldülər. Adəm və Həvva Allahın dediyi kimi öldülər. Allah ilk iki insanı yaradanda, Allahın iradəsi onların ölmələri deyil amma yaşamaları idi. Onda nə üçün Adəm və Həvva öldü? Çünki onlar Allaha qarşı günah işlətdilər və günah ölümü doğurur.

İndi isə biz Allaha inanan Şetin ailəsindən olan, Allah adamının hekayəsinə baxacağıq. Bu adam **Xanokdur**....Allahın peyğəmbəri Xanok. Bəziləri onu Qurandakı "İdris" adı ilə də tanıyırlar. Yaradılış kitabının 5-ci fəsilində biz Xanokun nəsil şəcərəsini görürük. Müqəddəs Yazılar deyir: Adəm Şetin atası idi; Şet Enoşun atası idi; Enoş Qenanın atası idi; Qenan Mahalalelin atası idi; Mahalalel Yeredin atası idi; Yered Xanokun atası idi. Beləliklə, Hanok Şetin xəttində Adəmdən sonra yeddinci nəsil idi.

Bütün insanlar kimi, Hanok **günahda doğuldu**. Amma 65 yaşı olanda Xanok tövbə etdi, Allaha döndü və Allahın vədinə inandı. Xanok Allaha günahları örtmək üçün heyvan qanı qurban gətirərək Allaha imanını göstərdi. Nəticə etibarı ilə, Allah Xanokun imanını salehlik kimi saydı, onun günahlarını bağışladı və qəlbini təmizlədi. Beləliklə Müqəddəs Yazılar deyir: *"Xanok üç yüz il Allahla bir yol getdi."* (Yaradılış 5:22)

Amma Xanokun vaxtında Allah ilə bir yol getmək asan deyildi. Çünki o vaxtlarda da bu günkü kimi natəmiz və şər idi. Xanokun dövründə yaşayan adamların əksəriyyəti həzz dalınca qaçır və natəmiz həyat sürürdülər. Xanok isə bilirdi ki, Allah insanı natəmizlikdə yaşamaq üçün yox, müqəddəslikdə yaşamaq üçün yaradıb. Buna görə də Xanok izn vermədi ki, günah Allahı tanımayan qonşularını idarə etdiyi kimi onu da idarə etsin. Xanok Allah kimi salehliyi sevirdi və ədalətsiziyə nifrət edirdi. İnsanlar onu təhqir edir və saleh həyat tərzinə görə onu təqib edirdilər. Amma Xanok imkan vermirdi ki, bu şeylər ona mane olsun. Çünku o bilirdi ki, Allahla sülhdə olmaqdan daha mühüm heç bir şey yoxdur.

Həmin o şər vaxtda Allah Xanoku Öz xidmətçisi və peyğəmbəri olmaq üçün seçdi. **Bütün peyğəmbərlər kimi, Xanok da gələcək olan Qurtarıcı haqqında şəhadət edirdi.** O tövbə etməyi və Ona inanmağı rədd edən hər bir kəsi cəzalandırmaq üçün bir gün Qurtatıcının gələcəyini də bildirirdi**.** Xanokun vəzinə qulaq as:

*"Budur, Rəbb saysız-hesabsız müqəddəs mələkləri ilə gəldi ki, hamını mühakimə etsin və Allaha qarşı gördükləri allahsız işlər və allahsız günahkarların Özünə qarşı inadkarcasına dedikləri bütün sözlər üçün məhkum etsin."* (Yəhuda 1:14,15)

Xanok haqqında heyrətamiz bir şeyi də bilməliyik. Xanok ölmədi. Bəli, bu doğrudur. Allahın Sözü deyir ki, **Xanok ölmədi**! Kəlam deyir: *"Xanok üç yüz il Allahla bir yol getdi. Sonra qeyb oldu, çünki Allah onu Öz yanına götürdü."* (Yaradılış 5:22, 24) Öz qüdrəti ilə, ölüm qapısından keçmədən, Allah Xanoku birbaşa göylərə götürdü.

Nə üçün Allah Xanoku belə yolla götürdü? Xanokun həyatı vasitəsilə Allah bizə Ona həqiqətən inanan və hər şeydə Onu izzətləndirməyi axtaranlar haqqında nə fikirləşdiyini bizə öyrətmək istəyir. Müqəddəs yazılar deyir:

"***Xanok ölümü görməsin deyə iman vasitəsilə dünyadan götürüldü****. Onu tapa bilmədilər, çünki Allah onu dünyadan götürmüşdü. Götürülməzdən əvvəl o, şəhadət almışdı ki, Allahı razı salıb. İman olmadan Allahı razı salmaq qeyri-mümkündür. Çünki Allaha yaxınlaşan şəxs inanmalıdır ki, O var və Onu axtaranlara mükafat verir."* (İbranilərə 11:5,6)

Üç yuz il Xanok Allahı məmnun etdi. Çünki o Allaha inandı, Onu sevdi və əksər insanların Allahın istəyinin qayğısına qalmadığı bir vaxtda Ona itaət etdi. Beləliklə bir gün Allah onun çağırdı: dərhal Xanok Allahın evinə, cənnətə düşdü! Burada Allahın bizə görsətmək istədiyi çox vacib bir məsələ var. O budur: Əgər səndə Xanokun imanı kimi iman olmasa, sən heç vaxt Allahı razı sala bilməyəcəksən! Əgər sənin Xanok kimi imanın olsa, Allah səni saleh sayacaq və daha ölümdən qorxmağa ehtiyac olmayacaq. Sən əmin ola bilərsən ki, Allah sənin üçün ölümə qələbə çalıb. Çünki əgər sən Allahın Sözünə qulaq assan və Ona inansan, sənin yerdəki həyatın sona çatanda sən də Xanok kimi əbədi olaraq Rəbbin hüzurunda yaşamağa gedəcəksən! Lakin sən günahlı insanlar üçün Allahın saleh xilas yolu haqqında dediklərini başa düşməlisən və inanmalısan.

Dərsimizi yekunlaşdırmaq üçün biz bu gün oxuduğumuz Adəmin iki nəsli arasında müqayisəni etmək istəyirik: **Lemek və Xanok.**

**Lemek və Xanokun hər ikisi Adəmdən sonra yeddinci nəsil idi.** Lemek Qabilin nəslindən idi və Xanok Şetin nəslindən. Lemek və Xanok eyni dövrdə yaşayıblar amma onların dünyaya baxışları fərqli idi. Onların həyat tərzləri bir-birinin əksi idi.

**Lemek** Allah və Onun Sözünə inanmadı, amma **Xanok** Allaha inandı və Onun Sözünü sevdi..

**Lemek** şeytanla natəmizlikdə yeridi, **Xanok** isə Allahla müqəddəslikdə yeridi.

**Lemek** Allah tərəfindən qoyulan xilas yolunu inkar etdi. Amma **Xanok** onu nəvazişlə sevdi və öz günahını yumaq üçün Allaha quzunun qanını gətirdi.

**Lemek** pul, qadın, yemək, geyim və həzz arzuladı. **Xanok** isə ona həyat Verən ilə yaxın ünsiyyəti arzuladı.

**Lemek** öz günahında öldü və cəhənnəmə getdi, lakin Allah **Xanoku** Özü ilə cənnətdə olmaq üçün götürdü.

Ən vacib sual: **Sən daha çox Lemek kimisən ya Xanok**? Sən Qabilin və Lemekin nəslinə aidsən, ya Şetin və Xanokun nəslinə? Sən Xanokun imanını qəbul edir, ya Lemek kimi öz

yolun ilə gedirsən? Allahın Sözü deyir: "***Özünüzü yoxlayın*** *və iman yolunda olub-olmadığınızı bilmək üçün sınaqdan keçirin"... çünki "İman olmadan Allahı razı salmaq qeyri-mümkündür."* (2 Korinflilərə 13:5; İbranilərə 11:6)

Dostlar, gələn dərsdə Allahın iradəsi olsa, biz başqa peyğəmbəri – Nuh peyğəmbərini oxuyacağıq....

Müqəddəs Sözü nəzərdən keçirdikcə Allah sizə xeyir-dua versin:

***"İman olmadan Allahı razı salmaq qeyri-mümkündür. Çünki Allaha yaxınlaşan şəxs inanmalıdır ki, O var və Onu axtaranlara mükafat verir."*** (İbranilərə 11:6)

13-cü Dərs

# Nuh Peyğəmbər: Allahın Səbri və Qəzəbi

**Yaradılış 6**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək və Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Müqəddəs Yazılara baxarkən biz artıq gördük ki, başlanğıcda, Allah dünyanı yaradanda hər şey yaxşı idi. Buna baxmayaraq bizim ulubabamız Adəm Allaha itaətsizlik etdi və onun vasitəsilə **şər** dünyaya daxil oldu və bütün insanlara yayıldı. Ötən dərsimizdə biz Adəmdən yaranan iki nəsil haqqında öyrəndik. Qabilin nəsli və Şetin nəsli. Qabilin nəsli Allaha inanmırdı. Amma Şetin nəsli arasında Allahın Sözünə inananlar var idi və nəticə etibarı ilə Allah onların günahlarını bağışladı. Şetin nəslindən olanlardan biri də Xanok idi. Xanokun dövründə yaşayanların əksəriyyəti natəmiz həyat sürməklə şeytanın arxasınca gedərkən, Xanok Allahla müqəddəslikdə yeriyirdi.

Bu gün biz hiyləgər və pozulmuş bir dövrdə Allahla yeriyən başqa bir adam haqqında öyrənməyə başlayacağıq. Bu Xanokun nəticəsi olan **Nuh peyğəmbəridir**. Biz artıq öyrəndik ki, əvvəlki insanlar bu günki insanlardan daha çox yaşayardılar. Sən heç bilirsən dünyada ən çox uzun ömr sürən şəxs kim olub? Bu Xanokun oğlu Metuşela idi. O 969 yaşı olana qədər yaşadı. Metuşela Nuhun atası olan Lemekin atası idi. (Nuhun atası olan bu Lemek keçən dərsimizidə öyrəndiyimiz Qabilin nəslindən olan Lemek deyil.) Nuh Adamin onuncu nəsli idi. Nuhun 500 yaşı olanda Samın, Hamın və Yasəfin atası oldu.

Nuh haqqında oxuyacağımız şeylər çox dəyərlidirlər. Çünki Nuhun günləri indi bizim yaşadığımız bu günki günlərə çox bənzəyir. Nuhun vaxtında günah dünyanı basmışdı. Müqəddəs Yazılar deyir ki, "*yer üzündəki insanların şər əməlləri çoxdur və hər zaman onların ürəyindəki fikirlər və niyyətlər pisliyə doğru yönəlir.*" (Yaradılış 6:5) Adəmin övladlarının ürəkləri şər fikirlər, tamahkarlıq, hiylə, iyrənclik, paxıllıq, böhtan, lovğalıq, mübahisə etmə, vuruşma, zinakarlıq, oğurluq, qatillik və axmaqlıq ilə dolu idi. (Mark 7:21,22-yə əsasən) İnsanlar Allahın onlar üçün yaratdığı dünyanı məhv edirdilər. Çoxlarının dini var idi, amma bu sadəcə başqalarına göstərmək üçün idi. Cismani həzz onların allahı idi və onların günahları üst-üstə yığılırdı!

Tövratda, Yaradılış kitabı 6-cı fəsildə Müqəddəs Yazıların nə dediklərinə baxaq:

(Yaradılış 6:3-6) *"Rəbb dedi, "Mənim Ruhum insanda əbədi qalmayacaq, çünki onlar ancaq bədəndir. Onların ömrü yüz iyirmi il olacaq». Həmin dövrdə və Allah oğulları insan qızlarını arvad alıb övladları doğulan dövrdə də yer üzündə böyük adamlar yaşayırdı. Bunlar qədim dövrün qəhrəman və adlı-sanlı adamları idi. Rəbb gördü ki, yer üzündəki insanların şər əməlləri çoxdur və hər zaman onların ürəyindəki fikirlər və niyyətlər pisliyə doğru yönəlir. O, yer üzündə insanları yaratdığına peşman oldu və ürəyində kədərləndi."*

Beləliklə biz öz şər əməllərinə görə Adəmin nəslini yer üzündən necə siləcəyi Allahın planını görürük. Buna baxmayaraq, günahlı insanların məhv olmaması, lakin onların

tövbə etmələri üçün Öz mərhəmətinə görə Allah səbirli oldu və onlara əlavə 120 il vaxt verdi. Amma o vaxt gəlib çatanda, Onun salehlik yolunu qəbul etməyən hər bir şəxsi Allah mühakimə edəcəkdi.

Verdiyi bu 120 ildən biz Allahın xasiyyəti haqqında nə isə öyrənə bilərik. Bu belədir: **Allah çox səbirlidir. Lakin Onun səbrinin həddi var!** O danışacaq və insanların tövbə etməsi üçün səy göstərəcək, amma həmişəlik yox. Buna görə də Nuhun vaxtında Allah dedi: *"Mənim Ruhum insanda əbədi qalmayacaq, çünki onlar ancaq bədəndir. Onların ömrü yüz iyirmi il olacaq."* (Yaradılış 6:3) Beləliklə biz Allahın günahlı insanlarla bir müddət necə səbirli olacağını, sonra isə tövbəni rədd etsələr onları mühakimə edəcəyi planını görürük. Burada biz Allahın iki xüsusiyyətini müşahidə edə bilərik: **Onun səbri və Onun qəzəbi**. Allah yaxşıdır və çox səbirli ola bilər. O həmçinin ədalətlidir, həm də çox qəzəblənə bilər!

Bəzi adamlar fikirləşirlər ki, Allah tez qəzəblənir və onları döyməkdən, incitməkdən həzz alan biri kimi onları böyük çubuqla gözləyir. Allah belə deyil. Digərləri fikirləşirlər ki, Allah heç vaxt qəzəblənmir və sadəcə olaraq insanların günahlarını bağışlayacaq və unudacaq. Onların bildikləri tək şey "Allah yaxşıdır! Allah yaxşıdır!" Lakin Allah belə də deyil.

Müqəddəs yazılar Allahın xasiyyəti haqqında bizə **həqiqətləri deyir**. Allah yaxşı **və** ədalətlidir! O səbirli və hirsli ola bilər. Günahlı insanlarla səbirli olması Onun yaxşılığı və Mərhəmətinə görədir, lakin günahlı insanlara qəzəbli olması isə Onun salehliyi və müqəddəsliyinə görədir. Allah Xilaskar və Hakimdir. Peyğəmbərlər Allahın **səbiri və qəzəbi** haqqında çox şeylər yazıblar.

Müqəddəs Yazılar deyir:

*"Bu bir şeyi yadınızdan çıxarmayın ki, Rəbb üçün bir gün min il kimidir, min ilsə bir gün kimidir. Bəziləri bunu gecikmə sayar, amma Rəbb vədini yerinə yetirməkdə gecikməz, lakin sizə görə səbir edir. Çünki O heç kəsin həlak olmasını istəmir, amma hər kəsin tövbə etməsini istəyir. Rəbbin günü isə oğru kimi gələcək."* (2 Peter 3:8-10)
"*Rəbb Öz xalqını mühakimə edəcək. Var olan Allahın əlinə düşmək dəhşətdi.... Bunu Deyəni rədd etməyəsiniz deyə diqqətli olun.... Çünki Allahımız yandırıb-yaxan alovdur!*
(İbranilərə 10:30,31; 12:25,29)

Məzmurlarda biz oxuyuruq: *"Allah adil hakimdir, Hər gün haqsızlığa görə hökm verir. Pislər yolundan dönməzsə, O, qılıncını itilər, ox-kamanını qurar."* (Zəbur 7:11,12)

İncildə yazılıb:

*"Həqiqətə haqsızlıqla əngəl törədən adamların hər cür allahsızlığı və haqsızlığı ucbatından Allahın qəzəbi göydən aşkar olur..... Bizsə bilirik ki, belə işlərlə məşğul olanlara Allah həqiqətə əsasən hökm çıxarır. Ey belə işlərlə məşğul olanları mühakimə edərək özü də həmin işləri görən insan! Məgər elə güman edirsən ki, Allahın hökmündən qaça biləcəksən? Yaxud sən Allahın zəngin xeyirxahlığına, həlimliyinə və səbirli olmağına xor baxırsan? Bəs anlamırsan ki, Onun xeyirxahlığı səni tövbəyə yönəldir? Amma sən Allahın qəzəbinin və ədalətli hökmünün zahir olacağı gün inadkarlığına və tövbə etməyən ürəyinə görə özün üçün qəzəb toplayırsan; Allah hər kəsə əməlinə görə əvəzini verəcək."*
(Romalılara 1:18; 2:2-6)

Allahın qəzəbi insan qəzəbi kimi deyil. İnsan çox qəzəblənə bilər amma onun qəzəbi yavaş-yavaş azalır və hətta bəzən qəzəbləndiyi şeyi unuda da bilər. Allahın qəzəbi belə deyil! Vaxt keçsə də bu Allahın qəzəbinin azalmasına səbəb olmur. Allah ədalətli hakimdir və heç nəyi unutmur! Onun qəzəbi tövbə etməyənlərə qarşı azalmır; əksinə daha da artır! Müqəddəs Yazılarda indicə oxuduğumuz budur: "*Amma sən Allahın qəzəbinin və ədalətli hökmünün zahir olacağı gün inadkarlığına və tövbə etməyən ürəyinə görə özün üçün qəzəb toplayırsan."*

Nuhun dövründəki adamlar özlərinə Allahın qəzəbini "*toplayırlar*"! Buna baxmayaraq, o vaxt da Allahı bütün qəlbi ilə sevən və Allahın Sözünə inanan bir adam var idi. O Nuh idi. Beləliklə Müqəddəs Yazılar deyir: "***Ancaq Nuh Rəbbin gözündə lütf tapdı.*** *Nuhun tarixçəsi belədir: Nuh saleh və öz nəsli arasında qüsursuz bir adam idi. O, Allahla bir yol gedirdi."* (Yaradılış 6:8,9)

Nə üçün Allah Nuha öz lütfünü göstərdi? Nuh Allahın lütfünə layiq oldu? Xeyr! Əmələ görə olan lütf daha lütf deyil. Lütf "layiq olmayan xeyirxahlıq" deməkdir. Nə üçün Allah lütfünü başqalarına yox, məhs Nuha göstərdi? Müqəddəs Yazılar bu haqqda nə deyir? Orda deyilir ki, başqaları Allaha inanmadıqları bir vaxtda Nuh Allaha inanırdı.

Nuh Allahın Sözünə inanırdı. Adəmin bütün nəsli kimi, Nuhun da günahı var idi, amma Allah onu saleh saydı. Çünki o Allaha inandı və öz günahı üçün Allahın buyurduğu kimi qan qurbanı gətirdi. Beləliklə Müqəddəs yazılar deyir: "*Nuh saleh və öz nəsli arasında qüsursuz bir adam idi."*

Bir gün Allah Nuha dedi:

(Yaradılış 6:13-21) "*Önümdə olan bütün bəşərin sonu çatıb, çünki yer üzü onların zorakılığı ilə dolub. Buna görə də Mən onları yer üzü ilə birgə məhv edəcəyəm. Özünə qofer ağacından bir gəmi düzəlt, onun içində otaqlar düzəlt, üstünə içəridən və bayırdan qatran vur. Gəmini belə düzəlt: onun uzunluğu üç yüz qulac, eni əlli qulac, hündürlüyü isə otuz qulac olsun. Gəminin üstündən bir qulac aşağı pəncərə açarsan və qapısını yan tərəfdən qoyarsan. Gəminin üç mərtəbəsi olsun: biri altda, biri ortada, biri də üstdə. Bax Mən yer üzünü suya qərq edəcəyəm ki, göylər altında həyat nəfəsi olan bütün canlılar məhv olsun və yer üzündə olanların hamısı öləcək. Ancaq əhdimi səninlə bağlayıram. Sən oğulların, arvadın və gəlinlərinlə birgə gəmiyə minərsən. Bütün heyvanlardan, canlı məxluqlardan bir cütünü – erkək və dişisini gəmiyə götürərsən ki, səninlə birgə sağ qalsın. Növlərinə görə quşların, heyvanların və yerdə sürünənlərin hər birindən bir cütü sənin yanına gələcək ki, sağ qalsın. Həmçinin özünlə birlikdə hər cür azuqə götürüb yanına yığ ki, sənin və onların yeməyi olsun."*

Beləliklə Allah tövbə etməyən və həqiqətə inanmayan hər bir şəxsi məhv etmək üçün dünyaya daşqın göndərəcəyi haqqındakı planını Nuha dedi. Daşqından xilas olmaq üçün Allah Nuha gəmi tikməyi buyurdu. Gəminin uzunluğu 150 metr olmalı idi. Bu Nuh, onun ailəsi, bir çox heyvanlar və Allahın Sözünə inanan hər bir kəs üçün sığınacaq olacaqdı. Allah Nuha buyurdu ki, gəminin içində **çoxlu otaqlar** tiksin, amma gəminin çölündə **bir qapı** olsun. Beləliklə, Nuhun dövründəki adamlar üçün Allahın xəbəri bu idi: **Daşqın məhkəməsindən qurtulmaq istəyən hər bir kəs gəminin bu bir qapısından keçməlidir**. Qapıdan keçən hər kəs **xilas olacaqdır**. Qapıdan keçməyənlər isə **məhv olacaq**!

Nuh gəmi tikməyə başladı. Bu nəhəng gəmi idi. Nuh yüzlərlə ağac kəsməli, onları taxta formasına salmalı, düzəltməli və mismarlamalı və gəmiyə qatran sürtməli idilər. Nuhun

arvadı və onun gəlinləri də o ağır işlərdə onlara kömək etdilər. Yüz ilə, günbəgün Nuh və onun arvadı gəmini tikmək üçün işlədilər. Lakin Nuh  sadəcə gəmini tikməklə öz fəaliyyətini məhdudlaşdırmadı. Həm də o, öz dövrünün adamlarına təbliğ də edirdi. Ola bilər ki, o belə deyirdi: "Dinləyin! Allah mənə dedi ki, Onun qəzəbi haqqında sizə xəbərdarlıq edim! Sizin günahlarınıza görə Allahın qəzəbi çoxalıb! Tövbə etməyi rədd edən hər bir kəsi məhv etmək üçün O, yer üzünə daşqın göndərməyi qərara alıb. Amma sizə şad xəbərim də var! Öz mərhəməti ilə, Allah günahlarından tövbə edən və Onun Sözünə inanan hər bir kəs üçün gəmi tikməyi buyurub!" Beləcə Nuh insanlara xəbərdarlıq edirdi və pozulmuş nəsli pis yollarından üz döndərməyə çağırırdı.

Sən nə fikirləşirsən? Nuhun dövründəki adamlar Allahın peyğəmbəri vasitəsilə élan etdiyi sözlərə inandılar? Biz indi cavab verməyəcəyik. Amma gələn dəfə Rəbbin iradəsi ilə biz, Nuh peyğəmbərin hekayəsini davam etdirəcəyik, və Onun Sözünə inanan insanları Allahın necə qoruduğuna və Onun Sözünə inanmayanları necə məhkum edərək, böyük daşqının sularında batırmasına baxacağıq.

Dinlədiyinizə görə çox sağ olun…. Müqəddəs Yazılardan oxuduğumuz bu günkü ayələr haqqında düşündükcə Rəbb sizə xeyir-dua versin:

***"Rəbb vədini yerinə yetirməkdə gecikməz, lakin sizə görə səbir edir. Çünki O heç kəsin həlak olmasını istəmir, amma hər kəsin tövbə etməsini istəyir. Rəbbin günü isə oğru kimi gələcək."*** (2 Peter 3:9,10)

14-cü Dərs

# Nuh və Daşqın

**Yaradılış 7**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək və Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Axırıncı dərsimizdə biz Adəmdən sonra onuncu nəsildə doğulan Nuh peyğəmbərin heyrətamiz hekayəsinə baxmağa başladıq. Pozulmuş və xarab olmuş bir dövürdə Nuh Allah ilə yeriyirdi. Adəmin nəslinin günahına görə Allahın necə kədərləndiyini gördük. Müqəddəs Yazılar deyir ki, *"Rəbb gördü ki, yer üzündəki insanların şər əməlləri çoxdur və hər zaman onların ürəyindəki fikirlər və niyyətlər pisliyə doğru yönəlir."* (Yaradılış 6:5) Buna görə də Allah qəzəblənərək günahlı, tövbə etməyən insanları yer üzündən silməyi qərara aldı.

Buna baxmayaraq Allahın lütfü Nuh ilə idi. Çünki Nuh Allahı sevirdi və Onun Sözünə inanırdı. Beləliklə bir gün Allah Nuha dedi: Mən bütün bəşəriyyəti məhv etmək niyyətindəyəm. Çünki yer üzü pisliklə dolubdur. Səma altında yaşayan hər şeyi məhv etmək üçün Mən yer üzünə böyük daşqın göndərəcəyəm. Sən isə özün və ailənin sığınması üçün böyük bir gəmi tik.

Yüz ilə Nuh və onun ailəsi bu gəmini tikmək üçün işlədi. Lakin Nuh sadəcə gəmi tikmədi, həm də öz ətrafındakı adamlara belə təbliğ edirdi: “Günahlarınızdan tövbə edin, Allaha dönün! Saleh Olan Allah dünyaya hökm edəcək!”

Nuhun dövründəki adamalar öz günahlarından tövbə edib peyğəmbər vasitəsilə Allahın elan etdiyi sözlərə inandılar? Sən nə fikirləşirsən? Yer üzündə yaşayan, Adəmin minlərcə və minlərcə övladları arasında neçə nəfər tövbə etdi və Allaha inandı ki, gəmiyə daxil olsun? Müqəddəs yazılar deyir: "*az adam, başqa sözlə, səkkiz nəfər sudan sağ-salamat çıxdı."* (1 Peter 3:20)

Neçə nəfər Allaha inandı? Yalnız səkkiz: Nuh və arvadı, onların üç oğlu və onların arvadları. Bütün digər adamlar isə Allahın Sözünə inanmadılar. Başqaları ona lağ etdi, bəziləri sadəcə olaraq Nuhun təbliğ etdiyinə əhəmiyyət vermədi. Onlar fikirləşdilər ki, o dəlidir. Çünki onun gəmi tikdiyi yerdə heç bir su yox idi. Ola bilsin ki, adamlar Nuha belə sataşırdılar: "Ay camaat! Gəlin çöllükdə gəmi tikən bu kişiyə baxın! Nuh yəqin ki, ağılsızdır! Səhralıqda daşqın? Mümkün deyil! Həm də, Allah yaxşıdır; O Öz yaratdığı adamları məhv etməz! Nuh, sən dəli olmusan!" Buna baxmayaraq Nuh onların sataşmalarına əhəmiyyət vermədi. Çünki Allahın dediklərinə inanırdı. O gəmini tikməyə və təbliğ etməyə davam edərək deyirdi: "Tövbə edin! Allah dünyanı ədalətlə məhkum edəcək! Nə üçün siz Allahın Sözünə inanmaqdan imtina edirsiz? Nə üçün siz məhv olmaq istəyirsiz?"

Nəhayət Nuhun və ailəsinin gəmini tikib qurtardığı gün gəlib çatdı. Yaradılış kitabının altıncı fəslinin sonuncu ayəsində biz oxuyuruq: *"Nuh hər şeyi etdi: Allah ona necə əmr etmişdisə, o da hər şeyi eləcə yerinə yetirdi."* (Yaradılış 6:22) Gəmi hazır idi. Hər şey bitmişdir. Yalnız bir şey qalmışdır: Nuhun və onun ailəsinin gəmiyə daxil olması. Bəlkə də

Nuh adamları bir daha inandırmağa çalışırdı: "Allaha qulaq asın! Tövbə edin, Onun Sözünə inanın! Daşqın tezliklə gələcək! Nə qədər ki, vaxt var gəmiyə daxil olun! Qapı açıqdır! Qapıdan keçən xilas olacaq! Əgər daxil olmasan, onda Allahın məhkəməsindən necə qurtulacaqsan?" Beləcə Nuh inadla camaata xəbərdarlıq etdi. **Amma onlar qulaq asmadılar.**

Nəticə etibarı ilə yeddinci fəsildə, Müqəddəs Yazılar deyir:

*"Rəbb Nuha dedi: «Sən bütün ailənlə birgə gəmiyə gir, çünki bu bəşər nəsli içində yalnız səni önümdə saleh gördüm. Bütün yer üzündə nəsli kəsilməsin deyə hər pak heyvanın erkək və dişisindən yeddi cüt, hər murdar heyvanın erkək və dişisindən bir cüt götür. Həmçinin göydəki hər quşun erkək və dişisindən yeddi cüt götür. Çünki yeddi gün sonra yer üzünə qırx gün-qırx gecə yağış yağdıracağam və yaratdığım bütün canlıları yer üzündə məhv edəcəyəm». Rəbb Nuha necə əmr etmişdisə, o da hər şeyi eləcə yerinə yetirdi."* (Yaradılış 7:1-5)

Nə üçün Nuh və onun ailəsi gəmiyə daxil oldu? Çünki onlar buludlu səma gördülər? Çünki onlar yağışın gəlməsini hiss etdilər? Xeyr! Onlar gəmiyə daxil olanda gördükləri təkcə aydın səma idi. Onda nə üçün onlar içəri daxil oldular? Burada yalnız bir səbəb var. Onlar daxil oldular, çünki **Allahın dediklərinə inanırdılar**. Ola bilsin ki, kənarda belə fikirləşənlər var idi: "Mən də Allaha inanıram. Amma mən gəminin içinə girməyəcəyəm! Mən Allaha inanıram, amma Nuhun təbliğ etdiklərinə inana bilmərəm!" Biz bu adamlar haqqında nə deyə bilərik? Biz deyə bilərik ki, **onlar Allaha həqiqətən inanmırdılar**. Çünki onlar Allahın peyğəmbər vasitəsilə şəhadət etdiklərinə inanmadılar. Onlar günahlarından tövbə etməyi və Allahın Nuh vasitəsilə təmin etdiyi qurtuluş yolunu inkar etdilər. Ola bilsin ki, onlar sözləri ilə Allaha hörmət edirdilər, amma ürəklərində Allahdan uzaq idilər.

Beləliklə Müqəddəs Yazılar deyir:

"*Nuh, onun arvadı, oğulları və gəlinləri daşqından qurtarmaq üçün birlikdə gəmiyə mindilər. Allahın Nuha əmr etdiyi kimi pak və murdar heyvanların, quşların, bütün yerdə sürünənlərin erkək və dişisi cüt-cüt Nuhun yanına gəlib gəmiyə mindi....* ***Onların dalınca Rəbb gəminin qapısını örtdü****."* (Yaradılış 7:7-9,16)

Nuh və onun ailəsi gəmiyə qirəndən sonra Allahın nə etdiyini eşitmisən? Müqəddəs Yazılar deyir, "***Onların dalınca Rəbb gəminin qapısını örtdü!"*** Allahın böyük qəzəbinin vaxtı gəlib çatdı. Allah o nəslin adamları ilə uzun müddət səbirli oldu, amma indi **Onun səbri bitdi**! **Yalnız qəzəbi qalmışdı**. Allah qapını bağladı; Allahın bağladığı qapını heç kəs aça bilməz.

Beləliklə, Allah dediyi kimi, yer üzünə daşqın göndərdi. İndi Adəmin övladları qorxudan titrəməyə başladılar. Hər şey sakit olanda, Allahı öz sözləri və hərəkətləri ilə təhqir etmək çox asan idi. Amma indi onların üzərinə Allahın məhkəməsi gəlməyə başladı. Onların ağzı yumuldu! Allahın ədalətli məhkəməsi ilə üzləşməsi vaxtı gəlib çatdı və daha heç bir yerdə gizlənmək olmazdı!

Böyük daşqın ilə nəticələnən leysan yağmağa, yerin dərin bulaqları sellərlə axmağa başladı, okeanlar və çaylar daşdı. Su axını hər bir kəndi və şəhəri basdı. Həmin an daşqına

düşməyənlər, hündür yerlər axtarırdılar. Nuha lağ edənlər və Allahın Sözünü rədd edənlər indi Allahın Öz peyğəmbəri vasitəsilə dediklərinin həqiqət olduğunu bildilər. Amma bildiklərinin artıq onlara heç bir faydası yox idi. Çünki tövbə etmək imkanı getmişdi; xilas müddəti keçmişdi. Ola bilsin beziləri Nuh! Nuh! Qapını aç! Bizi xilas et! Biz sənə inanırıq! Sən haqlısan! Biz sənə inanırıq! Biz inanırıq! -deyə qışqırırdılar. Amma **artıq çox gec idi.** Allah qapını örtmüşdü. Xilas günü keçmişdi. Məhkəmə günü gəlmişdi. Dua etmək, hönkürmək, qapını çırpmaq, hətta həqiqəti bilmək belə --- heç nə Allahın fikrini dəyişə bilməzdi. **Allah xilas qapısını bağlayanda, heç kim onu aça bilməz.**

Beləliklə, Müqəddəs Yazılar bizə deyir ki, qırx gün dayanmadan yağış yağdı. Hətta dağlar da suyun altında qalmışdı. Amma gəmi suyun üzərində idi.

*"Yer üzündə hərəkət edən canlıların hamısı – quşlar, ev heyvanları, çöl heyvanları, yerdə sürünənlər və bütün insanlar məhv oldu. Quruda yaşayan, burnunda həyat nəfəsi olan canlı varlıqların hamısı öldü. Rəbb yer üzündə olan bütün canlıları məhv etdi: insanlardan tutmuş heyvanlara, sürünənlərə və göydəki quşlara qədər hər şey yer üzündə məhv oldu.* ***Yalnız Nuh və onunla birgə gəmidə olanlar sağ qaldı****."* (Yaradılış 7:21,23)

Allah dediyi sözü yerinə yetirdi? Əlbəttə! Tövbə etməyən günahlı insanları məhkum etdi? Əlbəttə etdi! O, gəmidə olmayan hər bir kəsi, dediyi kimi məhkum etdi.

Əziz dinləyicilər, Nuh haqqında deyəcəklərimiz bunlardır. Allahın iradəsi ilə sonrakı proqramımızda gəmidə Nuha və onun ailəsinə nə baş verdiyi haqqında öyrənəcəyik. Amma bitirməzdən əvvəl böyük daşqın, mühakimə hekayəsi haqqında Allah bizə vacib bir dərs öyrədir. O budur: Bu dünyanın insanlarını mühakimə etmək üçün Allah başqa bir gün də nəzərdə tutub. Və həmin Hökm Günü Nuhun dövründəkindən daha dəhşətli olacaqdır!

Sonuncu hökm günü haqqında Allahın peyğəmbərlərindən birinin dediklərinə qulaq asın. O yazır:

*"Böyük ağ taxt və onun üstündə Oturanı gördüm. Yer və göy Onun önündən qaçdı və onlara yer tapılmadı. Mən gördüm ki, böyükdən kiçiyə qədər ölülər taxtın önündə dayanıb. Kitablar açıldı və həyat kitabı olan başqa bir kitab da açıldı. Ölülər kitablarda yazılanlara əsasən öz əməllərinə görə mühakimə olundu. Kimin adı həyat kitabına yazılmayıbsa, o,* ***odlu gölə atıldı****."* (Vəhy 20:11-12,15)

Dost, sən qorxulu hökm gününü nəzərdən keçirdikcə özünə arxayınsan? Allahın açdığı xilas qapısından keçmisən? Allahın Sözü deyir: ***"Budur, indi münasib vaxt, budur, indi xilas günü."*** (2 Korinflilərə 6:2) Biz Nuhun günlərində Allahın səbirlə insanların inanıb xilas olmaları üçün necə müraciət etdiyini gördük, amma axırda O xilas qapısını bağladı. Gəminin qapısından daxil olmağı rədd edən hər bir kəs Allahın amansız hökmü ilə üzləşdi.

Allahın dünyanı ədalətlə mühakimə edəcəyi o Hökm Günü haqqında Müqəddəs Yazılar deyir: *"Rəbbin günü oğru gecə gəldiyi kimi gələcək. İnsanlar «sülh və təhlükəsizlik» deyəndə hamilə qadının ağrıları necə* ***qəfildən*** *tutursa, onlar da elə qəfil məhvə düçar olacaq və bundan əsla qaça bilməyəcəklər."* (1 Saloniklilərə 5:2,3) O gün, Adəmin övladları üçün Allahın açdığı xilas qapısından keçmədən heç kim xilas ola bilməz.

Günahlı adamlar üçün Allahın açdığı **Qapı** haqqında bilirsən? Xilas olmaq üçün Allahın

təmin etdiyi yolu tanıyırsan? Nuhun günündə kim hökmdən xilas oldu? Yalnız gəminin qapısından keçənlər! Eyniylə də Müqəddəs Yazılar bizə aydın deyir ki, Adəmin günahlı övladlarının **xilas olması üçün Allah yalnız bir qapı təmin edib**. Sən xilas qapısı haqqında bilirsən? Onda Allahın dünyaya göndərdiyi bu müqəddəs Vasitəçinin sözlərinə qulaq as. O dedi: *"**Qapı Mənəm**, kim Məndən girərsə, xilas olar, girib-çıxar və özünə otlaq tapar!"* (Yəhya 10:9) *"Doğrusunu, doğrusunu sizə deyirəm: Mənim sözümə qulaq asıb Məni Göndərənə inanan şəxs əbədi həyata malikdir və ona hökm çıxarılmayacaq, əksinə, **ölümdən həyata keçib.**"* (Yəhya 5:24)

Gələcək proqramlarda biz Allahın dünyaya göndərdiyi, bu sözləri Deyən: **"*Qapı Mənəm, kim Məndən girərsə, xilas olar*"** bu Xilaskar haqqında daha çox öyrənəcəyik.

Dinlədiyiniz üçün çox sağ olun. Gələn dəfə, Allahın iradəsi olarsa, biz Nuh peyğəmbərin hekayəsini bitirəcəyik.....

Allahın Sözündə olan bu mənalı sual haqqında düşündükcə Rəbb sizə xeyir-dua versin:

***"Bu cür böyük xilasa məhəl qoymasaq, biz necə qurtula bilərik?"*** (İbranilərə 2:3)

15-ci Dərs

# Nuh və Allahın Sadiqliyi

**Yaradılış 8,9**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək və Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

İndi biz Allahın peyğəmbəri Nuhun hekayəsini bitirmək istəyirik. Öncə gəlin keçən iki dərsdə Nuh və böyük daşqın haqqında öyrəndiklərimizi nəzərdən keçirək.Yaradılış kitabının altıncı fəsilində biz gördük ki, Nuhun vaxtında insan pozğunluğu çox idi; insan ürəyinin düşüncəsinin hər bir niyyəti şər idi. Buna görə də, günahından tövbə etməyən, həqiqi və yaşayan Allaha dönməyən hər bir günahlı insanı Allah yer üzündən silmək üçün yerə daşqın göndərəcəyini nəzərdə tutdu.

Həmin yolunu azmış və pozulmuş dövrdə yalnız bir adam Allahı razı saldı. O adam Nuh idi. Nuh Allaha etibar etdi və Onu sevdi. Buna görə də, bir gün Allah Nuhla danışdı və ona əmr etdi ki, onun üçün, onun ailəsi üçün və bir çox heyvanların daşqından qurtulması və sığınması üçün böyük bir gəmi tiksin. Nuh ailəsi ilə birgə yüz ilə bu gəmini tikdi. O, insanlara Allahın Sözünə inanmaq və tövbə etmək haqqında danışırdı. Amma heç kəs Nuhun təbliğ etdiyinə **əhəmiyyət vermirdi**. Heç kim Nuhun onlara gələcək daşqın haqqında danışdığına inanmırdı.

Beləliklə gəminin hazır olduğu gün gəldi. Bu şər dünyasını mühakimə etmək üçün Allahın saatı gəlib çatmışdı. Allah uzun müddət istehza ilə baxan adamlarla səbirli oldu, amma Onun səbri tükəndi. Beləliklə, Rəbb Nuha dedi ki ailəsi ilə birlikdə gəmiyə daxil olsun və hər bir pak heyvandan yeddi dişi, yeddi erkək və murdar heyvanlardan bir cüt, dişi və erkək olmaqla özü ilə götürsün. Nuh, onun ailəsi və heyvanlar Allahın əmr etdiyi kimi gəmiyə daxil oldular. Müqəddəs Yazılar deyir: *"Rəbb gəminin qapısını örtdü."* Adəmin övladları üçün xilas qapısını açan Allah, həm də o qapını bağlayan Allah idi. **Allahın mərhəmət vaxtı getmişdi, Onun qorxulu qəzəb vaxtı gəlib çatmışdı!**

Güclü yağışlar yağıb daşqın yaratdı. Hamı canını qurtarmaq üçün dağlara qaçdı, amma heç kim Allahın qəzəbindən qurtula bilmədi! Nuha lağ edənlər və Allahın Sözünü rədd edənlər indi həqiqəti bildilər. Amma **artıq gec idi**! Xilas vaxtı ötmüşdü. Allah qapını bağlamışdı.

Qırx gün, qırx gecə göydən yağış yağdı, su qaynaqları püskürdü və dağların təpəsini örtənəcən güclü sellər axdı. Lakin gəmi suyun üzündə idi. Müqəddəs Yazılar deyir:

*"Yer üzündə hərəkət edən canlıların hamısı – quşlar, ev heyvanları, çöl heyvanları, yerdə sürünənlər və bütün insanlar məhv oldu. Quruda yaşayan, burnunda həyat nəfəsi olan canlı varlıqların hamısı öldü. Rəbb yer üzündə olan bütün canlıları məhv etdi: insanlardan tutmuş heyvanlara, sürünənlərə və göydəki quşlara qədər hər şey yer üzündə məhv oldu.* ***Yalnız Nuh və onunla birgə gəmidə olanlar sağ qaldı.****"* (Yaradılış 7:21,23)

Beləliklə, Müqəddəs Yazılar göstərir ki, Allah vəd etdiyi kimi cəzanı yerinə yetirdi. Gəmidən kənardan olan hər bir kəs həlak oldu. **Allah Öz Sözünü qorumağa sadiqdir.**

Gəminin içindəkilərlə nə baş verdi? Allah Nuhu və onun ailəsini unutdu? Göydəki quşları yedizdirən və Onun iradəsi olmadan onların heç birinin yerə düşməməsini unutmayan Allah,

onları unutmamışdır. Gəlin Yaradılış kitabının 8-ci fəsilində yazılanları oxuyaq. Müqəddəs Yazılar deyir:

*"Allah Nuhu və onunla birgə gəmidə olan bütün çöl heyvanlarını və ev heyvanlarını yada saldı. Allah yer üzünə külək göndərdi və su azalmağa başladı.... Yeddinci ayın on yeddinci günü gəmi Ararat dağlarında dayandı."* (Yaradılış 8:1,4)

Beləliklə biz görürük ki, Allah Nuhu və onunla gəmidə olanları xatırladı. O suların geri çəkilməsi üçün külək göndərdi. Allah gəmini gətirib Ararat dağının başında saxladı. Nuhun və ailəsinin gəmidə bir il və bir həftə olmasından sonra yer üzünü bürüyən suyun çox hissəsi qurumuşdu. Allah Nuha dedi: *"Sən öz arvadın, oğulların və gəlinlərinlə birgə gəmidən çıx."* Nuh, onun ailəsi, həm də bütün heyvanlar gəmidən çıxdı. O gəmidən çıxanda qurbangah tikdi; pak heyvan və quşlardan götürdü və onları Allaha yandırma qurban kimi təqdim etdi.

Nuh gəmidən çıxandan sonra birinici nə etdi? O **bir neçə qüsursuz heyvanı tikdiyi qurbangahda yandıraraq qurban verdi.** Allah Öz qoyduğu qanunu ləvğ etməmişdi: *"Qan axıdılmadan bağışlanma olmur."* (İbranlilərə 9:22) Bu böyük daşqının günahlı insanları yer üzündən sildiyinə baxmayaraq, Adəmin övladlarının ürəyində qalan günahın kökünü məhv etmədi. Buna görə də Nuh və onun nəsli Allaha günah üçün qurban gətirməyə davam etməli idilər. Biz gördüyümüz kimi bu cür heyvan qurbanları Allahın əmr etdiyi xilas yolunun təməli idi. Bizim ulu babalarımızın əvvəllər etdikləri qurbanlar, Adəmin nəsli üçün günahın borcunu ödəmək üçün gələn Qurtarıcının rəmzi idi. Buna görə də, Nuh gəmini tərk edəndə, onun ilk etdiyi şey heyvan qanı tökmək idi. Bu yolla o, öz uşaqlarına və nəvələrinə göstərir ki, Allahın qanunları dəyişməyib – *"günahın əvəzi ölümdür."* (Romalılara 6:23) və *"qan axıdılmadan bağışlanma olmur."* (İbranilərə 9:22)

Beləliklə Müqəddəs Yazılar deyir:

*"Rəbbə xoş ətir qalxdı... (qurbanların)..... Allah Nuha və onun oğullarına xeyir-dua verib dedi: «Törəyib çoxalın və yer üzünü bürüyün..... Mən sizinlə, sizdən sonrakı nəslinizlə Öz əhdimi bağlayıram, gəmidən çıxan yer üzündəki bütün canlı məxluqlarla – quşlar, ev heyvanları və bütün çöl heyvanları ilə əhdimi bağlayıram. Sizinlə Öz əhdimi qoyuram ki, bütün canlılar bir daha daşqınla məhv olmayacaq və heç vaxt yer üzünü viran edən daşqın baş verməyəcək... Mənim sizinlə və sizinlə olan bütün canlılarla əbədi olaraq bağladığım əhdin əlaməti budur: buludda Öz göy qurşağımı qoyuram ki, Mənimlə yer üzü arasında olan əhdin əlaməti olsun. Mən yer üzünə bulud gətirdiyim zaman buludda göy qurşağı görünəcək. Onda Mən sizinlə və bütün canlı məxluqlarla bağladığım əhdi yada salacağam. Sular bir daha daşqına çevrilib bütün canlıları məhv etməyəcək."* (Yaradılış 8:21; 9:1,9; 11-15)

Bizim indicə oxuduğumuz bu ayələrdə Allahın Nuha altı dəfə təkrarladığı bir söz var. Sən onu eşitdin? Bu söz ***"əhd"***dir. Allahın Sözündə, Allahın insanlara verdiyi xüsusi vəd əhddir. **Allah əhdinə sadiqdir.** Allah sadiqdir və Adəmin övladlarına öz sadiqliyini göstərmək istəyir! Buna görə də O Nuh və onun nəsli ilə əhd bağlayaraq belə dedi: *"bütün canlılar bir daha daşqınla məhv olmayacaq və heç vaxt yer üzünü viran edən daşqın baş verməyəcək."* Allah bunu vəd etdi. Və O vədini sadəcə sözlərlə məhdudlaşdırmadı, lakin O buludlarda göy qurşağı qoymaqla bunu təsdiqlədi.

Sən heç bilirdinmi ki, bəzən yağış yağandan sonra buludlarda peyda olan **göy qurşağı Allahın sadiqliyini** bəyan edən əlamətdir? Hər dəfə biz buludlarda göy qurşağı görəndə Allah bizə nəsillərdən nəsillərə davam edən Öz sadiqliyini xatırlatmaq istəyir. Allah suyun bir daha bütün

həyatı məhv etməyəcəyi haqda vədini təsdiqləmək üçün göy qurşağını buludlarda qoydu. Həqiqətən, **Allah əhdinə sadiqdir**!

Nuhun həyatının sonrası haqqında başqa hadisələr də var. Sən onları özün üçün Tövratda, Yaradılış kitabının 9-cu fəslində oxuya bilərsən. Sən görəcəksən ki, daşqından sonra Nuh 350 il yaşadı və dünyasını dəyişdi.

Biz Allahın peyğəmbəri Nuh haqqında söhbəti bir-iki sualla bitirəcəyik. Nuh ilə onun dövrünün insanları arasındakı fərq nə idi? Allahı razı salmaq üçün Nuh nə etdi? O sadəcə bir şey etdi. **Nuh Allahın Sözünə inandı.** Buna görə də öz dövrünün adamları məhv olan zaman Nuh məhv olmadı. Allahın Nuh haqqında şəhadətinə qulaq as:

*"Nuh* ***hələ gözə görünməyən şeylər*** *barəsində edilən xəbərdarlığa* ***iman vasitəsilə*** *ciddi yanaşaraq öz ev əhlinin xilası üçün gəmi düzəltdi. O, iman vasitəsilə dünyanı məhkum etdi və imana görə olan salehliyi irs olaraq aldı. " və "İman olmadan Allahı razı salmaq qeyri-mümkündür."* (İbranilərə 11:7,6)

Bu dərsi bitirməzdən əvvəl, iki fikir var ki, biz yadda saxlamalıyıq. Biz indicə bu iki fikidən birinə nəzər saldıq. Nuh Allahı necə razı saldı? **İmanı ilə.** Nuh Allaha inandı. O, Allahın dediyinə inandı. Nuh Allaha etibar edirdi və hətta onun ətrafında hər kəs Allahın Sözünü rədd edəndə o, ona itaət etdi. Bu Nuhun imanına görə idi ki, Allah onu yaşadığı şər nəsildən xilas etdi. Bu gün bizi dinləyən sizlər, **sən Allahın dediklərinə həqiqətən inanırsanmı?** Hər birimiz üçün Allahın iradəsi budur ki, Nuh kimi Onun Sözünə inanaq.

Nuhun hekayəsindən yadda saxlayacağımız ikinci şey, hətta **Nuhun imanından da vacibdir**. Sən bilirsən bu nədir? Bu **Allahın sadiqliyidir.** Nə üçün Allahın sadiqliyi Nuhun imanından vacibdir? Çünki əgər Allah Öz vədini və əhdini saxlamağa sadiq deyildisə, onda Nuhun Allaha olan imanının heç bir dəyəri olmazdı. Biz hamımız bilirik ki, vədini saxlamayan adama etdibar edəndə nə baş verir. Təsəvvür et ki, sənin dostun var və o sənə vəd edir: "Sabah sənə bir kisə un gətirəcəyəm." Sən ona inanırsan; sənin ona imanın var. O gətirməyəndə nə baş verir? Sən həm məyus olursan, həm də ac! Dostuna olan imanın faydasız idi. Nə üçün? Çünki dostun vədini yerinə yetirmədi. Sən sadiq olmayan adama inanmışdın.

Amma Allah ilə belə deyil. Müqəddəs Yazılar deyir: *"Biz sadiq qalmasaq da, O sadiq qalacaq."* (2 Timoteyə 2:13) *"Bütün bəşər ota bənzər, Onun bütün gözəlliyi çöl çiçəyi kimidir. Ot quruyar, çiçək tökülər, amma* ***Rəbbin sözü əbədi qalar****..... Ona iman edən kəs əsla utandırılmaz!"* (1 Peter 1:24,25; 2:6) *Bəli, "****Allah sadiqdir!****"* (1 Korinflilərə 1:9)

O vəd etdiyini yerinə yetirəcək!

Nuhun hekayəsində biz **Allahın vəd etdiyi hər bir şeyi yerinə yetirdiyini** görürük. Biz Allahın vəd etdiyi kimi, gəminin içindəki adamları necə xilas etdiyini və kənarda olanları necə məhkum etdiyini oxuduq. Biz Allahın dediyi kimi, Nuhun heyvan qanını qurban gətirməklə Allahın onu necə bağışlamasını öyrəndik. Həm də biz öyrəndik Allah buludlarda göy qurşağını yerləşdirdi ki, Nuh və bütün insanlar **Allahın sadiqliyini** unutmasınlar.

Əziz dinləyicilər, əgər siz bu gün nəzərdən keçirdiyimiz şeyləri unutsanız, bir şeyi xatırlayın: **Allah sadiqdir!** O Öz Sözünə zidd gedə bilməz. O vəd etdiyini yerinə yetirir. Hətta elə görünsədə ki, O bunu ləng edir. *"Allah sadiqdir.... və ona iman edən kəs heç vaxt utandırılmaz."* (1 Korinflilərə 1:9; 1 Peter 2:6) Onda gəlin Ona inanaq və Onun Sözünü

həlimliklə qəbul edək. Və qoy biz Nuh peyğəmbərin hekayəsindən və böyük daşqından ətrafında hamının inkar etdiyi və məhv olduğu vaxtda Allahın Sözünə inanan Nuhu təqlid etməklə faydalanaq.

Dinlədiyiniz üçün çox sağ olun. Allahın iradəsi ilə gələn dərsimizdə biz, Nuhun nəslinə nə baş verəcəyinə baxacağıq. Biz dünyada çoxlu dillərin haradan yarandığını öyrənəcəyik. …

Allahın Sözündən bu həqiqəti xatırladıqca Rəbb sizə xeyir-dua versin:

***"Allah sadiqdir… Ona iman edən kəs əsla utandırılmaz."*** (1 Korinflilərə 1:9; 1 Peter 2:6)

16-cı Dərs

# Babil Qülləsi

**Yaradılış 10,11**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək və Ona itaət edək, Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən proqramımızda biz dərsimizi Allahın peyğəmbəri Nuhla bitirmişdik. Biz Allahın, pis əməllərinə görə Adəmin övladlarını daşqınla məhv etməyi necə nəzərdə tutduğunu gördük. Nuh Allahın Sözünə inananlar üçün sığınacaq olan gəmini tikdikcə, **Allah günahlı insanların tövbə etməsi üçün onlara yüz ildən çox vaxt verdi**. Nuh və onun ailəsindən başqa hələ də heç kim öz günahından dönüb, Rəbb Allahın xəbərinə inanmadı. Sonda ədalətli və sadiq Allah vəd etdiyi kimi etdi. O, gəminin qapısından keçməyən hər bir kəsi məhv etdi və keçən bir neçə nəfəri xilas etdi.

Bu gün biz Yaradılış kitabında davam edəcəyik və Nuhdan sonrakı dövrdə nə baş verdiyini öyrənəcəyik. Nuh haqqında danışarkən biz öyrəndik ki, Nuhun üç oğlu var idi. **Sam, Ham və Yasəf.** Müqəddəs Yazılar bizə göstərir ki, **dünyadakı bütün insanlar** bu üç kişidən törədilər. Sam Yahudilərin və Ərəblərin atası idi. Afrikanın əksər hissəsi və Çin yəqin ki, Hamın nəslindəndir. Avropalılar isə Yasəfin nəslindəndirlər.

Əgər sən millətlərin mənşəyi haqqında biliyini artırmaq istəyirsənsə, onda Tövrat kitabından onuncu və on birinci fəsilləri oxuya bilərsən. Amma bizim bu dərsimizdə biz Nuhun üç oğlu Sam, Ham vəYasəfin tarixi haqqında bir şeyi başa salacağıq. O budur: Sam, dünyaya gələcək olan Qurtarıcının mənşəyində olmaq üçün Allahın seçdiyi idi. Buna görə də Müqəddəs Yazılar Samın nəsli haqqında hekayəni daha yaxından izləyir. Allahın həm peyğəmbərləri və həm də dünyaya gələcək Xilaskar onun nəslindəndir.

Beləliklə, dünyadakı bütün insanlar Nuhun üç oğlundan törəyiblər. Sən və mən, dünyadakı bütün insanlar – bu gün yaşayan hər bir kəs Nuhun nəslindəndir. Buna görə də biz deyə bilərik ki, bu gün biz burdayıq, çünki Nuh Allaha inandı və ailəsini xilas etmək üçün gəmi düzəltdi; o ailəsini xilas edəndə, səni və məni də xilas etdi.

Allah Nuha və onun oğullarına xeyir-dua verərək dedi: "*Törəyib çoxalın və yer üzünü bürüyün.*" (Yaradılış 9:1) Beləliklə, daşqından yüz illər sonra bir daha yer üzündə yaşayan külli-miqdarda adamlar var idi. Və yenidən, **dünya günaha görə korlanmağa başladı.** Biz artıq gördük ki, Nuh və onun oğulları Adəmin nəslindən olduqlarına görə günahlı doğulmuşdular. Onlar gəmiyə daxil olanda, onların Adəmdən aldıqları günahlı təbiətləri də onlarla birlikdə gəldi. Və onlar gəmidən çıxanda da günahın kökü hələ də onların ürəyində idi. Daşqın bəşəriyyətin günahlı təbiətini dəyişmədi. Beləliklə, dünyadakı bütün insanlar günahlı doğulmaqda davam edirdilər. Çünki onların hamısı Adəmin nəslindən olan Nuhun nəslindən idilər.

Bu kədərlidir, amma həqiqətdir ki, daşqından yüz illər sonra Nuhun nəslinin əksəriyyəti artıq Allah və Onun iradəsi haqqında düşünmürdülər. Onlar Şet, Xanok və Nuhun inandığı kimi **Allahın Sözünə inanmırdılar**. Onlar Allahı unutdular və onlara həyat, nəfəs, gün işığı, yağış və qida verdiyinə görə Ona təşəkkür etmədilər. Onun sadiqliyini xatırlatmaq

üçün Allahın buludlarda yerləşdirdiyi göy qurşağına gəldikdə isə, əksəriyyət artıq onun mənasının nə olduğunu bilmirdi. Onlar haqqında Allahın Sözünün nə dediyinə qulaq as:

*"Adamlar Allahı tanıdıqları halda Ona nə Allah kimi izzət verdilər, nə də şükür etdilər. Əksinə, boş düşüncələrə uydular və axmaq ürəklərini qaranlıq bürüdü.* [22] *Müdrik olduqlarını iddia etdikləri halda ağılsız olub... Allahın həqiqətini yalanla əvəz etdilər, Yaradanın yerinə yaradılışa səcdə və ibadət etdilər; o Yaradana əbədi alqış olsun! Amin. "* (Romalılara 1:21,22,25)

Qabil və onun nəsli kimi Nuhun da nəsli həqiqəti gizlətməyi seçdi və qeyri-salehliyin ardınca getdi. Onların dini var idi amma bu yalan din idi. Çünki bu Allah tərəfindən qoyulan salehlik yolu ilə uyğun gəlmirdi. Onlar Allahın həqiqi Sözünə qulaq asmırdılar. Onlar şeytana qulaq asırdılar.

Nuhun ikinci oğlu Hamın nəslindən olan **Nimrod** adlı bir adam var idi. Nimrod, daşqından sonra təqribən beş yüz il yaşayan gözəl bir ovçu idi. Onun adının mənası *üsyançı* deməkdir. Nimrod yüksək səviyyədə savadlı idi amma, o Allahı tanımırdı. O Allahın Sözünü inkar etdi və şeytanın, Qabilin və Nuhun dövründəki insanların ardınca getdi. Nimrod bir neçə böyük şəhər tikmişdi və dünyadakı bütün insanların birgə yaşaması üçün **nəhəng bir şəhər** tikməyi planlaşdırdı.

İndi gəlin, Yaradılış kitabından 11-ci fəsli oxuyaq, görək Müqəddəs Yazılar Nimrod və onunla birgə nəhəng şəhər tikəcəkləri plan haqqında nə deyir. Müqəddəs Yazılar deyir:

(Yaradılış 11:1-4*) Bütün dünyada bir dil və bir danışıq var idi. İnsanlar şərqdən köçüb gəldikləri zaman Şinar torpağında bir düzənliyə rast gəldilər və orada məskən saldılar. Sonra bir-birlərinə dedilər: «Gəlin kərpic düzəldək və onu yaxşı bişirək». Onlar daş əvəzinə kərpic və palçıq əvəzinə qatran götürdülər. Yenə dedilər: «Gəlin özümüzə bir şəhər və başı göylərə çatan bir qüllə tikib ad çıxaraq, daha bütün yer üzünə yayılmayaq."*

Biz Adəmin oğullarının necə böyük bir şəhər və göylərə çatacaq **hündür bir qülləni** tikməyi planlaşdırdıqlarını görürük. Nə üçün onlar hündür qüllə tikmək istədilər? Nimrod və onunla eyni fikirdə olan adamlar dünyada özlərinə ad axtarırdılar. Onlar dünyadakı adamları bir yerə ona görə toplamağı planlayırdılar ki, qüdrətli olsunlar və yer üzünə yayılmasınlar. Amma, onların planı Allahı razı salmadı. Allah Nuhun övladlarına demişdi ki, yer üzünə yayılsınlar. İnsanı yaradan Allah, dünyadakı insanlar üçün nəyin ən yaxşı olduğunu bilirdi. Amma Nuhun nəslinin əksəriyyəti Allahın fikirlərinə əhəmiyyət vermirdilər. Onlar fikirləşirdilər ki, onlar Allahdan daha ağıllıdırlar. Şeytan kimi, onların da ürəkləri **Allaha qarşı qürur və üsyan ilə dolu idi**. Amma Müqəddəs Yazılar deyir: "*Kim özünü yüksəldərsə, aşağı tutulacaq və kim özünü aşağı tutarsa, yüksəldiləcək."* (Matta 23:12*)* və "*insanlar arasında uca tutulan şey Allah qarşısında iyrənclikdir."* (Luka 16:15)

İnsanı ucaltmaq, ya da özün üçün böyük ad axtarmaq Allah qarşısında **günahdır**. Çünki **izzətə və şərəfə layiq olan yalnız bir Ad va**r. Bu yeri və göyü yaradan **Rəbb Allahın** Adıdır! Müqəddəs Yazılarda deyildiyi kimi: *"Öyünən Rəbdə öyünsün». Çünki özü barədə zəmanət verən insan yox, barəsində Rəbbin zəmanət verdiyi insan sınaqdan keçmiş olur."* (2 Korinflilərə 10:17,18)

Buna baxmayaraq, Nimrodun dövründə, Adəmin övladlarının Rəbbə heç bir rəğbətləri yox idi. Onlar fikirləşirdilər ki, onların Allaha və Onun Sözünə ehtiyacları yoxdur. Onlar **müstəqillik və üsyan ruhu** ilə xarakterizə edilirdilər. Bu günə qədər həmin o münasibət

Adəmin övladlarının ürəyində yaşayır. Biz hətta kiçik uşaqlarda onların ayaqlarının yerə döyüb, "Yox, mən etməyəcəm!" kimi hərəkətlərində də bunu görürük. Və həmin bu ruh yetkin insanlarda nə qədər daha çoxdur! Ailələrdə, dünyadakı millətlərdə olan mübarizələrin səbəbi nədir? Bu belə düşünən müstəqillik ruhu deyilmi: "Mən öz qayğıma qala bilərəm. Mənim ənənələrim ən yaxşısıdır. Mənim dinim mənim üçün yaxşıdır. Mənim xalqım daha üstündür. Mənim qəbiləm ən ağıllıdır. Mənim adım daha vacibdir. Mənim şeylərim! Mənim iradəm! Mənim işlərim! Mənim pulum! Mən! Mən! Mən!!!" İnsan necə də özünü düşünəndir! Hər kəs öz marağının ardınca gedir. Həmin bu özünü düşünmə müstəqillik ruhuna görə dünyada savaşmalar, döyüşlər və müharibələr var. Amma **Allah belə ruha nifrət edir.** Çünki yalnız Onun Adı izzətə layiqdir. Buna görə də O, Öz Müqəddəs Sözündə deyir: *"Mən Rəbbəm, adım budur. Öz izzətimi heç kimə vermərəm."* **(Yeşaya 42:8)**

Göylərə qədər çatan qülləni tikməyə başlayan adamlar Allahın izzəti haqqda düşünmürdülər. Onlar yalnız öz izzətlərini axtarırdılar. Onlar öz Yaradanının adına əhəmiyyət vermədilər. Əlbəttə o dövrün çox insanları dindar idi, lakin **onlar Allahın Sözünə məhəl qoymurdular**. Onlar fikirləşirdilər ki, öz yolları ilə göylərə çata bilərlər. Bu haqda düşün! Daşqından düz beş yüz il sonra insanlar yenidən öz yolları ilə gedirdilər və onlara həyat və nəfəs verən Rəbbə məhəl qoymurdular. Necə də insan ağılsız və pisdir ki, öz həyatını Allahdan və Allahın Sözündən kənarda yaşamaq istəyir!

Allah nə etdi? Allah insanların Yaradandan kənarda yaşamaq planlarına məhəl qoymadı? Ona qarşı üsyan edənləri qəbul etdi? Xeyr! O qəbul etmədi! Allahın nə etdiyinə qulaq as. Müqəddəs Yazılar deyir:

(Yaradılış 11:5-9) *Rəbb bəşər övladlarının tikdiyi şəhəri və qülləni görmək üçün aşağı endi. Rəbb dedi: «Budur, onların hamısı bir xalqdır və bir dilləri var. Buna görə də bu işi görməyə başlamışlar və indi etmək istədikləri işə heç kəs mane olmayacaq. Gəlin aşağı enib orada onların dilini qarışdıraq ki, bir-birlərinin dilini başa düşməsinlər». Rəbb onları oradan bütün yer üzünə yaydı. Onlar şəhəri tikməyi dayandırdı. Buna görə də o yerin adına Babil dedilər, çünki orada* ***Rəbb bütün dünyadakı adamların dilini qarışdırdı və onları bütün yer üzünə yaydı.***

Beləliklə, biz Allahın öz izzətləri üçün böyük şəhər tikməyə başlayan Nimrodun və digərlərinin planını necə dağıtdığını gördük. O vaxta qədər dünyada hamı eyni dildə danışırdı. Amma həmin gün **Allah onların dillərini qarışdırdı** ki, onlar bir daha bir-birlərini başa düşməsinlər. Sən xatırlayacaqsan ki, Allah Nuhun ailəsinə nə əmr etmişdi "*yer üzünə yayılmaq"*, bütün dünyaya yayılmaq. Amma Nimrod və onunla eyni fikirdə olanlar hər şeyi öz yolları ilə etmək istəyirdilər və dünyadakı bütün adamları bir yerə toplamaq istəyirdilər. Allah onlara yeni dillər verməklə onların niyyətlərini puç etdi. **Allah onları bütün yer üzünə bu cür yaydı.** Dünyada bu gün yüzlərlə millətlərin və minlərlə dillərin olmasının səbəbi budur.

Dünyadakı dilləri qarışdırmaqla Allah dolğun bir iş gördü. Düşün, təkcə Azərbaycanda nə qədər dildə danışan adamlar var. Bizim Allahımız necə də böyükdür! Heç kim Qüdrətli Allaha qarşı gedib müvəffəqiyyət qazana bilməz. **"Daş qayaya rast gəlib!"** İnsan Allahla güləşmək istədi, amma uduzdu. İnsanın Allaha üsyan olaraq tikdiyi bu şəhərin adı bilirsən nə idi? Bəli, şəhərin adı **Babil** idi. Babil *qarışıqlıq* deməkdir. Allahdan və Onun Sözündən kənar həyat yalnız **qarışıqlıqdır**!

Bu Babil şəhərinin və öz adlarını ucaltmaq istəyən adamların hekayəsidir. Biz heç

Babildəki adamlar kimi oluruq? Sən heç özünü ucaldırsan? Allah deyir ki, belə etmək **günahdır**. Əziz dost, **sən kimin adını ucaltmağı axtarırsan?** Öz adını?..... insan adını, bəlkə də hansısa dini rəhbəri? Yoxsa sən Rəbb Allahın və yalnız Onun adını ucaltmağı axtarırsan? Sən kimin alqışını axtarırsan? İnsan alqışını? Yoxsa Allahın alqışını axtarırsan? Bir şey tam dəqiqdir. İnsandan gələn alqış keçib gedəcək, amma Allahdan gələn alqış əbədi qalacaq. Allahın Sözü deyir: *"Bütün bəşər ota bənzər, onun bütün gözəlliyi çöl çiçəyi kimidir. Ot quruyar, çiçək tökülər."* (1 Peter 1:24)

Rəbbin Özünün dediyi sözlərə qulaq as:

*"Müdrik müdrikliyi ilə öyünməsin, İgid öz gücü ilə öyünməsin, Varlı öz sərvəti ilə öyünməsin.*
*Ancaq öyünən onunla öyünsün ki, Mən Rəbbin dünyada Məhəbbət, ədalət və salehlik yaratdığını. Dərk edir və Məni tanıyır. Çünki Mən bunlardan xoşlanıram."* (Yeremiya 9:23,24)

Allahın iradəsi ilə gələn proqramda biz başlanğıcdan indiyə qədər öyrəndiklərimizi nəzərdən keçirəcəyik…. Bunu xatırladıqca Rəbb sənə xeyir-dua versin:

***"Özü barədə zəmanət verən insan yox, barəsində Rəbbin zəmanət verdiyi insan sınaqdan keçmiş olur."*** (2 Korinflilərə 10:18)

17-ci Dərs

# "Başlanğıcın" Təkrarı

Yaradılış 1-11

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək və Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Bu gün biz Allahın köməyi ilə Musa peyğəmbərin Tövrat kitabından öyrəndiklərimizi **təkrarlamağı və yekunlarşdırmağı** planlaşdırırıq. Tövrat, Peyğəmbərlərin Müqəddəs Yazılarındakı ilk bölmədir. Bu bölmə çox vacibdir. Çünki bu Allahın Özünün qoyduğu **təməldir** ki, burada biz eşitdiyimiz hər şeyin Allahdan olub-olmamasını sınaya bilərik. Tövrat beş hissədən, yəni beş kitabdan ibarətdir. Birinici hissə *Yaradılış* adlanır. Yaradılışda əlli fəsil var. Xronoloji dərslərimizdə biz on birinci fəslə qədər öyrəndik.

Sən Allahın Sözündə olan ilk ayədə nə yazıldığını xatırlaya bilərsən? Gəlin yenidən oxuyaq. *"Başlanğıcda Allah göyləri və yeri yaratdı."* Allah əbədiyyətin Rəbbidir. Başlanğıcda, hələ dünya mövcud olmayanda yalnız Allah var idi. Allah başlanğıcı olmayan Əbədi Ruhdur. Buna görə də Müqəddəs Kəlamın birinci ayəsi deyir: *"Başlanğıcda **Allah**!"*

Sonra biz Allahın dünyanı, **mələk** adlandırdığımız minlərlə və minlərlə qüdrətli ruhları yaratdığını gördük. Mələklər arasında biri daha ağıllı və daha gözəl idi. Bu Allahın onu mələklər üzərində başçı qoyduğu mələk idi. Amma Müqəddəs Yazılar deyir ki, gün gəldi ki, o, Allaha qarşı çıxdı və Allahın yerini tutmaq istədi. Başqa mələklər də var idi ki, onun günahında onun ardınca getməyi seçdilər. Buna görə də günaha dözməyən Allah pis mələkləri səmadan qovdu. Şeytanı və onun mələklərini qovandan sonra onlar üçün alovlu, heç vaxt sönməyən cəhənnəm yaratdı. Müqəddəs Yazılar deyir ki, son gündə Ədalətli Allah şeytanı və onun ardınca gedənləri o atəşə atacaq.

Sonra biz **altı günə Allahın necə göyləri, yeri** və onun içində olan hər şeyi **yaratdığın**ı və Öz Sözündən başqa heç nədən istifadə etmədiyini gördük! Allah hər şeyi Öz zövqü və izzəti üçün yaratmağı nəzərdə tutduğu insan üçün yaratdı. **İnsan** Allahın yaratdığı ən mühüm məxluqdur.Çünki insan Allahın surətində yaradılıb. Allah istəyirdi ki, insanla dərin və mənali münasibətdə olsun. Buna görə də Allah insanın canında dərrakəli **ruh** yerləşdirdi ki, insan Allahı tanıya bilsin. Allah ona qəlb verdi ki, o Allahı sevə bilsin və Allah ona **azad iradə** verdi ki, o Allaha itaət etməyi və ya etməməyi özü seçsin.

Tövratın ikinci fəsilində biz oxuyuruq ki, Allah yerdə **Cənnət Bağı** yerləşdirdi və yaratdığı insanı, **Adəmi** oraya qoydu. Öz xeyirxahlığında Allah sülhdə və bolluqda yaşamaq üçün Adəmə hər şey verdi.

Allah Adəmi yaratdığı gün ona dedi*: "Bağdakı bütün ağacların bəhrəsindən istəyəndə yeyə bilərsən. Ancaq xeyirlə şəri bilmə ağacının meyvəsindən yemə, çünki ondan yeyən gün hökmən öləcəksən."* (Yaradılış 2:16,17) Allahın Adəm qarşısında **sadə bir sınaq** qoyduğunu görürük. Allah yaratdığı adamla mənalı ünsiyyət istəyirdi. Buna görə də Allah Adəmə Onu sevib, Ona itaət etməsi ya da ki, Ona itaət etməməsini seçmək üçün səlahiyyət verir.

Biz oxuduq ki, Allah Adəmi yaradan gün, ona çox gözəl hədiyyə verdi, həyat yoldaşı! Allah qadını Adəmin qabırğasından götürdü və onu Adəmə təqdim etdi. O, onu ***Həvva*** adlandırdı. Beləliklə altı günə Allah Öz işini bitirdi. Müqəddəs Yazılar deyir: *"Allah gördü ki, yaratdığı hər şey çox yaxşıdır."* (Yaradılış 1:31) Yeddinci günü Allah dincəldi, yaratma işini bitirdi və yaratdığı hər şeyə görə sevindi.

Üçüncü fəsildə biz **günahın** dünyaya necə daxil olduğunu öyrəndik. Müqəddəs Yazılar bizə göstərir ki, bir gün Adəm və Həvva Allahın qadağan etdiyi ağaca yaxın olanda şeytan hiyləgər ilan cildində gələrək dedi:

*"Doğrudanmı, Allah sizə "bağda olan heç bir ağacın bəhrələrindən yeməyin" deyib?» Qadın ilana dedi: «Bağdakı ağacların bəhrələrindən yeyə bilərik. Amma bağın ortasındakı ağacın meyvələri barədə Allah deyib: "Ondan yeməyin və ona toxunmayın, yoxsa öləcəksiniz!"» İlan qadına dedi: «Yox, əsla ölməzsiniz. Əksinə, Allah bilir ki, o meyvələrdən yediyiniz gün gözləriniz açılacaq və xeyirlə şəri bilərək Allah kimi olacaqsınız."* (Yaradılış 3:1-5)

Beləliklə biz, şeytanın Allahın Sözünə qarşı necə çıxdığını görürük! Allah Adəm və Həvvaya qadağan olunmuş ağacdan yesələr nə baş verəcəyi haqda nə demişdi? O dedi: *"Sən öləcəksən!"* və şeytan nə dedi? O dedi: *"Sən ölməyəcəksən!"* Adəm və Həvva kimin sözünə qulaq asmağı seçdi: Allahın Sözünü? Yoxsa şeytanın sözünü? Əfsuslar! MüqəddəsYazılar göstərir ki, Adəm və Həvva şeytanın sözünə qulaq asmağı seçdi və Allahın qadağan etdiyi ağacın meyvəsindən yedilər! Şeytan Həvvanı aldatdı və o qanunu pozdu. **Adəm bilərəkdən Allaha itaətsizlik etməyi seçdi və şeytanın ardınca getdi**. Müqəddəs Yazılar deyir: *"Günah bir insan vasitəsilə, ölüm də günah vasitəsilə bu dünyaya gəldi. Beləcə ölüm bütün insanlara yayıldı, çünki hamı günah etdi."* (Romalılara 5:12)

Nəticə etibarı ilə Allah Adəm və Həvvanı əvvəlcədən dediyi kimi Cənnət Bağından qovdu. Amma onları qovmazdan əvvəl Allah Adəmin övladlarını şeytanın, günahın və ölümün hakimiyyətindən qurtarmaq üçün dünyaya **Xilaskar göndərəcəyini vəd etdi**! Həmin vədi təsdiqləmək üçün Allah bir neçə heyvan kəsdi və onların dərisindən Adəm və Həvva üçün paltar düzəldib onlara geyindirdi. Həmin **heyvan qurbanları** ilə Allah Adəm və Həvvaya "günahın əvəzi ölümdür" (Romalılara 6:23) və "*qan axıdılmadan bağışlanma olmur."* (İbranilərə 9:22) öyrədirdi.

Dördüncü fəsildə biz Adəmin ilk iki oğlu, **Qabil və Habil** haqqında oxuyuruq. Biz Allahın Habilin valideyinləri üçün etdiyi kimi, Habilin də öz günahı üçün necə **pak quzunu kəsib** Allaha təqdim etdiyini görürük. Amma Qabil, Allahın lənətlədiyi yerdən becərdiklərini gətirərək Allaha **öz yolu ilə yaxınlaşmağa çalışdı**. Beləliklə, Müqəddəs Yazılar deyir: *"Rəbb Habili və onun təqdimini qəbul etdi, ancaq Qabili və onun təqdimini qəbul etmədi."* (Yaradılış 4:4,5) Allah Qabili çağırdı ki, gəlib hesabat versin, tövbə etsin və Allahın salehlik yolunu qəbul etsin. Amma Qabil əksinə, daha da qəzəbləndi və öz kiçik qardaşı Habili öldürdü.

Sonradan Allah Adəm və Həvvaya **Şet** adında başqa övlad verdi. Şet də Habil kimi Allaha inandı və Ona qan qurbanı ilə yaxınlaşdı. Biz Adəmdən törəyən iki nəsil görürük. Qabilin və Şetin nəsli. Qabilin nəsli Allaha inanmırdı. Lakin Şetin nəsli arasında Allaha inananlar var idi. Şetdən törəyənlər arasında **Xanok** adlı biri var idi. Xanok pozulmuş dövrdə Allahla yeriyirdi. Xanokun **Nuh** adlı nəticəsi var idi. Nuhun günlərində Allah Adəmin övladlarını

pis əməllərinə görə yer üzündən silib təmizləməyi nəzərdə tutdu. Həmin dövrdə **yalnız Nuh Allaha inandı.** Buna görə də özü, ailəsi, bir çox heyvanların və öz günahlarından dönüb Allahın sözünə inanan hər bir kəsin sığınması üçün Allah ona gəmi tikməyi buyurdu. Nuh gəmini tikdikcə Allah yüz il səbirlə günahlı insanlara dözdü. Amma Nuh və onun ailəsindən başqa heç kim tövbə edib Allahın xəbərinə inanmadı. Sonda Allah vədinə əməl etdi. O həqiqətə inanmayan hər kəsi mühakimə etdi. Nuh və onun ailəsindən başqa hamı **böyük daşqında** məhv oldu.

Nuhun üç oğlu var idi: **Sam, Ham və Yafəs.** Dünyadakı bütün insanlar bu üç qardaşın nəslindəndirlər. Amma biz gördük ki, onların nəsilləri tezliklə necə Allahı və Onun Sözünü unutdular. Biz ötən dərsimizdə Allaha qarşı üsyan olaraq necə dünyadakı bütün insanları bir yerə yığıb, uca qülləsi olan böyük bir şəhər tikməyi planlayan Nimrod və onunla birgə olanlar haqqında öyrəndik. Amma Allah onların dillərini qarışdırdı və onları bütün yer üzünə səpdi. Şəhər *qarışıqlıq* mənası verən **Babil** kimi tanındı. Bu Yaradılış kitabından 1-ci fəsildən 11-ci fəslə qədər olan indiyə kimi öyrəndiklərimizin qısa məzmunudur.

İndi biz bütün bu hekayələri necə cəmləşdirə bilərik? Başlanğıcdan baş verənlərlə Allah bizə nə öyrədir? Öyrənməli çox dərslər var, amma indi onlardan ikisini yadımıza salacağıq. Birinci dərs odur ki**, insan qeyri-salehdir.** Öyrənməli başqa həqiqət də odur ki, **Allah salehdir**!

Dərslərimizdə biz **insanın salehsizliyini** təkrarən görürdük. Biz onu Adəmin Cənnət Bağında Allahın qadağan etdiyi ağacdan yeməsi ilə başladığını gördük. Biz onu yenidən Adəmin ilk oğlu, Allahın qoyduğu qurban yolunu rədd edən Qabildə gördük. Biz eyni salehsizliyi Qabilin nəslində, Nuhun dövründəki adamlarda və Babil qülləsini tikməyə çalışan adamlarda gördük. Qısaca, Adəmin övladlarının hekayəsi budur: İnsan qeyri-salehdir! Müqəddəs Yazılarda yazıldığı kimi: *"onların **hamısı** günahın hökmü altındadır**..... Saleh olan yoxdur, bir nəfər belə, yoxdur!.. Hamısı yoldan azıb**, onlardan fayda yoxdur. **Bir nəfər də olsun Yaxşı iş görən yoxdur."*** (Romalılara 3:9, 10,12)

İnsanların qeyri-salehliyini gördüyümüz kimi, biz **Allahın salehliyini** də gördük. Müqəddəs Yazılar bizə deyir ki, *"Allah nurdur və Onda zərrə qədər də qaranlıq yoxdur."* (1Yəhya 1:5) Biz Allahın salehliyini şeytanı qürur və üsyanına görə qovanda gördük. Biz bunu yenidən Onun Adəm və Həvvanın öz itaətsizliklərinə görə onları qovduğunda gördük. Sonra Allah Öz salehliyini Adəmin övladlarının günahlarını ödəmək üçün müqəddəs Qurtarıcını dünyaya göndərməsi vədində aşkar etdi. Sonra, biz Allahın salehlik xasiyyətini Onun bu qanununda gördük: *"qan axıdılmadan bağışlanma olmur."* (İbranilərə 9:22) Allah Öz salehliyini quzunun qanına görə Habili qəbul edəndə və Allahın bağışlanma yolunu ələ salan Qabili rədd etdiyində göstərdi. Biz Allahın saleh təbiətini Nuhun dövründə, tövbə etmək üçün yüz il vaxt verəndən sonra Onun yolunu rədd edən hər kəsi məhv etmək üçün daşqın göndərdiyində gördük. Bizim ötən dərsimizdə biz Allaha qarşı çıxan Babil şəhərindəki insanların dillərini qarışdırmaqla Öz salehliyini necə göstərdiyini gördük.

Bəli, Allah salehdir və insanları **Öz salehlik meyarlarına** uyğun şəkildə mühakimə etməlidir! Qeyri-saleh günahlı insanlar öz "yaxşı əməlləri" ilə Ona yaxınlaşa bilməzlər. Allah günaha bulaşmış hər bir şeyi mühakimə və məhkum etməlidir. Müqəddəs Yazılar deyir: *"Allahımız yandırıb-yaxan alovdur! .... Rəbb Öz xalqını mühakimə edəcək. Var olan Allahın əlinə düşmək dəhşətdir."* (İbranilərə 12:29; 10:30,31)

Beləliklə, Tövrat kitabının ilk 11 fəsilində Allah Öz salehliyi haqqında bizə mühüm həqiqətləri bildirdi. Bu o deməkdir ki, qeyri-saleh adamların Allah tərəfindən qəbul olunma ümidləri yoxdur? Xeyr! Allaha şükür olsun ki, günahlı insanlar üçün ümid var! Allah Öz lütfündə, Adəmin günahlı övladlarının Onun qarşısında saleh olmaları üçün yolu aşkar etdi! Günahlı insanlar üçün Allahın qoyduğu salehlik yolunu tanıyırsan? Əgər sən hələ **Allahın salehlik yolunu** başa düşməmisənsə, onda biz sizi dəvət edirik ki, bizimlə gələn proqramda *Allahın dostu* adlanan İbrahim peyğəmbər haqqında öyrənməyə davam edəsiniz. İbrahimin möcüzəli hekayəsində biz qeyri-saleh adamların Allah qarşısında necə saleh olmalarını görəcəyik.

Bizi dinlədiyiniz üçün çox sağ olun. Bu gün öyrəndiklərimizi düşündükcə Rəbb sizə xeyir-dua versin. Yadda saxla ki, Allahın Sözü deyir:

***"Bundan əvvəl yazılanların hamısı bizi öyrətmək üçün yazıldı ki, dözümlə və Müqəddəs Yazıların ürək-dirəyi ilə ümidimiz olsun."*** (Romalılara 15:4)

18-ci Dərs

# Nə Üçün Allah İbrahimi Çağırdı

**Yaradılış 11,12**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək , Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Keçən dərslərdə biz Allah və Onun salehlik yolu haqqında öyrənirdik. Biz Adəm və Həvvanı, Qabil və Habili, Şet və Xanok, Nuhu  və onun dövründəki insanları, Nimrod və Babil qülləsini öyrəndik. Bizim ulu babalarımızdan yalnız bir neçəsi **Allahın və Onun salehlik yolunun** ardınca getmişdi. Əksəriyyəti **şeytanın və onun qeyri-salehlik yolu** ilə getmişdi.

Bu gün biz Allahın Sözündə adı çox tanınmış olan və Adəmin övladlarının qurtuluşu üçün Allahın planında çox mühüm yeri olan bir adamın hekayəsinə gəlib çıxdıq. Müqəddəs Yazılar bu adamı *"Allahın dostu"* və *"bütün inananların atası"* kimi çağırır. Sən bilirsən bu kimdir? Bu Allahın peyğəmbəri **İbrahimdir**. Müqəddəs Yazılar İbrahim haqqında çox şeylər danışır. Onun adı peyğəmbərlərin yazılarında üç yüz dəfədən çox səslənir. Buna görə də Allahın iradəsi olsa gələn dərslərdə biz *Allahın dostu* adlanan bu adam haqqında Müqəddəs Yazıların nə öyrətdiyinə baxacağıq. Bu gün biz İbrahimin hekayəsinin başlanğıcına baxmağı nəzərdə tuturuq ki, görək Allah **necə** və **nə üçün onu** Öz ardınca getməsinə **çağırdı**.

Başlamazdan əvvəl sən bilməlisən ki, birinci İbrahimin adı *İbrahim* yox ***İbram*** idi. Bundan iki dərs sonra biz Allahın İbramın adını dəyişib necə İbrahim qoyduğunu görəcəyik. Bu gün isə gəlin yadda saxlayaq ki, İbrahimin birinci adı *İbram* idi. Yaradılış kitabının 11-ci fəslində biz öyrəndik ki, İbram **Samın nəslindən idi**. Sən Sam, Ham və Yafəsi xatırlayırsan? Onlar Nuhun üç oğulları idi. Sam və İbram arasında, Adəm və Nuhdakı  kimi on nəsil var idi. İbramın atasının adı Terah idi. Müqəddəs Yazılar deyir ki: "*Terahdan İbram, Naxor və Haran törədi. Harandan Lut törədi."* (Yaradılış 11:27) Lut İbramın böyük qardaşının oğlu idi. Lutun atası ölmüşdü. İbramın arvadının adı Saray idi. "*Saray sonsuz idi, onun uşağı olmurdu."* (Yaradılış 11:30) İbram və Sarayın ataları bir, anaları isə fərqli idi. (bax Yaradılış 20 :12)

İbram bu günki İraq kimi tanınan Xaldeyin Ur şəhərində yaşayırdı. Bu hündür qülləsi olan Babil şəhərini tikmək istəyən Nimrodun şəhərinə yaxın şəhər idi. Bu şəhərin adamları bütlərə sitayiş edirdilər. Adəmin bütün nəsli kimi, **İbram da günahın zülmətində doğulmuşdu**. nə İbramın atası, nə də ki İbram həqiqi Allahı tanımırdılar.

Buna baxmayaraq, Müqəddəs Yazılar deyir ki, bir gün **Rəbb Allah Özünü İbrama açdı** və onunla danışdı. Sən bilməlisən ki, əvvəlki dövrlərdə Allah bəzən birbaşa insanlarla danışardı.O vaxt onlarda hələ Peyğəmbərlərin Yazıları yox idi. Bu gün bizdə, Allahın salehlik yolunu açdığı **Müqəddəs Yazılar** var. Deməli, biz bu yolu vəhy olmadan da, mələklər olmadan yaxud səmadan səs gəlməsə də bilə bilərik. Müqəddəs Yazılar üzərində düşünəndə, biz **Allahın səsinə** qulaq asırıq.

Gəlin baxaq Allah İbrama nə dedi. On ikinci fəsildə, birinci ayədə biz oxuyuruq*: "Öz torpağından, qohumlarının arasından, ata evindən çıx, sənə göstərəcəyim torpağa get."* (Yaradılış 12:1) Sən Allahın İbrama nə əmr etdiyini eşitdin? O İbrama dedi ki, atası evini tərk etsin, qohumları ilə sağollaşsın, ölkəsini tərk etsin və Allahın onu aparacağı ölkəyə getsin.

İnsan düşüncəsinə görə, Allahın İbramdan istədiyi şeyi etmək çox çətin idi, amma ona böyük xeyir-dualar vermək üçün Allahın planları var idi.

Gəlin indi yenidən bu ayəni, sonrakı iki ayəni oxuyaq, öyrənək Allah İbramı **nə üçün** çağırdı ki, öz evini tərk etsin və başqa ölkəyə getsin.

*"Rəbb İbrama dedi: «Öz torpağından, qohumlarının arasından, ata evindən çıx, sənə göstərəcəyim torpağa get.* ***Səndən böyük bir millət törədəcəyəm****, sənə xeyir-dua verəcəyəm, adını ucaldacağam və bərəkət qaynağı olacaqsan. Sənə xeyir-dua verənlərə xeyir-dua verəcəyəm, sənə lənət edənləri lənətləyəcəyəm.* ***Yer üzünün bütün tayfaları sənin vasitənlə xeyir-dua alacaq."*** (Yaradılış 12:1-3)

Allah nə üçün İbrama əmr etdi ki, başqa ölkəyə getsin? Buna görə: **Allah İbramdan Allahın peyğəmbərlərinin və dünyanın Xilaskarının çıxacağı yeni millət yaratmağı nəzərdə tutmuşdu.** Buna görə də Allah İbrama "*Səndən böyük bir millət törədəcəyəm…və sənə xeyir-dua verəcəyəm…və yer üzünün bütün tayfaları sənin vasitənlə xeyir-dua alacaq."*

**Böyük həqiqət** budur. Allah İbramı dünyaya gələcək vəd olunmuş Qurtarıcının ulu babalarının atası olmaq üçün seçdi. Bu Qurtarıcı, Ona inanan hər bir kəsi günahın və şeytanın hakimiyyətindən xilas edəcəkdir. Biz görürük ki, Allah İbramı çağıranda, O dünyaya günahlı insanların Xilaskarını göndərmək planı ilə irəli gətirirdi. İbram özü dünyanın Xilaskarı deyildi, amma **o Xilaskarın çıxacağı millətin atası olacaqdı.**

Allahın İbrama etdiyi vəd odur, amma öz ölkəsini tərk edib, Allahın göstərəcəyi yerə getmək şərtiylə. İbram Allaha itaət etdi? Sən necə fikirləşirsən? Allahın Sözü deyir:

*"İbram Rəbbin ona söylədiyi kimi oradan çıxdı… Xarandan çıxdığı vaxt İbram yetmiş beş yaşında idi. İbram arvadı Sarayı, qardaşı oğlu Lutu, Xaranda əldə etdikləri bütün əmlakı və özünün bütün nökərlərini götürüb Kənan torpağına tərəf yola düşdü. Onlar Kənan torpağına gəldilər."* (Yaradılış 12:4,5)

Öz atasının evinə və dininə arxasını çevirərək nə üçün İbram Allaha itaət etdi? **İbram Allaha etibar edirdi.** İbram bilmirdi hara gedirdi amma Rəbbin "Çıx! Əgər çıxsan, sənə böyük xeyir-dualar verəcəyəm!" dediyi sözlərə inandı. İbram Allaha etibar edərək, Rəbb Allahın dediyi kimi öz ölkəsini tərk etdi. Və Öz sadiqliyində Allah İbramı sonradan İsrail kimi tanınan Kənan torpağına apardı.

Sonra Müqəddəs Yazılar deyir: *"İbram oradan keçib, Şekem deyilən yerdəki More palıdının yanına çatdı. O vaxt bu torpaqda Kənanlılar yaşayırdı. Rəbb İbrama görünüb dedi:* ***"Bu torpağı sənin nəslindən olana verəcəyəm."*** (Yaradılış 12:6-7) Beləliklə biz öyrənirik ki, İbrama millətlərin atası olmaq vədini verən Allah həmçinin ona yeni ölkə də vəd etdi. Buna görə də Allah İbrama peyda olanda O vəd etdi, ***"Bu torpağı sənin nəslindən olana verəcəyəm"***

Yenə də, biz insan ağlına sığmayan bir şeyi görürük. Kənan torpağı boyu yaşayan adamlar var idi. İbram və onun nəsli buna necə malik ola bilərdilər? **İbramın yetmiş beş yaşı var idi. Onun arvadının isə altmış beş yaşı var idi və o sonsuz idi.** Bu torpağı doldurmaq üçün iki yaşlı adamın kifayət qədər övladı və nəsli ola bilərdi? Bu necə ola bilər?

Bəlkə bu bir az cəfəng görünür; amma bu Allahın İbrama, yaşlı və övladsız  və sonsuz arvadı olan kişiyə etdiyi vəd kimidir. On üçüncü fəsildə Allahın İbrama dediklərinə qulaq as. O dedi,

*"Gördüyün bütün torpaqları əbədi olaraq sənə və nəslinə verəcəyəm.*
*Nəslini yerin tozu qədər çoxaldacağam.* ***Əgər bir nəfər yerin tozunu saya bilərsə, sənin nəslini də saya bilər****. Qalx bu torpağı uzununa və eninə dolaş, çünki Mən onu sənə verirəm."* (Yaradılış 13:15-17)

**Allah vəd etdiyini yerinə yetirdi?** O İbramdan böyük millət yaratdı? Allah Kənan torpağını İbramın nəslinə verdi? Əlbəttə verdi! Gələn dərslərdə biz İbramın bu günki gündə *İsrail* adlanan torpaqları verdiyi İbranı xalqının atası olduğunu  görəcəyik.

Sonra, Müqəddəs Yazılar deyir: *"İbram ona görünən Rəbbə orada bir qurbangah düzəltdi. Buradan Bet-Elin şərqində yerləşən dağlıq yerə tərəf yola düşdü və burada çadır qurdu... İbram orada da Rəbbə bir qurbangah qurdu və Rəbbə sitayiş etdi."* (Yaradılış 12:7,8) Allahın ona vermək üçün vəd etdiyi torpağa çatan kimi İbram ilk olaraq nə etdi? O heyvan kəsdi və tikdiyi qurbangahda onu yandırdı. Habil, Şet, Xanok və Nuh kimi İbram da eyni yolla Allaha heyvan qurbanı gətirdi. İbram nə üçün bunu etdi? Çünki Allah *"qan axıdılmadan bağışlanma olmur."* (İbranilərə 9:22) qoyduğu qanunu ləğv etməmişdi. **İbram da Adəmin nəsli kimi günahlı idi.** Allahın İbramın günahına göz yummasının yeganə səbəbi o idi ki, İbram Allaha inandı və Ona **qan qurbanı** gətirdi. Bu gələcək olan müqəddəs Qurtarıcının rəmzi idi.

Burda öyrəndiklərimiz çox vacibdir . Sən indi başa düşürsən nə üçün Allah İbramı çağırdı ki, öz atası evini tərk etsin və başqa ölkəyə getsin? Bəli, Allah İbramdan dünyadakı bütün insanlara *"xeyir-duaya qapı"* olan **yeni nəsil** düzəltməyi nəzərdə tutmuşdu. Allahın İbramla etmək istədiyi əcdadımız Adəm və Həvva günah işlədərkən Cənnət Bağında Onun elan etdiyi **gözəl planın bir hissəsi idi**. Adəmin övladlarını şeytanın hakimiyyətindən qurtarmaq üçün Allahın Birini  necə vəd etdiyi xatırlayırsan? İki min il sonra İbramın dövründə də **Allah Öz vədini unutmamışdı.**

Bu gün biz Öz sadiqliyində, dünyaya vəd olunmuş Xilaskarın gələcəyi bir millətin atası olması üçün Allahın İbramı necə çağırdığını gördük.  Buna görə də Allah İbrama vəd edərək dedi*: "Səndən böyük bir millət törədəcəyəm, sənə xeyir-dua verəcəyəm, adını ucaldacağam və bərəkət qaynağı olacaqsan. Sənə xeyir-dua verənlərə xeyir-dua verəcəyəm, sənə lənət edənləri lənətləyəcəyəm.* ***Yer üzünün bütün tayfaları sənin vasitənlə xeyir-dua alacaq."*** (Yaradılış 12:2,3)

Bu gün öyrəndiklərimizi yekunlaşdırmaq üçün bir neçə sual. **Birinci: Nə üçün Allah İbramı çağırdı ki, öz evindən çıxsın və başqa ölkəyə getsin?** Çünki Allah İbramdan yeni millət yaradacağını nəzərdə tutmuşdu. **İkinci: Nə üçün Allah İbramdan yeni millət yaratmaq istədi?** Çünki  Allah peyğəmbərləri, Müqədddəs Yazılar və nəhayət müqəddəs Qurtarıcını məhz bu millət vasitəsilə bizə verməyi nəzərdə tutmuşdu. Qısaca, biz görürük ki, Allah İbramı çağıranda, **günahlı insanların Xilaskarını dünyaya göndərmək planını irəli sürürdü.**

Dostlar, gələn dərsimizdə, Allahın iradəsi ilə biz İbramın nə üçün *"Allahın dostu"* adlanmasına baxacağıq....Allahın İbrama verdiyi vəd üzərində düşündükcə Rəbb sizə xeyir-dua versin:

***"Səndən böyük bir millət törədəcəyəm, sənə xeyir-dua verəcəyəm ......və yer üzünün bütün tayfaları sənin vasitənlə xeyir-dua alacaq."*** (Yaradılış 12:2,3)

19-cu fəsil

# İbrahim, Allahın Dostu

**Yaradılış 13-15**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsdə biz Allahın Sözünün İbrahim peyğəmbər haqqında nə dediklərinə baxmağa başladıq. Biz öyrəndik ki, əvvəlcə İbrahimin adı İbrahim yox ***İbram*** idi. Biz gördük ki, İbram indiki İraq adlanan Xaldeydə doğulmuşdu. O torpağın adamları bütə sitayiş edirdilər. Amma Müqəddəs Yazılar deyir ki, bir gün Rəbb Allah İbrama peyda oldu və ona dedi ki, öz atası evini tərk etsin və Onun göstərəcəyi ölkəyə getsin.

Yadındadır nə üçün Allah İbramı başqa ölkəyə getməyə çağırdı? Çünki Allah İbramdan Allahın peyğəmbərlərinin və dünyanın Xilaskarının çıxacağı **yeni milləti** yaratmasını nəzərdə tutmuşdu. Beləliklə, biz öyrəndik ki, Allah İbramı çağıranda, O dünyaya gələcək Qurtarıcı planını irəli sürürdü. Buna görə də Allah İbrama dedi: *"Sənə xeyir-dua verəcəyəm....və* ***yer üzünün bütün tayfaları sənin vasitənlə xeyir-dua alacaq."*** (Yaradılış 12:2,3)

Biz İbramın Allaha necə itaət etdiyini və Allahın onu haraya aparacağını bilmədən şəhəri tərk etdiyini oxuduq. İbram atasının evini tərk edəndə onun yetmiş beş yaşı var idi. İbram, arvadı Sarayı, böyük qardaşının oğlu Lutu və mal-dövlətini, xidmətçilərini də özü ilə götürüb Kənana tərəf yola düşdü. Kənan sonradan İsrail adlandırıldı.

İbram Kənan torpağına çatanda Rəbb ona yenidən peyda oldu və dedi: *"Bu torpağı sənin nəslindən olana verəcəyəm."* (Yaradılış 12:7) Beləliklə biz Allahın İbrama yeni millətin atası etməyi və həmçinin onun nəslinin yaşaması üçün də yeni torpaq vəd etdiyini görürük . Heyrətamiz! İbram və onun arvadı yaşlı idilər və onların heç övladları yox idi. Torpağı doldurmaq üçün onların nəsli necə ola bilərdi? Tezliklə biz Allahın buna cavabını görəcəyik.

İndi isə gəlin İbrahimin hekayəsini davam etdirək. Biz Tövratda, Yaradılış kitabı 13-cü fəsildəyik. Bu fəsildə biz **İbramla onun qardaşı oğlu Lut arasında nə baş verdiyini görəcəyik**. Müqəddəs Yazılar deyir:

(Yaradılış 13) *İbram çox varlandı: onun çoxlu sürüsü və qızıl-gümüşü oldu.... Negevdən çıxıb bir yerdən o biri yerə keçərək Bet-Elə qədər – Bet-Ellə Ay şəhəri arasında əvvəllər çadır qurduğu yerə getdi. İbram o vaxt düzəltdiyi qurbangahın yanına çatdı və orada Rəbbə sitayiş etdi. İbramla birlikdə olan Lutun da qoyun-keçisi, mal-qarası və çadırları var idi. Birlikdə yaşamaq üçün yer onlara darlıq edirdi, çünki onların malı çox idi və birgə qala bilməzdilər. İbramın sürülərinin çobanları ilə Lutun sürülərinin çobanları arasında mübahisə düşdü.... İbram Luta dedi: «Qoy mənimlə sənin və çobanlarımla çobanların arasında mübahisə olmasın, çünki biz qohumuq.*
*Bütün torpaqlar gözünün önündə deyilmi? Gəl ayrılaq.* ***Əgər sən sola getsən, mən sağa gedəcəyəm, sən sağa getsən, mən sola gedəcəyəm."***

*Lut başını qaldırıb İordan çayının kənarındakı düzənliyi gördü. O vaxt bu yer Misir torpağı kimi bütünlüklə Soara qədər suvarılırdı və Rəbbin bağı kimi idi. Rəbb hələ Sodom və Homorranı məhv etməmişdi. Lut özünə İordan çayının kənarındakı düzənliyi seçdi. O, şərqə tərəf hərəkət etdi. Beləcə onlar bir-birindən ayrıldı.* ***İbram*** *Kənan torpağında qaldı,* ***Lut*** *isə düzənlikdəki şəhərlərdə yaşamağa başladı və Sodoma qədər öz çadırlarını qurdu. Sodomun əhalisi çox pozğun idi və Rəbbə qarşı çoxlu günah edirdi.*

Biz Lutun necə daha yaxşı yerləri seçməsini və əmisi İbramın quru yerlər seçməsini gördük. Buna baxmayaraq Lutun seçdiyi ərazi böyük əxlaqsızlıqlarla dolu olan Sodom şəhərinə yaxın idi!

Lut **öz iradəsini** seçdiyi zaman İbram **Allahın iradəsini** seçdi. Gələcək dərsdə, Allahın iradəsi ilə biz öz istəklərinin ardınca gedən Lutun başına nələr gəldiyini görəcəyik. Sonda Lut hər şeyi itirdi: var-dövlətini, arvadını, ailəsini, xoşbəxtliyini və öz ad-sanını itirdi! Hər şeyi Allahın əllərinə buraxan İbram isə Allah tərəfindən çox xeyir-dualandı.

Biz Lut və İbramın hekayəsindən nə öyrənə bilərik? Bəlkə özümüzə sadə sual verərək, "Mən bu iki şəxsdən hansına daha çox oxşayıram? **Luta ya İbrama?** Mən də Lut kimi **dünya şeylərinin ardınca gedirəm ?** Yoxsa İbram kimi **Səmavi şeylərin ardınca gedirəm?"** Onlar kimi, hər birimiz öz iradəmiz və Allahın iradəsi arasında seçim etməliyik. Müdrik olan Allahın iradəsini seçəcək. Müqəddəs Yazılar deyir: *"İnsana bütün dünyanı qazanıb canını itirməyinin nə xeyri var?"* (Mark 8:36) *"Dünyanı və dünyada olan şeyləri sevməyin... Dünya və ondakı ehtiraslar keçib-gedir,* ***amma Allahın iradəsinə əməl edən əbədi qalır."*** (1 Yəhya 2:15,17) Sənin hər şeydən çox istədiyin nədir? Allahın əbədi qalan, yoxsa dünyada olan keçib-gedən şeylər?

İndi gəlin İbramın hekayəsini davam edək. Müqəddəs Yazılar deyir:

(Yaradılış 13:14-18) *Rəbb İbrama dedi: "Başını qaldırıb dayandığın yerdən şimala, cənuba, şərqə və qərbə tərəf bax. Gördüyün bütün torpaqları əbədi olaraq sənə və nəslinə verəcəyəm.Nəslini yerin tozu qədər çoxaldacağam. Əgər bir nəfər yerin tozunu saya bilərsə, sənin nəslini də saya bilər.Qalx bu torpağı uzununa və eninə dolaş, çünki Mən onu sənə verirəm».*
*İbram çadırını götürdü və gəlib Xevronda olan Mamre palıdının yanında məskən saldı. O burada Rəbbə bir qurbangah düzəltdi.*

(Yaradılış 15:1-6) *Bir müddət sonra İbrama görüntüdə Rəbbin bu sözü nazil oldu: «Ey İbram, qorxma. Sənin qalxanın Mənəm. Mükafatın çox böyük olacaq».İbram dedi: «Ey Xudavənd Rəbb, mənə nə verəcəksən? Mənim övladım yoxdur, evimin sahibi bu Dəməşqli Eliezer olacaq».İbram sözünə davam etdi: «Sən mənə övlad vermədiyin üçün evimin nökəri mənim varisim olacaq».Ona Rəbbin bu sözü nazil oldu: «O sənin varisin olmayacaq, öz belindən gələn övladın sənin varisin olacaq».Rəbb onu bayıra çıxarıb dedi: «Göyə bax, oradakı ulduzları saya bilərsənsə, say». Yenə dedi: «Nəslin o qədər olacaq».* ***İbram Rəbbə iman etdi və Rəbb bunu ona salehlik saydı.***

İnanılmaz! İbram və onun arvadı yaşlı idilər və onların övladları yox idi. Buna baxmayaraq Allah, İbramdan törəyəcək böyük millət haqqında vədini saxlamağı davam edirdi. Bu necə ola bilər? İbram böyük millətin atası necə ola bilərdi? Yalnız bir cavab var: Rəbb Allah hər şeyə qadir olan Allahdır! Allah böyükdür! Onun üçün mümkün olmayan heç nə yoxdur! Allah nə söz verirsə, onu yerinə yetirir.

Bəs İbram? O "**qeyri-mümkün**" şeyləri vəd edən Rəbbə inandı? Müqəddəs Yazıların nə dediyinə qulaq as: ***"İbram Rəbbə iman etdi və Rəbb bunu ona salehlik saydı!"*** Nə gözəl şey! Allah İbrama insana qeyri-mümkün görünən bir şey vəd etdi. Amma İbram necə cavab verdi? O Allahın onun üçün olan vədinə inandı! Bəs Allah nə etdi? **Allah İbramı imanına görə saleh saydı!**

Bu həqiqət, Allah qarşısında saleh sayılmaq istəyənlərin ürəklərini lərzəyə gətirməlidir. Allah İbramı nə üçün saleh saydı? İbram özlüyündə saleh adam idi? Xeyr! Gələn dərsimizdə biz Adəmin hər bir nəsli kimi, İbramın da günahlı təbiəti olduğunu görəcəyik. Onda, nə üçün Allah İbramı saleh saydı? **Allah İbramı ona görə saleh saydı ki, İbram Allahın dediklərinə inandı!**

**Allaha inanmaq nə deməkdir?** Bildiyimiz kimi, Peyğəmbərlərin Yazıları İbrani dilində yazılmışdı. İbrani dilində **"AMAN"** sözü **"inanmaq"** deməkdir və işlətdiyimiz ***Amin*** sözü **"AMAN"** sözündən yaranıb. "Amin" deyəndə, sən sadəcə "Bəli, bu düzdür!" və ya "Bəli, mən razıyam!" deyirsən. İnanmağın mənası budur. Allah İbrama vəd edəndə, İbramın ürəyinin cavabı bu idi: "Amin! Bəli! Bu düzdür! Mən Sənin Sözlərinə inanıram!" **Allahın Sözünə sadəcə "Amin" deməklə, Allah İbramı saleh saydı.**

Bəs sən necə? Sən də istəyirsənmi ki, İbram kimi Allah qarşısında saleh sayılasan? Onda sən İbramın inandığı kimi Allaha inanmalısan. H**ətta asan olmasa da, sən Allahın dediyinə inanmalısan.** Qohumların, dostların belə inanmasa da, sən Allahın həqiqi Sözünü qəbul etməlisən. Allah səni Öz salehliyi ilə bürümək və sənə Onun müqəddəs hüzurunda yaşamaq hüququ vermək istəyir, amma **sən Onun Sözünə inanmalısan**! Müqəddəs Yazılar deyir:

*"İman olmadan Allahı razı salmaq **qeyri-mümkündür!"*** **(İbranilərə 11:6)** və *"**iman vasitəsilə**, lütflə xilas oldunuz. Bu, sizin nailiyyətiniz deyil, Allahın hədiyyəsidir. **Əməllərlə deyil** ki, heç kim öyünə bilməsin."* (Efeslilərə 2:8,9)

*"Bəs onda cismani əcdadımız İbrahim haqqında nə deyə bilərik? O nə əldə etdi? Əgər İbrahim öz əməlləri ilə saleh sayılsaydı, öyünməyə haqqı olardı, amma Allahın önündə yox. Müqəddəs Yazı nə deyir? **"İbrahim Allaha iman etdi və bu ona salehlik sayıldı"*** (Romalılara 4:1-4)

İbram, Allahın dediyinə inandı. Bu səbəbə görə də Allah ona Öz kamil salehliyini verdi. Burada ən gözəl şey ***"İbrahim Allaha iman etdi və bu ona salehlik sayıldı"*** bu sözlər təkcə İbram üçün deyil. Biz də bu sözlər ilə bölüşə bilərik. Əgər biz də Allahın dediklərinə inansaq, Allah Öz kamil salehliyini bizimlə də bölüşəcək.

Bəs sən necə? **Sən həqiqətən Allaha inanırsan?** Biz soruşmuruq ki, sən **Allahın varlığına** inanırsan və ya **Allahın tək olmasına** inanırsan. Müqəddəs Yazılar o cür "iman" haqqında deyir: *"Sən Allahın bir olduğuna inanırsansa, yaxşı edirsən. **Cinlər də buna inanır və əsirlər!"*** (Yaqub 2:19) Şeytanın özü də bilir ki, bir Allah var. İnanmaq ki, Allah birdir, bu Allahın bizi bağışlamasına və bizi saleh saymasına səbəb olmayacaqdır! Allahın səndən istədiyi **Onun Sözünə inanmaq və onu qəbul etməkdir**. Allah, Peyğəmbərlərin Yazıları vasitəsilə səninlə danışmaq istəyir. O istəyir ki, Müqəddəsin, Allahın qarşısında əbədi saleh olmağın yolunu göstərən Onun Sözünü biləsən və ona inanasan!

Əziz dost, Allah səni **Öz salehliyi** ilə bürüyüb? Yoxsa sən əyninə sadəcə din paltarı geyinmsən? Sən Allahın etibarlı Sözünə inanırsan? Yoxsa insanın fani sözünə qulaq asırsan? Sən Allahın qoyduğu saleh xilas yolu haqqında Müqəddəs Yazıların nə bəyan etdiklərini bilirsən? Sən buna **inanmısan**?

Öz qohumları ilə sağollaşmaq və öz atasını, dinini tərk etməyi tələb etsə də, İbram Allahın Sözünə inandı. Buna görə də o, ***Allahın dostu*** adlandı. Müqəddəs Yazılar deyir: *"İbrahim Allaha iman etdi və bu ona salehlik sayıldı."* (Yaqub 2:23) Bəs sən necə? Allahın dostusan?

Bizi dinlədiyiniz üçün çox sağ olun və sizi gələn dərsdə İbram və İsmayılın hekayəsinə bizimlə birgə baxmağa dəvət edirik......

Müqəddəs  Kitabdan bu gözəl ayə haqqında düşündükcə, Rəbb sizə xeyir-dua versin:

***"İbrahim Allaha iman etdi və bu ona salehlik sayıldı."*** (Yaqub 2:23)

20-ci Dərs

# İbrahim və İsmail

**Yaradılış 16, 17**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

İki dərs bundan əvvəl Müqəddəs Yazılardakı dərslərimizdə biz İbraihimin hekayəsini öyrənməyə başladıq. Əvvəlcə, İbrahimin adı İbrahim yox *İbram* idi. Amma bu günkü proqramda biz **Allahın İbramin adını nə üçün dəyişib *İbrahim*** etdiyini öyrənəcəyik.

Bu günkü dərsimizin birinci hissəsi İbramın etdiyi bir şeyi açan kədərli hekayədir ki, bu Allahı məmnun etməmişdir. Bəzi adamlar fikirləşir ki, Allahın peyğəmbərləri heç vaxt günah işlətməmişdilər. Amma Allahın Sözü bəyan edir ki*: "Heç kəsə fərq qoyulmur. Çünki* ***hamı günah edib****, Allahın izzətindən məhrum olub."* (Romalilara 3:22,23) və *"Əgər günahkar olmadığımızı iddia edириksə, onda Onu yalançı yerinə qoyuruq və daxilimizdə Onun sözü olmur."* (1 Yəhya 1:10) Biz artıq Adəmin günahının bütün insanlara: gənc və yaşlı, kişi və qadın, bütpərəst və peyğəmbərə necə yayıldığını gördük. Yalnız bir Şəxs günahla ləkələnməmişdi. Günahkarları xilas etmək üçün Allah həmin O **müqəddəs Qurtarıcını** yerə göndərdi. O günahla ləkələnmiş deyildi, çünki o yuxardan, Müqəddəs olan Allahın hüzurundan gəlmişdir.

Ötən iki dərsimizdə biz **Allahın İbramdan, Qurtarıcının çıxacağı böyük bir millətin atası olacağını necə vəd etdiyini gördük.** İbram və arvadı yaşlı idilər və övladları yox idi, amma bu, İbrama Allahın vədinə şübhə etməsinə səbəb olmadı. Lakin bu gün biz birinci dəfə Allahın İbrama nəsil vəd edəndən on il sonra, İbram **Allahın vədini həyata keçirmək üçün çalışdı ki, Allaha "kömək" etsin**. Amma öz səbirizliyi ilə İbramın etdiyi şey çox problemlər törətdi.

İndi isə gəlin görək İbram və Saray Allahın vəd etdiyi oğulu əldə etmək üçün hansı cəhdləri etməyi quraşdırdılar. Yaradılış kitabının 16-cı fəsilində, Müqəddəs Yazılar deyir:

(Yaradılış 16:1-6) *İbramın arvadı Sarayın uşağı olmurdu. Onun Həcər adında Misirli bir qarabaşı var idi. Saray İbrama dedi: «Bax Rəbb mənim bətnimi bağladı ki, uşağım olmasın. Qarabaşımla yaxınlıq et, qoy o mənim üçün uşaq doğsun». İbram Sarayın sözünə qulaq asdı. İbramın arvadı Saray qarabaşı Misirli Həcəri götürüb əri İbrama arvad olmaq üçün verdi; bu əhvalat İbram Kənan torpağında on il yaşadıqdan sonra baş verdi. İbram Həcərlə yaxınlıq etdi və Həcər hamilə oldu. Həcər hamilə olduğunu görəndə xanımına həqarətlə baxmağa başladı. Saray İbrama dedi: «Mənim təhqir olunmağıma sən səbəb oldun. Mən qarabaşımı sənin qoynuna verdim, o da hamilə olduğunu görəndə mənə həqarətlə baxmağa başladı. Qoy səninlə mənim aramda Rəbb hökm etsin». İbram Saraya dedi: «Qarabaşını sənin ixtiyarına verirəm, ona nə istəyirsən, elə». Saray qarabaşı ilə sərt rəftar etməyə başladı və qarabaşı onun yanından qaçdı.*

Beləliklə biz İbramın etdiyi şeyin ailəsində necə kədər və mübahisə törətdiyini görürük. Həcərin hamilə olduğuna görə Saray qısqanır; Həcər onunla yaxşı rəftar etməyən Saraya çox məyus olur. Bununla da Həcər Saraydan qaçır.

Sonra Müqəddəs Yazılar deyir:

(Yaradılış 16:7-12) *Rəbbin mələyi Şur yolundakı çöldə olan bulağın yanında onu tapdı. Mələk ondan soruşdu: «Ey Sarayın qarabaşı Həcər, haradan gəlib, haraya gedirsən?» Həcər dedi: «Mən xanımım Sarayın yanından qaçıram». Rəbbin mələyi ona dedi: «Xanımının yanına qayıt və ona tabe ol».*
*Rəbbin mələyi sözünə davam etdi: «Sənin nəslini lap çoxaldacağam, çoxluğuna görə sayı-hesabı bilinməyəcək».*
*Sonra Rəbbin mələyi ona dedi: «Bax sən hamiləsən, Bir oğul doğacaqsan. Onun adını İsmail qoyarsan, Çünki Rəbb əziyyət içində fəryadını eşitdi. O, insanlar arasında vəhşi eşşək kimi olacaq: O hamıya, hamı isə ona qarşı çıxacaq, bütün qardaşları ilə yola getməyərək yaşayacaq.*

Həcər Allahın mələyi ona dediyi kimi Saraya qayıtdı. *"Həcər İbrama bir oğul doğdu və İbram Həcərdən olan oğlunun adını İsmail qoydu. Həcər ona İsmaili doğanda İbramın səksən altı yaşı var idi."* (Yaradılış 16:15,16) Beləliklə, Ərəblərin atası olan, **İsmail** dünyaya gəldi. Allah İsmailin qayğısına qalırdı və onun üçün planı var idi, amma İsmail Allahın İbrama vəd etdiyi oğul **deyildi**. Allahın İbramdan böyük millət törədəcəyi plan hələ də dəyişməmişdir. Allah İbram kimi tələsmirdi, hətta bəzən bizə çox asta görünsə də, Allah həmişə vəd etdiyini yerinə yetirir. Beləliklə, Müqəddəs Yazılar bizə deyir ki, İsmailin doğulmasından 13 il sonra, Allah İbrama heç nə deməyərək səssiz oldu. Lakin bir gün Allah yenidən İbrama danışdı.

Gəlin 17-ci fəsili oxuyaq və 13 il səssizlikdən sonra Allahın İbrama dediklərinə qulaq asaq. Bizim oxuyacağımız çox vacibdir. Müqəddəs Yazılar deyir:

(Yaradılış 17:1-12,15-21) *İbram doxsan doqquz yaşında olanda Rəbb ona görünərək dedi: «Külli-İxtiyar Allah Mənəm. Mənim yolumla get və kamil ol. Əhdimi Özümlə sənin aranda qoyacağam və nəslini lap çoxaldacağam».*
*İbram üzüstə düşdü. Allah onunla danışıb dedi: «Mən səninlə əhd bağlamışam, sən çoxlu millətin atası olacaqsan. Daha sənə İbram deyilməyəcək, bu gündən adın İbrahim olacaq, çünki səni çoxlu millətin atası etdim. Nəslini lap çoxaldacağam, səndən millətlər törədəcəyəm və nəslindən padşahlar çıxacaq. Özümlə sənin və səndən sonrakı nəslinin arasında əbədi əhd qoyuram ki, Mən sənin və səndən sonrakı nəslinin Allahı olacağam. Sənə və səndən sonrakı nəslinə qərib kimi yaşadığın bu torpağı – bütün Kənan torpağını əbədi mülk olaraq verəcəyəm və onların Allahı olacağam».*
*Sonra Allah İbrahimə dedi: «Sən və səndən sonrakı övladların nəsillər boyu əhdimə əməl edin. Mənim səninlə və səndən sonrakı nəslinlə bağladığım, sizin əməl edəcəyiniz əhdin əlaməti budur: qoy aranızda olan bütün kişilər sünnət olunsun. Sünnət ətinizi kəsin; bu Mənimlə sizin aranızda olan əhdin əlaməti olacaq. Evinizdə doğulmuş yaxud nəslinizdən olmayıb bir yadellidən satın alınmış kişi cinsindən olan hər uşaq səkkizinci gün sünnət olunsun...*
*Allah yenə İbrahimə dedi: «Arvadın Saraya isə artıq Saray demə. Bundan sonra onun adı Sara olacaq. Ona xeyir-dua verəcəyəm, ondan sənə bir oğul verəcəyəm. Saraya xeyir-dua verəcəyəm: o, millətlərin anası olacaq və xalqların padşahları ondan doğulacaq».İbrahim*

*üzüstə düşdü və gülüb ürəyində dedi: «Yüz yaşlı adamın oğlu ola bilərmi? Doxsan yaşında olan Sara doğacaqmı?» Sonra İbrahim Allaha dedi: «Kaş ki İsmail Sənin önündə xeyir-dua alaydı!»Allah isə dedi: «Xeyr, arvadın Sara sənə bir oğul doğacaq və adını İshaq qoyacaqsan. Onunla və ondan sonrakı nəsli ilə əhdimi əbədi olaraq davam etdirəcəyəm. İsmail barədə dediyin sözləri də eşitdim. Ona xeyir-dua verəcəyəm, onu bəhərli edəcəyəm, nəslini lap çoxaldacağam. O, on iki başçının atası olacaq. Ondan böyük bir millət törədəcəyəm. Əhdimi isə gələn il bu vaxt Saranın sənə doğacağı İshaqla davam etdirəcəyəm».*

Biz İbramın arvadına necə qulaq asıb qulluqçusu Həcərlə yatdığını görürük. İbramın etdiyi səhv idi. İbram və Həcərdən doğulan İsmail, dünyanın millətlərinə xeyir-dua gətirəcək Allahın planının bir hissəsi deyildi. Amma **insanın vəfasızlığı Allahın sadiqliyini örtə bilməz.** Necə ki, bizim oxuduğumuz kimi, İbramın 99 yaşı olanda Allah Öz çoxdankı vədini təsdiqləmək üçün yenidən ona göründü. O dedi: *"Külli-İxtiyar Allah Mənəm.... sən çoxlu millətin atası olacaqsan. Daha sənə İbram deyilməyəcək, bu gündən adın İbrahim olacaq, çünki səni çoxlu millətin atası etdim."* Öz kamil planına uyğun olaraq, Allah İbramın adını dəyişib İbrahim qoydu. Bu, **bir çoxlarının atası deməkdir**. Allah Sarayın da adını dəyişib Sara qoydu. Bu da **şahzadə** deməkdir.

Burada gözəl bir şey var. Biz burada heç vaxt öz övladları olmayan cütlüyü görürük; İbram və Saray. Allah indi onlara baş verəcək şeyi elan etmək üçün yeni adlar verir. Allah İbrahim və Saraya oğul və o oğuldan millət verməyə hazırlaşırdı. O millətdən çoxlu **padşahlar və peyğəmbərlər** və nəhayət **dünyaya Xilaskar** gələcəkdi! Həqiqətən, Rəbb böyükdür və əbədi olaraq izzətə layiqdir! O, İbrahimə uzun müddət əvvəl vəd etdiyini unutmamışdı.

Allah İbrahimə yaşlı vaxtında oğlu olacağı vədini təsdiqləyəndə, İbrahim nə etdi? Müqəddəs Yazılar deyir: *"İbrahim üzüstə düşdü və gülüb ürəyində dedi: «Yüz yaşlı adamın oğlu ola bilərmi? Doxsan yaşında olan Sara doğacaqmı?"* **İbrahim güldü!** Amma o inamsızlıqdan yox xoşbəxtlikdən güldü.

Müqəddəs Yazılar deyir:

*"Heç bir ümid olmadığı halda İbrahim çoxlu millətin atası olacağına ümidlə inandı. Çünki ona deyilmişdi ki, «nəslin o qədər olacaq». Hətta təxminən yüz yaşında ikən öz bədəninin artıq ölüyə bənzədiyini, arvadı Saranın da bətninin ölü olduğunu anladı, amma imanı azalmadı.* ***Allahın vədinə imansızlıqla şübhə etmədi, əksinə, imanında möhkəm durub Allahı izzətləndirdi.Tamamilə əmin idi ki, Allah verdiyi vədi yerinə yetirməyə də qadirdir."*** (Romalilara 4:18-21)

Buna baxmayaraq İbrahim, öz qulluqçusu Həcərdən olan oğlu İsmail ilə də nə baş verəcəyini bilmək istədi. Allah ona dedi:

*"İsmail barədə dediyin sözləri də eşitdim. Ona xeyir-dua verəcəyəm, onu bəhərli edəcəyəm,* ***nəslini lap çoxaldacağam.*** *... Əhdimi isə gələn il bu vaxt Saranın sənə doğacağı İshaqla davam etdirəcəyəm.... Onunla və ondan sonrakı nəsli ilə əhdimi əbədi olaraq davam etdirəcəyəm."* (Yaradılış 17:20,21,19)

Allah İshaqın nəslindən peyğəmbərlər və Qurtarıcını çıxardacağı məqsədini təsdiqlədi. Gələn dərsdə, Allahın iradəsi ilə biz vəd olunmuş oğul olan İshaqı İbrahim və Saraya necə verməsini görəcəyik.

Həqiqətən**, Allah sadiqdir.** Allah verdiyi vədi yerinə yetirəndir. Onun üçün heç nə çətin deyil! Müqəddəs İncildən olan bu gözəl ayələrə qulaq as:

*"Allahın zənginliyi nə böyük, hikməti və biliyi nə dərindir! Onun hökmləri necə də ağlasığmaz, yolları necə də anlaşılmazdır! «Rəbbin ağlını kim dərk etdi? Ona kim məsləhətçi oldu?» «Kim Ona bir şey verdi ki, əvəzini Ondan istəyə bilsin?» Çünki hər şeyin mənbəyi Odur, hər şey Onun vasitəsilə və Onun üçün var oldu. Ona əbədi olaraq izzət olsun! Amin."* (Romalilara 11:33-36)

Dinlədiyiniz üçün çox sağ olun.... Müqəddəs Yazılardadakı bu ayənin mənası üzərində düşündükcə, Allah sizə xeyir-dua versin:

***"Biz sadiq qalmasaq da, O sadiq qalacaq. Çünki Öz təbiətinə zidd davrana bilməz."*** (2 Timoteyə 2:13)

21-ci Dərs

# İbrahim: Sodomun Dağılması və İshaqın Doğulması

**Yaradılış 18-21**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək , Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Tövratdakı dərsimizdə biz İbrahimi Allahın peyğəmbərlərinin və dünyaya Xilaskarın gələcəyi millətin atası olacağı haqda Allahın necə vəd etdiyini gördük. Amma hekayədə bu vaxta qədər İbrahimin arvadı Saranın hələ oğlu olmamışdı və həmçinin İbrahim də çox qocalmışdı.

Bu gün bizim başqa bir möcüzəli hekayəmiz var. Hekayənin başlanğıcında biz İbrahimə baş çəkməyə gələn üç kişi görəcəyik. Amma bu üç kişi elə belə adam deyildilər. Onlardan ikisi **mələk** idi və digəri **Rəbb Allahın Özü** idi! Bəzi adamlar deyə bilər ki, Allah insan formasında İbrahimə görünə bilməzdi, amma onlar unudurlar ki, Allah qüdrətlidir və heç nə Onun üçün çətin deyil. Allah, qeyri-saleh şeylərdən başqa hər şeyi edə bilər.

Bu gün biz Tövratın 4 fəsilindən oxuyacağıq. Yaradılış kitabının 18-ci fəsilində Müqəddəs Yazılar deyir:

(Yaradılış 18:1-5, 6, 8-15) *Mamre palıdının yanında Rəbb İbrahimə göründü; bu zaman o, günün istisində çadırın girəcəyində oturmuşdu. O, başını qaldırıb baxanda qarşısında üç adamın dayandığını gördü. Onları görən kimi çadırın girəcəyindən onları qarşılamağa qaçdı və yerə qədər əyilib dedi: «Ey ağam, əgər indi gözündə lütf tapdımsa, qulunun yurdundan yan keçmə.İndi bir az su gətirərlər, ayaqlarınızı yuyub, ağac altında dincələrsiniz. Mən isə bir parça çörək gətirərəm ki, canınıza qüvvət gəlsin. Ondan sonra gedərsiniz, çünki siz qulunuzun yanından keçirdiniz». Onlar dedilər: «Dediyin kimi elə». İbrahim çadıra – Saranın yanına qaçıb..... kəsmiyi, südü və hazırladığı buzovu götürüb onların qabağına qoydu, özü isə ağacın altında, onların yanında durdu. Onlar da yedilər. Sonra İbrahimə dedilər: «Arvadın Sara haradadır?» O dedi: «Burada çadırdadır». Onlardan biri dedi: «Gələn il bu vaxt yenə də sənin yanına gələcəyəm. Onda arvadın Saranın bir oğlu olacaq». Sara onun arxasında, çadırın girəcəyində durub qulaq asırdı. İbrahim və Sara qocalıb yaşa dolmuşdular. Sara aybaşıdan kəsilmişdi. O, ürəyində gülüb dedi: «Qocaldığım halda mənə belə şadlıq üz verə bilərmi? Ağam da qocadır». Rəbb İbrahimə dedi: «Sara nə üçün "Qocaldıqdan sonra mən uşaq doğa bilərəmmi?" deyib güldü? Rəbb üçün çətin bir şey varmı? Gələn il bu vaxt Mən yenə sənin yanında olacağam və Saranın bir oğlu olacaq». Sara qorxduğu üçün «gülmədim» deyib inkar etdi. Ancaq Rəbb dedi: «Xeyr, güldün».*

(Yaradılış 18: 20-22) *Rəbb yenə dedi: «**Sodom və Homorraya qarşı qalxan fəryad böyük**, oranın adamlarının günahı çox ağırdır. Buna görə də aşağı enib baxacağam ki, Mənə çatan fəryadın doğru olub-olmadığını bilim». O adamlar oradan dönüb Sodoma getdilər, ancaq **İbrahim hələ də Rəbbin önündə dururdu.***

*(Yaradılış 18:23-33) İbrahim yaxın gəlib dedi: «Doğrudanmı, Sən salehi də günahkarla birgə məhv edəcəksən?*
*Əgər bu şəhərdə əlli nəfər saleh adam olsa, Sən yenə də oranı məhv edəcəksən? Əlli nəfər saleh adamın xatirinə bu yerə rəhm etməyəcəksən? Axı Sən bunu eləməzsən, saleh adamı günahkarla birgə öldürməzsən. Saleh adamın aqibətini günahkarınkı kimi etməzsən, Sən bunu eləməzsən. Bütün dünyanın Hakimi belə ədalətsizlik etməz».*
*Rəbb dedi: «Əgər Sodom şəhərində əlli nəfər saleh adam tapsam, onların xatirinə bütün bu yerə rəhm edəcəyəm».*
*İbrahim cavab verdi: «Mən önündə toz və kül kimi bir şey olsam da, indi bunu Rəbbə söyləməyə cəsarət edirəm: əlli nəfərdən beş nəfər az saleh adam tapılsa, beş nəfər əskik olduğu üçün bütün şəhəri məhv edərsənmi?» Rəbb dedi: «Əgər orada qırx beş nəfər tapsam, şəhəri dağıtmayacağam».*
*İbrahim yenə Onu dilə tutub dedi: «Əgər orada qırx nəfər tapılsa, necə?» Rəbb dedi: «Qırx nəfərin də xatirinə bunu etmərəm». İbrahim dedi: «Mən çox danışdığım üçün Rəbb qəzəblənməsin: əgər orada otuz nəfər tapılsa, necə?» Rəbb dedi: «Əgər orada otuz nəfər də tapılsa, bunu etmərəm».İbrahim dedi: «Mən yenə də Rəbbə bunu söyləməyi cəsarət edirəm: orada iyirmi nəfər tapılsa, necə?» Rəbb dedi: «İyirmi nəfərin də xatirinə oranı məhv etmərəm». İbrahim dedi: «Qoy Rəbb qəzəblənməsin ki, mən son dəfə danışacağam: orada on nəfər tapılsa, necə?» Rəbb dedi: «On nəfərin də xatirinə oranı məhv etmərəm».Rəbb İbrahimlə söhbətini bitirib getdi. İbrahim də öz yerinə qayıtdı.*

(Yaradılış 19:1-5) *Axşam iki mələk Sodoma gəldi. Lut şəhərin darvazası yanında oturmuşdu. O, mələkləri gördü, qalxıb onları qarşıladı və yerə qədər əyilib dedi: «Ağalarım, qulunuzun evinə girib gecələyin və ayaqlarınızı yuyun. Səhər qalxıb yolunuza davam edərsiniz». Onlar dedilər: «Yox, biz gecəni şəhər meydanında keçirəcəyik».*
*Lut onları çox dilə tutdu, axırda onlar Lutla birgə onun evinə getdilər. Lut onları qonaq edib mayasız çörəklər bişirdi və onlar yedilər.Ancaq onlar yatmazdan əvvəl cavandan tutmuş qocaya qədər Sodom şəhərinin hər məhəlləsindən olan kişilər evi əhatəyə aldılar.Adamlar Lutu çağırıb ona dedilər: «Bu gecə sənin yanına gələn adamlar haradadır? Onları bizim yanımıza gətir ki, onlarla yaxınlıq edək».*

Sodomdakı adamların çoxu homoseksual idilər və Allahın pozğunluq adlandırdığı günahdan həzz alırdılar. (Bax Romalılara 1:26,27)

(Yaradılış 19:6-17, 24-33) *Lut bayıra – onların yanına çıxıb arxasınca qapını örtdü. O dedi: «Qardaşlarım, pislik etməyin.... bu adamlara toxunmayın, çünki onlar mənim evimin qonaqlarıdır». " Kişilər qışqırıb dedilər: «Geri çəkil! Bu adam burada qəribdir, ancaq ağalıq edir. İndi səninlə onlardan da pis rəftar edəcəyik». Onlar Luta hücum edib qapını qırmaq üçün yaxınlaşdılar. Onda içəridəki mələklər əllərini uzadıb Lutu evin içinə – öz yanlarına saldılar və qapını bağladılar.Evin qapısı arxasında duran adamları kiçikdən tutmuş böyüyə qədər kor etdilər. Bu səbəbdən adamlar qapını tapa bilmədilər.*
*Mələklər Luta dedilər: «Burada daha kimin var? Bu şəhərdə kürəkənlərin, oğulların, qızların – nəslindən olan hər kəs varsa, hamısını bu yerdən çıxart, çünki biz bu yeri məhv edəcəyik.* ***Bu xalqın əleyhinə qalxan fəryad Rəbbə gəlib çatmışdır, buna görə də Rəbb bizi göndərib ki, onu məhv edək».*** *Lut gedib qızlarını almaq istəyən kürəkənlərinə dedi: «Qalxıb bu yerdən çıxın, çünki Rəbb şəhəri məhv edəcək». Ancaq kürəkənləri güman etdilər ki, o zarafat edir.Səhər açılanda mələklər Lutu tələsdirərək dedilər: «Qalx yanındakı arvadını və iki qızını götür get, yoxsa şəhərdəkilərin günahlarına görə məhv olacaqsan».Lut yavaş tərpəndi. Rəbb ona mərhəmət etdiyinə görə həmin şəxslər onun, arvadının və iki qızının əlindən tutub şəhərdən kənara çıxartdılar. Onları çıxaran zaman mələklərdən biri dedi:* ***«Öz***

***canını qurtar, arxana baxma. Bu düzənliyin heç yerində qalma, dağa qalx, yoxsa həlak olarsan».***
***İbrahim səhər erkən qalxıb Rəbbin önündə durduğu yerə getdi****. Oradan Sodom və Homorraya, bütün düzənliyə baxdı. O, yerdən ocaq tüstüsü kimi bir tüstü qalxdığını gördü. Allah düzənlikdəki şəhərləri məhv etdiyi zaman İbrahimi xatırladı, buna görə də Lutun yaşadığı şəhərləri dağıdarkən onu fəlakət içindən çıxartdı.*

Bu Allahın Sodom və Homorra şəhərlərini səmadan yanan kükürdlə necə məhkum etdiyi haqda kədərli hekayədir. Bu gün Sodom şəhərinin dağınıqları İsraildəki Ölü Dənizin dibindədir. Günahın ardınca getmək heç vaxt ağıllı seçim deyil. **Allah günahı mühakimə etməkdə çox ciddidir!**

Gəlin indi Tövratda davam edək, görək Allah İbrahim və Saraya uzun illər əvvəl söz verdiyi vədi yerinə yetirmək üçün onlara necə oğul verir. 20-ci fəsildə, Müqəddəs Yazılar deyir:

(Yaradılış 21:1-7) *Rəbb dediyi kimi Saraya nəzər saldı və ona söylədiyi sözü yerinə yetirdi: Sara hamilə oldu və İbrahimin qocalıq çağında – Allahın ona söylədiyi vaxt bir oğul doğdu. İbrahim Saradan doğulan oğluna İshaq adını qoydu. Allahın İbrahimə əmr etdiyi kimi o, oğlu İshaqı doğulandan səkkiz gün sonra sünnət etdi. İshaq doğulanda İbrahimin yüz yaşı var idi. Sara dedi: «Allah mənim üzümü güldürdü. Bunu eşidən hər kəs mənimlə birgə güləcək». O yenə dedi: «Kim İbrahimə deyərdi ki, Sara uşaq əmizdirəcək? Amma qocalıq çağında mən ona bir oğul doğmuşam».*

Beləliklə, Allah uzun müddət əvvəl İbrahim və Saraya verdiyi vədi yerinə yetirdi. "Heç vaxt dünyaya övlad gətirə bilməyəcək" kimi tanınan Sara**, Allahın dediyi kimi**, bir oğul doğdu. Onlar onun adını ***İshaq*** qoydular –mənası *o gülür* deməkdir. Amma hamı İshaqın doğuluşuna sevinmirdi.

Müqəddəs Yazılar deyir:

(Yaradılış 21:8-14) *Uşaq böyüyüb süddən kəsildi. İshaqın süddən kəsildiyi gün İbrahim böyük bir ziyafət verdi. Sara gördü ki, Misirli Həcərin İbrahimə doğduğu oğlu ona gülür. Sara İbrahimə dedi: «Bu cariyəni və onun oğlunu qov. Bu cariyənin oğlu mənim oğlum İshaqla birgə varis olmayacaq».Bu iş İbrahimi çox narahat etdi, çünki İsmail də onun oğlu idi.Allah İbrahimə dedi: «Uşaqdan və cariyəndən ötrü narahat olma. Saranın sənə söylədiyi bütün sözlərə qulaq as, çünki İshaqdan törəyənlər sənin nəslin adlanacaq.Amma cariyənin oğlundan da bir millət törədəcəyəm, çünki o da sənin nəslindir».İbrahim səhər tezdən qalxdı, çörək və bir tuluq su götürüb çiyninə qoyaraq Həcərə verdi.* ***Uşağı da ona verib onu yola saldı.***

İsmailin getməsi İbrahim üçün acılı idi, amma Allahın açıqladığına görə dünyanın Xilaskarı İsmailin yox İshaqın vasitəsilə gələcək, bu belə olmalı idi. On beş yaşında olan İsmail İshaqa lağ edirdi və Allahın İshaq vasitəsilə böyük millət törədəcəyi planını heç xoşlamırdı.

Beləliklə İsmailə nə oldu? Sonrakı ayələr göstərir ki, o anası ilə getdi, Misirə yaxın yerdə səhralıqda yaşadı və Misirli qızla evləndi. İsmail, Allahın İbrahimə qabaqcadan dediyi kimi, İshaqın millətinin düşməni olan Ərəb nəslinin atası oldu. (Bax Yaradılış 16:12) Bu günə qədər də hamımızın bildiyi kimi, Ərəblərlə Yəhudilər arasında rəqabət var! Allah Ərəbləri, Yəhudiləri və dünyanın bütün millətlərini sevir və istəyir ki, hamısı Ona tərəf dönsünlər.

Biz inanırıq ki, sən yenidən Öz Sözünə qarşı çıxmayan həqiqi və canlı Allahın **sadiq Allah** olduğunu gördün. Buna görə də, **O dediyi kimi** Sodom və Homorranı mühakimə etdi. Buna görə də, **O dediyi kimi**, İbrahim və Saraya qoca yaşlarında bir oğul verdi. Buna görə də, O İbrahimə İsmaili yola saldırtdı ki, **Onun dəyişilməz məqsədi bərqərar olsun.**

Diqqətinizə görə çox sağ olun. Gələn dərsimizdə, Allahın iradəsi ilə biz İbrahimin həyatındakı ən yadda qalan hadisəyə baxacağıq: İbrahimin oğlunu qurban vermə hekayəsinə....

Allahın Sözündən olan bu ayəni gələn dərsə qədər sizinlə qoyuruq:

***"Allahın zənginliyi nə böyük, hikməti və biliyi nə dərindir! Onun hökmləri necə də ağlasığmaz, Yolları necə də anlaşılmazdır!"*** (Romalılara 11:33)

22-ci Dərs

# İbrahimin Qurbanı

**Yaradılış 22**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək , Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Tövratdakı dərslərimizdə biz Allahın peyğəmbəri İbrahim haqqında çoxlu yeni və gözəl hekayələr araşdırdıq. Bu gün biz İbrahimin həyatı haqqında ən yadda qalan dərsə gəlib çatdıq: İbrahimin qurbanın həqiqi hekayəsi və onun mənası.

Ötən dərsimizdə yaşlı illərində Allahın İbrahim və Saraya uzun illər əvvəl verdiyi vədi yerinə yetirərək, onlara necə övlad verməsi haqqında öyrəndik. Onların oğlunun adı İshaq idi. Allah İbrahimə söz vermişdir ki, İshaqın nəsli vasitəsilə O, yeni millət yaradacaq və dünyadakı bütün millətlər onun vasitəsilə xeyir-dualı olacaqlar. Biz həm də İsmail və onun anası Həcərin İbrahimin evini necə tərk etdiyini və Misir torpağına getdiyini gördük. Beləliklə, evdə yalnız Allahın vədinə əsasən doğulan İshaq qaldı.

Bir gün Allah İbrahimdən təəccübləndirici və çətin bir şeyi etməsini istədi. Tövratda, Yaradılış kitabı 22-ci fəsildə, Müqəddəs Yazılar deyir:

(Yaradılış 22:1,2) *Bir müddət sonra Allah İbrahimi sınağa çəkdi. O «Ey İbrahim!» deyə çağırdı. İbrahim «Buradayam!» dedi. Allah dedi: «Sevdiyin yeganə oğlunu – İshaqı götürüb Moriya torpağına get.* ***Orada sənə göstərəcəyim bir dağda oğlunu yandırma qurbanı olaraq təqdim et»***

Nə?! Allah İbrahimdən nə istəyirdi? O İbrahimə əmr edirdi ki, öz sevimli oğlunu uzaq dağa götürsün və orada onu yandırma qurbanı kimi təqdim etsin! Bu necə ola bilərdi? İbrahim Allahın ona vəd etdiyi bu oğulu uzun iyirmi beş il gözləmişdi, indi Allah deyir ki, onu qurban kimi gətir! İbrahim Allaha necə cavab verdi? Bunları qəbul etmək çətin olduğu üçün o Allahın sözləri ilə mübahisə etdi? Müqəddəs Yazılar deyir:

(Yaradılış 22:3*)* ***İbrahim səhər tezdən qalxdı*** *və eşşəyini palanladı. Özü ilə iki nökərini və oğlu İshaqı götürdü.* ***O, yandırma qurbanı üçün odun yardı və qalxıb Allahın dediyi yerə yollandı.***

Üç gün İbrahim, oğlu və iki qulluqçusu Allahın dediyi dağa tərəf uzun yol getdilər. Öz sevimli oğlunu qurban verəcək yerə çatmağa yaxınlaşdıqca, İbrahimin ürəyi qırılmaq üzrə idi! Əlbəttə, bu hekayəni bu gün oxuyan bizlər, bilirik ki, bu İbrahimin imanının sınanması idi. Amma İbrahim bunu bilmirdi! Allahın ondan istədiyi dəhşətli və ağrılı sınaq idi!

Sonra Müqəddəs Yazılar deyir:

(Yaradılış 22: 4-14) *İbrahim üçüncü gün başını qaldırıb uzaqdan o yeri gördü. O, nökərlərinə dedi: «Siz eşşəklə birlikdə burada qalın, mən uşaqla oraya gedəcəyəm. Səcdə edib, yanınıza qayıdarıq». İbrahim yandırma qurbanı üçün odun götürüb oğlu İshaqın kürəyinə qoydu, odu və bıçağı isə özü götürdü. Onlar birlikdə getdilər. İshaq atası İbrahimi*

*çağırdı: «Ay ata!» O cavab verdi: «Buradayam, oğlum». İshaq dedi: «Od və odun var, bəs yandırma qurbanı olacaq quzu haradadır?» İbrahim dedi: «Oğlum, yandırma qurbanı olacaq quzunu Allah Özü hazırlayacaq». Onlar birlikdə getdilər. Sonra Allahın İbrahimə göstərdiyi yerə gəldilər. İbrahim orada bir qurbangah düzəldib odunları düzdü və oğlu İshaqın əl-qolunu bağlayıb qurbangaha, odunların üstünə qoydu.*
*İbrahim əlini uzadıb oğlunun başını kəsmək üçün bıçağı götürdü. Rəbbin mələyi göylərdən onu çağırdı: «İbrahim, İbrahim!» O «Mən buradayam!» dedi. Mələk dedi: «Uşağa əl qaldırma və ona bir şey etmə. İndi bildim ki, sən Allahdan qorxursan; öz yeganə oğlunu Məndən əsirgəmədin». İbrahim başını qaldırıb baxdı və arxasında buynuzları kolluğa ilişmiş bir qoç gördü. İbrahim gedib qoçu götürdü və oğlunun əvəzinə yandırma qurbanı olaraq təqdim etdi. İbrahim o yeri Yahve-İre adlandırdı; buna görə də indiyə qədər belə deyilir: «Rəbbin dağında hazırlanacaq».*

Bu hekayə çox vacibdir və açıqlanmaya layiqdir. İbrahimin hekayəsinin üç tərəfi var: **tarixi tərəfi, rəmzi tərəfi** və **peyğəmbərlik tərəfi.** Başqa sözlərlə, İbrahimin qurbanını başa düşmək üçün bizə üç şeyi bilmək lazımdır: 1) Nə baş verdi 2) qurban nəyin rəmzi idi və 3) İbrahim gələcəkdə baş verəcək hadisə haqda nəyi peyğəmbərlik etdi.

**Tarixi tərəfi** haqqında biz Allahın İbrahimin imanını necə yoxlaması və qoç göndərməklə onun oğlunu xilas etməsi haqqında oxuduq. Bu təqribən 4000 il bundan əvvəl, bu günki gündə Yerusəlimin yerləşdiyi yerdə baş vermişdi. Qısası, bu İbrahimin qurbanı hekayəsinin "tarixi" tərəfidir..

Hekayənin **rəmzi tərəfi** haqqında. Allahın Sözü deyir ki, **bizim hamımız İbrahimin oğlu kimiyik.** Biz oxuduq ki, Allah Öz ədalətində, İbrahimin oğlunu ölümə məhkum etdi. Bizim hamımız da ölümə məhkumuq və Allahın məhkəməsinə layiqik. Amma biz həmçinin oxuyuruq ki, Öz lütfündə Allah, **İbrahimin oğlunu ölümdən xilas etdi**. Eyni ilə də, Öz lütfündə Allah, bizim xilas ola bilməmiz üçün nicatımıza gəldi. O xilas yolu hansıdır? İbrahimin qurban hekayəsi bizə Allah tərəfindən qoyulmuş xilas yolu, **Kamil Qurban** yolu olduğunu öyrədir.

Bu günün hekayəsində biz İbrahimin oğlunun yerinə ölmək üçün Allahın necə təmin etdiyi qoçu gördük. Qoçun yalnız buynuzları kola ilişmişdi; qoyunun dərisi korlanmamışdı. Əgər qoyunun kiçik bir zədəsi olsaydı, bu İbrahimin qurbangahda oğlunu əvəz edə bilməzdi. Lakin Allahın təmin etdiyi **qurban nöqsansız**, ləkəsiz qurban idi. Tövratın birinci fəsilindəki dərsimizdə biz , Allahın qoyduğu xilas yolu haqqında öyrəndik . Xatırlayırsız o hansı yol idi? Adəm və Həvva günah işlədəndən sonra Allah elan etdi ki, günahın əvəzi ölüm olduğundan, qan tökülmədən bağışlanma ola bilməz. Kim ki günahlarının bağışlanmasını istəyirdi, o **ləkəsiz heyvan** gətirib, öldürüb və onu Allaha yandırma qurbanı kimi təqdim etməliydi. Nöqsansız heyvan, günahlı insanın yerinə ölməli idi. Adəmin oğullarının günahlarını bağışlamaq üçün Öz ədaləti ilə güzəştə getmədən, qoyduğu yeganə yol idi.

Biz başqa bir şeyi də yadda saxlamalıyıq: Müqəddəs Yazılar deyir ki, heyvanlar sadəcə olaraq gələcək olanın **rəmzi** idi; gələcək yaxşı şeylərin kölgəsi idi, **özlərində reallıq deyildilər**. *"Qanunda gələcək nemətlərin əsli deyil, kölgəsi var. ... Çünki buğaların və təkələrin qanı ilə günahları aradan qaldırmaq qeyri-mümkündür."* (İbranilərə 10:1,4) Heyvanın qanı günahı ödəyə bilməz. Çünki heyvan və insan eyni dəyərə malik deyillər. Biz öyrənirik ki, İbrahimin oğlunun yerinə qoyulan **qoyun daha böyük, daha kamil qurbanın təsviri idi.** Allahın Sözü göstərir ki, İbrahimin oğlunun yerinə ölən qoyun, bütün günahkarlar üçün dünyaya gələcək müqəddəs Qurtarıcının rəmzi idi ki, Ona inanan hər kəsi Allah

bağışlaya bilsin. Bu Onun ədalətli məhkəməsindən günahlı insanları xilas etmək üçün Allahın dünyaya göndərmək üçün vəd etdiyi Xilaskarın rəmzidir!

Hekayənin **peyğəmbərlik tərəfi** isə, xatırlayırsan İbrahim dağa qalxarkən öz oğluna nə dedi? O dedi: *"yandırma qurbanı olacaq quzunu **Allah Özü hazırlayacaq**."* Və xatırlayırsan oğlunun yerinə qoçu kəsəndən sonra İbrahim nə elan etdi? O qurban yerini*: "Rəbb təmin edəcək."* adlandırdı. Və Tövrat kitabını yazan Musa peyğəmbər əlavə edir: *"İndiyə qədər belə deyilir: «Rəbbin dağında hazırlanacaq».* Bunun üçün səbəb nə idi? Nə üçün İbrahim peyğəmbər dedi, *"Rəbb təmin **edəcək**?"* Nə üçün o demədi, "Şükür Allaha! Rəbb qurban təmin **etdi**!" ? Dostlar, bu sual **çox vacibdir**. Çünki bunun cavabında, hər birimizin başa düşməsi və inanması üçün Allahın Sözünün Xoş xəbəri var!

Nə üçün İbrahim yeri, *"Rəbb təmin edəcək"* adlandırdı? Buna görə **ki, İbrahim** həmin o dağlarda qurbangahda öz oğlunun yerinə qoyunun verildiyi yerdə gələcəkdə başqa **hadisə baş verəcəkdi.** Allah İshaqın yerinə qoyun təmin etdi. Bir gün həmin bu dağlarda, **Allah** bıçaqdan və alovdan xilas edən bu qoçdan daha da dəyərli olan **başqa bir qurban hazırlayacaqdır.** Allahın hazırlayacağı qurban Adəmin övladlarını heç vaxt sönməyən, atəşdəki əbədi ölümdən xilas etmək gücünə malik olacaqdır! Allah ona inanan heç bir kəsin məhv olmaması üçün, təqsirkar adamların yerinə qüsursuzun qurban olaraq ölməsi üçün yerə müqəddəs Qurtarıcı göndərəcəkdir!! İbrahim *"Allahın Özü qurbanlıq quzunu hazırlayacaqdır!"* deməklə, bütün insanlar üçün Allahın Xoş Xəbərini bəyan edirdi.

"İbrahimin qurbanı" hekayəsini bitirməzdən əvvəl, hər birimiz bilməliyik ki, İbrahim günahlı insanlar üçün Allahın Qurban təmin edəcəyini peyğəmbərlik edəndən təqribən iki min il sonra, **Allah İbrahimin peyğəmbərliyini yerinə yetirdi.** Bu haqqda biz bu dərsdə çox danışmayacağıq amma İncili bilənlər Qurtarıcının hekayəsini bilirlər. Sən bilirsən ki, O Allahın vəd etdiyi kimi İbrahimin və İshaqın nəslindən gəldi. O göylərdən gəlmişdi, dünyəvi atası yox idi və buna görə də, Adəmin günahlı təbiətinə malik deyildi. O günahsız idi; O qüsursuz idi. Buna görə də O, Adəmin təqsirli övladları üçün **Kamil Qurban** kimi ölməyə layiqli idi.

Əziz dostlar, siz nəçi və ya harda olursunuzsa olun, Allah əmr edir ki, sən öz səhv fikirlərindən və mənasız işlərindən dönəsən və öz ümidini Onun təmin etdiyi kamil və son Qurbana qoyasan. Bu gün biz gördük ki, İbrahimin oğlu, Allahın onun üçün hazırladığı qurbanı qəbul etdi. Bəs sən necə? **Allahın sənin üçün hazırladığı Qurbanı qəbul etmisən?**

Bizi dinlədiyiniz üçün çox sağ olun.... İbrahimin Moriya dağında dediyi sözlərin mənasını diqqətlə nəzərdən keçirdikcə, Allah sizə xeyir-dua versin...

***"Quzunu Allah Özü hazırlayacaq..... Rəbbin dağında hazırlanacaq!"*** (Yaradılış 22:8,14)

23-cü Dərs

# Esav və Yaqub:
# Müvəqqəti və Əbədi

**Yaradılış 25**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək , Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən proqramımızda biz İbrahimin qurbanı hekayəsinə baxdıq. İncil bu mühüm hekayə haqqında bizə maraqlı xülasə verir:

*"İbrahim sınağa çəkildiyi vaxt iman vasitəsilə İshaqı qurban olaraq təqdim etdi. Vədlərə nail olmuş İbrahim bircə oğlunu (Allahın vədinə görə olan) qurban vermək niyyətində idi. Halbuki ona «İshaqdan törəyənlər sənin nəslin adlanacaq» deyilmişdi. O, Allahı onu ölülər arasından diriltməyə qadir saydı. Buna görə də məcazi mənada İshaqı ölümdən geri aldı."* (İbranilərə 11:17,19)

Bizim ötən beş dərsimiz İbrahim peyğəmbərin həyatı haqqında hekayələrdən götürülmüşdür. Tövratda İbrahim haqqında araşdırmadığımız daha çox hekayələr var. Biz onların hamısını oxumayacağıq. Amma İbrahimin hekayəsini bitirib, onun digər nəslinə keçməzdən əvvəl, Allahın İbrahimə dediyi bir şey var ki, biz bunu bilməliyik. Bir gün Allah İbrahimə onun nəsli ilə nə olacağını dedi. O dedi:

*"Yəqin bil ki, nəslin yad ölkədə qərib olacaq, orada olan millətə köləlik edəcək və onlara dörd yüz il zülm ediləcək. Ancaq onların köləlik edəcəkləri xalqı Özüm cəzalandıracağam. Bundan sonra onlar böyük əmlakla oradan çıxacaqlar."* (Yaradılış 15:13,14)

Bu sözlərlə, Allah İbrahimin nəslinin Misirdə kölə olacaqlarını bəyan edirdi. Allah həmçinin vəd etdi ki, dörd yüz ildən sonra O, onları Misirlilərin hakimiyyətindən qurtaracaqdır. Bundan dörd dərs sonra, Allahın iradəsi ilə, biz Allahın İbrahimə dediyi kimi, bu dəqiq peyğəmbərliklərin necə həyata keçdiyini görəcəyik.

İyirmi beşinci fəsildə, Müqəddəs Yazılar deyir:

*"İbrahim özünə məxsus olan hər şeyi İshaqa verdi. İbrahim yüz yetmiş beş il ömür sürdü. O, uzun ömür sürdü, qoca vaxtında son nəfəsini verərək ölüb əcdadlarına qoşuldu. Oğulları İshaq və İsmail onu Mamre qarşısında olan Maxpela mağarasında, Xetli Sohar oğlu Efronun tarlasında basdırdılar. O tarlanı İbrahim Xetlilərdən satın almışdı. İbrahim və arvadı Sara orada basdırıldı."* (Yaradılış 25:5,7-19)

Allahın dostu İbrahim, tanidığı və sevdiyi Allahın hüzuruna daxil oldu.

Allahın peyğəmbəri İbrahim haqqında dərslərimizi necə yekunlaşdıra bilərik? Bəlkə iki sual və onların cavabı ilə. Birinci sual budur: **Allah nə üçün İbrahimə dedi ki, çıxsın və başqa**

**ölkəyə getsin?** Cavab: Çünki Allah dünyaya gələcək Qurtarıcının, İbrahim vasitəsilə yaradacağı yeni nəsildən çıxacağını planlaşdırmışdır. İkinci sual: **Nə üçün Allah İbrahimi saleh saydi və əbədilik Öz müqəddəs hüzuruna qəbul etdi?** Cavab: Çünki, İbrahim bunun çətin belə olmasına baxmayaraq, Allahın dediklərinə inandı. İbrahim öz əməlləri ilə deyil, amma Allahın vədlərinə inandığına görə xilas oldu. Müqəddəs Kəlam *"**İbrahim Allaha iman etdi** və bu ona salehlik sayıldı» deyən Müqəddəs Yazı belə yerinə yetdi və İbrahim Allahın dostu adlandırıldı."* (Yaqub 2:23) deyəndə bunu ifadə edir.

Yaradılış kitabının 25-ci ayəsində, Müqəddəs Yazılar İbrahimin nəslinin tarixi ilə davam edir. Gəlin indi Tövratda davam edərək, **İshaq və onun əkiz oğulları** haqqında hekayəni öyrənək. Müqəddəs Yazılar deyir:

(Yaradılış 25:19-27) *İbrahimin oğlu İshaqın tarixçəsi belədir: İbrahimdən İshaq törədi. İshaq Paddan-Aramdan Aramlı Lavanın bacısı, Aramlı Betuelin qızı Rivqanı arvad alanda qırx yaşında idi. İshaq arvadı üçün Rəbbə yalvardı, çünki o, sonsuz idi. Rəbb İshaqın yalvarışını eşitdi, onun arvadı Rivqa hamilə oldu. Rivqanın bətnindəki uşaqlar çarpışmağa başladı. O da «Niyə bu iş başıma gəldi?» deyib bu barədə Rəbdən soruşmağa getdi. Rəbb ona dedi:«Sənin bətnində iki millət var, Sənin qarnından iki xalq çıxacaq.*

*Bir xalq o biri xalqdan güclü olacaq, Böyüyü kiçiyinə qulluq edəcək». Rivqanın doğmaq vaxtı çatanda məlum oldu ki, onun bətnində əkizlər var. İlk doğulan uşağın bütün dərisi qırmızı və tüklü cübbə kimi idi. Onda onun adını Esav qoydular. Ondan sonra qardaşı doğuldu. O, əli ilə Esavın topuğundan tutmuşdu. Onun adını Yaqub qoydular. Onların doğulduğu vaxt İshaq altmış yaşında idi. Uşaqlar böyüdü. Esav mahir ovçu və çöl adamı oldu. Yaqub isə çadırlarda yaşayan mülayim bir adam oldu.*

Beləliklə, biz görürük ki, İshaq və Rivqanın Esav və Yaqub adlı əkiz övladları oldu. Onlar əkiz idilər, amma bu o demək deyildi ki, onlar eyni idilər. Esav böyüdükcə, öz meylini dünyəvi, müvəqqəti şeylərə salmışdı, lakin Yaqub əbədi qalan Allahın şeylərini dəyərləndirirdi. Esav, Allahın babası İbrahimə və atası İshaqa verdiyi vədlərin qeydinə qalmırdı. Amma Yaqub Allahın vədinin qeydinə qalırdı.

Esav ilk uşaq idi. Buna görə də insani fikirlə desək, o ilk doğulanın mirasına malik olmalı və Allahın onun babası İbrahimə və atası İshaqa vəd etdiyi böyük millətin atası olmalı idi. Amma hətta əkizlər doğulmazdan əvvəl, Allah onların anası Rivqaya dedi: *"Böyüyü kiçiyinə qulluq edəcək."* (Yaradılış 25:23) Allah, Öz qabaqgörənliyində ilk doğulanın mirasının və yeni millətin nəslinin Esav vasitəsi ilə yox Yaqub vasitəsi ilə gələcəyini elan edirdi. Yaqub isə gərək ona mirası Öz vaxtında vermək gücünə malik olan Allahı gözləyib, hər şeyi Onun əllərinə buraxardı. Amma **Yaqub Allahı gözləmədi.** Gəlin oxuyaq görək Yaqub böyük qardaşı Esavdan mirası almaq üçün nə etdi?

Müqəddəs Yazılar deyir:

(Yaradılış 25:29-33) *Bir gün Yaqub şorba bişirirdi. Esav isə çöldən yorğun gəldi. Esav Yaquba dedi: «Bu qırmızı şorbadan bir az ver, yeyim, çünki acmışam». Buna görə də ona Edom adı verildi. Yaqub dedi: «Əvvəlcə ilk oğulluq haqqını mənə sat». Esav dedi: «Bir halda ki mən acından ölürəm, ilk oğulluq haqqı nəyimə lazımdır?» Yaqub dedi: «Əvvəlcə mənə and iç». Esav ona and içdi və ilk oğulluq haqqını Yaquba satdı.*

Bilirsiz Esav nə etdi? O öz ilklik mirasını azca yeməyə dəyişdi!

Biz tarlaları və evləri, zənginliyi və hakimiyyəti sadəcə bir qab şorbaya dəyişən ilk doğulan haqda nə deyə bilərik? **Esav Allahın xeyir-dualarına və Əbədiyyətin zənginliyinə xor baxdı.** Esavın xor baxdığı şeylər dünyanın zənginliyindən həddsiz dərəcədə dəyərli idi. Çünki Esavın xor baxdığı şey, dünyaya gələcək Xilaskarın çıxacağı yeni millətin bir hissəsi idi.

Allah Esavın və Yaqubun hekayəsi vasitəsi ilə bu gün bizə nə öyrətmək istəyir? Allah bizə xəbərdarlıq etmək istəyir ki, biz də Esavın yolu ilə gedib, Əbədiyyətin zənginliyini fani dünyanın həzzinə dəyişməyək. Allahın Sözünün bu haqda dediklərinə qulaq as:

*"İnsan bütün dünyanı qazanıb canını itirərsə, ona nə xeyri var? Yaxud insan öz canının əvəzinə nə verə bilər?"* (Matta 16:26) *"Diqqət edin ki, heç kim Allahın lütfündən məhrum olmasın.... Qoy heç kim əxlaqsız və yaxud Esav kimi allahsız olmasın. O, bir qab xörəyə görə öz ilk oğulluq haqqını satdı."* (İbranilərə 12:15,16)

Esav Allahın lütfündən yan keçdi. Çünki o Allahın şeylərini dəyərləndirmədi. Beləliklə Allah bizə belə deyərək xəbərdarlıq edir: Esavın yolu ilə getməyin! Sizə vermək istədiyim xeyir-dualara xor baxmayın!

Bəs sən necə? Sən Allahın xeyir-dualarını istəyirsən? Allah səni sevir və sənə bol-bol xeyir-dualar vermək istəyir. Amma sən öz həyatında birinci yeri Ona verməlisən. Sən Allahın Sözünü yeməkdən və puldan daha üstün tutmalısan. Onda sən Müqəddəs Yazıların ***"Allahın Onu sevənlər üçün hazırladıqlarını nə göz görüb, nə qulaq eşidib, nə də insan ürəyi dərk edib."*** (1 Korinflilərə 2:9) nə demək istədiyini başa düşəcəksən. Allah bizə bol-bol xeyir-dualar vermək istəyir. O bizim bütün günahlarımızı bağışlamaq, pis ürəyimizi dəyişmək, bizi təmizləmək və Öz sevgisi, sevinci, sülhü və əminliyi ilə doldurmaq istəyir. Və bu xeyir-dualar Allahın Adəmin nəslinə vermək istədiyi mirasın sadəcə bir hissəsidilər! Amma sən **bütün ürəyinlə** Əbədi şeyləri axtarmalısan. Allahın əbədi xeyir-dualarını bütün qəlbi ilə istəmiyənlər, onu heç vaxt əldə etməyəcəklər. Bəzən biz eşitdiyimiz kimi, "Halva, halva deməklə ağız şirin olmaz."

Sən Allahın xeyir-dualarını əldə etmək istəyirsən? Onda sən Allahın Öz Sözündə nə vəd etdiyini anlamağı çalışmalısan. İnsan ağlına yerləşməyəcək qədər böyük olan Allahın gözəl vədləri haqqında bilirsən? Sən onları nəvazişlə sevirsən? Yoxsa, sən sadəcə olaraq dünyadakı şeyləri axtarırsan? Allahın Sözü bizə göstərir ki, dünyada yalnız iki cür adamlar var: yerdəki şeyləri dəyərləndirən və onların ardınca gedənlər və əbədiyyəti dəyərləndirənlər və yuxardan olan şeyləri axtaranlar. Sən hansı cür adamsan?

Məzmurlarda nə yazıldığına qulaq as:

(Zəbur 1:1-6) *Pislərin məsləhəti ilə getməyən, Günahkarların yolunda dayanmayan, rişxəndçilərin arasında oturmayan insan nə bəxtiyardır! O ancaq Rəbbin Qanunundan zövq alar, gecə-gündüz bu təlimatı dərin düşünər. Axar sular kənarında əkilən ağac kimi barını mövsümündə verər, yarpağı solmaz, Etdiyi hər işdə uğur qazanar. Pis adamlarsa belə deyil, onlar yelin sovurduğu saman çöpünə bənzəyər. Buna görə pis adamlar hökm günündə, günahkarlar salehlərin məclisində dayana bilməz. Çünki Rəbb salehlərin yolunu qoruyur, pislərinsə yolu onları ölümə aparır.*

Sən necə? Sən hansı yol ilə gedirsən? Sən Allahın vədlərini qiymətləndirən yol ilə gedirsən? Yoxsa sən də Allahın vədlərini dünyanın keçən şeylərinə dəyişən Esav kimisən? Allahın Kəlamı bizə xəbərdarlıq edir:

*"İnsan **bütün dünyanı** qazanıb **canını itirərsə**, ona nə xeyri var? Yaxud insan öz canının əvəzinə nə verə bilər? (Matta 16:26) "Keçib-gedən yemək üçün deyil, əbədi həyat verən, daim qalan yemək üçün işlər görün, onu sizə Bəşər Oğlu verəcək. Çünki Ata Allah Ona Öz möhürünü vurub."* (Yəhya 6:27) "*Diqqət edin ki, heç kim Allahın lütfündən məhrum olmasın.... Qoy heç kim əxlaqsız və yaxud Esav kimi allahsız olmasın. O, bir qab xörəyə görə öz ilk oğulluq haqqını satdı."* (İbranilərə 12:15,16)

Bizə qulaqasan əziz dostlar, gələn dəfə, Allahın izni ilə Tövratda, Yaqubun hekayəsi ilə davam etdirəcəyik....

Allahdan gələn bu sözləri diqqətlə nəzərdən keçirdikcə, Rəbb sizə xeyir-dua versin:

***"Diqqət edin ki, heç kim Allahın lütfündən məhrum olmasın..... Qoy heç kim əxlaqsız və yaxud Esav kimi allahsız olmasın. O, bir qab xörəyə görə öz ilk oğulluq haqqını satdı."*** (İbranilərə 12:15,16)

24-cü Dərs

# Yaqub İsrail Olur

**Yaradılış 28-32**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz İshaqın iki əkiz oğlu **Esav və Yaqub** haqqında oxuduq. Esav Allahın onun babası İbrahimə etdiyi vədə xor baxdı və öz ilklik mirasını bir qab yeməyə dəyişdi! Yaqub isə, Allahın vədlərini dəyərləndirdi. Amma bu o demək deyil ki, Yaqub nöqsansız idi! Yaqubun öz adı elə *aldadan* deməkdir. Bu gün biz Tövrat kitabında davam edib və **Allahın yalançı Yaqubu dəyişib necə Allah adamı etdiyini görəcəyik.**

Yaqub əsl hiyləgər idi. Peyğəmbərlərin qüsurlarını gizlətməyən Müqəddəs Yazılar bizim üçün böyük qardaşı Esavdan ilkinliyini almaq üçün Yaqubun onu iki dəfə necə aldatdığını nəql edir. Buna görə də, Esav öz qəzəbində kiçik qardaşını öldürmək istəyirdi. Nəticə etibarı ilə, onların anaları Rivqa Yaqubu gizlincə çağırdı və məsləhət gördü ki, Xaranda yaşayan dayısı Lavanın yanına qaçsın və qardaşının qəzəbi soyuyana qədər orada qalsın.

İndi gəlin Yaradılış kitabı 28-ci fəsildən oxuyaq görək Yaqub, atası İshaqın evini tərk edib dayısı Lavanın evinə gedəndən sonra nə baş verdi. Müqəddəs Yazılar deyir:

(Yaradılış 28:10-19)
*"Yaqub Beer-Şevadan çıxıb Xarana tərəf getdi. Bir yerə çatıb orada gecələdi, çünki günəş batmışdı. O torpaqdan bir daş götürüb başının altına qoydu və orada yatdı. O, yuxuda gördü ki, yerin üzərində bir nərdivan durmuş və onun başı göylərə çatmışdır. Allahın mələkləri onunla çıxıb-düşürdülər. Rəbb nərdivanın üstündə durub deyirdi: «Mən baban İbrahimin və İshaqın Allahı Rəbbəm. Üstündə yatdığın torpağı sənə və nəslinə verəcəyəm.*
*Sənin nəslin yerin tozu kimi çox olacaq, qərbə, şərqə, şimala və cənuba yayılacaq. Yer üzünün bütün tayfaları sənin və nəslinin vasitəsilə xeyir-dua alacaq. Mən həmişə səninləyəm, gedəcəyin hər yerdə səni qoruyacağam və bu torpağa qaytaracağam. Dediyimi edənə qədər səni tərk etməyəcəyəm». Yaqub yuxusundan oyanıb dedi: «Doğrudan da, Rəbb buradadır. Mən isə bunu bilmirdim». Sonra qorxub dedi: «Bu yer necə də qorxuludur. Bu, Allahın evindən başqa bir şey ola bilməz, bura göylərin qapısıdır». Yaqub səhər tezdən qalxdı. O, başının altına qoyduğu daşı götürüb sütun kimi qoydu və üstünə zeytun yağı tökdü. O yerin adını Bet-El qoydu, ancaq əvvəlcə şəhərin adı Luz idi."*

Beləliklə, Allah yuxuda Yaquba görünərək, babası İbrahimə və atası İshaqa nəslindən **böyük millət** törəyəcək vədini ona da verdi. Buna görə də biz görürük ki, Yaqubun böyük qardaşından oğurladığı ilklik axırda Allah tərəfindən ona verildi. Yaqub dünyaya gələcək Qurtarıcını çıxaran yeni millətin atası olmağa layiq deyildi. Amma Allah, yaxşı şeylərə layiq olmayana, yaxşı şeyləri verən mərhəmət və lütf Allahıdır.

Yaqub yuxuda nə gördü? Müqəddəs Yazılar deyir ki o *"yuxuda gördü ki, yerin üzərində bir* ***nərdivan*** *durmuş və onun başı göylərə çatmışdır. Allahın mələkləri onunla çıxıb-düşürdülər."* Yaqub yuxusunda **nərdivan** gördü. Yaqubun gördüyü nərdivan çox hündür, **yerdən göylərə,** Allahın hüzuruna çatan qeyri-adi nərdivan idi!

Hündür nərdivan yuxusu ilə Allah Yaquba onunla gözəl və yaxın münasibətdə olmağı istədiyini göstərirdi. Allah həmçinin göstərirdi ki, dünyaya gələcək **Qurtarıcı da,** göy və yer arasında olan o nərdivan kimi, **Allah və insan arasında olan Vasitəçi** olacaqdır.

Bu günə kimi çoxları fikirləşir ki, insan öz yaxşı əməlləri ilə Cənnətə qalxa bilər. Amma Allahın Sözü deyir ki, **Allah və insan arasında yalnız bir "nərdivan" var** və bu "nərdivan" insandan yox Allahdan gəlir. Adəmin övladları olan bizlər, öz gücümüzlə heç bir vəchlə Allahın hüzuruna gedib düşə bilmərik. Buna səbəb bizim günahımız və Müqəddəs Allahı razı salmaq üçün gücümüzün olmamasıdır. Amma mərhəmət dolu Allah, insanlara olan Öz böyük sevgisinə görə Adəmin nəsli üçün xilas yolu açdı.

Buna görə də, Yaqubun yuxusunda gördüyü nərdivan günahlı insanlar üçün dünyaya göndərəcəyi Vasitəçinin rəmzi idi. Vasitəçi, Yaqubun yuxusunda gördüyü göy ilə yer arasındakı nərdivan kimidir. Müqəddəs Yazılar deyəndə: *"Çünki bir **Allah və Allahla insanlar arasında bir Vasitəçi vardır**. O, İnsan olan Məsih İsadır. O hamını satın almaq üçün Özünü fidyə verdi.... Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun."* (1 Timoteyə 2:5,6; Yəhya 3:16) Allahın Sözü bu məsələdə çox aydındır. Allahın göndərdiyi müqəddəs Vasitəçinin vasitəsi olmadan heç kim Allaha gələ bilməz.

İndi gəlin görək Yaqub dayısının evinə çatandan sonra nə baş verdi. Allahın Sözü deyir ki, *"insan nəyi əkərsə, onu da biçəcək."* (Qalatiyalılara 6:7) Biz artıq Yaqubun öz böyük qardaşını aldatmasını eşitdik. İndi biz Yaqubun dayısının onu necə aldatdığını görəcəyik. Onun dayısının adı Lavan idi və o hiyləgər adam idi.

Biz 28-ci fəsildə oxuyuruq. Müqəddəs Yazılar deyir:

(Yaradılış 28:14-30) *"Lavan ona dedi: «Sən, doğrudan da, mənim sümüyümdən, mənim ətimdənsən». Yaqub onun yanında bir ay qaldı.*
*Lavan Yaquba dedi: «Məgər qohum olduğun üçün mənə havayı xidmət edəcəksən? Mənə söylə, haqqın nə olsun?»*
*Lavanın iki qızı var idi: böyüyünün adı Lea, kiçiyininki Rəhilə idi. Leanın gözləri zəif görürdü, Rəhilə isə çox gözəl və qamətli idi. Yaqub Rəhiləyə vuruldu və dedi: «Kiçik qızın Rəhilə üçün sənə yeddi il xidmət edərəm».*
*Lavan dedi: «Onu sənə vermək başqa adama verməkdən daha yaxşıdır. Yanımda qal».*
*Yaqub Rəhiləyə görə yeddi il xidmət etdi. Onu sevdiyi üçün bu müddət gözünə bir neçə gün kimi göründü.*
*Yaqub Lavana dedi: «Vaxtım çatdı; indi arvadımı mənə ver ki, onun yanına girim».*
*Lavan o torpağın bütün adamlarını topladı və bir ziyafət verdi. Gecə qızı Leanı götürüb Yaqubun yanına apardı. Yaqub onun yanına girdi. Lavan öz qarabaşı Zilpanı Leaya qulluqçu olmaq üçün verdi.*
*Səhər məlum oldu ki, bu, Leadır. Yaqub Lavana dedi: «Nə üçün mənimlə belə rəftar etdin? Sənin yanında Rəhilə üçün xidmət etmədimmi? Bəs məni niyə aldatdın?» Lavan dedi: «Bizim yerdə kiçik qızı böyüyündən əvvəl ərə vermək olmaz. Bu həftəni bitir, onu da sənə verərik. Onun üçün də yanımda daha yeddi il xidmət etməlisən».*
*Yaqub belə də etdi: o həftəni bitirdi. Lavan da qızı Rəhiləni ona arvad olmaq üçün verdi. Öz qarabaşı Bilhanı da qızı Rəhiləyə qulluqçu olmaq üçün verdi. Yaqub Rəhilənin də yanına girdi. Rəhiləni Leadan da çox sevdi. O, Lavanın yanında daha yeddi il xidmət etdi."*

Beləliklə biz Lavanın öz bacısı oğlunu necə aldatdığını görürük. Baş verən şey yaxşı deyildi, amma sən əmin ola bilərsən ki, Yaqubun həyatında baş verən şeylərdə Allahın əli var idi və bunları Yaqubun yaxşılığına çevirəcəkdir. Nəhayət, Yaqub on **iki oğulun** atası oldu. Yaqub

dayısı ilə iyirmi il yaşadı. Həmin iyirmi il ərzində, Allah öz sevgisində izn verdi ki, Yaqub bəzi ağrılı sınaqlardan keçsin ki, O onu tərbiyələndirə bilsin, alov qızılı təmizlədiyi kimi, imanını təmizləyə bilsin.

Amma gün gəldi ki, Allah yenidən Yaquba göründü və dedi*: "Atalarının ölkəsinə, öz qohumlarının yanına qayıt. Mən səninlə olacağam."* (Yaradılış 31:3) Beləliklə, Yaqub və ailəsi qalxdı, yığışdı və çıxdılar. Onlar – Allahın İbrahimə, İshaqa, Yaquba və onun nəslinə vəd etdiyi **Kənan** torpağına doğru hərəkət etdilər.

Yaqub və onun ailəsi Kənan torpağına getdikcə, Allah xüsusi yol ilə Yaquba göründü və Yaqubun adını dəyişdi. 32-ci fəsildə Müqəddəs Yazıların dediklərinə qulaq as.

(Yaradılış 32:24-30) *"Sonra Yaqub tək qaldı. Dan yeri sökülənə qədər bir Şəxs onunla güləşdi. Yaquba üstün gələ bilmədiyini görüb onun budunun oynağına zərbə vurdu. O Şəxslə güləşərkən Yaqubun budunda oynağı zədələndi. O Şəxs dedi: «Burax, gedim, çünki səhər açılır». Yaqub dedi: «Mənə xeyir-dua verməsən, Səni buraxmaram». O Şəxs soruşdu: «Adın nədir?» O dedi: «Yaqub». O Şəxs dedi: «Artıq sənə Yaqub deyil, İsrail deyiləcək, çünki sən Allahla və insanlarla güləşib üstün gəlmisən». Yaqub soruşdu: «Xahiş edirəm, adını söylə». O dedi: «Adımı niyə soruşursan?» O Şəxs orada Yaquba xeyir-dua verdi. Yaqub o yerin adını Peniel qoydu, çünki demişdi: «Allahı üz-üzə gördüm və salamat qaldım». Yaqub Penieldən keçəndə günəş doğdu. O, bir budundan axsayırdı. Ona görə bu günə qədər də İsraillilər bud oynağının üzərindəki vətərləri yeməzlər. Çünki güləşən Şəxs Yaqubun bud oynağının vətərinə toxunmuşdu."*

Bu vacib dərslərlə bol olan möcüzəli hekayədir. Biz Allahın insan kimi Yaquba göründüyünü və onunla güləşdiyini görürük. Nə üçün O Yaqubla güləşdi? Çünki Allah istəyirdi ki, Yaqub Allah qarşısında öz zəifliyini etiraf etsin. Allah Yaquba göstərirdi ki, bütün həqiqi güc və müdriklik yalnız Allahdan gəlir! Allahın Yaqub üçün gözəl planları var idi amma **Allahın ən yaxşı xeyir-duaları, Allahı öz gücləri ilə razı sala bilmədiklərini anlayanlara gələ bilər.** Yaqub Allah qarşısında necə zəif olduğunu dərk etməyə başlayırdı. Həmin gecə, Allah Yaquba yeni ad, **Israil** adını verdi. Yaqub *aldadan* deməkdir. Amma İsrail adı ***Allahla hökmranlıq edən*** deməkdir. İsrail adı Allahın İbrahimin, İshaqın və Yaqubun nəslinə vəd etdiyi yeni millətin adı olacaqdır. Bu Yaqubun on iki oğlundan yaranan İsrail xalqıdır. Və dünyaya gələcək Qurtarıcı da həmin bu İsrail xalqından idi.

Kimsə soruşa bilər: Nə üçün Allah, Yaqub kimi aldadanı dünyaya gələcək Qurtarıcının millətinin atası olmağa seçdi? Müqəddəs Yazıların verdiyi cavaba qulaq as:

*"Allah isə müdrikləri utandırmaq üçün dünyanın ağılsız saydıqları, güclüləri utandırmaq üçün dünyanın zəif saydıqları, dünyanın dəyərli sayılanlarını heç etmək üçün dünyanın xor baxdıqları, əsilsiz və dəyərsiz sayılan kəsləri də seçdi ki, **Allahın qarşısında heç bir insan öyünməsin**."* (1 Korinflilərə 1:27-29)

Yaqub aldadan idi. Öz gücü ilə Allahı razı salmaq üçün heç bir yolu yox idi. Yalnız bunu çıxmaqla, onda yaxşı heç nə yox idi: **Yaqub Allahın Sözünə inanırdı**. Yaqub Allahın Vədlərini dəyərləndirirdi. Yaqub üçün Allahın xeyir-dualarını əldə etmək, dünyadakı başqa şeyləri əldə etməkdən daha vacib idi. Buna görə də Allah Özünü Yaquba açdı və ona xeyir-dua verdi. Öz əbədi məqsədləri üçün Allah Y**aqubun, aldadanın**, ürəyini dəyişdi və **Allah adamı**, **İsrail** etdi.

Bəs sən necə? Yaqub kimi Allahı razı salmağa qadir olmadığını dərk edirsən? Allahın Sözündə bu haqqında deyilənlərə qulaq as:

"*Nə bəxtiyardır* ***ruhən yoxsullar****! çünki Səmavi Padşahlıq onlarındır."* (Matta 5:3) "*Allah məğrurlara qarşıdır, itaətkarlara isə lütf göstərər».* ***Allahın qüdrətli əli altında özünüzü aşağı tutun, onda Allah sizi vaxtı çatanda ucaldacaq.****"* (1 Peter 5:5,6)

Qulaq asdığınız üçün çox sağ olun. Gələn dərsimizdə Allahın izni ilə biz Yaqubun oğullarından biri olan Yusifin möcüzəli hekayəsinə baxacağıq....

Allah sizə xeyir-dua versin. Biz sizi Allahın Sözü ilə qoyuruq:

***"Amma Rəbb sizə lütf göstərmək üçün gözləyir, yenə də sizə rəhm etməyə hazırdır, çünki Rəbb adil Allahdır, Onu intizarla gözləyənlər nə bəxtiyardır!"*** (Yeşaya 30:18)

25-ci Dərs

# Yusifin Alçaldılması

**Yaradılış 37-39**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və Allahın peyğəmbərlərinin hekayələrini bir-bir nəql edən *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq. Biz, Allahın Sözü olan **Tövrat** kitabında birinci hissəni oxumaqda davam edirik.

Ötən dərsimizdə biz İbrahimin nəvəsi, Allahın peyğəmbəri Yaqub haqqında öyrəndik. Biz Allahın Yaquba necə yeni ad: **İsrail** adı verməsini gördük. Yaqub *yalançı* deməkdir, amma İsrail – *Allahla hökmranlıq edən* deməkdir. Yaqubun iki adı var idi.Yaqub və İsrail. İsrail həmçinin İbrahimin, İshaqın və Yaqubun nəslindən yaratmağı vəd etdiyi yeni millətin adıdır. Yaqubun on iki oğlu var idi. Bu oğullardan –Qurtarıcının çıxacağı İsrail xalqı yarandı.

Sən Yaqubun on iki oğlunun adını bilirsən? Onların adları Ruven, Şimeon, Levi, Yəhuda, İssakar, Zevulun, Dan, Naftali, Qad, Aşer, Yusif və Binyamindir. Bu gün biz Yaqubun oğulları haqqında diqqəti cəlb edən hekayəyə baxacağıq – xüsusi ilə də on birinci oğlu olan, Yusifin hekayəsinə. Gəlin Yusifin gözəl hekayəsinə başlayaq!

Biz Tövratı, Yaradılış kitabı 37-ci fəsili oxuyuruq. Müqəddəs Yazılar deyir:

(Yaradılış 37:2-4)
*Yaqubun tarixçəsi belədir. Yusif on yeddi yaşında bir gənc idi. O öz qardaşları – atalarının arvadları Bilhanın və Zilpanın oğulları ilə birlikdə sürü otarırdı. Yusif onların pis işləri barədə xəbərləri atasına çatdırırdı.*
*İsrail Yusifi bütün oğullarından çox sevirdi, çünki Yusif onun qocalıq çağının oğlu idi. O, Yusifə əlvan paltar tikdirdi. Qardaşları gördülər ki, ataları onlardan çox Yusifi sevir. Buna görə də ona nifrət etdilər və onunla yaxşı rəftar etmədilər.*

(Yaradılış 37:5-11)
*Bir dəfə Yusif yuxu gördü və onu qardaşlarına danışdı. Bundan sonra ona daha çox nifrət etməyə başladılar.*
*Yusif onlara dedi: «Gördüyüm bu yuxuya qulaq asın: biz zəminin ortasında dərz bağlayırdıq; mənim dərzim qalxıb dik durdu, sizin dərzləriniz isə mənim dərzimi əhatəyə alıb ona səcdə etdilər». Qardaşları ona dedilər: «Doğrudanmı, sən bizə padşah olacaqsan, hökmranlıq edəcəksən?» Onlar yuxularına və sözlərinə görə Yusifə daha çox nifrət etdilər. Yusif başqa bir yuxu gördü və onu qardaşlarına danışıb dedi: «Yenə bir yuxu gördüm; gördüm ki, günəş, ay və on bir ulduz mənə səcdə edir». O, yuxusunu atasına və qardaşlarına danışanda atası onu danlayıb dedi: «Bu gördüyün yuxu nə deməkdir? Doğrudanmı, mən, anan və qardaşların yerə əyilib sənə təzim etmək üçün gələcəyik?» Qardaşları ona paxıllıq etdilər, atası isə bu sözü yadda saxladı.*

(Yaradılış 37:12-14)
*Bir gün Yusifin qardaşları atalarının sürüsünü otarmaq üçün Şekemə getdilər.*
*İsrail Yusifə dedi: «Qardaşların Şekemdə sürü otarırlar. Gəl səni də onların yanına göndərim». O, atasına dedi: «Getməyə hazıram». İsrail yenə ona dedi: «Get bax,*

*qardaşların yaxşıdırmı, sürü salamatdırmı? Sonra mənə xəbər gətir». Beləcə onu Xevron vadisindən yola saldı.Yusif gəlib Şekemə çatdı.*

(Yaradılış 37:17-28)
*Bu adam dedi: «Buradan getdilər, çünki mən onların "Dotana gedək" sözlərini eşitdim». Yusif qardaşlarının dalınca düşdü və onları Dotanda tapdı. Qardaşları onu uzaqdan gördülər. Yusif onların yanına çatmamış onu öldürmək qərarına gəldilər. Qardaşlar bir-birlərinə dedilər: «Budur, yuxu görənimiz gəlir. İndi gəlin onu öldürüb bir quyuya ataq, sonra da deyək ki, vəhşi heyvan onu parçaladı. Onda görərik, yuxuları necə çin çıxır». Ruven bunu eşidib Yusifi onların əlindən qurtarmaq üçün dedi: «Gəlin ona toxunmayaq». Ruven onlara «qan tökməyin, onu çöldə olan bu quyuya atın, ancaq ona toxunmayın» dedi. Bunu ona görə deyirdi ki, Yusifi qardaşlarının əlindən qurtarıb atasının yanına qaytarsın. Yusif qardaşlarının yanına çatanda onlar Yusifin əyninə geydiyi alabəzək paltarı dartıb çıxartdılar. Özünü də götürüb quyuya atdılar. Quyu boş idi, orada su yox idi. Qardaşlar çörək yemək üçün oturdular. Onlar başlarını qaldıranda gördülər ki, Gileaddan İsmaillilərin bir karvanı gəlir. Onların dəvələri ədviyyat, balzam və ətriyyatla yüklənmişdi və bunları Misirə aparırdılar. Yəhuda qardaşlarına dedi: «Əgər qardaşımızı öldürüb qətli ört-basdır etsək, bunun nə xeyri olar?*
*Gəlin onu İsmaillilərə sataq və ona toxunmayaq, çünki qardaşımızdır, biz eyni qandanıq». Qardaşları onun sözü ilə razılaşdılar. Oradan Midyan tacirləri keçəndə Yusifi quyudan çıxarıb İsmaillilərə iyirmi gümüşə satdılar. Onlar da Yusifi Misirə apardılar.*

(Yaradılış 37:29-35)
*Ruven quyuya tərəf qayıdıb gördü ki, Yusif orada yoxdur. O, paltarını cırdı. Sonra qardaşlarının yanına qayıdıb dedi: «Uşaq yoxdur, bəs mən nə edim?» Onlar Yusifin paltarını götürdülər və bir keçi kəsib paltarı qana batırdılar. Sonra qardaşlar bu əlvan paltarı götürüb atalarına gətirdilər və dedilər: «Biz bunu tapdıq: gör, oğlunun paltarıdır ya yox?» O, paltarı tanıyıb dedi: «Bu, oğlumun paltarıdır; yəqin onu vəhşi bir heyvan yeyib. Həqiqətən, Yusif parçalanıb». Yaqub öz paltarını cırdı və belinə çul bağladı; o uzun müddət oğlu üçün yas tutdu. Bütün oğulları və qızları ona təsəlli vermək üçün yığışdı, ancaq o təsəlli tapmaq istəməyib dedi: «Kədərlə oğlumun yanına – ölülər diyarına enəcəyəm». Beləcə atası onun üçün ağladı.*

(Yaradılış 36:1-23)
*Yusif Misirə aparıldı. Fironun bir əyanı – mühafizəçilər rəisi Misirli Potifar onu oraya gətirmiş İsmaillilərdən satın aldı. Rəbb Yusiflə idi və o, işlərində uğur qazanırdı. Yusif Misirli ağasının evində qalırdı.*
*Ağası gördü ki, Rəbb onunladır və etdiyi hər işdə ona uğur verir. Yusif ağasının gözündə lütf tapdı və onun şəxsi xidmətçisi oldu. Ağası Yusifi evinə nəzarətçi təyin etdi və özünə məxsus olan hər şeyi onun ixtiyarına verdi.*
*Evinin və özünə məxsus olan hər şeyin ixtiyarını ona verən vaxtdan bəri Rəbb Yusifə görə Misirlinin evinə bərəkət verdi, evində, tarlasında və özünə məxsus olan hər şeydə Rəbbin bərəkəti göründü. Ağası özünə məxsus olan hər şeyi Yusifin ixtiyarına vermişdi, yediyi yeməkdən başqa, evində olan heç nədən xəbəri yox idi. Yusif gözəl və yaraşıqlı idi. Bir müddət sonra ağasının arvadının Yusifə gözü düşüb dedi: «Gəl mənimlə yat».*
*Ancaq Yusif bundan imtina edib ağasının arvadına dedi: «Mən burada olarkən ağam evində nə olduğunu bilmir və özünə məxsus olan hər şeyi mənim ixtiyarıma verib. Bu evdə isə hətta o məndən böyük deyil və səndən başqa heç bir şeyi məndən əsirgəmədi, çünki sən onun arvadısan. Bəs mən necə bu böyük pisliyi edib Allahın önündə günaha bata bilərəm?» Qadın hər gün bunu Yusifə deyirdi, Yusif isə onunla yatmağa, hətta birgə olmağa razı olmurdu. Bir gün Yusif öz işini görmək üçün evə girdi. İçəridə ev*

*adamlarından heç kəs yox idi. Qadın «Mənimlə yat!» deyib onun paltarından tutdu. Yusif paltarını onun əlində qoyub qaçdı və bayıra çıxdı.Qadın onun paltarını əlində qoyub qaçdığını görəndə ev adamlarını çağırıb dedi: «Baxın, ağanız bu İbranini bizi təhqir etmək üçün yanımıza gətirib. O mənimlə yatmaq üçün yanıma gəldi, mən isə ucadan qışqırdım.*
*O, səsimi ucaldıb qışqırdığımı görəndə paltarını yanımda qoyub qaçdı və bayıra çıxdı». Yusifin ağası evə gələnə qədər qadın onun paltarını özündə saxladı. Sonra ərinə də bu sözləri söyləyib dedi: «Bizə gətirdiyin bu İbrani qul məni təhqir etmək üçün yanıma gəldi. Səsimi ucaldıb qışqırdığım zaman paltarını yanımda qoyub bayıra qaçdı». Yusifin ağası arvadının «sənin qulun mənimlə belə rəftar etdi» sözlərini eşidəndə bərk qəzəbləndi. Ağası Yusifi götürüb padşahın məhbuslarının saxlanıldığı zindana təhvil verdi. Yusif zindanda qaldı.*
*Ancaq Rəbb Yusiflə idi və ona xeyirxahlıq göstərdi. O, zindanın baş nəzarətçisinin gözündə lütf tapdı.Zindanın baş nəzarətçisi zindanda olan bütün məhbusları Yusifin ixtiyarına verdi. Orada görülən hər işə o başçılıq edirdi. Zindanın baş nəzarətçisi Yusifin ixtiyarında olan heç nəyə nəzarət etmirdi, çünki* ***Rəbb Yusiflə idi və etdiyi hər işdə ona uğur verirdi.***

Bu yolla Yaqubun oğlu Yusifin hekayəsi başlayır. Bu gün gördüklərimizi bu cümlə ilə cəmləşdirə bilərik. **Yusif ədaləti sevdi və pisliyə nifrət etdi.** O keçici ləzzətlərdən həzz almaqdansa, həbsdə əzab çəkməyi seçdi. Buna görə də öz ağasının arvadı onunla yatmağı ona təklif edəndə, o belə cavab verərək, *"Bəs mən necə bu böyük pisliyi edib Allahın önündə günaha bata bilərəm?»* deyə rədd etdi.

Yusif bilirdi ki, **Allaha xidmət** etməklə, **günaha xidmət** etmək bir-birinə uyğun gəlmir! Yusif öz ürəyini Allaha vermişdi. Buna görə də o ədaləti sevirdi və pisliyə nifrət edirdi. Öz ulu babası İbrahim kimi, **Yusif də Allahın vədinə inanırdı**. Yusif Allahın Sözünə **inandığına** görə, Allah onu saleh saydı. İmanına görə Allah Yusifin günahlarını bağışladı və onun ürəyini günaha qalib gəlmək istəyi və gücü ilə doldurdu ki, şər dünyasında düzgün yaşasın.

Yusif Allahla "gəzdiyinə" görə, Allah da Yusif ilə "gəzirdi". Yusifin ürəyi Allaha məxsus olduğuna görə o, günahdan həzz ala bilməzdi. Allaha inanan və ibadət edən ürək, **Allahın sevdiklərini sevəcək** və **Allahın nifrət etdiklərinə nifrət edəcək.** Müqəddəs Yazılar bunu deyərkən elan edir:

***"Heç kim iki ağaya qulluq edə bilməz.*** *Çünki ya birinə nifrət edib o birisini sevəcək ya da birinə bağlı qalıb o birisinə isə xor baxacaq."* (Matta 6:24) ***"Salehliklə qanunsuzluğun*** *nə şərikliyi var?* ***İşıqla qaranlığın*** *ortaq nəyi var?"* (2 Korinflilərə 6:14) *"Allah* ***nurdur*** *və Onda zərrə qədər də* ***qaranlıq yoxdur****. Əgər biz «Allahla şərikliyimiz var» dediyimiz halda qaranlıqda gəziriksə, demək, yalan danışırıq və həqiqətə əməl etmirik."* (1 Yəhya 1:5,6)

Allaha həqiqətən məxsus olanlar, Kəlama inanırlar və ona itaət etməyə çalışırlar. Lakin Allaha məxsus olmayanlar, günah vasitəsi ilə idarə olunurlar. Onlar **xaricən dindar görünə bilərlər,** amma **günah hələ də** onların düşüncələrini, ürəklərinin niyyətlərini, sözlərini və əməllərini **idarə edir**. Onlar ola bilsin ki, günaha qalib gəlməyə cəhd göstərirlər amma bunu etməyi bacarmırlar. Çünki **günah onlardan daha güclüdür**. Onların ürəklərində, Allahın qoyduğu xilas yolunu qəbul edən və Onun Sözünə inananlara verdiyi **Allahın Müqəddəs Ruhunun gücü** yoxdur.

Allah Öz qüdrəti ilə sənin qəlbini yeniləşdirib? Yoxsa hələ də günahın hakimiyyəti altında yaşayırsan? Müqəddəs Yazılar deyir: *"**Allaha yaxınlaşın, O da sizə yaxınlaşacaq**. Ey günahkarlar, əllərinizi paklayın! Ey qərarsız insanlar, ürəklərinizi saflaşdırın!... Rəbbin önündə özünüzü aşağı tutun, O da sizi ucaldacaq."* (Yaqub 4:8,10)

Dostlar, bizi dinlədiyiniz üçün çox sağ olun. Gələn dərsimizdə biz, Rəbbin izni ilə Yusifin hekayəsini davam edəcəyik və onun həbsdən necə çıxmasına, bütün Misiri idarə edən vəzifəsinə qalxmasına baxacağıq....

Müqəddəs Kəlamda olan bu ayə üzərində düşündükcə, Rəbb sizə xeyir-dua versin:

***"Allah nurdur və Onda zərrə qədər də qaranlıq yoxdur. Əgər biz «Allahla şərikliyimiz var» dediyimiz halda qaranlıqda gəziriksə, demək, yalan danışırıq və həqiqətə əməl etmirik."*** (1 Yəhya 1:5,6)

26-cı Dərs

# Yusifin Yüksəldilməsi

**Yaradılış 40-42**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz Yaqubun on iki oğlundan on birinci oğlu olan Yusif haqqında öyrənməyə başladıq. Biz oxuduq ki, Yusif bir dəfə yuxuda necə onun qardaşları ona baş əyəcəklərini gördü. Amma indi isə biz onun qardaşlarının gəlib Yusifə baş əyməklə **Allahın Yusifin yuxusunu necə həyata keçirdiyini** görəcəyik.

Biz öyrəndiyimiz kimi, Yusifin böyük qardaşları onun yuxusuna görə ona nifrət edirdilər və hətta onu təqib edirdilər. Öz qəzəb və paxıllıqlarından onlar onu İsmailli tacirlərə belə satdılar. İsmaillilər Yusifi Misirə apardılar və Misirin padşahı olan Fironun məmuruna satdılar. Yusif isə sadiq xidmətçi və işində düz adam idi. Çünki o **Allah ilə gəzirdi.** Yusif həm də çox yaraşıqlı idi. Bu da onun ağasının arvadının ona gözü düşməsinə və onunla birlikdə olmaq istəyinə səbəb olmuşdu. Lakin Yusif *"Mən Allaha qarşı necə belə pis iş görə bilərəm?"* deyərək imtina etmişdir. Yusif qadınla zina etməkdən imtina etdiyinə görə, qadın ona qarşı danışmışdı və onu həbs etdirmişdi. Buna baxmayaraq, Yusif qısa müddətə günaha yol verməkdənsə, həbsə getməyi üstün tutdu. Yusif həyatında Allahı birinci yerdə tutdu. Yusif zindanda qaldı, amma Allah onu unutmamışdır.

İndi isə gəlin Tövratda davam edək və görək Allah Yusifin vəziyyətini necə dəyişdi. Biz Yaradılış kitabı, 41-ci fəsili oxyuruq. Müqəddəs Yazılar deyir:

(Yaradılış 41:1-16) *İki il keçəndən sonra **firon** belə **bir yuxu gördü**: o, Nil çayının sahilində dayanmışdı. Çaydan yeddi bəslənmiş və kök inək çıxdı. Onlar qamışlıq içində otlamağa başladı. Onlardan sonra haldan düşmüş və arıq olan başqa yeddi inək Nil çayından çıxdı. Onlar çayın sahilindəki inəklərin yanında dayandılar. Haldan düşmüş və arıq inəklər bəslənmiş və kök olan yeddi inəyi yedilər. Onda firon yuxudan oyandı. Sonra yatıb ikinci dəfə bu yuxunu gördü: bir saplaqdan yeddi dolu və yaxşı sünbül çıxdı. Onlardan sonra isə cılız və şərq küləyindən yanmış yeddi sünbül bitdi. Cılız sünbüllər yeddi böyük və dolu sünbülü uddular. Onda firon oyandı; bu bir yuxu idi. Səhəri gün onun ürəyi narahat oldu. O xəbər göndərib Misirin bütün sehrbazlarını və müdriklərini çağırdı. Firon onlara öz yuxusunu danışdı, ancaq onların arasında fironun yuxusunu yozan bir adam tapılmadı.*

*Baş saqi firona belə söylədi: «Mən bu gün öz günahımı yadıma saldım: bir dəfə firon qullarına qəzəbləndi və mənimlə baş çörəkçini zindana, mühafizəçilər rəisinin evinə saldı. Biz bir gecə yuxu gördük, hər birimiz müxtəlif mənalı yuxular gördük. Orada bizimlə birgə mühafizəçilər rəisinin qulu olan bir İbrani gənc var idi. Biz ona danışdıq, o da yuxularımızı yozdu, hər birimizə yuxusunun mənasını izah etdi. O bizə necə yozmuşdusa, elə də oldu: mən öz vəzifəmə qaytarıldım, baş çörəkçi isə asıldı»*
***Firon xəbər göndərib Yusifi çağırdı**. Onu tez zindandan çıxartdılar. O, başını qırxıb paltarlarını dəyişdi və fironun hüzuruna gəldi. Firon Yusifə dedi: «Bir yuxu görmüşəm, ancaq onu yozan yoxdur. Mən sənin barəndə eşitmişəm ki, yuxuları eşidib yoza bilirsən». Yusif firona cavab verdi: «**Bu məndən deyil, Allah fironun xeyrinə cavab verəcək**».*

Sonra Firon öz yuxusunu Yusifə danışdı. Bunları danışandan sonra o Yusifə dedi:

(Yaradılış 41:24-75)
*Cılız sünbüllər yeddi dolu sünbülü uddular; bunları sehrbazlara danışdım, ancaq mənə cavab verən tapılmadı». Yusif firona dedi: «Fironun yuxularının mənası eynidir. Allah etmək istədiyi işi firona bildirdi. Yeddi bəslənmiş inək yeddi ildir, yeddi dolu sünbül də yeddi ildir; yuxuların mənası eynidir. Onlardan sonra çıxan yeddi arıq, cılız inək və şərq küləyindən yanmış boş yeddi sünbül də yeddi ildir; yeddi il aclıq olacaq.*
*Firona demək istədiyim sözlər bunlardır. Allah etmək istədiyi işi firona göstərdi. Bütün Misir torpağında yeddi il böyük bolluq olacaq. Bundan sonra yeddi il aclıq olacaq. Misir ölkəsində olan bütün bolluq yaddan çıxacaq və aclıq ölkəni əldən salacaq. Ölkədəki bolluq ondan sonra gələn aclıq üzündən görünməyəcək, çünki aclıq çox ağır olacaq. Firon yuxunu iki dəfə görüb, çünki Allah belə qərara gəlmişdir və tezliklə bu işi görəcək. Buna görə də firon ağıllı və müdrik bir adam axtarsın, onu Misir ölkəsinə başçı təyin etsin.*
*Firon ölkədə məmurlar qoymağı əmr etsin və yeddi il bolluq zamanı Misir torpağının məhsullarının beşdə birini yığsın. Qoy onlar uğurlu olan bu illərin bütün məhsullarını toplasınlar. Taxılı isə azuqə olaraq şəhərlərdə fironun nəzarəti altında yığıb saxlasınlar. Bu azuqə Misir torpağına gələn yeddi il aclıq dövrü üçün ehtiyat olacaq, ta ki ölkə əhalisi aclıqdan qırılmasın».*
*Bu sözlər fironun və onun əyanlarının xoşuna gəldi. Firon əyanlarına dedi: «**Bu adam kimi Allahın Ruhuna malik olan bir kəs tapa biləcəyikmi?**» Sonra firon Yusifə dedi: «İndi ki Allah sənə bütün bu şeyləri bildirdi, deməli, sənin kimi ağıllı və müdrik adam yoxdur. Sən mənim saray adamlarıma başçılıq edəcəksən və bütün xalqım sənin əmrinlə idarə olunacaq. Mən yalnız taxtda səndən böyük olacağam».*
***Firon yenə Yusifə dedi: «Səni bütün Misir ölkəsinə başçı təyin edirəm***». *Firon öz möhürünü barmağından çıxarıb Yusifin barmağına taxdı, ona incə kətan paltar geyindirdi və boynuna qızıl zəncir asdı. Firon əmr etdi ki, onu özünün ikinci arabasına mindirsinlər və qarşısında «Diz çökün!» deyib bağırsınlar. Beləcə o, Yusifi bütün Misir ölkəsinə başçı qoydu. Firon Yusifə dedi: «Mən fironam. Bütün Misir ölkəsində heç kəs sənsiz əlini yaxud ayağını tərpətməyəcək». Firon Yusifin adını **Safnat-Paneah** qoydu..... vəYusif bütün Misir ölkəsini gəzməyə çıxdı. Misir padşahı fironun hüzurunda olarkən Yusif otuz yaşında idi. Yusif fironun hüzurundan çıxıb bütün Misir ölkəsini dolaşdı. Yeddi bolluq ilində torpaq qucaq-qucaq məhsul verdi. Yusif yeddi ildə Misir torpağında yığılmış bütün məhsulu topladı. O, məhsulu şəhərlərə qoydu. Hər şəhərin ətrafında olan tarlada yetişən məhsulu o şəhərdə saxladı. Yusif dəniz qumu qədər çox taxıl yığdı və daha onu hesablamadı, çünki sayı-hesabı yox idi.*

*... Misir torpağında yeddi il bolluq qurtardı. Yusifin söylədiyi kimi yeddi il aclıq başladı. Bütün ölkələrdə aclıq oldu, lakin Misir torpağının hər yerində ərzaq var idi. Bütün Misir əhalisi aclıq çəkəndə çörək üçün firona fəryad etdi. Firon bütün Misirlilərə dedi: «Yusifin yanına gedin, onun dediyini edin». Bütün yer üzündə aclıq oldu. Yusif məhsul olan bütün anbarları açıb Misirlilərə taxıl satırdı. Misir torpağında aclıq gücləndi.*
***Bütün ölkələrin adamları taxıl almaq üçün Misirə, Yusifin yanına gəlirdilər**, çünki bütün yer üzündə şiddətli aclıq idi.*

(Yaradılış 42:1-9) *Yaqub öyrəndi ki, Misirdə taxıl var. O öz oğullarına dedi: «Nə üçün bir-birinizə baxırsınız?» Yenə dedi: «Mən eşitdim ki, Misirdə taxıl var, gedib oradan bizim üçün taxıl alın ki, ölməyib yaşayaq». **Yusifin on qardaşı taxıl almaq üçün Misirə getdi**. Ancaq Yaqub Yusifin qardaşı Binyamini qardaşları ilə birgə göndərmədi, çünki fikirləşirdi ki, onun başına bir fəlakət gələ bilər. Taxıl almağa gələnlər arasında İsrailin oğulları da var idi, çünki Kənan torpağında da aclıq hökm sürürdü.*

*Yusif ölkənin başçısı idi və ölkənin bütün əhalisinə də taxılı özü satırdı. Yusifin qardaşları gəlib* ***onun önündə üzlərini yerə qoyub səcdə etdilər****. Yusif qardaşlarını görüb tanıdı, ancaq onlarla yad adam kimi rəftar edərək sərt danışdı. Yusif onlardan soruşdu: «Haradan gəlirsiniz?» Onlar dedilər: «Ərzaq almaq üçün Kənan torpağından gəlirik».* ***Yusif qardaşlarını tanıdı, amma onlar Yusifi tanımadılar****.* ***Yusif qardaşları barədə gördüyü yuxuları xatırladı.***

Biz uzun müddət əvvəl onun yuxusunda olduğu kimi, Yusifin böyük qardaşlarının ona baş əydiklərini görürük! Nifrət etdikləri, rədd etdikləri və öldürmək istədikləri bu Yusifə, sonda onlar baş əydilər! Yusif dərhal qardaşlarını tanıdı, amma onlar onu tanımadılar. Çünki onlar Yusifi iyirmi ildən çox idi ki, görməmişdilər! Gələn dərsimizdə, Allahın iradəsi ilə biz Yusifin hekayəsində davam edəcəyik və özünü qardaşlarına necə açdığını görəcəyik.

Bəs bu günki dərsimiz haqqında nə öyrənirik? Yusif və onun qardaşları arasında baş verənlər dünyanın Xilaskarı və Adəmin nəsli arasında baş verəcəklərinin illüstrasiyasıdır. Dostlar, əgər biz bu günki dərsimizdən yalnız bir şey yadda saxlayırıqsa, qoy onda o bu olsun: **Yusif** Allahın dünyaya göndərməyi vəd etdiyi **Xilaskarın** kölgəsi. Yusifin hekayəsində 1800 il sonra dünyaya gələcək Qurtarıcıya işarə edən ən azı 100 element var. Biz bu 100 oxşarlığın hamısının adını yox amma yalnız üçünün adını çəkəcəyik.

1) Birinci, biz Yusifin böyük qardaşlarının həm onu, həm də yuxusunu necə **rədd etdiklərini** gördük. Onlar ona nifrət etdilər, təhqir etdilər və hətta onu satdılar. Eyni şeylər Allahın dünyaya göndərdiyi Xilaskarın da başına gəldi. Dünyanın insanları həm Qurtarıcını və həm də Onun xəbərini rədd etdilər, Onu təhqir etdilər, təqib etdilər və hətta satdılar.

2) İkincisi budur: Əvvəlcə, insanlar Yusifə nifrət etdilər, onu saymadılar və həbs etdilər. Amma Allahın Öz seçdiyi vaxtda, Misirin padşahı Yusifi bütün torpaq üzərində başçı **qoydu**, aclıqdan və ölümdən xilas olmaq istəyənlərə dedi: "Həyatınızı Qoruyana, Yusifə gedin!" Eyni yolla, Allahın dünyaya göndərdiyi Xilaskar haqqında Rəbb Allah deyir: Mənim təyin etdiyim Xilaskara gedin! O həyatı Qoruyandır! O Həyat Mənbəyidir! Əgər özünü Ona tabe etdirsənsə, öz ürəyində heç vaxt aclıq hiss etməyəcəksən və sənin canın əbədi yaşayacaqdır!

3) Yusif ilə Qurtarıcı arasındakı üçüncü müqayisə budur. Sonda, Yusifin qardaşları onun hakimiyyətinə **tabe oldular**. İnkar etdikləri və təhqir etdiklərinin qarşısında özlərini alçatmaqdan başqa onların heç bir seçimi yox idi. Eyni yolla, Allahın Sözü bu günə qədər bir çoxlarının inkar etdiyi və təhqir etdiyi Qurtarıcı haqqında bəyan edir ki, bir gün O qayıdıb dünyanı ədalətlə mühakimə edəcək. Həmin gün dünyadakı bütün insanlar Onun qarşısında baş əyəcəklər; hamı biləcək ki, Allahın dünyaya Xilaskar və Hakim kimi təyin etdiyi Odur!

Bizi dinləyən dost, sən necə? **Özünü** əbədi mühakimədən qorumaq üçün Allahın təyin etdiyi **Xilaskara tabe etdirməyi düşünürsən?** Yoxsa sən artıq gec olana qədər gözləyəcəksən?

Qoy Allah sənə xeyir-dua və bu gün eşitdiklərin haqqında qavrama versin. Kəlam deyir:

***"Həmçinin bizdə daha əmin olan peyğəmbərlik sözləri var. Onlar qaranlıq yerdə işıq saçan bir çırağa bənzəyir.... bu sözlərə diqqət verirsinizsə, yaxşı edirsiniz."*** (2 Peter 1:19)

27-ci Dərs

# Yusif: Hekayənin Ardı

**Yaradılış 42-50**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən iki proqramda biz, Yaqubun oğlu Yusif haqqında oxuduq. Indi isə biz Yusifin hekayəsinin ardına baxacağıq. Və beləliklə də, Tövratda, birinci hissənin, Yaradılış kitabının sonuna gəlib çıxacağıq. Biz artıq gördük ki, İbrahimin nəvəsi Yaqubun 12 oğlu var idi. Yusif 11-ci oğlu idi. Bildiyin kimi onların hamısı Allahın İbrahimə, İshaqa və Yaquba vəd etdiyi Kənan torpağında yaşayırdılar. Yusif gənc oğlan olanda, o yuxuda gördü ki, onun böyük qardaşları bir gün onun qarşısında baş əyəcəklər. Lakin onun böyük qardaşları ona və onun yuxusuna xor baxıb onu Misir torpağına qul kimi satdılar. Amma Allah Yusifi bütün çətinliklərdən xilas etdi və Misirin padşahı Fironun yuxusunu yozmaq üçün ona müdriklik verdi. Allahın köməkliyi ilə Yusif bütün ölkə üzərində yeddi il aclıq olacağını qabaqcadan dedi. Bu yolla Yusif bütün Misir torpağı üzərində başçı təyin olundu.

Yeddi bolluq ili qurtarandan sonra, biz gördük ki, Misir və Kənan torpağı üzərinə Yusifin əvvəlcədən dediyi aclıq gəldi. Amma Misir torpağında Allahın Yusifə verdiyi lütf və müdrikliyə görə, anbarlar buğda ilə dolu idilər.

Yaqub eşidəndə ki, Misirdə buğda var, o Yusifin 10 böyük qardaşını oradan buğda almağa göndərdi. Amma o, Yusifin balaca qardaşı Benyamini ona zərər gələcəyi qorxusundan, onlarla göndərmədi. Sonra biz görürük ki, 10 böyük qardaş Misirə çatır və qardaşları Yusifin qarşısında yerə sərilməklə, uzun müddət əvvəl Yusifin gördüyü yuxunu yerinə yetirirlər. Yusif böyük qardaşlarını tanıdı, amma onlar onu tanımadılar. Çünki onlar onu 20 ildən çox idi ki, görmürdülər və Yusifi ölmüş sanırdılar.

Bu gün biz hekayəni bitirəcəyik ki, görək **Yusif özünü qardaşlarına necə açdı**. Yusif dərhal özünü qardaşlarına açmadı. Çünki o birinci onları yoxlamaq istəyirdi görsün ki, onların hiyləgər və pis ürəkləri dəyişib ya yox. Beləliklə, Müqəddəs Yazılar deyir: *"Yusif qardaşlarını görüb tanıdı, ancaq onlarla yad adam kimi rəftar edərək sərt danışdı. Yusif onlardan soruşdu: «Haradan gəlirsiniz?» Onlar dedilər: «Ərzaq almaq üçün Kənan torpağından gəlirik."* (Yaradılış 42:7)

Yusif onlara çox sual verdi, onlarnan yad kimi rəftar etdi, onları casus olmaqda ittiham edərək həbsə atdı. Üç gündən sonra, Yusif izn verdi ki, onlar getsinlər, amma atalarının kiçik övladı, onların kiçik qardaşları Benyamin ilə Misirə qayıtmalarını deyərək onlardan birini həbsdə saxladı.

Bir çox aylardan sonra, böyük qardaşlar özü ilə kiçik qardaşları Benyamini də götürərək Misirə buğda almağa qayıtdılar. Onlar çatanda, yenidən torpağı idarə edən Yusiflə görüşdülər – amma hələ də onu tanımırdılar. Yusif onları öz evinə gətirtdi və bu onların daha da qorxmalarına səbəb oldu. Sonra o, qardaşları üçün böyük ziyafət açdı, onları yaş sıralarına

görə masa arxasında əyləşdirdi və böyükdən başlayaraq kiçiyə qədər onlara öz masasından yemək verdi. Benyamin digərlərindən beş dəfə artıq yemək aldı. Bəlkə Yusif qardaşlarını yoxlamaq isətəyirdi ki, görsün onlar Benyaminə paxıllıq edəcəklər, necə ki, ona paxıllıq etmişdilər. Amma onlardan heç biri öz kiçik qardaşları Benyaminə paxıllıq göstərmədi.

Ziyafətdən sonra, Yusif xidmətçiyə əmr etdi ki, onların torbalarını buğda ilə doldursun və xüsusi bir gümüş qabı Benyaminin torbasında gizlətsin. Yusifin qardaşları gedəndən sonra, Yusif öz nəzarətçisini göndərdi ki, onların ardınca getsin və onları oğurluqda ittiham etsin. Baş nəzarətçi onları tutanda, o dedi: "Nə üçün siz yaxşılığa pisliklə cavab verdiz? Siz mənim ağamın içdiyi kasanı götürmüsünüz." Onlar dedilər: "Biz götürməmişik. Qoy kasanı tapdığın adam ölsün və özümüz sizin qullarınız olaq!" Baş nəzarətçi dedi: "Kasanı kimnən tapsam mənim qulum olacaq, amma digərləri öz yolu ilə gedə bilər."

Baş nəzarətçi böyükdən başlayaraq ən kiçiyinə qədər hamısının torbasını axtardı və kasanı Benyaminin torbasında tapdı! Bunu görən Benyaminin böyük qardaşları öz paltarlarını cırdılar, şəhərə qayıtdılar və özlərini Yusifin önündə yerə yıxdılar. Onda Yusif onlara dedi: "Siz nə etdiniz? Fikirləşdiniz məni aldada bilərsiniz?" Yaqubun dördüncü oğlu Yəhuda ona dedi: "Biz nə deyə bilərik? Biz özümüzü necə təmizə çıxarda bilərik? Allah bizim səhv əməllərimizi və ədalətsizliyimizi aşkar etdi! Biz sənin qullarınıq, biz və kasanı tapdığın adam!"

Yusif cavab verdi, "Yalnız onda kasa tapılan adam mənim qulum olacaqdır. Qalanlarınız sülh içində atanızın yanına qayıda bilərsiniz." Sonra Yəhuda Yusifə yaxınlaşdı və ona yenidən Benyaminin onlarla Misirə gəlmələrində atalarının çəkdiyi əzab haqqında dedi. Bundan sonra Yəhuda Yusifə yalvardı ki, onlara mərhəmət etsin və izn versin ki, Benyamin onlarla atasının evinə qayıtsın. Yəhuda həmçinin xahiş etdi ki, Benyaminin yerinə özü qul olsun. Yusif qardaşlarının keçmişdə etdikləri günahlara görə əzablarını görəndə, atalarına və kiçik qardaşlarına yazıqları gəldiklərini görəndə Yusif bildi ki, onun **böyük qardaşları həqiqətən tövbə ediblər**. O bildi ki, özünü **qardaşlarına açmaq vaxtı gəlib çatıb!**

Beləliklə, Müqəddəs Yazılar deyir:

(Yaradılış 45:1-15)
*Yusif yanında duranların hamısının önündə özünü saxlaya bilməyib qışqırdı: «Hamını yanımdan çıxarın». Yusif özünü qardaşlarına tanıtdığı zaman yanında heç kəs yox idi. O hönkürüb ağladı. Misirlilər və fironun saray adamları eşitdilər. Yusif qardaşlarına dedi: «Mən Yusifəm. Atam hələ sağdırmı?» Qardaşları ona cavab vermədilər, çünki çaşıb qalmışdılar. Yusif qardaşlarına dedi: «Mənə yaxın gəlin». Onlar yaxın gəldilər. Yusif dedi: «Misirə satdığınız qardaşınız Yusif mənəm. İndi məni buraya satdığınız üçün kədərlənməyin və təəssüflənməyin, çünki Allah həyatınızı qorumaq üçün məni sizdən qabaq buraya göndərdi.*
*Artıq iki ildir ki, ölkədə aclıqdır, hələ beş il də əkin-biçin olmayacaq. Allah məni sizdən qabaq buraya göndərdi ki, sizi yer üzündə saxlasın və böyük bir qurtuluşla həyatınızı qorusun. Ona görə də məni buraya göndərən siz deyilsiniz, Allahdır. O məni firona ata, onun bütün saray adamlarına ağa, bütün Misir ölkəsinə isə başçı etdi.*
*Tez atamın yanına gedib ona söyləyin ki, oğlun Yusif belə deyir: "Allah məni bütün Misir ölkəsinə ağa etdi. Daha durma, yanıma gəl. Qoşen vilayətində yaşayarsan. Özün, oğulların, nəvələrin, qoyun-keçin, mal-qaran – sənin hər şeyin mənə yaxın olar. Orada sənin qayğına qalaram, çünki daha beş il aclıq olacaq. Yoxsa özün, ailən və bütün yaxın adamların*

*yoxsulluq çəkəcək". İndi sizin və qardaşım Binyaminin gözləri görür ki, bu sözləri dilimlə sizə deyirəm. Misirdə sahib olduğum böyük izzəti və bütün gördüklərinizi atama bildirin və tezliklə atamı buraya gətirin». Yusif qardaşı Binyaminin boynuna sarılıb ağladı, Binyamin də onun boynuna sarılıb ağladı. Yusif bütün qardaşlarını öpdü və onların boynuna sarılıb ağladı. Bundan sonra qardaşları onunla söhbət etdilər.*

Bundan sonra, Yusifin qardaşları atalarının evinə qayıtmağa hazırlaşdılar. Yusif onlara, Fironun əmr etdiyi kimi arabalar, həm də yol üçün azuqə verdi.

(Yaradılış 45: 25-28)
*Onlar Misirdən çıxıb Kənan torpağına, ataları Yaqubun yanına gəldilər.*
*Ona hər şeyi danışıb dedilər: «Yusif sağ-salamatdır, özü də bütün Misir ölkəsinə başçılıq edir». Yaqub heyrətlənib qaldı və onlara inanmadı. Qardaşlar Yusifin onlara dediyi bütün sözləri ona söylədilər. Onu aparmaq üçün Yusifin göndərdiyi arabaları görəndə ataları Yaqubun ürəyi ruhlandı. İsrail dedi: «İndi inandım ki, oğlum Yusif sağ-salamatdır. Qoy ölməmişdən qabaq gedib onu görüm».*

Bundan sonra Müqəddəs Kəlam Yaqub və onun ailəsinin Kənan torpağından Misirə necə köçməkləri haqda danışır. Yaqub yolda qurban təqdim etdi və Allah onnan belə danışdı:

*"Mən Allaham, atanın Allahıyam. Misirə getməkdən qorxma, çünki orada səndən böyük bir millət törədəcəyəm.Mən də səninlə birgə Misirə gedəcəyəm.* ***Səni yenə oradan çıxaracağam****. Yusif öz əli ilə sənin gözlərini bağlayacaq."* (Yaradılış 46:3,4)

Uzun səyahətdən sonra, Yaqub və onun ailəsi Misir torpağına gəlib çatdılar. Yaqub, uzun illərdən sonra öz sevimli oğlu Yusifi görməyinə necə xoşbəxt idi! Beləliklə Yaqub, hansı ki *İsrail* adlanıb, öz ailəsi ilə Misirdə, Qoşen vilayətində məskunlaşdı. Orada onlar sayca çoxaldılar və çox böyük bir qəbiləyə çevrildilər. Yaqub 17 il Misirdə yaşadı. O cəmi 147 il yaşadı. Beləliklə İsrail qəbiləsinin atası Yaqub öldü və Allahın yanına getdi. Yusif, onun qardaşları və bütün Misir xalqı onun üçün 70 gün yas tutdu. Yaqubun oğulları öz atalarını babası İbrahimin məzarında, Kənan torpağında dəfn etdilər.

Yaradılış kitabının sonuncu fəsili, 50-ci fəsildə Müqəddəs Yazılar deyir:

(Yaradılış 50:15-19,26)
*Ataları öləndən sonra Yusifin qardaşları öz aralarında dedilər: «Bəlkə Yusif bizə qarşı kin saxlayır. Əgər ona etdiyimiz pisliyə görə bizdən qisas alarsa, nə edərik?» ......Yusif onlara dedi: «Məgər mən Allaham ki, məndən qorxursunuz? Baxın siz mənə qarşı pis fikrə düşdünüz, lakin Allah onu yaxşı işə çevirdi ki, bu gün gördüyünüzü etsin və çoxlu adamın həyatını qorusun. Daha qorxmayın, mən həm sizi, həm də övladlarınızı saxlayacağam». Yusif onlara ürəklərincə olan sözlərlə təsəlli verdi. Yusifin və atasının nəsli Misirdə sakin oldu. Yusif yüz on il ömür sürdü. O, Efrayimin üç nəsil övladlarını gördü. Menaşşenin oğlu Makirin övladları da Yusifin yanında doğuldu. Bir gün Yusif qardaşlarına dedi: «Mən ölürəm, amma Allah mütləq sizə nəzər salacaq. O sizi bu ölkədən İbrahimə, İshaqa və Yaquba and içdiyi torpağa aparacaq». Sonra Yusif İsrailin övladlarını and içdirib dedi: «Allah mütləq sizə nəzər salacaq. Gedən zaman mənim sümüklərimi də buradan çıxarın». Yusif yüz on yaşında öldü. Onu Misirdə mumiyalayıb bir tabuta qoydular.*

Yaradılış kitabı belə qurtarır. "*Beləliklə Yusif öldü...və...Misirdə mumiyalayıb bir tabuta qoydular."* Allahın **həyatı** necə yaratması ilə başlayan bu kitab, **ölüm** ilə bitir. Adəmin günahına görə, ölüm bütün insanlara gəldi. İstədin istəmədin, *"günahın əvəzi ölümdür!"* (Romalılara 6:23) Hətta "Həyatı Qoruyan" adı daşıyan Yusif kimi yaxşı bir adam belə ölməli idi. Çünki o da Adəmin nəslindən idi və ürəyində günahın kökünü daşıyırdı. Allahın köməkliyi ilə Yusif Misir xalqının və öz ailəsinin həyatını aclıqdan qorudu amma onları **ölümün özündən qoruya bilmədi.** Amma hələ də biz Allaha sevinc dolu ürəklə həmd edə bilərik. Çünki biz Allahın ölümə qalib gələcək olan Xilaskarı göndərməsi vədi haqqında da oxuyuruq. Ölüm **günahın** nəticəsidir. Allahın vəd etdiyi Xilaskar gəlib Adəmin nəslini günahın kökündən və günahın cərimәsindən qurtaracaqdır. Günahın kökü iblis və insanın pis ürəyidir. Günahın əvəzi ölüm və cəhənnəmdir. Allahın vəd etdiyi Xilaskar onların hamısına qalib gəlib və Ona inanan hər kəsin həyatını dəyişə bilər.

Gələn dərsimizdə, Allahın iradəsi ilə Tövratda *Çıxış* adlanan ikinci kitab oxumağa başlayacağıq.

Müqəddəs Yazılardan bu ayə üzərində düşündükcə, Rəbb sizə xeyir-dua versin:

***"Günah çoxalan yerdə Allahın lütfü daha da çoxaldı."*** (Romalılara 5:20)

28-ci Dərs

# Tövrat kitabının birinci hissəsinin xülasəsi

**Yaradılış 1 – Çıxış 1**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək , Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Biz hələ də Tövratdan oxuyuruq. Bildiyin kimi Tövrat, Peyğəmbərlərin Yazılarıdır və bu beş hissəyə və ya kitaba bölünür. Birinci kitab Yaradılış adlanır. Keçən dərslərimizdə, biz Yaradılış kitabını bitirdik. Bu gün biz Tövrat kitabının ikinci hissəsi olan **Çıxış** kitabını oxumağa başlayacağıq. Çıxış kitabı Allahın İsrail xalqını Misir torpağındakı əsarətdən çıxartmasının möcüzəli və gözəl təsvirindən ibarətdir.

Çıxış kitabına başlamazdan əvvəl gəlin Müqəddəs Yazıların birinci kitabında öyrəndiklərimizi **nəzərdən keçirək.** Yaradılış kitabını dolğun bilməyimiz çox vacibdir. Çünki bu sonraki peyğəmbərlərin kitablarında yazılanları başa düşməmiz və onlara inana bilməmiz üçün Allahın qoyduğu təməldir.

Sən Yaradılış kitabının birinci ayəsini xatırlayırsan? Orada deyilir: *"Başlanğıcda Allah göyləri və yerləri yaratdı."* Bu çox vacibdir. "Başlanğıcda **Allah!**" Hələ heç bir şey olmayanda yalnız Yeganə olan var idi. O Allah idi! Sonra, biz Əbədi Sözü və Öz Müqəddəs Ruhu ilə Allahın necə müqəddəs mələkləri yaratdığını öyrəndik. Allah mələkləri yaratdı ki, Ona xidmət etsinlər və Onu əbədiyyən izzətləndirsinlər. Mələklər arasında biri daha müdrik və gözəl idi. Amma Müqəddəs Yazılar deyir ki, bir gün o mələk lovğalandı və öz ürəyində Allaha nifrət etdi. O bir çox mələklərlə Allaha qarşı çıxmaq üçün plan hazırladı. Amma heç kim Allahı məğlub edə bilməz. Allah Ona qarşı çıxanlara dözə bilməz. Nəticə etibarı ilə Allah onu və onun pis mələklərini qovdu. O mələk adının mənası *düşmən* olan şeytandır. Allah şeytanı və onun mələklərini qovandan sonra, onlar üçün alovlu **Cəhənnəmi** yaratdı. Müqəddəs Yazılar deyir ki, Məhkəmə günü, Ədalətli Allah şeytanı və onun ardınca gedənləri atəşə atacaqdır.

Sonra biz Rəbbin yaratmağı nəzərdə tutduğu insanlar üçün hazırladığı **dünya** haqqında oxuyuduq. İnsan Allahın yaratdığı məxluqlar arasında ən vacibidir. Çünki **insan** Allahın surətində yaradılıb! Allah istəyirdi ki, insanla dərin və gözəl münasibətdə olsun. Buna görə də Allah insanın canında Allahı tanıya bilmək bacarığına malik olan **ağıl** yerləşdirdi və ona Allahı sevmək üçün **ürək** verdi və Allaha itaət etmək üçün ona **iradə** də verdi.

Sonra biz Allahın yaratdığı kişi və qadının qarşısında **sınaq** qoyduğunu gördük. Allah Adəmə, *"Bağdakı bütün ağacların bəhrəsindən istəyəndə yeyə bilərsən. Ancaq xeyirlə şəri bilmə ağacının meyvəsindən yemə, çünki ondan yeyən gün hökmən öləcəksən"* dedi və bu o deməkdir ki, sən həmişəlik məndən ayrı düşəcəksən!

Amma biz ulu babamız Adəm və Həvvanın Allahın qadağan etdiyi ağacdan yeyərək necə şeytana itaət etdiklərini gördük. Nəticə etibarı ilə, Allahın Sözü deyir: *"Beləliklə, **günah** bir insan vasitəsilə, **ölüm** də günah vasitəsilə bu dünyaya gəldi. Beləcə **ölüm bütün insanlara yayıldı**, çünki hamı günah etdi."* (Romalılara 5:12) Atalar sözündə deyildiyi kimi, *"Bir qoz*

*bir çuvalı bərbad etdi."* Adəmin günahına görə, bizim hamımız günahlıyıq. Adəmin günahına görə, bizim hamımız ölümə və Allahın məhkəməsinə layiqik.

Sonra biz Allahın Adəm və Həvvanı günahlarına görə Cənnət Bağından necə qovduğunu öyrəndik. Amma onları qovmazdan əvvəl Allah Adəmin övladlarını şeytanın hakimiyyətindən və ölümün cəzasından xilas etmək üçün dünyaya göndərəcəyi Qurtarıcı haqda planını həyata keçirməyə başladı. Öz gözəl tərtibində Allah, günahlı insanları xilas etmək üçün Öz planı var idi. Onun planı dünyaya Adəmin günahı ilə çirklənməmiş kamil bir Adamı göndərmək idi. Bu saleh Adam, könüllü olaraq Adəmin övladlarının günahlarının cəzasına görə Öz qanını tökəcəkdir. Bu yolla, Allah Öz ədaləti ilə guzəştə getməyərək insanların günahlarını bağışlaya bilər. Həqiqətən, Allahın gələcək Qurtarıcı haqda vədi möcüzəli idi!

Sonra biz Allahın Adəm və Həvva üçün heyvanları kəsib, dərisindən onlara paltar düzəldərək Öz gözəl vədini təsdiq etdiyini gördük. Allah Adəm və Həvvaya öyrədirdi ki, *"günahın əvəzi ölümdür"* və *"qan tökülmədən bağışlanma yoxdur"* .

Bundan sonra biz Adəmin ilk iki oğlu Qabil və Habil haqqında öyrəndik. Biz gördük ki, Habil Allaha qüsursuz **quzunu** kəsib qurban gətirdi. Qabil isə Allaha becərdiyi şeyləri təqdim edərək, Ona öz gücü ilə yaxınlaşmağa çalışdı. Nəticə etibarı ilə, Müqəddəs Yazılar deyir: *"Rəbb Habili və onun təqdimini qəbul etdi, ancaq Qabili və onun təqdimini qəbul etmədi."* Nə üçün Allah Qabilin qurbanını qəbul etmədi? Çünki Allahın qanunu "günahın əvəzi **yaxşı əməllərdir**!" **deməmişdir**. Əksinə, Allah demişdir, *"günahın əvəzi **ölümdür**!"* və *"**qan tökmədən** bağışlanma yoxdur."* Allah istəyirdi ki, Qabil tövbə etsin və Onun qoyduğu salehlik yolunu qəbul etsin amma Qabil qəddarlaşdı və öz kiçik qardaşı Habilin qatili oldu.

Adəmin nəslinin əksəriyyəti Qabilin izləri ilə gedirdi, və Müqəddəs Yazılar deyir ki, Nuhun dövrünə qədər *"Rəbb gördü ki, yer üzündəki insanların şər əməlləri çoxdur və hər zaman onların ürəyindəki fikirlər və niyyətlər **pisliyə doğru yönəlir.**"* İnsanın ürəyinin şərinə görə Allah günahlı insanları yer üzündən silmək üçün daşqın göndərməyi nəzərdə tutdu. Həmin o pozulmuş dövrdə yalnız Nuh Allaha inanırdı və buna görə də Allah ora daxil olan hər bir kəs üçün sığınacaq olan böyük bir gəmini tikməyi buyurdu. Nuh gəmini tikdikcə, uzun müddət Allah günahlı insanlarla səbirli oldu. Amma Nuh və onun ailəsindən başqa heç kim tövbə edib gəmiyə daxil olmadı.

Nuhun üç oğlu var idi. Sam, Ham və Yafəs. İbrahim peyğəmbər Şamın nəslindəndir. Biz Allahın İbrahimə öz atası evini tərk edib, necə Kənan torpağına getməsini əmr etdiyini gördük. Allah İbrahimdən, Allahın peyğəmbərlərinin və **dünyanın Xilaskarının** çıxacağı **yeni millətin** yaradılmasını planladı. Buna görə də Allah İbrahimə dedi: *"sənə xeyir-dua verəcəyəm.... və yer üzünün bütün tayfaları sənin vasitənlə xeyir-dua alacaq."* (Yaradılış 12:2,3)

Beləliklə, İbrahim Allahın vəd etdiyi kimi, yaşlı vaxtında İshaqın atası oldu. Sonra İshaq Yaqubun və Allahın ona İsrail adı verdiyi Yaqub isə on iki oğulun atası oldu. Və Yaqubun on iki oğlundan Allahın İbrahimə vəd etdiyi yeni millət, İsrail xalqı törəndi.

Keçən üç proqramda, biz Yaqubun oğullarının gözəl hekayələrinə baxırdıq. Xüsusi ilə də on birinci oğlu olan Yusifə. Yusifin böyük qardaşları ona nifrət edirdilər amma Allah ona xeyir-dua verdi və bütün Misir torpağı üzərində onu rəhbər etdi. Bundan sonra fəlakətə səbəb olan bütün Misirə və Kənan torpağına aclıq gəldi. Nəticədə, Yaqub və onun ailəsinin yeməyə heç nəyi yox idi. Yaqub eşidəndə ki, Misirdə buğda var, oğullarını ora göndərdi. Sonra biz

Yusifin özünü öz qardaşlarına necə açdığını, necə onları bağışladığını, atasını və bütün ailəsini Misirə çağırıb, orda məskunlaşmalarını gördük. Beləliklə, Yaradılış kitabının sonunda biz, İsrail övladlarının artıq Allahın İbrahimə vəd etdiyi Kənan torpağında yox, amma Misirdə olduqlarını görürük. Bunların hamısı Allahın uzun illər əvvəl dediklərinin yerinə yetirilməsi üçün baş verdi:

*"Rəbb İbrama dedi: «Yəqin bil ki, **nəslin yad ölkədə qərib olacaq**, orada olan millətə köləlik edəcək və onlara dörd yüz il zülm ediləcək. Ancaq onların köləlik edəcəkləri xalqı Özüm cəzalandıracağam. Bundan sonra onlar böyük əmlakla oradan çıxacaqlar."* (Yaradılış 15:13,14)

İsrail övladlarının başına gələn bütün bu hadisələrdə Allahın Öz əli onların üzərində idi. Nə üçün Allah izn verdi ki, İbrahimin nəvələri, İsraillilər Allahın onlara Kənan torpağını vəd etdiyi bir halda Misirdə məskunlaşdılar? Çünki Allah Öz izzətini və qüdrətini Misir torpağında İsraillilərin başına gələcəklər vasitəsilə göstərməyi nəzərdə tutmuşdur. Allah Öz qüdrətli gücü ilə İsrail övladlarını qurtarmağı planlaşdırmışdır ki, **hər kəs bilsin ki, O padşahların Padşahı; rəbblərin Rəbbi, Qüdrətli olandır!**

İndi isə gəlin Çıxış kitabından brinci fəsili oxuyaq. Müqəddəs Kəlam deyir:

(Çıxış 1:6-22)
*Vaxt yetişdi, Yusif, qardaşları və o nəslin hamısı öldü. Amma İsrail övladları çoxalıb böyüdülər, sayları artdı və onlar qüvvətləndi; ölkə onlarla doldu. Misirdə Yusifi tanımayan yeni bir padşah taxta çıxdı.*
*O, xalqına dedi: «Baxın İsrail övladları sayca bizdən çox və daha qüvvətlidir. Gəlin onlarla ağılla rəftar edək, yoxsa çoxalar və müharibə vaxtı düşmənlərimizlə birləşib bizə qarşı vuruşar, sonra isə ölkəni tərk edərlər».*
*Misirlilər İsrail övladlarına əziyyət vermək üçün onların üzərinə zülmkar iş nəzarətçiləri qoydular. İsrail övladları firon üçün Pitom və Ramses adlanan şəhərlər tikdilər. Orada anbarlar yerləşdirdilər.*
*Ancaq İsrail övladlarına əziyyət vermələrinə baxmayaraq, onlar çoxalıb artırdı. Onda Misirlilər İsrail övladlarından qorxub, onları sıxıntılı əsarətdə saxladılar. Misirlilər İsrail övladlarını ağır işlərlə – palçıq tapdalamaqla, kərpic kəsməklə və hər cür tarla işləri ilə amansızcasına işlədib onların həyatını acı etdilər.*
*Misir padşahı birinin adı Şifra, o birinin adı Pua olan İbrani mamaçalarına dedi: «İbrani qadınlarını doğuzduranda baxın: əgər uşaq oğlan olarsa, onu öldürün, yox, əgər qız olsa, qoy yaşasın».*
*Ancaq mamaçalar Allahdan qorxurdular və buna görə Misir padşahının onlara əmr etdiyi kimi etmədilər və oğlan uşaqlarını sağ buraxdılar.*

*Misir padşahı mamaçaları çağırtdırıb onlara dedi: «Niyə belə etdiniz? Niyə oğlan uşaqlarını sağ buraxdınız?»*
*Mamaçalar firona dedilər: «Çünki İbrani qadınları Misirli qadınlar kimi deyil, onlar daha sağlamdırlar və mamaçalar onların yanına gəlməzdən əvvəl doğurlar». Buna görə Allahın xalqı çoxalıb artdı. Allah mamaçalara da xeyirxahlıq göstərdi. Ondan qorxduqlarına görə bu qadınlara da ailə nəsib etdi.*
*Firon bütün xalqına əmr edib dedi: «İbranilərdən hər doğulan oğlan uşağını Nil çayına atın! Hər qız uşağını isə sağ qoyun».*

Çıxış kitabının birinci fəsli burada bitir. Allahın iradəsi ilə, gələn dərsimizdə biz İsrail övladlarını Misirin zalım padşahı Fironun əlindən qurtarmaq üçün bir adamı necə çağırdığı

və necə hazırladığı haqda qeyri-adi hekayəyə keçəcəyik. Sən bu adamın adını bilirsən? Bəli. Bu Musadır --- Allahın peyğəmbəri, Musa.

Bizi dinlədiyiniz üçün çox sağ olun...Allah sizə xeyir-dua versin və yadda saxla:

***"Bundan əvvəl yazılanların hamısı bizi öyrətmək üçün yazıldı ki, dözümlə və Müqəddəs Yazıların ürək-dirəyi ilə ümidimiz olsun."*** (Romalılara 15:4)

29-cu Dərs

# Musa Peyğəmbər

**Çıxış 1,2**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək , Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Bildiyiniz kimi Allahın peyğəmbəri Musanın yazdığı Tövratda beş kitab var. Ötən dərsimizdə biz Yaradılış kitabını bitirdik və *Çıxış* adlanan ikinci kitabı oxumağa başladıq. Allaha duamız budur ki, O bizim zehnimizi və ürəyimizi dəyərli göstəricilərlə dolu olan oxuduğumuz bu dərin kitaba açsın.

Biz artıq İbrahimin, İshaqın və Yaqubun nəsli olan İsraillilərin, Allahın onlara verməyi vəd etdiyi Kənan torpağından çox uzaqda, Misirdə məskunlaşdıqlarını gördük.

Çıxış kitabının birinci fəsilində biz oxuyuruq:

(Çıxış 1:1-14)
*Yaqubla birlikdə ailələri ilə Misirə gələn İsrail övladlarının adları bunlar idi: Ruven, Şimeon, Levi, Yəhuda, İssakar, Zevulun, Binyamin, Dan, Naftali, Qad, Aşer, Yaqubun nəslindən törənən yetmiş nəfər idi. Yaqubun oğlu Yusif artıq Misirdə idi. Vaxt yetişdi, Yusif, qardaşları və o nəslin hamısı öldü.*
*Amma İsrail övladları çoxalıb böyüdülər, sayları artdı və onlar qüvvətləndi; ölkə onlarla doldu.*
*Misirdə Yusifi tanımayan yeni bir padşah taxta çıxdı. O, xalqına dedi: «Baxın İsrail övladları sayca bizdən çox və daha qüvvətlidir. Gəlin onlarla ağılla rəftar edək, yoxsa çoxalar və müharibə vaxtı düşmənlərimizlə birləşib bizə qarşı vuruşar, sonra isə ölkəni tərk edərlər». Misirlilər İsrail övladlarına əziyyət vermək üçün onların üzərinə zülmkar iş nəzarətçiləri qoydular. İsrail övladları firon üçün Pitom və Ramses adlanan şəhərlər tikdilər. Orada anbarlar yerləşdirdilər. Ancaq İsrail övladlarına əziyyət vermələrinə baxmayaraq, onlar çoxalıb artırdı. Onda Misirlilər İsrail övladlarından qorxub, onları sıxıntılı əsarətdə saxladılar. Misirlilər İsrail övladlarını ağır işlərlə – palçıq tapdalamaqla, kərpic kəsməklə və hər cür tarla işləri ilə amansızcasına işlədib onların həyatını acı etdilər.*

Gəlin burda dayanaq. Yusifin ölümündən **üç yüz ildən çox keçmişdir**. Misirdə Yusifin Misir xalqı üçün etdiklərini unudan padşah, başqa bir Firon hakimlik edirdi. Bu Firon İsrail xalqına dəhşətli zülm edərək onları qul etmişdi. O onları çox ağır işlədirdi! Bəlkə İsraillilər fikirləşdilər ki, Allah onların ulubabaları İbrahimə onların böyük millətə çevrilmələri haqqında etdiyi vədi unudub. Amma Allah heç nəyi unutmamışdır! Əslində Allah uzun illər əvvəl etdiyi vədi yerinə yetirmək prosesində idi.

Həqiqətən, **Allah sadiqdir!** O, Öz əhdlərini saxlayır! Allah nə deyirsə, hətta insana elə gəlsədə ki, Allah ləngdir, O yerinə yetirir! **Peyğəmbərlərin və Qurtarıcının çıxacağı yeni millətin yaranması planını Allahın Özü təşkil etmişdir – və Onun planını yerinə yetirməyə heç nə mane ola bilməzdi!**

Sən xatırlayırsan ilk dəfə Allah yeni millət yaratmaq haqda Öz planını bəyan edəndə, O yaşlı cütlükdən, İbrahim və Saradan başladı. İbrahimin yüz yaşı olanda, Onun oğlu İshaq oldu. İshaqdan Yaqub, Yaqubdan İsrailin qəbilələrini törədən on iki oğlu oldu. Onlar Misir torpağına köçəndə, yetmiş nəfər idilər. Amma indi, üç yüz ildən sonra onların sayı çox artmışdır, milyonu keçmişdir! Allah uzun illər əvvəl vəd etdiyini yerinə yetirdi? Allah İbrahimdən yeni və çox böyük bir millət yaratdı? Bəli, yaratdı! Allah sadiqdir və Öz Sözünə qarşı çıxa bilməz. O, əbədiyyən izzətə və şərəfə layiqdir!

Bu günki dərsdə biz, Fironun İsrail xalqına necə əzab verməsi və onları kölə etməsini görəcəyik. Amma biz görürük ki, hər dəfə Firon İsrail qəbilələri üzərində ağalıq edəndə və saylarını azaltmağa çalışanda Allah onları daha da artırır və çoxaldırdı. Müqəddəs Yazılar göstərir ki, Firon çox qəzəbləndi və İsraillilərə əmr etdi: *"hər doğulan oğlan uşağını Nil çayına atın!"* (Çıxış 1:22) Sən bu haqda nə fikirləşirsən? Kim Fironu bu pis plana yönəldirdi? **Şeytan!** Şeytan Fironu qızışdırırdı ki, İsrail xalqını təqib etsin və onların körpə oğlan uşaqlarını Nil çayına atırtmağa cəhd etsin.

Amma şeytandan güclü olan Allah, Öz seçilmiş xalqını Fironun əlindən xilas etmək üçün İsrail qəbiləsinin içindən bir adamı seçməyi nəzərdə tutdu. Sən bu qəhrəmanın adını bilirsən? Bəli, bu Allahın tanınmış peyğəmbəri **Musadır.** Amma Musanın valideynləri, Amram və Yokeved də qəhrəman idilər. Çünki *"onlar ... padşahın fərmanından qorxmadılar."* **(İbranlilara 11:23; Çixış 6:20)** Çıxış kitabının ikinci fəsilində biz **Musanın həyatının erkən illəri haqda oxuyuruq.**

Müqəddəs Yazılar deyir:

(Çıxış 2:1-10)
*O zaman Levi qəbiləsindən bir kişi öz nəslindən bir arvad aldı. O hamilə olub oğul doğdu və uşağın gözəl olduğunu görüb üç ay gizlətdi. Bundan artıq onu gizlədə bilməyərək qamışdan bir səbət götürüb ona qır və qatran sürtdü, körpəni səbətin içinə salıb Nil çayının kənarındakı qamışlığın arasına qoydu. Körpənin bacısı isə onun başına nə gələcəyini bilmək üçün uzaqda durub baxırdı. Fironun qızı çimmək üçün çaya girdi. Onun qarabaşları isə çayın kənarında gəzişirdilər. Fironun qızı qarğıların arasında səbəti görüb onu gətirmək üçün kənizini göndərdi. Sonra səbəti açıb bir oğlan gördü. Körpə ağlayırdı. Fironun qızı ona rəhmi gəldiyindən dedi: «Bu, İbrani oğlanlarındandır». Körpənin bacısı fironun qızına dedi: «Bəlkə gedib sənin üçün İbrani qadınlarından bir dayə çağırım ki, körpəni əmizdirsin?» Fironun qızı ona «get» dedi. Qız gedib körpənin anasını çağırdı. Fironun qızı ona dedi: «Bu körpəni götürüb mənim üçün əmizdir, sənə bunun haqqını verərəm». Qadın körpəni götürüb əmizdirdi. Uşaq böyüdü və qadın onu firon qızının yanına apardı. Fironun qızı uşağı oğulluğa götürdü. O, uşağın adını Musa qoyub dedi: «Oğlanı sudan çıxartdığım üçün ona bu adı qoydum».*

Bu Musanın doğulmasının hekayəsidir. Bu haqda düşün! Başqa oğlan körpələri öldüyü vaxtda, körpə Musa öz anası tərəfindən bəslənirdi və zalım padşah olan Firondan qorunurdu! Musanın həyatında baş verən bütün şeylərdə Allahın əli var idi. Allah İsrail xalqını köləlikdən çıxartmaq üçün Musadan istifadə etməyi planlaşdırmışdır. Allahın müdrikliyi necə də dərindir. Sən bilirsən Musa döşdən ayrılandan sonra harada böyüdü? O, İsrail xalqına zülm verən Fironun evində böyüdü! Allah İsrailliləri Fironun əlindən xilas etmək üçün Musadan istifadə etməyi nəzərdə tutmuşdur. Öz planında Allah, Musanı qorumaq üçün qəddar padşahın qızından istifadə etməyi seçdi. Musa üçün padşahın evi ən təhlükəsiz və ən yaxşı yer idi. İsrail xalqını düzgün aparmaq üçün Musaya çoxlu şeyləri

öyrənmək və başa düşmək lazım idi. Müqəddəs Yazılar deyir: *"Musa Misirlilərin bütün elmi biliklərinə bağlı tərbiyə alıb söz və əməlində güclü bir şəxsiyyət oldu."* (Həvarilərin İşləri 7:22) Amma Musa hələ də çox şeyi öyrənməli idi.

Müqəddəs Yazılar deyir:

(Çıxış 2:11-15)
*Çox illər keçdi,* ***Musa böyüdü****. Bir dəfə o öz xalqının yanına getdi və onların ağır zəhmətini gördü. Bir Misirlinin onun xalqından olan İbranini döydüyünü gördü. Musa ətrafına baxıb heç kəsin olmadığını görəndə Misirlini öldürüb qumda gizlətdi. Ertəsi gün o yenə gedəndə gördü ki, iki İbrani bir-biri ilə dalaşır. Musa haqsız olana dedi: «Yoldaşını niyə vurursan?» O adam dedi: «Səni bizim üstümüzə kim başçı və hakim qoyub? Yoxsa Misirlini öldürdüyün kimi məni də öldürmək fikrindəsən?» Musa qorxaraq ürəyində dedi: «Deyəsən, bu iş barədə bilirlər». Firon bu işdən xəbərdar olanda Musanı öldürtdürmək istədi. Ancaq Musa fironun əlindən qaçıb Midyan torpağına çataraq bir quyunun yanında oturdu.*

Biz görürük ki, Musa öz gücü ilə İsrail övladlarını xilas etməyə cəhd göstərdi. Amma Allah istəmirdi ki, o belə etsin. Allah İsrail övladlarını azad etmək üçün Musadan alət kimi istifadə etmək istəyirdi. **İsrailin qurtuluşu Musadan yox, amma Allahdan gələcəkdir.** Musa özlüyündə, sadəcə bir adam idi və İsrail xalqını Fironun əlindən xilas etmək üçün Allah verməsə gücü olmazdı.

Müqəddəs Yazılar deyir ki, Musa 40 il səhrada, Midyan torpağında yaşadı. Allah, o qızmar və quru səhralıqda Musaya çox şeylər öyrətməli idi. Kəlamda belə bir ayə var: *" Ən balaca bir işdə sadiq olan kəs böyük işdə də sadiqdir, ən balaca bir işdə haqsız olan isə böyük işdə də haqsızdır."* (Luka 16:10) Allah Musanı bütün İsrail əhlinə rəhbərlik etmək tapşırığını verməzdən əvvəl, Musa birinci kiçik bir şeydə sadiqliyini göstərməli idi. Beləliklə, Müqəddəs Yazılar bizə deyir ki, Misirdən uzaq bir torpaqda, Musa çoban oldu, evləndi və iki övladı oldu. Qırx il Musa sadiq çoban idi. Səhralıqda –qayınatasının sürüsünə çobanlıq edərkən – **Allah Musanı** İsrail xalqının çobanı olacağı gün üçün **hazırlayırdı.** Allahın Musa və Öz xalqı İsrail üçün böyük planı var idi!

Sonra Müqəddəs Yazılar deyir:

(Çıxış 2:23-25)
*Xeyli vaxt keçəndən sonra Misir padşahı öldü. İsrail övladları ağır zəhmət çəkdikləri üçün fəryad edib inlədilər. Ağır zəhmətlərinə görə etdikləri nalələri Allaha çatdı. Allah onların iniltisini eşitdi; İbrahimlə, İshaqla və Yaqubla olan əhdini xatırladı. Allah İsrail övladlarının qul olduqlarını gördü və onlara nəzər saldı.*

İsrail övladları uzun müddət kölə kimi qalmışdılar. Onların zülmü necə də böyük idi! Amma Allah onları unutmamışdır! O, İsrail xalqını köləlikdən xilas etməyi planlamışdır. Biz soruşa bilərik: Nə üçün Allah İsrail övladlarını Fironun əlindən xilas etməyi planladı? Onə görə ki, onlar başqalarından daha yaxşı idilər? Xeyr! İsrail xalqı da Misir xalqı və bütün insanlar kimi günahlı idilər. **Onda, bəs nə üçün Allahın İsrail övladları üçün belə xüsusi bir planı var idi?** Sadəcə olaraq **Öz sadiqliyi** və **Öz mərhəmətinə görə.** Gəlin yenidən sonuncu ayəni oxuyaq. *"Allah onların iniltisini eşitdi; İbrahimlə, İshaqla və Yaqubla olan* ***əhdini xatırladı****. Allah İsrail övladlarının qul olduqlarını gördü və* ***onlara nəzər saldı****."* (Çıxış 2:24,25)

Bəli, Öz sadiqliyində və mərhəmətində Allah, İbrahimə etdiyi vədini yadına saldı:

***"Səndən böyük bir millət törədəcəyəm, sənə xeyir-dua verəcəyəm... Yer üzünün bütün tayfaları sənin vasitənlə xeyir-dua alacaq."*** (Yaradılış 12:2,3) *"Nəslin yad ölkədə qərib olacaq, orada olan millətə köləlik edəcək və onlara dörd yüz il zülm ediləcək. Ancaq onların kölәlik edəcəkləri xalqı Özüm cəzalandıracağam. Bundan sonra onlar böyük əmlakla oradan çıxacaqlar."* (Yaradılış 15:13,14)

Sonrakı dərsdə, Allahın iradəsi ilə biz Allahın Musaya necə qeyri-adi yolla görünməsini və öncədən İbrahimə vəd etdiyi kimi, İsraillilәri kölәlikdən çıxartmaq üçün Misirə getməyə çağırdığını görəcəyik.

Dinlədiyiniz üçün çox sağ olun....

Allah sizə xeyir-dua versin. Məzmurlardan bu sözlərlə sizə hələlik deyirik:

***"Rəbbə şükür edin, ismini səsləyin; Əməllərini xalqlar arasında elan edin... Əbədi olaraq – min nəslə qədər əhdini, Əmr etdiyi sözü, İbrahimlə kəsdiyi əhdini, İshaqa and içərək verdiyi vədini unutmaz."*** (Məzmur 105:1,8,9)

30-cu Dərs

# Musa Allahla Görüşür!

**Çıxış 3,4**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Sonuncu dərsimizdə biz Misirin padşahı Fironun, İbrahimin nəsli İsraillilərı kölə etməklə, qəddarcasına işlətməklə onlara necə zülm verdiyini gördük. Amma biz həmçinin oxuduq ki, *" İsrail övladlarına əziyyət vermələrinə baxmayaraq, onlar çoxalıb artırdı."* (Çıxış 1:12) Sonda Firon əmr etdi ki, İsraillilər arasında doğulan hər bir oğlan uşağı ölmək üçün çaya atılsın.

Amma Şeytandan da güclü olan Allahın, Fironun elədiyi şər əməli devirmək planı var idi. Beləliklə biz Fironun qızının çayda olan səbətdə tapdığı İsrailli körpəni necə götürdüyünü oxuduq. Fironun qızının ona yazığı gəldi və adını **Musa** qoyaraq onu övladlığa götürdü. Musa İsrail xalqını məhv etməyə çalışan Fironun evində böyüdü! Öz müdrikliyində Allah, İsrail xalqını bu qəddar padşahın əlindən xilas etmək üçün Musadan istifadə etməyi nəzərdə tutmuşdur. Musanın 40 yaşı olanda, onu öldürmək istəyən Firondan qaçdı. Qırx il Musa, evləndiyi və qayınatasının sürüsünü otardığı səhralıqda yaşadı.

İndi isə gəlin Allahın onu Misir torpağından İsrail xalqını çıxartmaqdan ötrü Fironun yanına göndərmək üçün Özünü Musaya necə açdığına baxaq. Biz Tövratda, Çıxış kitabının 3-cü fəsilində oxuyuruq. Müqəddəs Yazılar deyir:

(Çıxış 3:1-15)
*Musa qayınatası Midyan kahini Yetronun sürüsünü otarırdı. Bir dəfə o, sürünü səhranın o biri tərəfinə aparıb Allahın dağı Xorevə gəldi. Birdən Rəbbin mələyi ona bir kol arasından od-alov içərisində göründü; od içində kolun sönmədən yanmasını görüb Musa öz-özünə dedi: «Gedim, bu qəribə mənzərəyə baxım, görüm nə üçün bu kol yanıb qurtarmır». Rəbb Musanın baxmağa gəldiyini görəndə Allah kolun ortasından onu çağırıb dedi: «Musa, Musa!» O da «mən buradayam» dedi. Allah dedi: «Buraya yaxınlaşma. Ayaqlarından çarıqlarını çıxart, çünki durduğun yer müqəddəs torpaqdır». Sonra dedi: «Mən atanın Allahı, İbrahimin Allahı, İshaqın Allahı və Yaqubun Allahıyam». Musa üzünü örtdü, çünki Allaha baxmağa qorxurdu. Rəbb dedi: «Həqiqətən, Mən Misirdə olan xalqımın əziyyətini gördüm, nəzarətçilərin əlindən etdikləri fəryadlarını eşitdim və dərdlərinə nəzər saldım. Mən ona görə gəldim ki, onları Misirlilərin əlindən qurtarıb bu ölkədən çıxarım və geniş, nemətli bir diyara, süd və bal axan torpağa – Kənanlıların, Xetlilərin, Emorluların, Perizlilərin, Xivlilərin və Yevusluların ölkəsinə aparım. İndi isə İsrail övladlarının fəryadı Mənə çatdı, Misirlilərin onlara etdikləri zülmü görürəm. Buna görə də get. Səni fironun yanına göndərirəm ki, xalqım İsrail övladlarını Misirdən çıxarasan».*
*Musa Allaha dedi: «Axı mən kiməm ki, fironun yanına gedib İsrail övladlarını Misirdən çıxarım?»*
*Allah dedi: «Mən səninləyəm. Mənim səni göndərdiyimə əlamət bu olacaq: sən xalqı Misirdən çıxaranda bu dağda Mənə ibadət edəcəksiniz». Musa Allaha dedi: «İsrail övladlarının yanına gedib "məni sizin yanınıza atalarınızın Allahı göndərib" deyəndə onlar məndən soruşa bilərlər: "Bəs Onun adı nədir?" Onda mən nə deyim?» Allah Musaya dedi: «Var Olan Mənəm». Sonra dedi: «İsrail övladlarına belə söylə: "‹Mənəm› deyən sizin*

*yanınıza məni göndərdi"». O, Musaya belə dedi: «İsrail övladlarına söylə: "Atalarınızın Allahı, İbrahimin Allahı, İshaqın Allahı və Yaqubun Allahı Rəbb məni sizin yanınıza göndərdi". Adım əbədi olaraq budur. Qoy Məni nəsildən-nəslə belə xatırlasınlar."*

Sina dağındakı yanan kolun içindən Allahın Musaya dediklərindən biz, **Allahın xarakteri haqda ən azı 4 şey** öyrənə bilərik.

1) Birinci, biz öyrənirik ki, Allah **müqəddəsdir!** Musa yanan kolun alovunu görəndə, heyrətləndi, araşdırmaq üçün yaxınlaşdı və Allahın onu çağırmasını eşitdi. Musa qorxudan əsirdi və baxmağa cəsarət edə bilmirdi. Nə üçün Musa qorxurdu? Çünki o, Müqəddəs olan Allahın hüzurunda durmuşdu! Allah Musaya bunları deməklə Öz müqəddəsliyini bəyan etdi*: "Buraya yaxınlaşma. Ayaqlarından çarıqlarını çıxart, çünki durduğun yer müqəddəs torpaqdır."*

Həqiqətən, Musaya alovda görünən Allah müqəddəsdur. Allah istəyir ki, hər bir kəs Onun müqəddəsliyini dərk etsin. Allahın hüzurunda duran mələklər haqqında isə, Müqəddəs Yazılar deyir*: **"Bu məxluqlar gecə-gündüz dayanmadan deyir: «Var Olmuş, Var Olan və Gəlməli Olan Külli-İxtiyar Rəbb Allah Müqəddəsdir, müqəddəsdir, müqəddəsdir!»*** (Vəhy 4:8) Mələklər Allahın müqəddəsliyini dərk edirlər. Bu günki dinləyici, sən Allahın müqəddəsliyini dərk edirsən?

Gəlin bir az bunun mənası haqqında fikirləşək. Əvvəlki dərslərimizdə gördüyümüz kimi, Allahın müqəddəsliyi Adəm və Həvva günah işlədəndən sonra onları Cənnət Bağından qovmağa səbəb oldu. Allahın müqəddəsliyi Qabilin qurbanını rədd etməyə səbəb oldu. Bu Allahın müqəddəsliyi idi ki, Nuhun günlərində insanları daşqınla silib aparsın. Sonrakı dövrdə Allah dünyanın dillərini qarışdırdı, Allaha qarşı çıxan Babil camaatını səpələdi. İbrahimin dövründə isə, Allahın müqəddəsliyi pis işlərdən həzz alan Sodom əhlisinin üzərinə göydən alov yağışı yağmasına səbəb oldu.

Təəssüf ki, bu günə kimi əksər insanlar Allahın müqəddəsliyinə hörmət etmirlər. Onlar Allahın kimliyini tanımırlar. Onlar Allahın hədsiz paklığını dərk etmirlər. Biz bunu insanların günahda yaşamalarında və bundan həzz almaqlarında görürük. Biz bunu insanlar öz dininə bir paltar kimi bürünərək, Allahın həqiqətini başa düşmək üçün Müqəddəs Yazıları araşdırmamalarında, Allahın müqəddəsliyinə kifayət qədər əhəmiyyət verməmələrində görürük. Çoxları vərdiş olaraq Allahın adını qeyri-səmimi söhbətlərdə istifadə edirlər. Onlar Allahın adından boş yerə istifadə edərək deyirlər "İnşallah" (Allah qoysa) amma əslində Allahın iradəsi onlardan çox uzaqdadır. Biz insanların Allahın müqəddəsliyini başa düşməkdə uğursuzluqlarını, Onun qarşısında yaratdığı salehlik yolunu rədd edərək, öz salehikləri ilə yaratmağı axtarmalarında görürük. Bəziləri fikirləşirlər ki, uzun oruclarla, təkrarlı dualarla ya yuyunma və paklanma mərasimləri ilə Allahın qarşısında özlərini pak edə bilərlər. Amma Peyğəmbərlərin Yazılarında biz aydın görürük ki, belə zahiri işlər, şəxsin daxildən pak olmasını tələb edən Müqəddəs Allahı razı salmır. Əziz dost, Allah müqəddəsdir! Buna görə də Allah Musaya dedi: *"Ayaqlarından çarıqlarını çıxart, çünki durduğun yer **müqəddəs torpaqdır**!"*

2) Sonra, yanan kolda Allahın Musaya dediklərinə əsasən, biz aşkar edirik ki, Allah yalnız Müqəddəs olan deyil, O, həmçinin Sadiq Olan, Əhdini Saxlayandır! Allahın Musaya birinci nə dediyini eşitdin? O dedi: *"Mən atanın Allahı, İbrahimin Allahı, İshaqın Allahı və Yaqubun Allahıyam."* (Çıxış 3:6) Bu sözlər Allaha yaxınlaşmaq istəyən və Onunla ünsiyyətdən zövq almaq istəyən hər bir kəsin qəlbinə sevinc gətirməlidir. Müqəddəs olan Allah İbrahim, İshaq və Yaqubla əhd bağlayandır. Allah Sadiqdir; O heç vaxt dostlarını tərk

etməyəcək və ya onlara xəyanət etməyəcək! Hətta yüz illərdən sonra O İbrahimə, İshaqa, Yaquba və onun nəslinə etdiyi vədi unutmamışdır.

Bəs sən necə? Sən Allahın sadiqliyini başa düşürsən? Sən İbrahimlə, İshaqla və Yaqubla danışan Allahla yaxın münasibəti dəyərləndirirsən? Bu, bu həyatda və gələcək həyada həqiqətən xoşbəxt olmaq istəyən hər bir kəs üçün mühüm sualdır. Biz soruşmuruq: "Sənin dinin var?" Çünki dini qaydalar heç vaxt, heç kimi Allah qarşısında saleh etməyəcəkdir. Bizim soruşduğumuz: Sənin Allahla düzgün münasibətlərin var? Sən Allahın yaratdığı xilas yolu haqda xəbərə inanmısan? Sən görürsən, Allahın Özü ilə **münasibət** və **dinə riayət etmək** tamam ilə fərqli şeylərdir?

Bu gün dünyada minlərlə və minlərlə dinlər var. Məsələn, ekspertlər deyirlər ki, təkcə Brzailiyada dörd mindən çox din və sektalar var! Dörd min din!?! Heyrətlidir! Dörd min dənə allah var? Yoxsa Allaha aparan dörd min dənə yol var? Xeyr! Müqəddəs Yazılar deyir: *"Bir Allah və Allahla insanlar arasında bir Vasitəçi vardır."* (1 Timoteyə 2:5) Onda, nə üçün dünyada minlərlə dinlər və müxtəlif sektalar var? Ona görə ki, Adəmin nəslinin əksəriyyəti Allahın İbrahimlə, İshaqla və Yaqubla qoyduğu həqiqət təməlini rədd etdilər. Onlar Allahın İbrahimə və onun nəslinə gələcək, Adəmin övladlarını cəzadan və günahın qüdrətindən qurtaran Vasitəçi haqda etdiyi vədə inanmırlar. Onlar heç vaxt dəyişməyən Allahın Sözünü bilmirlər. Onlar **Sadiq Olanı** tanımırlar!

3) Allah Musaya yanar kolda peyda olanda başqa xasiyyətini də aydın etdi. Bu mərhəmətdir. Allah yalnız Müqəddəs və Sadiq olan deyil, O həm də **Mərhəmətli Olandir**. Buna görə də Allah İsrail xalqı haqqında Musaya deyir:

*"Həqiqətən, Mən Misirdə olan xalqımın əziyyətini gördüm, nəzarətçilərin əlindən etdikləri fəryadlarını eşitdim və dərdlərinə nəzər saldım. Mən ona görə gəldim ki, onları Misirlilərin əlindən qurtarıb bu ölkədən çıxarım və geniş, nemətli bir diyara.... aparım."* (Çıxış 3:7,8)

Nə üçün Allah İsrail xalqını azad etməyi və onları yaxşı torpağa aparmağı planlaşdırdı? İsrallilər Allahın mərhəmətinə layiq idilər? Onlar digər millətlərdən daha yaxşı idilər? Xeyr! Onlar digərlərindən yaxşı deyildilər! Onda nə üçün Allah onları belə xilas etməyi və xeyir-dua etməyi məqsədində tutdu? Yalnız Öz sadiqliyinə və mərhəmətinə görə. Müqəddəs Yazılarda deyildiyi kimi*: "Allah onların iniltisini eşitdi; İbrahimlə, İshaqla və Yaqubla olan əhdini xatırladı. Allah İsrail övladlarının qul olduqlarını gördü və onlara nəzər saldı."* (Çıxış 2:24,25) Bəli, Allah **Mərhəmətlidir!**

4) Nəhayət, yanan kolda Allahın başqa bir tərəfini müşahidə edə bilərik. Biz eşitdik ki, Musa Allahdan Onun adı nədir deyə soruşdu. Əbədi Allahın təbiəti yalnız bir söz ilə təsvir edilə bilər? Çox böyük və müqəddəs, sadiq və mərhəmətli Allah; heç kimin görə bilmədiyi Allah; hər şeyi yaradan Allah, hər şeyi görən Allah, hər şeyi bilən Allah və hər şeyi edə bilən Allah --- **Onun adı nədir?** Bəziləri deyir ki, Onun adı sadəcə"*Allah"*dır. Həqiqətən, Allah Allahdır. Amma Allah Onun Adı deyil. Allah Onun Varlığıdır. Mən insanam amma İnsan mənim adın deyil. Hər birimizi tanıdan ismimiz var. **Allahın adı** nədir? Allah Musaya nə cavab verdi? Gəlin yenidən oxuyaq. Allah Musaya dedi:

***"Var Olan Mənəm***. *Sonra dedi: «İsrail övladlarına belə söylə: "‹Mənəm› deyən sizin yanınıza məni göndərdi"». O, Musaya belə dedi: «İsrail övladlarına söylə: "Atalarınızın Allahı, İbrahimin Allahı, İshaqın Allahı və Yaqubun Allahı* ***Rəbb*** *məni sizin yanınıza göndərdi".* ***Adım əbədi olaraq budur!"*** (Çıxış 3:14,15) (qeyd: İbrani dilində *"Yahve"* və Azərbaycan dilində *"Rəbb" Əbədi Olan* deməkdir)

Allahın əbədi təbiətini təsvir edən adı nədir? Onu eşitdin? O budur: **Rəbb! (Əbədi Olan)!** Müqəddəs Yazılar, peyğəmbərlər Allahı yüzlərlə və yüzlərlə ad və titullarla izah edirlər. Amma Rəbb adı isə, altı min beş yüz dəfədən çox istifadə edilib. Allah Rəbbdir, Əbədi "Var Olan", Var Olmuş, Var Olan və Əbədiyyən Var olacaq! O, Əbədi Olandır! Onun başlanğıcı yoxdur. Onun sonu yoxdur. Onun sərhədləri yoxdur. Onun tayı bərabəri yoxdur. O yeganə olandır ki, Öz qüdrəti vasitəsilə mövcuddur! Dünən və bu gün necə idisə, O əbədiyyən elə olacaqdır! O heç vaxt dəyişmir. Onun Adı Rəbbdir! (Əbədi Olan)

Dinləyən dost, sən Rəbbi tanıyırsan? Sən Onun **müqəddəsliyini** dərk edirsən? Sən Onun **sadiqliyində** sevinirsən? (münasibətlərdə, Onun əhdini saxlamaqda)? Sən Onun **mərhəmətini** qəbul etmisən? Sən Onun Sözünə inanırsan? Sən İbrahimin, İshaqın və Yaqubun Allahı ilə yaxın münasibətdəsən? Yanar koldan Musaya danışan Rəbbi tanıyırsan?

Dinlədiyiniz üçün çox sağ olun. Allahın iradəsi ilə, gələn dəfə Musanın hekayəsində davam edəcəyik ki, Allahın onu Misirin zalım padşahı Fironun yanına necə göndərdiyinə baxaq....

Allahın Musaya dediyi bu sözlər haqqında düşündükcə, Rəbb sizə xeyir-dua versin:

***"Var Olan Mənəm! ....Mən Rəbbəm! ..... Adım əbədi olaraq budur!"*** (Çıxış 3:14,15; 6:2)

**31-ci Dərs**

# Firon deyir: Rəbb Kimdir?

**Çıxış 4-7**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq!  O istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Biz **Allahın peyğəmbəri Musa və Misirdəki İsrail xalqı** haqqındakı hekayəni danışan Tövratın ikinci kitabında davam edirik. Keçən dərslərdə biz Misirin padşahı Fironun İsraillilәri təqib etdiyini, onları kölə etdiyini gördük.  Amma Allah Fironun etdiyi pisliyi devirməyi planlaşdırmışdır. Allah, İsrail xalqını Fironun əlindən xilas etmək üçün  İsrail övladlarının içindən olan adamı, Musanı istifadə etməyi nəzərdə tutmuşdur.

Biz öyrəndik ki, Musa Misirin bütün elmi biliklərində təhsil almışdır. Onun 40 yaşı olanda, xalqını xilas etmək üçün özü səy göstərdi. Amma Musanın cəhdi yalnız problemlər yaratdı ki, bu da onun Fironun əlindən qaçıb, səhralıqda gizlənməsinə məcbur etdi. Musa öyrənməli idi ki, özlüyündə o sadəcə adi bir adamdır və Allah ona verməsə özlüyündə İsrail xalqını xilas etmə qüdrətinə malik deyildir. Beləliklə, Musa qayınatasının sürüsünün qayğısına qalaraq 40 il səhralıqda yaşadı.

Bir gün, **Musanın 80 yaşı olanda, Allah Sina dağında yanar kolda ona peyda oldu.** Kol yanırdı amma yanıb qurtarmırdı. Musa bunu görəndə heyrətləndi. Aydınlaşdırmaq üçün yaxınlaşanda, o Allahın səsini eşitdi, *"Mən atanın Allahı, İbrahimin Allahı, İshaqın Allahı və Yaqubun Allahıyam»*. Musa qorxudan titrədi, çünki Allaha baxmağa cəsarət etmədi. Allah dedi*: "Ayaqlarından çarıqlarını çıxart, çünki durduğun yer müqəddəs torpaqdır." «Həqiqətən, Mən Misirdə olan xalqımın əziyyətini gördüm, nəzarətçilərin əlindən etdikləri fəryadlarını eşitdim və dərdlərinə nəzər saldım*. Buna görə də get. **Səni Fironun yanına göndərirəm ki, xalqım İsrail övladlarını Misirdən çıxarasan."**

İndi gəlin Tövratda davam edək və görək Allah Musa ilə söhbətini necə bitirdi və Misirin padşahının  yanına necə göndərdi. Üçüncü fəsildə, biz Allahın Musa ilə olmağını vəd etdiyini, ona müdriklik verəcəyini və Firon və Misir xalqı qarşısında ona səlahiyyət verəcəyini eşitdik. Amma biz 4-cü fəsildə görəcəyik ki, Musa getməyə qorxurdu.

Çıxış kitabı, 4-cü fəsildə Müqəddəs Yazılar deyir:

(Çıxış 4:1-5)
*Musa belə cavab verdi: «Bəlkə onlar mənə inanmayaraq sözümə qulaq asmayıb "Rəbb sənə görünməyib" deyəcəklər?» Rəbb Musaya dedi: «Sənin əlindəki nədir?» O dedi: «Əsa». Rəbb dedi: «Onu yerə at». Musa onu yerə atdı və əsa ilan oldu. Musa onun qabağından qaçdı. Rəbb Musaya dedi: «Əlini uzadıb onun quyruğundan tut». Musa əlini uzadıb tutanda o yenə əlində əsa oldu. Sonra Rəbb dedi: «Bu əlamət ona görədir ki, İsraillilər atalarının Allahı, İbrahimin Allahı, İshaqın Allahı və Yaqubun Allahı Rəbbin sənə göründüyünə inansınlar».*

(Çixış 4:10-17)
*Musa Rəbbə dedi: «Ya Xudavənd, mən nə keçmişdə, nə də qulunla danışdığın vaxt natiq olmamışam, çünki dili ağır, səlis danışmayan bir adamam». Rəbb ona dedi: «Ağzı insana kim verib? İnsanı lal, kar, kor yaxud gözlü edən kimdir? Bunu edən Mən Rəbb deyiləmmi?*

*İndi get, Mən ağzınla danışacağam və deyəcəyin sözü sənə öyrədəcəyəm». Musa dedi: «Ya Xudavənd, yalvarıram, başqa adamı göndər». Rəbb Musaya qəzəblənib dedi: «Qardaşın Levili Harun yoxdurmu? Bilirəm ki, onun yaxşı nitqi var. İndi o səni qarşılamağa gəlir. Səni görəndə ürəkdən sevinəcək. Qardaşınla danış, nə demək lazımdırsa, ona başa sal. Mən isə sənin və onun ağzı ilə danışacağam. Sizə nə etməyi öyrədəcəyəm. Sənin əvəzinə xalqla Harun danışacaq. O sənin üçün ağız kimi, sən isə onun üçün Allah kimi olacaqsan. Bu əsanı əlinə götür; onunla əlamətlər göstərəcəksən».*

(Çıxış 4:18-23)
*Musa oradan getdi və qayınatası Yetronun yanına qayıdıb dedi: «İzin ver qayıdıb Misirdəki xalqımın yanına gedim, görüm onlar sağ-salamatdırlar ya yox?» Yetro Musaya dedi: «Salamat get». Midyan torpağında Rəbb Musaya dedi: «Misirə qayıt, çünki sənin canını almaq istəyən adamların hamısı ölüb».Musa arvadını və oğullarını götürüb eşşəyə mindirdi və Allahın buyurduğu əsanı əlinə götürüb Misirə yollandı. Rəbb Musaya dedi: «Misirə qayıdanda sənə buyurduğum bütün möcüzələrə fikir ver və fironun hüzurunda onları göstər; ancaq Mən onun ürəyini inadkarlaşdıracağam və o, xalqı buraxmayacaq. Firona söyləyəcəksən: "Rəbb belə deyir: İsrail Mənim oğlum, Mənim ilkimdir. Sənə dedim ki, Mənə ibadət etmək üçün oğlumu burax!*

(Çıxış 4:27-31)
*Rəbb Haruna dedi: «Musanı qarşılamaq üçün səhraya get». Harun gedib Allahın dağında qardaşına rast gəldi və onunla öpüşdü. Musa Haruna Rəbb onu necə göndərdiyini bildirdi. Rəbbin bütün sözlərini və ona göstərmək üçün əmr etdiyi bütün əlamətləri barədə Haruna danışdı. **Musa və Harun gedib İsrail övladlarının bütün ağsaqqallarını topladılar**. Harun Rəbbin Musaya söylədiyi sözlərin hamısını onlara dedi və xalqın qarşısında əlamətlər göstərdi. Xalq bunlara inandı. **Onlar Rəbbin İsrail övladlarının əziyyətini görüb nəzər saldığını eşidəndə əyilib Ona səcdə etdilər.***

Beşinci fəsil. (Çıxış 5:1,2)
*Musa və Harun gəlib firona dedilər: «İsrailin Allahı Rəbb belə deyir: "**Xalqımı burax** ki, səhrada Mənim üçün bayram keçirsinlər!" Firon dedi: "Rəbb kimdir ki, Onun səsinə qulaq asıb İsrail övladlarını buraxım? **Rəbbi tanımıram, İsrail övladlarını da buraxmıram!"***

Gəlin bir az burada dayanaq. Biz Allahın Musanın və Harunun vasitəsi ilə Firona necə danışdığını gördük. Firon Allahın Sözünə inandı? Xeyr, inanmadı! Sən onun Musaya və Haruna necə cavab verdiyini eşitdin? O dedi, *"Rəbb **kimdir ki,** Onun səsinə qulaq asıb İsrail övladlarını buraxım? Rəbbi tanımıram, İsrail övladlarını da buraxmıram!"*

Firon Rəbbi tanımırdı. Firon və Misir xalqının **dini var idi** amma **onlar Allahı tanımırdılar.** Onlar yalnız öz ulubabalarının dininin ardınca getməklə maraqlanırdılar. Onlar yaşayan və həqiqi olan Allahı tanımaq ilə maraqlanmırdılar. Firon və Misirlilər öz inamlarını **Rəbbə və Onun Əbədi Sözünə** yox amma öz adətlərinə, öz bütlərinə, fetişlərinə və dini rəhbərlərinə qoyurdular.

Altıncı fəsildə biz oxuyuruq:

(Çıxış 6:1-8)
*Rəbb Musaya dedi: «İndi Mənim firona nə edəcəyimi görəcəksən: qüdrətli əllə məcbur olanda İsrail xalqını buraxacaq, qüdrətli əllə məcbur olub onları ölkəsindən qovacaq». Sonra Allah Musaya dedi: «Mən Rəbbəm.*

*Mən İbrahimə, İshaqa və Yaquba Külli-İxtiyar Allah adı ilə göründüm, ancaq Rəbb adı ilə Özümü onlara tanıtdırmadım. Onlarla da Mən əhd bağladım ki, qərib yaşadıqları ölkəni – Kənan torpağını onlara verim.*
*İndi də Misirlilərin əsarətdə saxladığı İsrail övladlarının iniltisini eşidib Öz əhdimi xatırladım.*
*Buna görə də İsrail övladlarına söylə: "Mən Rəbbəm. Sizi Misirlilərin zülmündən qurtaracağam, onların əsarətindən çıxaracağam və qolumu uzadıb böyük cəzalar bahasına sizi satın alacağam.*
*Sizi Özümə xalq edəcəyəm və sizin Allahınız olacağam. Onda biləcəksiniz ki, sizi Misirlilərin zülmündən qurtaran Allahınız Rəbb Mənəm. Mən İbrahimə, İshaqa və Yaquba and içərək verəcəyimi vəd etdiyim torpağa sizi aparıb, oranı sizə mülk olaraq verəcəyəm. Mən Rəbbəm."*

(Çıxış 7:4-7)
***Firon sizə qulaq asmasın.*** *Onda Mən əlimi Misir torpağına uzadıb böyük cəzalar göndərərək ordularımı – xalqım İsrail övladlarını onların arasından dəstələrlə çıxaracağam. Əlimi Misir torpağına uzadaraq İsrail övladlarını onların arasından çıxardığım vaxt Misirlilər biləcəklər ki,* ***Rəbb Mənəm!*** *» Rəbb Musa və Haruna necə əmr etmişdisə, onlar da elə etdilər. Fironla danışdıqları vaxt Musanın səksən, Harunun isə səksən üç yaşı var idi.*

Biz Allahın Fironu və Misir xalqını böyük cəzalarla mühakimə etməyi planlaşdırdığını görürük. Musanın əli ilə, Allahın göstərdiyi möcüzələr vasitəsi ilə Allah Öz izzətini və qüdrətini göstərmək istəyirdi.  O Misir xalqına və bütün dünyaya göstərəcəkdir ki, **İbrahimə, İshaqa, Yaquba və Musaya danışan Rəbb, canlı və həqiqi Allahdır!**

Biz artıq oxuduğumuz kimi, Allah Mərhəmətli Olandır və heç kimsənin həlak olmasını istəmir, amma O istəyir ki, hamı tövbə etsin,  həqiqəti bilsin və qəbul etsin. Rəbb istəyirdi ki, hamı **şübhəsiz bilsin** ki, Musa vasitəsilə danışan Allah, **yeqanə həqiqi Allahdır!**

Biz yadda saxlamalıyıq ki, Misirlilərin allah kimi qəbul etdikləri yüzlərlə bütlər var idi. Amma Allah istəyirdi ki, onlar vahid olan həqiqi Allahı tanısınlar. Onlar bilsinlər ki, **İbrahimlə, İshaqla və Yaqubla** Öz əhdini bağlayan tək həqiqi Allah onlar vasitəsilə peyğəmbərlərin, Müqəddəs Kəlamın və dünyanın Xilaskarının çıxacağı bir millət yaratmağı vəd edirdi.

Amma Firon həqiqi Allahı tanımaq istəmirdi. Buna görə də, Allah Öz peyğəmbərləri Musa və Harun vasitəsi ilə Fironla danışmaq istəyəndə, Firon onlara deyərək cavab verdi: *"**Rəbb kimdir** ki, Onun səsinə qulaq asıb İsrail övladlarını buraxım? Rəbbi tanımıram, İsrail övladlarını da buraxmıram."* (Çıxış 5:2)

Firon deyəndə ki, Rəbbi tanımıram, o həqiqəti söylədi! O, İbrahimlə, İshaqla və Yaqubla əbədi əhd bağlayan Allahı tanımırdı. Fironun **dini** var idi, amma Allahla **münasibəti** yox idi. Fironun ürəyi  tək və həqiqi Allahdan gələn həqiqətə qapalı idi. Beləliklə, o Allahın Musa və Harun vasitəsilə dediyi xəbəri rədd etdi.

Bu günə qədər, insanların əksəriyyəti Fironun yolu ilə gedirlər. Onlar Allah haqqında **danışırlar**, amma onlar Rəbbin **Sözünə** diqqət yetirmirlər. Nəticə etibarı ilə, **onlar Allahı tanımırlar.** Onlar Allah **haqqında** nə isə bilirlər, amma Allahın **Özünü** tanımırlar. Onlarda, ulubabalarından keçmə **din** var amma Musa vasitəsi ilə Özünü bəyan edən canlı Allah ilə həqiqi **münasibətləri** yoxdur.

Bəs sən necə? **Sən Rəbbi tanıyırsan?** Sən həqiqətən Onun peyğəmbərlər vasitəsi ilə dediklərinə inanırsan? Sən heç səmimi olaraq Allahın peyğəmbərlərinin Yazılarına baxmısan? Sən həqiqətən Rəbb Allahı tanıyırsan? Sən Onu bütün qəlbinlə sevirsən? Sən Ona itaət etmək istəyirsən? Yoxsa, sən də Firon kimi öz ulubabalarının dininin ardınca gedirsən?

Əziz dost, qoy heç birimiz Əbədi Allahın Sözünə qulaq asmağı və inanmağı rədd edən Firon kimi olmayaq! Allahın Sözündəki xəbərdarlığa qulaq as: ***"Ey qardaşlar, diqqətli olun ki, sizlərdən heç birinizdə var olan Allahdan uzaqlaşan şər və imansız ürək olmasın."*** (İbranilərə 3:12) Bu gün, əgər sən Onun səsini eşitsən, belə demə: *"Rəbb kimdir ki, mən Ona itaət edim?"* Firon kimi ürəyini qəddarlaşdırma.

Bizə qulaq asdığınız üçün çox sağ olun. Allahın iradəsi ilə gələn dərsimizdə biz bu gözəl hekayədə davam edəcəyik və onların Allahın Rəbb olduğunu bilməsi üçün Fironun və Misirlilərin üzərinə necə on bəla göndərdiyinə baxacağıq!...

Allahın Sözündəki bu xəbərdarlığa diqqət yetirdikcə, Rəbb sənə xeyir-dua versin:

***"Bu gün əgər Onun səsini eşitsəniz, qoy ürəkləriniz üsyan vaxtı olduğu kimi inadkar olmasın!"*** (İbranilərə 3:15)

32-ci Dərs

# Cəzalar

**Çıxış 7-10**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

**"Daş qayaya rast gəlib."** Bu atalar sözü Müqəddəs Yazılarda bu günkü oxuyacaqlarımızı yekunlaşdırır. Bu gün biz Misirin padşahı Fironun Rəbb Allaha qarşı çıxanda nə baş verdiyini görəcəyik. Musa peyğəmbəri Allah haqqında yazır*: "O, işləri kamil Qayadır, çünki bütün yolları haqdır, sadiq Allahdır, heç zaman haqsızlıq etməz, adil və doğru olan Odur."* (Qanunun Təkrarı 32:4)

Ötən dərsdə biz Allahın Musanı və Harunu İsrail övladlarını Misirdəki köləlikdən azad etmək üçün Fironun yanına göndərdiyini gördük. Onlar Firona dedilər: *"İsrailin Allahı Rəbb belə deyir: "Xalqımı burax ki, səhrada Mənim üçün bayram keçirsinlər!"»* Amma Firon onlara dedi*: "Rəbb kimdir ki, Onun səsinə qulaq asıb İsrail övladlarını buraxım? Rəbbi tanımıram, İsrail övladlarını da buraxmıram."* (Çıxış 5:2) Qısaca, Allah İsrail xalqını azad etməyi qərara almış, Firon isə onları kölələkdə saxlamağı. **"Daş qayaya rast gəlib."**

Gəlin indi Tövratın ikinci hissəsi, Çıxış kitabı 7-ci fəsilinə qayıdaq və Fironun Allahla necə "güləşməyə" cəhd göstərdiyinə baxaq. Müqəddəs Yazılar deyir:

(Çıxış 7:10-12)
*Musa və Harun fironun yanına gəlib Rəbb necə əmr etmişdisə, elə də etdilər. Harun öz əsasını fironun və onun əyanlarının qarşısında yerə atdı və əsa ilana döndü. Firon isə müdrik adamları və cadugərləri çağırdı. Misir sehrbazları da öz sehrləri ilə belə etdilər. Hər biri öz əsasını yerə atıb ilana döndərdi, ancaq Harunun əsası onların əsalarını uddu.*

**Firon və Allah** ilə "güləşmənin" başlanmasına diqqət yetir. **Bir tərəfdə biz Firon və onun müdrik adamları və sehrbazlarını görürük. Digər tərəfdə isə biz Musanı və Harunu görürük. Ha**runun əsası möcüzəli yolla ilana çevriləndən sonra, biz Fironun da sehrbazlarının öz cadugərlikləri ilə möcüzəni təqlid etdiyini gördük***. "Hər biri öz əsasını yerə atıb ilana döndərdi, ancaq Harunun əsası onların əsalarını uddu."***

Bütün bu şeylər haqqında biz nə görürük? Biz bilirik ki, Musanın və Harunun etdiyi möcüzələr **Allahdan** gəlirdi. Amma Fironun sehrbazları da möcüzələr etdilər. Onların gücü hardan gəlirdi? Onlar bu gücü Allahdan alırdılar? Xeyr! Allah Özünə qarşı vuruşmur. Beləliklə, güc hardan gəlirdi? Fironun sehrbazları yalanlara və Şeytandan gələn gücə bel bağlamışdılar.

Müqəddəs Yazılar bizə göstərir ki, Şeytan çox hiyləgərdir və insanları aldatmağı sevir; o həmçinin çox güclüdür və möcüzələr də edə bilər. Amma bu dəqiqdir ki, Allah Şeytandan daha güclüdür. Ona görə, Harunun əsası Fironun sehrbazının əsasını uddu. Amma bunların heç biri Fironun tövbə etməsinə və Allahın Sözünə qulaq asmasına səbəb olmadı.

Müqəddəs Yazıların nə dediyinə qulaq as:

(Çıxış 7:14-24)
*Rəbb Musaya dedi: «Fironun inadkar ürəyi var, xalqı buraxmaqdan boyun qaçırır.*
*Sən sabah səhər firon suya tərəf gedəndə qarşısına çıx. İlana dönən əsanı əlinə götürüb, onu Nil çayının sahilində gözlə.*
*Sonra firona de: "İbranilərin Allahı Rəbb məni yanına göndərdi ki, sənə deyim: ‹Xalqımı burax ki, səhrada Mənə ibadət etsin!› Ancaq sən indiyə qədər qulaq asmadın,*
*buna görə də Rəbb belə deyir: ‹Bundan biləcəksən ki, Rəbb Mənəm. Bax mən əlimdəki əsanı Nil çayının suyuna vuracağam, onda su qana dönəcək.*

*Çayda olan balıqlar öləcək və çay iylənəcək, Misirlilər çaydan su içməyə iyrənəcəklər›"».*
*Rəbb Musaya dedi: «Haruna belə söylə: "Əsanı götür və əlini bütün Misir çayları, arxları, gölləri, hovuzları üzərinə uzat". Onlar qana dönsün, bundan başqa bütün Misir torpağında həm taxta, həm də daş qablarda qan olacaq».*
*Rəbb Musa və Haruna necə əmr etmişdisə, onlar da elə etdilər: fironun və onun əyanlarının qarşısında Harun əsasını qaldırdı və çaydakı suya vurdu. Nil çayındakı bütün su qana döndü;*
*çaydakı balıqlar öldü və çay iyləndi. Misirlilər buradan su içə bilmədilər. Misir torpağı qan içində idi.*
*Amma Misir sehrbazları da öz sehrləri ilə belə etdilər. Rəbbin söylədiyi kimi fironun ürəyi inadkar oldu və onlara qulaq asmadı.*
*Firon qayıdıb öz sarayına gəldi; bu işi də ürəyinə salmadı.*
*Bütün Misirlilər Nil çayı sahilində yer qazmağa başladılar ki, içməli su tapsınlar. Çünki çayın suyundan içə bilmirdilər.*

(Çıxış 7:25; 8:1-3)
*Rəbb çaya bəla göndərəndən sonra yeddi gün keçdi. Rəbb Musaya dedi: «Fironun yanına gedib ona söylə: "Rəbb belə deyir: xalqımı burax ki, Mənə ibadət etsin! Əgər sən xalqımı buraxmaq istəməsən, mən sənin bütün torpağını qurbağalarla doldurub bəlaya salacağam. Çay qurbağalarla qaynaşacaq və oradan çıxıb sənin sarayında, yataq otağında, yatağının üstündə gəzəcəklər, əyanlarının, xalqının evlərinə, təndirlərinə və xəmir tabaqlarına girəcəklər.*

Buna baxmayaraq, Firon Musadan olan xəbərdarlıqlara qulaq asmadı.

**(Çıxış 8:5-19)** *Rəbb Musaya dedi: «Haruna belə söylə: əsanı götür və əlini çayların, arxların və göllərin üzərinə uzat. Qoy Misir torpağı qurbağalarla dolsun». Harun əlini Misir suları üzərinə uzatdı və oradan qurbağalar çıxıb Misir torpağını bürüdü.*
*Sehrbazlar da öz sehrləri ilə belə etdilər və Misir torpağına qurbağalar yetirdilər. Firon Musanı və Harunu çağırıb dedi: «Rəbbə yalvarın ki, məndən və xalqımdan qurbağaları rədd etsin, onda Rəbbə qurban gətirmək üçün xalqı buraxaram». Musa firona dedi: «Söylə, nə vaxt sənin, əyanların və xalqın üçün dua edim ki, qurbağalar səndən və evlərindən yox olsun və yalnız çayda qalsınlar?» Firon dedi: «Sabah». Musa dedi: «Sən dediyin kimi olacaq. Bundan biləcəksən ki, Allahımız Rəbbə bənzəri yoxdur! Qurbağalar səndən, evlərindən, əyanlarından və xalqından rədd olacaq, yalnız çayda qalacaqlar». Musa və Harun fironun yanından çıxdılar. Musa Rəbbin fironun üzərinə göndərdiyi qurbağalara görə Ona yalvardı. Rəbb də Musanın sözünə əməl etdi. Evlərdə, həyətlərdə, tarlalarda olan qurbağalar öldü. Onları qalaq-qalaq yığdılar və torpaq iylənməyə başladı.*
*Ancaq firon vəziyyətin yüngülləşdiyini görəndə Rəbbin söylədiyi kimi ürəyində inad etdi və onlara qulaq asmadı.*

*Rəbb Musaya dedi: «Haruna belə söylə: "Əsanı uzadıb yerin tozuna vur ki, o bütün Misir ölkəsində mığmığalara dönsün"». Onlar belə də etdilər. Harun əlindəki əsanı uzadıb yerin tozuna vurdu və insanların da, heyvanların da üstünə mığmığalar qondu. Bütün Misir torpağında yerin tozu mığmığaya döndü. Sehrbazlar da öz sehrləri ilə mığmığalar gətirmək istədilər, ancaq bunu bacarmadılar. İnsanların da, heyvanların da üstünə mığmığalar qondu. Sehrbazlar firona dedilər: «Bunda Allahın əli var». Ancaq Rəbbin söylədiyi kimi fironun ürəyi inadkar oldu və o qulaq asmadı.*

Sən cadugərlər ilə, Fironun sehrbazları ilə nə baş verdiyini gördün? Biz artıq onların şeytandan aldıqları xüsusi gücə malik olduqlarını gördük. Buna görə də, onlar sehrbazlıqlar ilə Allahın gücünü təqlid edə bildilər və bir az suyu qana çevirdilər və bir neçə qurbağanın peyda olmasını düzəltdilər ( Guya ki, Misirlilərə sularında daha çox qan və yataqlarında daha çox qurbağa lazım idi!) Amma onların **güclərinin həddi var idi.** Fironun cadugərləri, Qüdrətli Allahın Misir torpağı üzərinə göndərdiyi cəzanı yox etməyə qadir deyildilər. Harun öz əsasını yerə vurandan sonra toz mığmığalara çevrildi, sehrbazlar öz sirrlərindən istifadə etməyə çalışdılar ki, tozu mığmığaya çevirsinlər amma edə bilmədilər. Beləliklə, onlar Firona dedilər, ***"Bunda Allahın əli var!"***

Sözsüz, sehrbazların gücündə hədd var idi. Əlbəttə, Şeytanın gücü var və insana xüsusi güc verə bilər, amma bu güc heç vaxt Allahın təyin etdiyi həddi keçə bilməz. Yalnız Allah Qüdrətli Olandır. Tək O hər şeyi edə bilər! Yalnız Onda heç bir həddlər yoxdur! Fironun sehrbazları Allahın həddsiz gücü haqqında öyrənməyə başlayırdılar, amma **Firon hələ də Allaha itaət etməyi rədd edirdi.** Firon öz ürəyini qəddarlaşdırmaqda davam edirdi və düşünürdü ki, İsrailin Allahı ilə güləşib, qalib gələ bilər!

Müqəddəs Yazılar bizə Allahın Musa və Harun vasitəsi ilə Firon və Misir torpağı üzərinə başqa yeddi bəlanı necə göndərdiyini deyir. Biz hər bir bəla haqqında oxumayacağıq, yalnız adların çəkəcəyik.

Dördüncü cəza, fəlakətə səbəb olan bütün torpağı bürüyən **milçək buludlarından** ibarət idi. Beşinci bəlada, bütün mal-qara üzərinə dəhşətli xəstəliklər gəldi və çoxu öldü. Amma İsrail övladlarının heyvanları arasında heç biri ölmədi. Buna baxmayaraq, Firon ürəyini qəddarlaşdırdı və İsrail xalqını buraxmadı. Sonra, adamlarda və heyvanlarda dəhşətli çibanlar çıxdı. Müqəddəs Yazılar deyir: *"Sehrbazlar da bu cəzaya görə Musanın qabağında dayana bilmədilər, çünki sehrbazların və bütün Misirlilərin bədənlərinə çibanlar çıxmışdı.* (Çıxış 9:11) Yeddinci bəla , Misirdə heç vaxt görünməyən güclü leysanlar idi ki, bütün tarlaları viranə etdi. Bu bitəndən sonra torpaq, leysandan sonra qalan nə var idisə onları yeyən çəyirtkələrlə doldu. Bu səkkizinci bəla idi.

Doqquzuncu cəza vaxtı gələndə Allah Musaya dedi, *"Əlini göyə tərəf uzat ki, Misir torpağında zülmət, qatı* ***qaranlıq*** *olsun."* (Çıxış 10:21) Beləliklə, üç gün heç kim heç nə görə bilmədi. Amma İsraillilərin yaşadığı ərazidə işıq var idi. Heç bir bəla onlara toxunmamışdır. Amma bunların heç biri Fironun tövbə etməsinə və İsrail xalqının getməsinə icazə verməyə səbəb olmadı. Müqəddəs Yazılar deyir: *"Sonra firon Musaya dedi: «Rədd ol, özünü gözlə və bir də mənim gözümə görünmə. Yenə də gözümə görünsən, öləcəksən."* (Çıxış 10:28)

Allahın Firon və Misirlilər üzərinə göndərdiyi **daha bir bəla** da var amma onun haqqında biz gələn dərsimizdə danışacağıq.

Bu günki dərsimizi biz necə yekunlaşdıra bilərik? Bəlkə belə: Firon Rəbb Allahla vuruşmağa çalışdı. Firon və onun cadugərləri Qüdrətli Allaha qalib gələ bildilər? Onlar Allahın gücünə üstün gəldilər? Xeyr! Heç kim Allah ilə vuruşub Ona qalib gələ bilməz! **"Daş qayaya rast gəlib."**

Allah bu gün eşitdiklərimiz vasitəsi ilə bizə nə demək istəyir? Müqəddəs Yazılar deyir: *"Bu hadisələr ibrət dərsi olub onların başına gəldi və bu dövrün sonuna çatan bizim üçün öyüd-nəsihət kimi yazılıb."* (1 Korinflilərə 10:11) Allah bizə xəbərdarlıq edir. Allah istəyir ki, biz özümüzə baxaq və Onun xəbərdarlıqlarına diqqət yetirək.

Bu günki dinləyici, **sən Allahın Sözünə diqqət yetirirsən?** Ona itaət edirsən? Yoxsa, sən də Firon kimi Allahla vuruşursan? Qoy sənin öz ürəyin cavab versin. Sən Allahın Sözünə tabe olursan? Bu o demək deyil ki, sən öz ulubabalarının adət-ənənələrinə və dininə tabesən – lakin sən Rəbb Allahın Sözünü həlimliklə qəbul etmisən?

Müqəddəs Yazılar deyir ki: *"Bütün bəşər ota bənzər, onun bütün gözəlliyi çöl çiçəyi kimidir. Ot quruyar, çiçək tökülər,amma Rəbbin sözü əbədi qalar!"* (1 Peter 1:24,25) Əbədi Allahın Sözü möhkəm qayadır və öz həyatını Onun üzərində tikən hər bir kəs, öz həyatını möhkəm təməldə yerləşdiribdir. Amma əgər sən öz həyatını o qaya üzərində qurmaq istəməsən, bir gün Allahın Sözünün Qayası sənin üzərinə düşəcək və səni əzəcək. "**Daş qayaya rast gəlib.**"Heç bir insan Allahın əbədi Sözü ilə mübarizə apara bilməz və cəzadan da qaça bilməz.

Dinlədiyiniz üçün çox sağ olun. Allahın iradəsi ilə gələn dərsimizdə, Fironun İsrail övladlarını Misir torpağından çıxmasına səbəb olan Allahın etdiyi işi görəcəyik.....

Musa peyğbərin Tövratda yazdığı haqqda düşündükcə, Allah sizə xeyir-dua versin:

***"O, işləri kamil Qayadır, çünki bütün yolları haqdır, sadiq Allahdır, heç zaman haqsızlıq etməz, adil və doğru olan Odur."*** (Qanunun Təkrarı 32:4)

33-cü Dərs

# Pasxa Quzusu

**Çıxış 11,12**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə, biz Fironun Allaha qarşı necə vuruşmağa çalışdığını gördük. Rəbb Misirdə köləlikdə olan İsrail xalqını qurtarmağı nəzərdə tutmuşdur, amma Firon onları köləlikdə saxlamaq fikrində idi. Lakin **"Daş qayaya rast gəlib."** Biz Allahın Misir üzərinə Musa və Harunun sözləri vasitəsil ilə necə doqquz dəhşətli bəla gətirdiyini gördük. Amma hələ də bütün bu möcüzələr və əlamətlər Fironun Allahın Sözünə tabe olmasına və İsrailliləri öz ölkəsindən buraxmasına səbəb olmadı.

Biz indi hekayəni davam etdiririk və Firon İsrail xalqını Misirdən buraxması üçün Allahın Firon üzərinə **son, onuncu cəzanı** necə göndərdiyini görəcəyik. Ötən dərsimizdə doqquzuncu cəzadan sonra Firon Musaya və Haruna dedi: *"Rədd ol, özünü gözlə və bir də mənim gözümə görünmə. Yenə də gözümə görünsən, öləcəksən."* (Çıxış 10:18) İndi isə gəlin 11-ci fəsli oxuyaq və Allahın Musa vasitəsi ilə Firona necə cavab verdiyinə baxaq.

Müqəddəs Yazılar deyir:

(Çıxış 11:4-8)
*Musa dedi: «Rəbb belə deyir: "Gecə yarısı Mən Misirin ortasından keçəcəyəm; Misir torpağında taxtda oturan fironun oğlundan tutmuş dəyirman arxasında olan kəniz oğluna qədər hamının ilk oğlu öləcək. Hətta bütün heyvanların da ilk balaları öləcək. Bütün Misir torpağında elə böyük fəryad qopacaq ki, indiyədək beləsi olmamışdır və bundan sonra da olmayacaq. Lakin bütün İsraillilərin arasında nə insanların, nə də heyvanların üstünə heç it də hürməyəcək. Bundan biləcəksiniz ki, Rəbb İsrail övladları ilə Misirlilər arasında fərq qoymuşdur". Sonra bütün bu qulların yanıma gələcək və mənə təzim edib deyəcəklər: "Sən və ardınca gələn bütün xalq buradan çıxın!" Bundan sonra mən çıxacağam». Sonra Musa qızğın qəzəblə fironun yanından çıxdı.*

Allah Misir torpağı üzərinə artıq baş vermiş cəzalardan da daha pis bəla gətirməyi planlaşdırdı. O, Misirdə doğulacaq hər ilk övladın məhvini elan etdi. Necə də dəhşətli cəza! Bəs İsraillilərin ilk doğulanlarına nə olacaqdır? Onlar da Misirlilərinki ilə məhv olacaqlar? Əlbəttə ki, onlar Allahın məhkəməsindən qaçmağa layiq deyildilər. Çünki onlar da Misirlilər kimi günahlı idilər. Amma sadiq və mərhəmətli Allah Öz xalqını bəladan qorumağı planlaşdırmışdır.

Gəlin 12-ci fəsildə davam edək və İsraillilərin ilk övladlarının məhv olmaması üçün Allahın Musaya verdiyi göstərişlərə baxaq. Müqəddəs Yazılar deyir:

(Çıxış 12:1-13,46)
*Misir torpağında Rəbb Musaya və Haruna dedi... Bütün İsrail icmasına söyləyin: qoy bu ayın onuncu günündə hər kəs öz ailəsi üçün bir quzu, hər ev üçün bir quzu götürsün....*

*Özünüzə birillik qüsursuz erkək heyvan götürün: ya qoyunlardan bir toğlu yaxud keçilərdən bir çəpiş olsun. Onu ayın on dördüncü gününə qədər saxlayın. Qoy axşamçağı bütün İsrail icmasının camaatı onu kəssin. Qurbanın qanından götürüb onu yeyəcəkləri evin qapısının hər iki yan taxtasına və üst dirəyinə sürtsünlər.*
*Qoy həmin gecə onun ətini yesinlər; əti odda bişirib mayasız çörək və acı göyərti ilə yesinlər. Onu çiy yaxud suda qaynadılmış halda yox, başı, ayaqları və içalatı ilə birgə odda bişirilmiş halda yeyin....*
*Onu belə yeyin: beliniz qurşanmış, çarıqlarınız ayağınızda və dəyənəyiniz əlinizdə olsun, onu tələsik yeyin. Bu, Rəbbin Pasxasıdır. Mən isə o gecə Misir torpağından keçəcəyəm. Misir torpağında olan həm insanların bütün ilk oğullarını, həm də heyvanların bütün ilk balalarını öldürəcəyəm. Bütün Misir allahlarına da cəza verəcəyəm. Rəbb Mənəm. Sizin olduğunuz evlər üzərindəki qan sizin üçün əlamət olacaq. Qanı görəndə yan keçəcəyəm və Misir ölkəsini cəzalandırdığım zaman sizə məhvedici bəla gəlməyəcək.*
*Qoy bu yemək bir evdə yeyilsin, əti evdən bayıra çıxarılmasın və onun bir sümüyü də qırılmasın."*

Gəlin burada dayanaq. Sən Allahın İsraillilərin ilk doğulan oğlan uşaqlarının ölümdən xilas olmasını və İsrail xalqını Misirdəki köləliyin əsarətindən qurtarmağı qərara aldığını görürsən? Bu heyrətamiz plandır; o plan ki, insan düşüncəsinə görə son dərəcə gülünc idi. O, İsrailliləri **quzunun qanı**, qüsursuz quzunun qanını ev qapılarının çərçivəsinə sürtmə yolu ilə onları qurtarmağı məqsədində tutmuşdur. Yalnız quzunun qanı ilk doğulan uşaqları ölümdən xilas edə bilərdi.

Allah Musa və Haruna danışıb qurtarandan sonra, onlar İsrailin bütün ağsaqqallarını topladılar və Allahın quzu qurbanı haqqında dediklərini onlara çatdırdılar. Ağsaqqallar ilk doğulanların ölüm bəlası haqqında Rəbbin xilas etməsi planını eşidəndə, onlar özlərini yerə yıxdılar və Rəbbə səcdə qıldılar. Bundan sonra, ağsaqqallar və İsrailin bütün xalqı Allahın Musaya dediyini dəqiq etdilər.

Müqəddəs Yazılar deyir:

(Çıxış 12: 29,30)
***Gecəyarısı*** *Rəbb* ***Misir torpağında olan bütün ilk oğulları öldürdü****; taxtda oturan fironun ilk oğlundan tutmuş zindanda olan əsirin ilk oğluna qədər hər ilk oğul, heyvanların hər ilk balası da öldü. O gecə firon, onun əyanları və bütün Misirlilər qalxdılar. Misirdən böyük bir fəryad qopdu****, çünki elə bir ev yox idi ki, orada ölən olmasın.***

Sən eşitdin o dəhşətli gecədə nə baş verdi? Allah dediyi kimi, Misir torpağını mühakimə etdi? Bəli, etdi! Gecəyarısı, Misir torpağı üzərinə padşah Firondan tutmuş, həbsdə olanın bütün ilk doğulan övladları üzərinə ölüm mələkləri gəldi. O gecə, bütün Misirdə dəhşətli ağlaşma və çığırtı əks-səda etdi. Çünki elə bir Misirli evi yox idi ki, orada kimsə ölməsin!

Bəs İsraillilərin evində nə baş verdi? Allah onların ilk doğulanlarını ölüm bəlasından xilas etdi? Sən nə fikirləşirsən? Allah onlara, ***"Qanı görəndə yan keçəcəyəm"*** *deyə vəd etmişdir.* İsrail xalqı, Allahın dediyi kimi evlərinin qapılarına quzunun qanını sürtmüşdülər. Nəticə etibarı ilə, ilk doğulanlar arasında heç bir **ölüm olmadı.** Amma Misirlilərin evində, **hər bir ilk doğulan** öldü, çünki onlar Allahın qurtuluş yolunda, quzunun qanı yolunda iştirak etmədilər.

Müqəddəs Yazılar deyir:

(Çıxış 12: 31,32,33)
***Firon*** *gecə Musanı və Harunu çağırıb dedi: «Çıxın gedin!* ***Həm özünüz, həm də bütün İsraillilər xalqımın arasından çıxın gedin****, istədiyiniz kimi Rəbbə ibadət edin.... mənə də xeyir-dua verin!* ***Misirlilər xalqı ölkədən tələsik qovdular****. Onlar deyirdilər: «Yoxsa hamımız öləcəyik."*

Nəhayət, Fironun təslim olmaqdan və İsrailliləri buraxmaqdan başqa heç bir yolu yox idi. Biz artıq Fironun Musa və Haruna ilk olaraq nə dediyini gördük: "***Rəbbi tanımıram, İsrail övladlarını da buraxmıram!"*** Amma sonda, Firon və bütün Misirlilər İbrahimin, İshaqın və İsrailin Allahının onların bütlərindən, fetişlərindən və cadugərlərindən daha Qüdrətli Allah olduğu ilə razılaşmalı oldular! **"Daş qayaya rast gəlib."** Heç kim Allahla vuruşub, Ona qalib gələ bilməz!

O gecə, İsraillilər Misirdən Misirlilərin onlara verdikləri sərvət ilə çıxdılar. Müqəddəs Yazılar deyir:

(Çıxış 12:35,36,40)
*İsrail övladları Musanın sözünə əməl etdilər. Misirlilərdən qızıl-gümüş əşyalar və paltar istədilər. Rəbb xalqa Misirlilərin gözündə lütf qazandırdı və onlara istədiklərini verdilər. Beləcə onlar Misirliləri soydular... İsrail övladlarının Misirdə yaşadığı müddət dörd yüz otuz il olmuşdu.*

Bunların hamısı yüz illər əvvəl Allahın İbrahimə etdiyi vədi yerinə yetirmək üçün baş verdi:

*"Yəqin bil ki, nəslin yad ölkədə qərib olacaq, orada olan millətə kölələik edəcək və onlara dörd yüz il zülm ediləcək. Ancaq onların kölələik edəcəkləri xalqı Özüm cəzalandıracağam.* ***Bundan sonra onlar böyük əmlakla oradan çıxacaqlar."*** (Yaradılış 15:13,14)

Bu gün gördüyümüz hekayə xəzinə ilə dolu olan dərin və geniş *Pasxa* kimi tanınır. Pasxa hekayəsi haqqında deyiləsi o qədər şey var ki. Açıqcası, hekayədə olan bütün həqiqətləri başa salmağa kifayət qədər vaxtımız yoxdur. Amma bir mühüm həqiqət var ki, onu yadımızda saxlamalıyıq. Bu Allahın İsraillilərə vədidir: ***"Qanı görəndə yan keçəcəyəm!"***

Nə üçün İsraillilərin ilk doğulan uşaqları Misirlilərin doğulanları ilə bir yerdə ölmədilər? Onlar ölmədilər çünki Allah **quzunun qanı ilə onlara xilas yolu açdı.** Allah dedi ki, hər bir evin qapısında quzunun qanı olsa, ilk doğulanlar ölümdən yan keçəcəklər. Amma qan olmayan hər bir evdə, ilk doğulan ölü tapılacaqdır!

Əgər İsraillilərin gənclərindən biri atasına belə bir sual versəydi, "Ata, nə üçün bizim nöqsansız quzumuz ölməlidir? Atası ona belə bir cavab verərdi, "Oğlum, bildiyin kimi Allah ölkədə bütün ilk doğulanları məhkum edib. Günahlarımıza görə biz Allahın məhkəməsinə layiqik. Amma Öz mərhəmətində Allah, bizə dedi ki, əgər biz nöqsansız quzu kəssək və qanını qapılarımıza sürtsək, bəla bizdən yan keçəcəkdir. Günahın əvəzi ölümdür. Ona görə də quzu ölməlidir. Allah salehdir və bizim günahlarımıza göz yuma bilməz. Quzu səni əvəz edəcək. Biz onu, ulubabamız İbrahim öz oğlunun yerinə qoçu qurban verdiyi kimi, biz də sənin yerinə qurban edəcəyik. Allahımız salehdir və günaha səthi baxmır! Onun bizə olan Sözü aydındır. Əgər evimizin qapılarının çərçivələrində qan görsə, onda bizim evimizdən yan keçəcək!"

Əziz dost, biz başa düşməliyik ki, Adəmin bütün nəsli Allah qarşısında Misir və İsrail övladlarının ilk övladları kimidir. Allahın müqəddəs qanunu hər birimizi ölməyə və Allahın ədalətli məhkəməsi ilə üzləşməyə məhkum edir. Buna görə də Müqəddəs Yazılar deyir*:*

*"Heç kəsə fərq qoyulmur. Çünki hamı günah edib, Allahın izzətindən məhrum olub."* (Romalılara 3:22,23) Günahın əvəzi əbədi mühakimədir, *"Onlara Rəbbin hüzurundan və qüdrətinin izzətindən məhrum qalıb əbədi olaraq məhv edilmə cəzası veriləcək."* (2 Saloniklilərə 1:9)

Onda, xilas olmaq üçün biz nə etməliyik? Allah, Öz salehliyi ilə güzəştə getməyərək günahlı insanları öz günahlarının cəzasından necə xilas edə bilər? Biz bilməliyik ki, İsraillilərin ölüm bəlasından qurtulmaq üçün qurban etdikləri quzu, Adəmin nəslinin günahının borcunu ödəmək üçün gələcək olan Qurtarıcının rəmzi idi. Qurtarıcı haqqında isə, Müqəddəs Yazılar deyir: *"Məsih də saleh olmayanlar uğrunda, onların günahları üçün bir dəfə əzab çəkdi ki, sizi Allahın hüzuruna gətirsin... bizim Pasxa quzumuz olan Məsih qurban verildi.* (1 Peter 3:18, 1 Korinflilərə 5:7) Beləliklə, İsraillilər ilk övladlarını xilas etmək üçün qapıya sürtdükləri quzunun qanı, illüstrasiya idi.

Sən necə? Sən Allahın peyğəmbərlərinin Qurtarıcının qanı haqqında yazdıqlarını bilirsən? Qurtarıcı qanını tökdü ki, Allahın Özü Öz salehliyi ilə güzəştə getməyərək sənin günahlarını bağışlaya bilsin. Sən cəhənnəmin hakimiyyətindən xilas edən və əbədiyyən Allahın hüzurunda yerini təmin edən qanın gücü haqqında yazılanlara inanırsan? Mühakimə günü, Allahın ədalətli məhkəməsi səndən yan keçəcək? Yoxsa o, Misirlilərin üzərinə düşdüyü kimi, sənin də üzərinə düşəcək?

Dostlar, bizi dinlədiyiniz üçün çox sağ olun. Allahın iradəsi ilə gələn proqramda biz İsraillilərin hekayəsində davam edəcəyik və Allahın dənizdən yolu necə açdığını görəcəyik...

Qoy Allah sizə xeyir-dua versin və Allahın İsraillilərə dediyi bu sözlərin dərin mənasını sizə açsın:

***"Qanı görəndə yan keçəcəyəm!"*** (Çıxış 12:13)

**34-cü Dərs**

# Dənizin Ortasında Yol

**Çıxış 13-15**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək , Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz Allahın İsrail xalqını Misirlilərin ilk doğulanlarını məhv eləmək yolu ilə köləlikdən qurtardığını gördük. Amma O, İsraillilərin ilk doğulanlarını qapılarına sürtdükləri quzunun qanına görə xilas etdi. Çünki Allahın Özü demişdir*: "Sizin olduğunuz evlər üzərindəki qan sizin üçün əlamət olacaq.* ***Qanı görəndə yan keçəcəyəm*** *və Misir ölkəsini cəzalandırdığım zaman sizə məhvedici bəla gəlməyəcək."* (Çıxış 12:13)

Həmin gecə bütün İsrail qəbiləsi Misirdən çıxdı. O Pasxa gecəsi onlar üçün böyük sevinc idi. Bu haqda düşün! Yüz illərlə Misirlilər onlarla pis rəftar etmişlər və o dərəcədə ağır işlərlə onları yükləmişdilər ki, həyatlarında heç bir xoşbəxtlik qalmamışdır. Amma indi.... indi onlar **azad** idilər! Pasxa gecəsi, Rəbb Allah onları qurtardı! Onların köləlik zəncirləri qırılmışdır! İndi Allah onları səhralıqdan keçirməyi, uzun illər əvvəl and içdiyi Kənan torpağına geri aparmağı vəd etdi. Kənan, Yaqub və onun oğullarının Misirə, Yusif ilə yaşamağa getməzdən əvvəl yaşadıqları torpaq idi.

Bu gün bizim **Allahın İsrail xalqını Fironun ordusundan necə qurtardığı** haqqında möcüzəli hekayəmiz var. Oxuduqlarımızın əksəriyyəti Çıxış kitabındadır. Musa peyğəmbərin Tövratda yazdıqlarına qulaq asın:

(Çıxış 12:37-38)
*İsrail övladları Ramsesdən Sukkota yola düşdülər. Arvad-uşaqdan əlavə, altı yüz minə qədər piyada gedən kişi var idi. Qarışıq bir izdiham, çoxlu qoyun-keçi, mal-qara sürüləri də onlarla birgə yollandı.*

(Çıxış 13:19, 21, 22)
*Musa* ***Yusifin sümüklərini*** *özü ilə apardı, çünki Yusif İsrail övladlarına «Allah mütləq sizə nəzər salacaq. Gedən zaman özünüzlə sümüklərimi də buradan çıxarın» deyərək and içdirmişdi." ..... Rəbb onların qabağı ilə gündüz onlara yol göstərmək üçün* ***bulud dirəyində****, gecə isə onlara işıq vermək üçün* ***od dirəyində*** *gedirdi ki, gündüz də, gecə də gedə bilsinlər. Gündüzlər bulud dirəyi, gecələr isə od dirəyi xalqın önündən ayrılmadı.*

(Çıxış 14:1-7, 9-12)
*Rəbb Musaya dedi****:*** *«İsrail övladlarına belə söylə: "Dönüb Pi-Haxirot qabağında düşərgə salın. Miqdol ilə dənizin arasında, Baal-Sefon qarşısında dənizin sahilində düşərgəniz olsun". Firon düşünəcək ki, İsrail övladları torpaqda dolaşır, səhra onların yolunu kəsmişdir. Mən isə fironu inadkar edəcəyəm ki, o sizi təqib etsin.* ***Sonra firon və onun ordusunu məğlub edib izzətimi göstərəcəyəm****. Bütün Misirlilər biləcəklər ki, Rəbb Mənəm». İsraillilər belə də elədilər. Misir padşahına İsrail xalqının qaçdığını xəbər verəndə* ***firon və məmurlarının fikri dəyişdi.*** *Onlar dedilər: «Biz nə üçün belə etdik? İsrail övladları bizim qullarımız idi. Axı niyə onları buraxdıq?» Firon döyüş arabalarını*

*hazırlayıb adamlarını özü ilə götürdü. O, altı yüz seçmə döyüş arabasını və Misirin bütün arabalarını götürdü. Hər arabanın öz zabiti var idi.*

***Misirlilər, fironun bütün araba atları, süvariləri və ordusu onları təqib edib** Pi-Haxirot yanında, Baal-Sefon qarşısında dənizin sahilində qurduqları düşərgəyə çatdılar. Firon yaxınlaşanda İsrail övladları baxıb gördülər ki, Misirlilər onlara doğru gəlirlər. Buna görə də İsrail övladları **çox qorxdu** və Rəbbə fəryad etdilər.*
*Onlar Musaya dedilər: «Məgər Misirdə qəbiristanlıq yoxdur ki, sən bizi səhrada ölməyə apardın? Bizi Misirdən çıxarıb başımıza nə gətirdin? Misirdə sənə "Bizdən əl çək, Misirlilərə qulluq edək!" demirdikmi? Səhrada ölməkdən Misirlilərə qulluq etmək bizim üçün yaxşıdır».*

İsrail xalqı nə deyirdi? Nə üçün onlar Allaha etibar etmirdilər? Onları köləliyin əsarətindən xilas edən Allah, Fironun ordusundan da xilas edə bilməzdi? Əlbəttə ki, edə bilərdi! Amma İsraillilər bu haqda düşünmürdülər. Çünki çox qorxmuşdular. Onların qarşısında **dəniz** var idi. Sağ və sol tərəflərində isə **dağlar**. Arxalarında isə, Fironun **ordusu** onların ardınca gəlirdi ki, onları yenidən tutsun və hətta öldürsün! Onlar nə etməliydilər? Onlar necə xilas ola bilərdilər? Gəlin Musanın nə dediyinə və Allahın nə etdiyinə baxaq.

(Çıxış 14: 13-31)
*Musa isə xalqa belə dedi: «Qorxmayın! Durun, Rəbbin bu gün sizi necə xilas edəcəyinə baxın. İndi gördüyünüz Misirliləri daha heç vaxt görməyəcəksiniz. Sakit olun, Rəbb sizin üçün döyüşəcək!» Rəbb Musaya dedi: «Nə üçün Mənə fəryad edirsən? İsrail övladlarına de ki, yola düşsünlər. Sən isə əsanı qaldırıb, əlini dənizin üzərinə uzat, sularını yar ki, İsrail övladları dənizin ortasında quru yerdən keçsinlər. Mən Misirlilərin ürəklərini inadkar edəcəyəm ki, sizi təqib etsinlər. Sonra fironu, onun bütün ordusunu, döyüş arabalarını və süvarilərini məğlub edib izzətimi göstərəcəyəm. Fironu, döyüş arabalarını və süvarilərini məğlub edib izzətimi göstərdiyim zaman Misirlilər biləcəklər ki, Rəbb Mənəm». İsrail düşərgəsinin önündə gedən Allahın mələyi onların arxasına keçdi. Bulud dirəyi önlərindən arxalarına keçib, Misir ordusunun və İsrail düşərgəsinin arasında durdu. Bulud bir tərəfə zülmət verdi, o birisinə isə gecə işığı verdi. Bütün gecə bu xalqlar bir-birinə yaxınlaşmadılar. Musa əlini dəniz üzərinə uzatdı. Rəbb bütün gecə əsən qüvvətli şərq küləyi ilə dənizin suyunu qovub yerini quruya çevirdi. Sular yarıldı və İsrail övladları dənizin ortasında quru yerdən keçdilər. Sular onlar üçün sağ və sol tərəfdən divar oldu. Misirlilər onları təqib etdilər; fironun atları, döyüş arabaları və süvariləri İsrail övladlarının ardınca dənizin ortasına girdilər. Dan yeri söküləndə Rəbb od və bulud dirəyindən Misir ordusuna baxıb onların arasına qarışıqlıq saldı. O, arabaların çarxlarını elə ləngitdi ki, arabalar güclə hərəkət etdi. Misirlilər dedilər: «Gəlin İsrail övladlarından qaçaq, çünki Rəbb onların tərəfində bizə qarşı döyüşür». Rəbb Musaya belə dedi: «Əlini dənizin üzərinə uzat ki, sular Misirlilərin, döyüş arabalarının və süvarilərin üzərinə qayıtsın». Musa əlini dənizin üzərinə uzatdı. Səhərə yaxın dəniz adi hala qayıtdı. Misirlilər sulardan qaçmaq istəyəndə Rəbb onları itələyib dənizin ortasına atdı.*
*Yerinə qayıdan sular döyüş arabalarını, süvariləri, İsrail övladlarının ardınca dənizə gedən fironun bütün ordusunu örtüb uddu. Onlardan bir nəfər də olsun sağ qalmadı. İsrail övladları isə dənizin ortasında quru yerdən keçib getmişdilər. Sular onlar üçün sağ və sol tərəfdə divar olmuşdu. Məhz o gün Rəbb İsraili Misirlilərin əlindən xilas etdi. İsrail xalqı Misirliləri dənizin sahilində ölü gördü. İsrail xalqı Rəbbin Misirlilərə böyük qüvvətlə nə etdiyini görəndə Rəbdən qorxdu, Ona və qulu Musaya güvəndi.*

Sonra Musa və İsraillilər bu nəğməni Rəbbə oxudular: *" Rəbbə ilahi oxuyacağam... Rəbb qüvvətim, məzmurumdur, O məni xilas etdi."* (Çıxış 15:1,2) Beləliklə, onlar oxumağa və onlar üçün etdiyi böyük xilasa görə Allaha minnətdarlıq etməyə başladılar. Musa və Harunun bacısı Məryəm əlinə dəf aldı və bütün qadınlar da onun ardınca gedərək dəfi vura-vura oxumağa və rəqs etməyə başladılar. Məryəm bu mahnını oxudu: ***"Rəbbə ilahi oxuyun, çox böyük zəfər çaldı.*** *Atı və süvariləri dənizə tulladı!* (Çıxış 15:21)

Dostlar, bu Allahın İsrail xalqı üçün dənizdə necə yol açması haqqında həqiqi və gözəl bir hekayədir. İndi biz bu dərsimizi necə yekunlaşdıra bilərik? Bəlkə sadə bir sual ilə bitirə bilərik. Sual budur: **İsrailliləri Fironun ordusundan kim xilas edə bilərdi?** Onlar özlərini xilas edə bilərdilər? Biz onların qarşısında dənizin olduğunu gördük. Dağlar isə onların sağında və solunda idilər. Fironun ordusu isə onların arxasında. İsrail xalqı özünü xilas edə bilərdi? Onlar dənizi quruda bilərdilər? Ya da ki, dağları alçalda bilərdilər? Bəlkə Fironun ordusu ilə vuruşa bilərdilər? Xeyr, onlar edə bilməzdilər! Bəs onda onları kim xilas edə bilərdi? **Yalnız Allah!** Yalnız Rəbb Allah onları qurtara bilərdi. Buna görə də Musa onlara dedi: *"Qorxmayın! Durun,* ***Rəbbin bu gün sizi necə xilas edəcəyinə*** *baxın!"* Yalnız Allah onları xilas edə bilərdi! Və Allah onları xilas etdi. Buna görə də, onlar dənizin bu biri tərəfinə gəlib çatanda, oxudular: *"Rəbb qüvvətim, məzmurumdur,* ***O*** *məni* ***xilas etdi****."*

Allahın Özü onların xilası oldu. Fironun ordusundan özlərini qurtarmaq üçün onların edəcəyi heç bir şey yox idi. Yalnız dənizin ortasında onlar üçün yol açan Allahın ardınca getmək və sonra Ona təşəkkür etmək və ölümdən qurtardığı üçün səcdə qılmaqdan başqa heç nə!

Əziz dost, Allah istəyir ki, Adəmin bütün övladlarının İsrail övladları kimi olduğunu bilsin! Onlar kimi bizi də Allah xilas etməsə, fəlakətdən xilas olmağa heç bir ümidimiz yoxdur! Bəlkə qarşımızda dəniz yoxdur, amma **ölüm** və **cəhənnəm** bizi gözləyir! Bəlkə biz səhralığın ortasında deyilik, amma tez-tez çıxış üçün ümid olmayan vəziyyətlərdəyik. Firon və onun qoşunu ardımızca gəlmir, lakin ş**eytan və bizim günahlarımız** bizim üzərimizdədir və bizi əbədiyyən məhv etmək üçün hədələyirlər!

Allahın ədalətli məhkəməsindən Adəmin övladlarını kim xilas edə bilər? Günahlı insanı heç vaxt sönməyən atəşdən kim xilas edə bilər? Şeytanın hakimiyyətindən insanı kim xilas edə bilər? Bizləri bütün bu şeylərdən kim xilas edə bilər? Kim bizi günah dənizinin o biri tərəfinə keçirdə bilər və Cənnət adlanan müqəddəs yerə apara bilər? **Yalnız Allah!** Ancaq Allah bizi xilas edə bilər! İnsan nə özünü xilas edə bilər və nə də ki, başqasını. Müqəddəs Kəlam bunu bəyan edir: *" Çünki iman vasitəsilə, lütflə xilas oldunuz. Bu, sizin nailiyyətiniz deyil, Allahın hədiyyəsidir. Əməllərlə deyil ki, heç kim öyünə bilməsin."* (Efesliılrı 2:8,9)

Mərhəməti böyük olan Allah, Adəmin övladları üçün, Şeytanın hakimiyyətindən, günah və ölümdən xilas etmək üçün bizə xilas yolu açıb. Allah bizi, günahlarında ölən hər bir kəsi gözləyən hiddətli atəşdən qurtulmağımızı istəyir, amma **biz Onun açdığı xilas yolu ilə getməliyik**! Sən, Şşytanın hakimiyyətindən, günahın dəhşətli nəticəsindən və cəhənnəmin cəzasından xilas olmaq üçün Allahın açdığı xilas yolunu tanıyırsan? Sən, Onun müqəddəs hüzurunda əbədiyyən xeyir-dualı olmaq üçün Allahın yaratdığı salehlik yolundasan?

Adəmin övladları üçün Allahın açdığı bu yol insanın edə bildiyi yaxşı əməllərə və ya dini tələbləri yerinə yetirməklə deyil. Allah deyir: *"əməllərlə deyil ki, heç kim öyünə bilməsin."* Allahın bizim üçün açdığı xilas yolu nədir? Bu Ona inanan hər bir kəsi, günahın hakimiyyətindən və ölüm qorxusundan, kölə kimi olan bizləri azad etmək üçün göylərdən

gələn, **Qurtarıcının yoludur.** Müqəddəs Kəlam bu qüdrətli Qurtarıcı haqqında belə deyir*: "Ondan başqa heç kimdə xilas yoxdur. Çünki səma altında biz insanlara verilən başqa bir ad yoxdur ki, onun vasitəsilə xilas olaq."* (Həvarilərin İşləri 4:12)

Bəli, Allah sənin üçün "günah dənizində" yol açdı ki, sən günahın cəzasından qurtula və o biri tərəfə keçə biləsən -- Allahın təhlükəsiz və müqəddəs hüzuruna. Amma ora Allahın açdığı yol vasitəsi ilə keçməlisən. Bu xilas yolu haqqında Qurtarıcı deyib:

*"Yol, həqiqət və həyat Mənəm. Mənim vasitəm olmadan heç kim Atanın yanına gələ bilməz.... Doğrusunu, doğrusunu sizə deyirəm: Mənim sözümə qulaq asıb Məni Göndərənə inanan şəxs əbədi həyata malikdir və ona hökm çıxarılmayacaq, əksinə, ölümdən həyata keçib."* (Yəhya 14:6; 5:24)

Əziz dost, sən *"**ölümdən həyata** keçmisən?"*

Dinlədiyiniz üçün çox sağ olun. Rəbbin iradəsi ilə gələn dəfə biz Allahın İsrail xalqının səhralıqda necə yedizdirdiyinə baxacağıq.... Musanın İsraillilərə dediyi bu sözlər haqda düşündükcə, Rəbb sizə xeyir-dua versin,

***"Qorxmayın! Durun, Rəbbin bu gün sizi necə xilas edəcəyinə baxın!"*** (Çıxış 14:13)

**35-ci Dərs**

# Səhralıqda Yemək

**Çıxış 16, 17**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz Allahın İsrail xalqını Fironun və onun ordusunun əlindən necə xilas etdiyini gördük. İsraillilər Qırmızı Dənizin sahilinə çatanda, Fironun ordusundan qurtulmağın heç bir yolu yox idi. Amma, biz onların dənizin ortasında yeriyə bilmələri üçün Allahın necə suları ayırdığını gördük. Lakin Misirlilərin ordusu dənizi keçməyə cəhd göstərəndə, onlar batdılar. Beləliklə, həmin gün Rəbb Allah İsrail xalqını Misirlilərin əlindən xilas etdi. Və onlar Rəbbin böyük qüdrətini görəndə, Ondan qorxdular və Ona nəğmə oxumağa başladılar, *"Rəbbə ilahi oxuyacağam, Rəbb qüvvətim, məzmurumdur, O məni xilas etdi."*

Hal-hazırda biz Çıxış kitabında İsraillilərin **Misir və Kənan torpağı arasında** səhralıqda olduqları yerə baxırıq. Kənan, Allahın onların babaları İbrahimə və onun nəslinə malik olmaq üçün vəd etdiyi ölkədir. Bu gün biz Allahın İsrail xalqını **səhralıqda necə yedizdirdiyinə** baxacağıq. Müqəddəs Yazılar Allahın Özünün onlardan öncə gündüz vaxtı böyük bulud və gecə alov şəklində necə getdyini göstərir. Bir şey dəqiqdir ki, əgər Allah onlardan öncə getməsəydi və onların qayğılarına qalmasaydı onlar səhralıqda məhv olardılar.

Gəlin bir anlıq İsraillilərin vəziyyətini təsəvvür edək. Onlar böyük izdiham – iki milyondan artıq adam idilər! Onlar qupquru, su və qida olmayan səhralıqdan keçirdilər. Düşün bu haqda! Çoxlu sayda adam tikanlı ağaclıqlar olan səhralıqdan keçirlər! İsrail qəbiləsi necə tab gətirə bilərdi? Onları kim aclıq və susuzluqdan xilas edə bilərdi? Bu qədər izdiham və onların mal-qaraları sağ qalmaq üçün haradan kifayət qədər su və qida tapa bilərdilər? Onlar özlərini yedizdirə bilərdilər? Xeyr! Kim onları yedizdirə bilərdi? Yalnız bir cavab var. **Yalnız Allah** onları yedizdirə və qoruya bilərdi!

Israillilər **Allaha etibar** etdilər? Yoxsa onlar nə yeyəcəklərinin və nə içəcəklərinin qayğısının çəkirdilər? Əlbəttə ki, İsrail xalqı Allaha etibar etməli idi. Allah onlar üçün nə qədər böyük işlər görmüşdür. Allah onları on cəza yolu ilə köləliyin əsarətindən xilas etmişdir. Allah onların ilk övladlarını quzunun qanı ilə ölümdən xilas etmişdir. Allah onlar üçün dənizin ortasında quru yol açmışdır. İndi isə Allah onları uzun illər əvvəl babaları İbrahimə vəd etdiyi kimi Kənan torpağına geri aparmaq üçün qarşılarında bulud kimi gedirdi. Sən nə fikirləşirsən? İsrail xalqı Allaha etibar edirdi? Onlar inanırdılar ki, Allah onlara vəd etdiyini yerinə yetirə biləcək? Gəlin Kəlama baxaq və cavabı araşdıraq.

Biz Musanın Tövratında, Çıxış kitabı 16-cı fəsildə oxuyuruq. Müqəddəs Yazılar deyir:

(Çıxış 16:1-3)
*Bütün İsrail övladlarının icması Elimdən yola düşdü. Onlar Misir ölkəsindən çıxdıqdan sonra ikinci ayın on beşinci günü Elim və Sina dağı arasındakı Sin səhrasına çatdılar. Səhrada bütün İsrail övladlarının icması Musa ilə Harunun əlindən* ***giley-güzar etdi.*** *İsraillilər onlara dedilər: "Kaş ki Misir ölkəsində ət qazanlarının yanında oturanda doyunca çörək yediyimiz vaxt Rəbbin əlində öləydik! Siz* ***bizi bu səhraya ona görə gətirdiniz ki, bütün bu camaatı aclıqdan öldürəsiniz."***

Deməli, İsrail qəbiləsi Allaha etibar etdi? Xeyr! Onlar Allaha etibar etmədilər! Onlar Allaha və Onun peyğəmbəri Musaya qarşı giley-güzar etdilər. Allahın onlara cavab verməsinə qulaq as.

(Çixış16:11-15,31)
*Rəbb Musaya dedi: «Mən İsrail övladlarının deyinməklərini eşitdim. Onlara de: axşamçağı ət yeyəcək, səhər isə çörəklə doyacaqsınız. Onda biləcəksiniz ki, Allahınız Rəbb Mənəm». Axşam bildirçinlər uçub bütün düşərgəni bürüdülər. Səhər düşərgənin ətrafına şeh düşdü. Şeh buxarlananda səhrada, torpaq üzərində qırova bənzər nazik lopalar göründü. İsraillilər bunu gördükdə bir-birinə «Bu nədir?» dedilər, çünki onun nə olduğunu bilmirdilər. Musa onlara dedi: «Bu Rəbbin sizə yeməyə verdiyi çörəkdir. İsrail xalqı bu yeməyin adını «manna» qoydu. O, görünüşcə keşniş toxumu kimi idi, rəngi ağ, dadı isə ballı yuxaya bənzəyirdi.*

Allah İsrail qəbiləsi Kənan torpağına çatana qədər onları belə yedizdirdi. Sən yeməyin haradan gəldiyini eşitdin? O **göydən gəldi.** O **Allahdan gəldi.** Israillilər Allahın onlara göndərdiyi yeməyə layiq idilər? Xeyr! Onlar öz inamsızlıqlarına və naşükürlüklərinə görə Allahın mühakiməsindən başqa heç nəyə layiq deyildilər. Yalnız Allahın mərhəmətinə görə onlar səhralıqda acından ölmədilər.

İndi gəlin başqa vaxt, **İsraillilərin suyu bitəndə** nə baş verdiyinə baxaq. Biz 17-ci fəsildə oxuyuruq. Müqəddəs Sözlər deyir:

(Çıxış 17:1-6) *Bütün İsrail övladlarının icması Sin səhrasından yola düşüb Rəbbin buyurduğuna görə dayana-dayana köç edirdilər. Onlar Refidimdə düşərgə saldılar. Orada xalqın içməyə* ***suyu yox idi.*** *Ona görə də xalq Musa ilə* ***münaqişə edib*** *belə dedi: «Bizə içməyə su verin». Musa onlara dedi: «Niyə mənimlə münaqişə edirsiniz? Nə üçün Rəbbi sınayırsınız?» Xalq orada olanda susamışdı. Ona görə də Musanın əlindən deyinib dedi: «Axı niyə bizi Misirdən çıxartdın? Bu bizi, oğullarımızı və heyvanlarımızı susuzluqdan öldürmək üçündürmü?»*
*Musa Rəbbə fəryad edib dedi: «Axı mən bu xalq ilə nə edim? Bir az da keçsə, məni daşqalaq edəcəklər».*
*Rəbb Musaya dedi: «Xalqın qarşısına çıx. Özünlə bərabər bir neçə İsrail ağsaqqalı götür. Nil çayına vurduğun əsanı əlinə alıb irəli get. Orada – Xorevdəki qayanın üstündə Mən sənin önündə dayanacağam. Zərbə ilə qayaya vur və oradan xalq üçün içməli su çıxacaq». Musa da İsrail ağsaqqallarının gözü qarşısında bunu etdi.*

Beləcə səhrada axan, qayadan şırıltı ilə çoxlu su çıxdı, bütün insanlar və mal-qaraları da içdi.

Gəlin burada dayanaq və bir az bu gün oxuduğumuz hekayə haqqında düşünək. Allahın İsrail xalqına etdikləri bütün o şeylərdən sonra, onların Allaha imanı var idi? Onların ürəyi Allahın onlar üçün etdyi şeylərə görə minnətdarlıqda dolu idi? Xeyr! Onlar Allaha etibar etmədilər! Əksinə onları neçə dəfələrlə təhlükələrdən xilas etmiş Allaha qarşı deyindilər.

Allah nə etdi? Öz səbirində və yaxşılığında Rəbb Allah səhralıqda onlara yemək və su verdi. İsrail xalqı Allahın yaxşılığına layiq idi? Xeyr! Onlar yalnız Allahın mühakiməsinə layiq idilər. Nə üçün Allah onlara yaxşılığı etdi? Çünki Allah sadiq və mərhəmətlidir. O, Allahdır, Sadiq Olan, Mərhəmətli Olan. Öz mərhəmətinə görə O, İsraillilər naşükür günahlı insanlar olsalar belə, onları yemək və su ilə təmin etdi! Əgər aclıqdan və susuzluqdan qurtulmaq yaxşılıqdan və insanların özlərindən asılı olsaydı, Allah onları sözsüz səhralıqda ölmələrinə izn verərdi.

Biz bilməliyik ki, Allah onları yalnız Öz mərhəmətinə görə yox, həm də **Öz Sözünün üstündə durduğuna görə** qorudu**.** Allah öz vədlərini yerinə yetirməkdə sadiqdir – və O İsrail xalqı haqqında vacib vəd etmişdir. Biz artıq öyrəndiyimiz kimi, peyğəmbərlərin, Müqəddəs Kəlamının və dünyanın Xilaskarının onlar vasitəsi ilə gələcəyi üçün, **Allah İsrail xalqı vasitəsi ilə dünyanın bütün ölkələrinə xeyir-dua verməyi vəd etmişdir.** Bəli, Allah sadiq və bol mərhəmətlidir! O **həqiqət Allahı** və **sevgi Allahıdır**. Əlbəttə İsrail xalqı Allahın sevgisinə layiq deyildir. Onlar Allaha itaət etməsələr də, hətta Ona qarşı danışsalar da, Allah Öz sadiqliyini və sevgisini göydən onlara yemək verməklə sübut etdi.

Bəlkə kimsə soruşa bilər, "İsraillilərin hekayəsinin bu gün bizə nə dəyəri var?" Allahın Sözü deyir*: "Bu hadisələr* ***ibrət dərsi*** *olub onların başına gəldi və bu dövrün sonuna çatan* ***bizim üçün*** *öyüd-nəsihət kimi yazılıb."* **(1 Korinflilərə 10:11)** Allah İsrail övladlarını səhralıqdan çıxartdığı yolla, Adəmin də hər bir övladını **günahın gücündən** qurtarmaq istəyir.

Biz səndən soruşuruq: İsraillilər səhrada məhv olmamaq üçün nə etməli idilər? Onlar sadəcə olaraq **toplaşmalı və Allahın onlar üçün səmadan göndərdiyi yeməyi yeməli idilər.** Onların qurtuluşu hardan gəldi? Bu onların öz səylərindən gəldi? Xeyr, onların qurtuluşu Allahdan gəldi. Onların özlərini aclıqdan və ölümdən xilas etmək üçün heç bir gücləri yox idi. Onlar **Allahın onlar üçün göndərdiyi yeməyi toplamaqdan yeməkdən** başqa heç nə edə bilməzdilər.

Müqəddəs Yazılar göstərir ki, bizim hamımız İsrail xalqı kimi günahlıyıq və **özümüzü xilas edə bilmərik** – nə günahın gücündən, nə də ki, Allahın ədalətli məhkəməsindən. Bəlkə biz İsraillilər kimi quru səhralıqda gəzmirik, amma ölüm kölgəsi onların üzərində olduğu kimi, bizim də üzərimizdədir. Rəbb Allahın Sözü aydındır: Allahın təmin etdiyi xilası rədd edən hər bir kəs günahda öləcək və

günahında əbədi cəhənnəm atəşinə düşəcəkdir. Bu xoşagələn fikir deyil. Günahda ölmək! Məhkəməyə gəlmək! Cəhənnəmə düşmək!! Bunlar **dəhşətli faciələrdir**! **Xoş xəbər** amma budur ki, heç kimin öz günahında ölməyə ehtiyacı yoxdur. Allah İsraillilərə səhrada acından ölməmələri üçün yemək verdiyi kimi, eyni yolla bizə də "Yemək" verib ki, biz bu həyatda və gələcək həyatda əbədiyyən xeyir-dualı olaq!

Əbədi həyat verən bu "Yemək" nədir?  Allahın hüzurunda əbədiyyən yaşamağa güc verən bu yeməyi biz marketdən ala bilərik? Xeyr, marketlərdə belə yemək yoxdur! Bəs onda əbədi həyat verən "Yemək" haradadır və nədir?

Dostlar, siz bilməlisiniz ki İsraillilər səhralıqda manna (çörək) yeyəndən beş min il sonra, Allah dünyanın xilaskarı, Qurtarıcısını göndərdir. O, dünyadakı insanları günahın gücündən, ölümdən, məhkəmədən və cəhənnəmdən xilas etmək üçün Allahın təmin etdiyi "Yeməkdir". Gəlin Qurtarıcının yerdə olarkən Özü haqqında dediklərinə qulaq asaq və düşünək. O dedi,

*"Doğrusunu, doğrusunu sizə deyirəm: iman edən əbədi həyata malikdir. Həyat çörəyi Mənəm. Ata-babalarınız çöldə manna yedilər və öldülər. Bu isə göydən enən elə bir çörəkdir ki, ondan yeyən şəxs heç vaxt ölməz. Göydən enmiş canlı çörək Mənəm. Əgər kimsə bu çörəkdən yesə, əbədi yaşayar. Dünyanın həyatı üçün verəcəyim çörək Öz ətimdir**.... Mənim yanıma gələn heç vaxt acmaz, Mənə iman edən heç vaxt susamaz!"*** (Yəhya 6:47-51,35)

Əziz dostlar, Allahın iradəsi ilə gələn dərsimizdə biz Allahın İsraillilərə necə On Qanun verməsinə baxacağıq.

Qurtarıcının dedikləri haqqında düşündükcə, Rəbb sizə xeyir-dua versin.

***"Həyat çörəyi Mənəm. Mənim yanıma gələn heç vaxt acmaz, Mənə iman edən heç vaxt susamaz."*** (Yəhya 6:35)

36-cı Dərs

# Alovlu Sina Dağı!

**Çıxış 19,20**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz Allahın İsrail qəbiləsinin səhralıqda onların acından ölməmələri üçün onlara **səmadan yemək** verərək necə qayğılarına qaldığını gördük. Biz həmçinin İsraillilərin inamlarının olmamasına və sadiq olmamalarına görə Allahı necə qəzəbləndirdiklərini gördük.

Bu gün biz səhralıqda Allahın İsrail xalqına necə görünməsi və onlara **Öz müqəddəs qanununu** verməsini görəcəyik. Biz Tövrat, Çıxış kitabı 19-cu fəsili oxuyuruq. O belə başalayır: *"İsrail övladları Misir torpağından çıxdıqdan sonra üçüncü ayda – yeni ay günü Sina səhrasına gəldilər."* (Çıxış 19:1) Musa və İsraillilər indi səhralıqdakı səyahətlərinin harasında idilər? Onlar **Sina** dağına gəlib çıxmışdılar. Xatırlayırsan Allah ilk dəfə Musanı yanan və yanıb qurtarmayan koldan çağıranda, onunla danışanda Musa harada idi? Bu eyni Sina dağı idi. Hekayə sənin yadındadır? Biz Allahın Sina dağında Musaya necə danışdığını eşitdik,

*"Həqiqətən, Mən Misirdə olan xalqımın əziyyətini gördüm.... və dərdlərinə nəzər saldım. ... Buna görə də get. Səni fironun yanına göndərirəm... Mən səninləyəm. Mənim səni göndərdiyimə əlamət bu olacaq:* ***sən xalqı Misirdən çıxaranda bu dağda Mənə ibadət edəcəksiniz."*** (Çixış 3:7-8, 10-12)

Allah Musa üçün vəd etdiyini yerinə yetirdi? Əlbəttə yerinə yetirdi! İndi Tövratda oxuduğumz yerdə, Musa və İsrail xalqı Sina Dağının ətəyindədilər. Bu Allahın Musaya 40 il əvvəl yanar kolda *"İsrail xalqını Misirdən çıxardanda, siz mənə bu dağda səcdə edəcəksiniz!"* deyərək verdiyi vəd idi.

İndi isə gəlin oxumağa davam edək, Allahın Sina dağında Musaya necə yenidən görünməsini və bütün İsrail xalqına danışmasına baxaq. Müqəddəs Kəlam deyir:

(Çıxış 19:3-8)
*Musa isə dağa – Allahın hüzuruna çıxdı. Rəbb onu dağdan çağırıb dedi: «Yaqub nəslinə, İsrail övladlarına belə söylə: "Misirlilərə nələr etdiyimi, sizi qartal qanadlarında daşıdığım kimi yanıma gətirdiyimi siz özünüz gördünüz.* ***İndi isə əgər sözümə diqqətlə qulaq asıb əhdimə riayət etsəniz, siz bütün xalqlar arasından Mənə məxsus xalq olacaqsınız****. Bütün yer üzü Mənimdir; siz isə Mənə xidmət edən kahinlər padşahlığı, müqəddəs millət olacaqsınız". Bu sözləri İsrail övladlarına söylə». Musa gəlib xalqın ağsaqqallarını çağırdı və Rəbbin ona əmr etdiyi hər kəlməni onların qarşısına qoydu. Bütün xalq bir nəfər kimi belə cavab verdi:* ***«Rəbbin bütün söylədiklərinə əməl edəcəyik»****. Musa xalqın cavabını Rəbbə çatdırdı.*

Sən İsraillilərin Allaha necə cavab verdiyini eşitdin? Onlar dedilər, ***"Rəbbin bütün söylədiklərinə əməl edəcəyik!"*** Onların dedikləri doğru idi? Onlar Allahın bütün əmrlərinə əməl edə bildilər? Allah çox yaxşı bilirdi ki, İsraillilər Onun əmr etdiyi hər şeyə əməl edə

bilməyəcəklər. Allahın əslində istədiyi o idi ki, onlar Allahı razı sala bilməmək bacarıqlarını, Onun qarşısında öz günahlı vəziyyətlərini görsünlər. Allah onların ulubabaları olan İbrahimin, İshaqın, Yaqubun günahlarını Allahın vədlərinə olan imanlarına əsasən bağışlamışdır. Allah İsrail xalqını yalnız iman vasitəsi ilə bağışlamaq istəyirdi. Allahın xilas yolu həmişə yalnız **iman vasitəsilə** olub --- Allaha və Onun xilas planına iman. Müqəddəs Yazılar deyir*: " Aydındır ki, Allah qarşısında heç kim Qanun vasitəsilə saleh sayılmır, çünki «saleh adam **imanla** yaşayacaq."* (Qalatiyalılara 3:11)

Amma bu baxımdan, İsrail xalqı ümid edirdi ki, onlar Allah qarşısında salehliyi **öz səyləri** ilə əldə edə bilərlər. Necə də axmaq fikir! Onlar dəfələrlə Allahı incitdiklərini unutmuşdular! Amma hələ də onlar Allah qarşısında öz günahlarının nə qədər böyük olduğunu başa düşmürdülər! Öz düşüncələrində günah elə də ciddi bir şey deyildir, amma onları mühakimə edən Allahın gözlərində, **günah dəhşətli bir şeydir! Allah müqəddəs və kamildir;** O kamillikdən bir az aşağı olan heç bir şeyi təsdiq edə bilməz! Amma İsraillilər hələ də bunu başa düşməmişdilər. Buna görə də onlar dedilər, "***Rəbbin bütün söylədiklərinə əməl edəcəyik"***. Allahın isə planı var idi ki, onların "hər şeyi Rəbbin dediyi kimi" etməmələrini onlara göstərə bilsin.

İndi isə gəlin Müqəddəs Kəlamda Allahın Sina dağına necə gəldiyinə, Öz izzətini və müqəddəsliyini göstərməsinə və İsrail qəbiləsinə **On Qanun** verməsinə baxaq.

Müqəddəs Kəlam deyir:

(Çıxış 19:10-19) *Rəbb Musaya dedi: «Xalqın yanına get....* ***.*** *Üçüncü günə hazır olsunlar, çünki üçüncü gün bütün xalqın gözü qarşısında Rəbb Sina dağı üzərinə enəcək. Xalqın ətrafına sərhəd çəkib de: "Özünüzü dağa çıxmaqdan, onun ətəyinə toxunmaqdan gözləyin. Dağa toxunan hər kəs öldürülməlidir. Eləsinə əl vurulmasın, ancaq daşqalaq edilsin ya da oxla vurulsun. İstər heyvan, istərsə də insan, bunların yaşamaq üçün izni yoxdur. ....*
*Üçüncü günün səhəri açılanda göy gurultusu, şimşəklər, dağ üzərində qatı bir bulud və çox uca şeypur səsi oldu. Düşərgədə olan bütün xalq titrədi. Allahı qarşılamaq üçün Musa xalqı ordugahdan apardı və onlar dağın ətəyində durdular. Bütün Sina dağı tüstü içində idi, çünki Rəbb onun üzərinə alov içərisində enmişdi. Bütün dağ kürənin verdiyi tüstü kimi tüstülənirdi, bərk titrəyirdi.* ***...*** *Şeypur səsi get-gedə ucalırdı....* ***.*** *Rəbb Sina dağı üzərinə, dağın başına endi....*

(Çıxış 20) *Allah bütün bu sözləri belə söylədi: «Səni Misir torpağından, köləlik diyarından çıxaran Allahın Rəbb Mənəm.*

***1)*** *Məndən başqa allahların olmasın. (ayə 3)*
***2)*** *Özün üçün heç bir oyma büt düzəltmə... Çünki Mən, sənin Allahın Rəbbəm (ay 4-5)*
***3)*** *Allahın Rəbbin adını boş yerə dilinə gətirmə, çünki Rəbb Öz adını boş yerə dilinə gətirəni cəzasız qoymaz. (ayə 7)*
***4)*** *Şənbə gününü yadda saxlayıb təqdis et. (ayə 8)*
***5)*** *Ata-anana hörmət et (ayə 12)*
***6)*** *Qətl etmə (ayə 13)*
***7)*** *Zina etmə. (ayə 14)*
***8)*** *Oğurluq etmə.(ayə15)*
***9)*** *Heç kimə qarşı yalandan şahidlik etmə. (ayə 16)*
***10)*** *Heç kimin evinə tamah salma. Heç kimin arvadına, quluna, qarabaşına, öküzünə, eşşəyinə – heç bir şeyinə tamah salma. (ayə 17)*

*Bütün xalq göy gurultusunu, şimşəkləri, şeypur səsini, dağın tüstülənməsini eşidib görəndə qorxub sarsıldı və uzaqda durdu. Musaya dedilər: «Sən bizimlə danış, biz də eşidək. Qoy Allah bizimlə danışmasın, yoxsa ölərik». Musa xalqa dedi: «Qorxmayın, Allah ona görə gəlib ki, sizi sınağa çəksin və siz günah etməmək üçün Onun qorxusu qarşınızda olsun». Xalq uzaqda duranda Musa orada Allahın olduğu qatı qaranlığa yaxınlaşdı.*

Allahın iradəsi ilə gələn proqramda biz Allahın Sina dağında İsraillilərə verdiyi On Qanunun hər birinə baxacağıq. Amma dərsi bitirməzdən əvvəl, indicə oxuduqlarımız vasitəsi ilə daha bir şey öyrənə bilərik. **Allah Müqəddəsdir və biz öz səylərimizlə heç vaxt Ona yaxınlaşa bilmərik.** Müqəddəs Kəlam bizə öyrədir ki, *"Bütün bəşər ota bənzər."* (1 Peter 1:24) və *"Allahımız yandırıb-yaxan alovdur."*
(İbranilərə 12:29) Biz hamımız otun alov içində olanda nə baş verməsini bilirik!

Dərsimizin əvvəlində biz İsraillilərin Musaya *"Rəbbin bütün söylədiklərinə əməl edəcəyik!"* dediklərini eşitdik. Onlar Allahın müqəddəsliyini dərk etmədiklərinə görə bunu dedilər. Onlar düşünürdülər ki, necəsə onlar öz səyləri ilə Allahı razı sala bilərlər. Amma Sina Dağında Allah onlara görünəndən sonra, onların düşüncələri tam dəyişdi! Israillilər ildırıma, şimşəyə, dağa enən tüstüyə və on qanunu verərkən Rəbbin səsini eşidəndə, ***"qorxub sarsıldı*** *və uzaqda durdu. Musaya dedilər: «Sən bizimlə danış, biz də eşidək. Qoy Allah bizimlə danışmasın,* ***yoxsa ölərik****."*

İsrail xalqı Allahın tam müqəddəsliyini və Ona heç cür yaxınlaşa bilmədiklərini başa düşməyə başladılar. Sina Dağının ətəyində onlar Müqəddəs Kəlamın *"Bütün bəşər ota bənzər."* və *"Allahımız yandırıb-yaxan alovdur."* (1 Peter 1:24; İbranilərə 12:29) dediyi həqiqətlərdən agah oldular. Müqəddəs Allahın hüzurunda İsraillilər səmimiyyətlə deyə bilərdilərmi ki "Problem yoxdur! Rəbbin dediklərinin hamısına əməl edəcəyik!" ? Xeyr, deyə bilməzdilər! İndi İsraillilər başa düşdülər ki, onların problemi var; **çox ciddi problem!** Onlar Allahın müqəddəsliyini və Onun əmrlərininn ciddiliyini hiss etdilər; onlar özlərinin günahlı olmalarını və Allahın kamil qanununa əməl etmə bacarıqlarının olmamasını hiss etdilər. **Onlar özlərini çılğın alovun içində quru ot kimi hiss etdilər!**

Bəs sən necə? Sən Allahın müqəddəsliyini dərk edirsən? Sən Allahın və Onun qanununun ədalətli və kamil olduğunu görürsən? Sən öz ürəyinin və öz işlərinin Allahın qarşısında qeyri-saleh və günahlı olduğunu başa düşürsən? Yoxsa sən də belə düşünən İsraillilər kimisən, "Problem yoxdur! Biz Rəbbin dediyi hər şeyə əməl edəcəyik! Biz öz yaxşı əməllərimizlə Allaha yaxınlaşacağıq!" Həqiqətən, belə fikirlər Allahın fikirləri ilə razılaşmır. Günahla ləkələnmiş kimsə pak və müqəddəs Olanla bir yerdə ola bilər? Xeyr, ola bilməz! Allah yarı yaxşı yarı pis olanı təsdiqləyə bilər? Xeyr, O edə bilməz və etməyəcəkdir! Allah müqəddəsdir və günahlı olana dözə bilməz! O, kamillik tələb edir! **Sən bunu dərk edirsən?** Yoxsa ümid edirsən ki, Mühakimə Günü, sənin **"yaxşı əməllərin"** necəsə sənin pis əməllərini siləcəkdir? əgər elə olsaydı, onda **Allah ədalətli Allah olmazdır!** Məsələn: Hakim qatilə deyir, "Sən qətıldə günahlısan, amma keçmişdə etdiyin yaxşı əməllərinə görə səni məhkum etmirəm. Azad gedə bilərsən." Biz belə edən hakim haqqında nə deyərdik? Biz onu ədalətsiz hakim elan edərdik.

Dostlar, **Allah ədalətli hakimdir!** O, günaha səthi baxmır! Dünyanı mühakimə edəcək Rəbb Allah yalnız ədalətli olanı edə bilər! **Allahın ədaləti günahın əvəzini tələb edir**. Ödəmə **ölüm** və **Allahdan əbədiyyən ayrılmadır**! Bizim etdiyimiz işlər, günah borcumuzu ləğv edə bilməz. Yaxşı əməllərimiz haqda isə, Müqəddəs Yazılar deyir: *"Hamımız elə bil ki murdarlandıq, bütün saleh əməllərimiz murdar əskiyə bənzəyir."* (Yeşaya 64:6) Allah

**yandırıb-yaxan alov** kimi və Adəmin oğullarının **yaxşı işləri** isə **quru ot** kimidir. Öz salehliyimiz ilə biz heç vaxt Allahın müqəddəs məhkəməsi qarşısında dura bilmərik!

İsraillilər Sina Dağına enən Allahın atəşinə yaxınlaşmağa cürət etdilər? Onlar Allahın olduğu yerə qalxmağa cəhd göstərdilər? Onlar titrəyən və guruldayan dağa yaxınlaşmaq üçün kifayət qədər cəsarətli idilər? Xeyr! Onlar yaxınlaşmadılar ora! Onlar **qorxu ilə uzaqda durdular!** Onlardan heç kim Rəbbin müqəddəsliyi və böyük qüdrəti qarşısında qorxu hissinə görə dağa yaxınlaşmağa cürət etmədi**.** Amma o qorxu hissi onlar üçün çox yaxşı idi. Çünki Allahın Sözü deyir: ***"Rəbb qorxusu biliyin başlanğıcıdır!"*** (Süleymanın Məsəlləri 1:7)

Dostlar, biz bu gün eşitdiklərinizi və gördüklərinizi yadda saxlamağı tövsiyyə edirik: **Allah müqəddəsdir** və Öz müqəddəslik standartına görə **insanları mühakimə etməlidir**. **Allah müqəddəsdir** və o günaha göz yuma bilməz. **Allah müqəddəsdir** və biz öz səylərimiz sayəsində Ona yaxınlaşa bilmərik!

Gələn dərsimizdə, Allahın iradəsi ilə biz Allahın Sina dağında İsraillilərə verdiyi On Qanunu yoxlayıb, izah edəcəyik. Dinlədiyiniz üçün çox sağ olun.

Onun Sözündə olan təməl həqiqət haqda düşündükcə Allah sizə xeyir-dua versin və sizə öyrətsin:

***"Rəbb qorxusu biliyin başlanğıcıdır!"*** (Süleymanın Məsəlləri 1:7)

37-ci Dərs

# On Müqəddəs Qanun

**Çıxış 20**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq!O istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz Sina dağının tüstüyə büründüyünü gördük. Çünki Rəbb Allahın Özü İsrail xalqına Öz On Qanununu verməsi üçün ora alov və ildırım ilə enmişdir. Allah İsrail xalqına xəbərdarlıq etdi ki, dağa toxunmasınlar yoxsa öləcəklər. Allah onlara Özünün necə **müqəddəs** olmasını öyrətmək istəyirdi!

Bu gün biz On Qanunun hər birinə yaxından baxmağı nəzərdə tuturuq və Müqəddəs olan Allah qarşısında dayana bilməmiz üçün onları öz həyatımız ilə müqayisə edəcəyik. Biz Tövratda, Çıxış kitabı 20-ci fəsli oxuyuruq. Allah Sina Dağına alov və duman ilə enəndən sonra, O bu sözləri dedi*: "Səni Misir torpağından, köləlik diyarından çıxaran Allahın Rəbb Mənəm."* (Çıxış 20:2)

*1)* ***"Məndən başqa allahların olmasın."*** (Çıxış 20:3) Bu birinci əmrdir. Rəbb Allah dedi, *"Məndən başqa allahların olmasın."* Yalnız O bizim yeganə Allahımız olmalıdır. O, Öz izzətini heç kim ilə bölüşməyəcək. Yaradan Allah Vahiddir ki, biz Ona səcdə etməliyik. Amma bu ölkədə və bütün dünyada gördüklərimiz tamamilə başqa şeylərdir. İnsanlar təkcə Allahın layiq olduğu mövqeni, başqa insan ilə əvəz edirlər. Yalnız Onun adı müqəddəsdir və qüdrətlidir. Yalnız O bizim tam həsr olunmağımıza və etibarımıza layiqdir. Amma insanların problemi olanda və ya çətinliklə üzləşəndə, onların ilk fikri hər şeyi yaradan, hər şeyə qadir olan Allaha baxmaq və Ona dua etmək deyil. Əksinə onlar öz ümidlərini özləri kimi olan insana bəsləyirlər və yalnız Allaha məxsus olan yeri insana verirlər. Belə edənlərin başqa allahları var və başqa allaha malik olmaq günahdır!

2) İkinci qanunda Allah dedi: ***"Özün üçün heç bir oyma büt düzəltmə.... Belə şeylərə səcdə qılaraq ibadət etmə. Çünki Mən, sənin Allahın Rəbb, qısqanc Allaham!"*** (Çıxış 20:4,5) Bu qanunda, Allah bizə deyir ki, özümüzü bütlərdən qoruyaq. Bütlər yalnız xüsusi yerlərdə və ya evin hansısa küncündə olan düzəltmə heykəl ilə məhdudlaşmır. Büt, Allah və bizim aramızda duran **hər bir şeydir.** Bəzi insanlar üçün futbol onların bütüdür. Çünki futbol onlar üçün Allahdan daha vacibdir. Başqaları üçün televizor onlar və Allah arasında durur. Onlar Allahın Sözünü oxumağı veclərinə almırlar; onların televizora baxmaqdan başqa heç nəyə vaxtları yoxdur. Sonra bildiyin kimi başqa cür adamlar da var ki, talisman daşıyırlar və Allahın onlar üçün kifayət gücə malik olmadığını guman edirlər. Başqaları üçün isə, Allahın yerini onların var-dövlətləri tutur. Allah yox amma pul onların həyatlarında birinci yerdədir. Onlar hətta Allaha məqbul olmayan şeylər edəcəklər ki, təki pulu əldə etsinlər. Belə adamlar üçün onların allahı puldur. Allahın yerini tutan hər bir şey bütdür.

3) Üçüncü əmrdə, Allah dedi***: "Allahın Rəbbin adını boş yerə dilinə gətirmə, çünki Rəbb Öz adını boş yerə dilinə gətirəni cəzasız qoymaz."*** (Çıxış 20:7) Həqiqətən, Allah istəmir ki, biz Onun müqəddəs adını boş yerə çəkək. Amma demək olar ki, hər gün sən kiminsə öz

qonşusuna "İnşallah" deyərək söz dediyini eşidə bilərsən. Mən bunu edəcəyəm və ya onu edəcəyəm, belə və ya elə yerə gedəcəyəm," amma öz ürəklərində belə etmək istəyi yoxdur. Allahın iradəsi onlardan çox uzaqdadır. O Allahın adını yalnız ona görə çəkir ki, qoşusunu inandıra bilsin. Bu günahdır. Başqaları deyir, "Vallah, Allah haqqı, mən belə və ya elə bir şey etməmişəm!" amma əslində onlar çox yaxşı bilirlər ki, nə isə ediblər! Kim isə deyir, "Allah bilir ki, mən bunu və ya onu etməyəcəyəm," amma onlar əslində yalan deyirlər. Belə şeylər, Allahın adını boş yerə çəkməkdir. Allahın Sözü deyir*: "Ancaq sözünüzdə "bəli"niz bəli, "xeyr"iniz xeyr olsun. Bundan qalanı şər olandandır."* (Matta 5:37)

4) Dördüncü əmrdə, Allah İsrail övladlarına dedi*:* ***"Şənbə gününü yadda saxlayıb təqdis et. Altı gün çalışıb bütün işlərini gör.... Çünki altı gün ərzində Rəbb göyləri və yeri, dənizi və kainatdakı hər şeyi yaratdı, yeddinci gün isə istirahət etdi."*** (Çıxış 20:8,911) Allah istəyirdi ki, İsrail övladları **Ona ehtiram etmək üçün** hər yeddinci gün dincəlsinlər.

5) Allahın verdiyi beşinci əmrdə, O dedi: ***"Ata-anana hörmət et ki, Allahın Rəbbin sənə verdiyi torpaqda ömrün uzun olsun."*** (Çıxış 20:12) Burada biz görə bilərik ki, bizim valideynlərimiz çox xüsusi və hörmətə layiqdirlər. Amma biz bu günki nəsildə bunu görmürük. Uşaqların valideynlərə cavab qaytardıqlarını və onlara qulaq asmayıb, öz istədikləri kimi hərəkət etdiklərini görürük. Onlar öz valideynlərinə hörmət etmirlər. Onlar öz valideynlərini əsəbiləşdirirlər. Amma bu bizim beşinci əmrdən öyrəndiyimiz yaşamaq yolu deyil. Allahın iradəsi odur ki, övladlar öz valideynlərini sevsinlər, onlara hörmət etsinlər, Allaha məqbul olan və Onun iradəsinə uyğun olan hər bir yolla onlara itaət etsinlər.

6) Altıncı əmrdə Allah dedi: ***"Qətl etmə."*** (Çıxış 20:13) Burada Allaha deyir: İnsan öldürən hər bir adam, Allaha qarşı günah edir. Çünki hər bir şəxsə həyat və can verən Allahdır. İnsanı öldürmək, Allaha nifrət etməkdir. Çünki Allah insanı öz surətində yaradıb. Allahın Sözü göstərir ki, insan öldürmək yalnız qətl ilə məhdudlaşmır. Çünki Müqəddəs Yazılar deyir: "*Qardaşına **nifrət** edən hər kəs qatildir."* (1 Yəhya 3:15) Çoxlarının məhəl qoymadığı odur ki, Allah insanı yalnız etdiklərinə görə mühakimə etmir, amma onun nə etmək istədiyinə, yəni onun niyyətinə görə də mühakimə edir! Allah ürəyə baxdığına görə nifrət və qatillik Onun gözlərində eyni dərəcədə günahdır.

7) Yeddinci əmrdə Allah dedi: ***"Zina etmə."*** (Çıxış 20:14) Nigah, Rəbbdən olan dəyərli hədiyyədir. Allah bizim üçün nəyin ən yaxşı olduğunu bilir. Buna görə də, O kişiyə evlənmək üçün qadın verəndən sonra, O kişini öz arvadı ilə **məhdudlaşdırmaq** və hər hansı başqa bir qadına ehtiraslı istəyi rədd etməsini istəyir. Allahın Sözü deyir ki, *"Ərlər də eyni şəkildə arvadlarını öz bədənləri kimi sevməlidirlər."* (Efeslilərə 5:28) və *"cinsi əxlaqsızlıqdan başqa bir səbəbə görə arvadını boşayıb başqası ilə evlənən kəs zina edir."* (Matta 19:9) İnsanlar Allahın əmrinə itaət etməyəndə və onlara qadağan olan şeyi edəndə, adətən öz bədənlərində etdiyi şeyin nəticəsini əldə edirlər. Buna görə də Allahın nigah çərçivəsində qoyduğu məhdudiyyətlərdən kənarda olan cinsi yaxınlıq edənlər üzərinə çoxlu ölümcül xəstəlikər gəlir. Sən başqa bir şey də bilməlisən: Zina bizim öz bədənlərimizlə etdiklərimiz ilə məhdudlaşmır. Bura həmçinin bizim fikirlərimizdə olanlar da daxildir. Müqəddəs Yazılar bu haqda deyir: *"Qadına şəhvətlə baxan hər adam artıq ürəyində onunla zina etmiş olur."* (Matta 5:28)

8) Səkkizinci əmrdə Allah dedi: ***"Oğurluq etmə."*** (Çıxış 20:15) Bu əmr aydındır. Amma sən bilməlisən ki, bizi mühakimə edəcək Allahın qarşısında, öğurluq yalnız pul və ya sənə

məxsus olmayan hansısa bir əşyanı oğurlamaq ilə məhdudlaşmır. Hətta sən başqasının nəyinisə götürmək istəsən, amma götürməsən, sən artıq öz ürəyində oğrusan! Allah ürəyə baxır. Oğurluğun çox tərəfləri var. Məsələn: əgər sənin müdirin sənə iş verirsə, işin üçün sənə maaş verirsə və inanırsa ki, sən işləyirsən, amma əslində sən sadəcə olaraq vaxtını boş yerə sərf edirsənsə, onda sən oğurluq edirsən! Bəli, sən müdirinin gəlirindən oğurladın. Oğurluq və digər günahların cəzası nədir? Bu ölmək və heç vaxt sönməyən alovlu cəhənnəmə daxil olmaqdır!

9) Doqquzuncu əmr deyir: ***"Heç kimə qarşı yalandan şahidlik etmə."*** (Çıxış 20:16) Bu da tam aydındır. Rəbb Allah, həqiqət Allahıdır və yalanla heç bir əlaqəsi yoxdur! İnsanlar fikirləşirlər ki, problemlərdən qaçmaq və sülhü saxlamaq üçün kiçik yalanlar demək olar. Amma Həqiqət Allahı ilə isə heç bir "kiçik yalan" yoxdur! Allah deyir: yalan danışan hər bir kəs **şeytana** oxşayır*, "çünki o yalançıdır və yalanın atasıdır."* (Yəhya 8:44) Şeytan bizim ulubabamız Adəm və Həvvaya yalan danışdı və indi də insanlara yalanla aldatmaqda davam edir! Yalan danışan hər bir kəs, şeytan kimidir.

10) Onuncu əmrdə Allah dedi: ***"Heç kimin evinə tamah salma. Heç kimin arvadına, quluna, qarabaşına, öküzünə, eşşəyinə – heç bir şeyinə tamah salma."*** (Çıxış 20:17) Bu əmr bizə aydın göstərir ki, Allah insanın ürəyinin necə də hiyləgər və pis olduğunu bilir. Tamahkarlıq və acgözlük Adəmin övladlarının **ürəyindədir**. Bizim pis ürəklərimiz başqa kişinin arvadına həvəs salmağa və ya bizdə olmayan başqasına məxsus nəyəsə gözümüzün düşməsinə səbəb olur. Bu günahdır. Çünki Allahın Sözü deyir*: "Dünyaya heç bir şey gətirməmişik və oradan heç bir şey də götürə bilmərik. Yeməyimiz və paltarımız varsa, bunlarla kifayətlənirik."* (1 Timoteye 6:7,8)

Bu Allahın Musaya və İsrail övladlarına həvalə etdiyi On Qanun idi.

Biz bu dərsi sual ilə bitiririk. Hər birimizin cavab verməsi üçün sual budur: "**Mən hər bir** On Əmrə əməl etmişəm?" Sən yəqin ki, artıq bilirsən ki, müqəddəs Qurtarıcı dünyaya gələndə, O bu On Əmri iki cümlədə cəmləşdirdi. O dedi:

1) ***Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla və bütün düşüncənlə sev"*** və

2) ***Qonşunu özün kimi sev.*** *Bütün Qanun və Peyğəmbərlərin sözləri bu iki əmrə əsaslanır. (Matta 22:37,39,40)*

Əgər sən Allahın Musaya verdiyi On Qanuna əməl edib-etmədiyini bilmək üçün özünü yoxlamaq istəyirsənsə, özünə belə sual verə bilərsən:

**Mən Allahı bütün ürəyimlə sevirəm?**
**Mən qonşumu özümü sevdiyim qədər sevirəm?**

Sənin **Allah** ilə münasibətin necədir? Qoy ürəyin bu suala səmimi cavab versin. Sən Allahı bütün düşüncənlə sevirsən? Sən Onu bütün ürəyinlə sevirsən? Allah və Onun Sözü sənin həyatında birinci yerdədir?

Bəs sənin **insanlarla** münasibətin necə? Qonşunu özünü sevən kimi sevirsən? Başqalarını hər şeydə özündən qabağa qoyursan? Başqasının qayğısına, öz qayğına qaldığın kimi

qalırsan? Səninlə necə rəftar etmək istədiyildiyi kimi, sən də başqaları ilə elə rəftar edirsən?

Əgər sən "bəli" deyə bilməsən, bil ki, sən Allah qarşısında **günahlısan.** Öz səylərin ilə sən Allahın ədalətli mühakiməsindən başqa heç nəyə ümid bəsləyə bilməzsən! Müqəddəs Yazılar deyir: *"Qorxaqların, imansızların, iyrənclərin, qatillərin, əxlaqsızların, sehrbazların, bütpərəstlərin və bütün yalançıların aqibəti isə od və kükürdlə yanan göldə olacaq."* **(**Vəhy 21:8)

Allah müqəddəsdir və müqəddəs olmayan şeyə dözə bilməz. Allah kamildir və qeyri-kamil olan heç nəyi qəbul edə bilməz. Buna görə də Müqəddəs Yazılar deyir: ***"Kim Qanunun hamısına riayət edərək birində büdrəyərsə, o bütün Qanuna qarşı təqsirkar olur."*** (Yaqub 2:10) On Qanuna əməl etməyə çalışmaqla heç kim *"Saleh sayılmayacaq.... Çünki hamı günah edib, Allahın izzətindən məhrum olub!"* (Romalılara 3:20,23) Bəli, əziz dostlar Allahın Sözü aydındır: *"**Hamı** günah işlədib*!" və *" Qanuna əməl etməyə əsaslananların **hamısı** lənət altındadır."* (Qalatiyalılara 3:10)

Bəlkə kimsə sual verə bilər: "Bəs onda nə üçün Allah heç birimizin əməl edə bilməyəcəyi On Qanunu bizə verdi?" Bu çox vacib sualdır və Allahın iradəsi ilə gələn dərsdə biz Allahın buna necə cavab verdiyini eşidəcəyik....

Qoy Allah sizə xeyir-dua versin və Allahın Sözündə olan bu mühüm həqiqəti sizə açsın:

***"Kim Qanunun hamısına riayət edərək birində büdrəyərsə, o bütün Qanuna qarşı təqsirkar olur."*** (Yaqub 2:10)

38-ci Dərs

# Qanunların Məqsədi

**Çıxış 20**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən iki dərsimizdə biz Allahın İsrail qəbiləsinə Öz On müqəddəs əmri vermək üçün Sina dağına şimşək və ildırım ilə endiyini gördük. Birinci əmrdə Allah onlara dedi: **Məndən başqa allahların olmasın.** İkinci: **Özün üçün heç bir oyma büt düzəltmə.** Üçüncü: **Allahın Rəbbin adını boş yerə dilinə gətirmə.** Dördüncü: **Şənbə gününü yadda saxlayıb təqdis et.** Beşinci: **Ata-anana hörmət et.** Altıncı: **Qətl etmə.** Yeddinci: **Zina etmə.** Səkkizinci**: Oğurluq etmə.** Doqquzuncu: **Heç kimə qarşı yalandan şahidlik etmə.** Onuncu: **Heç kimin evinə tamah salma.**

Allahın Musaya və İsraillilərə verdiyi On Qanun budur. Allah bunu deyərək onlar üzərinə ağır yük qoydu: On Əmrin tələlərini **tamlıqda** yerinə yetirən hər bir kəs Mənimlə əbədiyyən yaşamağa layiqdir. Amma bütün qanuna əməl edib, yalnız birini pozan, bütün qanunu pozmaqda təqsirkardır və Məndən əbədiyyən ayrı düşəcəkdir!

Bu Allahın Sina dağında İsrail qəbiləsinə verdiyi müqəddəslik yolu idi. Allah əmr etmişdir ki, onlar hər şeyə əməl etsinlər! Bəli, **hər şeyə**! Günahlı insanlar Allahın bütün əmrlərinə əməl edə bilərlər? Xeyr, edə bilməzlər! Buna baxmayaraq, Müqəddəs olan Allah onlardan bunu tələb edirdi! Buna görə də, bu gün bizim qarşımızda duran böyük sual budur: **Bəs onda Allah bilərək ki, heç kim bunlara tamlıqla əməl edə bilməyəcək, nə üçün bu On Əmri İsrail övladlarına verdi?** Nə üçün Allah Adəmin nəsli üzərinə belə ağır yük qoydu?

Biz artıq İsrail övladlarının nə dediklərini gördük: *"Biz Rəbbin bütün dediklərinə əməl edəcəyik!"* Amma Allah bilirdi ki, onlar Onun tələb etdiyi hər şeyə əməl edə bilməyəcəklər. İsraillilər dərk etmirdilər ki, Allahın iradəsini tamlıqla yerinə yetirmək üçün onlarda kifayət qədər güc yox yoxdur. Buna görə də Allah belə deyərək İsraillilərə on kamil qanun verdi: **Bacarırsınızsa, hamısına əməl edin! Amma birini pozan Məndən əbədiyyən ayrı düşəcəkdir**!

Allah o çətin əmrlər vasitəsi ilə İsrail qəbiləsinə Onu razı salmaq üçün güclərinin olmamasını açmaq istəyirdi. Allah bilirdi ki, İsrail övladları Onun hər əmrinə əməl edə bilməyəcəklər, amma onların özləri hələ bunu başa düşmürdülər. Israillilər bu günkü belə düşünən dindar adamlar kimi, Allah bizdən ancaq istəyir ki, biz yaxşılıq etməyə çalışaq və Məhkəmə günü əgər "yaxşı işlər" "pis işlərdən" çox olsa onda Allah bizə deyəcək: "Gəl və əbədiyyən Mənim hüzurumda ol!" belə səhv fikirləşirdilər. Amma belə fikirləşənlər çaşırlar, nə Müqəddəs Yazıları, nə də ki, Allahın müqəddəsliyini bilirlər. Allah kamildir və günaha səthi yanaşa bilməz!

Gəlin fikirləşək, ulubabamız Adəm nə qədər günah işlətməli idi ki, Allah onu Cənnət bağından qovsun? On günah? Yoxsa yüz? Bəlkə min? Xeyr! Təkcə **bir** günah və o qovuldu!

Bir günahla Adəm artıq Allah qarşısında kamil deyildir!

Bir günahla artıq Allaha yaxınlaşa bilməzdi!

Bir günah və o ölməli idi!

Bir günahla o əbədi atəşdə özünə yer qazandı!

Bəli, Allah müqəddəsdir və günaha yüngül yanaşmır! Buna görə də O İsrail övladlarına dedi: *" Kim Qanunun hamısına riayət edərək birində büdrəyərsə, o bütün Qanuna qarşı təqsirkar olur."* (Yaqub 2:10)

Buna görə də, əgər Allahın müqəddəsliyi belədirsə, bizim bilmək istədiyimiz budur: Allah bilərək ki, İsraillilər o qanunlara tamlıqla əməl edə bilməyəcəklər, nə üçün onlara On Qanun verdi? Allahın cavabına qulaq as: "*Qanuna əməl etməklə heç bir insan Allahın önündə saleh sayılmayacaq. Çünki Qanun vasitəsilə günah dərk olunur."* (Romalılara 3:20) Onda, On Qanunun məqsədi nədir? Günahı silmək? Xeyr, Allah deyir: "qanunun məqsədi **günahı aşkar etməkdir**!"

Bunu başa düşdün? Allah nə üçün Musaya və İsrail övladlarına Öz On müqəddəs Qanununu verdi? Ona görə verdi ki, onlara əməl etməklə Cənnətə düşmək hüququ qazansınlar? Xeyr! Bu ola bilməz. Çünki Allah deyir: "Əgər hamısına əməl etməsən, məhkum olunacaqsan!" Adəmin övladları Onun əmr etdiklərinə tamlıqla əməl etməklə Allaha itaət edə bilərlər? Kimsə kirli, çirklənmiş qazandan təmiz su çıxarda bilər? Qeyri-mümkündür!

On Qanunun məqsədi nədir? Müqəddəs Yazılar deyir: "Qanunun məqdəsi günahı aşkar etməkdir." Allah bizi məhkəmədən xilas etmək üçün Qanunu bizə vermədi. Allah onları bizə verdi ki, bizə göstərsin ki, biz məhkum olunmuş günahlı insanlarıq və bizə Xilaskar lazımdır! Bu sənə aydındır?

On Qanun xəstəxanadaki rentgen aparatı kimidir. Əgər mən xəstəyəmsə və bilmirəmsə mənə nə olub, bəlkə həkim rentgendən keçirdərək məni yoxlayacaqdır. Rentgen çəkdirməyin məqsədi nədir? Bunun yalnız bir məqsədi var: **bədənimin daxilində olanı aydınlaşdırmaq**. Eyni yolla, Allahın Musaya həvalə etdiyi müqəddəs qanunlar da xəstəxanadakı rentgen aparatı kimidirlər. Onunlar nəyin səhv olduğunu: ürəyimdə və qəlbimdə olan günahı aydınlaşdırmaq üçündür. On qanun məndə olan günahı necə aydınlaşdıra bilər? Onlar məndəki günahı bu yolla aydınlaşdırırlar: əgər davranışımı Allahın müqəddəs qanunu ilə müqayisə etsəm, onda –mən düşüncələrimdə, sözlərimdə və əməllərimdə Allahdan nə qədər uzaq olduğumu görəcəyəm. Allahın qanununa baxanda və sonra özümə baxanda, mən Allaha qarşı və insana qarşı günah işlətdiyimi bilirəm və bilirəm ki, müqəddəs Allahın hüzuruna buraxıla bilmərəm!

Rentgen aparatı bədənlərimizdə nəyin səhv, nəyin düz olduğunu **göstərdiyi** kimi, On Qanun da insanın ürəyində nəyin səhv olduğunu göstərir. Və Rentgen aparatı da kimisə müalicə edə bilmədiyi kimi, eyni ilə On Qanun da günahla dolu ürəyə **şəfa verə bilməz**. Bunun baş verməsi üçün mən Böyük Həkimin, Allahın yanına getməliyəm. Daxilimdə olan günaha görə məni gözləyən ölümdən və mühakimədən xilas etmək üçün yalnız Allahın planı var.

Bəlkə kimsə deyər: "Bir dəqiqə, dostum! Mən yaxşı adamam! Mən başqaları kimi oğurluq etmirəm, yalan danışmıram və zina etmirəm! Əgər sən belə düşünürsənsə, onda sən hələ

Allahın müqəddəsliyini dərk etməmisən! Sən bunu bilməlisən ki, Mühakimə Günü, Allah səni günahlı qonşun ilə müqayisə etməyəcəkdir. Allah səni belə deyən: *"Qanunun hamısına riayət edərək birində büdrəyərsə, o bütün Qanuna qarşı təqsirkar olur."* (Yaqub 2:10) öz müqəddəs və kamil qanunu ilə müqayisə edəcəkdir. "Zina etmə!" deyən Allah həm də, "Yalan şahidlik etmə!" deyir. Beləliklə, əgər sən zina etməmisənsə amma yalnız bir yalan belə danışmısansa, onda sən bütün qanunu pozmusan (bax Yaqub 2:10) və Cənnətə, Allahın hüzuruna daxil ola bilməzsən. Çünki Müqəddəs Yazılar deyir: *"Oraya **murdar olan heç bir şey**, iyrənc iş görən və yalan danışan heç kim əsla girməyəcək."* (Vəhy 21:27) Bir şey dəqiqdir ki, biz heç vaxt öz səylərimizlə Allahı razı sala bilmərik! Buna görə də Allahın Sözü belə deyərək bəyan edir:

*"Hamımız elə bil ki **murdarlandıq**, bütün saleh əməllərimiz **murdar əskiyə** bənzəyir."* (Yeşaya 64:6) *" Hamısı yoldan azıb, onlardan fayda yoxdur. Bir nəfər də olsun yaxşı iş görən yoxdur. Heç kəsə fərq qoyulmur. Çünki hamı günah edib, Allahın izzətindən məhrum olub."* (Romalılara 3:12,22,23)

Əgər bizi mühakimə edəcəyin qarşısında beləyiksə, Onun məhkəməsindən necə qurtula bilərik? Xilas olmaq üçün biz nə etməliyik? Biz ümidsizik? **Öz səylərimizə** əsasən ümidimiz yoxdur. Amma Allaha şükür olsun ki, O Adəmin övladlarını günahın cəzasından xilas etmək üçün plan hazırlayıb!

Indi gəlin Tövrat, Çıxış kitabı 20-ci fəsildə davam edək və Allahın İsrail övladlarını Onun müqəddəs qanunun gətirdiyi lənətdən qurtarmaq yolunu necə təmin etdiyinə baxaq. Allah İsraillilərə On Qanun verəndən sonra, Müqəddəs Yazılar deyir:

(Çıxış 20:18, 21-24) *Bütün xalq göy gurultusunu, şimşəkləri, şeypur səsini, dağın tüstülənməsini eşidib görəndə qorxub sarsıldı və uzaqda durdu.... Xalq uzaqda duranda Musa orada Allahın olduğu qatı qaranlığa yaxınlaşdı. Rəbb Musaya dedi: «İsrail övladlarına belə de: "Siz gördünüz ki, Mən sizinlə göylərdən danışdım..... Mənim üçün torpaqdan qurbangah düzəldib yandırma və ünsiyyət qurbanları olaraq öz qoyun-keçi və mal-qaranı onun üstündə qurban gətir. Adım çəkilən hər yerdə yanına gəlib sənə bərəkət verəcəyəm."*

Musa kitabda Allahın ona göstərdiyi kimi hər şeyi yazdı. Sonra, səhəri gün Musa oyandı, Allahın ona əmr etdiyi kimi, Sina Dağının ətəyində bir qurbangah düzəltdi. Musa bunu düzəldib qurtarandan sonra, o cavan oğlanlara bir neçə öküzü kəsib, qanını kasalara yığmağı və ətini qurbanqahda yandırmağı buyurdu. Sonra Musa qanı götürərək qurbanqaha, On Qanun yazılmış daşa və bütün camaata çilədi və dedi*: "Budur bütün bu sözlərə görə Rəbbin sizinlə kəsdiyi **əhdin qanı**»* (Çıxış 24:8)

Beləliklə biz Allahın buyruğunda Musanı qurbangah düzəltdiyini, qurban kəsdiyini və bütün İsrail xalqı üzərinə səpələdiyini görürük. Bütün bunların səbəbi nə idi? Allah İsrail xalqına ulubabaları Adəmə, Habilə, Nuha, İbrahimə, İshaqa və Yaquba öyrətdiyini öyrətmək istəyirdi ki, ***"Qan axıdılmadan bağışlanma olmur."*** (İbranilərə 9:22) Allaha yaxınlaşmaq istəyən hər bir kəs, Ona qüsursuz qurban ilə yaxınlaşmalı idi.

Nə üçün Allah o heyvan qurbanlarını tələb edirdi? Allah əmr etmişdir, çünki O ədalətlidir və Onun müqəddəs qanununda yazılıb ki, hər bir "kiçik" günahın əvəzi ölüm və əbədi məhkumiyyət, Allahdan və Onun izzətindən uzaq olmaqdır. İsrail övladları bunların hamısına əməl edə bilmədiklərinə görə, onlar Allaha qüsursuz qurban gətirməli idilər ki,

**qüsursuz** qurban onların günahlarını əvəz edə bilsin. Amma bizim artıq öyrəndiyimiz kimi heyvan qurbanları Allahın dünyaya **müqəddəs** Qurtarıcı göndərənə qədər **günahı** yox edə bilmədi, ancaq onu **örtə** bildi**.** Müqəddəs Qurtarıcı könüllü olaraq Özünü günaha görə son Qurban etdi.

Əziz dost, bu gün öyrəndiklərimizə əsasən, gəlin iki mühüm fikri yadda saxlayaq.

1) Birinci**, Heç kim On Qanuna əməl etməklə özünü xilas edə bilməz**! Müqəddəs yazıların nə dediyinə yenidən qulaq as: *"Qanuna əməl etməyə əsaslananların hamısı lənət altındadır."* (Qalatyalılara 3:10) *" Çünki kim Qanunun hamısına riayət edərək birində büdrəyərsə, o bütün Qanuna qarşı təqsirkar olur."* (Yaqub 2:10) On Qanuna çalışıb əməl etməklə heç kim xilas olmayacaqdır! Qanunun məqsədi, günahı aşkar etməkdir.

2) İkinci fikir budur ki, biz öz yaddaşımızda saxlamalıyıq ki, **yalnız Allahın xilas etmə planı var**! Müqəddəs yazıların nə dediyinə qulaq as: *" Çünki bir Allah və Allahla insanlar arasında bir Vasitəçi vardır. O, İnsan olan Məsih İsadır. O hamını satın almaq üçün Özünü fidyə verdi!"* (1 Timoteye 2:5,6) Həqiqətən, günahlı insanları xilas etmək üçün **yalnız Allahın** planı var.

Beləliklə, bizi dinləyən dost, biz səni bu iki fikir ilə tək buraxırıq: **Heç kim** bu On Qanuna əməl etməklə xilas olmayacaqdır! Və: Günahlı insanları xilas etmək üçün **yalnız Allahın** planı var!

Dinlədiyiniz üçün çox sağ olun.

Qoy Rəbb bu gün öyrəndiklərimizi qavramaqda sizə xeyir-dua versin. Onun Sözü deyir:

***"Qanuna əməl etməklə heç bir insan Allahın önündə saleh sayılmayacaq. Çünki Qanun vasitəsilə günah dərk olunur."*** **(Romalılara 3:20)**

39-cu Dərs

# Pozulmuş Qanunlar

**Çıxış 32**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən üç dərsimizdə biz Allahın atəş, ildırım və şimşəyin içindən Sina dağında danışdığını və onlara Öz On Müqəddəs Qanununu vediyini gördük. Biz Allahın İsrail xalqına Sina dağının ətəyində necə qurbangah düzəltməyi və bir neçə qüsursuz heyvanı qurban gətirməyi əmr etdiyini gördük.

Nə üçün Allah o heyvan qurbanlarını əmr etdi? Allah onları əmr etdi, çünki O salehdir və Onun müqəddəs qanunu bəyan edir*: "Qanunun hamısına riayət edərək birində büdrəyərsə, o bütün Qanuna qarşı təqsirkar olur."* Allahın qanununu pozan günah işlədir....və günahın əvəzi ölümdür! (Yaqub 2:10; 1 Yəhya 3:4; Romalılara 6:23) İsraillilər Allahın qanunlarına əməl edə bilmədiklərinə görə, onlar Allaha qüsursuz qurbanlar təqdim etməli idilər ki, qüsursuz heyvan təqsirkar şəxsin yerinə ölsün. Heyvan öz həyatından keçirdi ki, günahlı insan yaşasın. Bu yolla Allah saleh olduğunu və insanın günahını əməllərinə əsasən bəraət qazandıra bilmədiyini sübut etdi. Allah günahı yalnız kamil qurbanın qanı ilə bağışlaya bilər.

Bu dərsimiz "Pozulmuş Qanunlar" adlanır. Bu baxımdan, Musa peyğəmbərin İsrail qəbiləsinin hekayəsində, onlar hələ də səhralıqda, Sina dağının qarşısında düşərgə salırlar. İndi isə gəlin Tövrata qayıdaq və Allahın onlara On Əmr verəndən sonra nə baş verdiyini görək. Biz Çıxış kitabı 24-cü fəsili oxuyuruq.

Müqəddəs Yazılar deyir:

(Çıxış 24:12-18) *Rəbb Musaya dedi: «**Mənim yanıma dağa çıx** və orada dur; xalqı öyrətmək üçün qanunu və əmrləri yazdığım daş lövhələri sənə verim». **Musa köməkçisi Yeşua ilə Allahın dağına çıxmaq üçün qalxdı**. Ağsaqqallara isə dedi: «Biz geri qayıdanadək burada gözləyin. Budur, Harun və Xur yanınızdadır; kimin nə çətin işi varsa, onların yanına gedə bilər». Musa bunu deyəndən sonra dağa çıxdı. Bulud dağı bürüdü. Rəbbin izzəti Sina dağının üstündə məskən saldı. Bulud onu altı gün bürüdü. Yeddinci gün Rəbb Musanı buludun içindən çağırdı. Rəbbin izzəti İsrail övladlarının gözündə dağın başında yandırıb-yaxan alov kimi görünürdü. Musa buludun içinə girib dağa çıxdı və **qırx gün-qırx gecə dağda qaldı.***

Gəlin burada dayanaq. Rəbbin iradəsi ilə gələn dərsdə biz Allahın Sina dağında Musaya 40 gün ərzində nə dediyini öyrənəcəyik. Bu gün isə biz Musanın qayıdışını gözləyən, Sina dağının ətəyində olan İsraillilərlə nə baş verdiyini görəcəyik. Biz bilirik Adəmin övladları olan bizlər üçün Allahı gözləmək elə də asan iş deyil. Bizim üçün məğlub olmaq; Allahın Sözünü unutmaq və öz yolumuz ilə getmək daha asandır. Beləliklə İsraillilər haqqında indi oxuyacağımız çox vacibdir. Allah bu s hekayə vasitəsi ilə bizə xəbərdarlıq etmək istəyir.

32-ci fəsildə biz oxuyuruq:

(Çıxış 32:1-4) *Xalq Musanın dağdan enmədiyini, gecikdiyini görəndə Harunun ətrafına toplaşıb ona dedi: «Qalx və bizim üçün allahlar düzəlt ki, qabağımızca getsinlər. Çünki bizi*

*Misir torpağından çıxaran adamın – bu Musanın başına nə iş gəldiyini bilmirik!» Harun onlara cavab verdi: «Arvadlarınızın, oğullarınızın, qızlarınızın qulaqlarından qızıl sırğaları çıxarıb mənim yanıma gətirin». Bütün xalq qulaqlarında olan qızıl sırğaları çıxarıb Haruna gətirdi. Harun onlardan qızıl götürdü, oyma aləti ilə surət verib dana şəklində tökmə büt düzəltdi. Xalq «Ey İsrail övladları, budur sizi Misir torpağından çıxaran allahlarınız!» dedi.*

Sən İsraillilərin nə etdiklərini gördün? *"Biz Rəbbin dediyi bütün şeylərə əməl edəcəyik!"* deyəndən bir neçə gün sonra biz onların Allahın Sina dağında verdiyi qanunun birinci və ikincisini pozduqarını görürük! Allah onlara demişdir: *"Məndən başqa allahların olmasın." "Özün üçün heç bir oyma büt düzəltmə."* Amma İsraillilər nə etdilər? Onlar öz arxalarını Allaha çevirdilər və özləri üçün Misirdə gördükləri kimi dana formasında büt düzəltdilər.

Nə üçün İsraillilər belə tez öz arxalarını Allaha və Onun Sözünə çevirdilər? Çünki onların istədiyi, **görə və toxuna bildikləri allah** idi. Onlar indiki insanlar kimi Allahın Sözünə məhəl qoymayan, insan və insan ənənələrinin ardınca gedənlər kimi idilər. Gördüyün insanın ardınca getmək, görmədiyin Allahın ardınca getməkdən daha asandır. Bu səbəbə görə də Adəmin övladlarının əksəriyyəti möhkəm təməli olmayan **insan fikirlərini Allahın həqiqi Sözü** ilə əvəz edirlər.

İndi isə gəlin İsraillilərin özlərinə dana düzəltdikdən sonra nə baş verdiyinə baxaq. Müqəddəs Yazılar deyir:

(Çıxış 32:5-6) *Harun bunu gördükdə dananın qabağında bir qurbangah düzəltdi və elan etdi: «Sabah Rəbb naminə bayram olacaq». Ertəsi gün xalq səhər tezdən qalxıb yandırma qurbanları ilə ünsiyyət qurbanları kəsdi. Xalq oturub yeyib-içdi, sonra isə qalxıb oynaşdı.*

Sən Harunun nə etdiyini eşitdin? Müqəddəs Yazılar deyir ki, *" Harun bunu gördükdə dananın qabağında bir qurbangah düzəltdi və elan etdi: «Sabah Rəbb naminə bayram olacaq."* Bu həqiqət idi? İsraillilər Allaha belə yolla ibadət edə bilərdilər? Əlbəttə ki, yox! Biz bilirik ki, Allahın belə təşkil olunmuş ibadət şənliyində heç bir rolu yox idi. İndi onlar təkcə birinci və ikinci qanunu pozmamışdırlar, həmçinin belə deyən üçüncü qanunu da pozmuşdurlar: *"Allahın Rəbbin adını boş yerə dilinə gətirmə."* "Rəbb Allah, Allah, Allah, Allah!" bu sözlər onların ağızlarında idi, amma onların ürəkləri Allahdan çox uzaq idi. Onların ibadəti boş idi. Onların Allah barədə sözləri dəyərsiz idi. Onların duaları sadəcə olaraq çoxlu mənasız səcdələr idi ki, bu da Allahı yalnız daha da qəzəbləndirə bilərdi!

İndi gəlin hekayəni bitirək:

**(Çıxış 32:7-28, 35)** *Rəbb Musaya dedi: «Tez ol, düş aşağı, çünki Misirdən gətirdiyin xalqın öz əxlaqını pozdu və Mən onlara əmr etdiyim yoldan yaman tez döndü. Özləri üçün tökmə dana düzəldib ona səcdə qıldılar, qurban kəsdilər və dedilər: "Ey İsrail övladları, budur sizi Misir torpağından çıxaran allahlarınız!"» Rəbb Musaya sözünü davam etdi: «Görürəm ki, bu xalq dikbaş xalqdır. Qoy Mən xalqa qarşı qəzəblənib onu yox edim, səndən isə böyük millət əmələ gətirim».*
*Musa Allahı Rəbbə yalvarıb dedi: «Ya Rəbb, nə üçün Öz xalqına qarşı qəzəbin alovlansın? Sən onları Misirdən böyük qüvvətinlə və qüdrətli əlinlə qurtarmadınmı? Axı nə üçün Misirlilər "Onları pis niyyətlə, dağlarda öldürüb yer üzündən yox etmək üçün çıxartdı" desinlər? Yalvarıram, qəzəbini yatır və Öz xalqına bəla gətirmək niyyətindən dön. Qulların İbrahimi, İshaqı, və İsraili xatırla və Özün naminə onlara and edərək "nəslinizi göydəki ulduzlar qədər çoxaldacağam, vəd etdiyim bu ölkənin hamısını nəslinizə verəcəyəm və onlar*

*əbədilik oraya sahib olacaqlar" dedin». Beləliklə, Rəbb Öz xalqına bəla gətirmək niyyətindən döndü.*
*Musa əlində iki şəhadət lövhəsi ilə dönüb dağdan endi. Lövhələrin iki tərəfi – bu üzü də, o üzü də yazılı idi.*
*Onlar Allahın işi idi; üzərindəki oyma yazılar Onun yazısı idi. Yeşua xalqın səs-küyünü eşidərək Musaya dedi: «Düşərgədən müharibə səsi gəlir». Musa cavab verdi: «Bu qələbə çalanların nidası deyil, Məğlubiyyətə uğrayanların da səsi deyil. Mən nəğmə səsi eşidirəm».*
*Musa düşərgəyə yaxınlaşıb dananı və onun ətrafındakı rəqsləri gördü. O qəzəbləndi və lövhələri əlindən atıb dağın ətəyində parça-parça etdi. Xalqın düzəltdiyi dananı götürüb yandırdı, toza dönənə qədər əzdi və suyun üzünə səpələyib İsrail övladlarına içirtdi. Musa Harundan soruşdu: «Bu xalq sənə nə etdi ki, onları belə böyük günaha batırdın?» Harun cavab verdi: «Qoy ağam qəzəblənməsin. Sən bu xalqı tanıyırsan. Onun niyyəti pisdir. Onlar mənə dedilər: "Bizim üçün allahlar düzəlt ki, qabağımızda getsinlər. Çünki bizi Misir torpağından çıxaran adamın – bu Musanın başına nə iş gəldiyini bilmirik!" Mən isə onlara dedim: "Kimdə qızıl varsa, onu çıxarın". Xalq da qızılı mənə verdi. Mən onu oda atdım və bu dana alındı».*
*Musa bildi ki, xalq nəzarətdən çıxıb. Harun nəzarəti o qədər zəiflətmişdi ki, düşmənlər onları lağa qoyurdular.*
*Musa düşərgənin girişində durub çağırdı: «Rəbbin tərəfində olanlar, mənim yanıma gəlin!» Bütün Levi övladları onun yanına toplaşdı. Musa onlara dedi: «İsrailin Allahı Rəbb belə deyir: "Qoy hər biriniz qılıncını belinə qurşasın. Hər kəs düşərgədə qapı-qapı gəzərək öz qardaşını, dostunu və qonşusunu öldürsün"».*
*Levililər də Musa onlara etdiyi əmrə əməl etdilər.* ***O gün üç minə yaxın adam həlak oldu. ...***
*Rəbb Harunun düzəltdiyi danaya və gördükləri işə görə İsrail xalqını bəlaya saldı.*

Bundan sonra, Allah Musaya dedi ki, iki daş lövhəcik götürsün və onun sındırdığın yerinə qoysun. Onların üzərində Rəbb İsrail övladlarının artıq pozduğu on qanunu yenidən yazdı. Israillilər necə də böyük günah işlətmişdilər! Onlar Allahın müqəddəs qanununu pozmuşdular. İnsanın şər ürəyi özünü yenə də göstərdi. Allahın İsrail xalqı üçün etdiklərinə baxmayaraq, biz onların Allahın qoyduğu salehlik yolunu necə də tezliklə tərk etdiklərini görürük. Onlar başqa yol ilə getməyi seçdilər, **öz dinlərini** yaratdılar. Onlar öz əllərinin işləri olan yolu seçdilər. Onlar Allahın qoyduğu yola arxalarını çevirdilər və özləri üçün seçdikləri dində sevindilər. Allahın Adı onların dilində idi amma ürəkləri Ondan çox uzaq idi! Buna görə də onlar dana düzəltməyə, öz əllərinin işlərindən həzz alaraq, arxalarını yaşayan və həqiqi Allaha çevirməyə qədər gedib çıxdılar.

Bu sarsıdıcı hekayədən biz nə öyrənirik? Allah istəyir ki, biz Onunla münasibətimizin harada olduğu haqda fikirləşək. Bəlkə belə fikirləşənlər var: "Mən İsraillilər kimi deyiləm. Mən heç vaxt arxamı Allaha çevirib, bütlərə sitayiş etməmişəm." Belə fikirləşən sən, sən əminsən ki, heç vaxt bütlərə sitayiş etməmisən? Bəlkə sənin özün üçün düzəltdiyin bütün olmayıb. Amma büt heykəl formasında olan şəkil ilə məhdudlaşmır. Büt, sənin ilə Allah arasında duran hər bir şeydir. Pul, paltar, seks, futbol, televizor, özün, özün kimi başqa şəxs və ya ulubabalarının ənənələri büt ola bilər. Bəzi adamlar ziyarətgah və gözmuncuğu kimi bütlərdən yapışır. Başqaları üçün isə dinlərinin öhdəlikləri onların bütləridir; onlar Allahın Sözünə qulaq asmaqdan çox duaya, oruca daha çox əhəmiyyət verirlər! **Allahı əvəz edən hər bir şey bütdür.**

Sənin Allahın kimdir? Sən həqiqətən də kimə ibadət edirsən? Rəbb Allaha yoxsa bütə? Allahın adı sadəcə olaraq dilindədir, yoxsa ürəyinin içində? Həqiqi Allaha ibadət edən və bütə sitayiş edənlər arasında fərq var. Bu Allahın Sözündədir. Allahın həqiqi Sözünə qarşı

sənin münasibətin necədir? Sən Allahın Sözünü bilirsən? Sən ona inanırsan? Sən onu bütün ürəyinlə sevirsən? Yoxsa, sən də Allahın İsrail xalqına dediyi kimisən? *"Bu xalq dodaqları ilə Mənə hörmət edir, amma qəlbləri Məndən uzaqdır.* ***Boş yerə*** *Mənə səcdə edirlər, insan əmrlərindən çıxardıqları təlimləri öyrədirlər."* (Matta 15:8,9)

Bəs sən necə? Sən kimə ibadət edirsən? Musaya ədalətli qanun verən Rəbb Allaha? Onun Sözünə inanırsan? Yoxsa sən də ümidini İsraillilər kimi öz dindar işlərinə bağlayırsan? Hansı olur olsun, Müqəddəs Yazılar deyir:

*" Bu hadisələr ibrət dərsi olub onların başına gəldi və bu dövrün sonuna çatan bizim üçün öyüd-nəsihət kimi yazılıb..... Beləliklə, ey sevimlilərim, bütpərəstlikdən uzaqlaşın. Mən ağıllı insanlara xitab edirəm."* (1 Korinflilərə 10:11,14-15) *" Qorxaqların, imansızların, iyrənclərin, qatillərin, əxlaqsızların, sehrbazların, bütpərəstlərin və bütün yalançıların aqibəti isə od və kükürdlə yanan göldə olacaq."* (Vəhy 21:8) *" Biz insanların şəhadətini qəbul edirik, amma Allahın şəhadəti bundan üstündür. Çünki bu, Allahın şəhadətidir; O (Qurtarıcı) barədə şəhadət edib. ... O gəlib bizə Haqq Olanı tanımaq üçün dərrakə verdi. Ey övladlar,* ***özünüzü bütlərdən qoruyun!"*** (1 Yəhya 5:9,20-21)

Dinlədiyiniz üçün çox sağ olun....

Gələn dərsdə Allahın iradəsi ilə biz Allahın günahlı İsrail xalqı arasında Öz salehliyi ilə güzəştə getməyərək yaşaması üçün qurduğu qeyri-adi plana baxacağıq.

Kəlamda olan vacib xəbərdarlığı xatırladıqca, Allah sizə xeyir-dua versin:

"***Özünüzü bütlərdən qoruyun!"*** (1 Yəhya 5:21)

40-cı Fəsil

# Hüzur Çadırı

**Çıxış 24-40, Levitlilərə 16**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz İsraillilərin öz arxalarını Misirdə onları köləlikdən qurtaran Allaha necə çevirdiklərini gördük. Musa Sina Dağında Allahın Sözünü alarkən, İsraillilər qızıldan dana düzəltdilər və ona sitayiş etdilər. Amma bu gün biz daha xoş hekayə eşidəcəyik. Biz buna çox diqqətlə qulaq asmalıyıq, çünki bu çox dərinmənalıdır. İsrallilərin Allaha necə yaxınlaşması, Onunla necə görüşməsi və Ona necə ibadət etməyi öyrətmək üçün Allahın Musaya və İsraillilərə xüsusi çadır düzəltməyi dediyini görəcəyik. Bu "Hüzur Çadırı" adlanır.

Tövrat kitabı, Çıxış 24-cü fəsil. Müqəddəs Yazılar deyir:

(Çixiş 24:16-18) ***Rəbbin izzəti Sina dağının üstündə məskən saldı****. Bulud onu altı gün bürüdü. Yeddinci gün Rəbb Musanı buludun içindən çağırdı. Rəbbin izzəti İsrail övladlarının gözündə dağın başında yandırıb-yaxan alov kimi görünürdü. Musa buludun içinə girib dağa çıxdı və qırx gün-qırx gecə dağda qaldı.*

(Çıxış 25:1-9)
*Rəbb Musaya dedi***:** *«Mənə ianələr gətirmək barədə İsrail övladlarına belə söylə: könlü istəyən hər bir adamdan ianəni qəbul edin. Onlardan qəbul edəcəyiniz ianələr budur: qızıl, gümüş, tunc, bənövşəyi, tünd qırmızı və al rəngli iplik, incə kətan, keçi yunu, qırmızı boyanmış qoç dəriləri, suiti dəriləri, əbrişim ağacı, çıraq üçün zeytun yağı, məsh yağı və ətirli buxur üçün ətriyyatlar, efodla döşlüyün üstünə taxılan damarlı əqiq və sağanaq daşları.* ***Mənim üçün Müqəddəs məkan düzəltsinlər ki, aralarında məskunlaşım. Mənim məskənimi və onun bütün avadanlığını göstərdiyim nümunələrə görə düzəldin.***

Allahın Musaya nə dediyini eşitdin? O Musaya valehedici və gözəl bir şey dedi! Allah İsraillilərin, Ona qarşı dəfələrlə günah işlədənlərin arasında yaşamağı planlaşdırmışdır! Nə üçün belə böyük və müqəddəs olan Allah günahkarlarla yaşamaq istədi? Ruh olan və heç bir şeyə ehtiyacı olmayan Allah, Ondan üz döndərmiş Adəmin nəsli ilə danışmaq istədi? Artıq gördüyümüz kimi, Allah insanı Öz surətində yaradıb. Çünki Allah insanla ünsiyyətdə olmaq istəyirdi. İnsanın günahı bu münasibəti korlayıb, amma insanın Ona geri dönə bilməsi üçün Allah saleh yol yaradıbdır. Bu Onun əbədi məqsədi və günahkarlar üçün olan böyük şəfqəti idi ki, Rəbb İsraillilərin arasında Öz izzətli hüzuru ilə olmağı planlaşdırdı. Çox xüsusi olan bir çadırın və çox xüsusi olan qanunlarla Allah Adəmin nəslinə Ona necə yaxınlaşa bilməsini göstərdi. Artıq öyrəndiyimiz kimi Allahın müqəddəs olduğu üçün günahkarlar Onunla necə gəldi ünsiyyətdə ola bilməzlər. Bu səbəbdən də, Allah İsraillilərə əmr etdi ki, xüsusi bir çadır düzəltsinlər ki, Allah Onun müqəddəsliyinə və izzətinə layiq yolla onların arasında ola bilsin. Xüsusi çadır vasitəsi ilə Allah gələcək nəsilə Özü və dünyaya göndərəcəyi Xilaskar haqqında çox mühüm dərslər öyrədəcəkdir.

Biz başa düşməliyik ki, Allah yaşamaq üçün yerə ehtiyacı olduğundan İsraililərə demədi, Mənə çadır tikin. Xeyr! Dünyanı və onun içində olan hər şeyi yaradan Uca Allahın insan əli ilə tikilmiş evə ehtiyacı yoxdur! Peyğəmbərlərin yazılarında, Rəbbin Özü bəyan edir: *"Göylər Mənim taxtımdır, yer ayaqlarımın altındakı kətildir. Mənim üçün harada ev tikəcəksiniz, dincələcəyim yer harada olacaq? Çünki bütün bunları Mənim əlim yaratdı, hər şey beləcə əmələ gəldi.* (Yeşaya 66:1,2; Həvarilərin İşləri 7:48,49)

Onda nə üçün Allah İsraillilərə əmr etdi ki, Onun Ruhunun və izzətinin yaşaması üçün bir çadır tiksinlər? Biz artıq dediyimiz kimi, Allah İsraillilərə və Adəmin bütün nəslinə onlarla necə də çox **ünsiyyətdə** olmağı istədiyini öyrətmək istəyirdi. Allah onların qarşısına günahlardan bağışlanmanın və göylərdə əbədiyyən Allahla yaşamaq hüququ yolununun illüstrasiyasını qoyurdu!

Beləliklə, Allah Musaya və İsraillilərə Özü üçün çadır düzəltməyi əmr etdi ki, onların arasında yaşasın. Amma bu Hüzur Çadırı digər adi çadırlar kimi olmamalı idi. Faktiki olaraq Müqəddəs Yazılarda Hüzur Çadırının qayda-qanunlarının gedişatını təsvir edən 50 fəsil var! Onlar çox dərinmənalı fəsillərdir və orada olanların hamısı haqqında oxumayacağıq. Biz yalnız ən vacib şeyləri cəmləşdirməyə çalışacağıq.

Hüzur Çadırı haqqında birinci onu bilməlisən ki, Allah Musaya dedi ki, onun **iki otağı** olmalıdır. Bu müqəddəs yer bir çadır idi amma gözəl və qalın pərdə bu iki otağı ayırmaq üçün düzəldilmişdir.

Birinci otaq ***Müqəddəs Yer*** adlannırdı. O otağa kahindən başqa heç kim girə bilməzdi. Kahinlər, günahı örtmək üçün heyvan kəsməyə görə Allah tərəfindən Harunun nəslindən seçilmiş şəxslər idilər. O otaqda üç şey var idi: ətir yandırdıqları qızıl altar, yağ çırağı və Allaha təqdim edən xüsusi çörək qoymaq üçün masa.

Çadırın ikinci otağı ***Ən Müqəddəs Yer*** adlanıırdı, çünki çadır tikilib qurtarandan sonra Allah aşağı gəlməyi və Öz möhtəşəm izzəti ilə otağı doldurmağı planlaşdırmışdır. O otaq təkcə Allaha məxsus idi! Ona görə də Allah Musaya dedi ki, Ən Müqəddəs Yerə girməyə çalışan hər bir şəxs öləcəkdir! Baş Kahindən başqa heç kim ora girə bilməzdi və baş kahin də ora yalnız ildə bir dəfə girə bilərdi. Bundan əlavə, baş kahin ora Allahın buyurduğu kimi, öz günahlarına və öz xalqının günahlarına görə qurban edilmiş heyvanın qanı ilə daxil olmalı idi.

Allah Musaya əmr etdi ki, əbrişim ağacından düzələn, üzəri təmiz qızıl ilə örtülmüş sandığı ən Müqəddəs Yerin içində qoysun. Sandıq ***Əhd Sandığı*** adlanırdı. Onlar Əhd Sandığının içərisində On Qanunun yazıldığı iki daş parçasını saxlamalı idilər. Sandığın yuxarısında olan qızıl qapağın üzərinə İsraillilərin günahlarının bağışlanması üçün Baş Kahin hər il heyvan qanı çiləyirdi. Buna görə də Allah bu örtüyü ***Kəffarə Qapağı*** adlandırdı.

Bundan sonra Allah Musaya Hüzur Çadırı əhatə etmək üçün böyük pərdəni necə düzəltməyi göstərdi. Həyətin divarı ağ pərdədən düzəlməli idi. Çadırı əhatə edən pərdədə **bir qapı** düzəltməli idi. Heç kim bu qapını keçmədən Hüzur Çadırının həyətinə daxil ola bilməzdi. Həyətin içində, qapının qarşısında Allah Musaya və İsraillilərə əmr etdi ki, bürüncdən qurbangah düzəltsinlər. Həyətin qapısından keçən hər bir kəs birinci qurbangahdan keçməli idi. Allah İsraillilərə və Adəmin bütün nəslinə Ona necə yaxınlaşma yolunu güstərirdi. İsraillilər Allaha necə yaxınlaşmalı idilər? Qan qurbanı yolu ilə.

***"Müqəddəs məskənin"*** həyətinə daxil olmaq istəyən hər bir kəs günahın əvəzi olaraq heyvan qurbanı ilə daxil olmalı idi. Allah İsraillilərə öyrədirdi ki, **heç kim Ona qan qurbanı olmadan yaxınlaşa bilməz**. Buna görə də Allah Musaya dedi: *"Hər məxluqa həyat verən qandır. Mən onu həyatınızın kəffarəsi üçün qurbangahda təqdim olunmağa təyin etmişəm;* ***çünki həyat verdiyinə görə kəffarə edən qandır****."* **(Levililər 17:11)**

Əgər kimsə Allaha ibadət etmək istəyirdisə, o ilk olaraq günaha görə heyvan qurbanı təqdim etməli idi. İbadət edən Hüzur Çadırının həyətinə öküz, qoyun və ya quş gətirməli idi. Qurbangahın qarşısında o əlini gətirdiyi qurbanın başına qoymalı və öz günahlarını Allaha etiraf etməli və heyvanı kəsməli idi. Ondan sonra, kahin qurban olunmuş heyvanın qanını götürüb qurbangaha və qurbangahın ətrafına səpər və sonra qurbanı yandırardı. Sonra isə Allah təqsirkar adamın günahlarını bağışlayardı. Çünki qüsursuz qurban onun yerinə ölmüşdür.

İsraillilər bu qurbanları davamlı olaraq hər il təkrarlamalı idilər. **Heyvan qurbanları Allahın müqəddəsliyini əbədiyyən razı sala bilməzdilər.** Onlar günahkarlar üçün gələcək olan **Qurtarıcının müvəqqəti şəkili idi** ki, Allah Adəmin nəslinin günah borcunu Öz salehliyi ilə güzəştə getmədən **daimi olaraq** bağışlaya bilsin.

Xilaskarın günahkarlar üçün edəcəyini illüstrasiya etmək üçün Allah İsraillilər üçün ildə bir dəfə gün qoydu ki, Baş Kahin Hüzur Çadırının ikinci otağına, Ən Müqəddəs Yerə, girərdi. O gün ***Kəffarə Günü*** adlanırdı. Həmin o gün, Baş Kahin Ən Müqəddəs yerə daxil olar və əhd sandığının kəffarə qurbanının qanını səpələyərdi. O heç vaxt Ən Müqəddəs yerə öz günahlarına və digərlərinin günahlarına görə qüsursuz qurban qanı gətirmədən daxil ola bilməzdi. Bu yolla Allah Satınalanın necə gələcəyini, Allahın günahkarları bağışlamaq üçün Öz qanını tökəcəyini və sonra əbədiyyən Öz hüzuruna qəbul edəcəyini göstərirdi!

Bizi dinləyənlər, bu günki dərsimiz ağılasımaz dərəcədə dərin və gözəldir. Və demək istədiyimiz şeylər də çoxdur. Amma yekunlaşdırmazdan əvvəl Hüzur Çadırı haqqında sənin başa düşdüyün bir şey olmalıdır. Çıxış Kitabının son fəslində Müqəddəs Yazılar deyir:

*"Rəbb Musaya necə əmr etmişdisə, İsrail övladları da bu işi eləcə tamamladılar. Musa bütün işləri nəzərdən keçirib gördü ki, onlar bu işə Rəbbin əmr etdiyi kimi əməl ediblər. Musa onlara xeyir-dua verdi... O vaxt bulud Hüzur çadırını bürüdü və* ***Rəbbin izzəti məskəni doldurdu****. Musa Hüzur çadırına girə bilmədi, çünki bulud onun üstündə yerləşmişdi və Rəbbin izzəti məskəni doldurmuşdu."* (Çıxış 39:42,43; 40:34,35)

Nə baş verdiyini görürsən? Hüzur Çadırı hazır olandan sonra, Allahın izzəti çadır üzərinə endi və Ən Müqəddəs yeri doldurdu və Allahın izzətinin nuru hər tərəfə yayıldı. O hətta günəşin işığından da güclü idi! Biz bunu yadda saxlamalıyıq ki, bütün bunları Allah Adəmin övladları arasında yaşamaq üçün göylərdən dünayaya gələcək Satınalan vasitəsi ilə gələcək daha böyük xeyir-duaları tərənnüm edirdi. **Satınalnın Özü həqiqi "Hüzur Çadırıdır", hansı ki,** Allah ilə əbədiyyən yaxın və gözəl münasibətdə olmaq üçün Allah verib. İncildə yazıldığı kimi:
*"Başlanğıcda Kəlam var idi. Kəlam Allahla birlikdə idi. Kəlam Allah idi....* ***Kəlam bəşər olub aramızda məskən saldı!*** *Biz də Onun ehtişamını gördük!... Dünyanın günahını aradan götürən Allah Quzusu budur!"* (Yəhya 1:1,14,29)

Bəli, Satınalan hüzur çadırı və heyvan qurbanı vasitəsi ilə rəmzləşdirilən **hər şeyi həyata keçirəndir**. Çünku O dünayaya yalnız **insanlar arasında yaşamaq** üçün deyil, həm də günahkarların əbədiyyən Allahla yaxın münasibətdə olması üçün Kamil Qurban kimi **Öz qanını da tökmək üçün** gəldi!

Bu gün oxuduqlarımızı başa düşmək çətindir? Onda gəlin yadda saxlayaq ki, Allahın Sözündə bəzən elə şeylər var ki, onları başa düşmək çətindir, amma bu onların həqiqət olmamasına dəlalət eləmir! Qoy biz heç vaxt Rəbbin Özünün dediyi bu sözləri yaddan çıxartmayaq: ***"Çünki Mənim fikirlərim sizin fikirləriniz deyil, sizin yollarınız Mənim yollarım deyil! ... göylər yer üzündən nə qədər yüksəkdirsə, yollarım da sizin yollarınızdan, fikirlərim də sizin fikirlərinizdən o qədər yüksəkdir!"*** **(**Yeşaya 55:8,9)

Rəbb sizə xeyir-dua versin və sizi Müqəddəs Kəlamdan bu ayələr ilə buraxırıq:

***"Allahın zənginliyi nə böyük,***
***hikməti və biliyi nə dərindir!***
***Onun hökmləri necə də ağlasığmaz,***
***Yolları necə də anlaşılmazdır!***
***Rəbbin ağlını kim dərk etdi?***
***Ona kim məsləhətçi oldu?***
***«Kim Ona bir şey verdi ki,***
***əvəzini Ondan istəyə bilsin?***
***Çünki hər şeyin mənbəyi Odur,***
***hər şey Onun vasitəsilə***
***və Onun üçün var oldu.***
***Ona əbədi olaraq izzət olsun! Amin."***
(Romalılara 11:33-36)

41-ci Dərs

# İsraillilərin İnamsızlığı

**Saylar 13,14**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Biz Tövrat kitabını araşdırmada davam edirik. Bildiyin kimi, Tövrat Peyğəmbərlərin Yazılarının birinci hissəsidir və beş kitabdan ibarətdir. **Yaradılış** adlanan birinci kitabda biz dünayaya özü ilə əzab, ölüm və mühakimə gətirən günahın necə daxil olduğunu öyrəndik. Amma biz Allahın Adəmi və onun nəslini günahın cəzasından, cəhənnəmin əbədi atəşindən xilas etməyə harızladığını gördük. Biz Allahın günahları bağışlamaq üçün Öz salehliyi ilə güzəştə getməyərək günahkarlar üçün qurban olacaq Satınalanı göndərəcəyini vəd etdiyini öyrəndik. Yaradılış kitabında biz Allahın İbrahimi necə seçməsi və ondan peyğəmbərlərin və nəhayət dünyanın Satınalanının çıxacağı böyük bir millət yaratma vədini gördük.

Tövratın ikinci kitabı olan **Çıxışda** biz, Allahın İbrahimin nəsli olan İsrailliləri Öz peyğəmbəri Musanın əli vasitəsi ilə Misirdəki köləlikdən necə qurtardığını gördük. Allah İsrail qəbiləsini Misirdən çıxardıb səhralığa, Sina Dağına gətirdi. Orda onlara Qanunları verdi və günahlarının bağışlanması üçün qan qurbanını öyrətdi.

Ötən dərsdə biz Allahın Musaya və İsraillilərə onların arasında yaşaması üçün Özünə gözəl və heyrətamiz Hüzur Çadırı tikridməyi əmr etdiyini gördük. Hər şey hazır olandan sonra "*bulud Hüzur çadırını bürüdü və Rəbbin izzəti məskəni doldurdu.*" (Çıxış 40:34) Allah İsraillilərə onlarla necə gözəl münasibətdə olmaq istədiyini göstərirdi. Amma heç kim Ona Hüzur Çadırının həyətində qan qurbanı gətirmədən yaxınlaşa bilməzdi. Heyvan qurbanı ilə Hüzur Çadırı sadəcə olaraq göylərdən gələcək olan, yerdə yaşayacaq və günahı aradan qaldırmaq üçün qurban kimi Öz qanını tökəcək olan Satınalanın rəmzi idi.

Tövratın **üçüncü kitabı olan Levililərdə** Allah günahı örtmək, İsraillilərin Allaha necə qurban gətirməsi haqqında ətraflı məlumat vermək üçün Musanı qanun yazmağa ilhamlandırdı. Bu çox dərinmənalı kitabdır və içindəkilərin hamısını oxumayacağıq. Əgər özün üçün oxusan, sən təxminən iki yüz dəfə işlədilən iki sözə fikir ver. Bu iki söz bütün kitabı cəmləyir. Bunlar ***"Müqəddəs"*** və ***"Qan"*** sözləridirlər. Nə üçün bu iki sözə kitabda tez-tez rast gəlinir? Çünki şəxsin başa düşəcəyi ən mühüm məlumatlardan biri odur ki, **Allah müqəddəsdir** və *"qan axıdılmadan bağışlanma olmur."* (İbranilərə 9:22) Tövratın üçüncü kitabının məqsədi İsraillilərə günahla ləkələnmiş, natəmiz insanın pak və müqəddəs olan Allaha necə yaxınlaşa bilməsini öyrətmək idi. Allah aydın göstərdi ki, heç kim Ona qan qurbanı olmadan yaxınlaşa bilməz.

Musanın Tövrat kitabının dördüncü hissəsi **Saylar** adlanır. Bu kitabda biz İsraillilərin təqribən bir il Sina Dağının ətəyində necə yaşadıqları haqqında oxuduq. O il ərzində Allah onlara çox şey öyrətdi və Musanı bu gün oxuduğumuz müqəddəs Tövrat kitabında daha çox şeylər yazmağa ruhlandırdı.

Amma Allah İsraillilərin əbədiyyən səhralıqda yaşamasını məqsədində tutmamışdır. Buna görə də bir gün, Allah onları tərpənməyə və irəli getməkdə davam etməyə, onlara vəd etdiyi

zəngin torpağa, Kənan torpağına doğru getməyə istiqamətləndirdi. Müqəddəs Yazılar bizə deyir ki, onlar Sinadan ayrılan günü Hüzur Çadırını örtən Allahın izzətinin buludu qalxdı və onlardan öncə getməyə başladı. Onlara yol göstərmək üçün Rəbbin Özü onları aparırdı. Gündüz bulud, gecə isə alov şəklində.

Beləliklə Allahın uzun illər əvvəl İbrahimə və onun nəslinə vəd etdiyi Kənan torpağına gəlib çatana qədər İsraillilər gündüz vaxt buludun, gecə isə alovun arxacınca gedirdilər. Allah Öz vədlərini unutmamışdır. Allahın sadiqliyinə və qüdrətinə görə Kənan torpağının sərhəddinə gəlib çatdılar.

Amma Kənan torpağı əhali ilə dolu idi. Kənanlıların sayı çox idi və onlar qüdrətli idilər. Bəs onda İsraillilər ora necə sahib ola bilərdilər? Yalnız bir yol var idi: **Allah onlara torpaq verəcəkdir.** Allah üçün heç bir şey çətin deyil! Allah İbrahimə vəd etmişdir: *"Kənan torpağını sənə və sənin nəslinə verəcəyəm!"* Allah Kənan əhalisini oradan çıxartmağı və torpağı İbrahimin nəsli İsrsaillilərə verməyi nəzərdə tutmuşdur. Bunu başa düşmək çox vacibdir ki, Kənanlıların günahı çox idi. Onlar böyük əxlaqsızlıqlarda, hətta öz övadlarını yalançı allahlara qurban gətirməkdə təqsirkar idilər. Allah Kənanlılarla uzun müddət çox səbirli oldu, amma onlar öz pis ehtiraslarında və günahlı yollarında davam edirdilər. Amma Allah Kənan torpağını İsrail qəbiləsinə verməyi vəd etmişdi.

İndi gəlin Tövratın dördüncü hissəsini oxuyaq və görək İsraillilər Kənan torpağının sərhəddinə yaxınlaşanda nə baş verdi. 13-cü fəsildə Müqəddəs Yazılar deyir:

(Saylar 13:1-3) *Rəbb Musaya dedi: «**İsrail övladlarına verəcəyim** Kənan torpağına nəzər salmağa adamlar göndər; atalarının hər qəbiləsindən bir rəhbər göndər». Musa Rəbbin əmrinə görə Paran səhrasından onları göndərdi; hamısı İsrail övladlarının başçılarındandır..... Onlar yola düşdülər və ölkəni nəzərdən keçirdilər....*

*(Saylar 13:25-33) Qırx gündən sonra ölkəni nəzərdən keçirib qayıtdılar. Paran səhrasındakı Qadeşə, Musa ilə Harunun və bütün İsrail övladlarının icmasının yanına gəldilər. Onlara və bütün icmaya xəbər gətirdilər, sonra ölkənin meyvələrini onlara göstərdilər. Musaya belə izah edərək dedilər: «Bizi göndərdiyin ölkəyə çatdıq. Həqiqətən də, **orada süd və bal axır.** Budur o torpağın meyvələri! **Lakin orada yaşayan xalq çox güclüdür.** Şəhərlər istehkamlı və çox böyükdür. Hətta orada Anaqlıları gördük!*

***Kalev** Musanın önündə camaatı sakitləşdirib dedi: «Gedib oranı ələ keçirək. Çünki biz mütləq onların öhdəsindən gələrik». Onunla gedən **adamlar isə** dedilər: «O xalqa hücum edə bilmərik, çünki onlar bizdən güclüdürlər». Nəzərdən keçirdikləri torpaq haqqında İsrail övladlarına pis xəbər gətirib dedilər: «Gözdən keçirmək üçün içindən keçdiyimiz torpaq öz əhalisinin başını yeyən torpaqdır və orada gördüyümüz hər kəs uca boyludur. Orada nəhəng adamların nəslindən olan Anaqlıları gördük. Onların yanında özümüzü çəyirtkə boyda hiss etdik, onlara da elə göründük».*

( Saylar 14:1-11) *Bütün **icma uca səslə fəryad qoparıb** gecə boyu ağladı. İsrail övladları Musaya və Haruna qarşı **deyindilər**; bütün icma onlara dedi: «Kaş Misir torpağında ya da bu səhrada öləydik! Nə üçün Rəbb bizi bu torpağa aparır? Yəni biz qılıncla qırılaq? Arvadlarımız və uşaqlarımız əsir olacaqlar. Misirə qayıtmaq bizim üçün daha yaxşı olmazdımı?» Sonra bir-birlərinə dedilər: «Özümüzə başçı seçək və Misirə qayıdaq». O zaman Musa ilə Harun orada toplanmış bütün İsrail icmasının camaatının önündə üzüstə yerə sərildi. Ölkəyə nəzər salanlardan Nun oğlu **Yeşua** və Yefunne oğlu **Kalev** paltarlarını*

*cırdılar; bütün İsrail övladlarının icmasına belə dedilər: «Nəzərdən keçirmək üçün içərisindən keçdiyimiz ölkə çox yaxşı bir ölkədir. Əgər Rəbb bizdən razı qalarsa, bizi o ölkəyə aparacaq, süd və bal axan torpağı bizə verəcək. Ancaq Rəbbə qarşı üsyankarlıq etməyin. Ölkənin xalqından qorxmayın, onları məğlub edə bilərik. Müdafiəçiləri onları atıb getmişdir,* ***amma*** *Rəbb* ***bizimlədir****. Onlardan qorxmayın!»*
***Lakin bütün icma «Onları daşqalaq edin!» deyəndə*** *Rəbbin izzəti Hüzur çadırında bütün İsrail övladlarına göründü. Rəbb Musaya belə dedi: «Nə* ***vaxtadək bu xalq Mənə hörmətsizlik edəcək?*** *Aralarında etdiyim əlamətləri görə-görə* ***nə vaxta qədər Mənə iman gətirməyəcəklər?***

Gəlin burada dayanaq. Sən İsraillilərin Allaha qarşı necə çıxdıqlarını və Onu incitdiklərini gördün? Onların inamsızlığını görürsən? Sən onların Allahı öz Sözünə qarşı getməsində iddihamlandırdıqlarını görürsən? Bəli, həmin gün İsraillilər Allaha qarşı çox böyük günah işlətdilər. Çünki onlar Allahın Kənan torpağını vəd olaraq onlara verməsinə **inanmadılar**. Onlar Allahın İbrahimə, İshaqa, Yaquba və Musaya vəd etdiyinə **inanmadılar**. Onlar bu gün belə deyən adamlar kimi idilər, "Biz Allaha və peyğəmbərlərə inanırıq!" amma əslində nə Allaha nə də ki, peyğəmbərlərə inanmırlar. Çünki onlar Allahın Müqəddəs Yazılardakı peyğəmbərlər vasitəsi ilə etdiyi vədlərə inanmırlar! İnamsızlıq Allaha qarşı dəhşətli günahdır.

Gəlin hekayəni oxumaqda davam edək.

(Saylar 14:26-32, 35-38) *Rəbb Musaya və Haruna dedi: «Nə vaxta qədər bu pis icma Mənə qarşı deyinəcək? İsrail oğullarının Mənə deyinmələrini eşitdim. Onlara de ki, Rəbb deyir: "Varlığıma and olsun ki, Mənə qarşı dediklərinizin eynisini sizə edəcəyəm.* ***Meyitləriniz bu səhraya səriləcək****. Mənə deyinən iyirmi və ondan yuxarı yaşda olub siyahıya alınanların hamısı səhrada öləcək, sizi sakin edəcəyimə əlimi qaldırıb and içdiyim torpağa girməyəcəksiniz. Oraya yalnız Yefunne oğlu* ***Kalev*** *və Nun oğlu* ***Yeşua*** *girəcək.*
*Lakin ‹əsir olacaqlar› dediyiniz* ***uşaqlarınızı*** *oraya aparacağam və sizin rədd etdiyiniz ölkəni onlar tanıyacaqlar. Sizə gəldikdə isə meyitləriniz bu səhraya səriləcək.... Mən Rəbb söylədim: "Həqiqətən,* ***Mənə qarşı birləşən*** *bu pis icmaya belə də edəcəyəm. Bu səhrada ölüb tələf olacaqlar."*

*Musanın ölkəni nəzərdən keçirmək üçün göndərdiyi adamlar qayıdıb ölkə haqqında pis xəbər gətirərək bütün icmanın Rəbbə qarşı deyinməsinə səbəb oldular. Ölkə haqqında pis xəbər gətirənlər Rəbbin önündə vəbadan öldü. Ölkəni nəzərdən keçirmək üçün gedənlərdən yalnız Nun oğlu Yeşua və Kalev sağ qaldılar.* **(çünki onlar Rəbbin sözünə inandılar).**

Rəbbin onları Fironun əlindən xilas edib Kənan torpağının sərhəddinə gətirdiyinə baxmayaraq, İsraillilər Allaha inanmaqdan imtina etidlər. Allah Onun Sözünə qulaq asmayanlarla nə etdi? O, onları səhralıqda ölməyə məhkum etdi! Nə üçün İsraillilərin bu nəsli Kənan torpağına girə bilmədi? **Çünki onlar Allahın Sözünə inanmırdılar!**

Dostlar, Allahın Sözünə inanmağı rədd etmək dəhşətli faciədir. Allah Ona inanmağı rədd edən hər bir kəsi məhkum etməlidir! Allahın dediklərinə xor baxan və laqeyidsizlik göstərən hər bir kəs Allahı yalançı adlandırır və Onun əbədi padşahlığında ola bilməz! Bu Allahın iradəsi deyil ki, kimsə inamsızlıqda məhv olsun! Allah istəyir ki, hamı Onun qoyduğu xilas yolu haqdakı Xoş Xəbərə inansın. Amma hərə özü üçün qərar verir. Allahın Sözünə

inanmağı rədd edən hər bir kəs məhv olacaqdır. Peyğəmbərlər vasitəsi ilə Allahın Müqəddəs Ruhunun etdiyi xəbərdarlığa qulaq as:

*"Bu gün əgər Onun səsini eşitsəniz, qoy ürəkləriniz üsyan vaxtı olduğu kimi, səhradakı sınaq günündə olduğu kimi inadkar olmasın.... Ey qardaşlar, diqqətli olun ki, sizlərdən heç birinizdə var olan Allahdan uzaqlaşan şər və imansız ürək olmasın!"* (İbranilərə 3:7,8,12; Zəbur 95:7-11)

Bizi dinlədiyiniz üçün çox sağ olun. Allahın iradəsi ilə gələn dərsdə biz Allaha inanmağı rədd edənlərin səhralıqda Allahın dediyi kimi necə məhv olduqlarını görəcəyik....Müqəddəs Yazılardan bu xəbərdaqlığa diqqət yetirdikcə, Allah sizə xeyir-dua versin:

***"Ey qardaşlar, diqqətli olun ki, sizlərdən heç birinizdə var olan Allahdan uzaqlaşan şər və imansız ürək olmasın."*** (İbranilərə 3:12)

42-ci Dərs

# Bürünc İlan

**Saylar 20,21**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərs, Tövratın 4-cü hissəsi olan Saylar kitabında biz İsraillilərin Allahın İbrahimə, İshaqa, Yaquba və onların nəsillərinə vəd etdiyi Kənan torpağının sərhəddinə gəlib çatdıqlarını gördük. Allah bu torpaqda yaşayan bütün zalım, nəhəng adamları buradan çıxardıb, hər şeyi İsraillilərə verməyi nəzərində tutmuşdur. Amma İsrail xalqının əksəriyyəti bu nəhəng adamlardan qorxurdu və **Allahın Kənan torpağını onlara vermə vədinə inanmağı rədd edirdi.**

Onların inamsızlıqlarına görə Allahın onları cəzalandırmasını oxuyuruq. Allah onlara dedi:

***"Sizi sakin edəcəyimə əlimi qaldırıb and içdiyim torpağa girməyəcəksiniz. Oraya yalnız Yefunne oğlu Kalev və Nun oğlu Yeşua girəcək.*** *Lakin ‹əsir olacaqlar› dediyiniz uşaqlarınızı oraya aparacağam və sizin rədd etdiyiniz ölkəni onlar tanıyacaqlar. Sizə gəldikdə isə meyitləriniz bu səhraya səriləcək."* (Saylar 14:30-32)

Biz bunu başa düşməliyik ki, Allah İsrail xalqına bol-bol xeyir-dua vermək istəyirdi amma **onların inamsızlıqlarına görə O xeyir-dua verə bilmirdi.** Allahın vədinə inanmağı rədd etdiklərinə görə, Allah bütün 20 yaşından yuxarı olub, Ona inanmayanlar ölənə qədər, İsrail xalqını 40 il səhralıqda dolaşmağa məhkum etdi.

İndi gəlin Saylar kitabında davam edək və inamsızlıqlarına görə 40 illərini səhralıqda keçirdikdən sonra onlar ilə nə baş verdiyinə baxaq. 20-ci fəsildə biz oxuyuruq:

(Saylar 20:1-5) *Birinci ay bütün İsrail övladlarının icması Zin səhrasına gəldi. Onlar Qadeşdə dayandılar. Məryəm oradaca öldü və elə orada da basdırıldı. İcma üçün su yox idi, ona görə Musa və Haruna etiraz etmək üçün toplandılar. Xalq Musaya* ***narazılıq*** *edib dedi: «Kaş ki biz də soydaşlarımızla birgə Rəbbin önündə öləydik!*
*Rəbbin camaatını bu səhraya nə üçün gətirdiniz? Bizim və heyvanlarımızın burada ölməsi üçünmü? Nə üçün bizi Misirdən çıxarıb belə pis yerə gətirdiniz? Bura nə əkin, nə əncir, nə bağ, nə də nar yeridir. İçməyə belə, su yoxdur».*

Sən İsraillilərin dedikərini eşidirsən? Allahın onlara etdiklərindən sonra və onların atalarının Misirdə və sonra səhralıqda olmalarından sonra ürəkləri minnətdarlıq və etdibar ilə dolu idi? Xeyr! Onlar da eyni ilə ataları kimi edirdilər. Deyinirdilər! Əlbəttə, onlar səhralıqdan yorulmuşdular, amma yadda saxlamalı idilər ki, onlar öz inamsızlıqlarına görə Kənan torpağına daxil ola bilməmişdilər. Düzdür, İsraillilərin suyu yox idi. Bəs onda nə üçün onlar Allaha dua etmədilər? 40 il susuz səhralıqda onların qayğısına qalan içmək üçün onlara su verə bilməzdi? Əlbəttə, verə bilərdi! Allah onların bütün ehtiyaclarını təmin etməyə qadir idi. Amma İsraillilər öz Allahları Rəbbə tamlıqla etibar etmirdilər.

Müqəddəs Yazılar deyir:

**(Saylar 20:6-12)** *Musa ilə Harun camaatın önündən Hüzur çadırının girişinə getdilər və üzüstə yerə sərildilər. Rəbbin izzəti onlara göründü.* **.** *Rəbb Musaya dedi: «Əsanı götür, sən və qardaşın Harun icmanı toplayın və onların gözü önündə qayaya su versin deyə söyləyin. Qayadan onlara su çıxart, icmaya və heyvanlarına içirt».*
*Musa əmr olunduğu kimi əsanı Rəbbin önündən götürdü. Musa ilə Harun camaatı qayanın önünə topladılar və onlara dedilər: «Ey dönük olanlar, indi dinləyin; bu qayadan sizə su çıxaraqmı?» Musa əlini qaldırdı və əsası ilə iki dəfə qayaya vurdu, qayadan bol su çıxdı. Bütün icma və onların heyvanları su içdilər.*
*Lakin Rəbb Musaya və Haruna dedi: «Madam ki İsrail övladlarının gözü önündə Mənim müqəddəsliyimi göstərərək Mənə iman etmədiniz, bu camaatı onlara verdiyim ölkəyə aparmayacaqsınız».*

Nə baş verdiyini gördün? İsrail xalqının içməyə suyu olması üçün Allah Musaya nə etməyi əmr etdi? O dedi: *"Qayaya de!"* Qayaya deməklə Musa Allaha itaət etdi? Xeyr! Qəzəblənərək Musa qayanı iki dəfə vurdu. Bu, Allahın Öz xeyirxahlığına görə, qayadan suyun çıxmasını dayandırmadı, amma Musanın etdiyi Allahı narazı etdi. Buna görə də Allah belə deyərək onu cəzalandırdı: *"Mənim müqəddəsliyimi göstərərək Mənə iman etmədiniz, bu camaatı onlara verdiyim ölkəyə aparmayacaqsınız."*

Bəlkə fikirlərimizdə, Allahın Musaya verdiyi cəza çox ağır görünə bilər. Amma biz yadda saxlamalıyıq ki, Allahı razı salan şey Onun Sözünə iman və itaətdir. Allah Öz Sözünə qarşı olan heç bir şeyi qəbul edə bilməz, hətta bu Musa peyğəmbərdən gəlsə belə!

Allahda ayrı seçkilik yoxdur! Musa böyük peyğəmbər idi. amma o da bizim kimi adam idi. O da Adəmin nəslindən olan hər bir kəs kimi günahlı idi. Hətta Allahın peyğəmbəri Musa belə öz yaxşı işlərinə görə özünü xilas edə bilməzdi. Adəmin bütün nəsli kimi,onun da nöqsanı var idi və saleh olan bütün şeylərə əməl etməmişdir. Musa peyğəmbər də bütün İsraillilər kimi, Allahın qoyduğu xilas yolu, qan qurbanı vasitəsi ilə gəlməli idi. Musanın günahı vasitəsi ilə Allah bizə xatırlatmaq istəyir ki, hamı günah işlədib və Allahın izzətindən məhrum olub. Bütün insanlar Allah qarşısında təqsirkardırlar. Hamı günah işlədib. Heç kim saleh deyil! Kamillik dərəcəsində saleh olan və günahlı insanları xilas etmək üçün gələn Satınalandan başqa, elə bir adam yoxdur ki, o yolunu azmasın!

21-ci fəsildə Müqəddəs Yazılar deyir:

(Saylar 21:4-9) *Xalq Hor dağını tərk edib Edom torpağının ətrafından keçmək üçün Qırmızı dəniz yolundan keçdi. Yolda onların səbri tükəndi. Onlar Allaha və Musaya qarşı deyinirdilər: «Nə üçün siz bizi Misirdən çıxardınız? Səhrada ölmək üçünmü? Axı burada nə çörək, nə də su var. Bu dadsız yeməkdən də iyrənirik».*

*O zaman Rəbb xalqın arasına zəhərli ilanlar göndərdi. İlanlar xalqı sancdı və İsrail övladlarından çox adam öldü. Xalq gəlib Musaya dedi: «Biz günah etdik, çünki Rəbbə və sənə qarşı deyindik. İndi isə ilanları bizdən uzaqlaşdırmaq üçün Rəbbə yalvar». Musa xalqı xilas etmək üçün Rəbbə yalvardı. Rəbb Musaya dedi: «Özünə bir ilan düzəlt və onu uzun dəyənəyin üzərinə qoy. İlan vuran adam ona baxdıqda sağalsın».*
*Musa tuncdan bir ilan düzəltdi və dəyənəyin üzərinə qoydu, ilan vuran hər adam tunc ilana baxan kimi sağalırdı.*

Gəlin bu valehedici hekayə haqqında düşünək. Nə üçün Allah İsraillilərə zəhərli ilanlar göndərdi? O ilanları onların **günahlarına görə** göndərdi. Biz onların Allaha və Musaya qarşı

danışdıqlarını və Allahın onlar üçün göndərdiyi yeməyə də xor baxdıqlarını gördük. Buna görə də Allah zəhərli ilanları göndərdi ki, onları sancsın və bununla da çoxları **öldü**.

**İsarillilər ölümdən qurtulmaq üçün nə edə bilərdilər?** Onlar özlərini ilanların bəlasından qurtara bilərdilər? Onlar özlərinə ölümcül zəhərdən şəfa verə bilərdilər? Qeyri-mümkündür! Bəs onda onlar nə edə bilərdilər? Onlar Allahı çağıra bilərdilər! Və onlar bunu etdilər. Biz İsraillilərin tövbə etdiyini və Musaya gedib belə dediklərini gördük:
"Biz günah işlətmişik! Biz sənə və Allaha qarşı günah işlətmişik! Rəbbə dua et ki, bizə mərhəmət etsin və bu ilanları bizdən götürsün!"

Allah onlar üçün ilanları götürdü? O bundan daha yaxşısını etdi! Allah Musaya dedi ki, bürüncdən ilan düzəltsin və onu taxta ilə qaldırsın ki, *"ilan sancan hər bir kəs ora* ***baxsın*** *və* ***yaşasın."*** Bu Allahın onlar üçün **əlacı** idi. Əgər ilan kimisə sancmışdırsa, şəxsə gərək olan yeganə şey taxtadan sallanan o bürünc ilana baxmaq və şəfa tapmaq idi! Bu Allahın təmin etdiyi qurtuluş yolu idi: **Bax və yaşa**!

Allah söz verdi ki, Musanın taxtadan asdığı bürünc ilana baxan hər kəsə şəfa verəcək. Baxmağı rədd edənlər ilə nə baş verdi? Onlar ağrılı ölüm ilə öldülər. Amma Allaha inanan və bürünc ilana baxan hər bir kəs ölümdən xilas oldu. Çünki Allah onlara belə deyərək vəd etmişdir: *"İlan sancan* ***hər kəs*** *ona* ***baxa*** *və* ***yaşaya*** *bilər."*

Doğrudan bu heyrətamiz hekayədir, amma bundan əlavə, bu bizi öyrətmək üçün yazılıbdır. Allah bizə göstərmək istəyir ki, bizim hamımız İsraillilər kimiyik. Biz də günahkarıq və buna görə də tez-tez Allaha və insana qarşı deyinirik, Allahı öz düşüncələrimizdə, sözlərimizdə və öz hərəkətlərimizdə təhqir edirik. Şeytan İsraillilər sancan zərərli ilan kimidir. Günah isə onları öldürən zəhər kimidir. Şeytan Adəmin bütün övladlarını sancıb və Allah bizim üçün **əlac** təmin etməsə günahın zəhəri onların hamısının əbədiyyən məhv olmasına səbəb olacaqdır! Günahın əvəzi əbədi alovda məhv olmaqdır və özlüyümüzdə bundan qurtula bilmərik! Amma Allaha şükür olsun ki, İsraillilər üçün ilanın zəhərindən xilas etmək planı hazırladığı kimi, O həmçinin Adəmin övladlarını da günahın zəhərindən xilas etmək planı hazırlayıb!

Bizi dinləyən, sən heç bilirsən günahın gətirdiyi lənətdən səni xilas etmək üçün Allah nə edib? Səhralıqda Musanın bürünc ilanı qaldırdığından 500 il sonra müqəddəs **Xilaskarın dediyi sözlərə qulaq as**. O dedi: *"Musa çöldə ilanı yuxarı qaldırdığı kimi Bəşər Oğlu da yuxarı qaldırılmalıdır ki ... Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun!"* (Yəhya 3:14,16)

İncildəki bu ayədən biz səhralıqda Musanın qaldırdığı bürünc ilan haqqında öyrənirik ki, o dünyaya gələcək olan və ölümün hakimiyyətini əlində saxlayan iblisi məğlub etmək üçün taxta üzərində öləcək olan Satınalanın şəkili idi. (İbranilərə 2:14) Bu xəbər necə də gözəldir! Gələn dərslərdə Satınalanın ölümü və dirilməsi vasitəsi ilə Allahın Adəmin övladları üçün xilas qapısı açmasını, əbədiyyən sülh və sevinc verməsini aşkar edəcəyik! Allahın səndən istədiyi yeganə şey etiraf etməkdir ki, sən özünü günahın hakimiyyətindən xilas edə bilməzsən və sənin günahının borcunu ödəmək üçün öləcək Xilaskar haqqında Allahın bizə dediklərinə ürəyində inanmaqdır. Allah deyir: **Satınalana bax və sən yaşayacaqsan!** Ona inan və Allah sənə şəfa verəcəkdir, səni günahın zəhərindən xilas edəcək və göylərdə Öz hüzurunda, əbədi olduğu yer üçün səni qoruyacaqdır!

Yaşlı və cavan, kişi və qadın, zəngin və fəqir, Allah hamıya deyir: **Bax və yaşa!** Allahın göndərdiyi qüdrətli Satınalana bax və sən xilas olacaqsan! Allah həm də deyir: Əgər sən baxmağı rədd edirsənsə, əgər sən günahın yeganə əlacı olan Allahın təmin etdiyi Xilaskara inanmırsansa, onda *"günahlarınız içində öləcəksiniz!"* (Yəhya 8:24) Allahın ədalətli qanunu bəyan edir ki, Onun təmin etdiyi əlacı qəbul etməyən hər bir kəs **məhv olacaqdır.** Adəmin övladlarının günahın zəhərindən şəfa tapması üçün Allahın başqa əlacı yoxdur. Bütün peyğəmbərlərin haqqında yazdığı Satınalana baxmısan? Əgər sən sadəcə olaraq yalnız Ona etibar etsən, O səni təmizləyəcək və sənə əbədi həyat verəcəkdir. Müqəddəs Yazıların dediklərinə yenidən qulaq as*: " Musa çöldə ilanı yuxarı qaldırdığı kimi Bəşər Oğlu da yuxarı qaldırılmalıdır ki...* ***Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun!"*** (Yəhya 3:14,16)

Bizi dinlədiyiniz üçün çox sağ olun. Gələn dəfə, Allahın iradəsi ilə biz Musa peyğəmbərin son sözlərinə nəzər salacağıq və bununla Müqəddəs Tövratdakı dərsimizi bitirəcəyik.... Allahdan olan bu vəd haqqında düşündükcə, Rəbb sizə xeyir-dua versin:

***"Mənə tərəf dönün və xilas olun!"*** (Yeşaya 45:22)

43-cü Dərs

# Musanın Son Müraciəti

**Qanunun Təkrarı**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən 42 dərs ərzində biz Müqəddəs Yazılarda birinci kitab olan Tövrata baxdıq. Bildiyin kimi, Allahın Özü bu Sözləri Musaya vermişdir, bu kitabı yazmaq üçün onu ilhamlandırmışdır. Musanın Tövrat kitabını yazmasından təqribən 3500 il ötüb keçibdir, amma bu gündə bu kitab bizə hədsiz dərəcədə dəyərlidir. Tövrat, Allahın Özünün qoyduğu təməldir ki, biz burada eşitdiyimiz hər şeyi yoxlaya bilərik və bunun Allahdan olub-olmamasını ayırd edə bilərik. Tövratda olan təlim Allahdan olan saf həqiqətdir. Buna zidd olan hər bir şey yalandır. Allahın bütün həqiqətləri Tövratda yazılanlarla mükəmməl vəhdət təşkil edir. Qüdrətli Allahın edə bilməyəcəyi bir şey var. Bilirsən bu nədir? **Allah Özünə qarşı gedə bilməz!** Tövrat kitabında Musa bu sözləri yazıb***, "Allah insan deyil ki, yalan söyləsin, bəşər oğlu deyil ki, fikrini dəyişdirsin. Dediyini həyata keçirməzmi? Verdiyi sözü yerinə yetirməzmi?"*** (Saylar 23:19)

Musanın yazdığı Tövrat kitabını oxuduqca, Allah bizə çox dərinmənalı sirrlər açdı. Bu gün biz Müqəddəs Tövratda öz səyahətimizi yekunlaşdırmağı planlaşdırırıq. Amma son fəsillərə baxmazdan əvvəl, gəlin başlanğıcdan bəri gördüklərimizi nəzərdən keçirək.

Tövratın birinci fəsilində biz Allahın insanı Öz surətində yaratdığını gördük. Allah yaratdığı insanla gözəl və mənalı **münasibətdə** olmaq istəyirdi. Buna görə də O, insanın canında ağıl yerləşdirdi ki, o, Allahı tanıya bilsin. Ona ürək verdi ki, Allahı sevə bilsin və ona iradə verdi ki, özü üçün Allaha itaət edib etməməyi seçsin.

Üçüncü fəsildə biz ilk insan olan Adəmin şeytana itaət etməyi seçdiyini və Allahın qadağan etdiyi ağacın meyvəsindən yediyini gördük. Beləliklə, Müqəddəs Yazılar deyir: *"Beləliklə, günah bir insan vasitəsilə, ölüm də günah vasitəsilə bu dünyaya gəldi. Beləcə ölüm bütün insanlara yayıldı, çünki hamı günah etdi."* (Romalılara 5:12) Günahın əvəzi ölüm və əbədiyyən Allahdan ayrı düşməkdir.

Biz Allahın Adəm və Həvvanın öz günahına görə Cənnət Bağından necə qovduğunu gördük. Amma onları qovmazdan əvəl Allah Adəmin nəslini şeytanın hakimiyyətindən və günahın cəzasından azad etmək üçün xilas qapısı açaraq dünyaya bir gün Satınalan göndərəcəyi planını elan etdi.

Sonra biz Allahın İbrahimi necə çağırdığını, ondan peyğəmbərlərin və Satınalanın çıxacağı xüsusi bir xalq yaradacağını vəd etdiyini öyrəndik. İbrahimdən İshaq oldu; İshaqdan Yaqub; və Yaqubun da on iki oğlu oldu. Sonra, Allah Yaqubun adını dəyişib İsrail etdi. İsrailin on iki oğlu Allahın İbrahimə vəd etdiyi yeni milləti yaratdı. On böyük qardaş, kiçik qardaşları Yusifi qul kimi satdılar və o Misirə aparıldı. Biz İsrailin bütün övladlarının Misirdə köləyə çevrildiklərini gördük. Buna baxmayaraq Allah İbrahimə və onun nəslinə etdiyi vədi

unutmamışdır. Çıxış kitabında biz Allahın İsrail xalqını köləliyin əsarətindən azad etmək üçün Musanı çağıraraq İbrahimə etdiyi vədi yerinə yetirdiyini öyrəndik.

Musanın hekayəsini öyrənəndə biz Allahın İsrailliləri Fironun və Misir xalqının zülmündən qurtaran zaman baş verən heyrətamiz və gözəl hadisəni oxuduq. Biz Allahın onları səhralıqda necə qoruduğu və uzun illər əvvəl ulubabalarına vəd etdiyi Kənan torpağının sərhəddinə gətirdiyi haqda da oxuduq. Amma İsraillilərin əksəriyyəti Kənandakı nəhəng adamlardan qorxurdu və Allahın onlar üçün vəd etdiyini yerinə yetirməkdə Allaha etibar etmədilər. Buna görə də o vaxt onlar zəngin torpağı olan Kənana daxil olmadılar.

İnamsızlıqlarına görə İsraillilər Allahın Kənan torpağı haqqında verdiyi vədə inanmayanlar ölüb qurtarana qədər onlar 40 il səhralıqda dolaşdılar. Bu onların inamsızlıqlarına görə Allahın onlara verdiyi cəza idi. Əlbəttə *"Sadiq Allahdır, heç zaman haqsızlıq etməz, adil və doğru olan Odur!"* (Qanunu Təkrarı 32:4)

İndi isə gəlin Tövrat kitabındakı səyahətimizi bitirək. Yadda saxla, Allah İsrailliləri inamsızlıqlarına görə cəzalandırdığı üçün onlar səhrada idilər. İyirimi yaşından yuxarı olan və Allahın Kənan torpağı haqqında vədinə inanmayan hər bir kəs öldü. Heç biri sağ qalmadı. İndi onların övladları Kənanın sərhəddində idilər. 40 il səhralıqda olandan sonra, İsrail övladları valideynlərinin girə bilmədiyi torpağa daxil olmaq üçün çox həyəcanlı idilər!

Bizim bu günki dərsimiz Tövratın beşinci kitabı olan **Qanunun Təkrarıdır**. Bu sonuncu kitabda Musa Allahın müqəddəs qanununu nəzərdərn keçirir və İsrail qəbiləsinə öyrədir. Bu dərin kitab xalqı Allahın vəd etdiyi torpağa daxil olmağa hazırlamaq üçün Musanın **son məlumatı** idi. Musanın bütün öyrətdiklərini bir sözlə yekunlaşdıra bilərik: **"Unutma!"**

Qısaca, Musa İsraillilərə buna bənzər bir şey dedi: Ehtiyatlı olun! Unutmayın ki, siz Misirdə qul olmusunuz! Misir və daxil olacağınız torpaq arasındakı yol boyu Allahın sizə etdiyi bütün şeyləri unutmayın! Rəbb Allaha qarşı sizin etdiyiniz günahları unutmayın! Hələ də cəsədlərinin səhralıqda olduğu valideynlərinizin inamsızlığına görə Allahın onları necə cəzalandırdığını unutmayın. **Bunu unutmayın!**

Bu gün Allahın səsini eşitsəniz, valideynlərinin səhralıqda etdiyi kimi ürəyinizi sərtləşdirməyin. Siz də ulubabalarınız kimi Allaın Sözünə inanmağı rədd edəcəksiniz, yoxsa Allahınız Rəbbə inanacaqsınız? Əgər siz də ulubabalarınız kimi Allahın Sözünə inanmağı rədd etsəniz, onları cəzalandırdığı kimi Allah sizi də cəzalanıdıracaqdır. **Bunu unutmayın!**

Allah sizi ulubabalarınıza vəd etdiyi süd və bal tökülən torpağa gətirəcəkdir. Torpağı sizə verən Allahı unutmayın, çünki insan yalnız çörəklə yaşamaz, amma Allahın ağzından çıxan hər biz söz ilə yaşar! **Bunu unutmayın!**

Musa vəzini qurtarandan sonra, Rəbb Musaya dedi:

(Qanunu Təkrarı 32:49-52) *Avarim dağına, Nevo dağına çıx. İsrail övladlarına mülk olaraq verəcəyim Kənan torpağını gör. çıxacağın dağda ölüb xalqına qovuşacaqsan.... Çünki .... İsrail övladlarının önündə Məni müqəddəs saymamaqla İsrail övladları arasında Mənə xəyanət etdiniz. Ona görə ölkəni uzaqdan görəcəksən, lakin İsrail övladlarına verəcəyim torpağa girməyəcəksən».*

(Qanunu Təkrarı 34:1-12*) Musa Moav düzənliyindən Nevo dağına gedib Yerixo qarşısında olan Pisqa təpəsinə çıxdı. Rəbb ona bütün ölkəni göstərdi. ....Qərb dənizinə qədər uzanan bütün Yəhuda torpağını göstərdi..... Sonra Rəbb ona dedi: «İbrahimə, İshaqa və Yaquba vəd etdiyim torpaq budur, oranı sizin övladlarınıza verəcəyəm. Mən izin verdim ki, oranı öz gözlərinlə görəsən. Lakin oraya girməyəcəksən». Rəbbin sözünə görə qulu Musa elə orada – Moav torpağında öldü. Rəbb onu Moav torpağında olan Bet-Peor qarşısındakı dərədə dəfn etdi. Bu günə qədər heç kim onun qəbrinin yerini bilmir. Musa öləndə yüz iyirmi yaşında idi. Gözü nurdan düşməmiş, taqəti çəkilməmişdi. İsrail övladları Musa üçün Moav düzənliyində otuz gün matəm və yas tutdular.*
*Musa üçün olan ağlaşma və yas günləri qurtardı.Nun oğlu Yeşua hikmət ruhu ilə dolmuşdu, çünki Musa onun üzərinə əllərini qoymuşdu. İsrail övladları da ona qulaq asdılar və Rəbbin Musaya əmr etdiyi hər şeyə əməl etdilər.*

*İsraildə Musa kimi Rəbbin üz-üzə görüşdüyü bir peyğəmbər bir daha çıxmadı. Rəbb onu göndərmişdi ki, Misir torpağında firona, onun bütün əyanlarına, ölkəsinə çoxlu əlamətlər və möcüzələr göstərsin.*
*Musanın əməlləri İsraillilərin gözləri önündə böyük və zəhmli idi."* **Amin**

Əziz dostlar, Tövrat burada bitir. Bütün bunlar Tövratda ona görə yazılıb ki, biz bilik əldə edək. O bilik ki, bizi Allahın xilas yoluna aparacaqdır. Həqiqətən, Musa **böyük peyğəmbər idi.** O Rəbb Allahı yaxından tanıyırdı. O Allahdan möcüzəli əlamətlər göstərdi. Musanın əli ilə Allah İsrailliləri Fironun əsarətindən xilas etdi. Həmçinin onun əli ilə Allah bizə Müqəddəs Yazıların ilk kitabı olan Tövratı verib. Hamı Musa peyğəmbərin yazdıqlarını bilməlidir. Musanın Tövratını tanımayan hər bir kəs çox şeydə səhv edəcək və salehsizlik yolunda məhv olmaq təhlükəsindədir. Yadda saxla, Tövrat Allahın Özünün qoyduğu təməldir. O təməl ki, Allah bütün peyğəmbərlər vasitəsi ilə Müqəddəs Kitabın qalan hissəsini də yazacaqdır.

Həqiqətən, Musa peyğəmbər möcüzəli, dərinmənalı və gözəl sözlər yazıb. Amma Musanın etdiyi və yazdığı bütün şeylərin heç biri Tövratın beşinci kitabının 18-ci fəsilində etdiyi bəyannamədən mühüm deyildir. O fəsildə Musa İsraillilərə birbaşa Allahla danışan digər, daha qüdrətli peyğəmbər yetdişdirəcəyi planını dedi.

(Qanunu Təkrarı 18:15-19) *Allahınız Rəbb sizin üçün aranızdan – öz soydaşlarınız içərisindən mənim kimi bir peyğəmbər yetirəcək. Ona qulaq asın. Çünki Xorevdə yığıldığınız gün Allahınız Rəbdən bunu diləmişdiniz: "Qoy bir də Allahımız Rəbbin səsini eşitməyək və bir daha bu böyük alovu görməyək, yoxsa ölərik". Onda Rəbb mənə dedi:* ***"Dedikləri doğrudur. Onlar üçün soydaşları arasından sənin kimi bir peyğəmbər yetirəcəyəm və sözlərimi onun dilindən eşidəcəksiniz. O əmr etdiyim hər şeyi sizə söyləyəcək. Mənim adımla söylədiyi sözlərə qulaq asmayan adamı ittiham edəcəyəm."***

Bu bəyannamə ilə Musanın ağzı ilə Allah İbrani xalqından olan ( 15,18-ci ayələr) Allahın Sözünü tamlıqda və paklıqda (18,19-cu ayələr) deyən, Allah ilə insan arasında Vasitəçi olan Peyğəmbər haqqında elan edirdi. Musa əvvəlki xəbərdalığı da İsrail xalqına çıxartdı: ***"Siz ona qulaq asmalısınız!... Əgər kimsə peyğəmbərin mənim adımla danışmasına qulaq asmasa, mən özüm onu hesabata çağıracağam."***

Dostlar, bizim Tövratı öyrənmə dərsimiz burada bitir. Bu böyük və gözəl kitabdakı səyahətimizi necə bitirə bilərik? Gəlin bunu Musa ölən günü onun İsrail xalqı üçün etdiyi bəyanlarla qurtaraq. 32-ci fəsildə Musa dedi:

***"Ey göylər, qulaq asın, söyləyəcəyəm, qoy yer üzü dilimdən çıxan sözləri eşitsin... Rəbbin ismini elan edəcəyəm! Allahımızın əzəmətini mədh edin! O, işləri kamil Qayadır, çünki bütün yolları haqdır, sadiq Allahdır, heç zaman haqsızlıq etməz, adil və doğru olan Odur!"*** (Qanunu Təkrarı 32:1,3,4)

Musanın ağzından çıxan Allahın bu Sözləri ilə sizinlə bu gün sağollaşırıq. Dinlədiyiniz üçü çox sağ olun. Gələn dəfə Allahın iradəsi ilə biz Tövratdan sonra gələn kitabı oxumağa başlayacağıq və Allahın İsrail xalqını uzun illər əvvəl onlara vəd etdiyi süd və bal axan torpağa aparacağını görəcəyik....

Yeganə izzətə və şərəfə əbədiyyən layiq olan Allah sənə xeyir-dua versin! Musa peyğəmbər bunu çox gözəl demişdir:

***"Sadiq Allahdır, heç zaman haqsızlıq etməz, adil və doğru olan Odur!"*** (Qanunu Təkrarı 32:4) Amin!

44-cü Dərs

# Yeşua və Kənan Torpağı

### Yeşua

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz Peyğəmbərlərin Yazılarında olan Musanın Tövrat kitabını oxumağı bitirdik. Müqəddəs Tövratda biz dünyaya günahın necə daxil olmasını və özü ilə lənət gətirməsini öyrəndik. Amma biz Rəbb Allahın Öz gözəl planı ilə Adəmin övladlarını günahın gətirdiyi lənətdən qurtarmaq üçün Xilaskar göndərəcəyini öyrəndik. Dünyaya Xilaskar göndərməklə Öz planını irəli sürən Allah İbrahimi öz ata evini tərk etməyə və uzaqlara, Kənan torpağına getməyə çağırdı. Allah İbrahimdən Qurtarıcının gələcəyi yeni milləti yaradacağını nəzərdə tutmuşdur. İbrahim Kənan torpağına gəlib çatandan sonra, Allah yenidən ona göründü və belə deyərək vəd etdi: *"Qərib olduğun bu Kənan toprağını Mən əbədiyyən sənin nəslinə verəcəyəm!"* Bu gün biz Allahın İbrahimə verdiyi vədi necə həyata keçirdiyini və Kənan torpağını İbrahimin nəslinə, İsraillilərə verdiyini görəcəyik. Kənan bugün İsrail adlandırdığımız ölkədir.

Tövratın son fəsilində biz Musanın dağın təpəsindən Kənan torpağına baxaraq necə ölməsini eşitdik. Musa öləndən sonra, onun köməkçisi Yeşua yeni rəhbər oldu. Yeşua Musanı əvəz etmək üçün Allah tərəfindən seçilmişdir. Biz artıq bir neçə dəfə Yeşuanı görmüşük. Yeşuanın fərqləndirici xassiyyəti bu idi ki, İsraillilərin əksəriyyəti Allaha inanmayanda o Allahın bütün vədlərinə inanırdı. Yeşua, İsraillilərin Kənan torpağının sərhəddinə çatandan Allaha inanan iki casusdan biri idi. İsraillilər sadəcə olaraq onu Rəbbə inanmasına və Kənan torpağına sahib olmasına görə onu daşlamağa və öldürməyə hazır idilər. Bu gün biz İsraillilərin 40 il rədd etdiyi Allahın rəhbər olmağa seçdiyi və onları Kənan torpağına aparacağı həmən bu Yeşuanı görəcəyik!

Bu gün oxuyacağımız Yeşua kitabı Müqəddəs Kitabda, Tövrat ilə Zəbur kitablarının arasında yerləşir. Yeşua kitabı uzun illər əvvəl Allah İbrahimə dediyi sözləri yerinə yetirməsi haqqında danışır: *"Sənə və səndən sonrakı nəslinə qərib kimi yaşadığın bu torpağı – bütün Kənan torpağını əbədi mülk olaraq verəcəyəm və onların Allahı olacağam."* (Yaradılış 17:8)

Bu nöqteyi nəzərdən bizim xronoloji dərslərimizdə İsraillilərin hələ öz ölkələri yox idi. Onlar hələ də səhralıqda dolaşırdılar. Bundan əlavə onların yaşayacaqları Kənan torpağı qüdrətli döyüşçüləri olan nəhəng adamlarla dolu idilər. Buna baxmayaraq Qüdrətli Allah Kənanın sakinlərini onların iyrənc günahlarına görə oradan qovmağı və həmin o zəngin torpağı İsraillilərə həvalə etməyi nəzərində tuturdu.

İndi isə gəlin Yeşuanın və İsraillilərin torpağa necə daxil olmalarına, oranı zəbt etmələrinə və bu torpaqlara malik olmalarına baxaq. Birinci fəsildə Müqəddəs Yazılar deyir:

(Yeşua 1:1-6,9-11) *Rəbbin qulu Musanın ölümündən sonra Rəbb Musanın köməkçisi Nun oğlu Yeşuaya belə dedi: «Qulum Musa öldü. İndi qalx, sən və bütün bu xalq İordan çayını keçib İsrail övladlarına verəcəyim torpağa gedin. Musaya dediyim kimi qədəm qoyacağınız*

*hər yeri sizə vermişəm. Bu səhra ilə Livandan böyük çaya ....Böyük dənizə qədər yer sizin torpaqlarınız olacaq. Bütün ömrün boyu heç kəs sənə qarşı çıxa bilməyəcək. Musa ilə olduğum kimi səninlə də olacağam, səni atmayacağam və tərk etməyəcəyəm."*

*Möhkəm və cəsarətli ol, çünki atalarına vermək üçün and içdiyim bu torpağı bu xalqa irs olaraq sən verəcəksən.*
*Sənə möhkəm və cəsarətli olmağı əmr edən Mən deyiləmmi? Qorxma və ruhdan düşmə, çünki Allahın Rəbb gedəcəyin hər yerdə səninlədir." Yeşua xalqın məmurlarına əmr edib dedi: «Ordugahı gəzin və xalqa əmr edib deyin: "Özünüzə azuqə hazırlayın, çünki üç gün ərzində İordan çayını keçib Allahınız Rəbbin sizə mülk olaraq verdiyi torpağa girərək oraya sahib olacaqsınız."*

Bundan sonra Müqəddəs Yazılar bizə Yeşuanın belə deyərək iki casusu göndərdiyini deyir, *"Gedin oranın torpağını və Yerixonu gözdən keçirin."* İki casus getdi və Yerixonu və şəhəri əhatə edən hündür, möhkəm divarları araşdırdılar. Gecə vaxtı casuslar Raxav adlı bir pozqun qadının evinə girib orada qalaraq Yerixonda gizləndilər. Amma Yerixonun bəzi adamları İsrailli casusların Raxavın evinə daxil olduqlarını gördülər. Onlar cəld padşaha xəbər verərək belə dedilər, "Torpağımızı gözdən keçirmək üçün İsrail övladlarından buraya adamlar gəldi." Padşah onları həbs etmək üçün əsgərləri Raxavın evinə göndərdi, amma Raxav onları gizlətdi.

Əsgərlər gedəndən sonra, Raxav casusları çağırdı və onlara dedi, "Mən bilirəm ki, Rəbb, sizin Allahınız həqiqi Allahdır. Sizin Allahınız mənim şəhərimi və bütün bu torpağı sizə verəcək. Siz bizi dəhşətə saldınız və bu torpağın bütün sakinləri sizin qarşınızda əsirlər. Çünki Misirdən çıxdığınız zaman Rəbb Qırmızı dənizin sularını qarşınızda necə qurutduğunu və bütün düşmənlərinizi necə məhv etdiyini eşitmişik. Mən inanıram ki, sizin Allahınız Rəbb həqiqi Allahdır! Buna görə də sizdən xahiş edirəm ki, and içəsiniz ki, bu torpağı zəbt etməyə gələndə məni və mənim ailəmi qoruyacaqsınız və ölümdən xilas edəcəksiniz!" Casuslar cavab verdilər, "Allah sizin şəhəri bizə verəndə, biz səni və sənin evində olan hər bir kəsi qoruyacağıq."

Üçüncü fəsildə, Müqəddəs Yazılar İsrail xalqının Kənan torpağına daxil olmaq üçün İordan çayından keçməli olduqlarını deyir. Amma çay dərin və enli idi. İki, üç milyonluq millət belə enli çayı necə keçə bilərdilər? Eh, buna cavab vermək asandır. Çünki Qırmızı Dənizdə yol açan Qüdrətli Rəbb Allah dəyişməyibdir! Allah İsraillilər üçün yenidən yol açdı, bu dəfə İordan çayında! Beləliklə, onlar sular arasında quru torpaqdan keçdilər. Bütün İsraillilər çayı keçdi, böyük Yerixon şəhərinə çatdılar. Yerixon şəhərinin əhalisi şəhərin qapılarını bağlamışdı. Heç kim şəhərə daxil ola bilməzdi və heç kim şəhəri tərk edə bilməzdi.

Beşinci fəsildə Müqəddəs Yazılar deyir ki, Yeşua Yerixona yaxın olanda, o başını qaldırdı və öz qarşısında əlində qılınc tutmuş bir adam gördü. Yeşua ondan soruşdu, "Sən bizim dostumuzsan yoxsa düşmənimiz?" O ona cavab verdi, "Mən Rəbb Allahın ordusunun başçısıyam!" Yeşua üzü üstə yerə yıxıldı. Sonra Rəbb Allahın ordusunun başçısı adlanan Yeşuaya dedi, "ayaqqabılarını çıxart, çünki dayandığın yer müqəddəsdir." Yeşua onun dediyi kimi etdi.

Dostlar, siz Yeşua ilə danışanın kim olduğunu bilirsiz? Bu qısa müddətə peyda olan Rəbbin Özü idi! Biz artıq Allahın İbrahimə insan formasında peyda olub, onunla danışdığını görmüşük və həmçinin yanar kolda Musaya peyda olduğunu da. İndi isə biz Onun əlində qılınc tutan qüdrətli döyüşçü kimi peyda olduğunu görürük!

Beləliklə, Rəbb Allah Yeşuaya dedi,

*"Bax Yerixonu, onların padşahını, igid adamlarını sənə təslim edirəm. Siz – bütün döyüşçülər şəhərin ətrafına bir dəfə dolanın; altı gün belə edin. Sandığın qarşısında yeddi kahin qoç buynuzundan olan yeddi şeypur daşısın. Yeddinci gün şəhəri yeddi dəfə dolanın və kahinlər şeypurları çalsınlar. Onlar qoç buynuzundan olan şeypuru uzun-uzadı çaldıqları və siz şeypurun səsini eşitdiyiniz vaxt bütün xalq gur səslə bağırsın. Onda şəhərin qala divarları yerə çökəcək və xalqın hər biri dayandığı yerdən şəhərə qalxsın."* (Yeşua 6:2-5)

Sonra Rəbb Yeşua ilə söhbəti bitirdi və getdi.

Yeşua cəld İsraillilərə getdi və onlara Rəbbin əmr etdiyi hər şeyi danışdı. Sonra Yeşua onlara göstəriş verdi ki, Əhd Sandığını götürsünlər və bir dəfə şəhərin ətrafını dövrə vursunlar. O onlara dedi, "Sizə 'Çığırın!' əmr etməyincə, ağzınızdan bir söz çıxartmayın. Mən deyən vaxt çığırın." Bir dəfə onlar şəhərin ətrafını dolaşandan sonra onlar düşərgəyə qayıtdılar və orada gecələdilər. İkinci gün, onlar yenə bir dəfə şəhəri fırlandılar və düşərgəyə qayıtdılar. Onlar altı gün ərzində bunu etdilər.

Amma yeddinci gün , sübh tezdən onlar oyandılar və şəhərin ətrafını 7 dəfə fırlandılar. Onlar 7 dəfə fırlanandan sonra, kahinlər şeypuru çaldılar. Sonra Yeşua camaata dedi, *"Çığırın, çünki Rəbb şəhəri sizə verdi!"* (Yeşua 6:16)

İsraillilər şeypur səsi eşidəndə, yüksək səslə çığırdılar və şəhərin divarları silkələndi. Sonra İsrail ərləri şəhərə daxil oldular. Beləliklə biz Yeşuanın və İsraillilərin Kənan torpağında necə ilk şəhəri zəbt etdiklərini gördük. Həmn günü iki casusun vəd etdiyi kimi, Raxav və onun ailəsindən başqa, bütün Yerixon əhalisi məhv oldu. Raxavın evi silkələnmədi. Çünki o bütlərə sitayiş etməkdən dönmüşdür və öz etibarını İsrailin Allahına bağlamışdır.

Nə üçün Yeşua və İsraillilər möhkəm istehkamlanmış şəhəri zəbt edib, Allahın onlara vəd etdiyi torpağa girə bildilər? Ona görə zəbt edə bildilər ki, onlar Allahın Sözünə inandılar. Allah Onun Sözünə inananlarladır. Nə üçün Raxav da şəhər dağılanda Yerixon camaatı ilə bir ölmədi? Ona görə sağ qaldı ki, o yalnız Allahın qüdrəti ilə heyrətlənmədi, həm də o Allahın xalqı tərəfinə keçmək dərəcəsinə qədər Ona inandı. Müqəddəs yazılar belə deyəndə bunu bəyan edir:

*"İman vasitəsilə İsraillilər yeddi gün Yerixonun ətrafında gəzdikdən sonra onun divarları yıxıldı.*
***İman vasitəsilə** fahişə Raxav casusları dostcasına qarşıladığı üçün itaətli olmayanlarla birgə həlak olmadı.....və **iman olmadan Allahı razı salmaq qeyri-mümkündür**. Çünki Allaha yaxınlaşan şəxs inanmalıdır ki, O var və Onu axtaranlara mükafat verir."* **(İbranilərə 11:30,31,6)**

Yeşua kitabında daha çox gözəl hekayələr var. Bu kitab Allahın Yeşua və İsrail xalqı ilə olmasını və dediyi kimi onları necə şəhər bə şəhər Kənan torpağına gətirməsini ətraflı başa salır. 21-ci fəsildə Müqəddəs Yazılar deyir: *"Bütün torpağı İsraillilərə verdi!... onlara hər tərəfdən dinclik verdi!.... Rəbb bütün düşmənlərini onlara təslim etdi!"* (Yeşua 21:43,44)

Dostlar, Allah uzun müddət əvvəl İbrahimə və onun nəslinə etdiyi Öz vədini yerinə yetirdi? Allah, dediyi kimi Kənan torpağını İsraillilərə verdi? Əlbəttə, verdi! Allah Öz vədlərini

saxlamaqda sadiqdir! O söz verdiyi hər şeyi yerinə yetirir. Hətta insan düşünsə də ki, O bunu etməkdə ləngdir. Rəbb Allah İsrail övladlarına qarşı lütfkar olmağı və zəngin Kənan torpağını onlara verməyi çox istəyirdi, amma O gözləyirdi ki, onlar Ona etibar etsinlər. Gördüyümüz kimi, İsraillilər Allahın vədinə inanmağa başlayana qədər çox illər itirmişdilər. Onların valideynləri Kənan torpağına sahib ola bilmədi. Çünki onlar Allahın vədinə inanmadılar.

Bəs sən necə? Sən Allaha inanırsan? Biz səndən Allahın varlığına və ya Onun tək olduğuna inandığını soruşmuruq. İblisin özü də bilir ki, Allah var və O təkdir! Bu gün cavab verəcəyin sual budur: Sən Allahın Özünə inanırsan? Sən Onu sevirsən? Sən Allahın Sözünə bütün qəlbinlə inanırsan? Sən Allahın Ona inananlar üçün nə hazırladığına bilirsən? Adəmin övladlarının əksəriyyəti inanır ki, Allah var. Amma təəssüf ki, onların yalnız bir qismi həqiqətən Allahı tanıyır və Onun böyük və dəyərli vədlərinə inanır. Dinləyən dost, Allah səni sevir və ağlına gətirə bilməyəcəyin dərəcədə sənə xeyir-dua vermək istəyir amma sən Onun Sözünü bilməlisən, Ona inanmalısan və qəbul etməlisən! Bu haqda Müqəddəs Yazılar bəyan edir:

*"Allahın Onu sevənlər üçün hazırladıqlarını nə göz görüb, nə qulaq eşidib, nə də insan ürəyi dərk edib."* (1 Korinflilərə 2:9) *"Siz tənbəl olmayasınız, amma vəd olunan şeyləri iman və səbirlə irs alanlardan nümunə götürəsiniz."* (İbrilərə 6:12)

Dinlədiyiniz üçün çox sağ olun. Allahın Sözündən bu nəsihəti nəzərdən keçirdikcə, Allah sizə xeyir-dua versin:

***"Siz tənbəl olmayasınız, amma vəd olunan şeyləri iman və səbirlə irs alanlardan nümunə götürəsiniz."*** (İbraniilərə 6:12)

45-ci Dərs

# Hakimlər və Rut

**Hakimlər & Rut**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Bu dərsdə biz Müqəddəs Yazılarda yazılan həssas "məhəbbət hekayəsinə" baxacağıq. Ötən dərsimizdə biz Musanın xidmətçisi Yeşuanın İsrail xalqını Kənan torpağına apardıını gördük. Biz Allahın Yeşuadan və İsrail xalqından öncə getdiyini, onların düşmənlərini qovduğunu və onları uzun illər əvvəl ulubabaları İbrahimə vəd etdiyi kimi zəngin torpağı olan Kənan torpağına gətidiyini gördük. Bu gün biz Yeşua kitabından sonra gələn iki müqəddəs kitaba baxacağıq. Bunlar **Hakimlər və Rut** kitabıdır. Bu kitablar bizə **Yeşua peyğəmbərin** və **Davud peyğəmbərin** dövrü arasında baş verən şeyləri göstərir.

Hakimlər kitabına başlamazdan əvvəl, biz Yeşuanın ölümündən əvvəl İsraillilərə Allaha etibar etməsi müraciətinə baxmalıyıq. Yeşua kitabının son fəslində, Yeşua onları Misirdən azad edən və indi yaşadıqları gözəl torpağı onlara verən Rəbb Allahlarını sevib, Ona itaət etməyə xəbərdarlıq etmək və ruhlanıdırmaq üçün İsraillilərin rəhbərləri ilə görüşdü. Onlara son müraciətində Yeşua dedi:

*"Rəbbə qulluq etmək gözünüzdə pisdirsə, **bu gün kimə qulluq edəcəyinizi özünüz seçin**. Atalarınızın qulluq etdikləri Fərat çayının o tayındakı allahlaramı, yoxsa torpaqlarında yaşadığınız Emorluların allahlarınamı qulluq edəcəksiniz? **Amma mən və mənim evimdəkilər Rəbbə qulluq edəcək.*** Sonra İsrail xaqlı da Yeşuaya cavab verərək belə dedilər, *" Biz də Rəbbə qulluq edəcəyik, çünki Allahımız Odur."* **(Yeşua 24:15,18)**

İndi isə gəlin həqiqətən nə baş verdiyinə baxaq. Hakimlər kitabı, ikinci fəsildə Müqəddəs Yazılar deyir:

(Hakimlər 2:7-13) *Yeşuanın bütün ömrü boyu Rəbbin İsrail üçün etdiyi bütün böyük işləri görən və **Yeşuadan sonra sağ qalan ağsaqqalların bütün ömrü boyunca xalq Rəbbə qulluq etdi**. Rəbbin qulu Nun oğlu Yeşua yüz on yaşında vəfat etdi. Onu Efrayimin dağlıq bölgəsində basdırdılar. Yeşua ilə bir dövrdə yaşayan bütün nəsil də ölüb atalarına qovuşdu. Bundan sonra Rəbbin İsrail üçün etdiyi işləri bilməyən başqa bir nəsil törədi.*
***İsrail övladları Rəbbin gözündə pis olan işlər görərək** Baal bütlərinə qulluq etdilər. Bununla da onları Misir ölkəsindən çıxaran atalarının Allahı Rəbbi atıb başqa allahlara – ətraflarında yaşayan millətlərin allahlarına sitayiş edərək onlara səcdə etdilər. Buna görə də Rəbbi qəzəbləndirdilər. Onlar Rəbbi ataraq Baal və Aştoret bütlərinə qulluq etdilər.*

Beləliklə, İsraillilər öz Rəbb Allahlarını unutdular, öz arxalarını Ona çevirdilər və **ətrafında olan xalqın dinlərinin ardınca getməyə başladılar**. Amma o xalqlar həqiqi Allahı tanımırdılar və Onun Sözü onlarda yox idi. Onlar bir büt olan Baala səcdə edirdilər. Baala səcdə edən xalqlar elə fikirləşirdilər ki, onlar Allaha ibadət edirlər. Əslində, onlar öz istəklərinə və şeytana qulluq edirdilər; amma onlar bunu bilmirdilər. Çünki şeytan onları aldatmışdır. Şeytan bir çox İsrailliləri də aldatdı və buna görə də onlar Rəbbdən döndülər və ətraflarındakı xalqlar kimi onlar da bütlərə səcdə etməyə başladılar.

Biz öyrəndik ki, İsraillilərin əksəriyyəti Musanın qanun kitabında olan və günahı örtmək üçün məbəddə verilən heyvan qurbanına, Allahın yaratdığı yola öz arxalarını çevirdilər. Allahın salehlik yolunun arxasınca getməyin əvəzinə, onlar yanlış yolla getdilər, Baal dininin yolu ilə. Sina  Dağında Allahın Musaya verdiyi On Qanunun birinci əmrində deyilir:

*"Məndən başqa allahların olmasın... Çünki Mən, sənin Allahın Rəbb, qısqanc Allaham. Mənə nifrət edən ataların cəzasını üç-dörd nəslə qədər övladlarına çəkdirərəm. Məni sevib əmrlərimə əməl edənlərin isə minlərlə nəslinə məhəbbət göstərərəm."* (Çıxış 20:3,5,6)

Amma İsraillilərin əksəriyyəti Rəbb Allaha hörmər etmirdi, buna görə də Allah onlara cəza verdi.

Hakimlər kitabı ikinci fəsildə davam edək. Müqəddəs yazılar deyir:

(Hakimlər 2:11,14-15) *İsrail övladları Rəbbin gözündə pis olan işlər görərək Baal bütlərinə qulluq etdilər.... Rəbbin İsrailə qarşı qəzəbi alovlandı və onları basqınçılara təslim etdi. Basqınçılar da onları talan etdilər. Rəbb onları ətraflarındakı düşmənlərə verdi. İsrail övladları isə düşmən qabağında tab gətirə bilmədilər. Harada döyüşdülərsə, Rəbbin onlara dediyi və and içdiyi kimi Rəbbin əli onların əleyhinə qalxdı. Bundan İsraillilər pis vəziyyətə düşüb çox əziyyət çəkdilər.*

Beləliklə, Hakimlər kitabı İsraillilərin ürəklərini sərtləşdirmələri, yenidən və yenidən Rəbbdən dönmələri haqdadır. Buna görə də Allah onları cəzalandırmaq üçün dəfələrlə düşmənlərinə təslim etdi ki, onlar öz günahlarını dərk etsinlər, tövbə etsinlər və məhvə aparan yoldan xilas olsunlar. İsraillilər hər dəfə həqiqətən tövbə edəndə, Allah onları düşmınlərindən xilas etmək üçün onlara rəhbər seçərdi. Sizə böyük, qüdrətli orduya sadəcə üç yüz nəfər kişi ilə qalib gələn Gideon kimi qəhrəman haqqında və ya min əsgərə təkcə qalib gələn Şimşon haqqında deməkistəyərdik, amma vaxt az olduğuna görə sən bu hekayələri Hakimlər kitabında özün üçün oxuya bilərsən.

Qısaca, Hakimlər kitabı bizə göstəriri ki, hər dəfə İsrail xalqı Allahdan və Onun Sözündən uzaq düşəndə, Rəbb onları cəzalandırardı ki, onlar öz günahlarından Ona tərəf dönsünlər. Onlar tövbə edəndə, Allah onları düşmənlərindən  xilas etmək üçün onları rəhbər ilə təmin edərdi. Bu Hakimlər kitabının qısa xülasəsidir.

Bəli,  İsraillilər Allaha qarşı yenidən və yenidən günah işlətdilər. Amma onların vəfasızlığı Allahın sadiqliyinə mane oldumu? Heç vaxt! Həqiqətən, Allah günah işlədən hər bir fərdi cəzalandırdı, amma O İsrail xalqını ümumilikdə qorudu. Çünki Allah uzun illər əvvəl belə deyərək İbrahimə vəd etdiyini unuda bilməzdir: *"Bütün xalqlar sənin nəslin vasitəsi ilə xeyir-dualı olacaqdır."*  Allah İbrahimin nəslindən **dünyanın Xilaskarının** çıxacağı milləti yaratmağı nəzərində tutmuşdur. Allahın gözəl planınının qarşısını heç bir şey ala bilməzdi: nə İsraillilərin günahı, nə Firon, nə Misir xalqı, nə Kənan xalqı, nə Baal kimi yalan din, nə də ki, Şeytanın özü. **Heç bir şey Allahın İsrail xalqı vasitəsi ilə dünyanın Xilaskarını göndərəcəyi planının qarşısını ala bilməzdi!**

Biz indi Hakimlər kitabından sonra gələn qısa **Rut kitabına baxaq.** Bu kitabın hekayəsi çox maraqlıdır. Bu kitab pis iy gələn zibilliyin ortasındakı ətirli bir gözəl çiçək kimidir. Çünki bu kitab **yalançı və korlanmış nəsil içində Allahı sevən bir qadın haqqında hekayədir.**

Biz Rut kitabını cəmləşdirib belə deyə bilərik ki, Rut dul bir qadın idi və o İsrail xalqından deyildi. O, Moav xalqından idi və İsrailin cənubunda yerləşən Moav diyarında yaşayırdı. Moavlılar bütpərəst idilər, İsrailin Allahına və İsraillilərə xor baxırdılar.

Rutun Moav millətindən olması, İsrailin Allahına xor baxmasına səbəb olmadı. Xeyr, əslində Rut İsrailin Allahına inanırdı. Bəlkə Rut Allahın İsrail xalqını Misirlilərin əlindən xilas edərkən göstərdiyi qüdrətli möcüzələr, Musa peyğəmbərin Tövrat kitabında Allahın qoyduğu xilas yoluna aid ümidverici sözlər haqqında eşitmişdir. Rut Rəbbə inanırdı.

Biz Rut haqqında bunu müşahidə edirik: O Moavda bütpərəstlər arasında yaşayırdı. Rutun valideynləri bütpərəst idilər. Rut onların dinində dünyaya gəlmişdir. **Amma Rut artıq öz atasının dininə inanmırdı.** O inandığı İsrailin Allahı idi. Biz görürük ki, Rut seçim etməli idi və bu asan deyilidi! Rut atasının dinində qalıb və İsrailin Allahını tanımayan biri ilə ailə qurmalıdır? Ya da o atasının evini və dinini tərk edib, İsrailə köçməlidir? Bu Rutun edəcəyi qəliz seçim idi!

Rutun hansı yolu seçməsini bilməzdən əvvəl, sən bilməlisən ki, Rutun **Orpa** adında qayınarvadı da var idi. Orpa da Rut kimi İsrailin Allahını tanıyırdı. Buna görə də Rutun da qayınarvadı öz atasının dininin ardınca getməyi yoxsa İbraihimin, İshaqın və Yaqubun Rəbb Allahının ardınca getməyi **seçməli idi.**

Rut və Orpa hansı yolu seçdilər? Orpa asan yolu seçdi. Yəni ki, öz atasının evində qalmaq və atasının dinindən olan kimiləsə ailə qurmaq. Amma Rut çətin yol seçdi. Yəni ki, öz atasının evini tərk etmək və İsrail diyarına köçmək. Rut bilirdi ki, heç kim iki allaha xidmət edə bilməz. Heç kim İsrailin Allahına xidmət etməklə, Moavın bütlərinə xitmək etməyi qarışdıra bilməz. Buna görə də Rut öz atasının dinindən döndü. Rut qərara aldı ki, **Allaha itaət etmək, insana itaət etməkdən daha yaxşıdır.** Rut həqiqi və yaşayan Allahın ardınca getmək üçün ailəsi və dostları tərəfindən düzgün başa düşülməməyə razı idi. Atalar sözündə deyildiyi kimi, "Könlü balıq istəyən ayağını suya salar." Rut atasının evini tərk etdi və ***Bet-Lexem*** adlanan kiçir bir şəhərə, İsrail diyarına köçdü.

Bet-Lexemdə **Boaz** adında bir kişi yaşayırdı. O, Yerixon şəhərinə bəla gələndə ondan qurtulan **Raxavın oğlu idi**. Boaz saleh adam idi və Allahın Sözünü çox dəyərləndirirdi. Həm də o çox zəngin idi və onun çoxlu buğda tarlaları var idi.

Müqəddəs Yazılar deyir ki, Bet-Lexem şəhərində yaşayan Rutun hər səhər erkəndən evdən çıxıb biçinçilərin əlindən tökülən arpaları yığmaq üçün tarlaya gedirdi. Rut kasıb bir kəndli idi və Allahın Musa vasitəsilə İsraillilərə verdiyi qanuna əsasən, kasıblar ac qalmamaq üçün bu yolla tarladan arpa toplaya bilərdilər. Beləliklə, Müqəddəs Yazılar Allahın Rutu Raxavın oğlu Boazın tarlasından arpa toplamaq üçün ora getməyə yönəltdiyini deyir.

Boaz Rutun onun tarlasında arpa yığdığını gördü və onunla danışdı. Boaz Rutun gözəl təbiətli bir insan olduğunu tez gördü. Boaz saleh adam idi və Rutun əxlaqlı qadın olduğunu gördü. Nə baş verdiyini tapa bilərsən? Bunu tapmaq çətin deyil! Bəli, Boaz və Rut ailə qurdular! Rut Allahı və Onun Sözünü öz həyatında birinci yerə qoydu və Allah buna görə ona xeyir-dua verdi. Beləliklə, Müqəddəs Yazılar deyir: Boaz və Rutun **Oved** adında oğlu oldu. Oved **Yesseyin** atası oldu və Yessey də İsrail xalqının padşahı və **Zəbur** kitabının əksəriyyətini yazan **Davud** peyğəmbərin atası oldu. Və Davudun nəslindən peyğəmbərlərin peyəmbərlik etdikləri dünyanın Xilaskarı olan **Qurtarıcı** gəldi.

Biz bu gün Allahın İsrail xalqından olmayan Rutun həyatında necə işlədiyini görürük. **İsrail xalqı öz arxalarını Rəbb Allaha çevirib, yalançı dinin ardınca getdiyi bir vaxtda, Rut öz arxasını yalançı bütlərə qarşı çevirib həqiqi Allahın ardınca getdi!** Beləliklə, Allah Rutu Boazla ailə qurmaq üçün Bet-Lexemə apardı və o İsrailin padşahı Davudun ulu nənəsi oldu. Bütün bu olanlarda biz Allahın dünyaya Qurtarıcı gətirmək planını irəli sürdüyünü görürük. Çünki dünyanın Xilaskarı **Davudun nəslindən** dünyaya gəlməli idi.

Gələn dərsimizdə biz Bet-Lexemdə doğulan, Rutun və Boazın nəslindən olan Davud peyğəmbərin həyatı haqqında danışan kitaba başlayacağıq. İndi isə sizi bu sual ilə tərk edirik: **Sən daha çox kimə oxşayırsan? Daha asan yol** seçən Rutun qaynıarvadı Orpa kimisən? Yoxsa, sən öz arxasını yalançı dinə çevirən və **Həqiqi Bir Allahın** arxasınca gedən cəsarətli Rut kimisən?

Dinlədiyiniz üçün sağ olun.... Yeşua peyğəmbərin ölümündən qabaq İsraillilərə dediyini yadda saxladıqca, Allah sizə xeyir-dua versin:

***"Bu gün kimə qulluq edəcəyinizi özünüz seçin.... Amma mən və mənim evimdəkilər Rəbbə qulluq edəcək!"*** (Yeşua 24:15)

46-cı Dərs

# Şamuel, Şaul və Davud

**1 Şamuel 1-16; Zəbur 8:23**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz gördük ki, İsrail xaqının tarixində Yeşua peyğəmbərdən sonrakı dövr qaranlıq və korlanmış bir dövr idi. Hətta qaranlıq vaxtlarda da biz Allahın sadiqliyinin nurunu müşahidə etdik. Rəbb İsrail xalqından çıxaqac Qurtarıcı haqında İbraihə və onun nəslinə etdiyi vədini unutmamışdır.

Beləliklə, biz Allahın **Rutun** həyatında necə işlədiyini gördük. Rut İsrailli deyildi, amma o bütün qəlbi ilə İsrailin Allahına inanırdı. Və əksər İsraillilər öz arxalarını Rəbb Allahlarına döndərib ətraflarındakı millətlərin dininin ardınca gedəndə, Rut isə öz atasının dinindən dönüb və İsrailin Allahının ardınca getdi. Rut İsrail diyarına köçüb, Bet-Lexem adlanan şəhərdə məskunlaşdı və İsrailli Boaz adli biri ilə ailə qurdu. Boaz və Rutun Oved adlı oğlu oldu. Oved isə **Davud** peyğəmbərin atası Yesseyin atası oldu. Beləliklə Allahın Adəmin övladlarını günahdan qurtarmaq planı irəli gedirdi. Çünki dünyaya gələcək bu **Qurtarıcı Davud peyğəmbərin nəslindən** çıxmalı idi. Xilaskar Davudun şəhəri **Bet-Lexemdə** dünyaya gəlməli idi. Gələcək dərslərimizdə biz peyğəmbərlərin bunları əvvəlcədən necə dediklərini və yüz illər keçəndən sonra Qurtarıcının bunları necə yerinə yetirdiyini eşidəcəyik. Bunu yalnız Allah edə bilərdi!

**Davud peyğəmbər** Müqəddəs Yazılarda çox məşhurdur. Kitabda onun adı min dəfədən çox çəkilir. Sən Davud peyğəmbər haqqında nə bilirsən? Bəlkə sən bilirsən ki, o nəhəng Qolyatı yalnız bir daşla məğlub edən gənc oğlan idi. Yəqin ki, sən həm də bilirsən ki, Davud İsraildə böyük padşah idi və Zəbur kitabını çoxunu yazan peyğəmbərdır. Əgər bu şeyləri bilirsənsə, çox gözəl, amma Davud haqda biliyin burada bitməməlidir. Əgər biz Davudun böyük padşah olduğunu biliriksə və əgər **nəyin onu belə böyük şəxsiyyət etdiyini** bilmiriksə - onda belə biliyin bizə nə əhəmiyyəti var? Yaxud, biliriksə ki, Zəbur kitabında Allahın Sözünü yazıb amma **nə yazdığını** bilmiriksə - onun bizə nə faydası var?

Dostlar, əgər siz **Davud peyğəmbər** haqqında biliklərinizi artırmaq və **Zəbur** kitabında yazdığı bəzi gözəl və qüdrətli sözləri eşitmək istəyirsinizsə, onda gələn beş dərsdə bunları öyrənmək üçün bizə qoşulmağa dəvət edirik.

Sən Davud peyğəmbərdən əvvəl gələn Allahın peyğəmbərinin adını bilirsən? Bu Şamuel peyğəmbərdir. Allah Şamueli seçdi ki, İsrail xalqını öz Rəbb Allahlarına tərəf döndərsin. Çünki onların ürəkləri Allahdan çox uzaq idi. Bu gün biz **Şamuelin kitabından** oxuyacağıq. Bu müqəddəs kitab Peyğəmbərlərin Yazıları arasında mühüm kitabdır. Çünki bu kitab Şamuelin və İsrailin ilk üç padşahı: Şaul, Davud və Süleymanın həyatı haqqında dəyərli hekayələrdən ibarətdir.

Gördüyümüz kimi Allah İsrailə onları istiqamətləndirmək və mühakimə etmək üçün Musa, Yeşua və Şamuel kimi **rəhbərlər** vermişdir. Amma onları Misirdəki köləliyin əsarətindən qurtaran Rəbb Allah, **onların ədalətli Padşahı** idi. Öz izzətini onların arasında yerləşdirmək üçün onlara xüsusi bir çadır düzəltməyi əmr edən Allah, onların Hökmdarı olmaq istəyirdi.

Onlar yalnız Ona itaət etməli və Onun ardınca getməli idilər. Amma İsraillilərin əksəriyyəti yalnız Rəbbin onların Padşahı olmasından məmnun deyildi. **Onlar da dünyadakı başqa millətlər kimi olmaq** və padşah kimi onlar üzərində ağalıq etməyə Adəm oğlu istəyirdilər!

Şamuel kitabının səkkizinci fəsilində, Müqəddəs Yazılar deyir:

(1 Şamuel 8:4-9) *Bütün İsrail ağsaqqalları yığılıb Ramaya – Şamuelin yanına gəldilər. Ona dedilər: «Bax sən qocasan və oğulların sənin yolunla getmir. İndi isə digər millətlərdə olduğu kimi bizə bir padşah təyin et ki, bizə hökmranlıq etsin». Lakin Şamuel «bizə bir padşah təyin et ki, hökmranımız olsun» deyilən zaman bu sözlərdən narazı qaldı və Rəbbə dua etdi. Rəbb Şamuelə dedi: «Sənə dedikləri məsələlərlə əlaqədar xalqın hər sözünə qulaq as, çünki rədd etdikləri sən deyilsən, onlar üzərində hökmranlıq etməyim deyə, yalnız Məni rədd edirlər. Onları Misirdən çıxartdığım gündən bu günə qədər yad allahlara qulluq etməklə Məni tərk edirlər. Mənə etdiklərini indi eyni şəkildə sənə edirlər. Sən onların sözlərinə qulaq as, amma açıqca xəbərdarlıq et ki, onlara hökmdarlıq edəcək padşahın hakimiyyəti necə olacaq».*

Allah Şamuelə dedi ki, xalqa onların istədiklərini versin və onlar üçün padşah təyin etsin. Allah İsraillilərdə Ondan başqa padşahın olmasını istəmirdi, amma onlar Allahın hökmranlığını rədd etdiklərinə görə, Allah məcburən onlar üzərində hökmranlıq etməzdi. Sonrakı fəsildə biz Şamuelin İsraillilər üzərində **Şaul** adlı bir kişini padşah qoyduğunu görürük. Müqəddəs Yazılar deyir: *"Şamuel bir qab zeytun yağı götürüb Şaulun başına tökdü."* (1 Şam 10:1) İsraillilər kimisə rəhbər seçəndə belə edirdilər. Onlar peyğəmbərin, kahinin və ya padşahın başına yağ tökürdülər ki, onu ayırsınlar. Şamuel Şaulun başına yağ tökəndən sonra, o bütün xalqa dedi, *"Rəbbin seçdiyi bu xalqın arasında bənzəri olmayan adamı görürsünüzmü?" O zaman xalq bir səslə qışqırıb dedi: "Yaşasın padşah!"* (1 Şamuel 10:24)

Əvvəlcə İsraillilər padşahları Şaula görə çox sevindilər. O güclü və cəsur, gənc və yaraşıqlı və İsrail övladlarının hamısından hündür idi. Xarici görünüşünə görə Şaul əla padşah olmalı idi. Amma Allah insan kimi qiymətləndirmir. İnsan **xarici** görünüşə baxır, amma Allah **ürəyə** baxır. Padşah Şaul yaxşı başlamışdır amma sonradan o qürurlandı, paxıl və müstəqil olmağa başladı. Şaul ağzı ilə Allaha hörmət edirdi, amma ürəyi Ondan uzaq idi. Şaul Allahın Sözünə nə hörmət edirdi, nə də ki, itaət. O Allahın ondan istədiyini etməyin əvəzinə, o öz istədiyini edirdi.

Müqəddəs Yazılar deyir ki, Şaul padşah olandan bir neçə il sonra,

**(1 Şamuel 15:10-13, 22-23) ....** *Rəbbin sözü Şamuelə nazil oldu: "Şaulu padşah etdiyimə peşman oldum. Çünki* ***o dönüb Mənim ardımca getməyərək sözlərimi yerinə yetirməyib****." Şamuel qəzəbləndi və bütün gecəni Rəbbə fəryad etdi. O, Şaulla səhər görüşmək üçün erkən durdu... Şamuel Şaulun yanına gəldi. Şaul ona dedi: «Qoy Rəbb sənə xeyir-dua versin, mən Rəbbin sözünə əməl etdim." .... Şamuel isə dedi: "Rəbb Öz sözünə itaət edilməsindən xoşu gəldiyi qədər yandırma qurbanı və başqa qurbanlardan xoşu gələrmi? Bax itaət etmək qurbandan, qulaq asmaq qoçların iç piyindən daha yaxşıdır. Çünki üsyankarlıq falçılığa bərabər günahdır, inadkarlıq isə özbaşınalıq və bütpərəstliyə bərabərdir.* ***İndi ki sən Rəbbin sözünü rədd etdin, O da səni padşahlıqdan rədd etdi!"***

Beləliklə, Şamuel Şaula dedi ki, padşahlıq onun əlindən götürüləcək və başqa birinə veriləcəkdir. Sonrakı fəsildə Müqəddəs Yazılar deyir,

(1 Şamuel 16:1-13) *Rəbb Şamuelə dedi: «İsrail üzərində padşah olmasın deyə Şaulu rədd etdiyim halda sən nə vaxta qədər onun dərdini çəkəcəksən? Yağ buynuzunu yağla doldur və get. Səni Bet-Lexemli Yesseyin yanına göndərirəm. Çünki onun oğulları arasında Özüm üçün padşah təyin etmişəm». Şamuel dedi: «Necə gedim? Axı Şaul eşitsə, məni öldürər». Rəbb dedi: «Özünlə bir düyə götürüb "Rəbbə qurban kəsmək üçün gəlmişəm" de. Yesseyi də qurban mərasiminə dəvət et və sonra nə edəcəyini sənə bildirəcəyəm. Sənə deyəcəyim adamı Mənim üçün məsh edəcəksən». Şamuel Rəbbin söylədiyi kimi Bet-Lexemə getdi. Şəhərin ağsaqqalları onu həyəcanla qarşıladılar və dedilər: «Bu gəlişin xeyirdirmi?» O dedi: «Bəli, xeyirdir. Rəbbə qurban kəsmək üçün gəlmişəm. Özünüzü təqdis edin və mənimlə bərabər qurban mərasiminə gəlin». Şamuel Yesseylə oğullarını da təqdis edərək onları da qurban mərasiminə dəvət etdi. Onlar gələrkən Şamuel Eliava baxıb dedi: «Doğrudan da, Rəbbin məsh etdiyi Rəbbin qarşısındadır!» Lakin Rəbb Şamuelə belə dedi: «Onun görünüşünə və uca boyuna baxma, Mən onu rədd etmişəm. Ona görə ki* ***Rəbb insanın gördüyü kimi görməz, çünki insan zahirə, Rəbb isə ürəyə baxar."***

*O zaman Yessey Avinadavı çağırdı və onu Şamuelin qarşısından keçirdi. Şamuel dedi: «Rəbb bunu da seçmədi».*
*Yessey Şammanı gətirdi və Şamuel dedi: «Rəbb bunu da seçmədi». Yessey isə oğlanlarının yeddisini Şamuelin qarşısından keçirdi. Şamuel Yesseyə dedi: «Rəbb bunları seçmədi». Sonra Yesseydən soruşdu: «Oğlanlarının hamısı budur?» Yessey cavab verdi: «Lap kiçiyi də var, odur, qoyun otarır». Şamuel Yesseyə dedi: «Bir nəfər göndər, qoy o da buraya gəlsin. Çünki o buraya gəlməsə, biz süfrəyə oturmayacağıq».*
*Yessey adam göndərib onu içəri gətirtdi. Oğlan alyanaq, gözləri gözəl, üzü göyçək idi. Rəbb Şamuelə dedi: «Dur, onu məsh et, çünki seçilmiş budur». Şamuel yağ buynuzunu götürüb qardaşları arasında onu məsh etdi və o gündən başlayaraq* ***Davudun*** *üzərinə Rəbbin Ruhu qüvvə ilə endi.*

Biz Allahın Şauldan sonra **Davudu** necə padşah təyin etməsini görürük. Amma sən başa düşməlisən ki, Davud həmən o gün İsrailin padşahı olmadı. Davud sadəcə gənc idi və Allahın onu İsrail üzərində təyin etdiyi hökmranlığının vaxtı hələ gəlib çatmamışdır. Əslində, Davud İsrailin taxtına oturması üçün on il gözləməli idi.

Ona görə də, Davud atasının sürüsünü otarmaq üçün Bet-Lexemi əhatə edən tarlaya qayıtdı. O yaxşı və sadiq çoban idi. O Rəbbə etibar etdiyinə görə heç nədən qorxmurdu. Məsələn: bir gün Davud atasının qoyunlarını otaranda, onların üzərinə şir hücum etdi. Davud şirin arxasınca getdi, ona zərbə endirdi və qoyunlarını onun ağzından xilas etdi. Şir Davuda tərəf hücum çəkənkə, Davud onun tüklərindən tutdu, vurdu və onu öldürdü. (1 Şamuel 17:35)

Davud təkcə əla çoban deyildir; o həmçinin arfa çalır və mahnı da oxuyurdu. Allahın Ruhu Davudu çoxlu himnlər bəstələməyə və onları **Zəbur** kitabına yazmağa ilhamlandırmışdır. Davud Rəbb Allahı və Onun Sözünü necə də sevirdi!

Biz bu günkü proqramı Davudun Məzmurlarından bir neçə parça ilə qurtarmaq istəyirik. Təsəvvür et ki, Davud qoyunları arasında yaşıl tarladadır, arfa çalaraq nəğmələrlə və Allahın Ruhundan gələn minnətdarlıqlarla Allaha alqış oxuyur. Dinlə:

*"Ey Xudavəndimiz Rəbb, İsmin bütün yer üzündə nə qədər əzəmətlidir! ... Əllərinin işi olan göyləri, Öz yerinə düzdüyün ay və ulduzları gördükdə deyirəm: "İnsan kimdir ki, onun haqqında düşünürsən? Bəşər oğlu kimdir ki, onun qayğısını çəkirsən? "Onu Allahdan bir az*

*aşağı yaratdın, izzət və əzəmət tacını onun başına qoydun... Ey Xudavəndimiz Rəbb, İsmin bütün yer üzündə nə qədər əzəmətlidir!"* (Zəbur 8:1,3-5,9)

***"Sözün addımıma çıraqdır**, yollarıma işıqdır! Sənə qarşı günah etməyim deyə Kəlamını qəlbimdə qoruyub saxlamışam." (Zəbur 119:105,11) "Rəbbin qanunu kamildir, canı təzələyir, Rəbbin öyüdü etibarlıdır, nadanı müdrik edir.Rəbbin qayda-qanunları düzdür, ürəyi sevindirir, Rəbbin əmrləri pakdır, gözləri aydın edir. Onlar qızıldan, bol miqdarda olan saf qızıldan da çox sevilir, onlar baldan, şanı balından da şirindir. Bəndən bunlardan nəsihət alar, onlara əməl edənin **bol mükafatı var**!"* (*Zəbur* 19:7,8,10,11)

***Rəbb mənim çobanımdır**, möhtac olmaram. O məni yaşıl çəmənlərdə dincəldir, sakit axan sular kənarında gəzdirir. Məni yenə də canlandırır, İsmi şərəfinə salehlik yolları ilə aparır. Ölüm kölgəsinin dərəsində gəzsəm belə, şərdən qorxmaram, çünki Sən mənimləsən, Sənin əsan, Sənin dəyənəyin mənə təsəlli verir. Düşmənlərimin qarşısında mənim üçün süfrə açırsan, başıma ətirli yağ çəkirsən, ağzınadək camımı doldurursan. Bəli, bütün həyatım boyu Yaxşılıq, məhəbbət məni izləyir. Bütün ömrüm boyu Rəbbin evində yaşayacağam!* (*Zəbur* 23)
**Amin!**

Dostlar, dinlədiyiniz üçün çox sağ olun. Gələn dərsdə biz Davudun hekayəsini davam etdirməyi və nəhəng Qolyatla üzləşərkən Allahın necə onunla olmasını görməyi nəzərdə tuturuq. ...

Allahın Şamuelə dedikləri haqqında düşündükcə, Rəbb sizə xeyir-dua versin:

***"Rəbb insanın gördüyü kimi görməz, çünki insan zahirə, Rəbb isə ürəyə baxar."*** ( 1 Şamuel 16:7)

47-ci Dərs

# Davud və Qolyat

**1 Şamuel 17; Zəbur 27**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən proqramda biz Davud peyğəmbərə öyrənməyə başladıq. Allahın onun haqqında dediklərina qulaq as: *"Öz ürəyimə yatan adam olaraq Yessey oğlu Davudu tapdım və o Mənim bütün istədiklərimi yerinə yetirəcək."* (Həvarilərin İşləri 13:22) Biz Allahın Davudu İsrailin ikinci Padşahı olmaq üçün təyin etdiyini gördük. Çünki birinci padşah Şaul Allahın Sözünə itaət etmədi. Amma Davud Allahın onu təyin etdiyi gün İsrailin padşahı olmadı. O hələ gənc idi və padşahlığı idarə etmək üçün Allahın onun üçün təyin etdiyi vaxt gəlib çatmamışdır. Padşah kimi məhs olunandan sonra Davud Bet-Lexem şəhərinin kənarındakı tarlaya, atasının qoyunlarını otarmağa qayıtdı.

Bu gün biz Allahla yeridiyinə gorə Allahın Davudla necə olması haqqında gözəl hekayəni oxuyacağıq. Dərsimiz **"Davud və Qolyat"** adlanır. İndi isə gəlin Şamuel kitabı 17-ci fəsildə davam edək. Müqəddəs Kəlam deyir:

(1 Şamuel 17:1-11) ***Filiştlilər** müharibə üçün ordularını toplamışdılar.... **Şaulla İsraillilər** toplaşıb Ela vadisində ordugah qurdular və Filiştlilərə qarşı döyüş üçün düzüldülər. Filiştlilər bir təpənin üstündə, İsraillilər isə o biri təpədə dayanmışdılar, aralarında vadi var idi.*
*Qat şəhərindən olan **Qolyat** adlı bir cəngavər Filiştlilərin ordugahından irəli çıxdı. Onun boyu altı qulac bir qarış idi. Başında tunc dəbilqəsi vardı, əyninə beş min şekel ağırlığında tuncdan pullu zireh geymişdi.*
*Baldırlarına tunc zireh taxmışdı, kürəyində isə tunc mizraq vardı. Nizəsinin sapı toxucu dəzgahının əriş ağacı boyda olub dəmir ucu altı yüz şekel ağırlığında idi. Qalxan daşıyan silahdarı isə onun qabağında gedirdi.*
*Qolyat İsrail alaylarının qarşısında dayanaraq qışqıra-qışqıra dedi: «Niyə döyüşə çıxıb düzülmüsünüz? Mən Filiştli, siz də Şaulun qulları deyilsinizmi? Aranızdan bir kişi tapın, qoy yanıma gəlsin. Əgər mənimlə vuruşanda o məni öldürərsə, onda biz sizə qul olarıq, yox əgər mən onu vurub öldürsəm, onda siz bizə qul olub qulluq edəcəksiniz». Sonra Filiştli sözünü belə davam etdirdi: «Bu gün mən İsrail alaylarına meydan oxuyuram. Mənim qarşıma təkbətək vuruşmaq üçün bir kişi çıxarın!» Filiştlinin bu sözlərini eşidən **Şaul və bütün İsraillilər vahiməyə düşüb çox qorxdu.***

Qolyat İsrailliləri ələ saldığı vaxtda Davud döyüşdən uzaq yerdə, Allahın Sözü üzərində düşünərək, arfa çalıb və Rəbbə oxuyaraq sülh içində atasının qoyunlarını otarırdı. Amma Davudun üç böyük qardaşı var idi ki, onlar İsrail ordusunda əsgər idilər. Bir gün Davudun atası ona yaxınlaşdı və dedi, "Get döyüş meydanında qardaşlarına baş çək və vəziyyətin necə olduğu haqqında mənə məlumat gətir." Beləliklə, Davud qoyunlarını başqa bir çobana tapşırdı, səhər tezdəndən durdu və döyüş meydanına getdi.

Davud öz böyük qardaşları ilə salamlaşarkən və onlarla danışarkən, Filiştlilərin qəhrəmanı Qolyat öz sərhəddini keçib, İsrail əsgərlərini ötən 40 gün ərzində etdiyi kimi, yenə də

hədələməyə başladı. İsrail əsgərləri onu görəndə qorxu içində ondan qaçdılar. Sonra kimsə Davuda dedi, "Sən o adamı görürsən? O bizi lağa qoyur. Kim onu öldürsə, padşah Şaul ona böyük sərvət verəcək, həm də öz qızını ona ərə verəcək və onun atasının ailəsi vergidən azad olunacaqdır.

Sonra Davud dedi, "O  sünnət olunmamış Filiştli, kimdir ki, var olan Allahın ordusunu saymasın?" O belə deyəndə, Davudun böyük qardaşı ona qəzəbləndi və dedi, "Sən niyə bura gəldin? Və sənin bir neçə qoyununu səhralıqda kimin yanında qoydun? Mən bilirəm sən bura niyə gəmisən? Sən yalnız döyüşə baxmaq istəyirsən!" Buna baxmayaraq, İsrail əsgərlərindən biri Davudun nəhəng adam haqqında dediyi ruhlandırıcı sözləri eşitdi və onları padşah Şaula çatdırdı. Sonra Şaul Davudun yanına adam göndərdi və onu sorğu-sual etdi.

Müqəddəs Yazılar deyir:

(1 Şamuel 17:32-52) *Davud Şaula dedi: «Bu adamdan ötrü heç kim ürəyini üzməsin. Sənin qulun gedib o Filiştli ilə vuruşacaq». Şaul Davuda dedi: «Bu Filiştli ilə vuruşmağa hünərin çatmaz, çünki sən hələ uşaqsan, o isə cavanlığından döyüşçüdür». Davud Şaula dedi: «Sənin qulun atasının qoyunlarını otaranda aslan yaxud da ayı gəlib sürüdən bir quzu götürəndə mən arxadan çıxıb onu vurardım və ağzından quzunu qurtarardım. Əgər üstümə atılardısa, mən boğazının tüklərindən tutaraq çırpıb öldürərdim. Bu qulun həm aslan, həm də ayı öldürüb, bu sünnətsiz Filiştli də onlardan biri kimi olacaq, çünki o, var olan Allahın alaylarına meydan oxumuşdur». Davud sözünə davam etdi: «Məni aslan pəncəsindən, ayı pəncəsindən qurtaran Rəbb bu Filiştlinin də əlindən qurtaracaq». Şaul Davuda dedi: «Get, Rəbb sənə yar olsun!» Şaul öz silahlarını Davuda bağladı və başına tunc dəbilqə qoyub əyninə zireh geyindirdi. Davud bu zirehin üstündən qılınc taxıb gəzməyə çalışdı, çünki ona alışmamışdı. Sonra Davud Şaula dedi: «Bunlara alışmadığım üçün gəzə bilmirəm». Davud onları əynindən çıxartdı.*
*Sonra əlinə dəyənəyini götürüb çaydan özünə beş hamar daş seçdi və onları üstündəki çoban torbasına – dağarcığına qoyub əlində sapand Filiştliyə yaxınlaşdı. Filiştli irəliləyərək Davuda yaxınlaşırdı. Qalxan daşıyan nökəri isə onun qabağında idi. O nəzər salıb Davudu görəndə ona kinayə ilə baxdı. Çünki Davud gənc, alyanaq, üzügöyçək idi. Filiştli Davuda dedi: «Məgər mən itəm ki, üstümə dəyənəklərlə gəlirsən». Filiştli öz allahları ilə Davudu lənətlədi və dedi: «Yanıma gəl, sənin ətini göydəki quşlara və çöldəki heyvanlara verim». Davud isə Filiştliyə dedi: «Sən mənim üstümə qılınc, nizə və mizraqla gəlirsən, lakin mən sənin üstünə söydüyün İsrail alaylarının Allahı Ordular Rəbbinin ismi ilə gəlirəm. Bu gün Rəbb səni mənə təslim edəcək və mən səni öldürəcəyəm. Başını bədənindən ayıracağam. Bu gün Filişt ordusunun leşlərini göydəki quşlara və yerdəki heyvanlara verəcəyəm. Bundan sonra bütün dünya biləcək ki, İsraildə Allah var. Bütün bu camaat biləcək ki, Rəbb qılıncla və nizə ilə xilas etməz, çünki bu döyüş Rəbbindir və O sizi bizə təslim edəcək».*
*Davudun qabağına çıxmaq üçün Filiştli durub yaxınlaşanda Davud cəld onu qabaqlayıb Filişt alaylarına tərəf qaçdı. Davud əl atıb dağarcığından bir daş götürdü, sapandla fırladaraq Filiştlinin alnından vurdu. Daş onun alnına batdı və o, üzüstə yerə yıxıldı. Davud Filiştlini sapandla, daşla məğlub etdi və vurub yerə sərdi. Davudun əlində qılınc yox idi. O qaçıb bu Filiştlinin üstünə çıxdı. Filiştlinin qılıncını götürdü, qınından çəkib onu öldürdü və sonra başını kəsdi. Filiştlilər öz cəngavərinin öldürüldüyünü görəndə qaçdılar. İsraillilərlə Yəhudalılar isə qalxıb nərə çəkdilər və Filiştliləri Qatın girişinə və Eqronun darvazalarına çatana qədər qovdular. Filiştlilərdən ölənlər Şaarayim yolu boyu Qata və Eqrona qədər yerə sərilmişdilər.*

Beləliklə, biz bu gün gənc Davudun **sapandla, daşla** və **yaşayan Allaha olan möhkəm imanla** öz xalqını düşmənlərindən xilas etdiyini görürük. Həqiqətən, Davudun və Qolyatın hekayəsi mühüm dərslərlə dolu möcüzəli bir hekayədir.

Biz Şaulun və İsraillilərin Qolyatdan necə qorxduqlarını gördük. Onların heç biri onunla döyüşməyə cürət etmirdi, amma Davud nəhəng adamdan qorxmadı; o ona zərbə endirdi və öldürdü! Nə üçün Şaul və onun əsgərləri qorxurdular, amma Davud qorxmurdu? Davud və İsrail əsgərləri arasında nə fərq var idi? Biz onlar arasındakı fərqi belə cəmləşdirə bilərik: Davud **Rəbb Allaha etibar etdiyinə** görə nəhəng adamdan qorxmadı. Şaul və onun əsgərləri isə Allaha etibar etmirdilər. Buna görə də, onlar nəhəng adamdan qorxurdular.

Şaul və onun əsgərləri yalnız qüdrətli nəhəng adamı görürdülər. Davud isə **Qüdrətli Allahı** görürdü! Şaul və İsrail əsgərlərinin dini var idi, amma bu onların Allahla həqiqi ünsiyyətdə olmasına səbəb olmamışdır. Dinə məxsus olmaq, sənin Allaha məxsus olmana səbəb olmur. Şaul və onun əsgərləri çox yaxşı bilirdilər ki, Allah var, Allah birdir, Allah böyük və qüdrətlidir. Amma o bilik onları Qolyatdan xilas edə bilməzdi. Buna baxmayaraq, Davudun Yaşayan Allahla, Qadir Allahla həqiqi münasibəti var idi! Davud Allahı tanıyırdı və Onunla yeriyirdi. Davud Allahın vədlərinə inanırdı. Buna görə də Davud Qolyatdan qoxmurdu.

Sən daha çox kimə oxşayırsan? Davuda? Yoxsa Şaul və onun əsgərlərinə? Sən Allahı şəxsən tanıyırsan? Yoxsa Onun haqqında yalnız bir neçə söz eşitmisən? Sən Allahın Sözünü ürəyini sevinclə dolduracaq qədər yaxşı bilirsən? Yoxsa səndə yalnız ölü din var?

Davud peyğəmbərin Zəbur kitabında Allahla olan münasibəti haqqında yazdıqlarına qulaq as. O dedi:

*"Rəbb mənim çobanımdır, möhtac olmaram. Ölüm kölgəsinin dərəsində gəzsəm belə, Şərdən qorxmaram, çünki Sən mənimləsən... Bəli, bütün həyatım boyu yaxşılıq, məhəbbət məni izləyir. Bütün ömrüm boyu Rəbbin evində yaşayacağam!"* (Zəbur 23:1,4,6)

Bəs sən necə? Sənin də Rəbb Allahla yaxın münasibətin var? Onu öz Çobanın kimi tanıyırsan? Əminsənki əbədiyyən göylərdə Onun evində yaşayacaqsan? Davudda bu əminlik var idi. Çünki o Rəbb Allahın gözəl və dəyərli vədlərini bilirdi. Və o bunları yalnız öz **ağlında** bilmirdi; o həmçinin bunlara **öz ürəyində** də inanırdı.

Davudun həqiqi imanı var idi. Onun imanı etibarsız insan sözlərinə əsaslanmırdı. Onun imanı Öz xalqını heç vaxt tərk etməyən Rəbb Allahın etibarlı Sözünə əsaslanırdı! Davudun Məzmurlarda nə yazdığına qulaq as:

***"Rəbdir nurum, qurtuluşum! Mən kimdən qorxum****? Rəbdir ömrümün qalası, mən kimdən vahimələnim? ..... Bir ordu qarşımda düzülsə belə, ürəyim qorxmaz, mənimlə döyüşsələr də, arxayınam. Rəbdən bir arzum, bir istəyim var: Bütün ömrüm boyu Rəbbin evində yaşayım, Məbədində Rəbbin camalına baxım, Ona pərəstiş edim.... Ya Rəbb, dinlə, Səni çağırıram, lütf edib mənə cavab ver. Sən dedin: «Üzümü axtarın».* ***Ya Rəbb, mən Sənin üzünü axtarıram!"*** (Zəbur 27:1,3,4,7,8)

***"Ey mənə qüvvət verən Rəbb, Səni sevirəm****. Rəbb qayam, qalam, xilaskarımdır, Allahım qayamdır, Ona pənah gətirəcəyəm, Odur qalxanım, qüdrətli qurtarıcım, qülləm... Səninlə qoşun üstünə hücum çəkirəm, Allahımla sədlər keçirəm.* ***Allahın yolu kamildir, Rəbbin kəlamı safdır, Rəbb Ona sığınanların sipəridir!****"* (Zəbur 18:1,2,29,30)

Dinlədiyiniz üçün çox sağ olun. Gələn dərsdə Rəbbin iradəsi ilə biz Davud peyğəmbərin hekayəsini davam etdirəcəyik və onun İsrailin padşahı kimi necə hökmranlıq etməyə başlamasını görəcəyik....Allah sizə xeyir-dua versin. Biz Davudun Zəbur kitabında yazdığı sözlər ilə qurtarırıq:

***"İsmini tanıyanlar Sənə güvənir, çünki, ya Rəbb, Səni axtaranları tərk etməzsən!"*** (Zəbur 9:10)

48-ci Dərs

# Padşah Davud və Allahın Vədi

**1 Şamuel 18 – 2 Şamuel 7**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Biz Davud peyğəmbərin hekayəsini davam etdiririk. İki dərs əvvəl biz Allahın gənc Davudu İsraildə ikinci padşah olmaq üçün necə seçdiyini gördük. Amma o Allahın onu təyin etdiyi gün hökmranlıq etməyə başlamadı. Allah birinci padşah Şaulu rədd etmişdi. Çünki o Allahın iradəsini yerinə yetirməyin qayğısına qalmırdı. Amma Allah Davud haqqında belə deyərək şəhadət etdi, *" Öz ürəyimə yatan adam olaraq Yessey oğlu Davudu tapdım və o Mənim bütün istədiklərimi yerinə yetirəcək."* (Həvarilərin İşləri 13:22) Ötən dərsimizdə biz sapan, daş və **yaşayan Allaha möhkəm imanla** Davudun nəhəng Qolyatı məğlub edərək öldürdüyünü gördük. İnid isə gəlin Davudun hekayəsini davam etdirək və İsrailin padşahı Şaulun yerini necə əvəz etməsinə baxaq.

Şamuelin birinci kitabında davam edirik. Müqəddəs Yazılar deyir:

(1 Şamuel 18:6-9*) Davud Filiştli Qolyatı öldürüb qayıdanda əsgərlər geri gələrkən İsrailin bütün şəhərlərindən qadınlar dəflərlə, üçsimli alətlərlə şənlik mahnısı oxuyaraq və rəqs edərək padşah Şaulu qarşılamaq üçün çıxırdılar. Qadınlar rəqs edə-edə belə mahnı oxuyurdular: «Şaul qırdı **minləri**, Davudsa **on minləri**». Şaul bundan çox qəzəbləndi, çünki bu söz onun gözündə pis göründü və dedi: «Davud üçün on minləri, mənim üçünsə ancaq minləri deyirlər. Təkcə padşahlıq qaldı, bundan başqa nə var ki, ona verilsin?» O gündən sonra Şaul Davuda **çəp-çəp baxmağa** başladı.*

Müqəddəs Yazılar İsraillilərin Davudu necə çox sevdiklərini nəql edir. Amma onlar Davudu daha çox sevdikcə, Şaul da ona daha çox nifrət edirdi. Paxıllıq Şaulun ürəyini bürümüşdü və onu idarə edirdi. Onun düşünə bildiyi yeganə şey, Davuddan canını necə qurtara bilməsi idi. Nəticə etibarı ilə Davud qaçdı və onu müşayyət edən 400 İsrailli ilə birlikdə səhralıqda gizləndi. Şaul və onun əsgərləri Davudu və onunla olan adamları səhralıqda izləyirdi. Şaul əlindən gələn hər şeyi edirdi ki, Davudu tutsun və öldürsün. Buna baxmayaraq o bunu edə bilmədi, çünki Rəbb Davudla idi. Amma Şaul Davuda çoxlu üzüntülər gətirdi. Səkkiz il Davud və onun adamları qəzəbli Padşah Şauldan qaçmalı oldular.

Buna baxmayaraq, Şaulun Davuda qarşı olan paxıllığı və qəzəbi Davudun ona nifrət etməsinə səbəb olmadı. Nə üçün Davud onu öldürməyə çalışan Şaula nifrət etmədi? Davud günəşin saleh və qeyri-saleh üzərində çıxmasına səbəb olan Allahla yeridiyinə görə Şaula nifrət edə bilməzdi. Müqəddəs Yazılar deyir:

*"Sevən hər kəs də Allahdan doğulub və Allahı tanıyır. Sevməyən kəs Allahı tanımır, çünki **Allah məhəbbətdir.** Biz sevirik, çünki öncə O bizi sevdi. Kim «mən Allahı sevirəm» deyir, amma öz qardaşına nifrət edirsə, yalançıdır. Axı gördüyü qardaşını sevməyən görmədiyi Allahı sevə bilməz."* (1 Yəhya 4: 7,8,19,20)

Davud və Şaul arasında çox şeylər baş verdi. Biz bir hekayəyə baxacağıq və Davudun təvazökarlığını və məhəbbətini müşahidə edəcəyik. Şamuelin 1-ci kitabı, 24-cü fəsildə Müqəddəs Yazılar deyir:

(1 Şamuel 24:1-20) *Şaul Filiştliləri təqib edib dönərkən ona belə xəbər verildi: «Davud En-Gedi səhrasındadır». O bütün İsraildən üç min seçmə adam götürüb Davudla adamlarını axtarmaq üçün Dağ Keçiləri qayasının yaxınlığına getdi. Yol kənarındakı qoyun ağıllarına gəldi. Orada bir mağara vardı. Şaul ayaqyoluna getmək üçün oraya girdi. Davud adamları ilə mağaranın lap içəri tərəfində oturmuşdu.*

*Davudun adamları ona dedi: «Budur, Rəbbin sənə "bax düşmənini sənə təslim edəcəyəm, gözündə nə xoşdursa, ona edəcəksən" dediyi gün bu gündür». Davud qalxıb gizlicə Şaulun cübbəsinin ətəyindən kəsdi. Sonra Şaulun ətəyindən bir parça kəsdiyinə görə Davudun ürəyi ağrıdı. O, adamlarına belə dedi: «Rəbbin məsh etdiyi ağama əl qaldırıb belə bir iş görməyi Rəbb məndən uzaq etsin, çünki o, Rəbbin məsh olunmuşudur». Davud bu sözlərlə adamlarının qarşısını aldı və onları Şaula qarşı qalxmağa qoymadı. Şaul da mağaradan çıxıb yoluna davam etdi.*

*Ondan sonra Davud qalxıb mağaradan çıxdı və Şaulun arxasınca «Ağam padşah!» deyə çığırdı. Şaul arxaya baxdı. Davud üzüstə yerədək təzim etdi. O, Şaula dedi: «"Davud sənin pisliyini istəyir" deyən adamların sözünə niyə qulaq asırsan? Bax öz gözlərinlə gördün ki, bu gün Rəbb mağarada səni mənə necə təslim etdi. Mənə təklif etdilər ki, səni öldürüm, lakin mən sənə qıymadım. Dedim ki, ağama qarşı əl qaldırmaram, çünki o, Rəbbin məsh olunmuş padşahıdır. Ey atam, əlimdəkinə bax, bu sənin cübbənin ətəyidir. Cübbənin ətəyindən kəsib səni öldürmədiyimdən gör və anla ki, sənə qarşı pislik və qiyam etmək əlimdən gəlmir. Sən canımı almaq üçün məni ovladığın halda mən sənə qarşı günah etmədim. Səninlə mənim aramda qoy Rəbb hakim olsun! Qoy Rəbb səndən mənim qisasımı alsın. Mən sənə əl qaldırmaram. Qədim zamanlardan belə bir məsəl var: "Pislik pislərdən çıxar". Bu məsəldə deyildiyi kimi sənə əl qaldırmayacağam.*

*Davud bu sözləri Şaula söyləyib qurtarandan sonra Şaul «Oğlum Davud, bu sənin səsindirmi?» dedi və bərkdən ağladı. O, Davuda dedi: «Mən sənin qədər saleh deyiləm, çünki sən mənə pisliyimin əvəzinə yaxşılıq etdin. Bu gün də mənə yaxşı münasibətini bəlli etdin, çünki Rəbb məni sənə təslim etdi, sən isə məni öldürmədin. Əgər bir insan düşmənini taparsa, onu salamat buraxarmı? Buna görə də bugünkü işinin əvəzini Rəbb sənə yaxşılıqla ödəsin. İndi isə bax bilirəm ki, sən mütləq padşah olacaqsan və İsrailin padşahlığı sənin əlinə keçib güclənəcək.*

Bundan sonra Şaul evə qayıtdı. Amma çox keçmədi ki, paxıllıq yenə onun ürəyini bürüdü və onu səhralığa geri dönməyə və Davudu izləməyə təhrik etdi. Səkkiz il Şaul **paxıllığından** belə etdi! Amma hər dəfə də Allah Davudu Şaulun əlindən xilas edirdi. Sonunda Şaul əkdiyi pisliyi biçdi. 21-ci fəsildə nə yazıldığına qulaq as.

Müqəddəs Yazılar deyir:
(1 Şamuel 31:1-4) *Filiştlilər İsraillilərlə döyüşdü. İsraillilər Filiştlilərin önündən qaçdılar, qırılanlar Gilboa dağında qaldı. Filiştlilər Şaulla oğullarını təqib edib Şaulun oğulları Yonatanı, Avinadavı və Malki-Şuanı öldürdülər. Döyüş Şaulun ətrafında şiddətlənəndə oxatanlar onu tapdılar və ağır yaraladılar. Şaul öz silahdarına dedi: «Qılıncını çək, məni vur, yoxsa bu sünnətsizlər gəlib qılınclarını mənə batıraraq əylənəcəklər». Lakin silahdarı*

*çox qorxduğundan bunu etmək istəmədi. Ona görə də* ***Şaul qılıncını götürüb özünü onun üstünə yıxdı.***

Həmin gün Şaul və onun üç oğlu həlak oldu. Allahın dediyi kimi Şaulun nəsli tamami ilə kəsildi. Sonrakı fəsildə Müqəddəs Yazılar **Allahın İsrail Padşahlığını Davuda** necə verdiyini nəql edir. Davud salehliyi sevən və haqsızlığa nifrət edən ədalətli padşah idi. Davud Rəbb Allahı bütün ürəyi ilə sevirdi. Allahın Sözü və Allahın izzəti Davudun düşüncələrində birinci yerdə idi. Buna görə də, Davud İsrailə hakimlik etməyə başlayanda, onun etmək istədiyi ilk şey Hüzur Çadırını və Əhd Sandığını Yerusəlimə gətirmək idi. Yerusəlim İsrailin paytaxtı olmuşdur və buna görə də Davud ibadət çadırını və qurbangahı burada yerləşdirmək istəyirdi.

Davud ibadət çadırını Yerusəlimə gətirəndən sonra, Müqəddəs Yazılar Rəbbin adını izzətləndirmək üçün gözəl məbəd tikəcəyini necə planlaşdırdığını nəql edir. Davud Əhd Sandığının yerləşə biləcəyi və günahkar insanlar Allaha günahlarının üstünü örtən qurban təqdim edə biləcəyi məbədi tikmək istəyirdi. Buna baxmayaraq, Rəbb Davuda dedi ki, Allah üçün evi tikən o olmayacaqdır, amma Allah **əbədiyyən qalan nəslini** tikəcəkdir! Allahın Davud ilə bağladığı əhdə qulaq as. Allah ona dedi:

(2 Şamuel 7:12-16) *“Ömrün başa çatıb atalarınla uyuyanda yerinə sənin toxumundan – belindən gələn övladını çıxaracağam və onun padşahlığını möhkəmləndirəcəyəm. O Mənim ismimə ev tikəcək və onun şahlıq taxtını əbədi möhkəm edəcəyəm. Mən ona Ata, o isə Mənə oğul olacaq....* ***Sənin nəslin və padşahlığın Mənim qarşımda əbədi əmin-amanlıqda olacaq, taxtın isə əbədi möhkəm qalacaq.”***

Sən o gün Allahın Davud ilə bağladığı əhdi başa düşürsən? O insan ağlına sığmayan nəhəng bir vəd idi! Allah Davuda vəd verdi, *"Sənin nəslin və padşahlığın Mənim qarşımda əbədi əmin-amanlıqda olacaq,* ***taxtın isə əbədi möhkəm qalacaq!”***

Nə? Davudun padşahlığı necə **əbədi** ola bilər? Bu necə ola bilər? Adi bir insan olan Davudun necə əbədi hökmranlığı ola bilər? Cavab budur: Allah Davuda vəd etdi ki, **onun nəslindən bir nəfər** əbədi qalacaq hökmranlığı quracaqdır. Davudun hökmdar ailə xəttində elə bir Adam doğulalacaq ki, göylərdə və yerdə əbədi hökmranlıq sürmək üçün hakimiyyəti əldə edəcəkdir. O padşahların Padşahı, rəbblərin Rəbbi, Sülh Hökmdarı adlanacaqdır. Davudun dövründən yüzlərlə illər sonra və padşahların Padşahı doğulandan təqribən yeddi yüz il əvvəl Yeşaya peyğəmbər bu sözləri yazmışdır:

*"... bizim üçün körpə doğuldu, bizə oğul verildi,* ***hakimiyyət onun çiyinləri üzərində olacaq,*** *Onun adı* ***Ecazkar Məsləhətçi, Qüdrətli Allah, Əbədi Ata, Sülh Hökmdarı olacaq****. Hakimiyyətinin və sülhünün artmasının sonu olmayacaq, O, Davudun taxtı və padşahlığı üzərində hökm sürəcək, O, hakimiyyətini ədalətlə və salehliklə indidən* ***sonsuzadək*** *quracaq. Ordular Rəbbinin qeyrəti bunu edəcək!"* (Yeşaya 9:6,7)

Sən Davudun nəsli arasında sonsuz hakimiyyət qurmaq səlahiyyəti kimə verildiyini bilirsən? Sən Adəmin övladlarını Məkhəmə Günü məhkum edəni və əbədiyyət boyu hakimlik edəcək olanı tanıyırsan? Bu Davudun nəslindən olan bakirə qızdan doğulan, **göylərdən gələn Padşah.** Bu padşah haqqında Müqəddəs Yazılar deyir: ***"Allah Onu çox ucaltdı və Ona lütflə bütün adlardan ali bir ad verdi!"*** (Fil 2:9)

Davud Allahın Qurtarıcını onun nəslindən göndərəcəyi planını başa düşəndə, Davud diz çökdü və Rəbbə belə deyərək ibadət etdi,

(2 Şamuel 7:18-19, 22, 28-29) *Ya Xudavənd Rəbb,* ***mən kiməm və nəslim kimdir ki, Sən məni bu yerə çıxartdın****? Ya Xudavənd Rəbb, Sənin gözündə bu da kiçik göründü, hələ bu qulunun nəslinin* ***gələcəyi*** *haqqında xəbər verdin. Bu insanlar üçün bir təlimdirmi, ya Xudavənd Rəbb?* ***... "Ya Rəbb Allah, Sən böyüksən****. Axı qulaqlarımızla eşitdiklərimizin hamısına görə* ***Sənin kimisi heç yoxdur və Səndən başqa Allah yoxdur****.* ***...*** *Ya Xudavənd Rəbb, Sən Allahsan, Sənin sözlərin haqdır və indi də quluna* ***bu yaxşı şeyi*** *vəd etdin.* ***Əbədi olaraq*** *Sənin önündə olsun deyə qulunun nəslinə xeyir-dua vermək qoy Sənə xoş görünsün! Çünki, ya Xudavənd Rəbb, Sən belə söz verdin. Bu qulunun nəsli Sənin xeyir-duanla* ***əbədilik*** *xeyir-dua alsın!"*

Davud, onun nəsli vasitəsi ilə gələcək **Padşah** haqqında olan vədə görə Rəbbə belə minnətdarlıq etdi. Müqəddəs Yazıları bilən sən bilirsən ki, Allah artıq vədin bu hissəsini yerinə yetirib. Çünki biz İncildə oxuyuruq ki, Davudun dövründən min illər sonra Allah, Davudun atasının qoyunlarını otardığı həmin Bet-Lexemin təpələrində qoyunlarını otaran bir neçə çobana mələk göndərdi. Rəbbin mələyi çobanlara dedi, *"Mən sizə* ***bütün xalqı*** *çox sevindirəcək bir Müjdə gətirmişəm.Bu gün Davudun şəhərində sizin üçün Xilaskar doğuldu. Bu,* ***Rəbb*** *Məsihdir."* (Luka 2:10,11) Bəli, Davudun nəsli vasitəsi ilə doğulacaq Allahın vəd etdiyi **Padşah** doğulmuşdur. Hal-hazırda O göylərdədir və dünyanı ədalətlə məhkum edəcəyi həmən o dəhşətli və izzətli günü gözləyir. O gün hamı Allahın Davuda onun **əbədi padşahlığı** haqqında etdiyi vədin doğru olduğunu biləcəkdir. Həmin gün belə deyiləcəkdir, *"Rəbbimiz və Onun Məsihi dünya üzərində Padşahlığa sahib oldu!* ***O əbədi olaraq padşahlıq edəcək****!"* (Vəhy 11:15)

Dinlədiyiniz üçün çox sağ olun. Gələn dərs biz Padşah Davudun hekayəsini davam etdirəcəyik və çox maraqlı hadisə haqqında bir şey eşidəcəyik.

Allah sizə xeyir-dua versi. Biz sizinlə Müqəddəs Yazılardan bu ayə ilə sağollaşırıq:

***"Allahın zənginliyi nə böyük, hikməti və biliyi nə dərindir! ... Hər şey Onun vasitəsilə və Onun üçün var oldu. Ona əbədi olaraq izzət olsun! Amin."*** (Romalılara 11:33,36)

49-cu Dərs

# Davud və Bat-Şeva

**2 Şamuel 11,12; Zəbur 51,32**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz Davudun necə İsrailin Padşahı olduğunu gördük. Davud, Allahın Sözünü sevən ədalətli və mərhəmətli padşah idi. Amma bu gün biz **Davud haqqında xoşa gəlməyən bir şey** oxuyacağıq. Davud Allahın gözlərində iyrənc olan bir şey etdi; öz qonşusunun arvadına tamah saldı, onunla zina etdi və bunu örtərək günahın üstünə günah əlavə etdi. Bəziləri soruşa bilər, "Müqəddəs Yazılarda nə üçün belə dəhşətli hekayə var?" Müqəddəs Yazılar belə deyərək cavab verir: *"Bundan əvvəl yazılanların hamısı **bizi öyrətmək** üçün yazıldı."* (Romalılara 15:4) *"Bu hadisələr... **öyüd-nəsihət kimi yazılıb**.... Buna görə də kim ayaq üstə durduğunu düşünürsə, ehtiyatlı olsun ki, yıxılmasın!"* (1 Korinflilərə 10:11,12) Müqəddəs Yazılarda Allah peyğəmbərlərin günahlarını gizlətmir. Çünki Allah bizə dəyərli dərslər öyrətmək istəyir.

İndi isə gəlin Şamuelin ikinci kitabına qayıdaq və Davudun günaha necə batdığını görək. Yeddinci fəsildə Müqəddəs Yazılar deyir:

(2 Şamuel 11:1-5) *Bahar gələndə padşahlar müharibəyə çıxan vaxt **Davud Yoavı**, zabitlərini bütün İsrail ordusu ilə birlikdə müharibəyə göndərdi. Onlar Ammonluları qırıb Rabbanı mühasirəyə aldılar. Davud isə Yerusəlimdə qaldı. Bir axşamçağı Davud yatağından qalxıb padşah sarayının damı üstündə gəzişirdi. O, damdan baxıb gördü ki, bir qadın yuyunur. Qadın çox gözəl idi. Davud adam göndərib bu qadın barəsində xəbər aldı. Biri belə dedi: «Bu qadın Xetli **Uriyanın** arvadı, Eliamın qızı **Bat-Şevadır**». Davud qasidlər göndərib onu yanına gətirtdi. Qadın onun yanına gələndə hələ aybaşı murdarlığından təmizlənməkdə idi. Davud onunla yatdı və sonra qadın evinə qayıtdı. Qadın bundan boylu olub Davuda «mən hamiləyəm» deyə xəbər göndərdi.*

Sonra, Müqəddəs Yazılar Davudun günahının üstünü örtməyə çalışdığını təsvir edir. Davud eşidəndə ki, Bat-Şeva hamilədir, o ordusunun rəhbəri Yoavı çağırdı və onu Bet-Şevanın əri Uriyanın yanına getməyə əmr etdi. Uriya İsrail ordusunda döyüşən güclü bir kişi idi. Beləliklə, Yoav Uriyanı Davudun yanına göndərdi.

(2 Şamuel 11:7-21) *Uriya Davudun yanına gələndə Davud Yoavın, xalqın və döyüşün vəziyyətini soruşdu. Sonra Davud Uriyaya dedi: «Get evinə, ayaqlarını yu». Uriya padşahın sarayından çıxanda padşah arxasınca ona hədiyyə də göndərdi. Lakin Uriya padşahın sarayının qapısında ağasının bütün mühafizəçiləri ilə birlikdə yatıb evinə getmədi. Davuda «Uriya evinə getmədi» deyə bildirdilər. Davud Uriyaya dedi: «Sən yoldan gəlməmisənmi? Niyə evinə getmədin?» Uriya Davuda dedi: «Əhd sandığı və İsraillilərlə Yəhudalılar çardaqlarda qalarkən, ağam Yoavla ağamın zabitləri çöllərdə məskən salarkən mən yemək-içmək və arvadım ilə yatmaq üçün evimə gedimmi? Həyatına və canına and olsun, mən belə şey etmərəm».*

*Davud Uriyaya dedi: «Bu gün də burada qal, sabah səni yola salaram». Uriya həmin günü və ertəsi günü Yerusəlimdə qaldı.... Səhər açılanda Davud Yoava məktub yazdı və məktubu Uriyanın əli ilə Yoava göndərdi. Məktubunda belə yazılmışdı: «Uriyanı qızğın döyüşlərə göndər. Onu ön xəttə qoy və yanından çəkilin ki, vurulub öldürülsün». Yoav şəhəri mühasirə altında saxlayarkən igid adamlar olan yeri bilirdi və Uriyanı oraya göndərdi. Şəhərin adamları qalxıb Yoavla döyüşə çıxdılar. Xalqdan, Davudun döyüşçülərindən qırılanlar oldu və Xetli Uriya da ölənlər arasında idi. Yoav Davudun yanına adam göndərib döyüş haqqında olan məlumatların hamısını xəbər verdi. ... "Qulun Xetli Uriya da öldü."*

*Uriyanın arvadı Uriyanın ölümünü eşidib əri üçün yas tutdu. Yas qurtarandan sonra Davud adam göndərib Bat-Şevanı öz evinə gətirdi və o, Davudun arvadı oldu. Sonra Davuda bir oğul doğdu.* ***Lakin Davudun gördüyü bu iş Rəbbin gözündə pis idi.***

(2 Şamuel 12:1-15) *Rəbb* ***Natanı*** *Davudun yanına göndərdi. Natan onun yanına gəlib belə nəql etdi: «Bir şəhərdə iki adam var idi. Onlardan biri varlı, o biri isə kasıb idi. Varlı adamın çoxlu sürüləri və naxırı var idi. Lakin kasıb adamın satın alıb bəslədiyi bir körpə dişi quzudan başqa heç nəyi yox idi. O, quzusunu öz yanında uşaqları ilə bərabər böyütmüş, ona öz yeməyindən yedirtmiş, öz içdiyi qabdan su içirtmiş və qoynunda yatırtmışdı. Quzu ona doğma qızı kimi idi. Bir gün varlı adamgilə yadelli bir qonaq gəlir. Varlı adam onlara gələn qonağa yemək hazırlamaq üçün öz sürüsündən və naxırından heyvan götürüb kəsməyə qıymadı. O gedib kasıbın quzusunu götürüb kəsdi və yanına gələn qonağa yemək hazırladı."*

*O adama qarşı Davudun qəzəbi alovlandı və Natana dedi: «Var olan Rəbb haqqı, bunu edən adam ölümə layiqdir. Bu işi gördüyünə və rəhmsizliyinə görə o, quzunun əvəzini dördqat verəcək». Natan Davuda dedi: «O adam sənsən! İsrailin Allahı Rəbb belə deyir: "Mən səni İsrailin üzərində padşah olaraq məsh etdim və səni Şaulun əlindən qurtardım....Sənə ağanın evini verdim. Ağanın arvadlarını qoynunda yatırıb İsraillə Yəhuda nəslini sənə verdim. Əgər bu sənə azlıq edirdisə, Mən sənə daha nələri, nələri əlavə edərdim. Nə üçün Rəbbin gözündə pis olan işi etdin? Niyə Onun sözünə xor baxdın? Xetli Uriyanın arvadını özünə arvad etmək üçün onu qılıncla öldürtdürdün. Uriyanı Ammon övladlarının qılıncı ilə öldürtdürdün. Bundan sonra heç vaxt qılınc sənin evindən ayrılmayacaq, çünki sən Mənə xor baxdın və Xetli Uriyanın arvadını özünə arvad etdin".*
*Rəbb belə deyir: "Bax sənə qarşı pisliyi öz nəslindən çıxaracağam və sənin gözünün önündə arvadlarını götürüb yaxınına verəcəyəm. O da göz görə-görə, gündüzün günorta çağı sənin arvadlarınla yatacaq. Bu işi sən gizli etdinsə, Mən bu işi bütün İsraillilərin qarşısında gündüzün günorta çağı etdirəcəyəm"». Davud Natana dedi: «Mən Rəbbə qarşı günah etdim». Natan Davuda dedi: «Rəbb sənin günahını sildi, ölməyəcəksən.*
*Lakin bunu etməklə Rəbbin düşmənlərinə böyük fürsət verdin ki, Ona küfr etsinlər. Ona görə də mütləq səndən doğulan uşaq öləcək». Sonra Natan evinə qayıtdı.*

Sonrakı fəsillərdə Müqəddəs Yazılar Davudun günahının öz ailəsi daxilində necə böyük bədbəxtliklər və faciələr törətdiyini göstərir. Amma Allahın Sözü həmçinin deyir: ***"Günah*** *çoxalan yerdə Allahın* ***lütfü*** *daha da çoxaldı."* (Romalılara 5:20) Beləliklə, bu günki qalan vaxtda biz, Allahın Davuda necə **lütf** göstərməsini və bütün **günahlarını** bağışlamasını görəcəyik.

**Nə üçün Allah Davudun bütün günahlarını bağışladı?** Natan Davuda deyəndə, *"O adam sənsən!"* Sən Davudun cavabını eşitdin? Allahın Peyğəmbəri Natanın belə bir şeyi İsrailin böyük Padşahına deməsi üçün böyük cəsarəti var idi. Davud Natana necə cavab verdi? O Natanı həbsə atdı, ya da bir çox digər padşahlar kimi onu edam etdi? Xeyr, o bunu etmədi!

Davud öz günahına bəraət qazandıraraq belə dedimi: "Allah belə istədi!" ya da "Allah yaxşıdır. Bəlkə o mənim yaxşı işlərimə görə pis işlərimi siləcəkdir!" ? Davud Natana belə cavab verdi? Xeyr, belə cavab vermədi! Bəs onda Davud necə cavab verdi? Davud dedi: *"Mən günah işlətmişəm!"* ***"Mən Rəbbə qarşı günah etdim!"***

Davudun Allah qarşısında günahını necə etiraf etməsini daha yaxşı başa düşmək üçün biz Bet-Şeva ilə günah işlətməsinə görə Natan peyğəmbərin onu məzəmmət etdiyindən sonra Zəbur kitabında yazdığını oxumalıyıq. 51-ci Məzmurda Davud deyir:

(Zəbur 51) ***Məhəbbətinə görə, ey Allah, mənə rəhm et, bol mərhəmətinə*** *görə qanunsuzluqlarımı sil.* **2** *Təqsirimi tamamilə yu, günahımdan məni təmizlə. Çünki qanunsuzluqlarımı bilirəm, günahım daim gözümün qarşısındadır. Sənə, yalnız Sənə qarşı günah işlətmişəm, gözündə pis sayılanı etmişəm. Mənə görə çıxarılan hökmündə ədalətlisən, məni məhkum etməkdə haqlısan. Mən doğulandan bəri günahkaram, ana bətnindən belə, təqsirkaram. Sənsə ürəkdə düzlüyün olmasını istəyirsən, mənə daxilən hikmət öyrət.* ***Məni züfa ilə pak et, təmiz olum, məni yu, qardan da ağ olum. ...*** *Ey Allah, məndə təmiz ürək yarat, daxilimə yenidən sədaqət ruhunu ver.* ***... Allaha məqbul olan qurban sınmış ruhdur, Sən sınan və peşman olan ürəyə xor baxmazsan, ey Allah!***

Davud belə tövbə etdi. Davud öz günahına görə çox göz yaşı axıtdı. Allah qarşısında onun sınmış və əzilmiş ürəyi var idi. **Davud, dini olub amma hər gün günah işlətməkdə davam edən adamlar kimi deyildir.** Həqiqətən, Davud günaha batdı amma o günahda yaşaya bilmədi. Çünki Davud Allahı sevirdi və bilirdi ki, *" Allah nurdur və Onda zərrə qədər də qaranlıq yoxdur."* (1 Yəhya 1:5)

Davud tövbə edəndən sonra, Allah Natan peyğəmbərin ağzı ilə ona nə dedi? Allah ona belə dedimi: "Get və bir az yaxşı işlər gör və Mən sənin günahlarını siləcəyəm!" ? Xeyr, Allah belə demədi! Natan sadəcə olaraq ona dedi, *"Rəbb sənin günahını sildi, ölməyəcəksən!"*

Bundan sonra Davud **öz işlərindən ayrı, Allah tərəfindən günahları** bağışlanmış adamların bəxtiyarlığını təsvir edir. O dedi: *"Üsyankarlığı* ***bağışlanan,*** *günahı* ***əfv olunan*** *insan nə bəxtiyardır!* ***Rəbb tərəfindən təqsirkar sayılmayan,*** *qəlbində hiylə olmayan insan nə bəxtiyardır!"* (Zəbur 32:1,2 ; Romalılara 4:7,8) Bəli, Allah Davudu bağışladı və onu saleh saydı! Bu o demək deyil ki, Allah Davudun günahının törətdiyi bəlaları götürdü. Bu o deməkdir ki, Məhkəmə Günü Allah Davudun günahlarını xatırlamayacaqdır. O onların hamısını Öz kitabından **sildi**!

**Allah bunu necə edə bilərdi?** Allah Davudun bütün günahlarını bağışlayıb və hələ necə ədalətli hakim ola bilərdi? Allah Davudun etdiyi bütün o şər əməlləri sadəcə belə unuda bilərdimi? Xeyr! Allah ədalətli hakimdir və O Adəmin övladlarının günahlarına gözlərini sadəcə yuma bilməz. Bəs onda Allah Davudu necə bağışlaya və Öz salehliyini saxlaya bildi?

Yadındadır Davud öz günahını dərk edəndən sonra o Allaha necə dua etdi? O dedi: *"Təqsirimi tamamilə yu, günahımdan məni təmizlə... Məni züfa ilə pak et, təmiz olum, məni yu, qardan da ağ olum!"* (Zəbur 51:2,7)

Davud tövbə etdiyinə görə Allah onun günahlarını bağışlaya bildi və onu təmizləyə bilən Allahın gücünə inandı.

Allah Öz lütfündə Davudun bütün günahlarını bağışladı? Allah Davudun ürəyini təmizləyib və onu saleh saydı? Bəli, O belə etdi! Allah nəyə əsaslanaraq belə etdi? Öz günahlı vəziyyətini Allah qarşısında etiraf etdiyinə və günahın götürən Allaha inandığına görə Allah Davudu bağışladı. Allahın vədlərinə olan imanı və Məzmurları yazması Davudun sevinməsinin səbəbi idi: ***"Üsyankarlığı bağışlanan, günahı əfv olunan insan nə bəxtiyardır! Rəbb tərəfindən təqsirkar sayılmayan, qəlbində hiylə olmayan insan nə bəxtiyardır!"*** (Zəbur 32:1,2)

Dostlar, dinlədiyiniz üçün çox sağ olun. Allahın iradəsi ilə gələn dərslərdə Allahın əbədiyyən günahlarımızı bağışlaması üçün bizim cəzamızı daşıyacaq olan Qurtarıcı haqqında Davud peyğəmbərin nə şəhadət etdiyi haqqında Müqəddəs Zəbur kitabına baxacağıq....

Allahın ən böyük xeyir-duaları haqqında Davud peyğəmbərin Məzmurlarda yazdığı ayəni düşündükcə, Allah sizə xeyir-dua versin:

***"Üsyankarlığı bağışlanan, günahı əfv olunan insan nə bəxtiyardır! Rəbb tərəfindən təqsirkar sayılmayan, qəlbində hiylə olmayan insan nə bəxtiyardır!"*** (Zəbur 32:1,2)

50-ci Dərs

# Davud Peyğəmbər və Məsih

**Zəbur 1,2**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dörd dərsdə biz **Davud peyğəmbərin** hekayəsini nəzərdən keçirdik. Biz Davudun necə çoban, arfa çalan, nəğmələr yazan, Allahın Sözünün tələbəsi, döyüşdə qəhrəman, İsrailin padşahı və Allahın peyğəmbəri olduğunu gördük. Ötən dərsimizdə biz Davudun **günahkar** olduğunu da gördük; o Allaha heç xoş getməyən bir şey etdi. Buna baxmayaraq Allahın Davudun günahlarını necə bağışladığını da gördük. Çünki Davud tövbə edən ürəklə öz günahlarından döndü.

Bu gün biz Müqəddəs Yazıların düz ortasında yerləşən gözəl bir kitab üzərində düşünməyi planlaşdırırıq. Sən bu kitabın adını bilirsən? Bəli, bu **Zəburdur.** Zəbur kitabı 150 məzmurdan ibarətdir. Yüzlərlə illər ərzində Məzmurları yazmaq üçün Allah Musa və Süleyman da daxil olmaqla bir neçə peyğəmbərdən istifadə edib. Amma Davud digər peyğəmbərlərdən daha çox məzmurlar yazıb. Bu gün biz Zəbur kitabından ilk iki himnə daha yaxından baxmaq istəyirik.

Birinci mahnı bizə dünyada olan iki cür insanı göstərir: Salehlik yolu ilə gedənlər və salehsizlik yolu ilə gedənlər. Birinci Məzmurda deyilir:

(Zəbur 1) *Pislərin məsləhəti ilə getməyən, günahkarların yolunda dayanmayan, rişxəndçilərin arasında oturmayan* ***insan nə bəxtiyardır****! O ancaq Rəbbin Qanunundan zövq alar, gecə-gündüz bu təlimatı dərin düşünər. Axar sular kənarında əkilən ağac kimi barını mövsümündə verər, yarpağı solmaz, etdiyi hər işdə uğur qazanar.* ***Pis adamlarsa belə deyil,*** *onlar yelin sovurduğu saman çöpünə bənzəyər. Buna görə pis adamlar hökm günündə, günahkarlar salehlərin məclisində dayana bilməz.* ***Çünki Rəbb salehlərin yolunu qoruyur, pislərinsə yolu onları ölümə aparır.***

Biz burada **bəxtiyar insanın** və **məhvə gedən insanın da yolunu görürük**. Hamı bəxtiyar olmaq istəyir. Heç kim istəmir ki, məhv olsun. Allah da istəyir ki, hamı bəxtiyar olsun. Amma sən Allahın qoyduğu yol ilə gəlməlisən. Bu bəxtiyarlıq yol nədir? Zəburdakı birinci mahnı bunu iki fikir ilə cəmləşdirir. **Birinci:** Allahın Sözünə qarşı çıxanların yolu ilə getmə. **İkinci:** Allahın Sözünü dərk etmək, inanmaq və Allahın qoyduğu xilas yolunu qəbul etmək məqsədi üzərində dərindən düşünmək.

Əgər sən Allahın salehlik yoluna inanırsan və o yolla gedirsənsə, onda Müqəddəa Sözlər deyir ki, sən "*Axar sular kənarında əkilən ağac kimi olacaqsan";* sənin həyatın Allahın Özündə olacaq, məhəbbət, sevinc və sülh kimi *"bəhrəsini vaxtında"* verəcəksən. Amma əgər sən Allahın salehlik yolunun ardınca getməsən, onda "*yelin sovurduğu saman çöpünə bənzəyər* " kimi məhv olacaqsan.

İndi isə gəlin Zəburdakı ikinci mahnıya keçək. Bu fəsildə, Allah Davudu dünyaya gələcək Qurtarıcı haqqında yazmağa ilhamlandırmışdır. Gəlin Allahın Öz peyğəmbəri Davudun vasitəsi ilə dediyi xəbərə diqqətlə qulaq asaq. Müqəddəs Yazılar deyir:

(Zəbur 2) *Nə üçün millətlər belə vurnuxmaya düşür, ümmətlər boş şeylər düşünür? Dünya şahları yığışır, Hökmdarlar Rəbbə və* ***Onun məsh etdiyinə*** *qarşı birləşir. Deyirlər: «Gəlin onların buxovlarını qoparaq, Üstümüzdəki zəncirlərini ataq». Göylərin sakini gülür, Xudavənd onlara istehza edir. Sonra onlara hiddəti ilə xəbərdarlıq edəcək, qəzəbi ilə onları dəhşətə gətirəcək. O deyir: «****Mən padşahımı*** *müqəddəs dağım Sionda əyləşdirmişəm». Rəbbin fərmanını elan edəcəyəm. Rəbb mənə dedi: «****Sən Mənim oğlumsan****, Mən bu gün sənə Ata oldum. Məndən istə, onda irs olaraq millətləri, mülk olaraq yer üzünün qurtaracağınadək hər yeri Sənə verərəm. Onları dəmir əsa ilə qıracaqsan, saxsı qab kimi çilik-çilik edəcəksən». İndi, ey şahlar, müdrik olun! Ey dünya hakimləri, ibrət alın! Rəbdən qorxub Ona xidmət edin, həm titrəyin, həm sevinin.* ***Oğulu öpün ki, qəzəblənməsin, yoxsa tutduğunuz yolda məhv olarsınız. Çünki qəzəbi tezliklə alovlanar. Ona pənah gətirənlərin hamısı nə bəxtiyardır!***

Sən Zəburun ikinci fəslində Rəbb Allahın nəyi bəyan etdiyini başa düşürsən? Bu həddsiz vacibdir! Bu mahnıda Allah Adəmin övladlarına xilas gətirəcək olan dünyaya gələn **Qurtarıcının üç gözəl adını** bildirdi. Sən o üç adı eşitdin? Onlar bunlardın: **Məsih**, **Padşah** və **Oğul**. Gəlin bir az Allahın dünyaya gələcək Xilaskara müraciət etdiyi üç ad haqqında fikirləşək.

1) Birinci, biz görürük ki, Allah Qurtarıcını "Məsih" adlandırır. Məsih İbrani sözüdür və mənası *Allahın Seçilmişi, Məhs etdiyi* deməkdir. *Məsih* adı ilə Allah Adəmin övladlarına elan edirdi ki, hamı dünyaya gələcək Qurtarıcıya inanmalıdır. Çünki O dünyanın Xilaskarı və Hakimi kimi Allahın Özü tərəfindən seçilmişdir. Amma məzmurun ilk üç ayəsində Allah əvvəlcədən xəbərdarlıq edirdi ki, Adəmin övladlarının əksəriyyəti Allahın dünyaya göndərəcəyi Məsihi rədd edəcəkdir. Gəlin o ayələri yenidən oxuyaq.

*"Nə üçün millətlər belə vurnuxmaya düşür, ümmətlər boş şeylər düşünür? Dünya şahları yığışır, Hökmdarlar Rəbbə və Onun məsh etdiyinə qarşı birləşir. Deyirlər: «Gəlin onların buxovlarını qoparaq, üstümüzdəki zəncirlərini ataq."* (Zəbur 2:1-3)

Nə üçün dünyadakı insanlar Allahın göndərdiyi Məsihi rədd edəcəklər? Onlar Məsihi müqəddəs, günahdan ləkəsiz olduğuna görə rədd edəcəklər. Müqəddəs Yazılar deyir ki, *"Pislik edən hər kəs nura nifrət edər,* ***əməllərinin üzə çıxmaması üçün nura tərəf gəlməz."*** (Yəhya 3:20) Beləliklə, bu ayələrdə Allah dünyanın Xilaskarı və Hakimi kimi seçdiyi müqəddəs Adamı məhv etməyə çalışmaq üçün Yəhudilərin və dünya millətlərinin birləşməsini əvvəlcədən deyir. Amma Allah pis insanların nə etməyə çalışdıqlarının hamısını bilirdi. Allah insanların şər məqsədlərindən istifadə edib günahkarları xilas etmək üçün Öz saleh planını yerinə yetirməyi nəzərində tutmuşdur. Ona görə də biz oxuyuruq: *"Göylərin sakini gülür, Xudavənd onlara istehza edir!"* (Zəbur 2:4) Bu fəsildə Allahın Qurtarıcıya verdiyi ad ***Məsihdir.*** Yəqin ki, sənə maraqlı olar ki, biləsən, İbrani dilindəki *Məsih* sözü, Yunan dilindəki *Xristos* sözü ilə eyni mənanı verir. Bunların hər ikisi *"Allahın Seçdiyi"* deməkdir.

2) İkinci ad **"Padşah"** -dır. Məsih həmçinin Padşahdır. Bu ad vasitəsi ilə Allah hamının bilməsini istəyir ki, Məsih əksər insanların Onu rədd etmələrinə baxmayaraq, sonda O dünyanın Hakimi və İdarə edəni olacaqdır. Mühakimə Günü, hamı Onun qarşısında diz çökəcək. Çünki O padşahların Padşahı və rəbblərin Rəbbi olmaq üçün Allahın seçdiyidir. Nəticə etibarı ilə Məsih ya sənin Xilaskarın ya da ki, sənin Hakimin olacaqdır. Çünki istəsən də istəməsən də, **O** əbədiyyən padşahlıq etmək üçün Allahın **Padşahıdır**!

3) Üçüncü, biz bu fəsildə Allahın Məsihə başqa bir ad verdiyini eşitdik. Bu ada biz çox diqqət yetirməliyik. Bu ad "**Oğul**"-dur. Bu adı başa salmazdan əvvəl yəqin ki, biz yadda saxlamalıyıq ki, Davudun Zəbur kitabında yazdığı hər bir şeyi Allah tərəfindən verilən müdrikliklə yazılmışdır. Həmçinin, biz yadda saxlamalıyıq ki, Peyğəmbərlərin Yazılarında elə şeylər var ki, onları başa düşmək çətindir, amma bu onların doğru olmaması demək deyildir! Allah Öz Sözündə belə deyərək bizə xəbərdarlıq edir: *"(Müqəddəs yazılarda)... çətin başa düşülən bəzi işlər var; cahillər və qərarsızlar digər Müqəddəs Yazılar kimi bunların da mənasını təhrif edərək öz həlaklarına səbəb olurlar!"* (2 Peter 3:16) Cahillik dəhşətli şeydir. Xüsusi ilə də bu Adəmin övladlarını əbədi məhvdən xilas etmək üçün Allahın seçdiyi Məsihə aid olanda! Gəlin Allahın Məsihə verdiyi üçüncü ad haqqında fikirləşək.

Yeddinci ayədə biz Məsihin belə dediyini oxuyuruq, *"Rəbbin fərmanını elan edəcəyəm. Rəbb mənə dedi: "Sən Mənim **oğlumsan,** Mən bu gün sənə **Ata** oldum."* (Zəbur 2:7) Sən Rəbbin Məsihə dediklərini eşitdin? O dedi, "*Sən Mənim **oğlumsan,** Mən ...sənə **Ata** oldum."* Sən bilirsən Allah nə üçün Məsihi Öz Oğlu adlandırdı? Sən bu adını mənasını bilirsən? Bu o demək deyil ki, Allah övladı olmaq üçün kimisə arvadlığa götürdü! Belə bir fikir küfrdür! Allah ruhdur və O insanın oğlu olduğu kimi oğula sahib olmur.

Bəs onda nə üçün Allah Məsihi, *"Sən Mənim **Oğlumsan**!*" adlandırdı? Biz Allaha təşəkkür edə bilərik. Çünki Rəbb Allahın Özü nə üçün belə adlandırdığını deyib. Indi biz bunun lap dərinliklərinə getməyəcəyik amma Peyğəmbərlərin Yazılarından Allahın **nə üçün** Məsihi **Öz Oğlu** adlandırmasının **üç səbəbini** sizə verəcəyik.

**Birinci,** sən bilməlisən ki, **Məsih yuxarıdan, göydən gəldiyinə** görə Allah Məsihi *Öz Oğlu* adlandırdı. Peyğəmbərlərin Yazılarına inanan hər bir kəs bilir ki, Məsih kişidən gəlmədi. Lakin O Allahın hüzurundan gəldi. Bildiyin kimi **Məsihin yerdə atası yox idi.** Yerdəki varlığı haqqında isə, O Davudun nəslindən idi. Çünki Məsih padşah Davudun nəslindən olan bakirə qızdan doğulmuşdur. Amma Onun Ata tərəfi, Məsih birmənalı olaraq Allahın Ruhundan gəlmişdir. Buna görə də Allah Ona belə deyə bildi, *"Sən Mənim **oğlumsan,** Mən bu gün sənə **Ata** oldum!"*

**İkinci**, Müqəddəs Yazılar **Allah və Məsihin eyni müqəddəs xasiyyətə malik olduqlarına** görə Allah Məsihi Öz Oğlu adlandırdı. Vəd olunmuş Qurtarıcı Allah kimi pak və müqəddəs idi. İncildəki dərslərə gələndə biz Məsihin Adəmin günahla ləkələnən oğulları kimi olmadığını görəcəyik! Gördüyümüz kimi hətta ən böyük peyğəmbərlər belə günah işlətmişdilər. Amma Məsih heç vaxt günah işlətməmişdir. O hər zaman Allahın iradəsini yerinə yetirirdi. Günahlı insanları günahlarından xilas etməyə gəldiyinə görə, Məsihin günahsız olması çox vacib idi! Böyük borcu olanlar başqalarının borcunu ödəyə bilərlər? Xeyr, bilməzlər! Məsihin heç bir günah borcu yox idi. Müqəddəs Yazılar Onu, *" müqəddəs, günahsız, ləkəsiz, günahkarlardan ayrılmış, göylərdən daha ucalara qaldırılmış."* Kimi adlandırır. (İbranilərə 7:26) **Bəli, Qurtarıcı Onu göndərən Allah kimi müqəddəs idi!** Buna görə də Allah Onu **Öz Oğlu** adlandırmaqdan utanmadı**.**

**Üçüncü,** sən bilməlisən ki, Allah Onu **digər peyğəmbərlərdən ayırmaq üçün** Məsihi Öz Oğlu adlandırdı. Biz artıq İbrahimin necə *"Allahın dostu"* adlandırıldığını görmüşük. Musa peyğəmbər *"Allah adamı"* adlandırılmışdır. Allah Davud haqda *"Öz ürəyimə yatan adam tapdım."* demişdir. Amma hansı peyğəmbərə Allah *"Sən Mənim **oğlumsan,** Mən bu gün sənə **Ata** oldum!" demişdir?* Bu yalnız Məsihə deyilə bilərdi. Çünki yalnız Məsih yuxarıdan gəlmişdir, bakirədən doğulmuşdur və günahdan ləkəsiz idi.

Bizi dinləyənlər, Allahın **Öz Oğlu** çağırdığı **Məsihi, Padşahı** tanıyırsan? Allah istəyir ki, hamı Onu tanısın, Ona qulaq assın, Ona inansın və Onu qəbul etsin. Buna görə də Davud peyğəmbər bu fəsili bu sözlərlə bitirdi:

*"İndi, ey şahlar,* ***müdrik olun****! Ey dünya hakimləri,* ***ibrət*** *alın! Rəbdən qorxub Ona xidmət edin, həm titrəyin, həm sevinin. Oğulu öpün ki, qəzəblənməsin, yoxsa tutduğunuz yolda məhv olarsınız. Çünki qəzəbi tezliklə alovlanar. Ona pənah gətirənlərin hamısı nə bəxtiyardır!"* (Zəbur 2:10-12)

Gələn dərs, Allahın iradəsi ilə biz Davud peyğəmbərin Zəbur kitabında yazdığı başqa gözəl bir məzmura baxacağıq....

Davud peyğəmbərin Məzmurlarda dediyi haqda ciddi düşündükcə, Allah sizə xeyir-dua versin:

***"Müdrik olun; ibrət alın... Rəbdən qorxub Ona xidmət edin, həm titrəyin, həm sevinin. Oğulu öpün ki, qəzəblənməsin, yoxsa tutduğunuz yolda məhv olarsınız. Çünki qəzəbi tezliklə alovlanar. Ona pənah gətirənlərin hamısı nə bəxtiyardır!"*** (Zəbur 2:10-12)

51-ci Dərs

# Məzmurlar

**Zəbur 22**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərdə biz Zəbur kitabından ilk iki fəsili nəzərdən keçirdik. Zəbur kitabındakı hər bir fəsili bir yerdə oxuyub müzakirə etmək yaxşı olardı. Lakin Zəbur kitabı 150 fəsildən ibarət olduğuna görə indi hər fəslə baxmaq mümkün deyil.

Biz sizinlə Allahın Davudun ürəyinə qoyduğu başqa bir mahnını öyrənmək istəyirik. Bu iyirmi ikinci fəsildir və bu çox mühüm fəsildir. Çünki burada Adəmin bütün övladlarının günahlarını ödəmək üçün əzablı ölümlə Məsihin necə öləcəyini əvvəlcədən xəbər verir. Bu fəsildə min illər əvvəl Məsihin gəlməsini xəbər verən Davud, Məsihin öləcəyi gündə baş verəcək otuza yaxın hadisəni peyğəmbərlik etmişdir. Məsihin hekayəsindən ibarət olan İncili oxuyarkən biz hər şeyin Allahın peyğəmbəri Davudun dediyi kimi dəqiqliklə eyni olduğunu görəcəyik. Beləliklə, biz əmin ola bilərik ki, bu məzmur insan ağlından yox, amma Allahın ağlından gəlib. Yalnız Allah belə dəqiqliklə gələcəyi öncədən deyə bilər.

İndi isə gəlin Davud peyğəmbərin 22-ci Məzmurda yazdığına qulaq asaq. Bu fəsildə Davud günahın əvəzini ödəmək üçün Öz qanını tökən Məsihin ağlında olan şeyləri yazmışdır. O dedi:

(Zəbur 22) *Ey Allahım, Allahım, niyə məni tərk etdin? Niyə ah-zarımdan uzaq durursan, mənə imdad etmirsən?* **...** *Nə qədər müqəddəssən! İsraillilərin həmdləri üzərində taxt quran Sənsən!* **...** *Lakin mən torpaq qurduyam, insan deyiləm, adamların tənə hədəfiyəm, xalq mənə xor baxır. ... Mən su kimi töküldüm, Bütün sümüklərim oynaqlarından çıxdı, köksümdəki ürəyim mum kimi əridi. Saxsı parçası kimi gücüm qurudu,*
*Dilim damağıma yapışdı, Sən məni torpağa salıb ölüm verdin. Şər insanlar dəstəsi məni dövrəyə aldı, İt sürüsü kimi yan-yörəmi* ***bürüdülər, ayaqlarımı, əllərimi deşdilər!***

Gəlin burada dayanaq. Sən Davud peyğəmbərin Məsih haqqında yazdıqlarını başa düşdün? Məsih dünyaya gəlməmişdən min illər əvvəl Davud yazmışdır: "*Şər insanlar dəstəsi məni dövrəyə aldı, it sürüsü kimi yan-yörəmi* ***bürüdülər, ayaqlarımı, əllərimi deşdilər!"*** Bu sözlərlə Davud peyğəmbər Adəm övladlarının Məsihin əllərini və ayaqlarını deşərək çarmıxa mıxlamalarını öncədən xəbərdarlıq etmişdir. Nə üçün Davud peyğəmbər günahlı insanların Məsihin əllərini və ayaqlarını deşmələrini Məzmurda yazmışdır? Nə üçün Məsih belə ağrılı ölümlə ölməli idi? Nə üçün Allah insanlara izn verdi ki, göndərdiyi müqəddəs Qurtarıcını edam etsinlər?

Allahın Sözü bizə cavab verir. Onun bizim yerimizi əvəz etməsi və Allahın cəzasını daşıması üçün Qurtarıcının belə ağrılı əzabı yaşaması və belə dəhşətli ölüm ilə ölməsi çox vacib idi. Günahın əvəzi ölüm və cəhənnəmdə əbədi mühakimə olduğuna görə günahlarımıza görə layiq olduğumuz cəhənnəmin iztirablarını Məsihin çəkməsi vacib idi. Allah Öz lüftinə görə günahın heç bir ləkə izi olmayan Xilalkar göndərməyi planlaşdırdı. Öz azad iradəsi ilə *"O hər kəsin uğrunda öldü."* (İbranilərə 2:9) Allah Öz ədalətinə zərər vurmadan bu yolla Adəmin övladlarına günahlardan bağışlanma yolu və əbədi həyat qapısını aça bilərdi! Məsih bizim

günahlarımızın cəzasını ödəyəcəkdir. **Saleh Məsihin ölümü**, Ədalətli olan Allahın **Ona inanan hər bir kəsi saleh saya bilməsi üçün səbəbdir.**

Davud peyğəmbərin Məsihin ölümü haqqında yazması həqiqətən möcüzəlidir. Düşün bu haqda! Məsihin doğulmasından min illər əvvəl, Davud xırdalıqıarına qədər Məsihin çarmıxa mıxlanması, əzab çəkməsi haqqında yazmışdır. Bəlkə bizim başa düşməli və yadda saxlamalı olduğumuz şey budur: insanı mıxlayaraq çarmıxa çəkməni Romalılar icad ediblər – bu ağrılı ölüm *çarmıxa çəkmə* adlarır. Amma Davud bu haqda Zəburda yazanda, Roma milləti hələ mövcud deyildir və heç kim belə yolla, yəni çarmıxa çəkməklə, mıxlamaqla insanı öldürməyi bilmirdi. Buna baxayaraq Allah Məsihin çarmıxda ölməsi xəbərini Davudun zehninə qoydu və bunu Zəburda yazmağa ilhamlandırdı ki, **biz əminliklə bilək ki,** Məsihin çarmıxdakı ölümü bizi günahın cəzasından xilas etmək üçün **Allahın planı idi.**

Bu fəsildə olan həqiqətlər çox aydındır və biz ona diqqət yetirməliyik. Amma **hamı Allahdan olan bu xəbəri qəbul etmir**. Bu günə qədər bəziləri Allahın peyğəmbəri Davudun Zəbur kitabında Məsihin çarmıxdakı ölümü haqqında yazdıqlarına qarşı çıxırlar. Onlar deyirlər, "Allah izn verməzdi ki, Məsih belə biyabırçı və əzablı yolla ölsün!" Amma bunu deyənlər Peyğəmbərlərin Yazılarını və Allahın günahkarları xilas etmə planını bilməyənlərdirlər. Əziz dinləyicilər, Allahın xilas yoluna məhəl qoymamaqda ehtiyatlı olun! Allahın Sözü deyir*, "Bu cür böyük xilasa məhəl qoymasaq, biz necə qurtula bilərik?"* (İbranilərə 2:3) *" Çarmıx barəsindəki kəlam məhv yolunda olanlar üçün ağılsızlıq, xilas yolunda olan bizlər üçünsə Allahın qüdrətidir."* (1 Korinflilərə 1:18)

İndi isə gəlin davam edək və Davudun Məsihin çarmıxdakı ölümünün vəziyyətləri haqqında yazdıqlarına baxaq. Biz Məsihin dediklərini eşidək:

(Zəbur 22) ***Ey Allahım, Allahım, niyə məni tərk etdin? ... Məni hər görən lağ edir, dodaq büzüb, başını yırğalayıb belə deyir: "Qoy güvəndiyi Rəbb onu azad etsin, Rəbb ondan razı qalıb, qoy onu xilas etsin."*** *Mən su kimi töküldüm, bütün sümüklərim oynaqlarından çıxdı, köksümdəki ürəyim mum kimi əridi. Saxsı parçası kimi gücüm qurudu,* ***dilim damağıma yapışdı****, Sən məni torpağa salıb ölüm verdin. Şər insanlar dəstəsi məni dövrəyə aldı, it sürüsü kimi yan-yörəmi bürüdülər,* ***ayaqlarımı, əllərimi deşdilər.*** *Sümüklərimi saya bilirəm,* ***onlar baxırlar****, gözlərini mənə zilləyirlər!* ***Aralarında paltarlarımı bölüşdürürlər, Geyimim üçün püşk atırlar.***

Bu sözlərlə Davud əvvəlcədən xəbər verirdi ki, insanlar Məsihi çarmıxa çəkəndən sonra, onlar Onu təhqir edəcəklər, lağ edəcəklər, Ona zillənib baxacaqlar, Onun paltarını aralarında bölüşdürmək üçün püşk atacaqlar. Davud bunu yazandan min illər sonra bu dəqiqliklə belə oldu. Məsihin ölümü haqqında İncildə yazılanlara qulaq as. Müqəddəs Yazılar deyir:

*"Əsgərlər Onu çarmıxa çəkdi və püşk ataraq paltarlarını aralarında bölüşdürdülər. Sonra orada oturub Onun keşiyini çəkdilər. Gəlib-keçənlər başlarını yırğalayıb Ona böhtan ataraq «Ey məbədi dağıdıb üç gündə tikən! Əgər Allahın Oğlusansa, Özünü xilas et və çarmıxdan düş!» deyirdilər.* (Matta 27:35,36,39,40)

İncil Allahın peyğəmbəri Davudun yazdıqlarının necə yerinə yetirildiklərini nəql edir.

Biz bu gün oxuduq ki, Davud Məsihin susayacağı və Bədənində, Canında və Ruhunda çox əzablar çəkəcəyini də əvvəlcədən xəbər vermişdir. Buna görə də Məsih birinci ayədə belə deyərək qışqırır, *"Ey Allahım, Allahım, niyə məni tərk etdin?* İncili oxuyanda biz, hər şeyin

Davudun Məzmurda əvvəlcədən peyğəmbərlik etdiyi kimi baş verdiyini görəcəyik. Nə üçün Məsih çarmıxda belə deyərək qışqırırdı, "*Ey Allahım, Allahım, niyə məni tərk etdin?*" Çünki Allah müqəddəsdir və günaha dözə bilməz. Allahın Özü çarmıxa çəkilən Məsihdən üz döndərməli və Özünü Ondan ayırmalı idi. Çünki **Allah günahlarımızın cəzasını Onun üzərinə qoymuşdur. Buna görə də Müqəddəs Yazılar deyir:** *"Günahla əlaqəsi olmayan Məsihi Allah bizim uğrumuzda günah qurbanı verdi ki, biz Onda Allahın salehliyinə nail olaq."* (2 Korinflilərə 5:21)

Allaha izzət olsun. Zəbur kitabında Davud peyğəmbərin əvvəlcədən xəbər verdiyi başqa bir şey də var – xoş xəbər! On altıncı fəsildə Davud Məsih haqqında belə yazaraq deyir: *" Məni **ölülər diyarına atmazsan, mömin insanını qəbirə salmazsan**. Mənə həyat yolunu öyrədirsən, doyunca sevinc Sənin hüzurundadır, sağ əlində hər zaman səadət var."* (Zəbur 16:10,11) Bu yolla Davud Ona inananların əbədiyyən Allahın müqəddəs hüzurunda Onunla yaşaya bilmələri üçün Allahın Məsihi ölülərdən necə dirildəcəyini əvvəlcədən xəbər verirdi! Beləliklə, İncil bəyan edir: *Məsih **günahlarımız üçün öldü, dəfn olundu** və Müqəddəs Yazılara uyğun olaraq, üçüncü gün **dirildi**!"* (1 Korinflilərə 15:3,4)

Davud öncədən xəbər verirdi ki, Məsih ölülərdən diriləndən sonra, Allah Onu göylərə aparacaq və yerdəki insanları mühakimə etmək üçün qayıdanadək Onun sağ tərəfində oturmağını deyəcəkdir. Məzmurlarda Davud yazıb, 110-cu Məzmurda deyir: *" Rəbb mənim Ağama dedi: "Mən düşmənlərini ayaqlarının altına kətil kimi salanadək sağımda otur."* (Zəbur 110:1)

22-ci fəsildə Davud yazır:

(Zəbur 22) *Yer üzünün qurtaracağınadək hər yerdə yaşayanlar Rəbbi xatırlayacaq, Ona tərəf dönəcəklər. Bütün millətlərin soyları Onun hüzurunda səcdə qılacaq. .... Gələcək nəsillər Ona qulluq edəcək, Xudavənd haqqında övladlarına deyəcək; Onun ədalətini, **Onun əməllərini** gələcəkdə doğulan xalqa **bildirəcək**!"*

Bu Məzmur bu sözlərlə bitir: *"**Onun əməllərini... bildirəcək**!"* Məsih nə edəcəkdi? Məsih bütün günahkarların yerinə öləcəkdi! O Adəm və Həvvaya onları və onların nəslini günahın cəzasından xilas etmək üçün gələcək Qurtarıcı haqqında Allahın vədini yerinə yetirəcəkdir. Məsih son qurban kimi öləcəkdi. Onun çarmıxdakı ölümü vasitəsi ilə Məsih Allahın daha əvvəllər tələb etdiyi rəmzi heyvan qurbanlarını yerinə yetirib, ləvğ edəcəkdi. İbrahimin oğlunun yerinə qoçun öldüyü kimi, Qurtarıcı da son və kamil qurban kimi hər bir günahkarların yerinə öləcəkdi! Bu Allahın dünya üçün Xoş Xəbəridir: Məsih **sənin yerinə** ölüb! Ona inansan Allahın məhkəməsindən xilas olacaqsan! Xilas yolu ona inanan hər kəs üçün açıqdır. Buna görə də Məsih ölməzdən əvvəl qışqırdı, ***"Tamam oldu!"*** (Yəhya 19:30) *" **Onun əməllərini... bildirəcək**!"* (Zəbur 22:31) və Allah Məsihin kamil qurbanını üçüncü gündə Onu ölülərdən dirildərək təsdiqlədi! Biz bunların hamısını İncil kitabında xırdalıqlarla görəcəyik.

Bu arada biz bunu yadda saxlaya bilərik: **İsa Məsihin doğulmasından min il əvvəl Davud peyğəmbər günahkarların Məsihin əllərini və ayaqlarını deşəcəkləri haqda əvvəlcədən xəbər vermişdir!** Gəlin Məsihin ağrılı ölümünün səbəbini unutmayaq. O **sənin** və **mənim** üçün, bütün **günahkarlar** üçün öldü ki, Ona inanan heç kimsə həlak olmasın, amma əbədi həyata malik olsun! Məsih Allahın iradəsini yerinə yetirmək istəyi ilə və sənə və mənə olan böyük sevgisinə görə izn verdi ki, şər insanlar Onun əllərini və ayaqlarını deşsinlər! İsa Məsihin İncildə dediklərinə qulaq as:

***"Mən canımı qurban verirəm ki, sonra onu geri alım. Canımı Məndən heç kəs ala bilməz,*** *amma onu Özüm verirəm. Onu verməyə də, sonra geri almağa da ixtiyarım var. Bu əmri Atamdan almışam."* (Yəhya 10:17,18)

Əziz dinləyicilər, sizi günahlarınızdan xilas etmək üçün Məsihi göndərməsinə görə Allaha təşəkkür və alqış edirsinizmi? Müqəddəs Yazılar deyir: *"Məsih də **sizin** üçün əzab çəkdi və sizə nümunə oldu ki, siz də Onun izi ilə gedəsiniz. O, bədəni çarmıxa çəkilərək bizim günahlarımızı Öz üzərinə götürdü ki, biz günaha münasibətdə ölüb salehlik üçün yaşayaq. Onun yaraları ilə siz şəfa tapdınız....O bizim təqsirlərimizə görə ölümə təslim edildi və bizim saleh sayılmağımız üçün dirildi....ki, **Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun!"*** (1 Peter 2:21,24; Romalılara 4:25; Yəhya 3:16)

Qoy Allah oxuduğumuz hər şeyi sizə aydınlaşdırsın. Dinlədiyiniz üçün çox sağ olun. Allahın iradəsi ilə gələn proqramda biz Peyğəmbərlərin Yazılarını davam etdirəcəyik və Davudun oğlu, Süleymanın hekayəsinə keçəcəyik....

Nə üçün Allahın Davud peyğəmbəri bu sözləri yazmağa ilhamlandırdığı haqda düşündükcə, Allah sizə xeyir-dua versin:

***"Ayaqlarımı, əllərimi deşdilər!"*** (Zəbur 22:16)

52-ci Fəsil

# Süleyman Peyğəmbər

**1-ci Padşahlar 2-10; Zəbur 72**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Əgər Allah sizə görünsəydi və sizdən soruşsaydı, "Nə istəsən de və Mən sənə verəcəyəm," sən nəyi seçərdin? Uzun ömür? Zənginlik? Şan-şöhrət? Yoxsa başqa bir şey? Bir gün Allah yuxuda Davudun oğlu Süleymana göründü və ondan soruşdu, ***"Nə istəyirsən, sənə verim?"*** Bilirsən Süleyman nəyi seçdi? Biz bu gün onun Allaha necə cavab verdiyinə baxacağıq.

Ötən altı dərsdə biz Allahın peyğəmbəri **Davudun** həyatına baxdıq. Biz onun **Zəbur** kitabında yazdığı bəzi məzmurlara eşitdik. Ötən dərsimizdə biz Adəmin övladlarının Məsihin əllərini və ayaqlarını deşərək öldürmələri haqqında Davudun peyğəmbərliyini gördük. Davud həmçinin Allahın Məsihi ölülərdən dirildəcəyini də qabaqcadan xəbər verirdi. İndi isə biz Davudun hekayəsini bitiririk və keçirik onun oğlu Süleymanın hekayəsinə.

Padşahlar kitabının 2-ci fəsilində, Müqəddəs Yazılar deyir:

(1 Padşahlar 2:1-3, 10-12) *Davudun ölüm günü yaxınlaşanda oğlu Süleymana vəsiyyət edərək dedi: «Bu yaxınlarda mən də hamı kimi dünyadan köçəcəyəm. Sən möhkəm və igid ol. Allahın Rəbbin verdiyi buyruğu yerinə yetirib Onun yolları ilə get və Musanın Qanununda yazıldığı kimi Allahın qaydalarına, əmrlərinə, hökmlərinə və göstərişlərinə əməl et ki, elədiyin hər işdə və getdiyin hər yerdə uğur qazanasan.* **...** *Davud ataları ilə uyudu və Davudun şəhərində basdırıldı. Davud İsrail üzərində qırx il padşah olmuşdu... Süleyman atası Davudun taxtında oturdu və onun padşahlığı çox möhkəm oldu.*

(1 Padşahlar 3:3-28) *Süleyman atası Davudun qanunlarına əməl edərək Rəbbi sevirdi... Rəbb Süleymana gecə vaxtı yuxuda göründü. Allah dedi: «Nə istəyirsən, sənə verim?»* **...** *Süleyman dedi: ".... İndi, ya Rəbb Allahım, Öz qulunu atam Davudun yerinə padşah etdin. Ancaq mən çox cavanam, nə edib-etməyəcəyimi bilmirəm.... İndi mənə elə bir dərrakəli ürək ver ki, yaxşı ilə pisi ayırd edib Sənin xalqına hökm edə bilim. Başqa cür Sənin bu böyük xalqını kim idarə edə bilər?» Süleymanın bu istəyi Xudavəndin gözünə xoş gəldi. Allah ona dedi: «İndi ki özün üçün uzun ömür, var-dövlət və düşmənlərinin canını istəmədin, bunların yerinə ədaləti ayırd etmək üçün dərrakə istədin,* **12** *Mən istəyini yerinə yetirirəm: sənə elə bir hikmətli və dərrakəli ürək verirəm ki, sənin kimisi nə səndən əvvəl olmuş, nə də səndən sonra olacaq. Hətta sənə istəmədiyini – var-dövləti də, şöhrəti də verirəm; belə ki bütün ömrün boyu padşahlar arasında sənin kimisi olmayacaq.* **...** *Əgər sən də atan Davud kimi qanunlarıma və əmrlərimə əməl edib yolumla getsən, sənin ömrünü də uzadacağam». Süleyman oyandı. Bu, bir yuxu idi. Sonra Yerusəlimə gəldi. Xudavəndin Əhd sandığının önündə durub yandırma qurbanları və ünsiyyət qurbanları təqdim etdi və bütün əyanları üçün ziyafət verdi.*
*Bir gün iki fahişə qadın gəlib padşahın hüzurunda durdu. Qadınlardan biri dedi: «Yalvarıram, ay ağam! Mən bu qadınla bir evdə yaşayıram. Bu evdə onun yanında uşaq doğdum. Mən doğandan sonra üçüncü gün bu qadın da doğdu. Biz bir yerdə olurduq, evdə bizdən başqa heç kəs yox idi, yalnız ikimiz idik. Gecə bu qadın yatanda oğlu onun altında qalıb öldü. Kənizin yuxuda ikən gecə yarısı bu qadın qalxaraq oğlumu yanımdan götürüb öz qoynuna almış, ölü oğlunu isə mənim qoynuma qoymuşdur. Səhər oğlumu əmizdirmək üçün*

*duranda gördüm ki, o ölüb. Amma sonra diqqətlə baxanda bildim ki, bu mənim doğduğum uşaq deyil».*
*O biri qadın isə dedi: «Yox, sağ olan uşaq mənim oğlumdur, ölən isə səninkidir». Amma birinci qadın dedi: «Yox, ölən uşaq sənin oğlundur, sağ olan mənimkidir». Padşahın önündə onlar beləcə mübahisə edirdilər.*
*Padşah dedi: «Biri deyir, sağ olan uşaq mənim oğlumdur, ölən səninkidir; o biri isə deyir, yox, ölən uşaq sənin oğlundur, sağ olan mənimkidir». Padşah yenə dedi: «Mənə qılınc gətirin!» Padşaha qılınc gətirdilər. Padşah dedi: «Sağ olan uşağı iki yerə bölün: yarısını birinə, yarısını isə o birinə verin!» Oğlu sağ olan qadın balası üçün ürəyi yandığına görə padşaha belə söylədi: «Aman, ağam, sağ olan uşağı ona verin, amma öldürməyin». O biri isə dedi: «Bölün, qoy nə onun olsun, nə mənim». Onda padşah cavab verib dedi: «Sağ olan uşağı birinci qadına verin, onu öldürməyin, uşağın anası odur». Bütün İsraillilər padşahın verdiyi hökmü eşidib ona hörmət etdilər, çünki gördülər ki, hökm etmək üçün onda Allahın hikməti var.*

(1 Padşahlar 4:29-34) *Allah Süleymana dəniz sahilindəki qum qədər bol hikmət, dərrakə və ürək genişliyi verdi.* ***Süleymanın hikməti*** *bütün şərq xalqlarının və Misirlilərin hikmətindən* ***üstün idi.*** *O bütün adamlardan.... hikmətli idi, şöhrəti bütün ətraf millətlər arasında yayılmışdı. O, üç min məsəl söyləmişdi və onun min beş nəğməsi var idi. Livanda olan sidr ağacından tutmuş divarda bitən züfa otuna qədər bitkilər barədə bəhs etdi, həmçinin heyvanlar, quşlar, həşəratlar və balıqlar haqqında danışdı. Süleymanın hikmətli sözlərinə qulaq asmaq üçün bütün xalqlardan və onun hikməti barədə eşitmiş bütün dünya padşahlarından yanına adamlar gəlirdi.*

Sonra, Müqəddəs Yazılar nəql edir ki, o vaxt orada Süleymanın böyük müdrikliyi və möhtəşəmliyi haqda eşitmiş olan bir **Səba mələkəsi** var idi. Mələkə Süleymana baş çəkmək üçün Yerusəlimə getməyi planlaşdırır ki, onun haqqında eşitdikləri **düz ya səhv** olduğunu bilsin. Bu mələkə Yerusəlimdən çox-çox uzaqlarda, Səudiyyə Ərəbistanının cənubunda yerləşən Səba diyarında yaşayırdı. Səba ölkəsi bu günkü gündə Yəmən ölkəsi adlanır. O ölkə ilə Yerusəlim arasında təqribən iki min kilometr məsafə var. Buna baxmayaraq, Süleymana baş çəkmək üçün bu böyük məsafə Səba mələkəsini məyus etmədi.

Onuncu fəsildə Müqəddəs Yazılar deyir:

(1 Padşahlar 10:1-9) *Səba mələkəsi Rəbbin adından ötrü Süleymanın şöhrətini eşidib onu* ***tapmacalarla sınamağa gəldi****. O, çox böyük karvanla – ətriyyat, çoxlu qızıl və qiymətli daşlarla yüklənmiş dəvələrlə Yerusəlimə, Süleymanın yanına gəldi və ürəyində olan hər şey barədə onunla söhbət etdi. Süleyman onun bütün suallarına cavab verdi, elə bir gizli şey olmadı ki, padşah ona izah etməsin. Səba mələkəsi Süleymanın bütün hikmətini və onun tikdiyi sarayı, süfrəsindəki yeməyi, əyanlarının oturuşunu, qulluqçularının xidmətini və onların geyimlərini, saqilərini, Rəbbin məbədində gətirdiyi yandırma qurbanlarını görəndə daha özünü saxlaya bilmədi.*
*O, padşaha dedi: «Sənin işlərin və hikmətin barədə öz ölkəmdə eşitdiyim sözlər düz imiş. Gəlib öz gözlərimlə görənə qədər mən bu sözlərə inanmamışdım.* ***Mənə heç gördüklərimin yarısı danışılmayıb, sənin hikmətin və var-dövlətin mən eşitdiyim şöhrətdən üstündür****. Sənin adamların nə bəxtiyardır, bu qulluqçuların nə bəxtiyardır ki, həmişə önündə durub hikmətini eşidirlər. Allahın Rəbbə alqış olsun ki, səni istəyib İsrail taxtında oturtdu! Rəbb İsrailə olan əbədi sevgisi naminə ədalət və salehliklə hökm etmək üçün səni padşah qoydu».*

Sən heç bilirsən Allahın Sözündə Səba mələkəsi haqda deyiləsi daha çox şey var? Həmən vaxtdan min il keçməmiş, Məsih Səba mələkəsi və Süleyman Padşah haqqında danışdı. O dedi: "*Cənub mələkəsi qiyamət günündə bu nəsillə birgə qalxıb onu məhkum edəcək. Çünki mələkə Süleymanın hikmətli sözlərini dinləmək üçün yer üzünün ucqarlarından gəlmişdi. Budur, **Süleymandan daha böyük Olan buradadır."*** (Matta 12:42)

Sən Məsihin dediyini eşitdin? O dedi ki, **Səba mələkəsinin Süleymanın izzətini axtarması Məsihin izzətini axtarmayan hər bir kəsi məhkum edəcəkdir**. Səba mələkəsi Süleymanın izzətini kəşf etmək və onun müdrik sözlərinə qulaq asmaq üçün əlindən gələn hər şeyi etdi. O hətta eşitdiklərinin düz olub-olmamasını bilmək üçün dörd min kilometr yol getdi, iki tərəfli səfər etdi! Burada bizim üçün çox vacib bir dərs var. Göylərdən gələn izzətində, müdrikliyində, biliyində və qüdrətində Süleymanı vurub keçən Məsihi, Onun izzətini Adəmin övladlarının əksəriyyəti tanımır, nə də ki, bunun həqiqət olub-olmadığını da **axtarmaq istəmirlər!** Buna görə də Məsih dedi*: " Cənub mələkəsi qiyamət günündə bu nəsillə birgə qalxıb onu məhkum edəcək. Çünki mələkə Süleymanın hikmətli sözlərini dinləmək üçün yer üzünün ucqarlarından gəlmişdi. Budur, Süleymandan daha böyük Olan buradadır!"* (Matta 12:42)

Bu gün bizi dinləyən, sən Allahın göndərdiyi **Məsihin izzətini tanıyırsan**? Yoxsa Onu peyğəmbərlərlə bir səviyyəyə qoyursan? Sən Məsih titulunun nə demək olduğunu bilirsən? Bəli, bu *Allahın seçilmişi* deməkdir. Məsih, dünyanın Xilaskarı və Hakimi kimi Allahın seçdiyidir. Amma hələ bu günə qədər əksər insanlar Məsihə məhəl qoymurlar. Onlar Onun kim olduğunu bilmirlər. Çünki onlar Peyğəmbərlərin Kitablarında heç vaxt Onu axtarmayıblar.

Bu dərsi bitirməzdən əvvəl bilmənizi istəyirik ki, Padşah Süleyman Müqəddəs Yazılarda olan üç gözəl və dərin mənalı kitabı yazıb. Bu kitablar: *Süleymanın Məsəlləri, Vaiz Kitabı və Nəğmələr Nəğməsidir.* Atası Davud kimi Süleyman da Zəbur kitabının hissəsi olan bir neçə məzmuru yazıb. Gəlin Süleyman peyğəmbərin yazdığı 72-ci Məzmuru oxuyaq. Burada **Süleyman bir gün Məsihin bəşəriyyəti ədalətlə mühakimə etmək üçün qayıdacağını əvvəlcədən xəbər verir.** Gəlin Padşah Süleymanın müdriklikdə və izzətdə onu ötüb keçən kamil Padşah haqqında yazdığına qulaq asaq.

Süleyman Məsih haqqında yazıb:

(Zəbur 72) *Qoy Sənin xalqına salehliklə, məzlumlara ədalətlə hakimlik etsin.* **...** *Dənizdən-dənizə qədər...yer üzünün qurtaracağınadək hər yerdə hökmranlıq etsin. Onun qarşısında köçəri xalqlar diz çöksün, düşmənləri isə qoy yerə vurulsun.* **...** *Səba və Seva padşahları ona bəxşiş versin.* ***Qarşısında bütün padşahlar təzim etsin****, qoy bütün millətlər ona xidmət etsin!* **...** *Yaşasın padşah! .... Qoy padşahın adı əbədi qalsın, günəşin ömrü tək adı var olsun. Onun vasitəsilə insanlar xeyir-dua alsın, Onu bütün millətlər bəxtiyar adlandırsın!*
*Alqış olsun Rəbb Allaha, İsrailin Allahına, xariqələrin yeganə yaradanına! Onun şərəfli ad-sanına əbədi alqış olsun, Bütün yer üzü Onun izzətinə bürünsün! Amin! Amin!*

Padşah Süleyman bir gün dünyadakı bütün insanların Məsihə, padşahların Padşahına və dünyanın Hakiminə tabe olacağını qabaqcadan demişdir! Əlbəttə, Allahın hər birimizdən istədiyi odur ki, bu gün Ona tabe olaq! Bəs sən necə? Sən həqiqətən Allaha tabesən? Sən Allahın göndərdiyi və yenə göndərəcəyi Məsihin izzətini və hakimiyyətini tanıyırsan? Yoxsa sən Onu sadəcə peyğəmbərlərlə bir səviyyəyə qoyursan? Əgər sən Peyğəmbərlərin Yazılarını araşdırmağa bir az vaxt sərf etsən, onda Məsihin dünyanın Xilaskarı və Hakimi, bütün

peyğəmbərlərin şəhadət etdiyi olduğunu kəşf edəcəksən! Müqəddəs Yazılar bəyan edir: *"Onun barəsində bütün peyğəmbərlər şəhadət edir ki, Ona iman edən hər kəsin günahı Onun adı ilə bağışlanır!...* ***sən peyğəmbərlərə inanırsanmı?"*** (Həvarilərin İşləri 10:43; 26:27)

Dostlar, dinlədiyiniz üçün çox sağ olun. Allahın iradəsi ilə gələn dərs biz göydən od yağmasını çağıran Allahın peyğəmbəri İlyas haqqında öyrənəcəyik....

Məsihin bəyan etdiyini diqqətlə düşündükcə, Allah sizə xeyir-dua versin:

***"Cənub mələkəsi qiyamət günündə bu nəsillə birgə qalxıb onu məhkum edəcək. Çünki mələkə Süleymanın hikmətli sözlərini dinləmək üçün yer üzünün ucqarlarından gəlmişdi. Budur, Süleymandan daha böyük Olan buradadır!"*** (Matta 12:42)

53-cü Dərs

# İlyas Peyğəmbər

**1-ci Padşahlar 6-18**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsdə biz Davud peyğəmbərin oğlu, Süleyman peyğəmbərin həyatını öyrəndik. Biz Allahın Süleymana necə qeyri-adi **müdriklik və ayırd etmək məharəti** verdiyini gördük. Padşah Süleymanın dövründə Yerusəlim dünyada ən gözəl şəhər idi. Amma Süleymanın Yerusəlimdə tikdirdiyi şeylərin içində heç biri **Rəbb Allahın Məbədinin** gözəlliyini keçmədi. Padşah Süleyman Hüzur Çadırının əvəzinə Məbəd tikdi. Bu Musanın və İsraillilərin səhralıqda yaratdıqları xüsusi ibadət çadırı idi. Süleyman bu gözəl ibadət yerini tikmək üçün 200.000 nəfər işçi tutdu və 7 ilə tikdirdi. Bu gün Yerusəlimdə Süleymanın tikdiyi məbədin böyük daşlarını görmək olar.

Məbədin tikilişi bitəndə, kahinlər minlərlə qoyun və öküzlər qurban kəsdilər. Bu günahkarlar üçün gəlib öz dəyərli qanını tökəcək **Qurtarıcının rəmzidir.** Onlar Onun Adına tikdikləri Allahın məbədinə belə həsr edirdilər. Onlar bu heyvanları qurban verəndən və məbədin bürünc qurbangahında onları yandırandan sonra kahinlər Əhd Sandığını götürüb yeni məbədin Ən Müqəddəs yerində yerləşdirdilər. Kahinlər Ən Müqəddəs yeri tərk edəndən sonra, Rəbbin izzəti həmən dəqiqə otağı doldurdu. Musanın və İsrail xalqının səhralıqda düzəltdikləri ibadət çadırında Müqəddəslərin Müqəddəsini Allahın izzəti doldurduğu kimi, Allahın izzəti də Süleymanın Yerusəlimdə tikdiyi məbəddə Müqəddəslərin Müqəddəsini doldurdu.

Süleymanın qalan həyatı haqda Müqəddəs Yazılar deyir ki, onun padşahlığının sonrakı hissəsi başlanğıcdakı kimi deyildir. 1-ci Padşahlar kitabı 11-ci fəsildə nə yazıldığına qulaq as. Yenidən, biz görəcəyik ki, Allahın Sözü peyğəmbərlərin günahlarını gizlətmir. Müqəddəs Yazılar deyir: *"Padşah Süleyman çoxlu yadelli qadın sevdi.... Onlar Süleymanın qocalıq çağında onun ürəyini başqa allahlara tərəf azdırdılar və **onun ürəyi atası Davuddan fərqli olaraq Allahı Rəbbə sadiq deyildi."*** (1 Padşahlar 11:1,4)

Sonra Süleyman bütün yad arvadları üçün Yerusəlimin şərq təpəsində öz allahlarına yandırma qurbanları gətirmək üçün səcdəgahlar tikdi. O bunları edərkən Allah Süleymana qəzəbləndi. Çünki o arxasını həqiqi və yaşayan Allaha tərəf çevirmişdir. Sonra Allah Süleymana dedi,

***"Bu niyyətdə olduğuna görə**, sənə əmr etdiyim əhdimə və qaydalarıma əməl etmədiyin üçün **Mən hökmən padşahlığını əlindən çəkib alacağam** və onu sənin quluna verəcəyəm. Ancaq atan Davudun xatirinə Mən bunu sənin dövründə etməyəcəyəm, onu sənin oğlunun əlindən çəkib alacağam. Həm də bütün padşahlığı çəkib almayacağam, qulum Davudun xatirinə və Mənim seçdiyim Yerusəlimdən ötrü bir qəbiləni sənin oğluna verəcəyəm."* (1 Padşahlar 11:11-13)

Müqəddəs Yazılar deyir ki, Süleyman öləndən sonra, İsrail xalqı arasında döyüşlər və çarpışmalar oldu. Yaqubun övladlarından törənən İsrailin on iki qəbiləsi Allahın Süleymana dediyi kimi **iki yerə parçalandı.** Onlar artıq bir millət deyildilər; onlar iki millət, **İsrail** və **Yəhuda** milləti oldular. Israilin on qəbiləsi torpağın şimal hissəsində İsrail padşahlığını

yaratdılar. Benyaminin kiçik qəbiləsindən yaranan Yəhuda qəbiləsi isə Yəhudanın şimal padşahlığını yaratdı. Yəhuda Padşah Davudun qəbiləsindən idi və Allah bu nəsil vasitəsi ilə dünyaya **Məsihi** gətirməyi vəd etmişdir.

Müqəddəs Yazılar o iki millətin nə qədər çox padşahları olduğunu nəql edir. Israilin və Yəhudanın padşahlarının əksəriyyəti pis rəhbərlər idilər; onlar öz arxalarını Rəbbə tərəf çevirdilər və ətraflarındakı millətlərin dinlərinin ardınca getdilər. Israil padşahlarının arasında, biri başqalarından lap pis idi. Bu **padşah Axav** idi. Axav, Süleymandan sonra səkkizinci padşah idi.

Axav haqqında Müqəddəs Yazılar deyir: *"Omri oğlu Axav özündən əvvəl olanların hamısından çox Rəbbin gözündə pis olan işlər etdi."* (1 Padşahlar 16:30) O Allahın Sözünü rədd edən **İzevel** adlı pis bir qadınla evləndi. Bundan əlavə, Axav ətraf ölkələrin allah hesab etdiyi **Baalın** adına İsraildə məbəd tikdi. Beləliklə Axav İsraillilləri boş, uydurma və yalançı peyğəmbərlərin ardınca getməyə yönəltdiyinə görə Allahı çox qəzəbləndirdi.

Amma həmin vaxda İsraildə Allahla gəzən bir kişi var idi. Onun adı **İlyas** idi. Bir gün Allah İlyası Padşah Axavın yanına göndərdi. *"İlyas Axava dedi: "Önündə durduğum İsrailin Allahı var olan Rəbbə and olsun ki, mənim bir sözüm olmayınca bu illərdə şeh və yağış olmayacaq."* (1 Padşahlar 17:1)

Üç il yarım İsrail torpağına yağış yağmadı. Açlıq bütün ölkəni bürümüşdür. 18-ci fəsildə Müqəddəs Yazılar deyir:

(1 Padşahlar 18) *Uzun müddət sonra, quraqlığın üçüncü ilində İlyasa Rəbbin bu sözü nazil oldu: «Get, Axava görün. Mən torpağın üzərinə yağış verəcəyəm». İlyas Axava görünmək üçün getdi.... Axav İlyası görəndə ona dedi: «Ey İsraili dərdə salan adam, bu sənsənmi?» O cavab verdi: «İsraili mən yox, sən və atanın evi dərdə saldınız. Siz Rəbbin əmrlərindən dönüb Baal bütlərinə xidmət etdiniz.* **...** *İndi bütün İsraillilləri, İzevelin süfrəsində yemək yeyən dörd yüz əlli Baal peyğəmbərini və dörd yüz Aşera peyğəmbərini Karmel dağına, yanıma çağırtdır."*
*Axav bütün İsrail övladlarını və peyğəmbərləri Karmel dağına çağırtdırdı. İlyas bütün xalqın yanına gəlib dedi: «Nə vaxta qədər iki tərəfə əyiləcəksiniz? Əgər Rəbb Allahdırsa, Ona xidmət edin, yox, Baal Allahdırsa, onda ona xidmət edin». Xalq onun sözünə cavab vermədi. Onda İlyas xalqa dedi: «Rəbbin peyğəmbərlərindən təkcə mən qaldım, amma Baalın peyğəmbərləri dörd yüz əlli nəfərdir. İndi qoy bizə iki buğa verilsin: onlar özləri üçün bir buğa seçsinlər, onu doğrayıb odunların üstünə qoysunlar, ancaq od vurmasınlar. Mən isə başqa buğanı hazırlayıb onu odunların üstünə qoyacağam, ancaq od vurmayacağam. Siz öz allahınızı çağırın, mən də Rəbbi çağıracağam; hansı odla cavab verərsə, Allah odur». Bütün xalq cavab verib «qoy belə olsun» dedi. İlyas Baal peyğəmbərlərinə dedi: «Bir buğanı özünüz üçün seçin və məndən əvvəl onu hazırlayın, çünki siz çoxsunuz. Siz öz allahınızı çağırın, ancaq od vurmayın». Onlar özlərinə verilən buğanı götürüb hazırladılar və səhərdən günortaya qədər «Ey Baal, bizə cavab ver!» deyə Baalı çağırdılar, ancaq heç səs-soraq çıxmadı. Onlar düzəltdikləri qurbangahın ətrafında gəzərək atılıb-düşdülər.Günorta olanda İlyas onları lağa qoyub dedi: «Onu uca səslə çağırın. O ki allahdır, bəlkə fikrə gedib yaxud bayıra çıxıb ya da səfərdədir? Bəlkə də yatıb, oyatmaq lazımdır?» Onlar uca səslə çağırdılar və adətlərinə görə bədənlərindən qan axana qədər qılınc və nizələrlə özlərini yaraladılar. Günorta keçincə, axşam qurbanı təqdim olunan vaxta qədər coşub dəlilik etdilər, ancaq nə bir səs-soraq verən, nə də bir qulaq asan var idi.*

*İlyas bütün xalqa dedi: «Mənim yanıma gəlin». Bütün xalq onun yanına gəldi. O, Rəbbin dağıdılmış qurbangahını bərpa etdi. İlyas Yaqub oğulları qəbilələrinin sayına görə on iki daş götürdü, çünki Yaquba «sənin adın İsrail olacaq» deyə Rəbbin sözü nazil olmuşdu. İlyas daşlarla Rəbbin adına qurbangah tikdi. O, qurbangahın ətrafında iki sea toxum tutacaq qədər bir xəndək düzəltdi. Odunları düzdü, buğanı doğrayıb odunların üzərinə qoydu və dedi: «Dörd səhəng su gətirin, onu yandırma qurbanının və odunların üstünə tökün». Sonra o dedi: «İkinci dəfə edin». Onlar ikinci dəfə etdilər. O dedi: «Üçüncü dəfə edin». Onlar üçüncü dəfə etdilər. Su qurbangahın ətrafına axdı və xəndək də su ilə doldu.*
*Axşam qurbanı təqdim edilən vaxt peyğəmbər İlyas qabağa çıxıb dedi: «Ey İbrahimin, İshaqın və İsrailin Allahı Rəbb! Qoy bu gün bilinsin ki, İsraildə Sən Allahsan və mən Sənin qulunam, bütün bu işləri də Sənin sözünlə etdim. Səsimi eşit, ya Rəbb, mənə cavab ver. Qoy bu xalq bilsin ki, Sən Allahsan, ya Rəbb, onda onların ürəyini Özünə tərəf döndərəcəksən». O vaxt Rəbdən od düşdü, yandırma qurbanını, odunları, daşları, torpağı yandırıb-yaxdı və xəndəkdə olan suyu uddu. Bütün xalq bunu gördü və onlar üzüstə düşüb dedilər: «Rəbb Allahdır! Rəbb Allahdır!"*
*İlyas onlara dedi: «Baal peyğəmbərlərini tutun, onlardan bir nəfər də qaçıb qurtarmasın». Onları tutdular. İlyas onları Qişon vadisinə endirib orada öldürdü. İlyas Axava dedi: «Get, yeyib-iç, çünki güclü yağış səsi gəlir». Axav yeyib-içməyə getdi. İlyas Karmel dağının təpəsinə çıxdı, yerə əyilib üzünü dizləri arasına qoydu.* ***...*** *Bu vaxt göylər qalın buludlarla qaraldı, külək əsdi və güclü yağış yağmağa başladı.*

Bu möcüzəli hekayə Allahın izzəti və qüdrəti ilə boldur və düzü bizim şərhlərə ehtiyacı yoxdur. Amma bu dərsi bitirməzdən əvvəl, gəlin bir daha İlyas peyğəmbərin İsrail xalqına dediklərinə fikir verək. Baalın 450 yalançı peyğəmbərini çağırmazdan əvvəl İlyas xalqa dedi, ***"Nə vaxta qədər iki tərəfə əyiləcəksiniz? Əgər Rəbb Allahdırsa, Ona xidmət edin, yox, Baal Allahdırsa, onda ona xidmət edin!"***

Əvvəlcə İsraillilər hay vermədilər. Amma onlar İlyasın qurbangahının üzərinə alovun gəlməsinə səbəb olan Allahın İlyasın duasına necə cavab verdiyini görəndə, bütün camaat üzüstə düşüb dedi, ***"Rəbb Allahdır! Rəbb Allahdır!"*** Beləliklə, bir gündə Allahın peyğəmbəri İlyas hamı qarşısında Baalın yalançı peyğəmbərlərini ifşa və rüsvay etdi və İsraillilərin ürəyini Rəbbləri Allaha tərəf yönəltdi

**Allah nə üçün İlyasın duasına cavab verdi?** Çünki İlyas Rəbb Allahı sevirdi və Onun Sözünə inanırdı. **Allah nə üçün Baal peyğəmbərlərinin dualarını rədd etdi?** Çünki onlar Özünü İbrahimə, İshaqa və İsrail xalqına açan tək olan Allaha dua etmirdilər. Baalın peyğəmbərləri Allahın Sözünü rədd etmişdilər və öz dinlərinin adət-ənənələrinin ardınca gedirdilər. Onlar öz rituallarına əməl etməyə çox həvəskar idilər, amma var olan Allaha ibadət etmirdilər. Buna görə də onların bütün dini səyləri mənasız idi. Baalın peyğımbərləri kifayət qədər dindar idilər. Onlar öz duaları və qurbanları ilə çox səs-küy salırdılar, amma bunların hamısı əbəs idi, çünki onlar Yaşayan Allahın Sözünə əsasən deyildilər.

Beləliklə, həmin mühüm gündə, İlyas peyğəmbər İsraillilərə seçməyi əmr etdi:

**Ya İbraihimin, İshaqın və Yaqubun Allahı,** ya da ki, **Baalın boş dini;**

**Həqiqət,** ya da **yalan;**

**Salehlik yolu,** ya da **qeyri-salehlik yolu;**

**Allahın etibarlı Sözü,** ya da **insan dininin etibarsız sözü.**

Sən İlyasın bu sualına necə cavab verərdin: ***"Nə vaxta qədər iki tərəfə əyiləcəksiniz?"*** Nə vaxta qədər Allahın həqiqi Sözü və insan tərəfindən yaradılmış dəyərsiz ənənələr arasında tərəddüd edəcəksiniz? Müqəddəs Yazılar deyir: ***"Heç kim iki ağaya qulluq edə bilməz.*** *Çünki ya birinə nifrət edib o birisini sevəcək ya da birinə bağlı qalıb o birisinə isə xor baxacaq. Siz həm Allaha, həm də sərvətə qulluq edə bilməzsiniz."* (Matta 6:24) Sən Rəbb Allaha xidmət ilə boş dinə xidmət etməyi qarışdıra bilməzsən. ***"Nə vaxta qədər iki tərəfə əyiləcəksiniz?"***

Dostlar, dinlədiyiniz üçün çox sağ olun. Gələn dərsdə biz üç gün nəhəng balığın qarnında olan peyğəmbərin hekayəsinə baxacağıq. Sən bu peyğəmbərin adını bilirsən?

İlyasın İsraillilərə dediyi haqda düşündükcə, Allah sənə xeyir-dua versin,

***"Nə vaxta qədər iki tərəfə əyiləcəksiniz? Əgər Rəbb Allahdırsa, Ona xidmət edin!"*** (1 Padşahlar 18:21)

54-cü Dərs

# Yunus Peyğəmbər

**Yunus**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsdə biz Allahın peyğəmbəri **İlyasın** hekayəsinə baxdıq. İlyas böyük peyğəmbər idi. Çünki Allahın Ruhunun qüdrəti onun üzərində idi. O Allaha dua etdi ki, yağış yağmasın və İsraildə üç il yarım yağış yağmadı. Həmçinin Baalın yalançı peyğəmbərlərini onların yalan dinlərini də İsraillilər qarşısında ifşa etdi. Beləliklə, Allah bir çox İsraillilərin ürəklərini öz Rəbbləri Allaha çevirmək üçün İlyas peyğəmbərdən istifadə etdi.

İndi biz İlyas peyğəmbərdən sonra gələn başqa bir peyğəmbərin hekayəsinə baxmaq istəyirik. Biz Allahın **Yunus** adlı İsraillini necə seçdiyini və onu İsraillilərin düşmənlərinə, başqa millətə **təbliğ etmək üçün getməsini** əmr etdiyini görəcəyik.

Yunusun kitabı 1-ci fəsildə Müqəddəs Yazılar deyir:

(Yunus 1:1-2) *Rəbbin sözü Amittay oğlu Yunusa nazil oldu: "Qalx, Ninevaya – o böyük şəhərə* ***get*** *və ona qarşı car çək, çünki oradakıların pisliyi gəlib Mənə qədər çatmışdır"*

Rəbb Yunusa nə əmr etdi? Allah ona dedi ki, gedib Nineva əhalisinə günahlarından tövbə etmələrini xəbərdarlıq etsin. Nineva, Assuriya xalqının paytaxtı idi və Assurlar şər insanlar idilər və İsrailliləri məhv etmək istəyirdilər!

Nə üçün Rəbb Allah Yunusu İsraillilərə xor baxan yadellilərin yanına göndərmək istədi? Allah İsraillilərin düşmənlərinin də qayğısına qalırdı? Bəli, qalırdı! Allah Nineva xalqını mühakimə etməyə hazırlaşırdı. Çünki onların günahları həddini aşmışdır. Amma **Allah günahkarları məhv etməkdən həzz almır.** Allah istəyir ki, hər kəs öz günahından tövbə etsin, Allahın Sözünə inansın və xilas olsun. Buna görə də Rəbb Yunusa əmr etdi ki, Nineva xalqının yanına getsin və günahlarından tövbə edib, Allaha dönüb və xilas olmalarını xəbərdarlıq etsin.

Amma **Yunus** öz düşmənlərinin yanına **gedib,** onları xəbərdarlıq etmək **istəmirdi!** Yunus, Nineva şəhəri üçün peyğəmbər olmaq istəmirdi! Allah istəyirdi ki, Nineva əhalisi tövbə etsin ki, onlara mərhəmət edə bilsin. Amma Yunus istəyirdi ki, Allah onları cəzalandırsın! Ona görə də, Yunus öz tapşırığından imtina etdi və Rəbb Allahdan qaçmağa çalışdı. Amma o Allahın hüzurundan hara qaça bilərdi?

Gəlin davam edək və görək Yunus nə etdi. Müqəddəs Yazılar deyir:

(Yunus 1:3-17) ***Lakin Yunus*** *Rəbbin hüzurundan Tarşişə* ***qaçmaq üçün qalxdı****. Yafoya enib Tarşişə gedən bir gəmi tapdı. Yol haqqını verib Rəbbin hüzurundan getmək üçün onlarla birlikdə Tarşişə gedən gəmiyə mindi.*
*Lakin* ***Rəbb dəniz üzərində güclü külək qaldırdı,*** *dənizdə böyük bir fırtına qopdu və gəmi az qala parçalanacaqdı. Gəmiçilər qorxuya düşüb hər biri öz allahını çağırdı və gəmi*

*yüngülləşsin deyə orada olan yükləri dənizə atdı. Yunus isə gəminin aşağı hissəsinə enmişdi və uzanıb bərk yuxuya getmişdi. Gəmi rəisi onun yanına gəlib dedi: «Sən nə yatırsan? Qalx, öz allahını çağır. Bəlkə sənin allahın bizi yada salar və biz məhv olmarıq».Gəmiçilər bir-birlərinə dedi: «Gəlin püşk ataq, görək kimə görə bu bəla başımıza gəldi?» Püşk atdılar və püşk Yunusa düşdü.*
*O zaman Yunusdan soruşdular: «Bizə de, başımıza gələn bu bəla kimə görədir? Sənin sənətin nədir? Haradan gəlirsən? Vətənin haradır? Hansı xalqdansan?» Yunus cavab verdi: «Mən İbraniyəm. Dənizi və torpağı yaradan göylərin Allahı Rəbdən qorxuram». Onlar çox qorxdu və dedi: «Sən bunu nə üçün etdin?» Çünki Yunusun Rəbdən uzaqlaşmaq üçün qaçdığını bilirdilər, bunu onlara özü nəql etmişdi.Dəniz get-gedə coşduğuna görə onlar Yunusdan soruşdular: «Səninlə nə edək ki, dəniz qarşımızda sakitləşsin?»*
*Yunus onlara dedi: «Məni götürüb dənizə atın, onda dəniz qarşınızda sakitləşər, çünki bilirəm, bu böyük firtına mənə görə baş verib».Lakin gəmiçilər sahilə yan almaq üçün səylə avar çəkməyə başladı, amma bacarmadı. Ona görə ki dəniz onlara qarşı get-gedə coşurdu. O zaman onlar Rəbbə fəryad edərək dedilər: «Ya Rəbb, Sənə yalvarırıq, qoyma bu adamın canından ötrü məhv olaq. Günahsız qan üstümüzdə qalmasın! Çünki Sən, ya Rəbb, Öz istədiyini etmisən». Onlar Yunusu götürüb dənizə atdı və dənizdəki firtına yatdı. Onda adamlar Rəbdən bərk qorxdu və Rəbbə qurban təqdim edərək əhd etdi. Yunusu udmaq üçün* ***Rəbb böyük bir balıq yetirdi*** *və Yunus üç gün-üç gecə balığın qarnında qaldı.*

Gəlin burada dayanaq. Biz Allahın, Ondan qaçan Yunus peyğəmbəri necə təqib etdiyini gördük! Yunus qaça bilərdi, amma o Allahın əlindən qurtula bilməzdi. Nə üçün Allah Yunusu təqib edirdi? Allah Yunusu sevdiyinə görə təqib edirdi və istəyirdi ki, o Onun iradəsini yerinə yetirsin. Buna görə də Allah nəhəng balıq göndərdi ki, onu öldürməsin, lakin udsun.

Yazıq Yunus! İndi o nəhəng bir balığın qarnında idi! Yunus özünü xilas etmək üçün nə edə bilərdi? Heç nə! Rəbb Allahı çağırmaqdan başqa heç nə! Yalnız Allah onu xilas edə bilərdi. İkinci fəsildə Müqəddəs Yazılar balığın qarnında Yunusun Allaha necə dua etməsini və Allaha itaət etməmək günahını tövbə etdiyini deyir. Üç gün Allah Yunusu balığın qarnında qorudu. Yunus necə də böyük ibrət götürdü! Üçüncü gün Yunus qışqırdı, ***"Xilas Rəbdədir!"*** (Yunus 2:9) Yunus, ***"Xilas Rəbdədir!"*** deyəndə, Müqəddəs Yazılar deyir: *"Rəbb balığa əmr etdi və balıq Yunusu ağzından quruya qaytardı."* (Yunus 2:10)

Üçüncü fəsildə Müqəddəs Yazılar deyir:

(Yunus 3:1-10) *Rəbbin sözü Yunusa ikinci dəfə nazil oldu: «Qalx, Ninevaya – o böyük şəhərə* ***get*** *və sənə söyləyəcəyim sözləri onlara car çək».* ***Yunus Rəbbin sözünə görə qalxıb Ninevaya getdi****. Nineva Allahın nəzərində böyük şəhər idi. Oranı üç günə gəzib-dolaşmaq olardı. Yunus şəhəri gəzməyə başlayıb bir günlük yol getdi və car çəkərək dedi: «Qırx gündən sonra Nineva dağılacaq!»*
***Ninevalılar Allaha inandılar****, oruc elan edərək böyükdən kiçiyə qədər hamı çul geyindi. Bu xəbər Nineva padşahına çatanda o, taxtından qalxaraq şahlıq libasını əynindən çıxartdı və çul geyinib külün üstündə oturdu.*
*Padşah özünün və əyanlarının adından buyurdu ki, Ninevada elan edib desinlər: «Nə insanlar, nə heyvanlar, nə mal-qara, nə də ki qoyun-keçi heç nə yeməsin, otlağa getməsin və su içməsin.İnsanlar da, heyvanlar da çul geyinsin və var gücləri ilə Allaha fəryad etsin. Hər kəs öz pis yolundan və əllərinin zorakılığından dönsün.*

*Kim bilir, bəlkə Allah rəhmə gəlib, qızğın qəzəbini bizdən döndərər və biz məhv olmarıq».* ***Allah onların işlərini, pis yoldan döndüklərini gördü. Ona görə də rəhm edib əvvəlcə onların üstünə göndərmək istədiyi bəlanı göndərmədi.***

Biz Allahın **Nineva xalqına mərhəmət** etdiyini gördük. Çünki onlar Allahın onlar üçün göndərdiyi Sözə inandılar. Ninevalılar öz günahlarından sınmış və əzilmiş ürək ilə tövbə etdilər və Rəbbə tərəf döndülər. Amma Yunus Allahın Nineva xalqına mərhəmət etməsinə görə şad deyildir. Yunus kitabının sonuncu, dördüncü fəsilində yazılanlara qulaq as.

Müqəddəs Yazılar deyir:
(Yunus 4) *Bu iş Yunusun heç xoşuna gəlmədi və o hirsləndi. O, Rəbbə dua edərək dedi: «Ya Rəbb! Mən hələ ölkəmdə ikən bunu demirdimmi? Buna görə də mən Tarşişə qaçdım, çünki bilirdim, Sən lütfkar, rəhmli, hədsiz səbirli, bol məhəbbətli Allahsan və rəhm edib bəla göndərməzsən. İndi isə, ya Rəbb, yalvarıram, mənim canımı al, çünki mənim üçün yaşamaqdansa, ölmək yaxşıdır». Rəbb dedi: «Hirslənməyin yaxşı işdirmi?»*
*Yunus şəhərdən çıxdı və şəhərin şərq tərəfində oturdu. Orada özünə çardaq düzəldib kölgəsində oturdu ki, şəhərdə nə baş verəcəyini görsün. Rəbb Allah Yunusun başı üstünə qalxıb kölgə salmaq və onu pis halından qurtarmaq üçün bir gənəgərçək bitkisi yetirdi. Yunus bu bitkiyə görə çox sevindi.*
*Lakin ertəsi gün sübh tezdən Allah bir bitki qurdu yetirdi. Qurd bitkini içindən yedi və bitki qurudu.*
*Günəş çıxanda Allah isti səmum küləyi yetirdi. Günəş onun başını yandırdı və o taqətdən düşüb özü üçün ölüm diləyərək dedi: «Mənim üçün yaşamaqdansa ölmək yaxşıdır». Allah Yunusa dedi: «Məgər sənin bu bitkiyə görə hirslənməyin yaxşı işdirmi?» O dedi: «Əlbəttə, yaxşıdır, elə hirsləndim ki, az qala öləm». Onda Rəbb dedi: «Sən zəhmətini çəkmədiyin və yetişdirmədiyin, bir gecədə bitən və bir gecədə məhv olan bitkiyə acıyırsan.*
*Bəs sağ əlini sol əlindən ayıra bilməyən yüz iyirmi mindən çox insanın və çoxlu heyvanın yaşadığı böyük şəhər Ninevaya Mən necə acımayım?»*

Yunus kitabı belə qurtarır.

Əziz dinləyicilər, Yunus peyğəmbərin hekayəsindən biz insanın və Allahın təbiəti haqqında çox şeylər öyrənə bilərik. Biz görə bilərik ki, **Allah ayrı-seçkilik etmir**. Yunus ayrı-seçkilik etdi, amma Allah etmədi. **Allahın ürəyi Yunusun ürəyindən çox fərqli idi.**

**Yunusun ürəyi** mənfi fikirlər və nifrət ilə dolu idi, amma **Allahın ürəyi** bütün insanlar üçün mərhəmət ilə doludur. Yunus öz xalqını sevirdi, amma düşmənlərinə nifrət edirdi. Allah isə həm İsrail xalqını, **həm də** Nineva xalqını sevirdi. Yunus istəyirdi ki, Nineva xalqı məhv olsun. Çünki onlar İsrail xalqının düşmənləri idilər, amma Allah istəyirdi ki, onlar günahlarından tövbə etsinlər, Onun sözünü qəbul etsinlər və xilas olsunlar. **Allah tərəfkeşlik etmir.** Kim və necəliyindən asılı olmayaraq, **səni sevir.** O sənin günahlarını və üsyankarlığını sevmir, amma O **səni** sevir. **Allah hər bir millətdəki fərdi sevir** və istəyir ki, hamı öz günahını Ona etiraf etsin, Həqiqəti eşitsin, başa düşsün, ona inansın və xilas olsun!

Bəziləri fikirləşir ki, Allah dünyadakı hər bir şəxsin qeydinə qalmır; yəni ki, O bəzilərini cəhənnəmdə yanmaq üçün seçib, bəzilərini isə Cənətdə zövq almaq üçün. Bir çox insanların öz günahlarına görə ölmələri və Allahın ədalətli qəzəbi ilə üzləşmələrinin düz olduğu halda, belə düşünmək yanlışdır ki, Allah öz nadanlıqlarında məhv olan insanların qayğısına qalmır. Müqəddəs Yazılar deyir ki, Allah ***"bütün insanların xilas olub həqiqəti dərk etməsini istəyir."*** (1 Timoteyə 2:4) *"O heç kəsin həlak olmasını istəmir, amma hər kəsin tövbə*

*etməsini istəyir."* (2 Peter 3:9) Buna baxmayaraq, Allah tövbə etməyi rədd edənləri mühakimə edəcəkdir. Çünki onlar ***"həqiqəti sevərək xilas olmaq əvəzinə****, bunu rədd etdikləri üçün... həqiqətə inanmayıb haqsızlıq etməkdən zövq alanların hamısı mühakimə olunacaqlar!"* ( 2 Saloniklilərə 2:10,12) Rəbb Allahın sözü bunu bəyan edir. **Allah yaxşı və mərhəmətlidir** və hər bir şəxs üçün xilas yolunu təmin edibdir. Amma **Allah həmçinin müqəddəs və ədalətlidir** və Onun saleh xilas yolunu qəbul etməyən hər bir kəsi mühakimə edəcəkdir.

Dostlar, qoy heç kəs sizi aldatmasın. Allah heç vaxt tərəfkeşlik etmir, nə də ki, günahkar insanların məhvindən həzz almır. **Allah istəyir ki, dünyada yaşayan hər bir şəxs həqiqəti bilsin, ona inansın və xilas olsun!** Buna görə Allah keçmişdə peyğəmbərləri ilhamlandırdı ki, Onun Sözünü yazsınlar ki, biz Allahın qoyduğu xilas yolu haqqında **bilək**, onu **qəbul** edək və **əbədi həyata** nail olaq! Allahın xilas yolunu qəbul edən hər bir kəs göylərə gedəcəkdir. Onu rədd edən və ya ona etinasızlıq göstərən hər bir kəs isə məhv olacaqdır! Allah insanlara tərəfkeşlik etmir. Necə ki, yazılmışdır: Allah *" bütün insanların xilas olub həqiqəti dərk etməsini istəyir.... tövbə etməsəniz, hamınız onlar kimi məhv olacaqsınız.* **"** (1 Timoteyə 2:4; Luka 13:3)

Gələn proqramda, Allahın iradəsi ilə, biz günahkarları xilas etmək üçün dünyaya gələcək olan Qurtarıcı haqqında öncədən xəbərdarlıqlar etmiş böyük peyğəmbər haqqında öyrənəcəyik. Bu Məsihin dünyaya gəlməsindən 700 il əvvəl yaşamış böyük peyğəmbər Yeşayadır. ...

Allah Öz vəfasız peyğəmbəri Yunusa öyrətmək istədiyi bu iki dərsi yadda saxladıqca, Allah sizə xeyir-dua versin:

***"Xilas Rəbdədir!"*** (Yunus 2:9) ***"Allah tərəfkeşlik etmir!"*** (Həvarilərin İşləri 10:34)

55-ci Dərs

# Yeşaya Peyğəmbər

**Yeşaya**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən proqramda biz Rəbbdən qaçmağa çalışan **Yunus** peyğəmbərin hekayəsini öyrəndik. Amma Allahın hüzurundan qaçmağa çalışmaq, öz kölgəndən qaçmağa çalışmaq kimidir. Allah Yunusu hətta nəhəng balığın qarnında belə müşayiət edirdi!

İndi biz Yunusun dövründən sonra gələn və Müqəddəs Yazılarda adı çox məşhur olan peyğəmbər haqqında oxuyacağıq. Bu Məsihin doğulmasından 700 il əvvəl yaşamış **Yeşaya peyğəmbərdir.** Yeşaya Süleymanın Yerusəlimdə tikdiyi məbəddə Allah üçün işləyən kahin idi. Yeşaya və digər kahinlər hər gün qurbangahda Allaha heyvan qurbanları təqdim etməli idilər. Bu qurbanlar dünyanın günahı üçün Öz qanını tökən Məsihin rəmzi idilər.

Bir gün Rəbbin məbədində qurban təqdim edərkən Yeşayanın başına gələn əhvalata qulaq as. Yeşaya kitabı 6-cı fəsildə o yazır:

(Yeşaya 6:1-8) *Padşah Uzziya ölən il mən* ***Xudavəndi gördüm. O, uca və əzəmətli taxtda oturmuş*** *və geyimlərinin ətəyi məbədin döşəməsini örtmüşdü. Onun ətrafında seraflar dayanmışdı. Hər birinin altı qanadı var idi. Qanadının ikisi ilə üzlərini, ikisi ilə ayaqlarını örtmüş, ikisi ilə uçurdular. Biri o birini səsləyib deyirdi:*
*«****Ordular Rəbbi müqəddəsdir, müqəddəsdir, müqəddəsdir! Bütün yer üzü Onun əzəməti ilə doludur****». Serafların səsindən qapı çərçivələri ilə kandarları sarsıldı, məbəd tüstü ilə doldu. Mən dedim: «****Vay halıma, həlak oldum! Çünki ağzı murdar bir adamam, həm də murdar ağızlı adamlar arasında yaşayıram. Buna baxmayaraq, qarşımda Padşahı – Ordular Rəbbini gözlərimlə gördüm****».*
*Seraflardan biri mənə tərəf uçdu, əlində də maşa ilə qurbangahdan götürdüyü yanar kömür var idi. O, kömürlə dodaqlarıma toxunaraq dedi: «Budur, bu kömür dodaqlarına dəydi, Pisliyin silindi, günahın bağışlandı». Sonra Xudavəndin səsini eşitdim: «Kimi göndərim? Bizim üçün kim gedəcək?» Mən dedim: «Mən buradayam. Məni göndər».*

Rəbb Allah Öz izzətini və müqəddəsliyini Yeşayaya açdı və Öz Sözünü Allahın xalqına bəyan etmək üçün onu gələcək nəsillərin xeyrinə bunları kitaba yazmağa çağırdı. Yeşayanın kitabı uzun və dərin mənalıdır və biz indi onun içərisindəkilərin hamısına baxa bilməyəcəyik. Amma Yeşayanın yazdıqlarını iki mühüm fikir ilə cəmləyə bilərik.

**Birinci,** Yeşaya Yəhuda xalqına onların günahları və layiq olduqları cəza haqda **bəd xəbəri** dedi.

**İkinci,** Yeşaya onların günahlarını daşımaq üçün dünyaya gələcək olan Məsih haqqında **Xoş Xəbəri** təqdim etdi.

Beləliklə, Yeşaya peyğəmbərin yazdıqlarının qısa məzmunu budur:

1) **günah və onun cəzası haqqında bəd xəbər; və**

2) **günahkarların günahlarının cəzasını ödəyən Xilaskar haqqında Xoş Xəbər.**

Gəlin əvvəlcə Allahın Yeşayaya həm Yəhudilər və qulağı olan hər kəsin eşitməsi üçün dediyi pis xəbər haqdakı ayələrə baxaq. Birinci fəsildə peyğəmbər Yeşaya yazıb:

(Yeşaya 1:2-4, 13-15) ***Ey göylər, eşidin, ey yer üzü, dinləyin! Çünki Rəbb belə söylədi***: *«Övladlar yetişdirib böyütdüm, Amma onlar Mənə qarşı üsyankar oldular. Öküz yiyəsini, eşşək də sahibinin təknəsini tanıyır, lakin İsrail xalqı Məni tanımır, xalqım anlamır». Günah edən millətin, şər işlər görən xalqın, yolunu azmış nəslin, Pozulmuş övladların vay halına! Onlar Rəbbi tərk etdilər, İsrailin Müqəddəsinə xor baxdılar, Ondan üz döndərdilər.*
***Mənə artıq batil təqdimlər gətirməyin, buxur Məndə ikrah yaradır. Pisliklə dolu təzə Ay mərasimlərinizə, şənbə günlərinizə, müqəddəs toplantılarınıza dözə bilmirəm! Təzə Ay mərasimlərinizə, bayram günlərinizə ürəkdən nifrət edirəm. Bunlar Mənə yük oldu, Onları daşımaqdan yoruldum. Siz əl açıb Mənə yalvaranda göz yumacağam. Nə qədər çox dua etsəniz də, yenə qulaq asmayacağam!***

Yeşaya peyğəmbər Yəhudiləri ikiüzlülüklərinə görə belə məzəmmət elədi. Onların günahlarını bu sözlərlə cəmlədi: ***"Bu xalq dodaqları ilə Mənə hörmət edir, ama qəlbləri Məndən uzaqdır. Onların Mənə səcdə etmələri insanlardan öyrəndikləri əmrlərdən gəlir!"*** (Matta 15:8; Yeşaya 29:13)

Yeşaya Yəhudiləri onların inadkarlıqlarına və günahlarına görə məzəmmət edəndən sonra, ona inanan hər bir kəsin ürəyini pak etməyə qadir olan **Xoş Xəbəri** deməyə başladı. Gəlin günahkarları xilas etmək üçün dünyaya gələcək olan Məsih haqda Yeşayanın yazdığı sözlərə qulaq asaq. O yazır:

***"Gəlin indi birgə düşünək bu an, günahlarınız qıpqırmızı parça kimi görünsə də, onlar qar kimi ağ olacaq, tünd qırmızı rəngə çalsa da, onlar ağ yun kimi bəyaz olacaq!"*** (Yeşaya 1:18)

(Yeşaya 40:1-10) *Allahınız deyir: «Təsəlli verin xalqıma, təsəlli verin!* ***...*** *Nida edənin səsi gəlir: «Səhrada* ***Rəbbin yolunu hazırlayın****, çöldə Allahımızın keçəcəyi yerləri hamar edin. Hər dərə yüksəldiləcək, hər dağ və təpə aşağı endiriləcək, yoldakı əyriliklər düzələcək, Kələ-kötür yerlər hamar ediləcək. Rəbbin əzəməti aşkar olunacaq, bütün bəşər bunu birlikdə görəcək». Bu sözlər Rəbbin ağzından çıxıb.*
***...*** *Ey Siona müjdə gətirən, yüksək dağa çıx! Ey Yerusəlimə xoş xəbər gətirən, ucalt səsini, car çək, qaldır səsini, qorxma. Yəhuda şəhərlərinə de: «Budur Allahınız!»* ***Budur, Xudavənd Rəbb Öz qüvvəsi ilə gəlir, O, qüdrətlə hökm edəcək, mükafatı Onunladır, ənamı önündədir.***

*"Buna görə də Xudavənd Özü sizə işarə verəcək: budur****, bakirə qız hamilə olub oğlan doğacaq,*** *adını İmmanuel qoyacaq -* ***Allah bizimlədir!»*** *deməkdir."* (Yeş 7:14; Mat 1:23)

Allah Yeşaya peyğəmbər vasitəsi ilə **böyük sirri** açırdı! Allah heç vaxt kişi görməmiş qıza -- bakirə qızın bətninə Öz Ruhunu göndərməyi nəzərdə tutdu! Məsih dünyaya belə gələcəkdi. Bildiyin kimi, Məsihin yerdə atası yox idi. Doğulmazdan əvvəl O, göylərdə idi. Çünki O başlanğıcda Allah ilə olan **Kəlamdır**. Yeşayanın peyğəmbərliyinə əsasən, **Məsih yer üzünə insan bədənində gələn Allah olacaqdır**. Necə də gözəl həqiqət! Ruh olan Allah, Öz

Ruhunu və Kəlamını bakirə qızın bətninə qoymağı və sonra körpə kimi doğulmağı nəzərdə tutdu! Yeşaya bunu deyərək peyğəmbərlik etdi: ***"Bakirə qız hamilə olub oğlan doğacaq,*** *adını İmmanuel qoyacaq -* ***Allah bizimlədir!»*** *deməkdir."*

Sonrakı fəsildə, Yeşaya gələcək Məsih haqqında daha çox yazır. Bir yerdə o deyir:

*"Zülmətdə yaşayan xalq möhtəşəm bir işıq gördü. Ölüm kölgəsi diyarında məskunlaşanların üzərinə* ***nur doğdu.*** *Çünki bizim üçün* ***körpə doğuldu****, bizə* ***oğul verildi****, hakimiyyət onun çiyinləri üzərində olacaq, Onun adı* ***Ecazkar Məsləhətçi, Qüdrətli Allah, Əbədi Ata, Sülh Hökmdarı*** *olacaq!"* (Yeşaya 9:2,6) *" O vaxt korların gözləri, karların qulaqları açılacaq, axsaqlar ceyran kimi hoppanacaq, lalların dili sevinclə nəğmə deyəcək!"* (Yeşaya 35:5,6)

Bu ayələrdə Yeşaya Məsihin yer üzünə Allahın müqəddəsliyni və mərhəmətini gətirəcəyini peyğəmbərlik edir. O Allahın hüzurundan gəlmiş müqəddəs Məsih olmasına hamının inanması üçün idi ki, heç kimin etmədiyi qüdrətli işlər görəcəyini qabaqcadan dedi! Buna görə də Yeşaya peyğəmbər yazdı ki, Məsih: ***" Ecazkar Məsləhətçi, Qüdrətli Allah, Əbədi Ata, Sülh Hökmdarı!*** " adlanacaqdır. Aydındır ki, Yeşaya Məsihi digər peyğəmbərlərlə eyni səviyyəyə qoymağa çalışan bu günki insanlar kimi deyildir. Yeşaya peyğəmbər Allahın hüzurundan gələcək olan Qurtarıcının izzətini tanıyırdı.

Gəlin daha bir fəsli də oxuyaq: **53-cü fəsil. Bu fəsil, Yeşaya peyğəmbərin yazdığı fəsillər arasında ən gözəlidir.** Çünki burada o Məsihin qurbanlıq quzusu kimi necə Öz qanını axıtması, dünyanın günahının cəzasını daşımasını peyğəmbərlik edir. Məsihin dövründən yeddi yüz il əvvəl, Allahın Öz peyğəmbəri Yeşayaya verdiyi Xoş Xəbərə qulaq as.

Müqəddəs Yazılar deyir:

(Yeşaya 53:1-12) *Xəbərimizə kim inandı, Rəbbin gücü kimə zahir oldu? O, Rəbbin önündə bir fidan kimi, Quru torpaqda bitən kök kimi böyüdü. Baxanda onun nə görkəmi, nə gözəlliyi var idi, gözümüzü oxşayan zahiri siması da yox idi. Adamlar ona həqarətlə baxıb rədd etdi. O, dərdli, xəstəlikləri görən insan idi, Adamlar ondan üz döndərdi, xor baxdı. Biz ona qiymət vermədik. Əslində xəstəliklərimizi o çəkdi, Dərdlərimizi öz üzərinə götürdü. Biz isə onun Allah tərəfindən cəzalandırıldığını, Vurulub iztirab çəkdiyini zənn etdik. Bizim üsyankarlığımıza görə onun bədəni deşildi, şər əməllərimiz naminə əzildi, bizim əmin-amanlığımız üçün o cəza aldı, Onun yaraları ilə biz şəfa tapdıq. Hamımız qoyun kimi yolu azmışdıq, Hər birimiz öz yolumuzla gedirdik. Rəbb hamımızın şər əməllərinin yükünü onun üzərinə qoydu.*
*Ona zülm etdilər, O iztirab çəkdi, amma ağzını açmadı. Kəsilməyə aparılan quzu kimi, qırxımçıların qabağında dilsiz qoyun kimi ağzını açmadı. Ədalətsizliklə məhkum olunaraq ölümə aparıldı. Onun nəsli haqqında kim düşünə bilərdi? Axı xalqımın üsyankarlığına görə O edam olundu, dirilər arasından atıldı. O heç bir zorakılıq etmədiyi, ağzından yalan söz çıxmadığı halda qəbri pis adamların yanında quruldu, dövlətli adamın yanında dəfn olundu. Amma Rəbb Özü onun bu iztirablarını istədi, çəkdiyi əziyyətlər Onun iradəsi idi. Öz canını təqsir qurbanı təqdim edərsə, nəsil görəcək, ömür uzadacaq. Rəbbin istəyi onun əli ilə uğur qazanacaq.*
*O çəkdiyi iztirablarının bəhrəsini görüb qane olacaq, Mənim saleh qulum öz biliyi ilə çoxlarına bəraət qazandıracaq, onların şər əməllərinin yükünü üzərinə götürəcək. Buna görə Mən ona böyük adamların arasında pay verəcəyəm. O, qəniməti güclülərlə böləcək. Çünki o, canını fəda etdi, üsyankarlara tay tutuldu. Çox adamların günahını üzərinə götürdü, üsyankarlardan ötrü yalvardı.*

Bizim günahlarımıza görə Məsihin çəkəcəyi əzablar haqqında Yeşaya bunları yazmışdır. Bəli, Qurtarıcı əzab çəkməli idi və bütün günahkarlar üçün Öz qanını tökməli idi ki, Öz salehliyinə zərər gətirmədən günahlarımızı bağışlaya bilsin. Buna görə də Yeşaya yazıb: ***"Bizim üsyankarlığımıza görə*** *onun bədəni deşildi, şər əməllərimiz naminə əzildi....hamımız qoyun kimi yolu azmışdıq, hər birimiz öz yolumuzla gedirdik.* ***Rəbb hamımızın şər əməllərinin yükünü onun üzərinə qoydu****."* (Yeşaya 53:5,6) Bu gözəl ayə Yeşaya kitabının müjdəsini cəmləşdirir: **bəd** xəbər və **Xoş Xəbər**.

1) Birinci, pis xəbər budur ki, bizim hamımız günahkarıq və özümüzü xilas edə bilmərik! Buna görə də Yeşaya yazdı: ***"Hamımız qoyun kimi yolu azmışdıq, hər birimiz öz yolumuzla gedirdik!"***

2) İkinci, Xoş Xəbər budur ki, Allah günahkarları xilas etmək üçün plan hazırlayıb və bu plan Məsihin ölümü və dirilməsi vasitəsilədir. Buna görə də Yeşaya yazıb: ***"Bizim üsyankarlığımıza görə onun bədəni deşildi, şər əməllərimiz naminə əzildi****...* ***və Rəbb hamımızın şər əməllərinin yükünü onun üzərinə qoydu****."*

Dostlar, günahının Müqəddəs Olan Allah qarşısında necə böyük olduğunu dərk edirsən? İnanırsan ki, bakirə qızdan doğulan Məsih *"Allah bizimlədir"* idi? Bilirsən Məsih nəyə görə qurbanlıq quzu kimi Öz qanını tökdü?

Yeşaya peyğəmbərin həyatverici sözləri üzərində düşün. Allah istəyir ki, sən Yeşayanın 53-cü fəsildə yazdığı hər şeyi başa düşəsən.

Dinlədiyin üçün çox sağ ol. Rəbbin Yeşaya peyğəmbər vasitəsi ilə sənə olan müjdəsi haqqında dərindən düşündükcə, Allah sənə xeyir-dua versin:

***"Rəbb deyir: «Gəlin indi birgə düşünək bu an, günahlarınız qıpqırmızı parça kimi görünsə də, onlar qar kimi ağ olacaq, tünd qırmızı rəngə çalsa da, onlar ağ yun kimi bəyaz olacaq!"*** (Yeşaya 1:18)

56-cı Fəsil

# Yeremya Peyğəmbər

**Yeremya**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz Yeşaya peyğəmbərin gələcək olan Məsih haqqında çox şeylər yazdığını eşitdik. Məsihin doğulmasından 700 il əvvəl, Allah Yeşayanın zehninə günahkarların Xilaskarının Allahın hüzurundan necə gəlməsi, bakirədən necə doğulması, necə müqəddəs həyat sürməsi və heç kimin edə bilmədiyi möcüzələri etməsini qoymuşdur. Həm də Yeşaya dünyanın günahlarını ödəmək üçün Məsihin qurbanlıq quzu kimi necə Öz qanını tökməsini peyğəmbərlik etmişdir. Və Onun qurbanı yerinə yetəndən sonra O ölümə qələbə çalacaq və Ona inanan hər bir kəsi əbədi həyat ilə təmin etməklə ölülərdən diriləcəkdir. Bu gün biz Allahın digər böyük peyğəmbəri – **Yeremya peyğəmbər** haqqında öyrənəcəyik.

Yeremya, Yeşaya peyğəmbərdən təqribən yüz il sonra yaşayıb. Gördüyümüz kimi İsrail xalqı artıq vahid millət deyildir. Onlar iki millətə bölünmüşdülər: İsrail və Yəhuda. Yeremyanın vaxtında, şimalda yerləşən İsrail padşahlığı dağılmışdır. Allah İsrail xalqını öz düşmənlərinə təslim etmişdir. Çünki onlar peyğəmbərlərin sözlərinə inanmadılar və öz günahlarından tövbə etmədilər. Yəhudi millətindən **yalnız Yəhuda qalmışdır**. Yəhuda cənubda yerləşirdi; onun paytaxtı Süleymanın tikdiyi məbədin yerləşdiyi Yerusəlim şəhəri idi. Artıq öyrəndiyimiz kimi, Yəhuda Allahın Məsihi dünyaya gətirəcəyini vəd etdiyi qəbilə idi.

Yeremya Yəhudi idi. O, Yerusəlimdən beş kilometer aralıqda yerləşən kiçik şəhərdə anadan olmuşdur. Yeremyanın atası Yerusəlimdəki məbəddə kahin kimi xidmət edirdi. O vaxt, Yerusəlimdəki Yəhudilərin əksəriyyəti hələ də öz ulubabalarının adətlərinin ardınca gedərək çox dindar idilər, amma **Rəbb Allahın Sözünə diqqət yetirmirdilər.** Amma Yeremya Allahın Sözünü sevən və ona itaət edən adam idi; O, Allahın Məsihin dünyaya göndərəcəyi günü səbirsizliklə gözləyirdi.

İndi gəlin görək Allah Yeremyanı peyğəmbər olmağa necə çağırdı. Yeremya kitabının birinci fəsilində, o yazır:

(Yeremya 1:4-10) *Mənə Rəbbin bu sözü nazil oldu: «**Mən sənə ananın bətnində surət verməzdən əvvəl səni tanıdım, Doğulmazdan əvvəl səni təqdis edib millətlərə peyğəmbər etdim**». Onda mən dedim: «Ah, ya Xudavənd Rəbb! Axı mənim danışıq qabiliyyətim yoxdur, çünki hələ cavanam». Rəbb mənə dedi: «Sən "cavanam" demə. Mən səni kimin yanına göndərsəm, gedəcəksən, sənə nə əmr etsəm, onu söyləyəcəksən. Adamlardan qorxma, çünki səni qurtarmaq üçün Mən səninlə olacağam» Rəbb belə bəyan edir. Rəbb əlini uzadıb ağzıma toxundu və mənə dedi: «Bax sözlərimi sənin dilinə qoydum. Bu gün səni millətlər və ölkələr üzərinə təyin etdim ki, onları kökündən yıxıb dağıdasan, qırıb məhv edəsən, əkib tikəsən»*

Allah Yeremyanı Öz peyğəmbəri olmağa çağırdı. Allah onu öz yerli Yəhudilərinə gedib, onlara əgər günahlarından tövbə edib Allaha və Onun Müqəddəs Sözünə dönməsələr,

Allahın onları mühakimə edəcəyini demək üçün təyin etdi. Yeremyanın tapşırığı ağır və çətin idi. Çünki **Yəhudilər istəmirdi ki, kimsə onlara dinlərinin Allaha məqbul olmadığını desin.** Amma Yeremya peyğəmbər insanı razı salan adam deyildir. İyirmi dörd il Yeremya Yerusəlimdə və bütün Yəhudeyada belə deyərək təbliğ etdi: "Allah istəyir ki, mən sizə xəbərdarlıq edim ki, əgər siz günahlarınızdan tövbə etməsəniz və Rəbbin Sözünə itaət etməsəniz – Allah Babil millətinin ordusuna izn verəcək ki, Yerusəlimə daxil olsunlar, şəhəri və məbədi dağıtsınlar! Onlar sizi əsir kimi uzaq ölkələrə aparacaqlar!" Bu Yeremyanın Yəhudeyada yaşayan Yəhudilərə təbliğ etdiyi xəbər idi.

Gəlin Yeremyanın yerli Yəhudiləri xəbərdarlıq etdiyi haqda yazdıqlarından bir neçə parçanı oxuyaq. Yeremya kitabı yeddinci fəsildə oxuyuruq:

(Yeremya 7:1-10) *Rəbdən Yeremyaya bu söz nazil oldu: «Rəbbin məbədinin qapısında dur və orada bu sözü elan edib söylə ki, ey bütün Yəhuda, Rəbbə ibadət etmək üçün bu qapılardan girənlər, Rəbbin sözünə qulaq asın.*
*İsrailin Allahı olan Ordular Rəbbi belə deyir: "Yollarınızı və əməllərinizi islah edin ki, Mən sizi bu yerdə yaşamağa qoyum. ‹Burada Rəbbin məbədi var, Rəbbin məbədi var, Rəbbin məbədi var› deyib yalan sözlərə güvənməyin. Əgər yollarınızı və əməllərinizi tamamilə islah etsəniz, bir-birinizlə, həqiqətən, ədalətlə rəftar etsəniz, qəribə, yetimə və dul qadına zülm etməsəniz, bu yerdə günahsız qan tökməsəniz, özünüzə zərər vuraraq başqa allahların tərəfdarı olmasanız, o zaman burada əbədilik atalarınıza verdiyim torpaqda sizi yaşamağa qoyacağam. Siz isə faydasız olan yalan sözlərə güvənirsiniz. Siz oğurluq edirsiniz, adam öldürürsünüz, zina edirsiniz, yalandan and içirsiniz...., tanımadığınız başqa allahların tərəfdarı olursunuz. Sonra bütün bu iyrənc işləri görmək üçün Mənim adımla çağırılan bu məbədə gəlib önümdə durur və ‹biz əmin-amanlıqdayıq› deyirsiniz."*

Beləcə Yeremya Allahı tanıdıqlarını iddiya edən amma öz hərəkləri ilə Onu inkar edən Yəhudiləri məzəmmət elədi.

17-ci fəsildə Yeremya əlavə edir:

(Yeremya 17) *Rəbb belə deyir: "Adam lənətlidir ki, insana güvənir, bəşərin gücünə arxalanır, Ürəyi Rəbdən ayrılır....* ***İnsan ürəyi hər şeydən hiyləgərdir, çarəsi yoxdur.*** *Onu kim başa düşə bilər? «Mən Rəbb ürəyi yoxlayıram, insanın fikrini sınayıram ki, hər kəsə əməllərinə görə, işlərinin bəhrəsinə görə əvəz verim."*

Onda Yeremya Yəhudilərə xəbərdarlıq edərək dedi: "Əgər siz günahlarınızdan tövbə etməsəniz və Allaha dönməsəniz, Babil ordusu Yerusəlim şəhərini və məbədini dağıdacaq və siz onların qulu olacaqsınız!"

Səncə Yəhuda xalqı Rəbbin Yeremya vasitəsi ilə onlara dediyi sözlərə hörmət etdilər və ona diqqət yetirdilər? **Onların əksəriyyəti xəbərdarlığa diqqət yetirmədi!** Hətta kahinlər belə Yeremyanın sözlərinə inanmadılar. Əslində, kahinlər onun dedikərini eşidəndə, onlar onu həbs etdilər, qamçıladılar və bir gün onun ayaqlarını zəncir ilə bağladılar. Kahinlər inanmadılar ki, Allah izn verər ki, onların düşmənləri olan Babillilər Yerusəlimə daxil olsunlar və şəhəri və Süleymanın tikdiyi məbədi dağıtsınlar. Onların fikrincə bu heç vaxt baş verə bilməzdi! Onlar Yeremyaya qəzəbli idilər. Çünki o Yerusəlimin məhvini qabaqcadan demişdir və Allahın sözünü kitaba yazmışdır.

Allahın peyğəmbəri Yeremyanın sözünü nəyinki insanlar və kahinlər rədd etdilər, hətta Yəhudeyanın padşahı da onları rədd etdi. Düzünü desək, padşah Yeremyanın yazdığı kitabı oxuyanda, o kitabı bıçaq ilə kəsdi və bütün kitabın yanması üçün onları həyətdəki alova atdı! Yəhudanın padşahı belə etdi. O öz günahından tövbə etmədi və Rəbbin sözünü də qəbul etmədi. Bəli, padşah Yeremya kitabını yandırdı **amma o Allahın fərmanını dəyişə bilmədi.** Allah sadəcə olaraq Öz Sözlərini başqa kitaba yazmaq üçün Yeremyanı istiqamətləndirdi.

Əgər sən Yeremya kitabını oxusan, padşahın, kahinin və bütün Yəhuda xalqının Yeremyanı necə təqib etdiklərini, tez-tez onu həbs etdiklərini görəcəksən. Bir dəfə onlar Yeremyanı dərin, palçıqlı çuxura da salmışdılar. Amma Allah onun köməyinə gəldi və Afrikalı adam göndərərək onu çuxurdan çıxartdı.

Nəzərə alınası mühüm bir şey var ki, Yəhudilər Yeremya peyğəmbərə **qulaq asmağı rədd** etmələrinə baxmamaları o demək deyil ki, onlar heç kimə qulaq asmırdılar! **Onlar** özlərini peyğəmbər adlandıran başqa adamlara **qulaq asırdılar** – amma o adamlar **yalançı peyğəmbərlər** idilər! Müqəddəs Yazılar bizə deyir ki, bir çox adamlar özlərini Allahın peyğəmbəri adlandırırdılar, amma həqiqətdə onlar ikiüzlülər və yalançılar idilər. Çünki **onların xəbəri Allahdan deyildir.** Nəticə etibarı ilə Yeremya Yerusəlimə gələcək Allahın mühakiməsi haqda təbliğ edərkən, yalançı peyğəmbərlər Yəhuda xalqına belə deyərək təbliğ edirdilər, "Xeyr, xeyr! Yeremyanın dediyi bəlalar baş verməyəcəkdir! Babil Yerusəlimi dağıda bilməz! Heç kim Allahın məbədini dağıda bilməz! Siz bəla görməyəcəksiniz! Sizdə yalnız sülh olacaqdır! Yalnız Sülh!"

Amma Yeremya bütün Yəhudilərə bəyən edərək deyirdi,

(Yeremya 23:16, 21-22) *Ordular Rəbbi belə deyir: «**Sizin üçün peyğəmbərlik edən peyğəmbərlərin sözünə qulaq asmayın. Onlar sizə boş şeylər öyrədir**. Rəbbin ağzından çıxanları deyil, özlərinin uydurduqları görüntüləri söyləyirlər.*
***Bu peyğəmbərləri Mən göndərmədim, amma ora-bura qaçdılar. Onlara Mən söz demədim, amma peyğəmbərlik etdilər**. Ancaq onlar məclisimdə dursaydılar, sözlərimi xalqıma çatdırardılar. Pis yollarından, şər əməllərindən xalqı çəkindirərdilər».*

Beləcə Yeremya Yəhudiləri yalan təbliğ edənlərdən ehtiyatlı olmağa xəbərdarlıq etdi. Amma təəssüf ki, Yəhuda əhalisinin əksəriyyəti Allahın peyğəmbəri Yəremyanın sözlərinə diqqət yetirmədi. Əksinə **onlar yalançı peyğəmbərlərin sözlərinə inandılar.** Axır ki, artıq **çox gec olandan sonra** padşah, kahinlər, xalq və yalançı peyğəmbərlər **həqiqi Allahın sözünü** təbliğ edənin kim olduğunu bildilər! Onlar Yeremyanın Yerusəlimin dağılması haqda elan etdiklərinin həyata keçdiklərini gördüklərinə görə bildilər. Allahın Sözü həmişə həyata keçir.

Müqəddəs Yazıların nə dediyinə qulaq as:

(Yeremya 52:4-16, 27) *Sidqiyanın padşahlığının doqquzuncu ilində, onuncu ayın onuncu günü Babil padşahı Navuxodonosor bütün ordusu ilə Yerusəlimin üzərinə hücum etdi, oraya qarşı ordugah qurdu və ətrafında mühasirə divarları düzəltdi. Padşah Sidqiyanın hakimiyyətinin on birinci ilinə qədər şəhər mühasirədə qaldı. Dördüncü ayın doqquzuncu günü şəhərdə aclıq elə gücləndi ki, ölkə xalqının yeməyə çörəyi qalmadı. Həmin vaxt şəhərin divarlarında dəlik açıldı. Gecə ikən Xaldeylilər şəhərin ətrafında olanda bütün döyüşçülər padşah bağçasının yanında olan iki divar arasındakı darvazadan qaçıb Arava yoluna çıxdı.* **...** *Padşahı tutub Xamat torpağındakı Rivlaya, Babil padşahının yanına apardılar. Babil padşahı onun haqqında hökm verdi. O, Sidqiyanın gözü önündə oğullarını öldürtdü, sonra*

*bütün Yəhuda başçılarını da Rivlada öldürtdü. Həmçinin Sidqiyanın gözlərini çıxartdı, onu qandallayıb Babilə apardı. ... O, Rəbbin məbədinə, padşah sarayına, Yerusəlimdəki bütün evlərə od vurub bütün əsas binaları yandırdı. Keşikçilər rəisinə tabe olan bütün Xaldey ordusu hər tərəfdən Yerusəlim divarlarını uçurtdu. Keşikçilər rəisi Nevuzaradan yoxsul adamların bir hissəsini, şəhərdə qalan xalqı, Babil padşahının tərəfinə keçən fərariləri və sağ qalan sənətkarları sürgün etdi. Ancaq o, bağçılıq, əkinçilik etmək üçün ölkədəki yoxsulların bir hissəsini orada saxladı. ....* ***Beləcə Yəhuda xalqı öz ölkəsindən sürgün olundu!"***

Biz Allahın Öz peyğəmbəri Yeremyanın vasitəsi ilə qabaqcadan dediklərini yerinə yetirdiyini gördük. İndi bütün Yəhudilər Yeremyanın dediyi sözlərin **həqiqət sözü** olduğunu bildilər. Amma bu bilik az onlara fayda verdi. Çünki onlar artıq Babil əsgərlərinin əlində əsir idilər!

Bu günki dərsimizi necə yekunlaşdıra bilərik? Bəlkə bu fikir ilə qurtara bilərik: Mühakimə Günü, Adəmin hər bir nəsli nəyin yalan və nəyin doğru olduğunu biləcəkdir. Amma **Allah istəyir ki, nəyin yalan və doğru olduğunu sən *indi* biləsən. Çünki Mühakimə Günü yerdə yaşadığın müddətdə məhəl qoymadığın həqiqətləri bilməyinin heç bir əhəmiyyəti olmayacaqdır**! Mühakimə Günü tövbə etmək çox gec olacaqdır. Çünki sən öz günahlarında məhv olmuş olacaqsan! Buna görə də Allahın Sözü deyir: *"Budur, indi münasib vaxt, budur, indi xilas günü!"* (2 Korinflilərə 6:2)

***"Ey sevimlilər, hər ruha inanmayın; ruhların Allahdan olub-olmadığını bilmək üçün onları sınaqdan keçirin. Çünki dünyada çoxlu yalançı peyğəmbər meydana çıxıb!"*** (1 Yəhya 4:1)

Gələn dərsdə biz Babillilərin Yəhudiləri tutub aparandan sonra nə baş verdiyinə baxacağıq....

Yeremya peyğəmbər vasitəsi ilə yazılan Rəbbin vədi haqda düşündükcə Allah sizə xeyir-dua versin. Rəbb Allah deyir:

***"Məni axtaracaqsınız, əgər bütün qəlbinizlə axtarsanız, tapacaqsınız."*** (Yeremya 29:13)

**57-ci Dərs**

# Daniel Peyğəmbər

**Daniel 1,6**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz Yeremya kitabını nəzərdən keçirdik. Yeremya peyğəmbər Məsihin dünyaya gəlməsindən təxminən 600 il əvvəl yaşamışdır. Yeremyanın öz yerli Yəhudilərə xəbərdarlıq edirdi ki, əgər onlar öz günahlarından tövbə etməsələr və Allaha dönməsələr, Babilin ordusu Yerusəlim şəhərini dağıdacaq və onları əsir götürəcəkdir. Təəssüf ki, Yəhudilərin əksəriyyəti yalançı peyğəmbərlərə qulaq asdılar və Yeremyaya qarşı çıxdılar dediyinə diqqət yetirmədilər. Beləliklə biz Babilin ordusunun necə gəldiyini, Yerusəlimi dağıtdığını və Yəhudiləri uzağa Balibilə apardıqlarını oxuduq. Hər şey dəqiqliklə Allahın Öz peyğəmbəri Yeremyanın ağzı ilə dediyi kimi oldu.

Amma Yerusəlimin dağılması o demək deyildir ki, Allah uzun illər əvvəl seçdiyi xalqı, Yəhudiləri tərk etmişdir. Allah İbrahimə, İshaqa və Yaquba belə dediyi, *" Yer üzünün bütün tayfaları sənin vasitənlə xeyir-dua alacaq."* vədini unutmamışdır. Allah İbrahimin nəslindən olan Yəhudi xalqı vasitəsi ilə dünyaya Qurtarıcı göndərəcəyi haqda **Öz planını** unutmamışdır. Müqəddəs Yazılar Allahın vəd etdiyi kimi, Yəhudiləri Yerusəlimə qaytarana qədər 70 il Babildə olarkən onların qayğılarına necə qaldığını nəql edir. Amma hekayəni eşitmək üçün bizim gələn dərsi gözləməlisən.

Bu gün biz Babillərin əsir tutduğu gənc bir Yəhudi oğlan haqqında oxuyacağıq. O gənc oğlan Allahın peyğəmbəri Danieldir. Daniel ***Allah mənim hakimimdir*** deməkdir. Bu Danielin qısa şəhadəti idi. Daniel hər bir kəsin Onun önündə hesabat verəcəyi Qüdrətli Allahdan başqa heç kimdən qorxmurdu. Daniel insanların onun haqqında nə fikirləşəcəyi haqda narahat olmurdu. O yalnız Allahın fikirlərinə diqqət verirdi. Allah Danielin hakimi idi. Daniel, Süleyman peyğəmbərin uzun illər əvvəl yazdığı bu sözlərə inanırdı: *" **İnsandan qorxan** özünü **tələyə salar**, amma **Rəbbə güvənən arxayın yaşar**."* (Süleymanın Məsəlləri 29:25)

Allah Danieli çox müdrik bir kitab yazmağa ilhamlandırdı. Daniel kitabı insan ağlının icad edə bilməyəcəyi vəhylərdən, peyğəmbərliklərdən ibarətdir. Gələcəkdə nə baş verəcəyini yalnız Allah bilir. Amma Daniel peyğəmbər dünyadakı bir çox millətlərin tarixini yazdı və o, onların tarixlərini həmin millətlər hələ mövcud olmamışdan əvvəl yazmışdır! Məsələn, Daniel Fars, Yunan və Roma padşahlıqları və onların nə edəcəkləri haqda yazmışdır. O bunları bu millətlərin əksəriyyətinin mövcud olmasından yüz illər əvvəl yazmışdır! Həmçinin Allahın bir çox peyğəmbərləri kimi Daniel də **Məsihin birinci və ikinci gəlişi haqda yazmışdır.** Daniel peyğəmbərlik etmişdir ki, Məsihin birinci gəlişində O qurban kimi günah üçün *"ölməli"* (Daniel 9:26), amma Məsih yerə qayıdanda dünyanı salehlikdə mühakimə edəcəkdir. Məsihin ikinci gəlişi haqda Danielin peyğəmbərliyinə qulaq as:

*"Nəhayət, mən gördüm ki, taxtlar quruldu və **Əzəldən Var Olan** oturdu. Onun əynində qar kimi bəyaz paltar var idi, saçları yun kimi ağappaq idi. Taxtı alov dilləri tək, çarxları yanar od kimi idi. Önündən odlu çay çıxıb axırdı. Minlərlə nəfər Ona xidmət edir, on minlərlə nəfər Onun hüzurunda durmuşdu. Məhkəmə iclası başlandı və kitablar açıldı!*

*Gecə gələn görüntülərdə gördüm ki, budur,* ***bəşər oğluna*** *bənzər Biri göyün buludları ilə gəlir. O, Əzəldən Var Olana yaxınlaşdı və Onun hüzuruna gətirildi. Ona hakimiyyət, izzət və padşahlıq verildi ki, bütün xalqlara, millətlərə və dillərə mənsub adamlar Ona xidmət etsin. Onun hakimiyyəti sona yetməyən əbədi hakimiyyətdir. Onun padşahlığı əsla yox olmayacaq."* (Daniel 7:9-10,13-14)

Allahın bəzi çox dərin düşüncələri Danielin kitabındadır. İndi onları nəzərdən keçirməyin əvəzinə biz bu gün qalan vaxtımızı **Daniel peyğəmbərin öz hekayəsinə** sərf edəcəyik.

Daniel kitabının birinci fəsilində biz Babil Padşahı Navuxodonosorun öz hökümətində xidmət etməsi üçün bir neçə **gənc Yəhudi oğlanı** seçməsini görürük. O ən yaraşıqlıları və ən ağıllıları, hər cür biliyə sahib olmağa malik olanları, çətin hərfləri və Babil dilini öyrənməyə malik olanları seçdi. **Daniel** padşahın seçdiyi gənc oğlanlardan biri idi.

Beləliklə, Daniel Babildə təlim almağa başladı. Amma elə ilk gündə Daniel **çətin seçim** ilə üzləşdi. Babilin böyük Padşahı qərara aldı ki, orda təlim alan gənc oğlanlar ən yaxşı şərabları içməli və ən yaxşı yeməkləri yeməlidirlər. Müqəddəs Yazılar deyir: ***"Daniel qərara aldı ki,*** *padşahın yediyi yeməklərlə və içdiyi şərabla* ***özünü murdar etməsin****. Buna görə də özünü murdar etməmək üçün hərəmağalar rəisinə müraciət etdi."* (Daniel 1:8)

Müqəddəs Yazılar Danieli çətin seçimdən necə qurtardığını, ona xeyir-dua verdiyini və ona dərin bilik və müdriklik verdiyini nəql edir. Müqəddəs Yazılar deyir: *"Onlar padşahın hüzurunda xidmətə qoyuldu. Padşah onlardan hər cür elm və bilik barədə soruşanda gördü ki, bunlar ölkəsindəki sehrbazların və ruhçağıranların hamısından* ***on qat üstündür****."* (Daniel 1:19,20) Təqribən 70 il Daniel dörd müxtəlif padşah üçün işlədi və Allah onunla idi.

Bu gün vaxtımızın qalan hissəsində biz Danielin həyat hekayəsinə baxmaq istəyirik – Danielin insandan yox, Allahdan qorxmaq hekayəsi. Biz Danielin Padşaha işləyən digər məmurlardan necə fərqli olduğunu görəcəyik. Onlar adətən həqiqəti təhrif edən və rüşvət götürən adamlar idilər. Çünki Allah qorxusu onlardan uzaq idi. Amma Daniel hər cür qeyri-salehlikdən və yalandan imtina etdi. Çünki Allah qorxusu onun ürəyini bürümüşdü. O Allahı narazı salmaqdansa, ölümlə üzləşməyə üstünlük verirdi.

Hekayəmizin başladığı yerdə Daniel yaşlı bir kişi idi və dördüncü padşahın üçün sadiq xidmət edirdi. Babil Padşahlığı artıq Babil yox, Fars Padşahlığı adlanırdı. Çünki Midiya və Farslar olan bu iki millət Daniel peyğəmbərin peyğəmbərlik etdiyi kimi Babili fəth etmiş və onu iki yerə bölmüşdülər.

Müqəddəs Yazılarda altıncı fəsildə deyilir:

(Daniel 6:1-27) *Dara qərara aldı ki, ölkəyə başçılıq etmək üçün padşahlığın bütün ərazisinə yüz iyirmi canişin təyin etsin, onlara isə üç vəzir başçılıq etsin. Bu canişinlər onlara hesabat versin, padşaha da ziyan dəyməsin. Həmin üç vəzirdən biri Daniel idi. Bu adam – Daniel başqa vəzirlərdən və canişinlərdən üstün idi, çünki o, iti ağla malik idi. Buna görə də padşah qərara gəlmişdi ki, onu bütün ölkəyə başçı qoysun.*

*Belə olanda vəzirlər və canişinlər Danieli ölkənin idarə işlərində ittiham etmək üçün bir bəhanə axtarmağa başladılar, ancaq heç bir bəhanə və təqsir tapa bilmədilər, çünki Daniel etibarlı idi və onda heç bir səhv yaxud təqsir tapılmadı. Nəhayət, bu adamlar dedi: «Əgər bu adamın – Danielin Allahının dinində onun əleyhinə bir şey tapmasaq, ona qarşı bir bəhanə tapa bilməyəcəyik».*

*Onda bu vəzirlər və canişinlər padşahın yanına gəldi və ona belə dedi: «Qoy padşah Dara həmişə sağ olsun!*
*Ölkənin bütün vəzirləri, əmirləri, canişinləri, müşavirləri və valiləri birlikdə razılaşdı ki, belə bir padşah fərmanı və qadağan əmri verilsin: ey padşah, otuz gün ərzində kim səndən başqa bir allaha yaxud insana dua etsə, şirlər olan quyuya atılsın. Ey padşah, indi bu qadağan əmrini ver, Midiya və Fars qanunlarına əsasən dəyişilməz və heç vaxt pozulmayan bir fərmanı imzala». Padşah Dara belə bir fərmanı və qadağan əmrini imzaladı.*
*Daniel belə bir fərmanın imzalandığını öyrəndikdə öz evinə qayıtdı. Onun yuxarı otağının Yerusəlimə tərəf olan pəncərələri açıq idi. Daniel əvvəllər etdiyi kimi gündə üç dəfə diz çöküb öz Allahına dua etdi və Onun önündə şükür etdi. Onda bu adamlar birlikdə oraya gedib Danielin Allaha dua etdiyini və yalvardığını gördülər.*
*Sonra gəlib padşaha öz qadağan əmri barədə dedilər: «Ey padşah, otuz gün ərzində kim səndən başqa bir allaha yaxud insana dua edərsə, şirlər olan quyuya atılsın deyə qadağan əmri imzalamadınmı?» Padşah cavab verdi: «Bu qərar dəyişilməz olan Midiya və Fars qanunlarına əsasən qətidir». O vaxt onlar padşaha dedi: «Ey padşah, sürgün olunmuş Yəhudalılardan olan Daniel səni və imzaladığın qadağan əmrini saymayaraq gündə üç dəfə dua edir».*
*Padşah bu sözləri eşidəndə çox kədərləndi və ürəyində niyyət etdi ki, Danieli qurtarsın. Padşah hətta günəş batana qədər onu xilas etməyə çalışdı. Ancaq o adamlar birlikdə padşahın yanına gəlib ona dedi: «Ey padşah, bunu bil ki, Midiya və Fars qanunlarına görə padşahın təsdiq etdiyi qadağan əmri və fərman dəyişilməz». Bunu eşitdikdə padşah əmr etdi və Danieli gətirib şirlər olan quyuya atdılar. Padşah Danielə belə dedi: «Daim qulluq etdiyin Allahın səni qurtarsın!» Sonra bir daş gətirilib quyunun ağzına qoyuldu. Danielin hökmündə heç nə dəyişməsin deyə padşah özünün möhür üzüyü və əyanlarının üzükləri ilə daşı möhürlədi. Sonra padşah öz sarayına qayıtdı. Gecəni yemək yemədən və əylənmədən keçirdi, yuxusu da qaçdı.*
*Səhər açılanda padşah yerindən qalxıb tələsik şirlərin olduğu quyuya getdi. Oraya yaxınlaşanda kədərli səslə Danieli çağırıb dedi: «Ey Daniel, var olan Allahın qulu! Daim qulluq etdiyin Allahın səni şirlərdən qurtara bildimi?» Onda Daniel padşaha dedi: «Qoy padşah həmişə sağ olsun! Allahım Öz mələyini göndərib şirlərin ağzını bağladı və onlar mənə toxunmadı, çünki mənim Allahın önündə təqsirsiz olduğum bilindi. Ey padşah, sənə qarşı da heç bir cinayət etməmişəm». Onda padşah çox sevindi və Danieli quyudan çıxarmağı əmr etdi. Daniel quyudan çıxarılanda onun bədənində heç bir zədə yox idi, çünki öz Allahına güvənmişdi. Padşah əmr etdi və Danieli ittiham edən adamlar gətirildi. Onları uşaqları və arvadları ilə birlikdə şirlərin olduğu quyuya atdılar. Quyunun dibinə çatmamış şirlər onları qapıb sümüklərini qırdı.*
*O zaman padşah Dara bütün dünyada yaşayan xalqlara, millətlərə və dillərə mənsub olan adamlara belə yazdı: «Sülhünüz bol olsun! Fərman verirəm ki, bütün padşahlığımın ərazisində olan adamlar Danielin Allahından qorxub titrəsin. O, var olan Allahdır, əbədi olaraq mövcuddur, Onun padşahlığı dağılmaz və hökmranlığı sonsuzdur.* ***O qurtarıb xilas edər, göydə və yerdə əlamətlər, Möcüzələr göstərər. Danieli şirlərin pəncəsindən O qurtardı!"*** **Amin**

Allahın Danieli şirlərdən xilas etdiyini görəndə bütpərəst padşah nə dedi? O dedi, *"Fərman verirəm ki, bütün padşahlığımın ərazisində olan adamlar* ***Danielin Allahından qorxub titrəsin****. O, var olan Allahdır, əbədi olaraq mövcuddur!"*

Bəlkə sən soruşursan, **"Danielin Allahı kimdir?"** Danielin Allahı, İbrahimin, İshaqın və Yaqubun Allahıdır. Danielin Allahı Musa peyğəmbərin və Davud peyğəmbərin Allahıdır. Danielin Allahı bizə Müqəddəs Yazıları verən Allahdır. O günahkarları şirin gücündən də

güclü olan şeytanın, günahın və cəhənnəmin hakimiyyətindən xilas etmək üçün Qurtarıcını göndərməyi vəd edən Allahdır! Danielin Allahı – Tək Həqiqi **Allahdır**!

Sən Danielin Allahından qorxursan? Səndən dostlarından, onların fikirlərindən və ya öz ulubabalarından, onların adətlətindən qoxduğunu soruşmuruq! Biz səndən bunu soruşuruq: **Allahdan** qorxursan? Sən Rəbb Allahı razı salıb və Onun müqəddəs Sözünə itaət etmək istəyirsən? Daniel Allahdan qorxurdu. Buna görə də o insandan qorxmurdu. Daniel Rəbb Allahını narazı salmaqdansa, gecəni şirlərlə bir yuvada keçirməyə üstünlük verdi! Bəs sən necə? Sən Danielin qorxduğu kimi Allahdan qorxursan? Sən Daniel kimi qeyri-salehliyə nifrət edirsən? Sən Allahın Sözünü Daniel sevdiyi kimi sevirsən? Yoxsa sən də Adəmin əksər övladları kimi həqiqəti təhrif edirsən, pulu sevirsən və Müqəddəs Yazılara etinasızlıq edirsən? **Allahdan qorxursan?**

Dinlədiyin üçün çox sağ ol. Gələn dərsdə biz Danieldən sonra gələn Zəkəriyyə peyğəmbərin möcüzəli peyğmbərliklərinə baxacağıq....

Bu mühüm həqiqət üzərində düşündükcə Allah sizə xeyir-dua versin:

***"İnsandan qorxan özünü tələyə salar, amma Rəbbə güvənən arxayın yaşar!"*** (Süleymanın Məsəlləri 29:25)

58-ci Dərs

# Zəkəriyyə Peyğəmbər

**Zəkəriyyə**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

İki proqram əvvəl biz Allahın peyğəmbəri Yeremyanın öz yerli Yəhudi xalqına xəbərdarlıq etdiyini gördük ki, əgər onlar öz günahlarından tövbə etməsələr, Allah Babil əsgərlərinə izn verəcək ki, ora daxil olsun, ölkələrini dağıtsın və onları uzaq bir yerə aparsın. Yəhudilərin əksəriyyəti Yeremyanın xəbərdarlığına fikir vermədi. Nəticə etibarı ilə, Yeremyanın qabaqcadan dediyi kimi Babil ordusu şərqdən gəldi, Yerusəlimi dağıtdı, məbədi uçurdu və Yəhudiləri Babilə əsir apardılar. **Beləliklə Yəhudi xalqı səpələndi. Çünki onlar Allahın peyğəmbərinin sözünə qulaq asmaqdan imtina etdilər.**

Lakin Yəhudilərin vəfasızlığı Allahın sadiqliyini poza bilərdi? Heç vaxt! Yeremya peyğəmbərin günahlarına görə Babildə əsir olan Yəhudilərə dediyi sözlərə qulaq as:

**(Yeremya 29:4, 10-11)** *Mən İsrailin Allahı olan Ordular Rəbbi Yerusəlimdən Babilə sürgün etdiyim adamlara belə söyləyirəm:* **....** *"Babildə yetmiş iliniz bitəndə Mən sizə yenə baş çəkəcəyəm və sizi buraya qaytaracağım barədə verdiyim xoş sözü yerinə yetirəcəyəm.* ***Çünki sizin barənizdə olan fikirlərimi Özüm bilirəm" ....“Mən sizin pisliyiniz deyil, salamatlığınız barədə düşünürəm ki, sizə ümidli bir gələcək verim.***

Bu bəyanat ilə Yeremya peyğəmbər Yəhudilərə xəbərdarlıq edirdi ki, hətta onlar Allahı unutsalar belə, **Allah onları unutmamışdır!** Allah onları öz ulubabalarının torpağına yetmiş ildən sonra gətirməyi nəzərdə tutmuşdur. Yeremya bu sözləri Babildə əsir olan Yəhudilərə dedi. Həqiqətən, **Allah sadiqdir.** O əhdinə sadiqdir. Allah İbrahimin, İshaqın və İsrailin vasitəsi ilə dünyanın bütün millətlərinə xeyir-dua vermək vədini unutmamışdır. Allah Öz Sözünü Adəmin bütün nəslinə yaymaq üçün İsraillilәri həvalə etməyi məqsədində tutduğunu unutmamışdır. Dərslərimizdə biz Allahın Yəhudi xalqı arasından Öz peyğəmbərlərini necə seçdiyini, müqəddəs Sözünü elan etmək və gələcək nəsillər üçün onları yazmağı ilhamlandırdığını görmüşük. Biz Allahın Tövrat kitabını Musanın zehninə və Məzmurları Davudun ürəyinə necə qoyduğunu bilirik. Buna bənzər olaraq Allah Yeşua, Şamuel, Süleyman, Yeşaya, Yeremya və Daniel kimi digər Yəhudiləri də Öz Sözünü yazmaq üçün ilhamlandırmışdır. Biz Allahın peyğəmbərlərinin bütün Yazılarını Allahın İsrail xalqı vasitəsilə dünyaya Xilaskar göndərməyi nəzərdə tutduğu gözəl planını elan etdiyini müşahidə eləmişik.

Bu gün biz Allahın Yəhudiləri Məsihin doğulacağı Yəhuda torpağına necə gətirdiyini görəcəyik. Bu yolla Məsihi dünyaya gətirmə planını irəli sürürdü. Biz Yeremya peyğəmbərin qabaqcadan dediyi kimi, Yəhudilərin 70 illik əsirlikdən sonra necə Yerusəlimə qayıtdıqlarını öyrənəcəyik.

Oxumağa başladıqca, gəlin yadda saxlayaq ki, Babil torpağı indi Fars adlanırdı. Çünki Fars Babil üzərində qələbə çalmışdır. Ezra kitabını oxuyuruq, birinci fəsil, Müqəddəs Yazılarda deyilir:

(Ezra 1*) Rəbb Fars padşahı **Kirin hökmranlığının birinci ilində Yeremyanın dili ilə dediyi sözü yerinə yetirmək üçün Kiri ruhlandırdı.** Ona görə Kir padşahlığının bütün ərazisində yazılı və şifahi elan etdi:
«Budur, Fars padşahı Kir belə deyir: "Göylərin Allahı Rəbb dünyanın bütün padşahlıqlarını mənə verdi və Yəhudanın Yerusəlim şəhərində Öz məbədini tikməyi mənə əmr etdi. Aranızda Onun xalqına mənsub olanların hamısına qoy Allahı yar olsun! Qoy onlar Yəhudanın Yerusəlim şəhərinə qalxsın və İsrailin Allahı Rəbbin məbədini tiksinlər. Yerusəlimdə səcdə qılınan Allah Odur. Sağ qalan İsraillilər hansı əhali arasında yaşayırsa, qoy onlar Yerusəlimdəki Allah evinə verəcəkləri könüllü ianələrdən başqa, qızıl-gümüş, əşya və heyvanlar verməklə bu adamlara kömək etsinlər"». Yəhuda, Binyamin qəbilələrinin nəsil başçıları, kahinlərlə Levililər, eləcə də Allahın ruhlandırdığı bütün adamlar Rəbbin **Yerusəlimdəki məbədini tikmək üçün** yola düşməyə hazırlaşdılar. Aralarında yaşadıqları yerli əhalinin hamısı verdikləri könüllü ianələrdən başqa, qızılla, gümüş qablarla, əşyalarla, heyvanlarla və qiymətli şeylərlə onlara kömək etdilər. Padşah Kir Navuxodonosorun Rəbbin Yerusəlimdəki məbədindən götürüb öz allahlarının məbədinə qoyduğu əşyaları çıxartdı.*

Allah uzun illər əvvəl Öz peyğəmbəri Yeremyanın ağzı ilə dediyi vədini yerinə yetirdi? Əlbəttə yetirdi! Biz artıq Allahın **qabaqcadan Yeremyanın peyğəmbərlik etdiyi kimi** Yerusəlimi və məbədini dağıtmaq  üçün Babil padşahına izn verdiyini görmüşük. Indi isə Fars padşahı Kirin ürəyi istəyən hər bir Yəhudinin Yerusəlimə dönüb və məbədi yenidən bərpa etməsinə icazə verdiyini görürük. Bu da qabaqcadan **Yeremya peyğəmbər tərəfindən peyğəmbərlik edilmişdir.** Həqiqətən, Rəbb padşahların Padşahıdır. Zamanı və fəsilləri idarə edən Odur. Onun bəyan etdiyi hər bir şey yerinə yetəcəkdir! Süleyman peyğəmbər yazıb: *" Padşahın ürəyi Rəbbin əlindədir, onu su arxı kimi istədiyi səmtə döndərər."* (Süleymanın Məsəlləri  21:1)

Sonra, Müqəddəs Yazılar Yəhudi dəstəsinin Fars ölkəsindən gedib, Yəhuda torpağına, Yerusəlim şəhərinə döndüyünü təsvir edir. **Zerubbabil** adlı bir Yəhudi onların rəhbəri idi. Yerusəlimə gələndə, onlar çox əziyyətlə üzləşdilər. Çünki bütün şəhər dağıdılmışdır və Süleymanın tikdiyi məbəd viranə gündə idi. Qırılmış daş parçalarından vəküldən başqa heç nə qalmamışdır.

Müqəddəs Yazılar Yəhudilərin əvvəlcə Rəbbin məbədi olduğu yerdə necə toplandıqlarını nəql edir. Orada onlar qurbangah bərpa etdilər və bir neçə heyvanı qurban gətirdilər. Birlikdə onlar Rəbbə 70 il onları Babildə və Farsda  qoruduğuna görə və öz doğma diyarlarına geri gətirdiyinə görə təşəkkürlər və həmdlər etdilər. Allah onlara kömək etmək üçün və onları gücləndirmək üçün həmin Yəhudilərlə idi. Çox çətinliklərdən və uzun illər ağır işlərdən sonra – **onlar Rəbbin məbədini,Yerusəlimi və ətraf divarlarını yenidən tikə bildilər**

Yəhudiləri Yerusəlimə qaytaran vaxtda Allah onları Zəkəriyyə adlı peyğəmbər ilə təmin etdi. Bu Zəkəriyyə, Yəhya peyğəmbərin atası Zəkəriyyə deyil. Allah Zəkəriyyəni Yəhudilərin Allaha və Onun vədlərinə imanını artırmaq üçün göndərdi. Zəkəriyyənin onlara çatdıracağı çox mühüm xəbər var idi.

Gəlin Allahın Zəkəriyyənin zehninə qoyduğu bəzi sözləri nəzərdən keçirdək. Zəkəriyyə kitabı, birinci fəsildə Müqəddəs Yazılar deyir:

(Zəkəriyyə 1:1-6) *Daranın hakimiyyətinin ikinci ilində, səkkizinci ayda İddo oğlu Berekya oğlu Zəkəriyyə peyğəmbərə Rəbbin bu sözü nazil oldu: «Rəbb atalarınıza çox qəzəbləndi.* ...

*“**Atalarınız kimi olmayın!** Əvvəlki peyğəmbərlər onlara müraciət edib söylədi ki, Ordular Rəbbi onlara ‹pis əməllərinizdən və pis işlərinizdən qayıdın› deyir. Ancaq onlar eşitmədi və Mənə qulaq asmadı” Rəbb belə bəyan edir. “Atalarınız indi haradadır? Peyğəmbərlər də əbədi yaşayırmı? Amma qullarım peyğəmbərlərə əmr etdiyim Sözlərim və qaydalarım atalarınıza gəlib çatmadımı?”*

Siz Zəkəriyyə peyğəmbərin Yəhudilərə etdiyi xəbərdarlığı eşitdiz? Onlara dedi, "*Rəbb atalarınıza çox qəzəbləndi. Atalarınız kimi olmayın!"* Allah Yəhudilərin atalarına nə üçün qəzəbli idi? Onlar Allahın onlara göndərdiyi **peyğəmbərlərin sözlərinə diqqət yetirmədiklərinə görə** Allah onlara qəzəbli idi. Ona görə də onlar Babillilərin əsarəti altına düşdülər. Onların ataları dindar idi, amma Allah onlardan razı deyildir. Çünki onlar peyğəmbərlərin sözlərinə məhəl qoymurdular. O dövrün Yəhudiləri bu günkü gündə belə deyən adamlar kimi idilər, "Əlbəttə, biz bütün peyğəmbərlərə inanırıq!" Amma bu aydındır ki, onlar Allahın peyğəmbərlərinə həqiqətən inanmırlar. Çünki onların Allahın Özü ilə şəxsi ünsiyyətləri yoxdur. Yəhudilərin ulubabalarının əksəriyyəti belə idi. Onlar peyğəmbərlərin sözlərini qiymətləndirmirdilər. Onlar ağızları ilə Allaha hörmət edirdilər, amma Onun Sözünü ürəkləri ilə qəbul etməmişdilər. Buna görə də Allah Zəkəriyyə peyğəmbəri Yəhudilərə göndərdi ki, ağızlarında "Allah, Allah, Allah!" lakin Allahın peyğəmbərlər vasitəsi ilə göndərdiyi Sözə məhəl qoymayan ulubabaları kimi olmamalarını onlara xəbərdarlıq etsin.

Zəkəriyyə Yəhudilərə xəbərdarlıq edəndən sonra, onlara gələcək olan Qurtarıcı haqqında danışdı. Zəkəriyyə peyğəmbərin Məsih haqqında yazdığı bütün şeyləri oxumaq üçün bu gün vaxtımız yoxdur, amma bir neçə parçanı oxuya bilərik.

Zəkəriyyə kitabı, doqquzuncu fəsildə Zəkəriyyə peyğəmbər Məsihin sıpa üzərində Yerusəlimə daxil olmasını peyğəmbərlik etmişdir. O dedi: " *Ey Sion qızı, böyük sevinclə coş, ey Yerusəlim qızı, hayqır! Bax padşahın sənə tərəf gəlir. O ədalətli və xilaskardır. O itaətkardır və bir eşşəyə – Eşşəyin balası olan **sıpaya minib gəlir**."* (Zəkəriyyə 9:9)

On birinci fəsildə Zəkəriyyə peyğəmbər qeyri-adi bir bir peyğəmbərlik yazıb ki, indi xırdalıqlarla başa sala bilmərik. Hadisələrdən birində Zəkəriyyə **Məsihin 30 gümüşə satılacağını** qabaqcadan demişdir. Zəkəriyyə peyğəmbər yazmışdır*: " Mən onlara dedim: “Əgər bu sizə xoşdursa, Mənim muzdumu verin, əgər belə deyilsə, verməyin”. Onlar Mənə muzd olaraq **otuz gümüş** verdi.... Beləcə **otuz gümüşü götürüb Rəbbin məbədində olan dulusçuya atdım...."*** (Zəkəriyyə 11:12,13)

On ikinci fəsildə, Zəkəriyyə Yəhudilərin Məsihi nəyinki satacaqlarını, həmçinin Onu öldürəclərini də peyğəmbərlik etmişdir! O Rəbbin sözlərini yazır:

*"Davud nəsli və Yerusəlimdə yaşayanların üzərinə lütf və yalvarış ruhunu tökəcəyəm. Onlar Mənə – bədənini **deşdikləri şəxsə baxacaq** və vahid oğluna yas tutan adam kimi ona yas tutacaq, ilk oğlu üçün dərd çəkən adam kimi dərd çəkəcək..... O biri ondan soruşacaq: **“Bəs sinəndəki bu yaralar nədir?”** O isə **“dostlarımın evində aldığım yaralardır”** deyəcək."* (Zəkəriyyə 12:10; 13:6)

Bu sözlərlə Zəkəriyyə Məsihin əllərində deşikləri olacağını qabaqcadan demişdir. O bu yaraları haradan alacaqdır? Onun yerli Yəhudiləri Onu çarmıxa çəkmək üçün Romalıları dilə tutacaqlar. Romalılar sonra Onun əllərini və ayaqlarını çarmıxa mıxlayaclar və sonra Onun böyrünü nizə ilə deşəklər. Hər şey Zəkəriyyənin qabaqcadan dediyi kimi baş verdi.

Zəkəriyyə peyğəmbərin yazdığı sözlər, yüz illər əvvəl Davud peyğəmbərin Zəbur kitabında Məsih haqqında yazdığı: *"Ayaqlarımı, əllərimi deşdilər."* (Zəbur 22:16) peyğəmbərlik ilə mükəmməl ahəngdə idi.

Dostlar, Allah istəyir ki, biz **Məhisin çarmıxdakı ölümü**, Adəmin övladlarını günahın cəzasından xilas etmək üçün uzun illər Allahın **qurduğu planının çox mühüm bir hissəsi** olduğunu biləк. **Saleh Məsih qeyri-salehə görə əzab çəkməli və ölməli idi! Bu Allahın bütün peyğəmbərlərinin müjdəsi idi.** Bu sənə aydındır? Sən Məsihin doğulmasından təxminən 500 il əvvəl Zəkəriyyənin Məsih haqqında nə peyğəmbərlik etdiyini başa düşürsən? Sən həqiqətən peyğəmbərlərin --Məsihin ölməsi və ölülərdən ilk olaraq dirilməsi, günahların bağışlanmasını bəyan edən və Onun adına inanan hər kəs üçün Cənnətdə yeri olacağı haqda xəbərinə inanırsan? **Sən peyğəmbərlərə inarırsan?** (bax Həvarilərin İşləri 26:18-27) Yoxsa sən də ağızları ilə Allahın peyğəmbərlərinə hörmət edən, amma onların xəbərinə inanmayan Yəhudilər kimisən?

Peyğəmbərlərin xəbəri haqda Müqəddəs Yazılar bəyan edir:

***"Peyğəmbərlik sözlərinə xor baxmayın."*** (1 Saloniklilərə 5:20) " *Həmçinin bizdə daha əmin olan peyğəmbərlik sözləri var. Onlar qaranlıq yerdə işıq saçan bir çırağa bənzəyir. Səhər açılıb dan ulduzu ürəklərinizdə doğana qədər bu sözlərə diqqət verirsinizsə, yaxşı edirsiniz."* (2 Peter 1:19) ***" Sən peyğəmbərlərə inanırsanmı?"*** (Həvarilərin İşləri 26:27)

Dostlar, dinlədiyiniz üçün çox sağ olun. Allahın iradəsi ilə gələn proqramda biz Məsihin dünyaya gəlməsindən qabaq Müqəddəs Yazıların son kitabını yazan peyğəmbərdən söz eşidəcəyik....

Allahın Sözündə olan bu mühüm suala səmimi bir cavab verməyi aradıqca, Allah sənə xeyir-dua versin.

***"Sən peyğəmbərlərə inanırsan?"*** (Həvarilərin İşləri 26:27)

59-cu Dərs

# Peyğəmbərlərin Xəbərləri Cəmlənmiş Halda

**Malaki**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Müqəddəs Yazıların birinci hissəsini artıq uzun müddətə oxuduq. Bu hissə ***İlk Əhd*** adlanır. Buna həmçinin ***Əhdi Cədid*** də deyilir. Bu hissəyə Tövrat, Zəbur və Peyğəmbərlərin digər Yazıları daxildir. Gördüyümüz kimi, Allah Birinci Əhdi yazmaq üçün min beş yüz il ərzində otuz peyğəmbərdən çox istifadə edmişdir.

Bu gün biz Müqəddəs Yazıların birinci hissəsindəki səyahətimizi bitirəcəyik. Amma Birinci Əhdin son kitabına baxmazdan əvvəl biz ilk dərsdən indiyə qədər bu müqəddəs kitabdan nə öyrəndiyimiz haqda bir az danışmaq istəyirik. **Biz peyğəmbərlərin xəbərini üç böyük fikir ilə cəmləşdirə bilərik:**

**Bir:** Allah **müqəddəsdir** və hər bir günahı mühakimə etməlidir.

**İki:** Adəmin bütün övladları **günah** ilə doğulur və Allahın məhkəməsi ilə üzləşməlidirlər.

**Üç:** Adəmin övladlarının günahlarını daşımaq üçün Allah müqəddəs **Qurtarıcını** yerə göndərməyi planlaşdırıb.

Bu Allahın bütün peyğəmbərlərinin təbliğ etdiyi üç həqiqətdir. Gəlin bu üç fikiri təkrarlayaq.

Birinci**: Allah müqəddəsdir** və günaha göz yuma bilməz.

İkinci**: İnsan günahlıdır** və günahın cəzasından özünü heç cür xilas edə bilməz.

Üçüncü**: Allahın** günahkarları pak etmək və məhkəmədən xilas etmək **planı var.**

Bu üç həqiqəti başa düşdün? Sən Allahın necə müqəddəs olduğunu dərk edirsən? Səni mühakimə etməli Olanın qarşısında günahlarının necə böyük olduğunu dərk edirsən? Bilirsən ki, Allahın səni günahlarından təmizləmək üçün planı var?

Həqiqətən, **Allah müqəddəsdir ,insan isə qeyri-müqəddəsdir**. Müqəddəs Yazılardakı dərslərimizdə biz bu iki həqiqəti tez-tez görmüşük. Allahın şeytan və onun ardınca gedən hər bir kəs üçün heç vaxt sönməyən atəşi yaratmağa səbəb Allahın müqəddəsliyi idi. Adəm və Həvvanı qadağan olunmuş ağacdan yedikləri gün Cənnət Bağından qovmasına səbəb Allahın müqəddəsliyi idi. Günahı örtmək üçün Adəmin oğullarına heyvan qurban kəsməyi və yandırma qurbanı etməyi əmr etməyə səbəb Allahın müqəddəsliyi idi. Qabilin qurbanını qəbul etməməyə səbəb də Onun müqəddəsliyi idi. Nuhun dövründə günahkarları daşqın ilə məhv etdməsi və İbrahimin dövründə Sodom və Homorra xalqı üzərinə alov yağdırması Allahın müqəddəsliyi idi. Dünyanı ədalətlə mühakimə etmək üçün hazırladığı günə də səbəb Allahın müqəddəsliyidir.

Peyğəmbərlərinin Allahın müqəddəsliyi və insanın qeyri-müqəddəsliyi haqda nə yazdıqlarına qulaq as: *"Əzəldən bəri var olan Sən deyilsənmi? ..... Sənin gözlərin çox təmizdir, Şəri görən gözün yoxdur, pis əməllərə dözə bilmirsən!"* (Habaqquq 1:12,13) *"Hamımız elə bil ki murdarlandıq, Bütün saleh əməllərimiz murdar əskiyə bənzəyir!"* (Yeşaya 64:6) Əgər Allah belə müqəddəs və insan isə belə murdardırsa, bəs onda kim xilas olacaqdır? Biz cəhənnəmin əbədi atəşindən necə xilas ola bilərik? Adəmin övladları əbədiyyatı pak və müqəddəs olan Allahın hüzurunda necə keçirə bilərlər?

Bu suala cavab peyğəmbərlərin xəbərindəki **üçüncü həqiqətdədir.** Peyğəmbərlər Allahın **müqəddəs** olduğunu və Adəmin övladlarının isə **qeyri-müqəddəs** olduğunu təbliğ edəndən sonra onlar bəyan etməyə başladılar ki, Adəmin övladlarını günahlarından təmizləmək üçün Allahın Özünün **planı** vardır.

İlk Əhd kitabının ən mühüm xəbəri budur ki, Allah, Ona inanan **Adəmin qeyri-saleh övladlarını qurtarmaqdan ötrü saleh Qurtarıcının onların yerinə ölməsi üçün** dünyaya göndərəcəyini vəd etmişdir. Bu günahkarları xilas etmək üçün Allahın planı olub və hal-hazırda da planıdır. Yalnız Qurtarıcının tökdüyü qan vasitəsi ilə Allah günahı bağışlaya bilər və Öz müqəddəsliyinə zərər gətirmədən günahkarları Özü ilə barışdıra bilər.

Xilaskarı dünyaya göndərmək planını irəli sürmək üçün Allah İbrahimi çağırdı ki, ondan yeni millət yaratsın, Allahın peyğəmbərləri və Məsih bu millətdən çıxacaqdır. Allah İbrahimə belə dedi: *"Sən xeyir-dualı olacaqsan və **yer üzündəki bütün millətlər** sənin vasitən ilə xeyir-dualı olacaqlar."* Beləliklə İbrahimin yaşlı vaxtında oğlu **İshaq** oldu, İshaqın da oğlu **Yaqub** oldu və **İsrailin** qəbilələrini yaradan Yaqubun **on iki oğlu** oldu. Bu yolla Allah İbrahimi çağıran zaman O dünyaya Xilaskar göndərmək planını irəli sürməkdə davam edirdi. Çünki Məsih İbrahimin nəslindən, İsrail xalqı vasitəsi ilə dünyaya gəlməli idi.

Sonra biz İsrail övladlarının Kənan torpağından çıxıb Misirdə məskunlaşdıqlarını və orada Misirlilərin qulu olduqlarını gördük. Amma Allah İbrahimin nəslini, İsraillilәri unutmamışdır. Allah İsraillilәri azad etmək və onları uzun illər əvvəl ulubabaları İbrahimə vəd etdiyi diyara aparmaq üçün Musanı çağırdı. Allah Musa peyğəmbərdən istifadə edib, bizə **Tövrat** adlanan kitab verdi. Bu kitab Allahın o vaxtdan bəri bəyan etdiyi hər şeyin təməlidir.

Musanın dövründən sonra biz Allahın İsraillilərə digər çoxlu peyğəmbərlər göndərdiyini gördük. Amma onların əksəriyyəti peyğəmbərlərin sözlərinə məhəl qoymadılar. İsraillilərin vəfasızlığı Allahın sadiqliyini_və dünyaya Məsihi göndərmək planını dayandırmadı! Biz Allahın **Davudu** necə İsrailin padşahı və **Zəbur** kitabında gözəl və dərinmənalı nəğmələr yazan peyğəmbər kimi seçməsini gördük. Davud peyğəmbər Məsih haqqında və Adəmin övladlarının Onu necə təqib edəcəkləri, hətta Onun əllərini və ayaqlarını deşəcəkləri haqda çox yazıb. Davud həm də peyğəmbərlik edib ki, Məsih günahı aradan qaldıran qurban kimi Öz qanını tökəndən sonra, O ölülərdən dirilərək ölümə qələbə çalacaqdır!

Müqəddəs Yazılarda səyahətimizdə biz həmçinin aşkarladıq ki, Məsih haqda yalnız Musa və Davud yazmayıb. **Allahın bütün peyğəmbərləri Məsihin gəlişini elan ediblər.** Məsələn: Yeşaya peyğəmbər Məsihin heç kimin heç vaxt dünyaya gəlmədiyi bir yolla doğulacağını elan etmişdir. O demişdir: *"Bakirə qız hamilə olub Oğlan doğacaq, adını İmmanuel qoyacaqlar». «İmmanuel» «Allah bizimlədir» deməkdir."* (Yeşaya 7:14; Matta 1:23) Yeşaya peyğəmbər bunu Məsihin doğulmasından yeddi yüz il əvvəl yazmışdır.

Yeşaya peyğəmbərin dövründə yaşayan digər bir peyğəmbər də var idi. Onun adı **Mikeya** idi. Allah Mikeyaya Məsihin doğulacağı şəhərin adını bildirmişdir. Mikeya peyğəmbərin kitabında beşinci fəsildə yazdığına diqqətlə qulaq as: "*Ey **Bet-Lexem** Efrata, sən Yəhuda nəsillərinin kiçiyi olsan da, Mənim üçün İsrail üzərində Hökmdar səndən çıxacaq. Onun nəsli çox qədimlərə, zamanın başlanğıcına gedir."* (Mikeya 5:2)  Mikeya Məsihin Bet-Lexemdə, Padşah Davudun şəhərində doğulacağını elan etmişdir! Üç dərsdən sonra biz Allahın bu peyğəmbərliyi necə yerinə yetirdiyini görəcəyik. Doğurdan da Məsih Allahın peyğəmbəri Mikeyanın yüz illər öncədən bəyan etdiyi Bet-Lexem şəhərində doğuldu.

Sözsüz, Allah Xilaskarın dünyaya gəlməsini çox ehtiyatla hazırlamışdı! Allahın müqəddəs kitabında **Məsihin gəlməsi haqda peyğəmbərlər tərəfindən sadalanmış yüzlərlə istinadlar var.** Bəlkə sən soruşursan: Nə üçün Allah peyğəmbərlərin zehnlərinə Məsih haqqında O dünyaya gəlməzdən **əvvəl** fikirlər qoyub? Bir mühüm səbəb var. Allah Məsih gəlməzdən əvvəl peyğəmbərləri Onun haqqında yazmağa ilhamlandırmışdır ki, Məsih gələndə və peyğəmbərlərin yazdıqları yerinə yetəndə  biz şübhələnmədən əmin olaq ki, O və yalnız O Allahın göndərdiyi Xilaskardır. Allah istəmir ki, kimsə səni aldatsın! Allah istəyir ki, sən Məsihin, günahkarların Xilaskarının kim olduğunu tanıyasan ki, Ona inana biləsən, Onun ardınca gedəsən və günahlarından xilas ola biləsən. İlk Əhd adlanan gözəl, etibarlı Kitabı Allahın bizə verməyinin səbəblərdən biri də budur ki, biz **səhvlə həqiqəti** ayırd edə bilək.

Əhdi Cədidi bitirərkən, biz sonuncu kitabı Malakidən oxumaq istəyirik. Peyğəmbər Malakinin sözləri bizə çox vacibdir. Çünki o sözlər Məsihin dünyaya gəlməsindən qabaq Allahın Adəmin övladları üçün göndərdiyi son sözlər idi. Qurtarıcının doğulmasına yalnız dörd yüz il qalmışdır.

Əhdi Cədidin sonuncu fəsilində Malaki peyğəmbərin yazdıqlarına qulaq as:

*"Budur, Mən Öz elçimi göndərirəm. O, **önümdə yol hazırlayacaq**. Axtardığınız Xudavənd qəflətən Öz məbədinə gələcək. Görmək arzusunda olduğunuz Əhd Mələyi gələcək» deyir Ordular Rəbbi.... «Mən Rəbbəm və heç vaxt dəyişmirəm.... Ancaq adıma hörmət edən sizlər üçün şüalarında şəfa olan **salehlik günəşi doğacaq!"*** (Malaki 3:1,6; 4:2)

Malaki peyğəmbər Məsihin yolunu hazırlamaq üçün Allahın peyğəmbər göndərəcəyini demişdir. Onun hansı peyğəmbər olduğunu bilirsən? Gələn dərsimizdə biz Məsihin yolunu hazırlayanın **Yəhya** peyğəmbəri olduğunu görəcəyik.

Malaki peyğəmbər yazmışdır: Ordular Rəbbi deyir: ***" Görmək arzusunda olduğunuz Əhd Mələyi gələcək.... Mən Rəbbəm və heç vaxt dəyişmirəm!"*** (Malaki 3:1) Təqribən iki yüz il öncə Yeremya peyğəmbər peyğəmbərlik etmişdir:

*"İsrail xalqı və Yəhuda xalqı ilə **Yeni Əhd** bağlayacağım günlər yaxınlaşır. Bu Əhd atalarını Misir torpağından çıxartmaq üçün əllərindən tutduğum gün onlarla bağladığım əhdə bənzəməyəcək. Onların ağası olduğum halda o əhdimi pozdular» Rəbb belə bəyan edir. O günlərdən sonra İsrail xalqı ilə bağlayacağım Əhd belədir: qanunumu onların daxilinə qoyub ürəklərinə yazacağam. Mən onların Allahı, onlar da Mənim xalqım olacaq» Rəbb belə bəyan edir. «Bundan sonra bir kəs öz qonşusunu yaxud qardaşını "Rəbbi tanıyın" deyib öyrətməyəcək. Ona görə ki böyükdən kiçiyə qədər hamı Məni tanıyacaq. Çünki təqsirlərini bağışlayacağam, günahlarını daha yada salmayacağam» Rəbb belə bəyan edir!"*  (Yeremya 31:31-34)

Bu sözlərlə, Məsihin İlk Əhdin şərtlərini icra edən Yeni Əhd gətirəcəyini Allah elan edir. Yeni Əhd Allahın əhdinə hörmət etməyən insanlardan yox, Allahdan asılı olacaqdır, hansı ki Öz sadiqlik və mərhəmətinə görə, Əhdinin elçisi olan Məsih gödərərcək.

Minlər illərlə Adəmin övladlarının günahlarını bağışlaması üçün Allah heyvan qurbanı tələb edirdi. **Heyvan qurbanı** peyğəmbərlər vasitəsi ilə Allahın bəşəriyyətə verdiyi **İlk Əhdin** çox mühüm bir hissəsi idi. Amma Məsih dünyaya Yeni Əhd gətirəcəkdir. Çünki O bütün qurban rəmzlərini icra edəcəkdir və bununla da İlk Əhdi kənara qoyaraq Yeni Əhdi yaradacaqdır.

Məsih peyğəmbərlərin sözlərini **ləvğ etməyə** yox, amma onları **icra etməyə** gəlmişdir. Buna görə də Malaki peyğəmbər Məsihi ***"Salehlik Günəşi"*** adlandırır. Məsih necə günəş kimi ola bilər? Peyğəmbərlər qaranlıq dünyada kiçik işığı səpələyən ay və ya şam kimi idilər. Amma Məsih isə şəfəq saçan günəş idi. Çünki O bizim günahlarımızın qaranlığını qovmağa və **əbədiyyən salehlik yoluna** yönəltməyə gəlmişdir! Əgər günəş artıq çıxıbsa, ay və ya şam kimə gərəkdir? Məsih **Salehlik Günəşidir!** Gələn dərsimizdə biz Yəhya peyğəmbərin atası Zəkəriyyənin də Məsih haqqında oxşar şeylər danışıdığını eşidəcəyik. O demişdir: *"Onun bu mərhəmətinə görə bizim üçün **Günəş doğacaq ki, zülmətdə və ölüm kölgəsində oturanların üzərinə nur saçsın,** ayaqlarımızı sülh yoluna yönəltsin."* (Luka 1:78,79) Amin!

Beləliklə, dostlar biz İlk Əhd kitabının sonuna gəlib çatdıq. Gələn dəfə Allahın iradəsi ilə biz ondan sonra gələn gözəl hissəyə, Yeni Əhd, yəni İncil kitabına keçəcəyik. İncil kitabında biz Məsihin peyğəmbərlərin sözlərini necə icra etdiyini kəşf edəcəyik. ... Bu xəbərdarlığa diqqət yetirdikcə, Allah sizə xeyir-dua versin:

***"Bizdə daha əmin olan peyğəmbərlik sözləri var. Onlar qaranlıq yerdə işıq saçan bir çırağa bənzəyir. Səhər açılıb dan ulduzu ürəklərinizdə doğana qədər bu sözlərə diqqət verirsinizsə, yaxşı edirsiniz!"*** (2 Peter 1:19)

60-ci Fəsil

# Yəhya Peyğəmbər

**Luka 1**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dəfə biz Tövrat, Zəbur və Peyğəmbərlərin Yazıları olan Müqəddəs Yazıların birinci hissəsindəki səyahətimizi bitirdik. Bu hissə ***İlk Əhd***, həmçinin *Əhdi-Ətiq* də adlanır. Bu gün biz *Əhdi-Cədid* və ya ***Yeni Əhd*** adlanan Allahın Sözünün ikinci hissəsindəki dərslərimizə başlayacağıq.

**Allahın müqəddəs kitabı nə üçün iki hissəyə bölünüb**? İlk Əhd (Əhdi-Ətiq) və Yeni Əhd (Əhdi-Cədid)? Bunun çox səbəbləri var. Başa düşəcəyimiz ilk şey budur ki, **İlk Əhdin** bütün sözləri **Məsih doğulmazdan əvvəl** yazılmışdır. Amma **Yeni Əhd** isə **Məsihin doğuluşundan sonra** yazılmışdır. İlk Əhddəki Allahın peyğəmbərlərinin müjdəsi bu idi: "Allah **Məsihi göndərəcəkdir!"** Amma Yeni Əhdin müjdəsi isə budur: "Allah Öz peyğəmbərləri vasitəsi ilə İlk Əhddə dediyi kimi, **Məsihi göndərib**!"

İlk Əhdlə Yeni Əhdin arasındakı çox mühüm olan fərq aydındır? Bəziləri Müqəddəs Kitaba tənqidi yanaşırlar ki, orda həm "köhnə" əhd, həm də "təzə" əhd var. Onlar düşünürlər ki, *Yeni Əhd* o deməkdir ki, kimsə peyğəmbərlərin orijinal yazılarını ləğv edib, əvəzina başqa kitabı onun yerinə qoymağa çalışıb. Bu belə deyil! Yeni Əhd İlk Əhddəki Peyğəmbərlərin Yazılarını ləğv eləmir, əksinə bu yazıları təsdiqləyir. Yeni Əhd İlk Əhddəki vədləri, peyğəmbərlikləri və rəmzləri Allahın necə icra etməsini göstərir. İlk Əhddə peyğəmbərlər bəyan etdilər ki, "**Məsih gələcək."** Yeni Əhdin xəbəri budur ki, "**Məsih gəlib!"**

Bəli, biz sevinclə Allaha minnətdar olmalıyıq ki, Müqəddəs Yazılar İlk **və** Yeni Əhddən ibarətdir. Çünki o iki hissədə biz Allahın çox illər əvvəl vəd etdiyini icra etdiyini görə bilərik! Allah bizə **Tövratda, Zəburda və peyğəmbərlərin digər kitablarında ulubabalarımıza vəd etdiyi kimi** Xilaskar göndərdi. Palıdın toxumu nəhəng bir palıd ağacına çevrilən kimi, İlk Əhd Yeni Əhddə daha da yetkinləşir.

Bildiyin kimi Müqəddəs Yazıların ikinci hissəsi olan Yeni Əhdin başqa adı var. O İncildir. ***"İncil"*** ərəb sözüdür və ***Xoş Xəbər*** deməkdir. Həqiqətən, İncil kitabının müjdəsi **son dərəcə xoş xəbərdir**. Çünki o Adəmin övladlarına əbədiyyən Allahla sülhdə olmağa qapı açmaq üçün, peyğəmbərlərin elan etdiklərini Məsihin necə icra etdiyini söyləyir!

İncil kitabı haqqında sən bilməlisən ki, onu Məsih yazmayıb. İlk Əhddə Allah necə müxtəlif insanlardan istifadə etdisə, eyni ilə Yeni Əhddə də O çox insanlardan istifadə etdi. Məsihin dünyaya gəlməsi haqda hekayəni yazmaq üçün Allah dörd adamdan istifadə etdi. Onların adı *Matta, Mark, Luka* və *Yəhyadır*. **Məsihin hekayəsini yazmaq üçün Allah nə üçün dörd kişini ilhamlandırdı?** İncil kitabını yazmaq üçün O nəyə görə bir adamdan istifadə etmədi? Allah bizdə şübhə doğurmayan və tam etibara malik olan müjdə ilə ünsiyyət qurmaq istəyirdi. **Öz Sözünü təsdiqləmək üçün** O dörd adamdan istifadə etdi. Necə ki, masa bir ayaqlı olmaqdansa, dörd ayaqlı daha möhkəm dayanar, eyni ilə də bir şahiddənsə dörd şahid daha etibarlıdır. Allah dörd şahiddən istifadə etdi ki, biz İncil kitabında Məsih haqqında

yazılanların tamamilə doğru olduğunu biləkǃ Necə ki, Allah Öz sözünü peyğəbərlərin zehninə qoymuşdur, eləcə də Allah Məsih ilə eyni dövrdə yaşayan dörd kişini istiqamətləndirdi ki, onlar dünyanın Xilaskarı haqqında gördüklərini və eşitdiklərini yazsınlar. Əslində, Məsih haqqında yazmağa Allah səkkiz kişini ruhlandırdı. Paul, Peter, Yaqub və Yəhudanın məktubları da İncilin hissəsidir. Onların bütün yazdıqları tamamilə uzlaşır.

Sən bilirsən Matta, Mark, Luka və Yəhya müqəddəs İncil kitabını hansı dildə yazıblar? Onlar yunan dilində yazıblar. Biz Allaha minnətdarıq ki, İncili Yunan dilindən Azərbaycan dilinə və dünyadakı digər iki min dilədə tərcümə ediblər.

Bəzən biz İncil kitabına qarşı dalaşmağa çalışanlar haqqında eşidirik. Onlar deyirlər, "Heç kim buna etibar edə bilməz. Ona müdaxilə edilib! Onun içində səhvlər və zidd olan şeylər var!" Dostlar, müqəddəs İncil ilə dalaşan, Allahın Özü ilə dalaşır. Müqəddəs Yazılar bizim tam etibarımıza və itaətimizə layiqdir. Allahın Sözü Tövratda və Zəburda kamil olduğu kimi, İncildə də kamildir. Müqəddəs Yazılar pozula bilməz. Allah böyükdür və Öz Əbədi Sözünü qorumağa qadirdir! O Öz Həqiqətini Onu bütün ürəyi ilə axtaranlar üçün saxlayıbdır. Əslində heç kim Allahın canlı və ölməz Sözünü dəyişə bilməz! Rəbb Özü İncildə belə deyərək bəyan edir: ***"Yer və göy keçib gedəcək, amma Mənim sözlərim əsla keçib getməyəcək!"*** **(Matta 24:35)**

Indi isə gəlin İncil kitabını, Yeni Əhdi öyrənməyə başlayaq. Ötən proqramımızda biz Məsihdən dörd yüz il əvvəl yaşamış Malaki peyğəmbər haqda oxuduq. Malaki peyğəmbərdən sonrakı dörd yüz il ərzindı Allah İsraillilərə Öz Sözünü yazmaq üçün heç bir peyğəmbər göndərmədi. Allah nə üçün daha peyğəmbər göndərmədi? Ona görə ki, İlk Əhd kitabı tamamlanmışdır. **Allah peyğəmbərlər vasitəsi ilə demək istədiyi hər şeyi demişdir.** İndi Allah Öz Yeni Əhdini yaratmaq üçün Məsihi dünyaya göndərməyə təyin olunmuş saatı gözləyirdi.

Biz artıq Yeşaya və Malaki peyğəmbərin, Məsihin gəlməsindən qabaq Onun yolunu hazırlamaq haqda Allahın peyğəmbər göndərmək planını öncədən dediklərini oxuduq. Bilirsən o hansı peyğəmbər idi? O Yəhya peyğəmbər idi. Zəkəriyyə Yəhyanın atası idi. Zəkəriyyə Yerusəlimdə məbədin həyətində heyvan qurbanları təqdim edərək Allaha və insanlara xidmət edən kahin idi.

Indi isə gəlin müqəddəs İncili açaq və Lukanın Yəhyanın doğuluşu haqda yazdıqlarını eşidək. Birinci fəsili oxuyuruq, Müqəddəs Yazılar deyir:

(Luka 1:5-25) *Yəhudeya padşahı Hirodun dövründə Aviya bölüyündən olan* ***Zəkəriyyə*** *adlı bir kahin var idi. Arvadı da Harun nəslindən idi, adı* ***Elizavet*** *idi. Onların hər ikisi Allahın gözündə saleh idi və Rəbbin qoyduğu əmr və qaydaların hamısına nöqsansız əməl edirdilər. Amma Elizavet sonsuz olduğuna görə onların övladı yox idi. Hər ikisinin yaşı çox idi. Bir gün Zəkəriyyə öz bölüyünün növbəsində Allahın önündə kahinlik xidmətini icra edirdi...* ***Bu vaxt Rəbbin bir mələyi buxur qurbangahının sağında durub Zəkəriyyəyə göründü.*** *Zəkəriyyə bunu görüb təlaşa düşdü və çox qorxdu. Mələk isə ona dedi: «Qorxma, Zəkəriyyə! Sənin duan eşidildi. Arvadın Elizavet sənə bir oğul doğacaq. Sən də onun adını Yəhya qoy. Sən sevinib şadlanacaqsan. Çox adam onun dünyaya gəlməsinə görə sevinəcək. Çünki o, Rəbbin gözündə böyük olacaq. O, şərab və başqa kefləndirici içki içməyəcək; hələ ana bətnində olarkən Müqəddəs Ruhla dolu olacaq. O, İsrail övladlarının çoxunu Allahı Rəbb tərəfə döndərəcək. Ataların ürəklərini övladlarına, itaətsiz adamları salehlərin düşüncə*

*tərzinə yönəltmək və Rəbbə hazırlanmış xalqı yetişdirmək üçün İlyasın ruhu və qüvvəti ilə Rəbbin önündə gedəcək».*
*Zəkəriyyə mələyə dedi: «Mən bunu necə bilərəm? Axı mən çox yaşlıyam, elə arvadımın da yaşı ötüb».*
*Mələk ona cavab verdi: «Mən Allahın önündə dayanan **Cəbrayılam** və səninlə danışıb bu müjdəni sənə çatdırmaq üçün göndərilmişəm. **Budur, vaxtında həyata keçəcək sözlərimə inanmadığına görə bu yerinə yetən günədək sən lal olub danışa bilməyəcəksən».***

*Bu vaxt camaat Zəkəriyyəni gözləyirdi və onun məbəddə ləngiməsinə heyrət edirdi. O isə məbəddən çıxıb xalqla danışa bilmədi. Onlar da Zəkəriyyənin məbəddə görüntü gördüyünü başa düşdülər. Zəkəriyyə xalqa işarə edirdi və lal olaraq qaldı. Zəkəriyyə xidmət vaxtı qurtaranda evinə qayıtdı. Bu vaxtdan sonra arvadı Elizavet uşağa qaldı..... O deyirdi: «Bunu mənim üçün Rəbb etdi. Bu vaxt O mənə nəzər salıb məni el arasında xəcalətdən qurtardı».*

Biz Allahın Cəbrayıl mələyi Zəkəriyyəyə onun arvadı Elizavetanın necə oğlu olacağını elan etmək üçün göndərdiyini görürük. Bu oğul Məsihin yolunu hazırlamaq üçün gələn böyük peyğəmbər olacaqdır. Beləliklə fəsilin sonunda Müqəddəs Yazılar deyir:

(Luka 1:57-79) *Elizavetin doğmaq vaxtı çatdı. O, bir oğlan doğdu. Onun qohum-qonşuları Rəbbin ona böyük mərhəmət göstərdiyini eşidəndə onunla birgə sevindilər. Səkkizinci gün körpəni sünnət etməyə gəldilər. Ona atası Zəkəriyyənin adını qoymaq istədilər. Körpənin anası isə dedi: «Yox, onun adı **Yəhya** olacaq».*
*Ona dedilər: «Axı qohumların arasında belə adı olan bir kəs yoxdur». Körpənin atasından körpəyə nə ad qoyulmasını işarə ilə soruşdular. O, bir yazı lövhəciyi istəyib yazdı: «Onun adı Yəhyadır». Hamı heyrətə gəldi. Həmin o anda Zəkəriyyənin dili açıldı. O, Allaha alqış etməyə başladı. Qonşuların hamısı qorxuya düşdü. Bütün bu hadisələr haqqında Yəhudeyanın dağlıq bölgəsinin hər yerində danışırdılar.*
*Bu barədə eşidən hər bir kəs fikrə gedib deyərdi: «Bu körpə böyüyüb nə olacaq?» Çünki Rəbbin əli onun üzərində idi.*
*Körpənin atası Zəkəriyyə Müqəddəs Ruhla dolub belə peyğəmbərlik etdi: «Alqış olsun İsrailin Allahı Rəbbə! Çünki **Öz xalqına nəzər salıb onları satın aldı. O, qulu Davudun nəslindən bizə qüdrətli Xilaskar yetirdi**.*
***Qədimdən bəri Öz müqəddəs peyğəmbərlərinin vasitəsilə bildirdiyi kimi***
*Düşmənlərimizdən və bizə nifrət edənlərin əlindən bizi xilas etdi. Beləcə ata-babalarımıza mərhəmət göstərib **Öz müqəddəs Əhdini xatırladı**. **Atamız İbrahimə and içdiyi kimi** Bizə elə güc verdi ki, Düşmənlərimizin əlindən qurtulub həyatımız boyu qorxmadan Rəbbin önündə Müqəddəslik və salehliklə Ona ibadət edək."*
*Zəkəriyyə bunları deyəndən sonra, o körpə Yəhyaya tərəf döndü və dedi, Ey körpə, sən Haqq-Taalanın peyğəmbəri adlanacaqsan, **çünki Rəbbin önündə gedəcəksən, Onun yolunu hazırlayacaqsan**. Onun xalqına günahlarının bağışlanması ilə xilas olunmaları barədə bildirəcəksən. Axı Allahımızın ürəyi mərhəmətlidir, Onun bu mərhəmətinə görə **ucalarda bizim üçün Günəş doğacaq** ki, Zülmətdə və ölüm kölgəsində oturanların üzərinə nur saçsın, ayaqlarımızı sülh yoluna yönəltsin».*

Beləcə Zəkəriyyə Yəhyanın doğuluşuna görə Allaha həmd etdi. Çünki o bilirdi ki, **Məsihin doğulmasının vaxtı gəlib çatmışdır!** Zəkəriyyənin oğlu Yəhya Məsih deyildir, amma o **Məsihin gəlişini elan edən** və Onun üçün yol hazırlayan, Məsihdən qabaq gələn idi.

Dinlədiyiniz üçün çox sağ olun. Gələn dəfə biz Allahın Məryəmə çox mühüm bir xəbəri çatdırmaq üçün Öz mələyi Cəbrayılı göndərdiyi haqda hekayəni oxuyacağıq. Gələn dərsimiz dəyərli həqiqətlərlə boldur. Onu qaçırma!....

Zəkəriyyənin bu sözləri haqda düşündükcə Allah sənə xeyir-dua versin:

***"Alqış olsun Rəbbə....! O, qulu Davudun nəslindən bizə qüdrətli Xilaskar yetirdi. Qədimdən bəri Öz müqəddəs peyğəmbərlərinin vasitəsilə bildirdiyi kimi!"*** (Luka 1:68-70)

61-ci Fəsil

# Elan

**Luka 1; Matta 1**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Altmış dərs ərzində biz Müqəddəs Yazıların İlk Əhdi olan, Musanın Tövratını, Davudun Zəburunu və peyğəmbərlərin Yazılarından oxuyurduq. Ötən dərsdə biz Müqəddəs Yazıların Yeni Əhdi olan "*İncili"* öyrənməyə başladıq. ***İncil*** ərəb sözü olub, ***Xoş Xəbər*** deməkdir. Həqiqətən, İncilin müjdəsi ona inanan hər bir kəs üçün çox yaxşı xəbərdir. Çünki o bizə **Allahın uzun illər əvvəl Öz peyğəmbərləri vasitəsi ilə vəd etdiyi qüdrətli Xilaskarı yer üzünə göndərməsi haqda danışır**.

Incildəki dərsimizə başlamazdan əvvəl, **nə üçün Adəmin nəsli üçün Allahın Xilaskar göndərəcəyini** xatırlamaq yaxşı olardı. Adəm və Həvva Allaha itaətsizlik edəndən sonra nə baş verdiyini xatırlayırsan? Tövratda biz Adəmin itaətsizlik etdiyindən bütün bəşəriyyətin Allahın padşahlğından şeytanın padşahığına keçdiyini gördük. Hər birimizin günahda doğulmasına səbəb Adəmin günahıdır. "Ot öz kökü üstə bitər." Eyni yolla Adəm və onu nəsli yalnız günah edən övladlar dünyaya gətirə bilər! Günahkarlardan günahkar törəyər. Günah bizi mühakimə edir və beləliklə bizi mühakimə edən qarşısında özümüzü doğru çıxartmağa heç bir yolumuz yoxdur!

Buna baxmayaraq biz Allaha şükür edirik ki, Peyğəmbərlərin Yazıları Adəmin itaətsizlik hekayəsi ilə bitmir! Artıq gördüyümüz kimi, Adəm və Həvvanın günah işlətdikləri gün Allah, Adəmin nəslini Şeytanın və günahın hakimiyyətindən X**ilas etmək üçün dünyaya Qurtarıcı göndərmək haqda gözəl planını** bildirməyə başladı. Günahın dünyaya daxil olduğu həmin o qaranlıq gündə, Allah müqəddəs Qurtarıcının qadından doğulacağını elan etmişdir. (Yaradılış 3:15; Qalatiyalılara 4:4) Günahkarlar üçün Kamil Qurban kimi Öz qanını tökəcək olan Məsih, günahla korlanmış cismani atanın nəslindən gələ bilməzdi. Allahın kamil və müqəddəs olduğu kimi, O da kamil və müqəddəs olmalı idi. Buna görə də Məsihin dünyaya gəlməsindən 700 il əvvəl yaşamış Yeşaya peyğəmbər yazmışdır: *"**Bakirə qız hamilə olub Oğlan doğacaq**, adını İmmanuel qoyacaqlar». «İmmanuel» «Allah bizimlədir» deməkdir!"* (Yeşaya 7:14; Matta 1:23)

Indi isə gəlin İncil kitabına qayıdaq və bakirə qızdan doğulacaq olan Allahın kamil və müqəddəs Qurtarıcı haqqında vədini icra etdiyini görək. Ötən dərsimizdə biz Allahın mələyi Cəbrayılın Yəhudi olan Zəkəriyyə adlı bir kişiyə göründüyünü gördük. Cəbrayıl Zəkəriyyəyə dedi ki, o və onun arvadının Qurtarıcı üçün yol hazırlayan Yəhya adında oğlu olacaqdır.

Indi isə gəlin Lukanın İncili, birinci fəsli oxuyaq və Allahın Məryəm adlı bakirə bir qıza necə Öz mələyini göndərdiyinə baxaq. Müqəddəs Yazılar deyir:

(Luka 1) *Mələk onun yanına gəlib dedi: «Salam, ey lütfə nail olmuş qız! Rəbb səninlədir». Məryəm bu sözlərdən tam lərzəyə gəldi və ürəyində bu salamın nə demək olduğu barədə düşünməyə başladı.*

*Mələk ona dedi: «Qorxma, Məryəm, çünki sən Allahın lütfünə nail oldun. Sən hamilə olub bir Oğul doğacaqsan. Onun adını İsa qoy. O, böyük olacaq və Haqq-Taalanın Oğlu adlanacaq. Rəbb Allah Ona atası Davudun taxtını verəcək. O, Yaqub nəslinin üzərində əbədi olaraq Padşah olacaq və Onun Padşahlığının sonu olmayacaq». Məryəm mələyə dedi: «Bu necə olacaq? Mən heç kişi üzü görməmişəm».*
*Mələk cavabında ona dedi: «Müqəddəs Ruh sənin üzərinə enəcək, Haqq-Taalanın qüdrəti üstünə kölgə salacaq. Buna görə də doğulacaq müqəddəs Övlad Allahın Oğlu adlanacaq. Bax qohumun Elizavetin də yaşlı vaxtında bətninə oğlan uşağı düşüb. Onu sonsuz adlandırırdılar, amma o artıq altı aydır ki, hamilədir.*
*Çünki Allah üçün mümkün olmayan şey yoxdur». Onda Məryəm dedi: «Mən Rəbbin quluyam, qoy mənə sənin dediyin kimi olsun». Mələk onu tərk edib getdi.*

Gəlin burada dayanaq və Allahın mələyi Cəbrayıl Məryəmə görünərkən nə baş verdiyi haqda bir az danışaq. Məryəm, Allahın Sözünə hörmət edən gənc bir qız idi. O *Yusif* adlı bir adam ilə nişanlı idi. Onlar hələ bir yerdə qalmırdılar. Yusif və Məryəm Davud Padşahın nəslindən idilər. Sən xatırlayacaqsan ki, Allahın peyğəmbərləri nəyin ki, Məsihin **bakirə qızdan doğulacağını**, lakin həm də **Onun Padşah Davudun nəslinə aid olduğuna** da peyğəmbərlik etmişdilər.

Heç kimin səhv başa düşməməsi üçün Məryəm haqda bilməli olduğunuz bir şey var. Məryəm Adəmin nəslindən idi. Hamımız kimi o da günahlı təbiət ilə doğulmuşdur. Bunu deməyimiz çox vacibdir. Çünki çoxları Məryəmi Allahın yerinə qoyur və ona səcdə qılırlar, ona dua edirlər. Belə etmək **bütpərəstlikdir!** Doğurdan, Məryəm Allahın Məsihi dünyaya gətirmək üçün seçdiyi qadın olduğuna görə **hörmətə layiqdir**. Allahın ona göstərdiyi bu lütf, **onu səcdə qılınmağa layiq etmir**. Çünki Müqəddəs Yazılar deyir:*"Allahın Rəbbə səcdə et və **yalnız Ona** ibadət et"* (Matta 4:10)

Bu ayələrdə Cəbrayıl mələyin, Məryəmə göründüyünü və Allahın nəzərdə tutduğu dünyaya gələcək günahkarların Xilaskarının onun vasitəsi ilə doğulacağı bakirə qızın o olduğunu xəbərdarlıq etmək üçün gəldiyini oxuyuruq. Mələk ona dedi, *"Onun adını **İsa** qoycaqsan." Isa, **xilas edən Rəbb*** deməkdir. Amma Cəbrayıl Məsihə həmçinin başqa bir adla da müraciət etdi. Eşitdin o adı? Onu ***"Haqq-Taalanın Oğlu."*** adlandırdı. Xoşladın ya xoşlamadın, bu Cəbrayılın dediyi sözlərdir. Biz artıq Davudun Zəburunda Allahın Məsihi *Oğlum* adlandırdığını oxumuşuq. İndi isə Allahın mələyi Cəbrayılın da Məsihi *"Allahın Oğlu"* adlandırdığını eşidirik.

Dostlar, biz bilirik ki, "**Allahın Oğlu"** adını eşidənlərin çoxu belə cavab verir, "Bu qeyri-mümkündür! *Əstafurullah!"* Necə ki, atalar sözü deyir, "Çayı hoppammamış hop demə." Bunun kimi, sən də "Allahın Oğlu" adına xor baxmazdan əvvəl *Allahın Oğlu* ifadəsinin mənasını axtarmağa səy göstərməlisən! Müqəddəs Yazılarda 120 dəfədən çox Məsih ***Allahın Oğlu*** adlandırılıb. Beləliklə Peyğəmbərlərin Yazılarına inanan bizlər Allahın Məsihi **Öz Oğlu** adlandırdığını inkar edə bilmərik. Bilmək istədiyimiz isə **nə üçün** Allahın İsanı **Oğlum** adlandırmasıdır.

Birinci, biz Allahın Oğlu adının nə demək **olmadığını** başa düşməliyik. **Bu o demək deyil ki, Allah arvad aldı və oğlu oldu!** Belə fikirləşən hər bir kəs Allaha küfr edir! Allah Yüksəklərdə Olandır və insanın övlad gətirdiyi kimi övlad gətirmir. Heç vaxt! Bu bizim üçün tam aydın olmalıdır. Bu gün bizim vaxtımız yoxdur ki, Allahın Oğlu adının nə demək olduğunun bütün mənalarını başa salaq, amma sən başa düşməlisən ki, bu ad o demək deyil ki, Allah kimisə arvad götürdü və ondan oğlu oldu! Bunu başa düşmək çətin olmamalıdır. Biz

də bunu istifadə edirik.  Vətən oğlu. Bu o demək deyil ki, Vətən bir qadın alıb, oğul törəyib. Yox, vətən sadəcə olaraq sənin mənbəyindir. Ya da *"Azərbaycan oğlu"* mahnısını oxuyanda, demir ki, Azərbaycan kiminsə atasıdır. Amma kimsə Azərbaycanın yaxşı xüsüsiyyətlərini, əməllərini əks elətdirir ona deyirlər.

Isa Məsih ilə də belədir. Allah Onu **Öz tərəfindən gəldiyinə görə** Oğlu adlandırır. Məsih göylərdən gəlmişdir. Doğulmazdan əvvəl O Allah ilə bir idi; O Allahda idi. O ***"Allahın Ruhudur".*** Məsih həmçinin "***Kəlam***" deməkdir. Başlanğıcdan Allahla olan *Kəlam.* Belə deyərək Müqəddəs Yazılar bəyan edir:

*"Başlanğıcda* ***Kəlam*** *var idi.* ***Kəlam Allahla birlikdə idi***. ***Kəlam Allah idi***. *O, başlanğıcda Allahla birlikdə idi. Hər şey Onun vasitəsilə yarandı və yaranan şeylərdən heç biri Onsuz yaranmadı.* ***Kəlam bəşər olub, lütf və həqiqətlə dolu olaraq aramızda məskən saldı."***
(Yəhya 1:1-3,14)

Bəli, Məsih göylərdən gəlmiş **Allahın Kəlamıdır** və insan kimi doğulmuşdur. Biz hamımız bilirik ki, Məsihin cismanı atası yox idi. Əgər Onun cismani atası yox idisə, bəs onda O haradan gəldi? O kimin Oğludur? Cəbrayılın Məryəmə dediklərinə yenidən qulaq as. O Məryəmə dedi, ***"Müqəddəs Ruh sənin üzərinə enəcək, Haqq-Taalanın qüdrəti üstünə kölgə salacaq. Buna görə də doğulacaq müqəddəs Övlad Allahın Oğlu adlanacaq."*** (Luka 1:35)

Bəlkə sən kiminsə belə dediyini eşitmisən, "Biz bilirik ki, İsanın cismani atası olmayıb, amma İsanın bakirə qızdan doğulması elə də vacib deyil. Allah sadəcə Öz qüdrətini göstərmək istəyirdi. Allah Adəmi atasız və anasız yaratmışdır. Sonra, O Həvvanı təkcə ata ilə yaratdı. Yəni ki, O Adəmin qabırğasından götürərək Həvvanı yaratdı. Sonra Öz qüdrətini daha çox göstərmək üçün Allah qadından istifadə edərək kişini yaratdı. İsanın cismanı atasız doğulmasının yeganə səbəbi budur. "

Əziz dostlar, Allahın Külli-ixtiyar olması düzdür və heç bir şey Onun üçün qeyri-mümkün deyil! Amma İsanın bakirə qızdan doğulması haqda isə sən bilməlisən ki, bunu etməyə səbəb Allahın qüdrətini sadəcə göstərməkdən daha vacib idi! Qoyma kimsə səni aldatsın! Allahın Adəm və Həvvanı yaratmasından min illər sonra Isanın bakirə qızdan doğulması üçün çox, çox vavib bir səbəb var idi! Səbəbi bilirsən? Müqəddəs Yazılar bizə səbəbi deyir: *" Məsih İsa* ***günahkarları xilas etmək üçün*** *dünyaya gəldi."* (1 Timoteyə 1:15) **İsa Adəmin yolunu azmış, günahkar, korlanmış nəslini qurtarmaq üçün dünyaya gəlmişdir – buna görə də O günah ilə ləkələnmiş adamdan törəyə bilməzdir!** Artıq gördüyümüz kimi, Allahın planına əsasən Məsih günahı ödəmək üçün qurban kimi Öz qanını tökməli idi. Kamil Qurban olaraq, Qurtarıcı günahsız, nöqsansız, Qurban Bayramında hər il kəsilən quzu kimi sağlam və pak olmalı idi.

Düşün bu haqda! Böyük borcu olan adam, digərlərinin borcunu ödəyə bilər? Xeyr! Yalnız digərlərinin borcunu ödəməyə layiq görülən bunu edə bilər. Beləcə, Məsih də günah borcu olmayan adam olmalı idi ki, Adəmin övladlarının günah borcunu ödəyə bilsin. Allah istəyir ki, biz Məsih ilə Adəmin övladlarının fərqli olduqlarını bilək. Biz **Adəmin** övladlarıyıq. İsa isə **Allahın** Oğludur!  Adəmin övladları kimi **biz** günaha görə **çirklənmiş yer kimiyik**. İsa isə **göylərdən gələn yağış kimidir**. O Allah kimi pak və müqəddəsdir. Buna görə də Allah Onu ***Öz Oğlu*** adlandırmaqdan utanmır! Beləliklə dostlar, ümid edirik ki, bu gün bu dərsə qulaq asıb qurtarandan sonra, siz İsa Məsihin bakirə qızdan doğulmasının və **"Allahın Oğlu" adının mənasını və nə məna verməməsini** daha yaxşı başa düşəcəksiniz.

Bu dərsi Mattanın İncilindən İsanın doğuluşu barədə oxumaq ilə bitiririk. Məryəm Allahın Ruhunun qüdrətindən hamilə olandan sonra, Allah Öz mələyini Məryəmin əri olmaq istəyən Yusifə göndərdi. Müqəddəs Yazılar deyir:

(Matta 1) *Onun nişanlısı Yusif saleh bir adam idi və Məryəmi camaat arasında rüsvay etmək istəməyərək gizlicə boşamaq niyyətinə düşdü. Amma belə düşündüyü halda Rəbbin bir mələyi röyada ona görünüb dedi: «Davud oğlu Yusif! Məryəmi özünə arvad etməkdən qorxma, çünki onun bətnindəki körpə* ***Müqəddəs Ruhdandır****. Məryəm bir Oğul doğacaq və Onun adını* ***İsa*** *qoy, çünki* ***O Öz xalqını günahlarından xilas edəcək****».* ***Bütün bunlar Rəbbin peyğəmbər vasitəsilə söylədiyi bu söz yerinə yetsin deyə baş verdi:***
*«Budur, bakirə qız hamilə olub Oğlan doğacaq, adını İmmanuel qoyacaqlar». «İmmanuel»* ***«Allah bizimlədir»*** *deməkdir. Yusif yuxudan oyananda Rəbbin mələyinin buyurduğu kimi etdi və arvadını qəbul etdi. Amma Məryəm bir Oğul doğana qədər Yusif onunla yaxınlıq etmədi. Doğulan Körpənin adını* ***İsa*** *qoydu.*

Bu gün biz burada dayanacağıq. Allahın iradəsi ilə gələn dəfə biz İsa Məsihin doğuluşu haqda İncildə möcüzəli hekayəni oxumağa davam etdirəcəyik....

Mələyin Məsih haqda Yusifə dediklərini xatırladıqca, Allah sənə xeyir-dua versin:

"***Bir Oğul doğacaq və Onun adını İsa qoy, çünki O Öz xalqını günahlarından xilas edəcək!"*** (Matta 1:21)

62-ci Dərs

# Məsih Doğulub

**Luka 2; Matta 2**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsdə Müqəddəs İncili oxuyarkən biz Allahın mələyi Cəbrayılı Nazaret şəhərinə Məryəm adlı bakirə qızın yanına göndərdiyini gördük. Mələk o bakirə qıza Allahın Ruhunun qüdrəti vasitəsi ilə hamilə qalıb, oğul doğacağını və adını ***İsa*** qoyacağını demək üçün göründü. İsa- ***Xilas edən Rəbb*** deməkdir. Beləliklə, biz Allahın xalqının uzun illər gözlədiyi vaxtın gəlin çıxdığını gördük! Adəm və Həvvanın günah işlətdikləri gün Allahın vəd etdiyi **Qurtarıcı bakirə qızın bətnində idi** və artıq dünyaya gəlmək üzrə idi!

Bizim bu günkü dərsimiz "Məsih Doğulub!" adlanır. Isa Məsihin necə dünyaya gəldiyini İncildə oxumazdan əvvəl, gəlin Onun doğulduğu zəmanəni təsvir edək. Roma İmperatoru, Qeysər Avqust Yəhudilər də daxil olmaqla bir çox ölkələr üzərində hökranlıq edirdi. Amma Roma İmperiyası Allahın dünyaya Qurtarıcı göndərmək planını dayandıra bilmədi. Əslində, Allah peyğəmbərlərin sözlərini icra etmək üçün Romalılardan istifadə etməyi nəzərdə tutmuşdur.

Sən Məsihdən yeddi yüz il əvvəl yaşamış Mikeya peyğəmbərin sözlərini xatırlayırsan? Mikeya Məsihin Padşah Davudun şəhəri, **Bet-Lexemdə** doğulacağını elan etmişdir. Amma İsanı dünyaya gətirəcək olan Məryəm Bet-Lexemdə yaşamırdı. O Bet-Lexemdən təqribən 150 kilometr şimalda yerləşən Nazaret şəhərində yaşayırdı. Bəs onda Məsih necə Bet-Lexemdə doğulacaqdır?

Ay dostlar, bildiyiniz kimi heç bir şey Rəbb Allah üçün çətin deyil! O Allahdır və baş verəcək hər bir şey haqda son söz Onundur. O baş verəcək şeylər haqda hər şeyi bilir. Bu gün biz Məryəmin doğuş vaxtının yaxınlaşdığı vaxtda Roma imperatoru belə bir qərar çıxardır: "Qoy hər bir kişi və qadın qeyd olunmaq üçün öz nəslinin haradan olduğu şəhərə getsin və vergi ödəsin!" Bu o demək idi ki, Məryəm və Yusif Padşah Davudun şəhəri Bet-Lexemə getməli idilər. Çünki onlar Davudun nəslindən idilər. Indi isə gəlin Lukanın İncili, ikinci fəslə qayıdaq və uzun illər əvvəl Allahın vəd etdiyi kimi Məsihin **Bet-Lexemdə** doğulmasını dinləyək.

Müqəddəs Yazılar deyir:

(Luka 2) *O günlərdə* ***qeysər Avqust*** *bütün Roma ölkəsi üçün siyahıyaalma keçirmək barəsində* ***fərman verdi****.... Hamı siyahıya alınmaq üçün öz şəhərinə yollandı. Yusif də Davudun əsil-nəslindən olduğuna görə Qalileyanın* ***Nazaret*** *şəhərindən çıxıb Yəhudeyaya, Davudun şəhəri olan* ***Bet-Lexemə*** *yollandı.*
*O oraya hamilə olan nişanlısı Məryəmlə birlikdə siyahıya alınmaq üçün getdi. Onlar orada olarkən Məryəmin doğuş vaxtı çatdı.* ***O, ilk Oğlunu doğdu****. Körpəni bələyib axura qoydu, çünki qonaq evində onlara yer tapılmadı.*

Biz burada dayanacağıq. Siz Məsihin hansı vəziyyətlərdə doğulduğuna fikir verdiniz? Məsih, yoxsul bir adam kimi çox sadə bir şəraitdə doğuldu. O heyvan tövləsində doğuldu. Çünki Bet-Lexemdəki mehmanxanalar dolu idi. Kim ki dünyanın Xilaskarı və Hakimi olacaq, iylənən bir axurda doğuldu! Bəlkə kimlərsə fikirləşirlər: "Bu ağlasığmazdır! Əgər İsa dünyanın Xilaskarıdırsa və Adəmin bütün övladlarını mühakimə edəcək izzət Rəbbidirsə, nə üçün O şərəfli yerdə doğulmadı ki, hamı Onun padşahların Padşahı və rəbblərin Rəbbi olduğunu bilsin?"

Dostlar, biz yadda saxlamalıyıq: "**Allahın fikirləri insanın fikirlərindən** fərqlidir və Allahın izzəti dünyanın izzətindən fərqlidir. Şübhəsiz ki, İsanın doğuluşu böyük izzət ilə müşayət olundu, amma Adəmin övladlarının əksəriyyəti bunu dərk etmədi. Çünki **Allahın izzəti** və **dünyanın izzəti** çox fərqlidir.

Ola bilsin sən cah-cəlallı həyat yaşayan zəngin adamları görmüsən. O bu dünyanın izzətidir. Amma **Allahın izzəti dünyanın izzətindən** fərqlidir. Buna görə də Allahın hüzurundan gəlmiş Məsih rahat və cah-cəlallı yerdə doğulmadı. O kasıbların əziyyətlərini və ehtiyaclarını başa düşməyən bir çox zəngin adamlar kimi deyildir. Xeyr. Adəmin övladlarını Şeytanın və günahın hakimiyyətindən xilas etmək üçün Allahın Göndərdiyi təvazökar bir şəraitdə, hətta tövlədə doğuldu! Beləliklə heç kim deyə bilməz ki, Məsih yalnız zənginləri xilas etmək üçün gəlib, və ya O kasıbların hisslərini başa düşmür. Allah istəyir ki, hamı bilsin ki, dünyaya göndərdiyi Qurtarıcı Ona inanan hər bir kəsi – yaşlı və gənci, kişi və qadını, zəngin və fəqiri, azad və qulu xilas etmək üçün gəlmişdir. Beləliklə Müqəddəs Yazılar deyir: *" Rəbbimiz İsa Məsihin lütfündən xəbərdarsınız: siz **Onun yoxsulluğu** vasitəsilə **varlı** olasınız deyə Özü varlı olduğu halda sizin uğrunuzda yoxsullaşdı!"* (2 Korinflilərə 8:9) Doğulmağı **seçən** yeganə biri Məsihdir. Və O yoxsul doğulmağı seçdi!

Indi isə gəlin Məsihin doğulması hekayəsini davam etdirək və ən gözəl hissəni oxuyaq. İsanın tövlədə doğulduğu gecə, Allah Öz mələklərini Bet-Lexemə yaxın bir yerdə qoyunlarını otaran bir neçə çobanın yanına göndərdi. Məsihin doğuluşu haqda Allahın onlara xoş xəbəri necə bildirməsinə qulaq as.

Müqəddəs Yazılar deyir:
(Luka 2) *O ərazidə sürülərinin yanında gecə növbəsini çəkən çobanlar var idi. Onlar çöldə gecələyirdi. Birdən **Rəbbin bir mələyi** onların qarşısında zühur etdi və Rəbbin ehtişamı onların üzərinə nur saçdı. Çobanları böyük qorxu bürüdü. Mələk onlara dedi: «Qorxmayın! Mən sizə bütün xalqı çox sevindirəcək bir Müjdə gətirmişəm. **Bu gün Davudun şəhərində sizin üçün Xilaskar doğuldu. Bu, Rəbb Məsihdir.** Sizə əlamət bu olacaq: axurda yatan bələnmiş Körpə tapacaqsınız». Qəflətən mələyin yanında Allaha həmd edən **çoxsaylı səmavi ordu göründü**. Onlar belə deyirdi: «Ən ucalarda Allaha izzət, Yer üzündə Onun razı olduğu insanlara sülh olsun!»*

*Mələklər çobanları tərk edib göyə qalxandan sonra onlar bir-birinə dedi: «Gəlin Bet-Lexemə gedək və Rəbbin bizə bildirdiyi bu baş vermiş hadisəni görək». Onlar tələsik getdi. Məryəmi, Yusifi və axurda yatan Körpəni tapdılar. Çobanlar Körpəni görəndə Onun haqqında onlara nəql edilənləri bildirdilər. Bunu eşidənlərin hamısı çobanların sözlərindən heyrətə gəldi....**Çobanlar bütün gördükləri və eşitdiklərinə görə Allahı izzətləndirib həmd edərək geri qayıtdılar.*** Amin.

Allah Məsihin doğuluşu haqda xoş xəbəri birinci kimə bildirdi? O xoş xəbəri Roma imperatoruna, yaxud dini rəhbərlərə dedi? Xeyir. Allah Məsihin doğuluşunu ilk olaraq

kəndlilərə; Onun gəlişini gözləyən yoxsul çobanlara bildirdi! Çobanlar körpə İsanı görməyə necə də həyəcanlanmışdılar! Necə də gözəl şərəf! **Onlar bütün peyğəmbərlərin haqqında yazdıqları Birini gördülər: Məsih, dünyanın Xilaskarı, balaca körpənin bədəninə bükülmüş Allahın əbədi Sözü!**

Incildə davam edərkən, gəlin İsanın doğuluşundan bir il sonra nə baş verdiyinə baxaq. Biz indicə Allahın İsanın doğuluşunu səmada peyda olan mələkləri vasitəsi ilə bir neçə kasıb adama elan etdiyini eşitdik. Indi isə biz Allahın Məsihin doğuluşunu səmada peyda olan böyük və gözəl ulduz vasitəsi ilə bir neçə müdrik adama elan etdiyini eşidəcəyik. Mattanın İncili, ikinci fəsildə yazılanlara qulaq as.

Müqəddəs Yazılar deyir:

(Matta 2) *İsa padşah Hirodun dövründə Yəhudeyanın Bet-Lexem şəhərində anadan olduqda müdrik adamlar şərqdən Yerusəlimə gəlib dedilər: «Yəhudilərin anadan olmuş Padşahı haradadır?* ***Şərqdə Onun ulduzunu gördük və Ona səcdə qılmağa gəldik»****. Padşah Hirod bunu eşitdikdə özü və bütün Yerusəlim xalqı təlaşa düşdü. Hirod xalqın bütün başçı kahinlərini və ilahiyyatçılarını toplayaraq onlardan Məsihin harada doğulduğunu soruşdu. «Yəhudeyanın Bet-Lexem şəhərində» dedilər. «****Çünki peyğəmbər vasitəsilə belə yazılıb:*** *"Ey Yəhuda torpağındakı Bet-Lexem, sən Yəhuda hökmdarları arasında ən kiçik deyilsən, Çünki xalqım İsrailə çoban olan Hökmdar səndən çıxacaq"». Onda Hirod müdrik adamları gizlicə çağırıb onlardan ulduzun göründüyü dəqiq vaxtı öyrəndi. «Gedin, Körpəni diqqətlə axtarın, tapan kimi mənə xəbər verin ki, mən də gedib Ona səcdə qılım» deyərək onları Bet-Lexemə göndərdi.*
(Amma padşah Hirod öz ürəyində körpəni öldürməyi nəzərdə tutmuşdur. Çünki o istəmirdi ki, kimsə ondan başqa padşah olsun!)

*Onlar padşahı dinlədikdən sonra yola düşdülər. O vaxt şərqdə gördükləri ulduz onlara yol göstərirdi. O, Körpənin olduğu yerin üzərinə çatdıqda dayandı. Onlar ulduzu gördükləri vaxt lap çox sevindilər.*
*Evə girib Körpəni anası Məryəmlə birlikdə gördülər və yerə qapanaraq Ona səcdə qıldılar. Xəzinələrini açıb Ona hədiyyələri – qızıl, kündür və mirranı təqdim etdilər. Sonra röyada Hirodun yanına qayıtmamaq üçün xəbərdarlıq aldıqlarına görə başqa yolla öz ölkələrinə getdilər.*

Bu Məsihin doğuluşunun qısaca hekayəsidir. Bu gün eşitdiklərimiz haqda nə deyə bilərik? Bir şeyi əminliklə deyə bilərik ki, İsa Məsihin doğuluşu dünya tarixində **bərabəri olmayandır**! Bütün dünyadakı peyğəmbərlər, padşahlar və insanlar arasında heç kim İsa kimi doğulmamışdır!

Bu gün biz Allaın peyğəmbərlərinin peyğəmbərlik etdikləri kimi, Məsihin Allahın qüdrətinin vasitəsi ilə bakirə qızdan doğuldunu gördük. Biz 700 il əvvəl Mikeya peyğəmbərin elan etdiyi kimi İsanın Bet-Lexem şəhərində anadan olduğunu eşitdik. Allahın göylərdən Öz mələyini və izzətli nurunu bir neçə çobana belə deyərək xoş xəbəri elan etdiyini gördük: *"Mən sizə bütün xalqı çox sevindirəcək bir Müjdə gətirmişəm. Bu gün Davudun şəhərində sizin üçün Xilaskar doğuldu. Bu, Rəbb Məsihdir!"* Sonra biz çoxsaylı ordunun birinci mələk ilə necə peyda olduğunu və belə deyərək Allahı izzətləndirdiklərini gördük, *"Ən ucalarda Allaha izzət, Yer üzündə Onun razı olduğu insanlara sülh olsun!"* Biz həmçinin uzaq ölkədə yaşayan bir neçə müdrik adama Məsihin, padşahların Padşahının, rəbblərin Rəbbinin,

günahkarların Xilaskarının doğuluşunu elan etmək üçün Allahın səmada böyük bir ulduz qoyduğunu gördük!

Dostlar, bütün bu şeylər haqda biz nə deyə bilərik? Bunu deyə bilərik: heç bir insan İsa kimi doğulmayıbdır. İsanın doğuluşu nadirdir. **İsa müqayisə edilməzdir!** Biz onu digərləri ilə müqayisə edə bilmərik. Isa peyğəmbərdən də üstündür. B**ütün peyğəmbərlərin haqqında danışdığı şəxs Odur. O səmalardan gələn Məsihdir!**

Dostlar, əgər İsa çoxlu peyğəmbərlər arasında sadəcə peyğəmbər olsaydı, onda **nə üçün** Allahın peyğəmbərləri Onun gəlişini doğulmasından əvvəl elan edirdilər? **Nə üçün** göydən mələklər Onun doğuluşunu qeyd etmək üçün gəldilər? Əgər İsa peyğəmbərlər arasında adi bir peyğəmbər olsaydı, onda nə üçün Allah Onun doğuluşunu elan etmək üçün göydə böyük bir ulduz qoydu? Və nə səbəbə görə O bakirə qızdan doğuldu? **Bu sualları diqqətlə nəzərdən keçir.**

Dinlədiyiniz üçün çox sağ olun. Gələn dərsdə Allahın iradəsi ilə biz İsa Məsihin yer üzündə Öz xidmətinə necə başlamasını eşidəcəyik....

Mələklərin çobanlara dedikləri üzərində düşündükcə Allah sənə xeyir-dua versin:

***"Qorxmayın! Mən sizə bütün xalqı çox sevindirəcək bir Müjdə gətirmişəm. Bu gün Davudun şəhərində sizin üçün Xilaskar doğuldu. Bu, Rəbb Məsihdir!"*** (Luka 2:10,11)

63-cü Dərs

# Müqəddəs Oğul

**Luka 2; Matta 3,4**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə Müqəddəs İncildən Məsihin doğuluşu haqda çox maraqlı bir hekayə eşitdik. **Heç kim İsanın doğulduğu kimi doğulmayıbdır.** O peyğəmbərliklər edildiyi kimi, Bet- Lexem şəhərində, Allahın qüdrəti ilə bakirə qızdan doğulub. Isanın doğulduğu gecə, Allah nur saçan çoxlu mələkərini Bet-Lexemin ətrafındakı tarlada gecələyən çobanlara göndərdi. Mələklərdən biri çobanlara dedi, *"Mən sizə bütün xalqı çox sevindirəcək bir Müjdə gətirmişəm. Bu gün Davudun şəhərində sizin üçün **Xilaskar** doğuldu. Bu, Rəbb Məsihdir!"* (Luka 2:10,11)

**Bu gün biz İsanın uşaq ikən və yetkinləşən zaman necə olduğu haqda öyrənmək istəyirik.** Incil kitabı bizə İsanın doğuluşundan sonra, Yusif və Məryəmin başqa oğul və qızlarının olduğunu deyir. Körpə İsa cənubi İsraildə, Nazaret şəhərində, böyük bir ailədə Öz balaca bacı-qardaşları ilə böyümüşdür. Bildiyin kimi, İsa Yusifin oğlu deyildir, amma insanların gözlərində, İsa Yusifin oğlu idi. Yusif dülgər olduğuna görə, İsa da evdə yaşadığı müddətdə dülgər kimi işləyirdi. Nəticə etibarı ilə İsa ağır işə alışmışdır. Beləliklə Müqəddəs Yazılar deyir: *"İsa böyüyürdü və hikmətdə artırdı. O, Allahın və insanların qarşısında lütf qazanırdı."* (Luka 2:52)

Bütün uşaqlar kimi İsa da yeyirdi və yatırdı, oynayırdı və oxuyurdu. Buna baxmayaraq Onu digər uşaqlardan fərqləndirən bir şey var idi. Bilirsən bu nə idi? O budur: **İsa heç vaxt günah işlətməmişdir!** Onun ağzından heç vaxt hiylə söz çıxmamışdır. (1 Peter 2:22) O heç vaxt heç kimə deməyib ki, "Məni bağışla". Çünki O heç vaxt heç kimə qarşı günah etməyib. O günah işlədə bilməzdir, çünki Onda günahın **heç bir kökü yox idi!** Onun müqəddəs təbiəti var idi. Pislik Onun bir hissəsi deyildir. O yalnız Allahı razı salan şeyləri edirdi. **Onun bizim kimi fiziki bədəni var idi, amma Onda bizim kimi şər təbiət yox idi!** Müqəddəs Yazılar belə deyərkən bunu elan edir: *" Bizim Baş Kahinimiz belə deyil ki, zəifliklərimizdə bizim halımıza acıya bilməsin. Əksinə, hər cəhətdən bizim kimi sınağa çəkilmiş, lakin **günah etməmişdir**."* (İbranilərə 4:15)

Isanın otuz yaşı olanda, Onun xidmət vaxtı gəlib çatdı. Bir gün O ailəsi ilə sağollaşdı, Nazaret şəhərini tərk etdi və Yəhya peyğəmbərin təbliğ etdiyi və insanları suda vəftiz etdiyi İordan Çayı tərəfə yollandı.

Sən Yəhyanı xatırlayırsan? O İsadan altı ay əvvəl doğulmuşdur. Yəhya, öz günahlarından tövbə edib və Allahın göndərdiyi Məsihi qəbul etmək üçün insanların ürəklərini hazırlamaq üçün Allahın göndərdiyi peyğəmbər idi. Incildə Yəhya peyğəmbər və onun Məsihin yolunu necə hazırlaması haqda yazılanlara qulaq as.

Mattanın İncili, üçüncü fəsildə Müqəddəs Yazılar deyir:

(Matta 3) *O günlərdə Vəftizçi Yəhya Yəhudeya çölündə vəz edərək meydana çıxdı. O belə deyirdi: «**Tövbə edin! Çünki Səmavi Padşahlıq yaxınlaşıb**». Bu o adamdır ki, Yeşaya peyğəmbər onun barəsində belə demişdi: «Səhrada nida edənin səsi gəlir: "**Rəbbin yolunu hazırlayın, Onun keçəcəyi yerləri düz edin**"».*
*Yəhya dəvə yunundan paltar geymiş, belinə dəri qurşaq bağlamışdı, yeməyi çəyirtkə və çöl balı idi. Yerusəlim sakinləri, bütün Yəhudeya diyarından olanlar və İordan ətrafında yaşayanlar Yəhyanın yanına gəlirdi.*

Gəlin oxuduğumuz haqda düşünək. Sən Yəhyanın müjdəsini eşitdin? Qısaca, Yəhya təbliğ edirdi: "Günahlarından tövbə et! Şər əməllərindən dön və göylərdən gələn müqəddəs Məsihi görməyə hazırlaş!" Allah qarşısında günahlarını tövbə edənlər, Yəhya tərəfindən İordan çayında vəftiz olurdular. Ona görə də, Yəhya peyğəmbər **Vəftizçi Yəyha** kimi tanınır. Suda vəftiz olma insanların günahlarını yuya bilməzdi. Bu sadəcə öz günahlarından tövbə edib və Məsihi Xilaskar kimi qəbul etməyə hazır olduqlarının bir nişanı idi.

Vəftiz olunmaq üçün Yəhyaya yaxınlaşanların bəziləri iki məşhur Yəhudi qrupuna aid idilər. Sadukeylər və Fəriseylər. **Sadukeylər** ən zəngin Yəhudilər idilər və onların Roma hakimiyyətinə təsirləri var idi. Amma öz ürəklərində onlar Peyğəmbərlərin Yazılarına fikir vermirdilər. **Fəriseylər** duada, orucda, nəzirdə və onda birdə səyli olan dindar adamlar idilər. Amma onların ibadətləri boş idi. Çünki onlar Allahın qarşısında öz əməlləri ilə saleh olmağa çalışırdılar. Fəriseylər öz ənənlərini Allahın həqiqi Sözü ilə qarışdırırdılar. Nəticə etibarı ilə onların Allaha ibadəti özlərini onların qruplarına aid olmayanlara göstərmək üçün gözə girən tamaşadan başqa bir şey deyildir. Qısaca, Fəriseylər və Sadukeylər öz **dilləri** ilə Allaha hörmət edirdilər, amma **ürəklərində** Ondan uzaq idilər.

Indi isə gəlin İncili oxumaqda davam edək və ikiüzlülüklərinə görə Yəhyanın bu dindan adamları necə məzəmmət etməsini eşidək. Müqəddəs Yazılar deyir:

(Matta 3:7-15) *Fariseylər və sadukeylərdən çoxunun vəftiz olmaq üçün onun yanına gəldiyini görən Yəhya onlara belə dedi: «Ey gürzələr nəsli! Üzərinizə gələn qəzəbdən canınızı qurtarmağı sizin beyninizə kim yeridib?*
*İndi isə tövbəyə layiq bəhrə verin. Ürəyinizdə "atamız İbrahimdir" deyə düşünməyin. Mən sizə deyirəm: Allah bu daşlardan İbrahimə övlad yaratmağa qadirdir. Artıq balta ağacların dibində yatır. Beləliklə, yaxşı bəhrə verməyən hər ağac kəsilir və oda atılır. Mən sizi tövbəniz üçün su ilə vəftiz edirəm**, amma məndən sonra Gələn məndən daha qüdrətlidir. Mən Onun çarıqlarını daşımağa belə, layiq deyiləm. O sizi Müqəddəs Ruhla və odla vəftiz edəcək.** Onun kürəyi əlindədir və xırmanını sovuracaq, Öz taxılını anbara toplayacaq. Küləşi isə sönməz odda yandıracaq».*
*O vaxt **İsa** Yəhya tərəfindən vəftiz olmaq üçün Qalileyadan İordan çayına, Yəhyanın yanına gəldi. Yəhya Ona mane olmaq istəyərək dedi: «Sən Məni vəftiz etməlisən, Sən niyə mənim yanıma gəlirsən?»*
*İsa ona cavab verdi: «Hələlik buna razı ol. Çünki biz **salehlik işini beləcə yerinə yetirməliyik**». Onda Yəhya razı oldu.*

Yəhya Rəbb İsanı İordan çayında vəftiz etdi. Bəlkə kimsə soruşa bilər, "Nə üçün günahı olmayan İsa Yəhyadan xahiş etdi ki, Onu vəftiz etsin?" Düzdür, Rəbb İsanın nədənsə tövbə etməyə ehtiyacı yox idi. Çünki O heç vaxt günah işlətməmişdir. Onda nə üçün İsa Yəhyayanın yanına gəldi? Yəhyanın Onu günahkarları vəftiz etdiyi kimi vəftiz etmək üçün? Isa bu haqda nə dedi? Isa Yəhyaya dedi, *" Hələlik qoy belə olsun. Çünki biz salehlik işini beləcə yerinə yetirməliyik."* Vəftiz olmaq ilə İsa nümunə oldu, həm də göstərdi ki, O bizlərdən biri kimi yaşamaq, və bizə görə ölmək üçün gəldi.

Fəslin sonunda Müqəddəs Yazılar deyir:

(Matta 3:16-17) ***İsa** vəftiz olunan kimi sudan çıxdı. O vaxt göylər yarıldı və **Allahın Ruhunun** göyərçin kimi endiyini və Öz üzərinə qonduğunu gördü. Göylərdən bir səda gəldi: «Bu Mənim sevimli Oğlumdur, Ondan razıyam».*

Dostlar, səmadan gələn kimin səsi idi? O Rəbb Allahın səsi idi! Allah nə dedi? Allah İsaya dedi, ***"Bu Mənim sevimli Oğlumdur, Ondan razıyam!"*** Biz artıq Müqəddəs Yazılarda Davud peyğəmbərin və Cəbrayıl mələyin Məsihi necə *"Allahın Oğlu"* çağırdığını oxumuşuq. Indi isə biz Allahın Özünün İsanı, *"Mənim sevimli Oğlum!"* çağırdığını eşidirik. Nə üçün Allah İsanı Oğlum adlandırdı? Artıq gördüyümüz kimi, İsa birbaşa göylərdən gəldiyinə görə *Allahın Oğlu* adlandı. İsanın cismani atası yox idi. Allah Öz Əbədi Sözünü bakirə qızın bətninə qoydu. Burada biz İsanın Allahın Oğlu adlanmasının başqa bir səbəbini də görürük. **Allah İsanı digərlərindən ayırmaq üçün Onu Öz Oğlu adlandırdı.**

Isa Adəmin övladlarından necə fərqlənir? Adəmin nəslindən olan hər bir kəsin günahla ləkələnmiş təbiəti var, amma **İsanın təbiəti günah ilə ləkələnməmişdir.** Onun heç bir günahı yox idi. Çünki O Allahın Müqəddəs Ruhundan gəlmişdir. Məsih bizim kimi fiziki bədəndə idi, amma Onda bizim kimi günahlı təbiət yox idi. Onda müqəddəs və kamil təbiət var idi! Buna görə də Müqəddəs Allah itaətkar, sadiq oğuldan məmnun olan ata kimi İsadan məmnun idi. Belə deyilir ki, oğul atanın kölgəsidir. Oğulu görən, atanın necə olduğunu bilir. Eyni ilə də, İsanı tanıyan hər bir kəs, Allahın necə olduğunu bilir. Çünki İsa **Allahın təbiətini göstərmək** üçün gəlmişdir. Heç kim heç vaxt Allahı görməyib, amma Məsih Onu tanıtdı! Isa müqəddəs təbiəti olan yeganə insan idi. Çünki O Allahın Müqəddəs Ruhundan gələn yeganə Biri idi! Buna görə də Allah səmadan belə deməyindən çəkinmədi, "*Bu Mənim sevimli Oğlumdur,* ***Ondan razıyam!"***

Indi isə biz Yəhyanın İsanı vəftiz etməsindən sonra nə baş verdiyini oxumaq üçün dördüncü fəsildən oxumağa başlayacağıq. Müqəddəs Yazılar deyir:

(Matta 4:1-11*) İsa Müqəddəs Ruhla dolaraq İordan çayından qayıtdı və Ruh tərəfindən səhraya aparıldı. Orada İsa qırx gün ərzində iblis tərəfindən sınağa çəkildi. Bu müddətdə İsa heç nə yemədi və qırx gün keçəndən sonra acdı. İblis Ona dedi: «Əgər Sən Allahın Oğlusansa, bu daşa əmr et ki, çörəyə dönsün».
Lakin İsa ona belə cavab verdi: «"İnsan yalnız çörəklə yaşamaz" **deyə yazılmışdır**».
Sonra iblis İsanı yuxarıya çıxardı və bir anda dünyanın bütün padşahlıqlarını Ona*

*göstərdi. İblis İsaya dedi: «Mən bütün bunların üzərindəki səlahiyyəti və şan-şöhrəti Sənə verəcəyəm. Çünki bunlar mənə verilib və mən kimə istəsəm, ona verə bilərəm. Bax əgər Sən mənə səcdə etsən, bunların hamısı sənin olacaq». İsa ona belə cavab verdi: «"Allahın Rəbbə səcdə et və yalnız Ona ibadət et"* ***deyə yazılmışdır****». Sonra iblis Onu Yerusəlimə apardı və məbədin qülləsinə qoyub dedi: «Əgər Sən Allahın Oğlusansa, özünü buradan aşağı at. Axı "Allah Sənə görə mələklərinə əmr edər ki, Səni qorusunlar, Səni əlləri üstündə aparsınlar, ayağın bir daşa dəyməsin"* ***deyə yazılmışdır».***

Üç dəfə şeytan İsanı şirnikləndirib özünə və günaha itaət etdirmək istədi. İsa da Allahın Sözündən sitat gətirərək üç dəfə iblisə cavab verdi. Cənnət Bağında şeytan Adəm və Həvvanı günaha sövq etdiyi kimi, həmçinin səhralıqda da Rəbb İsanı günaha sövq etmək istədi. **Amma İsa günah işlətmədi.**

İblis nə üçün İsanı sınadı? Çünki o bilirdi ki, İsa Adəmin övladlarını onun hakimiyyətindən xilas etmək üçün göylərdən gəlmiş müqəddəs Qurtarıcı idi. Şeytan bilirdi ki, əgər İsa günah işlətsə, Adəmin övladlarını günahın hakimiyyətindən xilas edə bilməyəcəkdir. Buna görə də Şeytan Onu aldatmağa çalışaraq qıcıqlandırırdı. Amma İsa iblisin tələsinə düşmədi.

Bəli, şeytan bizim ulubabalarımız Adəm və Həvvaya üstün gəlib və onları yoldan çıxardıb, amma o Allahın Müqəddəs Oğluna üstün gələ bilmədi. **Rəbb İsa günah işlədə bilməz, çünki Allah günah işlədə bilməz. "**Ot öz kökü üstə bitər." İsa Allahın insan bədənində olan canlı və qüdrətli Sözü idi. Allah Onu Adəmin övladlarını şeytanın hakimiyyətindən və günahın cəzasından xilas etmək üçün göndərdi. Yalnız Rəbb İsa bizi şeytandan və günahdan xilas edə bilər. Çünki yalnız O şeytana və günaha qalib gəlib. Buna görə də Müqəddəs Yazılar Məsih haqqında deyir:

***" Belə bir Baş Kahinin olması münasibdir ki, O, müqəddəs, günahsız, ləkəsiz,*** *günahkarlardan ayrılmış, göylərdən daha ucalara qaldırılmış olsun****. O başqa baş kahinlər kimi*** *əvvəlcə öz günahları, sonra da xalqın günahları üçün hər gün qurban təqdim etmək məcburiyyətində deyil. Çünki Özünü qurban verməklə bunu birdəfəlik etdi."* (İbranilərə 7:26,27)

Dostlar, dinlədiyiniz üçün çox sağ olun. Yəhya peyğəmbərin şagirdlərinin İsanın ardınca getmələrinin səbəbini öyrənmək üçün gələn dərsdə bizimlə görüşməyi planlaşdırın….

Bu gün oxuduqlarımızı başa düşmək üçün Allah sənə xeyir-dua versin. Səni Müqəddəs Yazılardan bu ayə ilə tərk edirik:

***"Məsih günahları aradan qaldırmaq üçün zühur etdi. Onda günah yoxdur."*** (1 Yəhya 3:5)

64-cü Dərs

# Allahın Quzusu

**Yəhya 1,3**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən iki dərsdə biz İsa Məsihin doğuluşunda və təbiətində nadir olduğunu gördük. Doğuluşu haqda biz araşdırdıq ki, heç kim heç vaxt İsa kimi doğulmayıb. Çünki Onun cismani atası yox idi. O Allahın Müqəddəs Ruhunun qüdrəti ilə bakirə qızdan doğulmuşdur. Təbiəti haqda isə, İsa özünəməxsus idi. Heç kim İsa kimi müqəddəs təbiət ilə doğulmamışdır. Onun bizim kimi bədəni var idi, amma Onda bizdə olduğu kimi şər təbiət yox idi. İsa günah ilə ləkəli deyildir. Çünki O bizim günahlarımızın cəzasını daşımaq üçün Allahın dünyaya göndərdiyi Xilaskar idi.

Biz İncildə davam edəcəyik və **Yəhya peyğəmbərin İsa haqqında şəhadətini** eşidəcəyik. Yəhya, Məsihin yolunu hazırlamaq üçün Allahın göndədiyi peyğəmbər idi.

Yəhyanın İncilini oxuyuruq. Birinici fəsildə Müqəddəs Yazılar deyir:

(Yəhya 1:19-30) *Yəhudi başçıları Yəhyadan «Sən kimsən?» deyə soruşmaq üçün Yerusəlimdən kahinlərlə Levililəri onun yanına göndərdilər. O zaman **Yəhya belə şəhadət etdi**: o, düzünü deyib inkar etmədi və «mən Məsih deyiləm» deyə bəyan etdi.... Sonra ona dedilər: «Bəs sən kimsən? Bizi göndərənlərə nə cavab verək? Özün barədə nə deyirsən?» Yəhya dedi: «Mən Yeşaya peyğəmbərin söylədiyi kimi "Rəbbin yolunu düz edin" deyə səhrada nida edənin səsiyəm».... Yəhya onlara cavab verdi: «Mən su ilə vəftiz edirəm, amma aranızda **məndən sonra gələn tanımadığınız bir Nəfər dayanıb. Mən Onun heç çarığının bağını açmağa da layiq deyiləm»**. Bu hadisələr İordan çayının o tayında olan Bet-Anyada, Yəhyanın vəftiz etdiyi yerdə baş verdi. Ertəsi gün Yəhya **İsanın** ona tərəf gəldiyini görüb dedi: «**Dünyanın günahını aradan götürən Allah Quzusu budur! "Məndən sonra bir Şəxs gəlir ki, məndən üstündür, çünki məndən əvvəl var idi" deyib haqqında danışdığım Kəs budur.***

Gəlin Yəhya peyğəmbərin şəhadəti haqda düşünək. O Məsihə necə müraciət etdi? Müqəddəs Yazılara yenidən qulaq asaq. Deyilir: *" Yəhya İsanın ona tərəf gəldiyini görüb dedi: «Dünyanın günahını aradan götürən **Allah Quzusu budur!"*** Biz artıq Allahın peyğəmbərlərinin Məsihi Qurtarıcı, Xilaskar, Padşah, Rəbb, Allahın Sözü və Allahın Oğlu kimi adlandırdıqlarını eşitmişdik. Indi isə biz Onun ***"Allahın Quzusu"*** adlandırıldığını eşitdik. Bu titul açıqlanmaya layiq olan bir tituldur.

Nə üçün Yəhya İsanı Allahın Quzusu adlandırdı? Isa quzu idi? Xeyr, İsa həqiqi quzu deyildir. Bəzən biz kimisə aslan deyə çağırırıq – amma əslində o aslan deyil. Hamımız bilirik ki, bu yalnız bənzətmədir. Çünki biz fikirləşirik ki, o adam güclüdür və aslan kimi cəsurdur. Amma nə üçün Yəhya peyğəmbər İsanı Allahın Quzusu adlandırdı? Kim quzu kimi olmaq istərdi ki? Nə üçün Yəhya İsanı göstərərək öz şagirdlərinə belə dedi:
"*Dünyanın günahını aradan götürən **Allah Quzusu budur!***

*"Allahın Quzusu"* titulunun mənasını başa düşmək üçün biz Adəm və Həvva günah işlədəndən sonra Allahın verdiyi fərmanı yada salmalıyıq. Allah dedi ki, günahın əvəzi ölüm və cəhənnəmdir və günahsız qurbanın qanı axıdılmadan heç bir bağışlanma olmayacaqdır. Beləliklə biz Adəm və Həvvanın ikinci oğlu Habilin Allaha necə inandığını və öz günahını yumaq üçün quzu kəsib, qurban kimi məbəddə Allaha təqdim etdiyini oxuduq. Allah quzunun qanını görəndə, O Habilin günahının cəzasını ləvğ etdi və onu saleh saydı. Çünki **qüsursuz quzu onun yerinə ölmüşdür.** Bununla belə, Allah dedi ki, quzunun qanı əbədilik günahın əvəzini ödəməyə kifayət ola bilməz. Çünki heyvanın dəyəri ilə insanın dəyəri eyni deyil. **Quzu sadəcə olaraq dünyaya gələcək olan və Allahın ədalətli məhkəməsindən günahkarları xilas etmək üçün Öz qanını tökəcək müqəddəs Qurtarıcının kölgəsi və rəmzi idi.**

Isanın doğuluşundan yeddi yüz il əvvəl, Yeşaya peyğəmbər Məsihin günahlarımızı götürəcək qurban kimi, *"kəsilməyə aparılan* ***quzu*** *kimi"* (Yeşaya 53:7) olduğu haqda yazmışdır. Habilin dövrü ilə Məsihin dövrü arasında Allaha inanan hər bir kəs quzu qurbanında iştirak edirdi. Nuhun, İbrahimin, Musanın, Davudun, Süleymanın və bütün digər peyğəmbərlərin və Allahın Sözünə inanan hər bir kəsin Allaha qüsursuz quzu qurban etmək vərdişi var idi. Bu yolla onların hamısı Allahın son qurbanı, yəni günahı əbədilik aradan qaldırmaq üçün qurban kimi Öz qanını tökəcək olan müqəddəs Qurtarıcını göndərəcəyini gözləyirdilər.

Buna görə də əziz dostlar, Yəhya peyğəmbər İsanın ona tərəf gəldiyini görəndə, Onu göstərərək şagirdlərinə dedi, ***"Dünyanın günahını aradan götürən Allah Quzusu budur!"*** Bununla da Yəhya şagirdlərinə onların qarşısında dayanan İsanın Məsih, Allahın göndərdiyi və bütün peyğəmbərlərin haqqında peyğəmbərlik etdiyi Kamil Qurban *"Quzunun"* olduğunu bildirdi. İsa Allahın bizi və bizim günahlarımızı həmişəlik bağışlaması, Adəmin övladlarının yerinə ölmək üçün dünyaya gələn müqəddəs qurban idi!

Bundan sonra Müqəddəs Yazılar deyir:

(Yəhya 1:35-46) *Ertəsi gün yenə Yəhya orada idi. Şagirdlərinin ikisi onun yanında idi. İsa yoldan keçərkən Yəhya Ona baxıb dedi: «**Allah Quzusu budur!**» Həmin iki şagird onun sözlərini eşidib İsanın ardınca getdi.*
*İsa dönüb ardınca gəldiklərini görərək onlara «Sizə nə lazımdır?» dedi. Onlar İsaya dedi: «Rabbi, Sən harada qalırsan?» «Rabbi» «Müəllim» deməkdir. İsa onlara dedi: «Mənimlə gəlin, görərsiniz». Onlar gedib İsanın harada qaldığını gördülər və həmin gün Onunla qaldılar. Onuncu saat radələri idi. Yəhyadan eşidib İsanın ardınca gedən iki nəfərdən biri Şimon Peterin qardaşı Andrey idi. Sonra o, ilk öncə qardaşı Şimonu tapıb ona «**biz Məsihi tapdıq**» dedi..... . Onu İsanın yanına apardı. İsa Şimona baxıb dedi: «Sən Yəhya oğlu Şimonsan, amma Kefa adlanacaqsan». Kefa isə Peter deməkdir. Ertəsi gün İsa Qalileyaya getmək istədi. O, Filipi tapıb ona «ardımca gəl» dedi. Filip də Andrey və Peter kimi Bet-Sayda şəhərindən idi. Filip Natanaeli tapıb ona dedi: «**Musanın Qanunda yazdığı, peyğəmbərlərin də bəhs etdiyi Şəxsi – Yusif Oğlu Nazaretli İsanı tapdıq**». Natanael ona dedi: «Nazaretdən yaxşı bir şey çıxarmı?» Filip isə ona «gəl özün bax» dedi.*

Biz Yəhya peyğəmbərin şagirdlərinin İsanın ardınca necə getməyə başladıqlarını gördük. Nə üçün Yəhya peyğəmbərin şagirdləri onu tərk edib İsanın ardınca getdilər? Onlar İsanın ardınca getməyə ona görə başladılar ki, onlar Yəhyanın **İsanın Məsih və Allahın peyğəmbərlərinin haqqında peyğəmbərlik etdikləri Allahın Quzusu olduğuna inandılar!** Yəhyanın şagirdlərindən biri olan Andrey, İsanın Məsih olduğunu biləndə, o öz qardaşı Şimon Peteri axtarmağa və ***"Biz Məsihi tapmışıq!!!"*** deməyə getdi. Və sonra Filip

adlı digər şagirdi də İsanın kim olduğunu bildi. Onun sevincinin həddi-hüdudu yox idi və öz dostu Natanaelə ***"Musanın Qanunda yazdığı, peyğəmbərlərin də bəhs etdiyi Şəxsi – Nazaretli İsanı tapdıq!"*** dedi.

Bəli, Andrey və Peter, Filip və Natanael İsanı görəndə çox sevindilər. Çünki onlar bilirdilər ki, **min illər peyğəmbərlər Məsihin gəlişini qabaqcadan demişdilər. İndi isə onlar Məsihi öz gözləri ilə görürdülər!** Allaha həmd olsun! Allahın bütün peyğəmbərlərinin peyğəmbərlik etdiyi qüdrətli Qurtarıcı onların arasında idi! Allaha şükür. Nəhayət ki, Məsih gəlmişdir! Beləliklə, Yəhyanın bu dörd şagirdi İsanın ilk şagirdləri olaraq, Onun ardınca getdilər.

Müqəddəs Yazılar deyir:

(Matta 4:21-25) *İsa oradan irəli gedib başqa iki qardaşı – Zavday oğlu Yaqubu və qardaşı Yəhyanı gördü. Onlar ataları Zavdayla birlikdə qayıqda torlarını düzəldirdi. İsa onları* ***«Ardımca gəlin, Mən sizi elə balıqçı edəcəyəm ki, insan tutacaqsınız»*** *deyə çağırdı. Onlar da dərhal qayığı və atalarını qoyub Onun ardınca getdi. İsa bütün Qalileyanı gəzir, onların sinaqoqlarında öyrədir, Səmavi Padşahlığın Müjdəsini vəz edir, xalq arasında hər cür xəstəliyə və hər cür naxoşluğa şəfa verirdi. Onun haqqındakı xəbər bütün Suriyaya yayıldı. Ona görə də İsanın yanına hər cür xəstəlik və iztirab çəkənləri, cinlərə tutulmuşları, epileptikləri və iflicləri gətirdilər. O da onlara şəfa verdi. Qalileyadan, Dekapolis bölgəsindən, Yerusəlimdən, Yəhudeyadan və İordan çayının o biri tayından böyük izdihamlar İsanın ardınca gedirdi.*

Allahın iradəsi ilə gələn dərsdə biz Rəbb İsanın xalqı necə öyrətdiyinə və böyük möcüzələr etdiyi haqda daha çox hekayələr oxuyacağıq. Biz Onun Sözləri və əməlləri ilə İsanın **kim olduğunu bəyan etdiyini** – peyğəmbərlərin haqqında yazdığı Məsih olduğunu sübut edəcəyini görəcəyik! İndi biz **Yəhya peyğəmbər** ilə nə baş verdiyini görmək üçün oxumağa davam edəcəyik. İndicə gördüyümüz kimi, Yəhya İsanın Məsih olduğunu elan edəndən sonra onun şagirdləri **Rəbb İsanın** ardınca getmək üçün onu bir-bir tərk etməyə başladılar. Bu Yəhyanı məmnun edirdi? **Yəhya peyğəmbər məmnun idi ki, onun şagirdləri onu tərk edib İsanın ardınca gedirdilər?** Sən necə fikirləşirsən?

Yəhyanın İncili, üçüncü fəsildə yazılanlara qulaq as:

(Yəhya 3:26-30) *Şagirdləri Yəhyanın yanına gəlib dedilər: «Rabbi, İordanın o tayında sənin yanında olan və barəsində şəhadət etdiyin Şəxs indi Özü vəftiz edir və hamı Onun yanına gəlir». Yəhya cavabında dedi: «İnsana göydən verilməsə, o heç nə ala bilməz. "Mən Məsih deyiləm, ancaq Ondan əvvəl göndərilmişəm" sözümə özünüz şahidsiniz. Gəlin kimindirsə, bəy odur. Amma bəyi gözləyərək ona qulaq asan sağdışı bəyin səsini eşidib çox sevinir.* ***Mənim sevincim beləcə tam oldu. İndi Ona böyümək, mənə kiçilmək gərəkdir».***

Sən bu haqda nə fikirləşirsən? Şagirdləri onu tərk edib İsanın ardınca gedəndə Yəhya **böyük sevinc** duydu! Yəhyanın sevinci tam idi. Çünki **o öz işini başa vurmuşdur**; o Məsih üçün yol hazırlamışdır. Allahın həqiqi peyğəmbəri kimi Yəhyanın tək istəyi insanları **Məsihə** aparmaq idi. Yəhya peyğəmbər bu günkü günün dini rəhbərlərindən necə də fərqli idi! **Həqiqi ruhani rəhbər səni həmişə İsaya yönəldəcəkdir. Çünki İsa səni Cənnətdəki Allahın müqəddəs hüzuruna aparan yeganə Biridir**. Yəhya bilirdi ki, Allahın çox peyğəmbərləri var, amma yalnız **bir Xilaskar**! Buna görə də Yəhyanın İncilində deyilir:

*"Oğula iman edən şəxs əbədi həyata malikdir, Oğula itaət etməyənsə həyat görməyəcək, lakin Allahın qəzəbi onun üzərində qalır!"* (Yəhya 3:36)

Yəhyanın həyatının sonu haqqında isə Müqəddəs Yazılar deyir:

*"Yəhya çoxlu başqa öyüd-nəsihət verərək xalqa Müjdəni vəz edirdi. Amma Yəhya hökmdar Hirodu qardaşı arvadı Hirodiyanı aldığına və etdiyi hər cür pis işlərə görə məzəmmət etdi*." (Luka 3:1,19)

Buna görə də əmr etdi ki, Yəhyanı həbs etsinlər və zindana atsınlar. Sonda arvadını məmnun etmək üçün Yəhyanın başını kəsdirdi. (Bax Mark 6:17,27) Bu yolla Yəhya Allahın yanına getdi.

Müqəddəs Yazılar bizə Yəhyanın böyük peyğəmbər olduğunu deyir. Hətta ondan əvvəl gələn peyğəmbərlərdən də böyük olduğunu deyir. Yəhyanı başqa peyğəmbərlərdən nə üstün edir? Cavab budur. Bütün digər peyğəmbərlər elan edirdilər: "**Məsih gələcək**! O gələcək! O gələcək!" Amma Yəhya peyğəmbərin elanı isə bu idi: "**Məsih gəldi**! Onun Adı İsadır! Bax! Dünyanın günahını aradan qaldırmaq üçün öldürüləcək Allahın Quzusu! Onun ardınca gedin!" Beləcə Yəhya Məsihin yolunu hazırlayan şöhrətli peyğəmbər kimi öz işini yerinə yetirdi.

Dinlədiyiniz üçün çox sağ olun. Allahın iradəsi ilə gələn proqramda biz müqəddəs İncildə davam edəcəyik və İsanın nə üçün Böyük Təbib adlandırıldığını araşdıracağıq....

Bu gün öyrəndiklərini qavramaq üçün Allah sənə kömək olsun. Heç bir şey Yəhya peyğəmbərin İsa Məsih haqda belə deyərkən elan etdiyindən daha mühüm deyildir,

***"Dünyanın günahını aradan götürən Allah Quzusu budur!"*** (Yəhya 1:29)

65-ci Dərs

# Böyük Şəfa Verən

**Mark 1,2**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

İndi biz İncili öyrənirik. Bu Adəmin övladlarını şeytanın və günahın hakimiyyətindən xilas etmək üçün dünyaya gələn Məsih haqqında Xoş Xəbəri nəql edən müqəddəs kitabdır. Ötən dərsimizdə biz İsa Məsihin şəhərləri gəzdiyini, çoxlarını **öyrətdiyini** və xalq arasında hər cür xəstəliklərə **şəfa verdiyini** oxuduq. Onun adı bütün ölkədə məşhurlaşmışdır.

Bu gün biz İsa Məsihin **təliminin** və **işlərinin** Ondan öncə gələnlərdən necə fərqli olduğunu görmək üçün hekayəni davam etdirəcəyik. İsanın arvadı, evi yaxud dünyəvi cah-cəlalı yox idi. O insanlar arasında özünəməxsus idi. Onun üçün yalnız bir şey çox mühüm idi: Onu göndərənin iradəsini yerinə yetirmək; Ona tapşırılan işi bitirmək.

Markın İncili, birinci fəsildə Müqəddəs Yazılar deyir:

(Mark 1:21-28) *Onlar Kefernahuma gəldilər. Şənbə günü İsa sinaqoqa girib təlim öyrətməyə başladı. Onun təliminə təəccüblənirdilər, çünki **onlara ilahiyyatçılar kimi deyil, səlahiyyət sahibi kimi təlim öyrədirdi.***
*Həmin vaxt onların sinaqoqunda natəmiz ruha tutulmuş bir nəfər var idi. O çığırdı: «Ey Nazaretli İsa, bizdən nə istəyirsən? Bizi məhv etməyəmi gəlmisən? Mən bilirəm Sən Kimsən: Allahın Müqəddəsisən!»*
*Amma İsa ona qadağan edib dedi: «Sus və bu adamdan çıx!» Natəmiz ruh bu adamı sarsıdıb bərkdən çığıraraq **ondan çıxdı**. Hamını heyrət bürüdü və bir-birindən soruşdu: «Bu nədir? Səlahiyyətli yeni bir təlimdir! O, natəmiz ruhlara belə, əmr edir və bunlar da Ona itaət edirlər». İsa haqqında xəbər dərhal Qalileya bölgəsinin hər tərəfinə yayıldı.*

İsanın təlimi qanun müəllimlərinin təlimindən çox fərqli idi. Sinaqoqda İsanı dinləyənlərin hamısı Onun sözlərinə heyrətlənirdilər. Çünki İsa onların qanun müəllimlərindən fərqli olaraq hakimiyyət ilə öyrədirdi.

Sən qanun müəllimləri barədə bilirsən? Onlar Tövratı, Zəburu və peyğəmbərlərin digər kitablarını başa salmalı idi. Amma onların əksəriyyəti Peyğəmbərlərin Yazılarını düzgün başa sala bilmirdi. Çünki yazıları tamam başa düşmürdülər! Onlar yalnız dini vəzifələri və ulubabalarının ənənlərini bilirdilər, Allahın Sözünü isə bilmirdilər. Bu dini adamlar öz ağızları ilə Allaha hörmət edirdilər, amma Onun Sözünü sevmirdilər. İsa onların Sinaqoquna daxil olub Müqəddəs Yazıları səlahiyyət ilə və aydın başa salmağa başlayanda, müəllimlər çox utandılar. Onların xəcalətinin üzərinə əlavə olaraq, sinaqoqdakı adamlar İsanın sözlərinə və əməllərinə görə tamamilə heyrətlənmişdilər və bir-birlərindən soruşurdular, "Bu kimdir? Bu yeni təlimi O haradan alıb? O necə belə səlahiyyətlə öyrədə bilər? O hətta murdar ruhlara əmr edir və onlar Ona itaət edirlər! Biz heç vaxt belə bir şey görməmişik! Heç kim heç vaxt bu adam kimi öyrətməmişdir! Heç kim heç vaxt Onun etdiyi işləri etməmişdir!"

Həqiqətən, Adəmin günah etdiyi gündən İsanın möcüzələr etməyə başladığı günə qədər insanlar heç vaxt belə qüdrətli adam görməmişdilər. İndi isə onlar bir sözü ilə şeytanı və cinləri qovan Adamı görürdülər! Yalnız göylərdən gələn Məsih bunları edə bilərdi! Sən cinə tutulmuş adamın İsaya dediklərini eşitdin? O qışqıraraq dedi, *"Ey Nazaretli İsa, bizdən nə istəyirsən? Bizi məhv etməyəmi gəlmisən?* ***Mən bilirəm Sən Kimsən: Allahın Müqəddəsisən!"*** **Cinlər** İsanın haradan gəldiyini və Kim olduğunu dəqiq bilirdilər. Amma insanların əksəriyyəti İsanın həqiqətən kim olduğunu bimirdilər. Şeytan və onun pis mələkləri Rəbb İsadan çox qorxurdular. Çünki onlar əminliklə bilirdilər ki, İsa Allahın başlanğıcda göyləri və yeri vasitəsi ilə yaratdığı Kəlam idi. Onlar bilirdilər ki, İsa onları əbədi alova atmağa səlahiyyəti olan Müqəddəs Olandır! Buna görə də onlar İsa adı qarşısında tir-tir əsirdilər.

Indi isə gəlin birinci fəsildə davam edək. Müqəddəs Yazılar deyir:

(Mark 1:29-42) *Onlar sinaqoqdan çıxan kimi Yaqub və Yəhya ilə birgə Şimon və Andreyin evinə getdilər. Şimonun qayınanası qızdırma içində yatırdı. Bunu dərhal İsaya xəbər verdilər. İsa xəstənin yanına gəlib əlindən tutaraq onu qaldırdı və* ***qadının qızdırması düşdü****. Qadın onlara xidmət etməyə başladı. Axşam gün batanda bütün xəstələri və cinə tutulmuşları İsanın yanına gətirdilər. Bütün şəhər əhalisi qapının yanına yığıldı. İsa müxtəlif xəstəliyə tutulan çox adama şəfa verdi və bir çox cinləri qovdu. Amma cinlərə danışmağa izin vermədi, çünki onlar İsanın Kim olduğunu bilirdilər. Səhər alaqaranlıqda İsa qalxıb evdən çıxdı və kimsəsiz bir yerə gedib orada dua etdi. Şimon və onun yanındakılar İsanın ardınca düşdülər.*
*Onu tapıb dedilər: «Hamı Səni axtarır». İsa onlara dedi: «Gəlin başqa yerlərə – ətrafdakı şəhərlərə gedək və orada da vəz edim, çünki Mən bunun üçün gəlmişəm». Beləliklə, İsa onların sinaqoqlarında vəz edərək və cinləri qovaraq bütün Qalileyanı gəzib-dolaşdı. Bir gün cüzamlı bir adam İsanın yanına gəldi və diz çöküb yalvardı: «Əgər istəsən, məni pak edə bilərsən». İsanın ona rəhmi gəldi. Əlini uzadıb ona toxundu və dedi: «İstəyirəm, pak ol!» Dərhal bu adam* ***cüzamdan sağalıb pak oldu.***

Beləliklə İsa Adəmin nəslinə mərhəmət göstərərək insanlara hər cür xəstəliklərdən şəfa verirdi. Çünki onlar çobansız quzular kimi yorğun və köməksiz idilər. Amma İsanın böyük möcüzələr göstərməsinə başqa bir səbəb də var idi. Isa Allahın uzun illər əvvəl Öz peyğəmbərləri vasitəsi ilə vəd etdiyi Məsihin olmasını, Adəmin övladlarına sübut etmək üçün hər cür xəstəliklərə şəfa verirdi və cinləri qovurdu. Məsələn: biz artıq oxumuşuq ki, İsanın hətta doğulmasından yüz illər əvvəl Yeşaya peyğəmbər Məsihin gəlişi haqda yazmışdır, *"O vaxt korların gözləri, karların qulaqları açılacaq,axsaqlar ceyran kimi hoppanacaq, lalların dili sevinclə nəğmə deyəcək!"* (Yeşaya 35:5,6) Bu sözlərlə Yeşaya peyğəmbər Məsihin heç kimin heç vaxt etmədiyi möcüzləri edəcəyini bəyan edirdi. Biz Allahın Musa və İlyas peyğəmbərə böyük möcüzələr edə bilmək bacarığı verdiyini artıq oxumuşuq. Amma bu iki peyğəmbərin etdiyi möcüzələr Məsihin etdiyi möcüzələr ilə müqayisədə çox az idi. Həmçinin Musa və İlyasın möcüzələr etmək üçün öz gücləri yox idi. Amma İsa Məsih Allahın gücü ilə dolub daşırdı. Çünki Onun Özü Allahın gücü idi!

Markın İncili, ikinci fəsildə davam edirik. Müqəddəs Yazılar deyir:

(Mark 2:1-12) *Bir neçə gün sonra İsa yenə Kefernahuma gələndə Onun evdə olma xəbəri yayıldı. O qədər çox adam yığıldı ki, qapının yanında durmağa belə, artıq yer qalmamışdı. İsa onlara kəlamı vəz edirdi.*

*Adamlar dörd nəfərin daşıdığı bir iflici Onun yanına gətirdilər. Amma böyük izdihama görə onu İsaya yaxın gətirə bilmədilər. Ona görə də İsa olan evin damını söküb yer açandan sonra iflici yatdığı döşəklə birgə aşağı endirdilər. İsa onların imanını görəndə iflic olan adama dedi: «**Oğlum, günahların bağışlandı**».*
*Lakin orada oturan bəzi ilahiyyatçılar ürəklərində belə düşündülər: «Bu Adam niyə belə danışır? Bu ki küfrdür! Tək Allahdan başqa günahları kim bağışlaya bilər?» İsa dərhal onların ürəyində nə fikirləşdiyini ruhən dərk edib dedi: «Niyə ürəyinizdə belə düşünürsünüz? Bax hansı daha asandır? İflicə "günahların bağışlandı" deməkmi, yoxsa "Qalx, döşəyini götür və yeri!" demək? Lakin siz bilin ki, Bəşər Oğlunun yer üzündə günahları bağışlamaq səlahiyyəti var» və iflicə dedi: **«Sənə deyirəm, qalx, döşəyini götür və evinə get!»** Xəstə qalxdı və dərhal döşəyini götürərək hamının qarşısında çıxıb getdi. Hamı mat qaldı və Allahı izzətləndirib dedi: «Biz heç vaxt belə şey görməmişik».*

Bu hekayədə biz İsanın gücünün yalnız xəstə bədənə şəfa verməsi ilə məhdudlaşmadığını görmürük. Lakin Onda həmçinin **günahlı ürəyə** şəfa vermək gücü də var idi! Böyük Şəfa verən İsa ağsayan adamın **ən pis probleminin** onun zəif ayaqlarının olması yox, lakin ürəyində olan **günahın** olması olduğunu bilirdi. Buna görə İsa ona dedi, "***Oğlum, günahların bağışlandı.***"

Isa bunu deyəndə qanun müəllimləri nə fikirləşdilər? Onlar öz özlərinə deyirdilər, "İsa küfr edir! Allahdan başqa heç kim günahları bağışlaya bilməz!" Onların düşüncələrinin yarısı **düz**, yarısı **səhv** idi. **Allahdan başqa heç kimin günahları bağışlaya bilməməsi doğrudur**. Amma qanun müəllimləri İsanın Allaha qarşı küfr etdiklərini fikirləşəndə səhv edirdilər. Çünku onlar **İsanın Allah tərəfindən göndərilmiş və günahkarları Allahla barışdırmaq üçün Vasitəçi** olduğunu başa düşmürdülər. Isa Allahın Kəlamı idi; beləliklə İsa "Sənin günahların bağışlandı, " deyərkən, bu Allahın Özü idi! Rəbb İsa yer üzündə Allahın səsi idi! Və yalnız bu yox, İsa həmçinin günahı aradan qaldırmaq üçün Öz həyatını kamil qurban kimi doğulmuş Olan idi. Ata necə öz oğluna onun üçün işləməsinə və danışmasına səlahiyyət verir, eləcə də Allah İsaya günahları bağışlamaq səlahiyyəti verdi. Günahların bağışlanması yalnız Rəbb İsa Məsihdədir. Amma qanun müəllimləri buna inanmırdılar.

Gəlin bir az irəlidəki ayələri oxuyaq.
*"İsa Levinin evində süfrəyə oturanda bir çox vergiyığanlarla günahkarlar gəlib Onunla və şagirdləri ilə birgə oturdular. Çünki İsanın ardınca gedənlər çox idi. Fariseylərdən olan ilahiyyatçılar İsanın günahkarlar və vergiyığanlarla birgə yemək yediyini görüb Onun şagirdlərinə dedilər: «O niyə vergiyığanlar və günahkarlarla birgə yemək yeyir?» İsa bunu eşidəndə onlara dedi:* ***"Sağlamların deyil, xəstələrin həkimə ehtiyacı var. Mən salehləri deyil, günahkarları çağırmaq üçün gəlmişəm."*** (Mark 2:15-17)

Bu sözlərlə, Böyük Təbib olan İsa qanun müəllimlərinə onların **günahlarına** görə Allah qarşısında xəstə olduqlarını göstərmək istəyirdi. Amma bu din müəllimləri öz günahlarını görmürdülər. Hətta onlar İsanı tənqid edirdilər. Çünki O vergi toplayanlarla və "günahkar" kimi tanınan adamlarla yemək yeyirdi. Amma İsa elə **günahkarlarla** olmaq və onların **günahlarına** şəfa vermək üçün dünyaya gəlmişdir!

Bəs sən necə? Sən günah adlanan dəhşətli xəstəliklə dünyaya gəldiyini dərk edirsən? Daxilindəki günaha görə sən ölməlisən və Müqəddəs Olan Allahın məhkəməsi qarşısında dayanmalısan. Amma Allaha şükür olsun ki, **ürəyindəki günahlara şəfa verə bilən Biri var!** Sən Onun kim olduğunu bilirsən? Bəli, bu İsa Məsihdir! Günahsız olan və Adəmin övladlarını günahlarından xilas etmək üçün dünyaya gələn. Amma Rəbb İsa ürəyindəki

günaha şəfa verməzdən əvvəl, sən birinci günah ilə xəstə olduğunu dərk etməlisən. Yalnız xəstə olduğunu bilən adam həkimə gedir. Eyni ilə də, yalnız günahkar olduqlarını bilənlər İsaya, günahkarların Xilaskarına dönəcəklər. **İsa, özlərini saleh hesab edən adamlar üçün gəlmədi, lakin günahkar olduqlarını bilənlər üçün gəldi.** Buna görə də O qanun müəllimlərinə dedi, "*Sağlamların deyil,* ***xəstələrin*** *həkimə ehtiyacı var. Mən salehləri deyil,* ***günahkarları*** *çağırmaq üçün gəlmişəm."*

Allahın iradəsi ilə sonrakı proqramda biz İncili oxumaqda davam edəcəyik və günahkaların Şəfaverəni İsanın ağzından çıxan bəzi gözəl və dərinmənalı sözləri eşidəcəyik.

Rəbbin qanun müəllimlərinə dediyi sözlər üzərində düşündükcə, Allah sənə xeyir-dua versin:

***"Sağlamların deyil, xəstələrin həkimə ehtiyacı var. Mən salehləri deyil, günahkarları çağırmaq üçün gəlmişəm."*** **(Mark 2:17)**

66-cı Dərs

# Böyük Müəllim

**Matta 5-7**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən proqramda biz İsa Məsihin İsraildəki şəhərlərə baş çəkdiyini, kütləyə öyrətdiyini, xəstələrə şəfa verdiyini və cinləri qovduğunu gördük. Insanlar heyran idilər və bir-birlərindən soruşurdular, *"**Bu nədir?** Səlahiyyətli yeni bir təlimdir! O, natəmiz ruhlara belə, əmr edir və bunlar da Ona itaət edirlər!"* (Mark 1:27)

Biz bir gün şagirdləri və böyük kütlə ilə dağın ətəyində olarkən Rəbb İsanın ağzından çıxan gözəl sözləri eşitməyi nəzərdə tuturuq. Həmin gün İsanın şagirdlərinə öyrətdiklərinin hamısını oxumağa vaxtımız yetməz; amma istəsəz bütöv hekayəni Mattanın İncili yeddinci fəsil, beşinci ayədən oxuya bilərsiz.

Dost, hal-hazırda haradasansa, biz səni təqribən iki min il əvvəl Rəbb İsanın təbliğ etdiyi "Dağüstu Vəz"-inə qulaq asmağa dəvət edirik.

Müqəddəs Yazılar deyir:

(Matta 5) *İsa izdihamı görüb dağa çıxdı. Oturan kimi şagirdləri Onun yanına gəldi.*
*İsa danışmağa başlayıb onları öyrədərək dedi:*
*«**Nə bəxtiyardır** ruhən yoxsullar!*
*Çünki Səmavi Padşahlıq onlarındır.*
***Nə bəxtiyardır** yaslı olanlar!*
*Çünki onlar təsəlli tapacaq.*
***Nə bəxtiyardır** həlimlər! Çünki onlar yer üzünü irs alacaq.*
***Nə bəxtiyardır** salehlik üçün acıb-susayanlar! Çünki onlar doyacaq.*
***Nə bəxtiyardır** mərhəmətli olanlar! Çünki onlara mərhəmət ediləcək.*
***Nə bəxtiyardır** ürəyi təmiz olanlar! Çünki onlar Allahı görəcək.*
***Nə bəxtiyardır** sülhyaradanlar! Çünki onlar Allahın övladları adlanacaq.*
***Nə bəxtiyardır** salehlik uğrunda təqib edilənlər! Çünki Səmavi Padşahlıq onlarındır.*
*İnsanlar Mənə görə sizi təhqir edib təqib edəndə, yalan söyləyib sizə hər cür böhtan atanda siz **nə bəxtiyarsınız!***

... *Sanmayın ki, Mən Qanun və Peyğəmbərlərin sözlərini ləğv etmək üçün gəldim. Mən onları **ləğv etmək** üçün yox, **yerinə yetirmək** üçün gəldim. Sizə doğrusunu deyirəm: göy və yer keçib getmədən, **hər şey icra olmadan** Qanundan ən kiçik bir hərf və ya bir nöqtə belə, yox olmayacaq. Beləliklə, bu əmrlərdən ən kiçiyindən birini kim pozarsa və başqalarına da bu cür öyrədərsə, Səmavi Padşahlıqda ən kiçik sayılacaq. Amma kim bu əmrləri yerinə yetirər və başqalarına da öyrədərsə, Səmavi Padşahlıqda böyük sayılacaq. **Sizə bunu deyirəm: əgər sizin salehliyiniz ilahiyyatçılarla fariseylərin salehliyindən artıq olmasa, Səmavi Padşahlığa əsla girə bilməzsiniz.***

*Siz qədim zamanlarda adamlara "Qətl etmə, kim qətl edərsə, mühakiməyə məruz qalacaq" deyildiyini eşitmisiniz. Mənsə sizə deyirəm ki, qardaşına hirslənən hər kəs mühakiməyə məruz qalacaq. Kim qardaşına "axmaq" deyərsə, Ali Şuranın hökmünə məruz qalacaq. Kim*

*qardaşına "səfeh" deyərsə, cəhənnəm oduna məruz qalacaq. "Zina etmə" deyildiyini eşitmisiniz. Mənsə sizə deyirəm ki, qadına şəhvətlə baxan hər adam artıq ürəyində onunla zina etmiş olur. ... Yenə qədim zamanlarda adamlara "Yalandan and içmə, amma andlarını Rəbbin önündə yerinə yetir" deyildiyini eşitmisiniz. Mənsə sizə deyirəm ki, heç and içmə, nə göyə, çünki o, Allahın taxtıdır; nə yerə, çünki yer Onun ayaqlarının altındakı kətildir; nə də Yerusəlimə, çünki ora böyük Padşahın şəhəridir.... Ancaq sözünüzdə "bəli"niz bəli, "xeyr"iniz xeyr olsun. Bundan qalanı şər olandandır.*

*"Göz əvəzinə göz, diş əvəzinə diş" deyildiyini eşitmisiniz. Mənsə sizə deyirəm ki, pis adama qarşı durma. Əksinə, sağ üzünə şillə vurana o birini də çevir. Səni məhkəməyə verib köynəyini götürmək istəyənə üst paltarını da ver. Kim səni min addım yol getməyə məcbur edirsə, sən onunla iki min addım yol get.*
*"Qonşunu sev və düşməninə nifrət et" deyildiyini eşitmisiniz. Mənsə sizə deyirəm ki, düşmənlərinizi sevin, sizi təqib edənlər üçün dua edin. Belə ki siz göylərdə olan Atanızın övladları olasınız. Çünki O, günəşini həm pislərin, həm yaxşıların üzərinə doğurur, yağışını da həm salehlərin, həm də saleh olmayanların üzərinə yağdırır. Əgər sizi sevənləri sevirsinizsə, nə mükafatınız olacaq? Vergiyığanlar da belə etmirmi? Əgər yalnız qardaşlarınızı salamlayırsınızsa, başqalarından artıq nə etmiş olursunuz? Bütpərəstlər də belə etmirmi? Ona görə də Səmavi Atanız kamil olduğu kimi siz də kamil olun.*

(Matta 6) *Ehtiyatlı olun, siz saleh iş görəndə bunu insanların önündə, onlara göstərmək üçün etməyin. Yoxsa göylərdə olan Atanızdan mükafat almazsınız.*
*Ona görə də sədəqə verdiyin zaman önündə şeypur səsi ilə car çəkmə. Çünki ikiüzlülər adamlar onları izzətləndirsin deyə sinaqoqlarda və küçələrdə belə edirlər. Sizə doğrusunu deyirəm: onlar mükafatlarını alıblar.*
*Amma sən sədəqə verdiyin zaman sol əlin sağ əlinin nə etdiyini bilməsin.*
*Belə ki verdiyin sədəqə gizli qalsın. Gizlində olanı görən Atan səni mükafatlandıracaq.*
*Dua etdiyiniz zaman da ikiüzlülər kimi olmayın. Çünki beləlləri adamlar onları görsün deyə sinaqoqlarda və küçə tinlərində durub dua etməyi sevirlər. Sizə doğrusunu deyirəm: onlar mükafatlarını alıblar.*
*Amma sən dua etdiyin zaman öz otağına gir və qapını örtüb gizlində olan Atana dua et. Gizlində olanı görən Atan səni mükafatlandıracaq.*
*Dua edəndə bütpərəstlər kimi boşboğazlıq etməyin. Çünki onlar düşünür ki, çox söz söyləməklə eşidiləcəklər.*
*Siz onlara bənzəməyin! Çünki Atanız nələrə ehtiyacınız olduğunu siz Ondan diləməzdən əvvəl bilir.*
*Buna görə siz belə dua edin:*
*"Göylərdə olan Atamız, Adın müqəddəs tutulsun, Padşahlığın gəlsin, Göydə olduğu kimi Yerdə də Sənin iradən olsun. Gündəlik çörəyimizi bizə bu gün ver. Bizə borclu olanları bağışladığımız kimi bizim borclarımızı da bağışla. Bizi sınağa çəkmə, lakin bizi şərdən xilas et. Çünki padşahlıq, qüdrət və izzət əbədi olaraq Sənindir. Amin."*

... *Oruc tutduğunuz zaman ikiüzlülər kimi qaşqabaqlı gəzməyin. Onlar oruc tutduqlarını insanlara göstərmək üçün üzlərini tutqun hala salırlar. Sizə doğrusunu deyirəm: onlar mükafatlarını alıblar. Amma sən oruc tutanda başına yağ çək və üzünü yu.*
*Belə ki insanlara deyil, gizlində olan Atana oruclu görünəsən. Gizlində olanı görən Atan səni mükafatlandıracaq.*

*Yer üzündə özünüzə xəzinələr yığmayın. Orada güvə və pas onları məhv edər ya da oğrular girib oğurlayar. Bunun yerinə özünüzə göydə xəzinələr yığın. Orada nə güvə, nə pas onları*

*məhv edər, nə də oğrular girib oğurlayar. Çünki xəzinən haradadırsa, ürəyin də orada olacaq.*

*Bədənin çırağı gözdür. Əgər gözün sağlam olarsa, bütün bədənin də nurlu olacaq. Yox, əgər gözün zəif görərsə, bütün bədənin qaranlıq olacaq. Əgər səndəki "nur" qaranlıqdırsa, zülmət nə qədər böyükdür! Heç kim iki ağaya qulluq edə bilməz. Çünki ya birinə nifrət edib o birisini sevəcək ya da birinə bağlı qalıb o birisinə isə xor baxacaq. Siz həm Allaha, həm də sərvətə qulluq edə bilməzsiniz.*

*Buna görə sizə deyirəm: "Nə yeyəcəyik?" və ya "Nə içəcəyik?" deyə canınız üçün, "Nə geyinəcəyik?" deyə bədəniniz üçün qayğı çəkməyin. Can yeməkdən, bədən isə geyinməkdən daha vacib deyilmi? Göydə uçan quşlara baxın: onlar nə əkir, nə biçir, nə də anbarlarda saxlayır. Amma Səmavi Atanız onları yedizdirir. Siz onlardan daha qiymətli deyilsinizmi? Hansı biriniz qayğı çəkməklə ömrünü bir anlıq belə, uzada bilər?*
*Nəyə görə geyim üçün qayğı çəkirsiniz? Görün çöl zanbaqları necə böyüyür: onlar nə zəhmət çəkir, nə də ip əyirir. Lakin sizə bunu deyirəm ki, bütün cah-calalı içində olan Süleyman belə, bunlardan biri kimi geyinməmişdi. Ey imanı az olanlar, bu gün olub sabah ocağa atılan çöl otunu Allah belə geyindirirsə, sizi geyindirəcəyi daha da yəqin deyilmi? Beləliklə, "Nə yeyəcəyik?", "Nə içəcəyik?" və ya "Nə geyəcəyik?" deyə qayğı çəkməyin. Çünki bütpərəstlər bütün bu şeyləri axtarırlar. Doğrudan da, Səmavi Atanız bütün bunlara ehtiyacınız olduğunu bilir. Ona görə də siz əvvəlcə Allahın Padşahlığını və Onun salehliyini axtarın. Onda bunların hamısı sizə əlavə olaraq veriləcək.*

(Matta 7) *Mühakimə etməyin ki, siz də mühakimə olunmayasınız. Çünki hansı hökmlə mühakimə etsəniz, onunla da mühakimə olunacaqsınız. Siz hansı ölçü ilə ölçsəniz, sizin üçün də eyni ölçü ilə ölçüləcək.*
*Sən nə üçün qardaşının gözündə çöpü görürsən, amma öz gözündəki tiri seçmirsən? Öz gözündə tir ola-ola qardaşına necə deyə bilərsən: "Qoy gözündəki çöpü çıxarım!" Ey ikiüzlü, əvvəlcə öz gözündən tiri çıxar, onda aydın görərsən ki, qardaşının gözündəki çöpü necə çıxarmaq olar.... İnsanların sizinlə necə rəftar etməsini istəyirsinizsə, siz də onlarla elə rəftar edin. Çünki Qanun və Peyğəmbərlərin söylədiyi də elə budur*

... *Diləyin, sizə veriləcək, **axtarın, tapacaqsınız,** qapını döyün və sizə açılacaq. Çünki hər diləyən alar, axtaran tapar, qapı döyənə açılar.*

... ***Dar qapıdan girin**. Çünki həlaka aparan qapı geniş və yolu enlidir. Bu qapıdan girənlər çoxdur. Amma həyata aparan qapı dar və yolu ensizdir, onu tapanlar azdır.*

***Yalançı peyğəmbərlərdən özünüzü gözləyin**! Onlar yanınıza quzu cildində gələrlər, amma daxilən yırtıcı qurddurlar. Onları bəhrələrindən tanıyacaqsınız. Qaratikandan üzüm yaxud qanqaldan əncir yığılarmı? Beləcə də hər yaxşı ağac yaxşı bəhrə, pis ağac isə pis bəhrə verər. Yaxşı ağac pis bəhrə verə bilməz, pis ağac da yaxşı bəhrə verə bilməz. Yaxşı bəhrə verməyən hər ağac kəsilər və oda atılar. Beləliklə, **yalançı peyğəmbərləri bəhrələrindən tanıyacaqsınız.***

***Mənə "ya Rəbb, ya Rəbb" deyən hər kəs Səmavi Padşahlığa girməyəcək**; lakin göylərdə olan Atamın iradəsini yerinə yetirən oraya girəcək. O gün bir çoxları Mənə deyəcək: "Ya Rəbb, ya Rəbb, biz Sənin adınla peyğəmbərlik etmirdikmi? Sənin adınla cinləri qovmurduqmu? Sənin adınla bir çox möcüzələr yaratmırdıqmı?" Onda Mən onlara bəyan edəcəyəm: "Ey qanunsuzluq edənlər, Mən sizi heç vaxt tanımamışam, Məndən uzaq olun!"*

*Beləliklə,* ***bu sözlərimi eşidib onlara əməl edən hər kəs öz evini qaya üzərində quran ağıllı adama bənzəyir****. Yağış yağar, sellər gələr, yellər əsər və o evə hücum edər. Amma ev uçmaz, çünki təməli qaya üzərində qurulub.* ***Bu sözlərimi eşidib onlara əməl etməyən hər kəs isə*** *öz evini qum üzərində tikən* ***ağılsız adama bənzəyir****. Yağış yağar, sellər gələr, yellər əsər və o evə hücum edər. Ev uçar və onun yıxılması bir müsibət olar».*

*İsa bu sözləri bitirəndə* ***xalq Onun təliminə təəccübləndi****, çünki* ***onlara öz ilahiyyatçıları kimi deyil, səlahiyyət sahibi kimi təlim öyrədirdi.***

Dostlar, ümid edirik ki, bu gün eşitdiyimiz göylərdən gəlmiş Böyük Müəllim İsanın dərinmənalı və gözəl sözləri üzərində düşünmək üçün gələn dərsdə bizə qoşulacaqsınız.

Bu gün eşitdiklərini başa düşmək üçün qoy Allah sənə xehir-dua versin. Dağda olarkən Rəbb İsanın danışdığı gözəl sözlər ilə səninlə sağollaşırıq:

***"Allahın Padşahlığını və Onun salehliyini axtarın. Onda bunların hamısı sizə əlavə olaraq veriləcək."*** (Matta 6:33)

67-ci Dərs

# Sən Yenidən Doğulmalısan!

**Yəhya 3**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Müqəddəs İncildəki dərslərimizdə biz İsa Məsihin doğuluşunda, Xasiyyətində və əməllərində özünəməxsus olduğunu görmüşük. Dərslərimizdən biz başa düşdük ki, İsa təlimində də özünəməxsus idi. Heç kim heç vaxt Onun kimi belə aydın və dərinmənalı sözlərlə danışmamışdır. Onu eşidənlər heyrətlənirdilər. Çünki O onların kahinlərində və ilahiyyətçilərində olmayan səlahiyyət ilə onlara öyrədirdi. Isanın ağzından çıxan bir neçə söz, onların dini rəhbərlərinin ağzından çıxan minlərcə sözlərdən dəyərli idi. Buna görə də Yəhudi rəhbərlərinin əksəriyyəti İsadan razı deyildilər. Isa yalnız onların ənənələrinə qarşı olan şeyləri təbliğ etmirdi. O həm də camaat qarşısında onların ikiüzlülüklərini də ifşa edirdi!

Ötən dərsimizdə İsanın şagirdləri ilə birlikdə olarkən dağın üstündə etdiyi vəzini eşitdik. Onun vəzini üç söz ilə cəmləşdirə bilərik. O üç söz bunlardır: ***"İkiüzlülər kimi olmayın!"*** İkiüzlülük Allaha iyrəncdir, insanlar üçün isə təhlükəli. Buna görə də İsa izdihama dedi, *"İkiüzlülər kimi olmayın!"* Sən ikiüzlünün nə demək olduğunu bilirsən. Əgər kimsə özünü daxilində olmayan xasiyyətə malik olduğu kimi özünü aparırsa, o adam ikiüzlüdür. Isa dedi ki, ikiüzlülər ağardılmış məqbərələrə bənzəyirlər: onların bayır tərəfi gözəl görünür, daxili isə ölü sümükləri və hər cür murdarlıqla doludur. (Matta 23:27)

Heç kim Allahı aldada bilməz. Allahın Sözü deyir: *"Onun gözləri qarşısında hər şey çılpaq və açıq-aşkardır. Biz Ona hesabat verəcəyik."* (İbranilərə 4:13) İnsanın ürəyini bilən İsa, dini rəhbərlərdə, Fəriseylərdə və ilahiyyətçilərdə olan ikiüzlülüyü bilirdi. Duada, orucda və zəkat vermədə xaricən onlar səyli idilər, amma ürəklərində onlar Allahı və Onun Sözünü həqiqətən sevmirdilər. Nəticə etibarı ilə onların bütün "saleh" əməlləri və ritualları dəyərsiz idi. Beləliklə **İsa şagirdlərinə öyrədərək dedi:**

***"Dua*** *etdiyiniz zaman da* ***ikiüzlülər*** *kimi olmayın. Çünki beləl ər i adamlar onları görsün deyə sinaqoqlarda və küçə tinlərində durub dua etməyi sevirlər. Sizə doğrusunu deyirəm: onlar mükafatlarını alıblar." (Matta 6:5) "Sədəqə verdiyin zaman önündə şeypur səsi ilə car çəkmə. Çünki* ***ikiüzlülər*** *adamlar onları izzətləndirsin deyə sinaqoqlarda və küçələrdə belə edirlər. Sizə doğrusunu deyirəm: onlar mükafatlarını alıblar." (Matta 6:2) "Oruc tutduğunuz zaman* ***ikiüzlülər*** *kimi qaşqabaqlı gəzməyin. Onlar* ***oruc*** *tutduqlarını insanlara göstərmək üçün üzlərini tutqun hala salırlar. Sizə doğrusunu deyirəm: onlar mükafatlarını alıblar." (Matta 6:16)*

*"**İkiüzlülər kimi olmayın.** Sizə bunu deyirəm: əgər sizin salehliyiniz ilahiyyatçılarla fariseylərin salehliyindən artıq olmasa, Səmavi Padşahlığa əsla girə bilməzsiniz." (Matta 6:5; 5:20) "Nə bəxtiyardır ruhən yoxsullar! Çünki Səmavi Padşahlıq onlarındır. Nə bəxtiyardır* ***salehlik üçün acıb-susayanlar****! Çünki onlar doyacaq. Nə bəxtiyardır* ***ürəyi təmiz*** *olanlar! Çünki onlar Allahı görəcək. Ona görə də Səmavi Atanız kamil olduğu kimi siz də kamil olun!" (Matta 5:3,6,8,48) "Dar qapıdan girin. Çünki həlaka aparan qapı geniş və yolu*

*enlidir. Bu qapıdan girənlər* ***çoxdur****. Amma həyata aparan qapı dar və yolu ensizdir, onu tapanlar* ***azdır****." (Matta 7:13,14)*

Bu yolla Rəbb İsa insanları əbədi həyata aparan dar yolu seçmələrini təkid edirdi. İsanın xilas yolu haqqında dediklərini dərk etdin? Bu hədsiz dərəcədə vacibdir! Əgər insan nə vaxtsa Allahı görəcəksə və əbədiyyən Onunla birgə yaşayacaqsa, o adam necə olmalıdır? İsa bu haqda nə dedi? Qısaca olaraq O dedi: **"Sənin təmiz və kamil ürəyin olmalıdır!"**

Bəs onda günahlı doğulmuş Adəmin övladının necə təmiz və kamil ürəyi ola bilər? Elə bir şey var ki, o şər ürəyin Allahın tələb etdiyi təmiz ürəyə çevrilməsinə səbəb olsun? Xeyr! İnsan özlüyündə öz ürəyini təmizləyə bilməz. "Halva halva deməklə ağız şirin olmaz!" Eyni ilə də biz günahkarlar Allahın qarşısında təmiz olmaq üçün bir şey edə bilmərik. Bu gün qalan vaxtımızda biz **insana mümkün olmayan şeyin Allaha mümkün olduğunu görəcəyik!**

Indi isə gəlin İncildən oxumağa davam edək və İsraildən olan Nikodim adlı bir dini rəhbərin danışmaq üçün gecə İsanın yanına gəldiyinə baxaq. Isa ona günahlı adamın necə təmiz qəlbə malik olmanı və Allahın əbədi həyat hədiyyəsini qəbul edə biləcəyini göstərdi. Biz Yəhyanın İncili, üçüncü fəsili oxuyuruq. Müqəddəs Yazılar deyir:

(Yəhya 3:1-16) *Fariseylər arasında Nikodim adlı bir Yəhudi rəhbəri var idi. O, gecə ikən İsanın yanına gəlib dedi: «Rabbi, bilirik ki, Sən Allahın yanından gələn bir müəllimsən. Çünki Allah ona yar olmasa, heç kəs Sənin göstərdiyin əlamətləri edə bilməz». İsa ona cavab verdi:* ***«Doğrusunu, doğrusunu sənə deyirəm: bir kəs yenidən doğulmasa, Allahın Padşahlığını görə bilməz».***
*Nikodim Ondan soruşdu: «Yaşa dolmuş bir adam necə yenidən doğula bilər? O, ikinci dəfə anasının bətninə girib doğula bilərmi?» İsa cavab verdi: «Doğrusunu, doğrusunu sənə deyirəm: bir kəs sudan və Ruhdan doğulmasa, Allahın Padşahlığına daxil ola bilməz.* ***Bəşərdən doğulan bəşərdir, Ruhdan doğulan ruhdur. Sənə "yenidən doğulmalısınız" dediyimə heyrət etmə.*** *Yel istədiyi yerdə əsir, onun səsini eşidirsən, amma haradan gəlib haraya getdiyini bilmirsən. Ruhdan doğulmuş adam da belədir».*
*"Nikodim «Bu şeylər necə ola bilər?" deyə soruşdu. İsa ona cavab verdi: «Sən İsrailin müəllimisən. Bunları bilmirsənmi? Doğrusunu, doğrusunu sənə deyirəm: biz bildiyimizi söyləyirik, gördüyümüzə şəhadət edirik, amma siz bizim şəhadətimizi qəbul etmirsiniz. Əgər Mən sizə yerdəki işlərdən danışanda inanmırsınızsa, göydəki işlərdən danışsam, necə inanacaqsınız? Heç kəs göyə çıxmayıb, yalnız göydən enmiş Bəşər Oğlu orada olub.* ***Musa çöldə ilanı yuxarı qaldırdığı kimi Bəşər Oğlu da yuxarı qaldırılmalıdır ki,***
***Ona iman edən hər kəs əbədi həyata malik olsun». Çünki Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun."*** Amin

Gəlin bir az Rəbb İsanın dini rəhbər olan Nikodimə nə dediyi haqda düşünək. Isa Nikodimə əbədi həyata malik olmaq və Allahla əbədi yaşamaq üçün nə baş veməlidir haqda nə dedi? O dedi, *" Doğrusunu, doğrusunu sənə deyirəm:* ***bir kəs yenidən doğulmasa****, Allahın Padşahlığını görə bilməz!"* Nikodim yenidən doğulmanın nə demək olduğunu bilirdi? Xeyir! Buna görə də İsa ona dedi, *"Sən İsrailin müəllimisən. Bunları bilmirsənmi? Bəşərdən doğulan bəşərdir, Ruhdan doğulan ruhdur. Sənə* ***"yenidən doğulmalısını!"*** *dediyimə heyrət etmə."* (Yəhya 3:10,6,7)

Qisaca, İsa Nikodimə deyirdi ki, kim Allahı görmək istəyirsə və bütün əbədiyyət boyu Onun müqəddəs hüzurunda yaşamaq istəyirsə, o **ikinci dəfə doğulmalıdır!** Bu o demək deyil ki, sən ikinci dəfə ananın bətninə daxil olmalısan və fiziki olaraq yenidən doğulmalısan. Yenidən doğulmaq o deməkdir ki, **Allahın Ruhu** qəlbini yuyaraq və Öz qüdrəti ilə **səni** yeniləşdirərək **kökündən dəyişməlidir**. (Titus 3:5) Sən **dinin xarici görünüşündən** tamamilə fərqli olan göydən gələn gücün qüdrəti ilə dəyişməlisən. Sən **daxilini**, öz **qəlbini** dəyişməlisən! Adəmdən doğulan hər bir kəs günah ilə ləkələnibdir və Allahın Padşahlığında payı ola bilməz. Adəmin övladları ürəklərində böyüyən günahın kökünü təmizləməyə gücsüzdürlər. Halva halva deməklə ağız şirin olmaz. Həmçinin dini rituallara əməl etməklə və yaxşı əməllərlə heç vaxt şər qəlbi təmiz etmək olmaz. Allahın Özü sənin qəlbində işləməli və onu yeniləşdirməlidir. Çünki çürüyən bədən çürüməzliyi irs olaraq almaz! ( Bax 1 Korinflilərə 15:50) Qısaca, *"Sən yenidən doğulmalısan!"*

İsa dini rəhbər olan Nikodimə bunu öyrətdi. Amma Nikodim bunu başa düşməkdə çətinlik çəkdi. Beləliklə o İsadan soruşdu: Bu necə ola bilər: Mən **necə** yenidən doğula bilərəm və təmiz qəlbə malik ola bilərəm?

İsa ona cavab verdi,
*"Musa çöldə ilanı yuxarı qaldırdığı kimi Bəşər Oğlu da yuxarı qaldırılmalıdır ki, **Ona iman edən hər kəs** əbədi həyata malik olsun." Çünki Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, **Ona iman edən hər kəs** həlak olmasın, amma əbədi həyata malik olsun."* (Yəhya 3:14-16)

Cəhənnəmin cəzasından qurtulmaq və əbədi həyatı əldə etmək üçün İsa Nikodimə Musa peyğəmbərin dövründə səhralıqda onun ulubabalarının başına gələnləri xatırlatdı. Tövrat kitabında gördüyümüz kimi bir dəfə İsrail övladları Allaha və Musaya qarşı gileylənəndə, Allah onlara zəhərli ilanlar göndərdi ki, onları sancsın və çoxları ölsün. Amma İsrail övladları tövbə edəndən sonra Allah Musaya əmr etdi ki, **bürüncdən ilan düzəltsin və onu taxtadan sallasın** ki, **ona baxan hər bir kəs şəfa tapa bilsin** və ölməsin.

Beləliklə İsa Nikodimə deyirdi ki, necə ki İsrail övladları ölümdən xilas olmaq üçün yalnız ağacdan sallanan bürünc ilana baxmalı idilər, eləcə də Adəmin övladları da Allahın əbədi cəzadan xilas olmaq üçün əlac təmin etdiyinə yalnız inanmalıdırlar. Bizim hamımız ilan sancmış Adəmin övladları kimiyik. **Şeytan** zəhərli ilan və **günah** isə məhv olmamıza səbəb olan zəhər kimidir. Şeytan Adəmin bütün övladlarını sancıb və əgər Allah bizə əlacı verməsə günahın zəhəri bizim əbədiyyən cəhənnəmdə məhv olmamıza səbəb olacaqdır! Biz özlüyümüzdə özümüzü heç bir yolla Allahın məhkəməsindən xilas edə bilmərik. Çünki günahın əvəzi ölüm və cəhənnəmdir. Amma Rəbb Allaha şükür olsun. Necə ki, İsrail övladlarını zəhərli ilandan xilas etmək üçün onları əlac ilə təmin etdisə, O həm də Adəmin övladlarını günahın zəhərindən xilas etmək üçün **əlac** ilə təmin edibdir.

Sən Adəmin övladlarının bərpa etmək və günahla dolu olan qəlblərini yeniləşdirmək üçün Allahın planını bilirsən? Rəbb İsa bu haqda nə dedi? O dedi ki, müqəddəs Qurtarıcı günahkarların günahlarının cəzasını daşımaq üçün çarmıxa çəkilməli idi ki, *"Ona iman edən hər bir kəs həlak olmasın lakin əbədi həyata malik olsun!"*

Bəs onda kim xilas ola bilər? Müqəddəs Yazılar nə deyir? Orda deyilir: ***"Ona iman edən heç bir kəs**...məhv olmayacaqdır !"* Biz kimə inanmalıyıq? Biz Allahın göndərdiyi Qurtarıcıya inanmalıyıq. Sən Ona inanırsan: Sən öz qəlbində inanırsan ki, heç bir kəsin məhv olmasını istəməyən Allah **sənin üçün**, **sənin** günahının borcunu daşımaq **üçün** yerə Xilaskar olan İsanı

göndərib? Bizim günah problemimiz üçün Allahın saleh əlacı İsanın çarmıxdakı ölümüdür. Müqəddəs Yazılar deyir: ***"Günahla əlaqəsi olmayan Məsihi Allah bizim uğrumuzda günah qurbanı verdi ki, biz Onda Allahın salehliyinə nail olaq."*** (2 Korinflilərə 5:21)

Dostlar, Allah dəyişməyibdir. Təqribən iki min il əvvəl Rəbb İsa Nikodimə dediyini O bu gün sənə də deyir: ***"Sən yenidən doğulmalısan!"*** Allah Öz qüdrəti ilə sənin qəlbini təmizləmək və kökündən dəyişmək istəyir. Amma sən Onun Xoş Xəbərinə inanmalısan. Sən Onun göndərdiyi Məsihə inanmalısan. Sən heç vaxt günah işlətməyən İsanın sənin günah borcunu ödədiyinə inanmalısan ki, əbədi olaraq Allahla yaşaya biləsən. *"Sən yenidən doğulmalısan!....* ***Bir kəs yenidən doğulmasa, Allahın Padşahlığını görə bilməz!"*** Amin.

Dinlədiyiniz üçün çox sağ olun. Allahın iradəsi ilə gələn dərsimizdə biz İncil kitabını oxumaqda davam edəcəyik və Rəbb İsanın beş əri olan qadınla söhbətini eşidəcəyik....

İsa Məsihin belə deyərək elan etdiyi haqda düşündükcə Allah sənə xeyir-dua versin,

***"Sənə "yenidən doğulmalısınız" dediyimə heyrət etmə."*** (Yəhya 3:7) ***"Nə bəxtiyardır ürəyi təmiz olanlar! Çünki onlar Allahı görəcək."*** (Matta 5:8)

68-ci Dərs

# Dünyanın Xilaskarı

**Yəhya 4; Luka 4**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Biz indiyə qədər olan dərslərimizdə İsa Məsihin **doğuluşunda, xasiyyətində, əməllərində** və Öz **təlimində** özünəməxsus olduğunu görmüşük. **Doğuluşu** barədə biz gördük ki, heç kim heç vaxt İsa kimi doğulmamışdır. Çünki O Allahın Ruhunun qüdrəti ilə bakirə qızdan doğulmuşdur. Biz İsanın **xasiyyətində** də özünəməxsus olduğunu gördük. Çünki heç kim Onun kimi müqəddəs təbiət ilə dünyaya gəlməmişdir. Isa Öz **əməllərində** də müqayisə edilməz idi. Heç kim heç vaxt Onun kimi möcüzələr etməmişdir. O sadəcə bir söz deməklə xəstə sağalırdı, şeytan və cinlər çıxırdı və günahlar bağışlanırdı.

Biz İsanın Öz **təlimində** də özünəməxsus olduğunu gördük. Biz bunu ötən proqramımızda İsa ilə Nikodim adlı dini rəhbər arasındakı söhbətdə müşahidə etdik. Isa Nikodimə göstərdi ki, Allahın Ruhu onun qəlbini yeniləşdirməsə, o heç vaxt Allahın hüzuruna daxil ola bilməz. Buna görə də İsa ona dedi, ***"Sən yenidən doğulmalısan!"***

Bu gün biz İsa Məsihin Nikodimdən **çox fərqli olan bir adam** ilə söhbətini eşidəcəyik. Nikodim Yəhudi idi, amma bu günkü dərsdə görəcəyimiz şəxs isə **Yəhudi deyildir**. Nikodim kişi idi; bu şəxs isə **qadındır.** Nikodim dindar adam idi. Lakin bu qadın isə beş əri olan **böyük günahkardir**. Insan gözündə Nikodim bu əxlaqsız qadından daha yaxşı idi. Amma Allah belə baxmır. Adəmin bütün nəsli, həm dini adamlar, həm də günahkarlar günahın hakimiyyəti altındadırlar. Buna görə də Adəmin bütün övladları göydən gələn qüdrət vasitəsi ilə yenidən doğulmalıdırlar.

Indi müqəddəs İncili oxuyaq, İsanın **Samariyadan olan əxlaqsız qadınla söhbətinə** diqqət edək. Samariya Yəhudilərin torpağı olan Yəhudeya və Qalileya arasındakı ərazi idi. Samariyalıların çoxu xaricilər idilər; Yəhudilər onları bütpərəst hesab edirdilər və buna görə də onlar bir-birləri ilə ünsiyyət etmirdilər. Buna baxmayaraq İsa Məsih ayrı seçkilik salmadı. Çünki Allah da ayrı seçkilik salmır. **Isa yeni və təmiz qəlbə malik olmaq istəyən hər bir günahkarı axtarmaq və xilas etmək üçün dünyaya gəlmişdir.** Buna görə də İsa beş əri olmuş Samariyalı qadın ilə söhbət etməkdən utanmadı.

Indi isə gəlin Yəhyanın İncili dördüncü fəsili oxuyaq. Müqəddəs Yazılar deyir:

(Yəhya 4:4-42) *Onun yolu Samariyadan keçirdi. O, Yaqubun öz oğlu Yusifə verdiyi torpağa yaxın olan Samariyanın Sixar adlanan şəhərinə gəldi. Yaqubun quyusu orada idi. Yol İsanı yorduğu üçün quyunun yanında oturdu. Altıncı saat radələri idi. Samariyalı bir qadın quyudan su çəkməyə gəldi. İsa ona «Mənə su ver, içim» dedi.*
*Çünki şagirdləri yemək almaq üçün şəhərə getmişdi. Samariyalı qadın Ona dedi: «Sən **bir Yəhudisən**, mənsə Samariyalı bir qadın. Necə Sən məndən su istəyə bilərsən?» Çünki Yəhudilər Samariyalılarla ünsiyyət etmir.*
*İsa ona cavab verdi: «Əgər sən Allahın bəxşişini və "Mənə su ver, içim" deyənin Kim olduğunu bilsəydin, özün Ondan su istəyərdin, O da sənə **həyat suyu** verərdi». Qadın Ona dedi: «Ağa, su çəkmək üçün bir qabın yox, quyu da dərindir. Bəs o həyat suyunu haradan*

*götürəcəksən? Məgər Sən bu quyunu bizə verən, oğulları və mal-qarası ilə buradan su içən atamız Yaqubdan da üstünsən?» İsa ona cavab verdi: «Bu sudan içən hər kəs yenə susayar, amma* ***Mənim ona verəcəyim sudan kim içsə, heç vaxt susamaz****. Lakin ona verəcəyim su onun daxilində əbədi həyat verən bir su qaynağına çevriləcək». Qadın Ona dedi: «Ağa, bu suyu mənə ver ki, heç vaxt susamayım və su çəkmək üçün buraya gəlməyim».İsa qadına «get ərini çağır və buraya gəl» dedi.*
*Qadın da Ona «ərim yoxdur» söylədi. İsa ona dedi: «"Ərim yoxdur" deməklə düz söylədin, çünki beş kişin olub, indi səninlə yaşayan da ərin deyil, sən bunu düz söylədin». Qadın Ona dedi: «Ağa, görürəm ki,* ***Sən peyğəmbərsən.*** *Bizim ata-babalarımız bu dağda ibadət edirdi, amma siz deyirsiniz ki, ibadət etmək üçün lazımi yer Yerusəlimdədir». İsa ona dedi: «Ey qadın, Mənə inan, artıq o zaman yetişir ki, Ataya nə bu dağda, nə də Yerusəlimdə ibadət edəcəksiniz. Siz bilmədiyinizə ibadət edirsiniz, bizsə bildiyimizə ibadət edirik, çünki xilas Yəhudilərdən gəlir. Amma o zaman gəlir və artıq gəlib ki, həqiqi ibadət edənlər Ataya ruhda və həqiqətdə ibadət etsin. Ata da Özünə belə ibadət edənlər axtarır. 24* ***Allah ruhdur və Ona ibadət edənlər ruhda və həqiqətdə ibadət etməlidir»****. 25 Qadın Ona dedi: «Bilirəm ki, "Məsih" deyilən məsh olunmuş Şəxs gələcək və gələndə bizə hər şeyi bildirəcək». 26 İsa ona dedi:* ***«Səninlə danışan Odur, O Mənəm»****.*
*Bu arada İsanın şagirdləri gəldilər və Onun bir qadınla söhbət etməsinə heyrətləndilər, ancaq heç biri «Nə istəyirsən?» yaxud «Niyə o qadınla danışırsan?» demədi. Bu zaman qadın səhəngini yerə qoydu və şəhərə gedib adamlara dedi:* ***«Gəlin, etdiyim bütün əməlləri mənə söyləyən Adamı görün. Bəlkə elə Məsih Odur?»*** *Adamlar da şəhərdən çıxıb İsanın yanına gəldilər.*

*... «Etdiyim bütün əməlləri mənə söylədi» deyə şəhadət edən qadının sözünə görə o şəhərdən olan Samariyalıların bir çoxu İsaya iman etdi. Sonra Samariyalılar İsanın yanına gəlib Ondan xahiş etdilər ki, onların yanında qalsın. İsa da iki gün orada qaldı. Daha çox adam da İsanın sözünə görə iman etdi. Onlar qadına deyirdi:* ***«Biz artıq sənin sözlərinə görə iman etmirik, elə özümüz də eşidib bildik ki, həqiqətən, dünyanın Xilaskarı Budur».***

Samariyalı qadının hekayəsi budur. Həqiqətən bu çox vacib hekayədir. Çünki bu pozğun bir qadının Allahın yerə göndərdiyi Xilaskar İsanı necə tanımasını göstərdi. Bu tanışlıq onun həyatını dəyişdi. Söhbətin əvvəlində, qadın onunla danışanın kim olduğunu bilmirdi. O İsaya adi bir Yəhudi kimi baxırdı. Amma söhbət vaxtı İsa ona adi adamın deyə bilməyəcəyi sözləri dedi və buna görə qadın İsanın **peyğəmbər** olduğuna qərar verdi. Amma sonda qadın onunla danışan İsaın **peyğəmbərdən də üstün olduğunu** gördü. O, **bütün peyğəmbərlərin haqqında peyəmbərlik etdiyi dünyanın Xilaskarı olan Məsih idi!**

Qadın bulağın kənarında oturub onunla danışan Adamın Məsih olduğunu biləndə, o su səhəngini yerə qoydu və şəhərə qaçıb oradakılara dedi, *"Gəlin, etdiyim bütün əməlləri mənə söyləyən Adamı görün. Bəlkə elə Məsih Odur?"*

Bundan sonra şəhərdəki adamlar İsanın yanına gəldilər və Onun qalmağını xahiş etdilər. İsa onlara yeni və təmiz ürəyə malik olmaq və necə Allaha həqiqi ibadət edənlər olmaq haqda öyrədərək orada iki gün qaldı. Müqəddəs Yazılar deyir:

*"Daha çox adam da İsanın sözünə görə iman etdi. Onlar qadına deyirdi: "****Biz artıq sənin sözlərinə görə iman etmirik, elə özümüz də eşidib bildik ki, həqiqətən, dünyanın Xilaskarı Budur!"*** (Yəhya 4:41,42)

Indi isə gəlin İncil kitabını oxumaqda davam edək və İsanın Samariyaya baş çəkməsindən bir neçə gün sonra nə baş verdiyinə baxaq. Biz **hamının İsanı dünyanın Xilaskarı kimi qəbul etməyəcəyini görəcəyik**. Lukanın İncili, dördüncü fəsildə Müqəddəs Yazılar deyir:

(Luka 4:14-21) *İsa Ruhun qüdrəti ilə Qalileyaya qayıtdı. Onun haqqında xəbər bütün bölgəyə yayıldı. İsa oranın sinaqoqlarında təlim öyrətməyə başladı. Hamı Onu izzətləndirirdi. İsa* ***böyüdüyü Nazaret şəhərinə*** *gəldi və adətinə görə Şənbə günü sinaqoqa getdi. O, Müqəddəs Yazılardan oxumaq üçün ayağa qalxdı.*
*Ona Yeşaya peyğəmbərin kitabını verdilər. İsa tumarı açıb bu sözlər yazılan hissəni tapdı: «Rəbbin Ruhu üzərimdədir, çünki fəqirlərə Müjdəni bildirmək üçün O Məni məsh etdi. Əsirlərə azadlıq, korlara gözlərinin açılmasını elan etmək üçün, məzlumları sərbəstliyə buraxmaq üçün, Rəbbin lütf ilini bəyan etmək üçün Məni göndərdi». Sonra İsa tumarı bağladı və xidmətçiyə verib oturdu. Sinaqoqda oturanların hamısı Ona diqqətlə baxırdı. İsa onlara* ***«eşitdiyiniz bu Müqəddəs Yazı bu gün yerinə yetdi»*** *deyə danışmağa başladı.*

Bu sözlərlə İsa yeddi yüz il əvvəl Yeşaya peyğəmbərin haqqında yazdığı Məsih və Xilaskar olduğunu iddia edirdi. Amma Nazaretdə yaşayan Yəhudilər onların arasında böyüyən İsanən göylərdən gələn Xilaskar olduğunu qəbul edə bilmirdilər! Buna görə də onlar belə deyərək Onu lağa qoyurdular, *"Bu Yusifin oğlu deyilmi?"*

Müqəddəs Yazılar İsanın Nazaret camaatına Allahın göndərdiyi Məsihə xor baxmamaları haqda xəbərdarlıq etdiyini deyir. Amma bu, onları daha da qəzəbləndirirdi. Müqəddəs Yazılar deyir:

(Luka 4:28-30) *Sinaqoqdakı camaatın hamısı bu sözləri eşidib hiddətləndi. Onlar ayağa durdular və İsanı şəhərin kənarına qovdular. Onu uçurumdan atmaq üçün şəhərin qurulduğu təpənin başına gətirdilər. Amma İsa onların arasından keçərək oradan çıxıb getdi.*

Nazaret əhalisi İsanı öldürməyə çalışırdı! Nə üçün onlar İsanı öldürməyə çalışırdılar? Onlar İsanın Allahın peyğəmbərlərinin haqqında yazdığı **Məsih** olduğunu iddia etdiyinə görə öldürməyə çalışırdılar. **"Həqiqət acı olur."** İsanın həqiqət sözləri Nazaret əhalisini o qədər qəzəbləndirdi ki, onlar hətta Onu qayadan atmaq istədilər. Amma edə bilmədilər. Çünki İsanın ölümü üçün Allahın təyin etdiyi vaxt hələ gəlib çatmamışdır. Allahın göndərdiyi dünyanın Xilaskarını və Hakimini öldürmək istəmək, insan tərəfindən necə də axmaqlıq və pislikdir!

Bu günkü dərsimizi necə yekunlaşdıra bilərik? Biz **iki qrup adamlar** haqqında iki hekayə eşitdik. Hər iki qrup İsanın Məsih olduğunu iddia etdiyini eşitdi. Amma İsanın iddiasına onların cavabı çox fərqli idi.

1) Birinci, biz İsanın bulaq başında günahkar qadın ilə rastlaşması və Samariya əhalisi haqda eşitdik. Onlar İsanın sözlərini böyük sevinc ilə qəbul etdilər və **inandılar** ki, İsa Məsihdir, dünyanın Xilaskarıdır.

2) Amma ikinci hekayədə isə, Nazaretdən olan dini rəhbərləri gördük. Onlar İsanın sözlərinə xor baxırdılar. Onlar **inanmırdılar** ki, öz şəhərində böyüyən İsa Məsih idi.

Qısaca, biz görürük ki, Samariyada yaşayan günahkarlar İsanın göylərdən göndərilmiş Məsih olduğunu qəbul etdilər, amma Nazaretdə yaşayan dini adamlar Onu qəbul etmədilər.

Bəs sən necə? Bu iki qrupdan hansı sənə daha yaxındır? Sən **İsanı Rəbb və Xilaskar kimi qəbul edən** Samariyalılar kimisən? Yoxsa günahlarından onları xilas etmək üçün **İsanın göylərdən göndərilmiş Məsih olduğunu qəbul etməyən** Nazaretlilər kimisən? Sən İsanın bütün peyğəmbərlərin haqqında yazdığı Qurtarıcı olduğuna inanırsan? Onu Xilaskarın kimi qəbul etmisən?

Müqəddəs Yazıların İsa Məsih haqda nə yazdığına qulaq as:

*"Nur qaranlıqda parlayır, qaranlıq isə onu bürüyə bilmədi..... O, dünyada idi, dünya Onun vasitəsilə yarandı, amma dünya Onu tanımadı. Öz diyarına gəldi, amma soydaşları Onu qəbul etmədi.* ***Lakin Onu qəbul edənlərin hamısına, adına iman edənlərə Allahın övladları olmaq ixtiyarını verdi.*** *Onlar nə qandan, nə bəşər arzusundan, nə də kişi istəyindən deyil, yalnız* ***Allahdan*** *doğuldu!"* (Yəhya 1:5,10-13)

Əziz dinləyici, sən Allahdan doğulmusan? Sən həqiqətən İsaya inanırsan? Onu Rəbbin və Xilaskarın kimi qəbul etmisən?

Gələn dərsdə hamının İsanın dünyanın Xilaskarı olduğunu bilməsi, göstərdiyi əlaməti görməsi üçün bizə qoşulmağa dəvət edirik. ...

Samariya xalqının İsa haqqında dediyi şəhadəti xatırladıqca Allah sənə xeyir-dua versin,

***"Həqiqətən, dünyanın Xilaskarı Budur!"*** (Yəhya 4:42)

69-cu Dərs

# İsanın Səlahiyyəti

**Matta 12; Yəhya 5**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Müqəddəs Yazılardakı oxuduqca biz İsa Məsih haqda olan Xoş Xəbəri nəql edən İncilə baxırıq. O Adəmin övladarını Şeytanın, günahın və əbədi cəzanın hökmranlığından azad etmək üçün dünyaya gələn Xilaskardır.

Ötən bir neçə dərsdə biz İsanın Yəhudilərin torpağında səyahət edərək camaatı **öyrətdiyini** və xəstələrə **şəfa** verdiyini gördük. Beləliklə böyük kütlə Onun ardınca gedirdi. Amma dini rəhbərlərin əksəriyyəti Ona paxıllıq edirdi. Çünki onlar nə Onun danışdığı müdrik sözlər ilə mübahisə edə bilmirdilər, nə də ki, Onun etdiyi möcüzələri inkar edə bilmirdilər.

Biz bu gün İncil kitabını oxumaqda davam edəcəyik və **Rəbb İsanın istirahət günü olan Şənbə haqda dini rəhbərlər ilə necə üzləşdiyini görəcəyik.** Şənbə, Allahın Yəhudilərə altı gün işləyəndən sonra verdiyi istirahət günü, həftənin yeddinci günü idi. Amma o dövrün dini rəhbərləri olan Fəriseylər İsanı Şənbə gününü pozmaqda günahlandırdılar. Çünki O Şənbə günü yaxşı işlər görürdü. Onlar İsanı hörmətdən salmaq üçün bunlardan bəhanə kimi istifadə edirdilər. Çünki Onu ittiham etmək üçün Onda pis heç bir şey tapmırdılar.

Gəlin Mattanın İncili on ikinci fəsili oxuyaq. Müqəddəs Yazılar deyir:

(Matta 12:1-8) *O vaxtlar İsa bir **Şənbə günü** taxıl zəmiləri arasından keçirdi. Şagirdləri ac idi və sünbülləri qırıb yeməyə başladılar. Fariseylər bunu görüb Ona dedilər: «Budur, şagirdlərin Şənbə günü qadağan olunan işləri görürlər». İsa onlara dedi: «Davud və yanındakılar ac olanda nə etdiklərini oxumamısınızmı?*
*O, Allahın evinə girdi; ona və yanındakılara deyil, yalnız kahinlərə yeməyə icazə verilən təqdis çörəklərini yedilər. Eləcə də Qanunda oxumamısınız ki, kahinlər məbəddə Şənbəni pozurlar, lakin təqsirsiz sayılırlar?*
*Amma sizə deyirəm ki, **məbəddən daha üstün Olan buradadır.** Əgər siz "Mən qurban deyil, mərhəmət istəyirəm" sözünün mənasını bilsəydiniz, təqsirsizləri məhkum etməzdiniz. Ona görə ki **Bəşər Oğlu Şənbə gününün Sahibidir**».*

Müqəddəs Yazılarda İsanın yüzlərlə adı və titulları var. ***"Bəşər Oğlu"*** Onun Özü üçün ən çox istifadə etdiyi titul idi. Bəşər Oğlu titulu bizə Məsihin Özünü təvazökarlaşdırdığını və Adəm övladı olmağı götürdüyünü xatırladır. Bu həmçinin bizə Onun izzətini açır. Çünki insan olaraq Özünü alçaldan bu Şəxs, bütün səlahiyyətə və Adəm övladları üzərində bütün hökmə sahib Olandır. Bu haqda düşün! Allahın Kəlamı, Ruhu, qüdrəti və izzəti yerə gəlib insan forması aldı! Bəli, İsa Məsih Bəşər Övladı, Şənbə Gününün və hər şeyin Rəbbidir. Amma Fəriseylər İsanın həqiqətən kim olduğunu qəbul etmirdilər.

Gəlin sonra nə baş verdiyinə qulaq asaq. Müqəddəs Yazılar deyir:

(Matta 12:9-15) *İsa oradan ayrılıb onların sinaqoquna girdi.Budur, orada* ***əli qurumuş bir adam*** *var idi. Bəzi adamlar İsanı ittiham etmək məqsədi ilə «Şənbə günü şəfa verməyə icazə varmı?» deyə soruşdular.*
*İsa onlara belə cavab verdi: «Hansınızın bir qoyunu olarsa və qoyun Şənbə günü çuxura düşərsə, onu tutub çıxartmaz? İnsan qoyundan nə qədər dəyərlidir!* ***Beləliklə, Şənbə günü xeyirxah iş görməyə icazə var».***
*Sonra İsa adama dedi: «Əlini uzat!» O, əlini uzatdı və əli əvvəlki halına qayıdıb o biri əli kimi sağlam oldu.*
*Fariseylər çıxıb İsanı necə məhv etmək barədə məsləhətləşdilər. İsa bunu bilib oradan uzaqlaşdı. Böyük bir izdiham Onun ardınca getdi və İsa onların hamısına şəfa verdi.*

Biz Fəriseylərin İsanı səhv iş görməkdə necə ittiham etdiklərini görürük. Çünki İsa onların ənənələrinə hörmət etmədi. Bu dini rəhbərlərin ac və xəstə adamlara ürəyi yanmırdı, hətta onlar Şənbə günü yaxşı işlərin görülməməsinin Allahdan olduğunu insanlara inandırmağa çalışırdılar! Necə də ikiüzlülük! Amma onların şər ürəklərini bilən İsa, onlara Allahın Müqəddдəs Yazılarda belə deyərək bəyan etdiyini xatırlatdı, *"Əgər siz 'Mən qurban deyil, mərhəmət istəyirəm' sözünün mənasını bilsəydiniz, təqsirsizləri məhkum etməzdiniz. Ona görə ki Bəşər Oğlu Şənbə gününün Sahibidir."*

Müqəddəs Yazılar deyir:

(Matta 12:22-28) *Ondan sonra İsanın yanına cinə tutulmuş kor və lal bir adamı gətirdilər. İsa ona şəfa verdi. Beləcə o danışmağa və görməyə başladı. Bütün xalq «Bu, Davudun Oğlu deyilmi?» deyə mat qaldı. Lakin fariseylər bunu eşitdikdə dedilər: «Bu Adam ancaq cinlərin başçısı Baal-Zevulun gücü ilə cinləri qovur».*
*Fariseylərin nə düşündüklərini bilən İsa onlara dedi: «Öz daxilindən bölünmüş hər padşahlıq viran qalar və öz daxilindən bölünmüş hər şəhər yaxud ev davam gətirməz. Əgər Şeytan Şeytanı qovarsa, özü daxilindən bölünmüş olur. Bu vəziyyətdə onun padşahlığı necə davam gətirər? Əgər Mən cinləri Baal-Zevulun gücü ilə qovuramsa, bəs sizin adamlarınız kimin gücü ilə qovur? Buna görə də onlar sizin hakimləriniz olacaq.*
*Lakin Mən cinləri Allahın Ruhu ilə qovuramsa, deməli, Allahın Padşahlığı üzərinizə gəlib.*

(Yəhya 5:1-18) *Bu hadisələrdən sonra Yəhudilərin bir bayramı oldu və İsa Yerusəlimə getdi. Yerusəlimdəki Qoyun darvazasının yanında, ibranicə Bet-Xasda adlanan beş eyvanlı bir hovuz var. Bu eyvanlarda çoxlu xəstə, kor, topal və iflic adam yatardı.*
*Otuz səkkiz il* ***xəstə*** *olan bir adam da orada idi. İsa onun yatdığını görəndə çoxdan xəstə olduğunu bilərək ondan soruşdu: «Sağalmaq istəyirsənmi?» Xəstə Ona cavab verdi: «Ağa, yanımda bir adam yoxdur ki, su çalxalanan zaman məni hovuza salsın. Mən çatınca başqası məndən əvvəl oraya enir».*
*İsa ona dedi: «Qalx, döşəyini götür və yeri!» O adam həmin anda sağaldı və döşəyini götürüb yeridi. O gün Şənbə günü idi. Buna görə də Yəhudi başçıları şəfa tapan adama dedi: «Bu gün Şənbə günüdür, döşəyini daşımaq qadağandır». O adam onlara cavab verdi: «Məni sağaldan Şəxs mənə "döşəyini götür və yeri" dedi». Ondan soruşdular: «Sənə "götür və yeri" deyən Adam kimdir?» Lakin sağalan adam Onun kim olduğunu bilmirdi, çünki İsa o yerdə olan izdihama qarışmışdı.*
*Bir az sonra İsa məbəddə həmin adamı tapıb dedi: «Bax sən sağaldın, bir də günah etmə ki, başına daha pis iş gəlməsin». O adam gedib onu sağaldan Şəxsin İsa olduğunu Yəhudi başçılarına bildirdi. Buna görə Yəhudi başçıları İsanı təqib etməyə başladı, çünki bunları Şənbə günü edirdi. Lakin İsa onlara dedi: «Mənim Atam indiyə qədər iş görür, Mən də iş görürəm».* ***Bundan sonra Yəhudi başçıları daha da səylə Onu öldürməyə çalışırdılar, çünki***

***İsa yalnız Şənbə gününü pozmadı, həm də Allahın Öz Atası olduğunu söyləyərək Özünü Allaha bərabər saydı.***

Gəlin burada dayanaq. Nə üçün dini rəhbərlər İsanı narahat edirdilər və Onu öldürmək istəyirdilər? Bu Şənbə günü İsanın şikəstə şəfa verdiyinə görə idi? Bu əsl səbəb deyildir. Onlar İsanı **Allahı Onun Atası olduğunu dediyinə** görə öldürmək istəyirdilər. Onlar İsanın Allahın hüzurundan gəlmiş Məsih olduğunu qəbul edə bilmirdilər. Bu yolla onlar İsanı küfr danışmaqda ittiham edirdilər və Onu məhv etmək istəyirdilər.

Amma Müqəddəs Yazılar deyir:

(Yəhya 5:19-46) *Beləcə İsa onlara dedi: «Doğrusunu, doğrusunu sizə deyirəm: **Oğul** Atanın nə etdiyini görməsə, Özündən bir şey etməz. Çünki Ata nə edərsə, Oğul da onu edər. Ona görə ki Ata Oğulu sevir və Özünün etdiyi hər şeyi Ona göstərir. Ona bunlardan da böyük işlər göstərəcək ki, siz heyrətlənəsiniz. Ata ölüləri dirildib onlara həyat verdiyi kimi Oğul da istədiyi şəxslərə həyat verir. Ata heç kəsi mühakimə etmir, lakin hökm çıxarmağı Oğulun ixtiyarına verib ki, hər kəs Ataya hörmət etdiyi kimi Oğula da hörmət etsin. Oğula hörmət etməyən Onu göndərən Ataya da hörmət etmir.*
***Doğrusunu, doğrusunu sizə deyirəm: Mənim sözümə qulaq asıb Məni Göndərənə inanan şəxs əbədi həyata malikdir və ona hökm çıxarılmayacaq, əksinə, ölümdən həyata keçib.***

*... Əgər Mən Özüm barədə **şəhadət** etsəydim, şəhadətim etibarlı olmazdı. Lakin Mənim barəmdə şəhadət edən başqasıdır və Mənim barəmdə etdiyi şəhadətin etibarlı olduğunu bilirəm. Siz **Yəhyanın** yanına adamlar göndərdiniz və o, həqiqətə şəhadət etdi. Lakin insandan şəhadət qəbul etdiyim üçün deyil, yalnız sizin xilas olmağınız üçün bunları söyləyirəm. Yəhya yanan və nur saçan bir çıraq idi, siz bir müddət onun işığında sevinmək istədiniz. Amma Mənim barəmdə olan şəhadət Yəhyanın şəhadətindən üstündür. Çünki Atanın Mənə tam yerinə yetirmək üçün tapşırdığı **işlər** – indi etdiyim bu işlər Mənim barəmdə şəhadət edir ki, Ata Məni göndərib. Məni göndərən **Atanın** Özü də Mənim barəmdə şəhadət etdi. Siz heç vaxt nə Onun səsini eşitmisiniz, nə də surətini görmüsünüz. Onun kəlamının da sizdə qalmasına imkan vermirsiniz, çünki Onun göndərdiyi Şəxsə inanmırsınız. Siz **Müqəddəs Yazıları** araşdırırsınız. Çünki düşünürsünüz ki, onların vasitəsilə əbədi həyata malik olacaqsınız. Ancaq onlar da Mənim barəmdə şəhadət edir, siz isə həyata malik olmaq üçün Mənə tərəf gəlmək istəmirsiniz. İnsanlardan izzət qəbul etmirəm. Ancaq sizi tanıyıb bilirəm ki, ürəyinizdə Allah məhəbbəti yoxdur. Mən Atamın adı ilə gəlmişəm, amma siz Məni qəbul etmirsiniz. Əgər bir başqası öz adı ilə gəlsə, onu qəbul edərsiniz. Siz bir-birinizdən izzət qəbul edirsiniz, bir olan Allahdan gələn izzəti isə axtarmırsınız. Bəs onda necə iman edə bilərsiniz?*
*Güman etməyin ki, Mən sizi Atanın önündə ittiham edəcəyəm. Sizi ittiham edən ümid bağladığınız Musadır. Əgər siz **Musaya** inansaydınız, Mənə də inanardınız, çünki o Mənim barəmdə yazıb.*

Sən Rəbb İsanın Onu öldürmək istəyən Fəriseyləri necə məzəmmət etdiyini eşitdin? Onlara dedi ki, kim Allahın göylərdən göndərdiyi **Məsihi qəbul etmirsə**, o Məsihin müqaisə edilməz sözlərini və işlərini də qəbul etmir; o **Yəhya** peyğəmbərin, **Musa** peyğəmbərin və **Müqəddəs Yazıların** şəhadətini də qəbul etmir. Qısaca, Məsihi qəbul etməyən hər bir kəs **Allahın Özünü** qəbul etmir. Oğula hörmət etməyən, Onu göndərən Ataya hörmət etmir. Isanın sözünü və nüfuzunu rədd etmək, Allahın sözünü və nüfuzunu rədd etməkdir. Çünki İsa Allahın Sözüdür və Allahın bütün hökmü və səlahiyyəti həvalə etdiyi Şəxsdir.

Allaha və Onun peyğəmbərlərinə həqiqətən inanan hər bir kəs həmçinin göylərdən gələn İsa Məsihə də inanacaqdır. Çünki Allahın bütün peyğəmbərləri Onun haqqında şəhadət etmişdilər. Peyğəmbərlərin yazılarını bilən və onlara inanan şəxs həm də Məryəmin oğlu İsanın dünyanın Xilaskarı olmaq üçün Allahın seçdiyi olduğunu biləcək və inanacaqdır. Isa dini rəhbərlərə bunu deyirdi,

(Yəhya 5:39-47) *Siz Müqəddəs Yazıları araşdırırsınız. Çünki düşünürsünüz ki, onların vasitəsilə əbədi həyata malik olacaqsınız.* ***Ancaq onlar da Mənim barəmdə şəhadət edir****, siz isə həyata malik olmaq üçün Mənə tərəf gəlmək istəmirsiniz.... Güman etməyin ki, Mən sizi Atanın önündə ittiham edəcəyəm. Sizi ittiham edən ümid bağladığınız Musadır. Əgər siz Musaya inansaydınız, Mənə də inanardınız, çünki o Mənim barəmdə yazıb.* ***Lakin onun yazdıqlarına inanmırsınızsa, Mənim sözlərimə necə inanacaqsınız?»***

Hər birimiz bu sözləri diqqətlə nəzərdən keçirməliyik. Çünki onların mənasını tam başa düşmək üçün Allah bizə dərrakə vermək istəyir. Allah istəyir ki, həqiqət bizim ürəklərimizdə olsun. **Əgər biz peyğəmbərlərə inanırıq desək, onda biz onların haqqında şəhadət etdikləri Şəxsə də, yəni İsa Məsihə də inanmalıyıq!** Dostlar, sizi bu sual ilə tərk edirik: Sən **həqiqətən** peyğəmbərlərə inanırsan? Qəribədir ki, hansısa bir adamın şəhadətinə çoxları tez inanırlar, amma Müqəddəs Yazıları yazmış olan **Allahın çox peyğəmbərlərinin təsdiq olunmuş şəhadətinə** çox az adam inanır. Bəs sən necə? *"Sən peyğəmbərlərə inanırsanmı?"* (Həvarilərin İşləri 26:27)

Əziz dinləyicilər, İsa Məsihin gözəl hekayəsini davam etdirmək üçün sizi gələn dərsdə bizə qoşulmağa dəvət edirik.....

Rəbb İsanın Fəriseylərə dediyi sözlər haqqında düşündükcə, qoy Allah sizə xeyir-dua versin və sizə danışsın:

***"Lakin onun yazdıqlarına inanmırsınızsa, Mənim sözlərimə necə inanacaqsınız?"*** (Yəhya 5:47)

70-ci Dərs

# İsanın Qüdrəti

**Mark 4-6; Matta 9,10**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz Yəhudilərin dini rəhbərlərinin İsanı məhv etmək üçün axtardıqlarını gördük. Çünki O deyirdi ki, Allah Onun Atası idi və bununla da Allahla bərabərliyini iddia edirdi. Rəbb İsa hara gedirdisə, böyük izdiham Onun ardınca gedirdi. İzdiham arasında bəziləri İsanın sözlərinə inanırdı, bəziləri isə Ona inanmırdı. İsa, Ona inananlar arasından on iki həvari seçdi ki, onlarla olsun, onları öyrətsin və xilasın Xoş Xəbərini elan etmək üçün onları göndərsin.

İsanın seçdiyi on iki həvarinin adları bunlardır: Sonradan Peter adlandırılan Şimon və onun qardaşı Andrey; Zavday oğlu Yaqub və onun kiçik qardaşı Yəhya (bunların dördü balıqçı idilər); sonra Filip, Bartalmay, Tomas, vergi yığan Matta, Halfay oğlu Yaqub, Tadday, Kənançı Şimon və İsanı satacaq olan Yəhuda İskaryot. (Bax Matta 10:2-4) Bunlar İsanı müşayiət edən on iki həvarilər idilər. Bir neçə qadın da İsa hara gedirdisə Onun ardınca gedirdilər: İçindən yeddi cin çıxmış Məcdəlli Məryəm; Hirodun eşikağası Xuzanın arvadı Yoxanna, Şoşanna və bir çox başqa qadınlar. Bu qadınlar öz əmlakları ilə İsaya kömək edirdilər. (Bax Luka 8:2,3)

Artıq gördüyümüz kimi insanlar Rəbb İsanın təliminə heyrətlənirdilər. Çünki O onların dini rəhbərlərində olmayan səlahiyyət ilə öyrədirdi. İsanın səlahiyyəti sadəcə sözlərlə məhdudlaşmırdı. Onun işləri ilə də sübut edilirdi. Müqəddəs Yazılar deyir*: "Çünki Allahın Padşahlığı sözdən deyil,* ***gücdən*** *ibarətdir."* (1 Korinflilərə 4:20) Bu günkü dərsimizdə biz **Rəbb İsanın** bütün məxluqlar və yer üzündə olan hər bir qüvvə üzərində **qüdrətə və səlahiyyətə malik olduğunu** görəcəyik.

Biz Markın İncili, dördüncü fəsili oxumağa başlayırıq. Müqəddəs Yazılar deyir:

(Mark 4:35-41) *Həmin gün axşam düşəndə İsa şagirdlərinə dedi: «Gəlin o biri sahilə keçək». Şagirdlər camaatdan ayrılaraq İsanı mindiyi qayıqla birgə apardılar; onun yanında başqa qayıqlar da var idi. Bu vaxt* ***böyük bir tufan qopdu****. Dalğalar qayığa elə hücum çəkdi ki, su artıq onun içinə doldu. İsa qayığın arxa tərəfində başını yastığa qoyub yatırdı. Şagirdlər Onu oyadaraq dedilər: «Müəllim! Axı biz həlak oluruq! Bu Səni narahat etmirmi?» İsa durub küləyə qadağan etdi və gölə dedi:* ***«Sus, sakit ol!»*** *Külək dayandı və* ***dərin sükut çökdü****. İsa onlara dedi: «Niyə qorxursunuz? Hələ imanınız yoxdurmu?» Onlar dəhşətə düşüb bir-birindən soruşdular:* ***«Bu Adam kimdir ki, külək də, göl də Ona itaət edir?»***

(Mark 5) *Onlar gölün o biri sahilində yerləşən Gerasalıların diyarına getdilər. İsa qayıqdan düşən kimi qəbir mağaralarından* ***natəmiz ruha tutulmuş bir adam*** *Onunla qarşılaşdı. O, mağaralarda yaşayırdı və heç kim onu hətta zəncirləyərək saxlaya bilmirdi. Neçə dəfə ona buxov, zəncir vurmuşdular, lakin o, zəncirləri qırmış, buxovları parçalamışdı. Heç kəsin onu sakit etməyə gücü çatmırdı. Həmişə, gecə-gündüz qəbiristanlıqda, dağlarda çığırır və özünü daşlarla yaralayırdı. O, İsanı uzaqdan görəndə qaçıb Ona səcdə qıldı, bərkdən çığıraraq dedi: «Ey İsa, Allah-Taalanın Oğlu, məndən nə istəyirsən? Səni and verirəm Allaha, mənə*

*iztirab vermə!» Çünki İsa ona demişdi: «Ey natəmiz ruh, bu adamdan çıx!» Sonra İsa ondan soruşdu: «Sənin adın nədir?» O cavab verdi: «Mənim adım Qoşundur, çünki biz çoxuq». Ruhları bu diyardan qovmasın deyə o, İsaya çox yalvardı. Orada – dağın yamacında böyük bir donuz sürüsü otlayırdı.*
*Natəmiz ruhlar İsaya yalvardılar: «Bizi donuzlara göndər ki, onların içinə girək». İsa onlara izin verdi. Natəmiz ruhlar adamdan çıxıb donuzların içinə girdi. İki minədək sürü də uçurumdan aşağı, gölə atılıb orada boğuldu. Donuz otaranlar qaçıb bu xəbəri şəhər və kəndlərdə yaydılar. Camaat nə baş verdiyinə tamaşa etməyə gəldi.* ***Onlar İsanın yanına gəldilər, əvvəlcə bir qoşun cinə tutulmuş adamın geyinmiş və ağıllanmış oturduğunu görüb qorxuya düşdülər.*** *Hadisəni görənlər cinə tutulmuş adamın başına gələnlər və donuzlar haqqında camaata söylədilər. İsaya yalvarmağa başladılar ki, onların bölgəsindən çıxsın. İsa qayığa minəndə əvvəlcə cinə tutulmuş adam Ona yalvardı ki, İsanın yanında qalsın. İsa ona izin vermədi, amma dedi: «Evinə, qohum-əqrəbanın yanına get, Rəbbin sənə etdiyi hər şeyi və sənə necə mərhəmət göstərdiyini onlara danış». Bu adam da gedib İsanın ona etdiyi hər şeyi Dekapolis bölgəsində yaymağa* ***başladı və hamı heyrətləndi.***

*İsa yenə qayıqla o biri sahilə keçəndə yanına böyük bir izdiham yığıldı. O, gölün sahilində idi. Sinaqoq rəislərindən Yair adlı bir adam gəlib İsanı görəndə ayaqlarına düşdü. Ona çox yalvarıb dedi: «Qızcığazım can üstündədir. Gəl əllərini onun üstünə qoy ki, sağalıb yaşasın». İsa da onunla birlikdə getdi. Ardınca böyük bir izdiham gedərək hər tərəfdən Onu sıxışdırırdı. Orada* ***on iki il qanaxma xəstəliyinə tutulan bir qadın var idi****. O, neçə həkimin əlindən xeyli əzab çəkmiş, bütün varını buna sərf etsə də, vəziyyəti yaxşılaşmamış, daha da pisləşmişdi. Bu qadın İsa haqqında eşidib izdihamın içindən keçərək Onun arxasından gəldi və* ***Onun paltarına toxundu.*** *Çünki bu cür düşünürdü: «Heç olmasa paltarına toxunsam, sağalaram».* ***Dərhal onun qanaxması kəsildi*** *və bildi ki, bədənindəki xəstəlikdən sağaldı. İsa dərhal bildi ki, Ondan bir qüvvət çıxdı və izdihamın içində dönüb soruşdu: «Paltarıma toxunan kim idi?» Şagirdləri Ona cavab verdilər: «Görürsən ki, izdiham Səni sıxışdırır. Necə soruşa bilərsən ki, Mənə toxunan kim idi?» Bunu edəni görmək üçün İsa ətrafa baxdı. Qadın isə özünə nə olduğunu bildi. Qorxudan titrəyərək gəlib İsanın ayağına düşdü və bütün həqiqəti Ona söylədi. İsa da ona dedi: «Qızım, imanın səni xilas etdi. Arxayın get və xəstəliyindən sağal».*

*İsa hələ danışırdı ki, sinaqoq rəisinin evindən adamlar gəlib dedi: «****Qızın öldü****. Daha Müəllimi niyə narahat edirsən?» Lakin İsa bu sözə məhəl qoymayaraq sinaqoq rəisinə dedi: «Qorxma, yalnız iman et!»*
*O, Peter, Yaqub və Yaqubun qardaşı Yəhyadan başqa heç kimi ardınca gəlməyə qoymadı. Onlar sinaqoq rəisinin evinə gələndə İsa çox hay-küy, ağlaşıb nalə çəkənlər gördü. İsa içəri girəndə onlara dedi: «Niyə hay-küy salıb ağlaşırsınız? Uşaq ölməyib, sadəcə olaraq yatıb». Onlar İsaya güldülər. Belə olanda İsa hamını bayıra çıxarandan sonra uşağın ata və anasını, Özü ilə gələnləri götürüb uşaq olan yerə girdi.*
*İsa uşağın əlindən tutub dedi: «Talita qum!» Bunun mənası belədir:* ***«Qızcığaz, sənə deyirəm: qalx!»***
*On iki* ***yaşlı qız dərhal qalxıb*** *gəzməyə başladı.* ***O an oradakılar tamamilə mat qaldı.*** *İsa onlara qadağan etdi ki, bunu heç kəs bilməsin və sonra dedi ki, qıza yemək versinlər.*

(Matta 9:27-34) *İsa oradan keçərkən* ***iki kor adam*** *Onun ardınca gələrək qışqırırdı: «Ey Davud Oğlu! Bizə rəhm elə!»*
*Evə girdikdə korlar Onun yanına gəldilər. İsa onlara dedi: «Bunu etməyə qadir olduğuma inanırsınızmı?» Kor adamlar Ona dedilər: «Bəli, ya Rəbb». O zaman İsa onların gözlərinə toxunaraq dedi: «Sizə imanınıza görə olsun».* ***Onların gözləri açıldı****. İsa «baxın heç kim bu barədə bilməsin» deyə onlara ciddi tapşırdı.*

*Onlar isə çıxıb Onun haqqındakı xəbəri o torpağın hər tərəfinə yaydılar. Onlar çıxarkən* ***cinə tutulmuş lal bir adamı*** *İsanın yanına gətirdilər. Cin qovulandan sonra* ***lal danışmağa başladı. Xalq heyrətlənərək*** *dedi: «İsraildə heç vaxt belə bir şey baş verməmişdi». Lakin fariseylər deyirdilər: «O, cinlərin başçısının gücü ilə cinləri qovur».*

(Mark 6:1-8) *İsa oradan ayrılıb doğma yurduna gəldi. Şagirdləri də Onun ardınca gəlirdi. Şənbə günü olanda O, sinaqoqda təlim öyrətməyə başladı. Onu dinləyən adamların çoxu təəccüblənərək dedi:* ***«Bu Adamda belə şeylər haradandır? Bu necə hikmətdir Ona verilib? Bu cür möcüzələr Onun əlindən necə gəlir?*** *Bu Adam həmin dülgər deyilmi? Məryəmin oğlu, Yaqubun, Yusifin, Yəhudanın və Şimonun qardaşı deyilmi? Onun bacıları burada – bizim aramızda yaşamırmı?» Onların İsaya acığı tutdu. İsa onlara dedi: «Bir peyğəmbərə öz yurdundan, qohum-əqrəbaları arasından və öz evindən başqa heç bir yerdə xor baxmazlar». Orada heç bir möcüzə yarada bilmədi, yalnız bir neçə xəstənin üzərinə əl qoyub şəfa verdi.* ***İsa onların imansızlığına heyrət edirdi.*** *Sonra ətraf kəndlərdə təlim öyrədərək oraları gəzib-dolaşdı.*
*İsa On İki şagirdi yanına çağırıb onları iki-iki göndərməyə başladı və onlara natəmiz ruhlar üzərində səlahiyyət verdi. Onlara tapşırdı ki,*
(Matta 10:16-17, 2-39) *Budur, sizi qurdlar arasına quzular kimi göndərirəm. Ona görə də ilan kimi müdrik və göyərçin kimi məsum olun. İnsanlardan özünüzü gözləyin. Çünki onlar sizi məhkəmələrə çəkəcək, sinaqoqlarında qamçılayacaqlar. ...* ***Bədəni öldürüb canı öldürə bilməyənlərdən qorxmayın. Həm canı, həm bədəni cəhənnəmdə məhv edə bilən Allahdan qorxun. ...*** *Düşünməyin ki, yer üzünə sülh gətirməyə gəlmişəm. Mən sülh deyil, qılınc gətirməyə gəlmişəm. Çünki Mən oğulu atasından, qızı anasından, gəlini də qayınanasından ayırmağa gəlmişəm. "İnsanın düşməni öz ev əhli olacaq". "Atasını ya anasını Məndən artıq sevən kəs Mənə layiq deyil. Oğlunu ya qızını Məndən artıq sevən də Mənə layiq deyil.... Canını qoruyan kəs onu itirəcək, Mənim uğrumda canını itirənsə onu qoruyacaq."* Amin.

Bu gün biz Rəbb İsanın həm Allahın qüdrətinin həm Onun Sözlərində, həm də Onun işlərində bol olduğunu gördük. Onun ardınca gedən izdiham heyrətlənərək deyirdi, ***"Bu Adamda belə şeylər haradandır? Bu necə hikmətdir Ona verilib? Bu cür möcüzələr Onun əlindən necə gəlir?"*** (Mark 6:2)

Isa gücünü və müdrikliyini haradan alırdı? O onları heç haradan "almırdı". Onun Özü Allahın Gücü və Müdrikliyidir. Rəbb İsa **haradan gəldiyini və Kim olduğunu** göstərmək üçün yer üzündə Allahın bütün qüdrətli işlərini etdi. Yaradılmış hər bir məxluq üzərində və hər bir qüvvə üzərində Onun səlahiyyəti var idi. Çünki **O Allahın Ruhu və Sözüdür.** Buna görə də İsa tufanı sakitləşdirdi və pis ruha tutulmuş adama sadəcə bir söz deməklə şəfa verdi. Allahın bütün sərhədsiz qüdrəti Rəbb İsada var idi. Bu səbəbə görə də O on iki il qanaxmadan əziyyət çəkən qadına şəfa verə bildi. Bu qadın bütün pullarını həkimlərə və dərmanlara xərcləmişdi, amma İsanın paltarına toxunduğu anda o şəfa tapdı. Oxşar olaraq, İsa iki kor adamın gözlərinə toxunarkən, onların gözləri həmin anda açıldı. Və İsanın səlahiyyəti yalnız canlı olanlar ilə məhdudlaşmırdı. Onun ölüm üzərində də səlahiyyəti var idi! Buna görə də o ölmüş uşağı dirildə bildi. İsanın gücü adi peyğəmbərlərin gücündən üstün idi. Çünki Onun Özü **insan bədənində olan Allahın Sözü idi.**

Bəli, Allahın Sözü bizə deyir ki, bütün qüdrət və bütün səlahiyyət İsa Məsihə verilibdir. Buna görə də əgər sən İsaya öz Xilaskarın və Rəbbin kimi etibar edirsənsə, onda sənin heç bir şeydən qorxmağa ehtiyacın yoxdur: nə ölümdən, nə həyatdan, nə pis ruhlardan, nə cadugərlərdən, nə indiki zamandan, nə də ki, gələcəkdən! Sənin daha göz muncuğu və yaxud sancaq taxmağa ehtiyacın yoxdur. Çünki **Rəbb İsa səni qoruyacaqdır.** Müqəddəs Yazılar

deyir: ***"Allahın tam bütövlüyü bədəncə*** *Məsihdə yaşayır. Siz də Onda tamamlanmısınız.* ***O hər başçının və hakimin Başıdır!"*** (Kolosselilərə 2:9,10)

Əziz dost, sən "hər başçının və hakimin Başına" etibar edirsən? Yoxsa hələ də bu dünyanın daha kiçik başçılarını və hakimlərini razı salmağa çalışırsan?

Dinlədiyiniz üçün çox sağ olun. Rəbbin iradəsi ilə gələn dərsdə biz İncil kitabını oxumaqda davam edəcəyik və İsanın məsəllərlə izdihama necə öyrətdiyini eşidəcəyik.....

***"Allahın tam bütövlüyü bədəncə Məsihdə yaşayır!"*** (Kolosselilərə 2:9,10)

71-ci Dərs

# İki Mühüm Məsəl

**Luka 8; Matta 13**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək və Ona itaət edək və həmçinin, Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gündə də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz İsa Məsihin adi peyğəmbərlərdən daha böyük hakimiyyətə malik olduğunu öyrəndik. İsa Allahın qüdrəti ilə dolu idi. **O insan bədənində Allahın Qüdrəti idi!** Buna görə də O tufanı sakitləşdirə bildi, pis ruhları qovdu, xəstə və korlara şəfa verdi və hətta ölünü diriltdi!

Bu gün biz İncil kitabını oxumaqda davam edəcəyik və məsəllərdən istifadə edərək İsanın izdihama necə öyrətdiyi haqda eşidəcəyik. Isa adətən həqiqətləri məsəllərlə başa salardı. Çünki Onun ardınca gedən adamların əksəriyyəti əslində Allahın Sözünü bilmək istəmirdi. Onların istədikləri şey İsanın yalnız onların bədənlərinə xəstəliklərdən şəfa verməsi idi, istəmirdilər ki, İsa onların **günahlı** qəlblərinə şəfa versin. Isanın ardınca dini rəhbərlər də gedirdilər ki, Onu dinləyərək ittiham etmək üçün fürsət tapsınlar. Onlar İsa ilə olanda, İsa izdihama məsəllərlə danışardı. Və Öz həqiqi ardıcılları ilə tək olanda məsəllərin mənalarını onlara başa salardı.

Allah istəyir ki, hamı həqiqəti bilsin və xilas olsun. Amma əgər ürəklərimiz sərtləşibsə, Allah Öz həqiqətlərini bizə açmayacaqdır. Allah istəyir ki, biz əksər insanların zənginlik axtardığı kimi, biz Onun həqiqətlərinin ardınca gedək! Süleyman peyğəmbər yazıb, ***"Bunları gümüş kimi axtarsan, gizli xəzinə kimi arasan, Onda Rəbb qorxusunu anlayarsan, Allahı tanıyarsan."*** (Süleymanın Məsəlləri 2:4,5)

Bəs sən necə? Sən **Allahın həqiqətini** puldan və ya digər xəzinədən daha çox sevirsənmi? Allahın həqiqi Sözü sənin düşüncələrində və qəlbində ən mühüm yerdə dururmu? Bəlkə sən öz qəlbinin əsl vəziyyətini bilmirsən. Onda Rəbb İsanın **Əkinçi barədə Məsəlinə** diqqətlə qulaq as.

Biz Lukanın İncili, səkkizinci fəsli oxuyuruq. Müqəddəs Yazılar deyir:

(Luka 8:4-15) *Böyük izdiham toplaşanda, insanlar hər şəhərdən İsanın yanına gələndə İsa onlara bir məsəl danışdı:«**Bir əkinçi toxumunu səpməyə çıxdı.** Səpin zamanı toxumlardan bəzisi yol kənarına düşdü, ayaq altında tapdalandı və göydə uçan quşlar onları dənlədi. Bəzisi daşlığa düşdü və cücərincə susuzluqdan quruyub getdi. Bəzisi tikanlar arasına düşdü. Tikanlar toxumla birgə boy atıb onu boğdu. Başqaları isə münbit torpağa düşdü və böyüyüncə yüz qat artıq səmərə verdi». İsa bunları deyərək nida etdi: «Eşitməyə qulağı olan eşitsin!»*

*Şagirdləri isə Ondan soruşdular: «Bu məsəlin mənası nədir?» O dedi,... Məsəlin mənası budur: **toxum** Allahın kəlamıdır. **Yol kənarına düşənlərsə** kəlamı eşidənlərdir. Sonra iblis gəlir və iman etməyib xilas olmasınlar deyə kəlamı onların ürəyindən götürüb aparır. **Daşlığa düşənlərsə** kəlamı eşidəndə sevinclə qəbul edənlərdir. Lakin onlarda kök olmadığına görə bir müddət iman edir və sınaq vaxtı gələndə imandan dönürlər. **Tikanlar arasına** düşənlərsə*

*bunlardır: kəlamı eşidirlər, amma get-gedə bu həyatın qayğılarından, var-dövlətindən, zövqlərindən boğulur və yaxşı bəhrə vermirlər.* ***Münbit torpağa düşənlərsə*** *bunlardır: belə insanlar kəlamı eşidib xeyirxah və sadiq ürəkdə saxlayırlar. Bunlar səbirlə səmərə verir.*

Bu məsəlin mənasını başa düşürsən? Bu məsəldə biz toxum və torpaq görürük. Toxum nəyin rəmzidir? Rəbb İsa nə dedi? O dedi: **Toxum Allahın həqiqi Sözünün rəmzidir.** Bəs torpaq? O nəyin rəmzidir? **Torpaq insan ürəyinin rəmzidir.**

Bəli, Allahın Sözü yaxşı toxum kimidir. Çünki o canlıdır , qəlbinə və həyatına əbədi həyat, həqiqi xeyir-dualar verməyə qadirdir. İnsan ürəyi isə torpaq kimidir, hansı ki, çox bərk və quru ola bilər. Gəlin bir az özümüz haqda düşünək. Biz məsəldə neçə cür torpaq görürük? Biz toxumun dörd növ torpaq üzərinə düşdüyünü gördük.

1) **Yol kənarına** düşən toxum

2) **Daşlığa düşən** toxum

3) **Tikanlığa** düşən toxum

4) **Münbit torpağa** düşən toxum

Birinci, İsa öyrətdi ki, dünayada çoxlarının ürəyi insanların üzərində gəzdiyi **yol kənarı** kimidir. Bəzi insanların ürəyi daş kimi bərkdir. Əgər toxum belə torpağa düşsə, onda nə baş verəcəkdir? O bəhrə verəcəkdir? Heç vaxt! O hətta kök belə sala bilməz. Insanlar sadəcə olaraq onun üzərində tapdalayacaqlar və göydəki quşlar onu yeyəcəkdir. Bir çox insanların ürəkləri belədir. Yol kənarı kimi ürəkləri olan insanlar **Peyğəmbərlərin Yazılarına əhəmiyyət verməyən** və nəticə etibarı ilə İsanın dünyanın xilaskarı olmasına inanmayanlardır. Onlar yalnız öz düşüncələrinin yaxud ulubabalarının ənənlərinin qeydinə qalırlar. Toxum yol kənarına düşəndə bəhrə verə bilmədiyi kimi Allahın həqiqi Sözü də onların ürəklərində bəhrə verə bilməz.

İsanın danışdığı ikinci növ torpaq **daşlıq** torpaqdır. Çoxlu daş olan torpaq Allahın Sözünə qulaq asan və onu sevinclə tez qəbul edən ürəyi təsvir edir. Amma bu sevinc çox uzun sürmür. Çünki Allahın Sözü insanın ürəyində həqiqətən kök salmamışdır. Belə insan inandığını deyir, amma sınaqlar gələndə yaxud Allahın Sözünə görə təqiblər olanda o həqiqətdən dönür. Çoxları belədir. Allahın Sözü onların ürəklərində dərin kök salmayıbdır. Çünki onlar insan alqışını, Allahın alqışından üstün tuturlar. Nəticə etibarı ilə necə ki, daşlıq yerə düşən toxum dəyərsizdir, eləcə də Allahın Sözü onlar üçün dəyərsizdir.

**Üçüncü** növ torpaq **tikanlarla dolu** olandır. Toxum tikanlar arasına düşəndə nə baş verir? Bəhrə gətirər? Xeyr! O bəhrə gətirməzdən əvvəl tikanlar onu boğacaqdır. Tikanlı torpaq Allahın Sözünə qulaq asan adamın təsviridir. Amma dünyanın qayğıları və **zənginliyin aldadıcılığı və acgözlüyü ona üstün gəlir**, Kəlamı boğur və o məhsul vermir. Adəmin övladlarının çoxunda belə tikanlı torpaq kimi ürək var. Onlar fikirləşirlər: "Hə, bir gün mən Peyğəmbərlərin Yazılarına baxacağam. Vaxtım olanda mən Allahın Sözünə qulaq asacağam, "inşaallah!" Amma şeytan çox yaxşı bilir ki, belə insanlar Allahın Sözünü anlamaq üçün heç vaxt vaxt ayırmayacaqlar. Gündəlik problemlər və ehtiyaclar onların ürəklərinə və düşüncələrinə üstün gələcəkdir. Onlar işləməlidirlər, pul qazanmalıdırlar, bazara getməlidirlər, almalıdırlar, satmalıdırlar, oxumalıdırlar, yatmalıdırlar və.s. Sənin təcrübən belədir? Sənin həyatın ehtiyaclar və qayğılarla belə doludur ki, sən heç vaxt Allahın Həqiqətlərini bütün

ürəyinlə axtarmağa vaxt ayırmamısan? Yadda saxla ki, bir gün ölüm qəfl gələcək və səni əbədiyyətə aparacaqdır. O gün sən həqiqətin və yalanın nə olduğunu biləcəksən. Amma həyatın boyu axtarmadığın, nə də ki itaət etmədiyin həqiqəti bilməyin heç bir əhəmiyyəti olmayacaqdır. Çünki tövbə müddəti artıq keçmiş olacaqdır və sən əbədiyyən qeyb olacaqsan!

Dördüncü növ torpaq, **münbit** torpaqdır. İşçinin  münbit torpaqda səpdiyi toxum kök saldı, böyüdü və bol bəhrə verdi. Və əkinçi  əkdiyindən yüz dəfə çox becərdi. Münbit torpaq  məsəli Allahın Sözünü eşidib və səmimi qəlbində onu saxlayan adamı təsvir edir. Sonra o salehlik və əbədi həyat məhsulu verir. Allahın Sözü canlı və qüdrətlidir, o onu təvazökar və pak ürəklə qəbul edən bütün insanlarda əbədi həyat və salehlik bəhrəsi verəcəkdir.

Bu İsanın əkinçi haqda məsəlinin qısa məzmunudur. Allahın Sözü yaxşı toxum kimidir, bizim ürəklərimiz isə bərk torpaq kimi. Toxumun bərk torpağa düşməsi üçün birinci nə baş verməlidir?  Hər bir əkinçinin bildiyi kimi, onu şumlamaq lazımdır. Oxşar olaraq, Allahı razı salan ürək də sınmış və peşman olmuş, Allahın Sözünün Yaxşı Toxumunu qəbul etməyə hazır olan ürəkdir. Allahı razı salan ürək, Onun Sözünü tövazökarlıqla və imanla qəbul edən ürəkdir. Müqəddəs Yazılar elan edərkən bunu deyir: *"Qoy hər bir adam eşitməkdə cəld, söz söyləməkdə təmkinli olsun.... hər cür murdarlığı və dolub-daşan pisliyi kənara ataraq ürəyinizə əkilən,* ***canlarınızı xilas etməyə qadir olan kəlamı həlimliklə qəbul edin."*** (Yaqub 1:19,21)

Sənin qəlbinin vəziyyəti necədir? Səndə peyğəmbərlər vasitəsi ilə Müqəddəs Yazılarda Allahın dediklərini qəbul etməyə hazır olan təvazökar ürək var? Allahın Sözü ürəyində böyüyür? Yoxsa sənin ürəyin yol kənarı, daşlı və tikanlı torpaq kimidir? Allahın Sözü Yaxşı Toxumdur. Amma o yalnız ona həqiqətən inanan və itaət edən ürəkdə həyat və xeyir-dua bəhrəsi verəcəkdir.

Indi isə gəlin İsanın izdihama danışdığı digər "əkinçi məsəlinə" baxaq. Bu Alaq Otu Məsəlidir. Müqəddəs Yazılar deyir:

(Matta 13:24-43) *İsa onlara başqa bir məsəl də çəkdi****: «Səmavi Padşahlıq tarlasına yaxşı toxum səpmiş bir adama bənzəyir. Adamlar yatanda onun düşməni gəlib buğdaların arasına dəlicə səpib getdi****. Buğda böyüyüb bəhrə verəndə dəlicələr də göründü. Ev sahibinin qulları gəlib ona belə dedilər: "Ağa, sən tarlana yaxşı toxum səpmədinmi? Bəs bu dəlicə haradan əmələ gəldi?" O isə qullara dedi: "Bunu düşmən etmişdir". Qullar da ona dedilər: "İstəyirsənmi gedib onları çıxaraq?" O dedi: "Yox, çünki dəlicələri çıxararkən onlarla birgə buğdanı da qopararsınız. Qoy biçinə qədər hər ikisi birlikdə böyüsün. Biçin vaxtı mən biçinçilərə deyəcəyəm: ‹Əvvəlcə dəlicələri toplayın və yandırmaq üçün onlardan dərz bağlayın, buğdanı isə anbarlarıma toplayın›."*

*... O zaman İsa xalqdan ayrılıb evə girdi. Şagirdləri Onun yanına gəlib dedilər: «Tarladakı dəlicələr məsəlini bizə izah et». Cavabında İsa dedi: «Yaxşı toxumu səpən* ***Bəşər Oğludur****. Tarla isə* ***dünyadır****. Yaxşı toxum* ***Padşahlığın övladlarıdır****. Dəlicə isə* ***şər olanın övladlarıdır****. Dəlicələri səpmiş olan düşmən* ***iblisdir****. Biçin* ***dövrün sonudur*** *və biçinçilər isə* ***mələklərdir****. Dəlicələr toplanıb alovla yandırıldığı kimi bu dövrün sonunda da belə olacaq. Bəşər Oğlu mələklərini göndərəcək, onlar da pis yola çəkən bütün şeyləri və qanunsuzluq edənləri Onun Padşahlığından toplayacaq və onları odlu sobaya atacaqlar. Orada ağlaşma və diş qıcırtısı olacaq. O zaman salehlər Atalarının Padşahlığında günəş kimi parlayacaqlar.* ***Qulağı olan eşitsin!***

Alaq otu məsəlində Rəbb İsa dünyanı buğda tarlasına bənzətdi. **Əkinçi İsa Məsihi** təsvir edir. Tarlada böyüyən **buğdalar** isə Məsihin Xoş Xəbərinə iman edən **Allahın övladlarını** təsvir edir. Buğdalar arasına alaq otu əkən düşmən isə **iblisdir**. **Alaq otu,** Məsihin Xoş Xəbərini qəbul etməyən, **Allaha məxsus olmayanlardır**. **Biçin Dövrü Məhkəmə Günüdür**. **Anbarda toplanan buğda**, **əbədiyyən Allahın hüzurunda yaşamaq hüququna malik olanları təsvir edir**. Amma **toplanan və alova atılan alaq otları isə əbədi alova atılacaqları təsvir edir.**

Əziz dinləyici, bəs sən necə? Sən **buğda** kimisən? Yoxsa **alaq otu** kimi? Ürəyini yoxla! Məhkəmə Günü yaxınlaşır! Hakimlə üzbəüz dayanmağa əminsən, yoxsa qorxursan? Əgər ürəyində səni əbədi cəhənnəmdən xilas etmək üçün Gələnin Xoş Xəbəri varsa, onda sənin o gündən qorxmağa ehtiyacın yoxdur. İsa Məsihin  Məhkəmə Günü haqda dediklərinə qulaq as. O dedi, *"Doğrusunu, doğrusunu sizə deyirəm: Mənim sözümə* ***qulaq asıb*** *Məni Göndərənə* ***inanan*** *şəxs əbədi həyata malikdir və ona* ***hökm çıxarılmayacaq****, əksinə,* ***ölümdən həyata*** *keçib!"*   (Yəhya 5:24) Amin!

Dinlədiyin üçün çox sağ ol. Allahın iradəsi ilə gələn dəfə biz İncil kitabını oxumaqda davam edəcəyik və İsanın möcüzəli yolla beş mindən çox adamı beş çörək və iki balıqla necə doyuzdurduğunu görəcəyik.....

İsa Məsihin bu sözlərini yadda saxladıqca qoy Allah bu gün eşitdiklərinin hamısı üçün sənə dərrakə versin:

"***Qulağı olan eşitsin!"*** **(Matta 13:43)**

72-ci Dərs

# Həyat Çörəyi

**Mark 6; Yəhya 6**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz Rəbb İsanın izdihama danışdığını gördük. O Öz təlimini əbədi həqiqətlərlə dolu olan məsəllərlə təqdim edirdi. Amma **camaatın əksəriyyəti məsəllərin mənasını başa düşmürdü. Çünki onların ürəkləri sərtləşmişdir.** Onlar səmavi şeyləri yox yalnız dünyəvi şeyləri qiymətləndirirdilər. Əksəriyyət İsanın günahkarların xilaskarı olduğuna görə yox, Ondan fiziki xeyir aldıqlarına görə Onun ardınca gedirdilər.

Bu gün biz Rəbb İsanın danışdığı daha çox sözlərə qulaq asacağıq. Biz həmçinin Onun Öz Sözlərini möcüzəli əlamətlərlə təsdiqlədiyini də görəcəyik. Bu günkü dərsimiz **"Həyat Çörəyi"** adlanır.

Indi isə gəlin müqəddəs kitabı oxumaqda davam edək və Markın İncili, altıncı fəslə baxaq. Müqəddəs Yazılar deyir:

(Mark 6:30-53) *Həvarilər İsanın yanına yığıldı... Çünki gəlib-gedən çox olduğundan yemək yeməyə belə, vaxt tapmırdılar. Onlar da ayrılıb qayığa minərək təkbaşına kimsəsiz bir yerə getdilər. Gedərkən camaat onları gördü və çoxu tanıdı; bütün şəhərlərdən axışıb piyada getdilər, onlardan qabaq oraya çatdılar. İsa sahilə düşəndə böyük bir izdiham gördü və onlara rəhmi gəldi. Çünki onlar çobansız qoyunlara bənzəyirdi. İsa onlara çox şeylər haqqında təlim öyrətməyə başladı.*
*Vaxt keçirdi. Şagirdləri gəlib İsaya dedilər: «Bura çöllükdür, artıq gecdir. Camaatı burax, qoy gedib ətrafdakı kənd və obalardan özlərinə bir şey alıb yesin». Amma İsa onlara cavab verdi: «Onlara yeməyi siz verin». Şagirdlər İsaya dedi: «Bəlkə gedib iki yüz dinarlıq çörək alaq və onlara verək ki, yesinlər?» Amma İsa onlara dedi: «Gedin baxın, neçə çörəyiniz var?» Onlar da baxıb dedilər: «Beş çörək və iki balığımız var».*
*İsa onlara əmr etdi ki, camaatı dəstə-dəstə göy otların üstündə oturtsunlar. Camaat yüz-yüz, əlli-əlli dəstə şəklində oturdular.*
*İsa beş çörəyi və iki balığı götürüb göyə baxaraq şükür duası etdi. Sonra çörəyi bölüb şagirdlərinə verdi ki, camaata paylasınlar. İki balığı da hamıya bölüşdürdü. Hamı yeyib-doydu. Artıq qalan çörək və balıq hissələrini yığdılar, on iki zənbil doldu. Çörəkləri yeyən kişilərin sayı beş min nəfər idi. Bundan dərhal sonra İsa camaatı evlərinə göndərərkən şagirdlərinə də qayığa minib Özündən əvvəl o biri sahilə – Bet-Saydaya keçmələrini məcbur etdi. İsa camaatı yola salandan sonra dua etmək üçün dağa çıxdı.*
*Axşam olanda qayıq gölün ortasında idi. Amma İsa quruda tək dayanmışdı. O gördü ki, şagirdləri gücla avar çəkir, çünki külək onlara qarşı əsirdi. Gecənin dördüncü növbəsi İsa gölün üstü ilə yeriyərək onların yanına gəldi və onları keçmək istədi. Şagirdlər isə İsanın gölün üstü ilə yeridiyini görəndə Onu bir kabus bilib qışqırdılar. Çünki hamı Onu görüb lərzəyə düşmüşdü. Lakin bu anda İsa onlara müraciət edib dedi: «Cəsarətli olun, Mənəm, qorxmayın!» Qayığa minib onlara qoşuldu. Külək də sakitləşdi. Hamı tamamilə mat qaldı. Çünki inadkar ürəkli olduqlarına görə çörəklə bağlı işi hələ də başa düşməmişdilər.*
*İsa və şagirdlər gölü keçib Ginesar sahilinə çatdılar və qayığı bağladılar.*

(Yəhya 6:22-27) *Ertəsi gün gölün o biri sahilində qalan xalq başa düşdü ki, orada yalnız bir qayıq olub, İsa Öz şagirdləri ilə həmin qayığa minməyib, şagirdləri Onsuz gedib.... Beləcə xalq İsanın da, şagirdlərinin də orada olmadığını görüb qayıqlara minərək İsanı axtara-axtara Kefernahuma gəldi. İsanı gölün o biri sahilində görəndə «Rabbi, buraya nə vaxt gəldin?» deyə soruşdular. İsa onların cavabında dedi: «Doğrusunu, doğrusunu sizə deyirəm: əlamətlər gördüyünüz üçün deyil, çörək yeyib doyduğunuz üçün Məni axtarırsınız.* ***Keçib-gedən yemək üçün deyil, əbədi həyat verən, daim qalan yemək üçün işlər görün,*** *onu sizə Bəşər Oğlu verəcək. Çünki Ata Allah Ona Öz möhürünü vurub».*

Gəlin burada dayanaq. Nə üçün İsa izdihama dedi, "***Keçib-gedən yemək üçün işləməyin" ?*** Bu o deməkdir ki, biz nə isə yemək üçün işləməməliyik? Xeyr, bu o demək deyil. Çünki Allahın Sözü həm də deyir: *"Kim işləmək istəmirsə, yemək də yeməsin."* (2 Saloniklilərə 3:10) Bəs onda nə üçün İsa dedi, "***Keçib-gedən yemək üçün işləməyin"?*** İsanın dediyi bu idi: Əgər sən yalnız qarnın üçün işləyirsənsə və yalnız dünyəvi şeylərin ardınca gedirsənsə, sən hər şeyi itirəcəksən. Çünki sənin bədənin öləcək və torpağa dönəcəkdir. Amma sənin bədənində bir şey var ki, o heç vaxt məhv olmayacaqdır. O **sənin canındır**. İnsanın canı əbədiyyən ya **Cənnət** adlanan izzətli yerdə, ya da ki, **Cəhənnəm** adlanan dəhşətli yerdə olacaqdır. Buna görə də İsa dedi, "***Keçib-gedən yemək üçün deyil, əbədi həyat verən, daim qalan yemək üçün işlər görün!"*** İsa izdihama bu yolla xəbərdarlıq etdi ki, onlar sadəcə keçib gedən yeməyin ardınca yox, heç vaxt keçib getməyən Allahın Sözünün ardınca getsinlər. Çünki *"İnsan yalnız çörəklə deyil, Allahın ağzından çıxan hər kəlmə ilə yaşayar."* (Matta 4:4) Rəbb İsa bunu dedi.

Təəssüf ki, İsanın ətrafında olanların əksəriyyəti Allahın Sözünün qayğısına qalmırdılar, nə də ki, Allahın göndərdiyinə inanmadılar! Qarınlarını yeməklə doldurmaq onlar üçün ürəklərini Allahın məhkəməsindən xilas edə biləcək həqiqət ilə doldurmaqdan daha vacib idi. Buna görə də İsa onlara dedi, **"***Keçib-gedən yemək üçün deyil, əbədi həyat verən, daim qalan yemək üçün işlər görün.... Onlar İsadan soruşdu: «Allahın istədiyi işləri görmək üçün biz nə edək?İsa onlara cavab verdi: «Allahın istədiyi iş budur:* ***Onun göndərdiyi Şəxsə iman edin»."*** *(Yəhya 6:27-29)*

İsanın cavabını eşitdin? Günah içində doğulmuş Adəm övladı Allahı necə razı sala bilər? Biz Allahı razı salan işlər görə bilərik? Biz özümüzü Şeytanın, günahın və cəhənnəmin hakimiyyətindən hansısa yolla xilas edə bilərik? Biz Allahın tələb etdiyi kamil və təmiz ürəyi yarada bilərik? Heç vaxt! Bəs onda Adəmin nəsli Allahı necə razı sala bilər? Rəbb İsa bu haqda nə dedi? O dedi, *"Allahın istədiyi iş budur:* ***Onun göndərdiyi Şəxsə iman edin."*** Heç bir insan Allahın göndərdiyi müqəddəs Qurtarıcıya iman etmədən Allahı razı sala bilməz.

Təəssüf ki, izdihamın əksəriyyəti İsanın Allahın göndərdiyi Xilaskar olduğuna inanmırdı. Buna görə də Ona dedilər,

(Yəhya 6:30-35*) Onlar İsaya dedi: «Sən nə əlamət göstərərsən ki, görüb Sənə inanaq? Nə iş görəcəksən?Ata-babalarımız çöldə manna yedi; bu barədə yazılıb: "Onlara yemək üçün göydən çörək verdi"».*
*Onda İsa onlara dedi: «Doğrusunu, doğrusunu sizə deyirəm: sizə göydən çörək verən Musa deyildi, göydən həqiqi çörəyi sizə verən Atamdır. Çünki Allahın çörəyi budur ki, göydən enir və dünyaya həyat verir».*
*Ona dedilər: «Ağa, Sən daim bizə bu çörəyi ver». İsa onlara dedi:* ***«Həyat çörəyi Mənəm. Mənim yanıma gələn heç vaxt acmaz, Mənə iman edən heç vaxt susamaz!"***

Bu sözlərlə İsa deyirdi: Qırx il səhralıqda İsrail övladlarının ölməmələri üçün onları yedizdirməkdən ötrü Allah necə göydən qida göndərdisə, eləcə də Allah Adəmin bütün övladlarına günahlarımızda məhv olmamamız üçün əbədi həyat verən "Qida" göndərdi!

Bu "Qida" haradadır? Yer üzündə elə bir qida varmı ki, onu yesən əbədiyyən Allahın hüzurunda yaşaya bilərsən? Xeyr, belə bir qida yoxdur! Bəs bu əbədi həyat verən "Qida" nədir? Rəbb İsa nə deyib?

(Yəhya 6:35-69) *İsa onlara dedi: «**Həyat çörəyi Mənəm.** Mənim yanıma gələn heç vaxt acmaz, Mənə iman edən heç vaxt susamaz. Lakin sizə dedim ki, Məni görürsünüz, amma iman etmirsiniz. Atanın Mənə verdiyi şəxslərin hamısı yanıma gələcək və yanıma gələni heç vaxt kənara atmaram.... Çünki Atamın iradəsi budur ki, Oğulu görüb Ona iman edən hər şəxs əbədi həyata malik olsun və Mən onu son gündə dirildim».*
*Bunun cavabında Yəhudilər İsanın «göydən enmiş çörək Mənəm» sözünə görə deyinib dedilər: «Bu, ata-anasını tanıdığımız, Yusifin Oğlu olan İsa deyilmi? İndi necə olur ki, "göydən enmişəm" deyir?»*
*İsa onlara cavab verdi: «Öz-özünüzə deyinməyin.... Peyğəmbərlərin kitablarında yazılıb: "Onların hamısını Allah öyrədəcək". Atadan eşidib öyrənən hər kəs Mənim yanıma gəlir. Əlbəttə, Allahdan gələn Şəxsdən savayı Atanı heç kəs görməyib, yalnız O, Atanı görüb. Doğrusunu, doğrusunu sizə deyirəm: iman edən əbədi həyata malikdir. Həyat çörəyi Mənəm. Ata-babalarınız çöldə manna yedilər və öldülər. Bu isə göydən enən elə bir çörəkdir ki, ondan yeyən şəxs heç vaxt ölməz. **Göydən enmiş canlı çörək Mənəm**. Əgər kimsə bu çörəkdən yesə, əbədi yaşayar. ...*
*Şagirdlərindən bir çoxu bu sözləri eşidəndə dedi: «Bu söz qəlizdir. Bunu kim anlaya bilər?» Lakin İsa şagirdlərinin buna görə deyindiklərini duyaraq onlara dedi: «Bu söz sizi büdrədirmi? Yaxşı, bəs Bəşər Oğlunun əvvəllər olduğu yerə qalxdığını görsəniz, necə? Həyat verən Ruhdur, cismani təbiətinsə heç faydası yoxdur. Sizə söylədiyim sözlər Ruh və həyat gətirir. Lakin sizin aranızda iman etməyənlər də var». Çünki İsa iman etməyənlərin və Ona xəyanət edəcək adamın kim olduğunu əvvəlcədən bilirdi.*
*... Bunlardan sonra şagirdlərinin çoxu İsadan ayrılıb daha Onunla gəzmirdi. Onda İsa On İki şagirdə dedi: «Yoxsa siz də Məni tərk etmək istəyirsiniz?» Şimon Peter Ona cavab verdi: **«Ya Rəbb, biz kimin yanına gedək? Əbədi həyatın sözlərini söyləyən Sənsən. Biz də iman etmişik və bilirik ki, Allahın Müqəddəsi Sənsən».***

Beləliklə bir çox şagirdlər geri döndülər, İsanın çətin təliminə görə bir daha Onun ardınca getmədilər. Amma İsanın ardınca gedənlərin arasında elələri var idi ki, Onu tərk etmədilər. Çünki onlar əmin idilər ki, İsa Məsih, Allahın Müqəddəsi, **Həyat Çörəyi, əbədi həyat verən "Həqiqi Qida" idi!**

Bəli, bu belədir. Sən İsanın həqiqətən kim olduğunu, Onun necə olduğunu və sənin üçün nələr etdiyini biləndə, sən daha başqa ağa istəməyəcəksən! İsa əbədi həyatın yeganə Çeşməsidir. Yalnız O, xilasa və Allah ilə yaxın ünsiyyətə acımış ürəyi doyuzdura bilər.

Bəs sən necə? Sən əbədi həyat üçün acımısan? Susamısan? Sən Allah qarşısında bu dünyada və gələcək dünyada etibara malik olmaq istəyirsən? Onda Rəbb İsa Məsihdən olan bu böyük dəvət haqqında düşün, ***"Ey bütün yorğunlar və yükləri ağır olanlar, Mənim yanıma gəlin, Mən sizə rahatlıq verərəm.... Həyat çörəyi Mənəm. Mənim yanıma gələn heç vaxt acmaz, Mənə iman edən heç vaxt susamaz!"*** (Matta 11:28; Yəhya 6:35) Amin.

Dostlar, dinlədiyiniz üçün çox sağ olun. Allahın iradəsi ilə gələn dərsdə biz İncil kitabını oxumaqda davam edəcəyik və İsaya görə izdihamın necə bölündüyünü eşidəcəyik....

Rəbb İsanın bu sözlərini yadda saxladıqca Allah sizə xeyir-dua versin:

***"Həyat çörəyi Mənəm. Mənim yanıma gələn heç vaxt acmaz, Mənə iman edən heç vaxt susamaz!"*** **(Yəhya 6:35)**

73-cü Dərs

# İsa Ayrılığa Səbəb Olur

**Matta 15,16; Yəhya 7**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz Rəbb İsanın beş çörəyi və iki balığı çoxaldıb beş mindən çox adamı yedizdirdiyini gördük. Sonrakı gündə böyük izdaham İsanın ətrafında toplaşmışdır amma ürəkləri görən İsa onlara dedi, *"Çörək yeyib doyduğunuz üçün Məni axtarırsınız. Keçib-gedən yemək üçün deyil, əbədi həyat verən, daim qalan yemək üçün işlər görün! «**Həyat çörəyi Mənəm**. Mənim yanıma gələn heç vaxt acmaz, Mənə iman edən heç vaxt susamaz!"* (Yəhya 6:26,27,35)

Təəssüf ki, bir çox insanlar geri döndülər və ruhlarını qidalandıran yeməkdən çox bədənlərini qidalandıran yeməyi daha üstün tutduqlarına görə daha İsanın ardınca getmədilər. Amma bəziləri İsanın ardınca gedirdi. Çünki onlar ürəklərində İsanın Allahın Müqəddəsi və əbədi həyat çeşməsi olduğuna inanırdılar.

Bu gün biz müqəddəs İncil kitabını oxumaqda davam edəcəyik və İsanın Yəhudi dini rəhbərlər ilə üzləşdiyini və **İsaya görə** Yəhudilərin necə **bölündüyünü** görəcəyik. Başlamazdan əvvəl bu faktı bilmək yaxşıdır ki, Fəriseylər kimi tanınan dini adamlar və Yəhudilərin əksəriyyəti ulubabalarının qoyduğu adət-ənənə ilə gedirdilər. Məsələn: onlar ictimai yerdən qayıdanda, xüsusi qayda ilə yuyunmadan yemək yeməzdilər. "Pak" olmaları üçün onların həmçinin kasanı, su qazançasını və çaydanı yumaq üçün digər adətləri də var idi.

Mattanın İncili, on beşinci fəsildə yazılana qulaq as. Müqəddəs Yazılar deyir:

(Matta 15:1-9) *Onda Yerusəlimdən fariseylər və ilahiyyatçılar İsanın yanına gəlib dedilər: «Nə üçün şagirdlərin ağsaqqallardan qalan adət-ənənəni pozur və çörək yedikləri zaman əllərini yumurlar?» İsa cavabında onlara dedi: **«Bəs siz nə üçün öz adət-ənənəniz naminə Allahın əmrini pozursunuz?** Çünki Allah belə əmr etdi: "Ata-anana hörmət et" və "Atasını yaxud anasını söyən adam öldürülməlidir". Siz isə deyirsiniz: "Kim atasına yaxud anasına ‹məndən umduğun yardım Allaha həsr olundu› desə, onda atasına hörmət etməyə bilər". **Beləliklə, siz öz adət-ənənəniz naminə Allahın kəlamını heç edirsiniz**. Ey ikiüzlülər! Yeşaya peyğəmbər sizin üçün nə yaxşı söyləyib! O demişdir: **"Bu xalq dodaqları ilə Mənə hörmət edir, amma qəlbləri Məndən uzaqdır. Boş yerə Mənə səcdə edirlər, insan əmrlərindən çıxardıqları təlimləri öyrədirlər."***

İsanın hamının qarşısında Fəriseylərin, İlahiyyatçıların ikiüzlülüyünü necə ifşa etdiyinə fikir verdin? Dini rəhbərlər insanların qarşısında saleh olmağa çalışırdılar, amma Rəbb İsa onların ürəklərində olanları bilirdi. Ola bilsin onların **əlləri, ayaqları və üzləri** təmiz idi amma **ürəkləri** günah ilə **ləkələnmişdir**! **Təmiz ürək təmiz əllərdən daha vacibdir!** Yuyunma mərasimi sənin qəlbini təmiz etmir. Əgər içi çirkli qazanın varsa, onu üzdən yumaq qazanı təmiz edəcəkdir? Xeyr, etməyəcəkdir! Eyniylə, Yəhudilərin etdiyi dini mərasim də onların ürəklərində olan günahı təmizləyə bilməzdi. Buna görə də İsa onlara dedi:

(Matta 15:7-31) ***Ey ikiüzlülər!*** *Yeşaya peyğəmbər sizin üçün nə yaxşı söyləyib! O demişdir: "Bu xalq* ***dodaqları*** *ilə Mənə hörmət edir, amma* ***qəlbləri*** *Məndən uzaqdır. Boş yerə Mənə səcdə edirlər, insan əmrlərindən çıxardıqları təlimləri öyrədirlər." İsa camaatı yanına çağırıb onlara dedi: «Qulaq asın və dərk edin.*
*Ağıza daxil olan şey insanı murdar etməz, amma insanı murdar edən ağızdan çıxan şeydir».*
*O zaman şagirdlər gəlib Ona dedilər: «Bilirsənmi fariseylər bu sözü eşitdikdə incidilər».*
*Amma İsa cavab verib dedi: «Səmavi Atamın əkmədiyi hər bitki kökündən qoparılacaq. Onları buraxın. Onlar korların kor rəhbərləridir.* ***Əgər kor koru aparsa, ikisi də çuxura düşər».***
*Peter Ona cavab verərək dedi: «Bu məsəli bizə izah et». İsa dedi: «Siz də hələ dərk etməmisiniz?*
*Başa düşmürsünüz ki, ağıza girən hər şey qarına gedir və ifraz olunur? Ağızdan çıxan şeylər isə ürəkdən çıxar, bunlar da insanı murdar edər. Çünki ürəkdən pis fikirlər, qatillik, zinakarlıq, cinsi əxlaqsızlıq, oğurluq, yalançı şahidlik və küfr çıxar.* ***İnsanı murdar edən şeylər bunlardır****. Yuyulmamış əllərlə yemək isə insanı murdar etməz».*

*... Onun yanına böyük bir izdiham gəldi və özləri ilə birlikdə topallar, korlar, şikəstlər, lallar və daha başqa bir çoxunu gətirdilər. Onları İsanın ayaqları yanına qoydular və İsa onlara şəfa verdi. Xalq görəndə ki lallar danışır, şikəstlər sağalır, topallar yeriyir və korlar görür, heyrətləndi və İsrailin Allahını izzətləndirdi.*

(Matta 16:1-4) *Fariseylər və sadukeylər yaxınlaşıb İsanı sınamaq üçün xahiş etdilər ki, onlara göydən gələn bir əlamət göstərsin. Amma İsa onlara cavab verdi: «Axşam olanda siz deyirsiniz: "Hava yaxşı olacaq, çünki göy qırmızıdır", səhər çağı "bu gün fırtına qopacaq, çünki göy qırmızıdır, tutqundur" deyirsiniz. Göyün görünüşünü seçə bilirsiniz, ancaq zamanın əlamətlərini seçə bilmirsiniz? Pis və vəfasız nəsil bir əlamət axtarır. Amma ona Yunusun əlamətindən başqa heç bir əlamət verilməyəcək». İsa onları tərk edib getdi.*

(Matta 12:40-41) *Çünki Yunus üç gün-üç gecə nəhəng balığın qarnında necə qalmışdısa, Bəşər Oğlu da üç gün-üç gecə yerin bağrında elə qalacaq. Nineva xalqı qiyamət günündə bu nəsillə birgə qalxıb onu məhkum edəcək. Çünki onlar Yunusun vəzinə görə tövbə etmişdilər. Budur,* ***Yunusdan daha böyük Olan buradadır.***

İsa qabaqcadan bildirirdi ki, Yunus peyğəmbər üç gün nəhəng balığın qarnında olduğu kimi, İsa da üç gün məzarda olacaqdır. Və necə ki, Yunus üçüncü gündə balığın qarnından çıxdı, İsa da üçüncü gün ölülərdən diriləcək. Bununla bizə göylərdən gəlmiş Məsih olduğunu, bizi günahın, ölümün və cəhənnəmin hakimiyyətindən xilas edən Olduğunu inkaredilməz sübut etdi!

Qalan vaxtı gəlin İncili oxumaqda davam edək və dini adamların öz inamsızlıqlarında necə inad etdiklərinə baxaq. Yəhyanın İncili, yeddinci fəsildə Müqəddəs Yazılar deyir:

(Yəhya 7) *Bu hadisələrdən sonra İsa yalnız Qalileyada gəzirdi. Yəhudi başçılarının Onu öldürməyə çalışdıqlarına görə daha Yəhudeyada gəzmək istəmirdi. Yəhudilərin Çardaqlar bayramı yaxınlaşırdı.*
*Qardaşları İsaya dedi: «Buradan çıxıb Yəhudeyaya get ki, şagirdlərin də etdiyin işləri görsün.*
*Çünki Özünü məşhur etməyə çalışan adam heç nəyi gizlicə etməz. Sən bunları edirsənsə, Özünü dünyaya tanıtdır». Çünki* ***qardaşları da Ona iman etmirdi.***

*Onda İsa onlara dedi: «Mənim vaxtım hələ gəlməyib, sizin üçün isə hər vaxt münasibdir. Dünya sizə nifrət edə bilməz, amma Mənə nifrət edir, çünki Mən onun əməllərinin şər olduğuna şəhadət edirəm. Siz bayrama gedin, Mənsə hələ vaxtım tamam olmadığı üçün bu bayrama getməyəcəyəm». İsa bu sözləri söylədikdən sonra Qalileyada qaldı. Ancaq Onun qardaşları bayrama gedəndən sonra O da açıq yox, gizlicə bayrama getdi.*
*Yəhudi başçıları bayramda İsanı axtararaq «O haradadır?» deyirdilər. Camaat arasında Onun barəsində çoxlu dedi-qodu gəzirdi. Bəzisi «yaxşı adamdır», başqaları isə «xeyr, xalqı aldadır» deyirdi. Lakin Yəhudi başçılarının qorxusundan heç kəs Onun barəsində açıq danışmırdı.*
*Artıq bayramın yarısı keçəndə İsa məbədə gedib təlim öyrətməyə başladı. Yəhudi başçıları buna heyrətlənib dedilər: «Bu Adam yaxşı təhsil almadığı halda necə olub ki savadlıdır?» İsa da onlara cavab verdi: «Öyrətdiyim təlim Mənim deyil, Məni Göndərənindir. Kim Onun iradəsini yerinə yetirmək istəyirsə, təlimimin Allahdan olduğunu, yoxsa Özümdən söylədiyimi biləcək.... Qanunu sizə Musa vermədimi? Amma heç biriniz Qanuna əməl etmirsiniz. Niyə Məni öldürməyə çalışırsınız?»*
*Xalq cavab verdi: «Səndə cin var. Kim Səni öldürməyə çalışır?» İsa onlara dedi: «Mən bir iş gördüm və hamınız buna heyrətlənirsiniz. Musa sizə sünnət etməyi buyurdu, amma Musa yox, ata-babalarınız bunun əsasını qoydu. Siz Şənbə günü də bir adamı sünnət edirsiniz. Musanın Qanunu pozulmasın deyə Şənbə günü adam sünnət edilir; bəs Şənbə günü bir adamı tamam sağaltdığıma görə Mənə niyə qəzəblənirsiniz?*
***Zahirə görə mühakimə etməyin, ədalətlə mühakimə edin».***
*... Bu sözlərə görə Onu tutmağa çalışdılar, lakin heç kəs Ona toxunmadı, çünki vaxtı hələ çatmamışdı.* ***Ancaq xalqdan çoxları Ona iman edib dedilər: «Məsih gələndə bu Adamın etdiklərindən çox əlamət göstərəcəkmi?»*** *Fariseylər xalqın İsa haqqında belə dedi-qodu etdiyini eşitdilər. Başçı kahinlər və fariseylər Onu tutmaq üçün mühafizəçilər göndərdi.*
*... Bayramın sonuncu, təntənəli günündə İsa qalxıb nida edərək dedi:* ***«Kim susayıbsa, yanıma gəlib içsin. Müqəddəs Yazılarda deyildiyi kimi, Mənə iman edənin daxilindən həyat suyu axan çaylar çıxacaq».*** *Xalqın bir qismi bu sözləri eşidəndə «Bu, doğrudan da, gəlməli olan peyğəmbərdir» dedilər. Başqaları isə «Bu, Məsihdir» söylədi, ancaq bəziləri dedi: «Nə? Məsih Qalileyadanmı gəlir? Müqəddəs Yazılarda deyilmir ki, Məsih Davudun nəslindən, Davudun yaşadığı Bet-Lexem kəndindən gəlir?» Beləcə İsa barədə xalq arasında fikir ayrılığı oldu. Bəziləri Onu tutmaq istədi, amma heç kəs Ona toxunmadı.*
*Buna görə də mühafizəçilər başçı kahinlərin və fariseylərin yanına qayıtdı. Onlar mühafizəçilərdən «Niyə Onu gətirmədiniz?» deyə soruşdu. Mühafizəçilər cavab verdi****: «Hələ indiyəcən heç bir insan belə danışmayıb».***
*Fariseylər onlara dedi: «Yoxsa sizi də aldadıb? Görün bir rəhbər yaxud bir farisey Ona iman etdimi?*
*49 Bu Qanunu bilməyən xalqa gəlincə, onlar lənətə gəlib!» Aralarından biri – bundan qabaq İsanın yanına gələn Nikodim onlara dedi: «Qanunumuza görə, bir adama qulaq asmadan və nə etdiyini bilmədən onu mühakimə etmək doğrudurmu?» Onlar Nikodimə dedi: «Bəlkə sən də Qalileyadansan? Araşdırsan, görərsən ki, Qalileyadan peyğəmbər çıxmaz». Bundan sonra hər kəs öz evinə getdi.*

Bu kahinlərin, ilahiyyatçıların və Fəriseylərin İsanı necə cana gətirdiklərini göstərir. Onlar İsanı həbs edib öldürmək istəyirdilər. Amma Ona heç nə edə bilmirdilər. Çünki günaha görə İsanın qurban kimi ölməsi üçün hələ Allahın nəzərdə tutduğu vaxt gəlib çatmamışdır.

Təəssüf ki, Yəhudi dini rəhbərlərinin əksəriyyətinin sərtləşmiş ürəyi var idi. Onlar İsaya xor baxırdılar, həttaə İsanın Məsih olduğunu etiraf edən hər bir kəsi Sinaqoqdan qovmaq ilə hədələyirdilər. Beləliklə İsaya görə izdiham arasında **ayrılıq** oldu. Dini rəhbərlərdən

qorxduqlarına görə heç kim Isa haqqında açıq danışmırdı. Bəziləri öz aralarında gizlincə pıçıldayırdılar, "O yaxşı adamdır." Digərləri isə, "Yox, O adamları aldadır!" Başqaları isə bilmək istəyirdi, "Məsih gələndə, O bu Adamdan daha çox möcüzələr göstərəcək?"

Dostum, sən İsa haqqında nə deyirsən? Sən Onun haqqında nə fikirləşirsən? Sən inanırsan ki, İsa Məsih bütün peyğəmbərlərin haqqında yazdıqlarıdır? Yoxsa sən fikirləşirsən ki, İsa sadəcə peyğəmbərlərdən biri idi? Qoy heç kim bu məsələdə səni aldatmasın. Sənin bundan sonrakı gələcəyin bu suala cavabından asılıdır! **Sən İsanın həqiqətən kim olduğunu bilirsən?** Sən Onun dünyaya nə üçün gəldiyini bilirsən? İsanın Özü haqqında dediklərinə qulaq as:

*"Yol, həqiqət və həyat Mənəm. Mənim vasitəm olmadan heç kim Atanın yanına gələ bilməz!.... Mən həqiqət barədə şəhadət etmək üçün doğulub dünyaya gəldim.* ***Həqiqətdən olan hər kəs Mənim səsimə qulaq asar****!"* (Yəhya 14:6; 18:37)

Bəs sən kimin tərəfindəsən? Hətta hamı səni rədd etsə də, sən həqiqət tərəfində olmağa hazırsan?

Dinlədiyiniz üçün çox sağ olun. Sonrakı dərsdə bizə qoşulun. Allahın iradəsi ilə biz İncil kitabını oxumaqda davam edəcəyik və İsanın anadan kor doğulmuş adama necə şəfa verəcəyini görəcəyik....

***"Həqiqətdən olan hər kəs Mənim səsimə qulaq asar!"*** (Yəhya 18:37)

74-cü Dərs

# Dünyanın Nuru

**Yəhya 8,9**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz kahinlərin, ilahiyyatçıların və Fəriseylərin İsanı necə cana gətirdiklərini və Onu həbs edib öldürmək istədiklərini gördük. Amma heç kim İsanı tuta bilmədi. Çünki günahlara görə Onun qurban kimi ölməsi üçün Allahın təyin etdiyi vaxt hələ gəlib çatmamışdır. Bu gün biz İncil kitabını oxumaqda davam edəcəyik və İsanın Ona qarşı çıxanları necə məzəmmət etdiyini və həmçinin anadan kor doğulmuş adama necə şəfa verəcəyini eşidəcəyik. Bu günki dərsimiz **"Dünyanın Nuru"** adlanır.

Yəhyanın İncili, səkkizinci fəsildə oxuyuruq:

(Yəhya 8) **...** *Səhər tezdən yenə məbədə gəldi. Bütün xalq Onun yanına toplaşdı, O da oturub onlara təlim öyrətməyə başladı. ... Sonra İsa yenə xalqa dedi:* ***«Dünyanın nuru Mənəm. Mənim ardımca gələn heç vaxt qaranlıqda gəzməyəcək, həyat nuruna malik olacaq».***
*Fariseylər Ona dedi: «Sən Öz barəndə şəhadət edirsən, Sənin şəhadətin etibarlı deyil». İsa onlara cavab verdi: «Mən Öz barəmdə şəhadət etsəm də, şəhadətim etibarlıdır, çünki haradan gəlib hara gedəcəyimi bilirəm. Siz isə Mənim haradan gəlib hara gedəcəyimi bilmirsiniz. ... siz bu dünyadansınız, Mənsə bu dünyadan deyiləm. Buna görə də sizə "günahlarınız içində öləcəksiniz" dedim.* ***Əgər inanmasanız ki, O Mənəm, günahlarınız içində öləcəksiniz».***
*Onda «Sən Kimsən?» deyə İsadan soruşdular. İsa onlara dedi: «Əvvəlcədən sizə nə söyləyirəmsə, Oyam. ... Bəşər Oğlunu yuxarı qaldırdığınız vaxt biləcəksiniz ki, O Mənəm və Özümdən bir şey etmirəm, ancaq Ata Mənə necə öyrədibsə, o cür danışıram.... Onda siz həqiqəti biləcəksiniz və* ***həqiqət sizi azad edəcək****».*
*Yəhudilər İsaya cavab verdi: «Biz İbrahimin nəslindənik, heç kəsə heç vaxt kölə olmamışıq. Bəs Sən niyə "azad olacaqsınız" deyirsən?» İsa onlara dedi: «Doğrusunu, doğrusunu sizə deyirəm:* ***günah edən hər kəs günahın köləsidir****. Kölə evdə daim qalmaz, oğulsa daim qalar. Buna görə də əgər Oğul sizi azad etsə, həqiqətən də, azad olacaqsınız. İbrahimin nəslindən olduğunuzu bilirəm, ancaq bununla belə, Məni öldürməyə çalışırsınız. Çünki Mənim sözüm sizin ürəyinizdə yer tapmır. Mən Atanın yanında gördüklərimi söyləyirəm, sizsə öz atanızdan eşitdiklərinizi yerinə yetirirsiniz». Onlar İsanın cavabında «bizim atamız İbrahimdir» dedi. İsa onlara dedi: «İbrahimin övladları olsaydınız, İbrahimin etdiyi əməlləri edərdiniz. Sizsə indi Məni – Allahdan eşitdiyi həqiqəti sizə söyləyən Adamı öldürməyə çalışırsınız. İbrahim belə etmədi.*
*Siz öz atanızın əməllərini edirsiniz». Ona dedilər: «Biz zinadan doğulmamışıq, bizim bir Atamız var, O da Allahdır." İsa onlara dedi:* ***«Əgər Allah sizin Atanız olsaydı, Məni sevərdiniz,*** *çünki Mən Allahdan çıxıb gəlmişəm və indi buradayam. Mən Özümdən gəlmədim, lakin O Məni göndərdi. Söylədiyimi niyə anlamırsınız? Çünki Mənim sözümü dinləyə bilmirsiniz.*
*Siz atanız iblisdənsiniz və atanızın arzularını yerinə yetirmək istəyirsiniz. O, başlanğıcdan qatil idi və həqiqətə sadiq qalmadı, çünki onda həqiqət yoxdur. Yalan söyləyəndə öz xasiyyətinə görə söyləyir, çünki yalançıdır və yalanın atasıdır. Mənsə həqiqəti söylədiyim üçün siz Mənə inanmırsınız. Sizdən kim sübut edər ki, Mən bir günah etmişəm? Mən həqiqəti*

*söyləyirəmsə, niyə Mənə inanmırsınız? Allahdan olan şəxs Allahın sözlərini dinləyər. Sizsə dinləmirsiniz, çünki Allahdan deyilsiniz».*

*Yəhudilər cavabında Ona dedi: «Sən Samariyalısan və Səndə cin var. Məgər doğru demirikmi?» İsa cavab verdi: «Məndə cin yoxdur, amma Atama hörmət edirəm, sizsə Məni hörmətdən salırsınız. Mən Özümə izzət axtarmıram, Mənə izzət axtaran və bu işi mühakimə edən Biri var. Doğrusunu, doğrusunu sizə deyirəm: kim Mənim sözümə riayət edərsə, heç vaxt ölüm görməyəcək». Yəhudilər Ona dedi: «İndi bildik ki, Səndə cin var. İbrahim də öldü, peyğəmbərlər də. Amma Sən "kim Mənim sözümə riayət edərsə, heç vaxt ölməyəcək" deyirsən. Yoxsa Sən atamız İbrahimdən də üstünsən? O da öldü, peyğəmbərlər də. Axı Sən Özünü kim sayırsan?» İsa cavab verdi: «Əgər Mən Özümü izzətləndirirəmsə, Mənim izzətim heçdir, amma Məni izzətləndirən Atamdır. Siz Onun barəsində "Allahımızdır" deyirsiniz, lakin Onu tanımırsınız. Mənsə Onu tanıyıram. Əgər "Onu tanımıram" desəydim, sizin kimi yalançı olardım. Lakin Mən Onu tanıyıram və sözünə riayət edirəm. Atanız İbrahim Mənim günümü görəcəyi üçün şad oldu, görüb sevindi». Buna görə Yəhudilər Ona dedi: «Sənin heç əlli yaşın yoxdur, İbrahimi necə görmüsən?» İsa onlara dedi: «Doğrusunu, doğrusunu sizə deyirəm:* ***İbrahim olmazdan qabaq Var Olan Mənəm».***
*O zaman İsanı* ***daşqalaq etmək üçün yerdən daş götürdülər****, ancaq İsa gizləndi və məbəddən çıxdı.*

(Yəhya 9) *İsa yolla gedərkən* ***anadangəlmə kor bir adam*** *gördü. Şagirdləri Ondan soruşdu: «Rabbi, kim günah etdi ki, bu adam kor doğuldu: özü, yoxsa ata-anası?» İsa cavab verdi: «Nə özü günah etdi, nə də ata-anası. Amma Allahın işləri onun həyatında görünsün deyə belə oldu. Nə qədər ki gündüzdür, Məni Göndərənin işlərini görməliyik. Tezliklə gecə gəlir, o zaman heç kim işləyə bilməz. Dünyada olduğum müddətdə dünyanın nuru Mənəm».*
*Bu sözləri deyəndən sonra yerə tüpürdü, tüpürcəklə palçıq düzəltdi və palçığı kor adamın gözlərinə sürtdü.*
*Sonra ona dedi: «Get, Şiloah hovuzunda yuyun». «Şiloah» «göndərilmiş» deməkdir. O da gedib yuyundu və* ***gözləri açılmış*** *halda qayıtdı. Qonşuları və onu əvvəllər bir dilənçi kimi tanıyanlar deyirdi: «Əvvəllər oturub dilənən adam bu deyilmi?» Bəzisi «odur» dedi, bəzisi «xeyr, amma ona oxşayır» dedi. Özü isə «mənəm» dedi. Ondan «Elə isə gözlərin necə açıldı?» deyə soruşdular. O cavab verdi: «İsa deyilən Adam palçıq düzəldib gözlərimə sürtdü və mənə "Şiloah hovuzuna get, yuyun" dedi, mən də gedib yuyundum və gözlərim açıldı». Ondan «Bəs İsa haradadır?» deyə soruşdular. O isə «bilmirəm» dedi.*

*Əvvəllər kor olan adamı fariseylərin yanına apardılar. İsanın palçıq düzəldib onun gözlərini açdığı gün Şənbə günü idi. Fariseylər o adamdan gözlərinin necə açıldığını soruşdular. O adam da onlara dedi: «O mənim gözlərimə palçıq qoydu, mən də yuyundum və indi görürəm». Onda fariseylərdən bəzisi dedi: «Bu Adam Allahdan gəlməyib, çünki Şənbə gününə riayət etmir». Başqaları isə dedi: «Günahkar adam belə əlamətləri necə göstərə bilər?» Onların arasında fikir ayrılığı düşdü. Onda yenə kor adamdan soruşdular: «Bəs sən bu Adam barədə nə deyirsən? Axı O sənin gözlərini açdı». Kor adam «O, peyğəmbərdir» dedi.*

*Yəhudi başçıları gözləri açılmış adamın ata-anasını çağırmayınca onun kor olub gözləri açıldığına inanmadılar.*
*Ata-anasından soruşdular: «Kor doğulduğunu söylədiyiniz oğlunuz budurmu? Elə isə necə olur ki, indi görür?»*
*Ata-anası dedi: «Bilirik ki, bu bizim oğlumuzdur və kor doğulub. Ancaq bilmirik ki, indi necə görür ya gözlərini kim açıb. Özündən soruşun. Həddi-büluğa çatıb, qoy özü barədə özü*

*danışsın». Ata-anası* ***Yəhudi başçılarından qorxduqları*** *üçün bu sözləri söylədilər, çünki Yəhudi başçıları artıq qərara almışdılar ki, İsanın Məsih olduğunu iqrar edən hər kəs sinaqoqdan qovulsun. Buna görə də o adamın ata-anası «həddi-büluğa çatıb, özündən soruşun» dedi.*

*Yəhudi başçıları əvvəllər kor olan adamı ikinci dəfə çağırıb ona dedilər: «Allahın izzəti naminə doğru söylə. Biz bu Adamın günahkar olduğunu bilirik». O da cavab verdi: «O Adamın günahkar olub-olmadığını bilmirəm.* ***Bir şeyi bilirəm ki, əvvəl kor idim, amma indi görürəm».*** *Ondan soruşdular: «O sənə nə etdi? Gözlərini necə açdı?» Onlara cavab verdi: «İndicə sizə söylədim, amma qulaq asmadınız. Bunu niyə yenə eşitmək istəyirsiniz? Bəlkə siz də Onun şagirdi olmaq istəyirsiniz?» Onu söyüb dedilər: «Onun şagirdi sənsən, bizsə Musanın şagirdləriyik. Biz Allahın Musa ilə danışdığını bilirik, bu Adamınsa haradan gəldiyini bilmirik».*
*O adam onlara dedi:* ***«Qəribədir ki, siz Onun haradan gəldiyini bilmirsiniz, amma O mənim gözlərimi açdı.***
*Allahın günahkarlara qulaq asmadığını bilirik, lakin mömin olub Allahın iradəsinə əməl edən adama O qulaq asır. Əzəldən bəri eşidilməyib ki, kimsə anadangəlmə kor bir adamın gözlərini açsın. Əgər bu Adam Allahdan gəlməsəydi, heç nə edə bilməzdi».Onlar o adama cavab verdi: «Başdan-ayağa günah içində doğuldun. İndi sənmi bizə dərs verirsən?» Onda onu bayıra atdılar.*
*O adamı bayıra atdıqlarını İsa eşitdi və onu tapıb dedi: «Sən Bəşər Oğluna iman edirsənmi?» 36 O soruşdu: «Ağa, O kimdir ki, Ona iman edim?» İsa ona dedi: «İndi gördüyün və səninlə danışan Adam Odur».*
***O da «ya Rəbb, iman edirəm» dedi və İsaya səcdə etdi****. İsa dedi: «Mühakimə etmək üçün bu dünyaya gəldim ki, qoy görməyənlər görsün, görənlərsə kor olsun».*

*Onun yanında olan bəzi fariseylər bu sözləri eşidib «Yoxsa biz də koruq?» deyə Ondan soruşdular. İsa onlara dedi: «Əgər kor olsaydınız, günahınız olmazdı. Amma indi "görürük" dediyiniz üçün günahınız üstünüzdə qalır."*

Beləliklə Rəbb İsa anadangəlmə kor adama şəfa verdi və Fəriseylərin korluğuna görə tənbeh etdi. Bu dini adamlarda adi korluqdan daha pis korluq var idi. Onlar görə bilirdilər amma **görmək istəmirdilər.** Buna görə də daş götürüb İsanı daşlamaq istədilər. Bu dini adamlar öz zehnlərini İsa haqqında həqiqətlərə bağlamışdılar. Onlar İsanın Məsih və Dünyanın Nuru olduğuna inanmaq istəmirdilər. Onlar İsanın İbrahim peyğəmbərdən əvvəl olduğuna; Onun başlanğıcda Allahla olan Söz olduğuna inanmaq istəmirdilər. **Onlar həqiqəti görmək istəmirdilər.**

Bu günkü hekayəmizdə biz **iki cür kor adam** gördük: **gözləri** kor olan adamlar; və **zehnləri** kor olan adamlar. Kor zehnin qaranlığı, kor gözün qaranlığından dəhşətlidir. Əgər sənin gözlərin kordursa, sən dünyanın şeylərini görə bilməzsən. Əgər zehnin kordursa, onda sən əbədiyyətin şeylərini nə görə, nə də başa düşə bilməzsən!

Allahın Sözü bizə öyrədir ki, Adəmin övladlarının hamısı **anadangəlmə kordur**; onlar öz zehnlərində və öz ürəklərində kordurlar. Adəmin günahına görə hamımız günahın zülmətində və cəhalətində doğulmuşuq. Bizim Allah haqqında biliyimiz yoxdur və Onun həqiqətləri üçün təbii istəyimiz yoxdur. Necə ki, işıq öz nurunu saçanda tarakanlar qaçışırlar, eləcədə biz həyatlarımızı qaranlıqda yaşamaqla kifayətlənərək Allahın nurundan qaçırıq. Təəssüf ki, Adəmin nəslinin əksəriyyəti günahın zülmətində və cəhalətində ölürlər. Huşə peyğəmbər

yazıb: *"Rəbbin sözünü eşidin... Xalqım biliksizlikdən məhv oldu. Sən biliyi rədd etdiyin üçün Mən də səni rədd edəcəyəm....!"* (Huşə 4:1,6)

Xoş xəbər budur ki, Allah heç birimizin günahın zülmətində və cəhalətində məhv olmasını istəmir. Buna görə də O Rəbb İsa Məsihi yerə göndərməklə bizə baş çəkdi. Zəkəriyyə peyğəmbər Rəbb haqqında ***"Doğan Günəş"*** adlandırıb, hansı ki Allah göndərəcək "*Zülmətdə və ölüm kölgəsində oturanların üzərinə nur saçsın, Ayaqlarımızı sülh yoluna yönəltsin."* (Luka 1:79) Peyğəmbərlər gecəni işıqlandıran ulduzlar kimi idilər. Lakin İsa Məsih Ona inanan hər kəsə nur və həyat gətirən doğan günəş kimidir. Dünyanı işıqlandırmaq üçün Allah neçə dənə günəş yaradıb? Yalnız bir. Günahın zülmətindən və əbədi cəhənnəmdən xilas etmək üçün Allah göydən neçə dənə Xilaskar göndərib? Yalnız bir. Amma Adəmin övladlarının əksəriyyəti bunu başa düşmürlər. Ona görə də hələ də günahın zülmətində büdrüyürlər. Müqəddəs Yazılar Rəbb İsa Məsih haqqında bunu elan edir: *"Nur qaranlıqda parlayır,* ***qaranlıq isə onu bürüyə bilmədi.*** *O, dünyada idi, dünya Onun vasitəsilə yarandı,* ***amma dünya Onu tanımadı."*** (Yəhya 1:5,10)

Dinləyən dost, Rəbb İsa sənin zehninin və ürəyinin gözlərini açıb? Yoxsa sən hələ də günahın zülmətində və cəhalətində büdrüyürsən?

Dinlədiyiniz üçün çox sağ olun. Allahın iradəsi ilə gələn dərsdə biz İncil kitabını oxumaqda davam edəcəyik və Allahın izzətinin İsada günəş kimi necə parladığını görəcəyik....

Rəbb İsanın bu bəyanı üzərində düşündükcə, Allah sənə xeyir-dua versin:

***"Dünyanın nuru Mənəm. Mənim ardımca gələn heç vaxt qaranlıqda gəzməyəcək, həyat nuruna malik olacaq."*** **(Yəhya 8:12)**

75-ci Dərs

# İzzətli Rəbb

**Matta 16, 17**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz İncil kitabnı oxuyarkən İsa Məsihin anadangəlmə kor adamın gözlərini necə açması haqda eşitdik. İsa üçün heç bir şey qeyri-mümkün deyil. Çünki Onun Özü yer üzündə insan kimi peyda olan Allahın Sözü idi. Buna görə də İsa yer üzündə bütün qüvvələri küləyi, dənizi, pis ruhları, xəstəlikləri və ölümü idarə edə bilirdi. İsanın getdiyi hər yerdə izdiham Onun ətrafında basabas salırdı, amma **çox az adam Onun kim olduğunu dərk edirdi.** Onlar Onu peyğəmbər kimi tanıyırdılar. Lakin bilmirdilər ki, Allahın bütün dolğunluğu Onda yaşayır. Onlar İsanın göylərdən gəlmiş İzzətli Rəbb olduğunu başa düşmürdülər. Bu günkü dərsimizdə biz Rəbb İsanın Allahın izzətinin nuru ilə necə dolu olduğunu və bir gün üç şagirdi ilə Dağda olarkən bunu bir anlıq necə göstərdiyini görəcəyik.

Indi isə gəlin müqəddəs İncildən oxuyaq. Müqəddəs Yazılar deyir:

(Luka 9:18-19) *Bir gün İsa tək dua edirdi. Şagirdlər də yanında idi. İsa onlardan soruşdu: «Camaatın dediyinə görə Mən kiməm?» Onlar belə cavab verdi: «Bəziləri Vəftizçi Yəhya, başqaları İlyas, digərləri isə deyirlər ki, qədim peyğəmbərlərdən biri dirilib».*
(Matta 16:15-17) *İsa onlara dedi: «Bəs siz nə deyirsiniz? Sizcə Mən kiməm?» Şimon Peter cavab verdi: «Sən var olan Allahın Oğlu Məsihsən». İsa ona cavab verib dedi: «Nə bəxtiyarsan, ey Yunus oğlu Şimon! Çünki bunu sənə bildirən ət və qan deyil, göylərdə olan Atamdır."*

Gəlin burada dayanaq və İsanın Öz şagirdləri ilə tək olarkən onlara verdiyi sual haqqında fikirləşək. İsa onlardan soruşdu, "**Camaatın** dediyinə görə Mən kiməm?" Şagirdlər İsaya cavab verdilər ki, camaatın əksəriyyəti Onun peyğəmbər olduğunu deyir. Sonra İsa onlara yenidən sual verdi, "Bəs **siz** nə deyirsiniz? **Sizcə** Mən kiməm?" Onun şagirdlərindən biri olan Şimon Peter İsaya cavab verdi, ***"Sən var olan Allahın Oğlu Məsihsən!"***

Həqiqətən, İsanın şagirdlərindən soruşduğu sual bizim hər bizimizin cavab verməsi üçün çox mühüm sualdır! Bu gün bizi dinləyən, sən İsanın kim olduğunu düşünürsən? Sən Onun haqqında nə fikirləşirsən? Sən Onu sadəcə peyğəmbərlərlə eyni səviyyəyə qoyursan? Yoxsa "Sən var olan Allahın Oğlu Məsihsən!" deyə elan edən Peter ilə razısan? **Sənin fikrincə İsa kimdir?** Sən İsa Məsihin uzun illər əvvəl ulubabalarımız Adəm və Həvva günah işlədərkən, Allahın vəd etdiyi **Qurtarıcı** olduğuna inanırsan? İnanırsan ki, İsa "Var olan Allahın Oğludur?" Göylərdən gələn Kəlamdır?

Bildiyin kimi, bu günə qədər bir çox insanlar İsanın Allahın Oğlu olduğunu inkar edirlər. Çünki onlar elə fikirləşirlər ki, bu ad o deməkdir ki, Allah arvad aldı və ondan oğlu oldu! Lakin bu o demək deyil. Allahın izzəti ondan daha da böyükdür! Allah Ruhdur və O insanın övlad dünyaya gətirdiyi kimi övlad gətirmir. **Amma bu Allahın İsanı Oğlum adlandırmasına mane olmur.**

Hələ İsa Məsih doğulmazdan əvvəl, O göylərdə idi. O "Kəlamdır" və "Ruhdur". Allahın Sözü və Ruhudur. Yalnız İsa Allah-Taalanın Oğlu adlanmağa layiqdir. Yalnız O başlanğıcda Allahla olan Sözdür. Bu **böyük sirrdir.** Ondan əlavə, bu **böyük həqiqətdir!** Allah Öz Oğlunu dünyaya yalnız bizi günahlarımızdan xilas etmək üçün yox, həm də bizə Onun necə olduğunu göstərmək üçün göndərdi. İsa yer üzündə Allahın xasiyyətini nümayiş etdirdi. Oğulu görən Atanın necə olduğunu bilər. İsanı görən Allahın necə olduğunu bilir. İsa Allahın Oğlu adlanır. Çünki **O Allahdan gəlmişdir**, **O Allah kimidir, O Allahın Sözü və Ruhudur**. Əziz dostlar, biz buna inansaq da, yaxud inanmağı rədd etsək də, həqiqət olduğu kimi qalır: **İsa var olan Allahın Oğludur!**

Indi isə gəlin Mattanın İncilində davam edək və Peterin İsanın var olan Allahın Oğlu Məsih olduğunu bəyan etdikdən sonra nə baş verdiyinə qulaq asaq.

(Matta 16:21-23) *Bundan sonra* ***İsa şagirdlərinə danışmağa başladı ki, Özü Yerusəlimə getməli, ağsaqqallar, başçı kahinlər və ilahiyyatçılar tərəfindən çox əzab çəkməli, öldürülməli*** *və üçüncü gün* ***dirilməlidir****. Peter Onu bir kənara çəkib etiraz etməyə başladı: «Ya Rəbb, Özünə yazığın gəlsin! Bu əsla Sənin başına gəlməyəcək!» Amma İsa dönüb Peterə dedi: «Çəkil qarşımdan, Şeytan! Sən Mənə mane olursan.* ***Sən Allahın işləri haqqında deyil, insan əməlləri barəsində fikirləşirsən».***

İsanın şagirdlərinə dediyini eşitdin? O şagirdlərinə dedi ki, O Yerusəlimə getməli, ağsaqqallar, başçı kahinlər və ilahiyyatçılar tərəfindən çox əzab çəkməli, öldürülməli və üçüncü gün dirilməlidir. Bununla İsa bizim günahlarımıza görə Öz qanının axıtmasını elan etdi.

Lakin Peter bütün qüvvəyə və bütün səlahiyyətə malik olan Rəbb İsanın şər Yəhudi rəhbərləri tərəfindən həbs olunmağa, əzab çəkməyə və Onu öldürməyə icazə verməsini qəbul edə bilmirdi. Buna görə də Peter İsaya dedi, "*Bu əsla Sənin başına gəlməyəcək!*" Amma İsa bilirdi ki, O dünyaya günahı aradan qaldıran qurban kimi Öz qanını tökmək üçün gəlmşdir. Bu səbəbə görə O Peterə dedi, "*Çəkil qarşımdan, Şeytan! Sən Mənə mane olursan. Sən Allahın işləri haqqında deyil, insan əməlləri barəsində fikirləşirsən!*"

Isa dünyaya nəyə görə gəldiyini bilirdi. O uzun illər əvvəl peyğəmbərlərin dediyi kimi günahkarlara görə Öz müqəddəs qanını tökmək üçün gəlmişdir. İsa gəldi ki, qurbanlıq qoyunun rəmzi Onda tamamlansın. Ey dinləyici, əgər biz bu günkü dərsimizdən bir şey yadda saxlayacağıqsa, onda qoy bu olsun: **İsa Məsih günahı ödəmək üçün, mənim və sənin günahını ödəməyə görə qurban kimi ölmək üçün dünyaya gəlmişdir!** Allahın iradəsi ilə, bir neçə dərs bundan sonra biz İsanın ölümü haqqında peyğəmbərliyinin Yerusəlimdə yerinə yetməsini görəcəyik. Beləliklə dostlar, hətta əgər bəziləri Rəbb İsanın və uzun illər əvvəl peyğəmbərlərin bəyan etdiyi müjdə ilə razılaşmayan müjdəni bölüşsə də, İsanın ölümü və dirilməsi haqqındakı həqiqət dəyişmir. **Allahın Özü İsanın çarmıxdakı ölümünə fərman vermişdir** və heç kim Allahın fərmanını dəyişə bilməz! **İsa son qurban kimi ölməyi seçdi.** O səni və məni sevdiyi üçün bunu etdi və O bizim məhv olmamızı istəmir.

Indi isə baxaq, İsanın Yerusəlimdə Öz həyatını verəcəyi haqda şagirlərinə bildirdikdən bir həftə sonra nə baş verdi? Müqəddəs Yazılar deyir:

(Matta 17:1-2) *Altı gündən sonra İsa Özü ilə yalnız Peter, Yaqub və qardaşı Yəhyanı götürüb hündür bir dağa çıxdı. Onların qarşısında* ***görünüşü dəyişdi****.* ***Üzü günəş kimi parladı və libası işıq kimi ağ oldu****.*

(Luka 9:30-31) *O anda iki nəfər İsa ilə söhbət etməyə başladı. Onlar Musa və İlyas idi. Onlar ehtişam içində göründülər və İsanın Yerusəlimdə yerinə yetirəcəyi bu dünyadan ayrılması barədə danışırdılar.*

(Matta 17:4-9) *Peter sözə başlayıb İsaya dedi: «Ya Rəbb! Nə yaxşı ki biz buradayıq. Əgər istəyirsənsə, burada üç çardaq qurum – biri Sənin, biri Musa, biri də İlyas üçün». Peter hələ danışan zaman parlaq bir bulud onların üzərinə kölgə saldı. Budur, buluddan bir səs gəldi:* ***«Bu Mənim sevimli Oğlumdur, Ondan razıyam, Ona qulaq asın!»*** *Şagirdlər bunu eşidəndə üzüstə yerə qapandılar və onları böyük dəhşət bürüdü. İsa gəlib onlara toxunaraq «Qalxın, qorxmayın!» dedi. 8 Onlar da başını qaldıranda İsadan başqa kimsəni görmədilər. Dağdan enərkən İsa şagirdlərinə əmr etdi: «Bəşər Oğlu ölülər arasından dirilənə qədər gördüyünüzü heç kimə söyləməyin».*

Sən dağda baş verən hadisəni başa düşdün? O möcüzəli və gözəl hadisə idi! Biz oxuduq ki, İsanın xarici görünüşü dəyişdi. Onun üzü günəz kimi parıldadı və Onun libası işıq kimi ağ oldu. Allahdan saçan təmiz nur və Onun taxtını əhatə edən bu işıq indi İsada parıldayırdı! Musa və İsraillilərin səhralıqda olarkən Hüzur Çadırının Ən Müqəddəs Yerini dolduran izzətli nur, həmin izzətli nur İsada idi, amma insanlar onu görə bilmədilər. Lakin Allah İsada olan Öz izzətini qısa müddətə İsanın hüzurunda olan üç şagirdə açdı! Və eyni zamanda Allah İsanın Yerusəlimdəki ölümü haqda İsa ilə danışmaq üçün göydən Musa və İlyas peyğəmbəri göndərdi. Biz oxuduq ki, dağı parlaq bulud bürüdü və buludların arasından Allahın səsi gəldi, "***Bu Mənim sevimli Oğlumdur, Ondan razıyam, Ona qulaq asın!"***

Bütün bunlara səbəb nə idi? Allah bütün bu izzətli şeyləri nə üçün Peterin, Yəhyanın və Yaqubun önündə etdi? Allah o üç şahidə İsanın həqiqətən də göylərdən gəlmiş Allahın Əbədi Oğlu olduğunu və hamının Ona qulaq asmalı olduğunu göstərsin! Müqəddəs Yazılar deyir:

***"Oğula*** *hörmət etməyən* ***Onu göndərən Ataya*** *da hörmət etmir."* (Yəhya 5:23) *"Allah qədim zamanlarda dəfələrlə və müxtəlif yollarla əcdadlarımıza* ***peyğəmbərlər*** *vasitəsilə müraciət etmişdi. Amma bu axır zamanda O bizə* ***Oğul vasitəsilə*** *müraciət etdi; Onu hər şeyin varisi təyin etmişdi və Onun vasitəsilə kainatı yaratmışdı.* ***Oğul Allahın izzətinin əksi və mahiyyətinin tam surətidir****. O hər şeyi qüdrətli kəlamı ilə saxlayır. O, günahlardan təmizlənməni təmin edəndən sonra ucalarda möhtəşəm Allahın sağında oturdu."* (İbranilərə 1:1-3)

Bu gün bizi dinləyən, sən İsa haqqında nə düşünürsən? Sən inanırsan ki, İsa göylərdən gəlmiş İzzətli Rəbbdir? Yoxsa sən dünyadakı əksər insanlar kimi Onu sadəcə peyğəmbərlərlə eyni səviyyəyə qoyursan? Bu gün sizinlə sağollaşmazdan əvvəl, gəlin dağda İsada parlayan Allahın izzətini görəndən bir neçə il sonra Müqəddəs Yazıları yazan İsanın həvariləri Peter və Yəhyaya qulaq asaq.

Həvari Peter yazıb:

*"Rəbbimiz İsa Məsihin qüdrətini və zühurunu sizə bildirərkən uydurma əfsanələrə əsaslanmadıq. Amma öz* ***gözümüzlə Onun ululuğunun şahidləri olduq****. Çünki Böyük Ehtişamı Olandan Ona belə bir səs gəldi: «Bu Mənim sevimli Oğlumdur, Ondan razıyam». O vaxt Ata Allahdan izzət və şərəf qəbul etdi. Müqəddəs dağda Onunla birgə olduğumuz üçün göydən gələn bu* ***səsi biz də eşitdik****!"* (2 Peter 1:16-18)

Həvari Yəhya yazıb:

*"Bu həmin Kəlamdır ki, başlanğıcdan var idi və biz Onu* ***eşitdik****, gözlərimizlə* ***gördük, seyr etdik*** *və əllərimizlə hiss etdik. Həyat zahir oldu, biz də onu görüb şahidlik edirik. .... Biz də Onun ehtişamını – Atadan gələn vahid Oğulun ehtişamını gördük!"* (1 Yəhya 1:1,2; Yəhya 1:14)

Yəhyanın İncilinin sonunda o yazıb,

*"İsa şagirdlərinin gözü önündə bir çox başqa əlamətlər də göstərdi ki, bu kitabda yazılmayıb.*
***Amma buradakılar onun üçün yazılıb ki, siz İsanın Məsih – Allahın Oğlu olduğuna inanasınız və iman edərək Onun adı ilə həyata malik olasınız!****"* (Yəhya 20:30,31)

Bütün bunları başa düşmək sənə çətin gəlir? Allah bütün bu gözəl həqiqətləri başa düşmək üçün sənə dərrakə vermək istəyir. Müqəddəs Yazılar deyir:

*"Təbiətcə yaşayan adam Allahın Ruhuna aid olan şeyləri* ***qəbul etmir****, çünki bunları ağılsızlıq sayır. Bunları başa düşə bilmir, çünki bunlar ruhani nöqteyi-nəzərdən araşdırılır... Yetkin insanlar arasında isə biz müdrikliyi öyrədirik. Amma bu müdriklik nə indiki dövrün, nə də bu dövrün fani hökmdarlarının müdrikliyi deyil.*
*Biz* ***Allahdan gələn sirli müdrikliyi*** *öyrədirik. Allah bu müdrikliyi bizim izzətimiz üçün zaman başlamazdan əvvəl müəyyən etdi və gizli saxladı. Bu dövrün hökmdarlarından heç biri onu anlamadı. Çünki anlasaydılar, izzətli Rəbbi çarmıxa çəkməzdilər!"* (1 Kor. 2:14, 6-8)

Qoy Allah bu gün oxuduqlarımızı aydınlaşdırsın....

Gələn dərsə qədər Allahın Taalanın Rəbb İsa haqqında dağda bəyan etdiyini düşünməkdə davam et,

***"Bu Mənim sevimli Oğlumdur, Ondan razıyam, Ona qulaq asın!"*** (Matta 17:5)

76-cı Dərs

# Yaxşı Çoban

**Yəhya 10**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək və Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz Rəbb İsanın Öz şagirlərinə **Yerusəlimdə ölməyi və üçüncü gündə ölülərdən dirilməyi haqqında dediklərini eşitdik.** Isa bilirdi ki, O Öz qanını günahı aradan qaldıran qurban kimi tökmək üçün dünyaya gəlmişdir. Biz həm də ötən dəfə Rəbb İsanın dağda olarkən Öz şagirlərinə izzətini göstərdiyini də gördük. İsanın üzü günəş kimi parıldayırdı və Onun libası nur kimi ışıldayırdı. Bununla Allahın İsada olan izzəti özünü göstərdi.

Müqəddəs İncil kitabını oxumaqda davam edəcəyik və Rəbb İsanın Onun ardınca gedənləri necə **məmnun qoyunlar** ilə müqayisə etdiyi haqda eşidəcəyik. Biz artıq Peyğəmbərlərin Yazılarında Allahın davamlı olaraq Adəmin övladlarını **çobansız itmiş qoyunlar** ilə müqəyisə etdiyini görmüşük. Amma Allah istəmir ki, Adəmin övladları çobansız qoyun kimi məhv olsunlar. Bu səbəbə görə O bizi sülh yolu ilə aparmaq, şeytan, ölüm və cəhənnəm olan düşmənimizdən xilas etmək üçün göylərdən qüdrətli Çoban göndərdi. **Sən** Allahın Adəmin övladları üçün göndərdiyi **Yaxşı Çobanı tanıyırsan?** Əgər tanımırsansa, onda səni bu günkü dərsə diqqətlə qulaq asmağa dəvət edirik.

Biz Yəhyanın İncili, onuncu fəsli oxuyuruq. Bir gün İsa ətrafında toplaşan izdihama dedi:

(Yəhya 10) *Doğrusunu, doğrusunu sizə deyirəm: qoyun ağılına qapıdan girməyib başqa yerdən aşan* ***oğru*** *və* ***quldurdur.*** *Amma qapıdan girən qoyunların çobanıdır.... İsa bu məsəli onlara söylədi, amma onlar İsanın sözlərinin mənasını anlamadı. İsa yenə onlara dedi: «Doğrusunu, doğrusunu sizə deyirəm: qoyunların qapısı Mənəm.... Qapı Mənəm, kim Məndən girərsə, xilas olar, girib-çıxar və özünə otlaq tapar. Oğru yalnız qarət etmək, öldürmək və tələf etmək üçün gəlir. Mən isə gəldim ki, onlar həyata, bol həyata malik olsun.* ***Yaxşı çoban Mənəm, yaxşı çoban*** *qoyunlar uğrunda canını qurban verər. Qoyunların çobanı olmayan muzdur isə canavarın gəldiyini görəndə onları atıb qaçar, çünki qoyunların sahibi deyil. Canavar da onları qapıb pərən-pərən salar. Muzdur qaçar, çünki muzdurdur, qoyunlar üçün qayğı çəkməz.*
*Yaxşı çoban Mənəm. Necə ki Ata Məni tanıyır və Mən Atanı tanıyıram, eləcə də özümünküləri tanıyıram, özümünkülər də Məni tanıyır. Mən quzular uğrunda canımı qurban verirəm.... Buna görə də Ata Məni sevir, çünki Mən canımı qurban verirəm ki, sonra onu geri alım. Canımı Məndən heç kəs ala bilməz, amma onu Özüm verirəm. Onu verməyə də, sonra geri almağa da ixtiyarım var. Bu əmri Atamdan almışam."*

*Bu sözlər üstündə Yəhudilər arasında yenə fikir ayrılığı düşdü. Onların çoxu dedi: «Onda cin var, dəlidir. Niyə Ona qulaq asırsınız?» Başqaları dedi: «Bunlar cinə tutulmuş adamın sözləri deyil. Cin heç kor adamın gözlərini aça bilərmi?»*

*Yəhudilər İsanın ətrafına yığılıb Ona dedilər: «Nə vaxta qədər ürəyimizi intizarda saxlayacaqsan? Əgər Sən Məsihsənsə, bizə açıq söylə». İsa onlara cavab verdi: «Sizə*

*söylədim, ancaq buna inanmırsınız. Atamın adı ilə gördüyüm işlər Mənim barəmdə şəhadət edir. Amma siz inanmırsınız, çünki Mənim quzularımdan deyilsiniz. Quzularım səsimi eşidir, Mən də onları tanıyıram və Mənim ardımca gəlirlər. Mən onlara əbədi həyat verirəm. Onlar heç vaxt həlak olmayacaq və heç kim onları əlimdən qapmayacaq. Onları Mənə verən Atam hamıdan böyükdür. Onları heç kim Atanın əlindən qapa bilməz. Mən və Ata birik». Yəhudilər yenə yerdən daş götürdülər ki, Onu daşqalaq etsinlər. İsa onlara dedi: «Sizə Atadan gələn çoxlu yaxşı iş göstərdim. Siz bunların hansına görə Məni daşqalaq etmək istəyirsiniz?»*

*"Yəhudilər Ona cavab verdi: «Səni yaxşı işinə görə deyil, insan olduğun halda Özünü Allah sayaraq küfr etdiyinə görə daşqalaq edirik». İsa onlara dedi: «Məgər sizin öz Qanununuzda yazılmayıb ki, "demişəm: ‹Siz allahlarsınız›"? Allah Öz kəlamını göndərdiyi adamlara "allahlarsınız" deyir. Müqəddəs Yazı ki pozula bilməz. Bəs siz niyə "Allahın Oğluyam" dediyim üçün Mənə – Atanın təqdis edib dünyaya göndərdiyi Şəxsə "küfr edirsən" deyirsiniz? Əgər Atamın işlərini görmürəmsə, Mənə inanmayın.*
***Amma bu işləri görürəmsə, Mənə inanmasanız da, bunlara inanın. Onda Atanın Məndə, Mənim də Atada olduğumu anlayıb bilərsiniz»**. Onlar yenə İsanı tutmağa çalışdı, amma O, əllərindən sıyrılıb çıxdı.*

İndi biz İsanın Özünə dediyi **iki ada** diqqətimizi yönəldəcəyik. Onlar budur: **Qoyunlara Qapı və Yaxşı Çoban.**

Birinci biz eşitdik ki, İsa Adəmin övladlarını qoyunlarla müqayisə edəndən sonra, O izdihama dedi, ***"Qoyunların Qapısı Mənəm**... kim Məndən girərsə, xilas olar."* İsa nə üçün Özünü ***"Qoyunların Qapısı"*** adlandırdı? O dövrdə çoban tikanlı kollardan və ya daşlardan bir qapısı olan hasar düzəldərdi və sürü yalnız oradan girə bilərdi. Axşam düşəndə, qoyunlar tövləyə daxil olanda çobanın özü qapıda durub qoyunları qoruyardı. Beləliklə hansısa vəhşi heyvan tövləyə daxil olub qoyunlara hücum etmək üçün o çobanın durduğu qapıdan daxil olmalı idi. Sonra çoban qoyunlara zərər dəyməzdən əvvəl vəhşi heyvanı qovardı. Bu yolla çobanın özü *"qoyunların qapısı"* idi.

Rəbb İsa Özünü ***"Qoyunların Qapısı"*** adlandırdı. Bu o deməkdir ki, İsa Ona məxsus olanların qayğısına qalır. Bu həm də o deməkdir ki, Allahın "sürüsününə" bir hissəsi olmazdan əvvəl, **sən İsadan keçməlisən. K**im Şeytanın tələsindən, günahın cəzasından, ölümün hakimiyyətindən və əbədi cəhənnəmin cəzasından xilas olmaq istəyirsə İsadan keçməlidir. Günahkarları əbədi həyata buraxa bilən qapı yalnız İsadır. Buna görə də Allahın Sözü deyir: *"Ondan başqa **heç kimdə** xilas yoxdur. Çünki səma altında biz insanlara verilən başqa bir ad yoxdur ki, onun vasitəsilə xilas olaq."* (Həvarilərin İşləri 4:12) İsa Xilasa aparan yeganə qapıdır.

Bir müddət əvvəl Nuh peyğəmbər və daşqın haqda oxuduğumuzu xatırlayırsan? Daşqının cəzasından qurtulmağa görə bütün insanlara sığınacaq olan Nuhun düzəltdiyi gəmi üçün Allah Nuha neçə dənə qapı qoymağı əmr etmişdir? **Yalnız bir qapı.** Daşqından xilas olmaq istəyən hər bir kəs gəminin o bir qapısından keçməli idi. Qapıdan keçən hər bir kəs **xilas olurdu.** Qapıdan keçməyən hər bir kəs isə **məhv olurdu!** Oxşar olaraq Məhkəmə Günü haqda da Müqəddəs Yazılar bizə təsdiq edir ki, Allah Adəmin övladları üçün yalnız bir xilas qapısı açıbdır. Məsihin Özü insanları əbədi həyata buraxan Qapıdır. Buna görə də İsa deyib, ***"Qapı Mənəm, kim Məndən girərsə, xilas olar**... qoyun ağılına qapıdan girməyib başqa yerdən aşan oğru və quldurdur!"* (Yəhya 10:9,1)

Isanın Özünə dediyi ikinci ad birinciyə oxşardır. İsa həmçinin ***"Yaxşı Çobandır".*** İsa bizi sevdiyinə və Öz həyatını bizə verdiyinə görə ***Yaxşı*** Çobandır. Necə də gözəl Çobandır O! Onun haqqında Davud peyğəmbər 23-cü Məzmurda yazıb:

*"Rəbb mənim çobanımdır, möhtac olmaram. O məni yaşıl çəmənlərdə dincəldir, sakit axan sular kənarında gəzdirir.*
*Məni yenə də canlandırır, İsmi şərəfinə salehlik yolları ilə aparır. Ölüm kölgəsinin dərəsində gəzsəm belə, şərdən qorxmaram, çünki Sən mənimləsən, Sənin əsan, Sənin dəyənəyin mənə təsəlli verir. Düşmənlərimin qarşısında*
*Mənim üçün süfrə açırsan, başıma ətirli yağ çəkirsən, ağzınadək camımı doldurursan. Bəli, bütün həyatım boyu*
*Yaxşılıq, məhəbbət məni izləyir. Bütün ömrüm boyu Rəbbin evində yaşayacağam! "* (Zəbur 23)

Biz bunu başa düşməliyik ki, Məsihin Özü Davudun haqqında yazdığı Yaxşı Çobandır. Buna görə də İsa dedi, *"Yaxşı çoban Mənəm!" "Mən və Ata **birik**!"* (Yəhya 10:11,30) amma İsa deyəndə ki, Allah və Mən birik, Yəhudilər Onu küfr etməkdə günahlandırdılar və Onu daşlamaq üçün daş götürdülər. Onlar İsanın insan bədənində Allah olduğunu qəbul edə bilmirdilər. Bu günə qədər də Adəmin övladlarının əksəriyyəti İsanın bu sözlərində büdrəyirlər. Bəziləri səhvən fikirləşirlər ki, İsanın Allah ilə bir olması iki Allahın olması deməkdir. Amma bu belə deyil. Çünki Peyğəmbərlərin Yazıları Allahın təkliyini aydın bəyan edir: *"Allahımız Rəbb **yeganə** Rəbdir!"* (Qanunun Təkrarı 6:4) **Lakin "Allahın Tək" olması o demək deyil ki, O insan kimi yer üzünə gələ bilməz.**

Bəlkə bu illüstrasiya kömək edər. Parlayan günəş, onun işıqları və istiliyi haqqında fikirləş. Bizim neçə dənə günəşimiz var? Yalnız bir. Günəş haradadır? O fəzadadır. Eyni zamanda yerdədir və həyatımıza öz işığını verir. Qızğın günəş ilə isti günəş birdirlər. Oxşar olaraq da Allah və İsa birdirlər. Isa deyib: **"Mən və Ata (Allah) birik!"** Rəbb İsa Allahın sevgisinin nurunu və xilasını bizə agah etmək üçün yer üzünə gəlmişdir. Müqəddəs Yazıların Allah və İsa haqqında dediklərinə qulaq as:

*"**Allahımız** yandırıb-yaxan alovdur... əlçatmaz nurda yaşayan Odur!.... **Allahı** heç kəs heç vaxt görməyib, amma Atanın qucağında olan və **Allah** olan vahid **Oğul** Onu tanıtdı.... **Oğul** Allahın izzətinin əksi və mahiyyətinin tam surətidir. O hər şeyi qüdrətli kəlamı ilə saxlayır. O, günahlardan təmizlənməni təmin edəndən sonra ucalarda möhtəşəm Allahın sağında oturdu!.... Allah Onda tam bütövlüyü ilə yaşamağa razı oldu!.... **Allahın tam bütövlüyü bədəncə Məsihdə yaşayır!"*** (İbranilərə 12:29; 1 Timoteyə 6:16; Yəhya 1:18; İbranilərə 1:3; Kolosselilərə 16:9; 2:9)

Bəli, Allahın Kəlamı bunu bəyan edir: ***"Allahın tam bütövlüyü bədəncə Məsihdə yaşayır!*** (Kolosselilərə 2:9) Bununla Rəbb İsa deyə bildi, *"Mən və Ata (Allah) **birik!"*** İsa Məsih göylərdən gələn, insan olan, yer üzündə yaşayan və bizim günahlarımızın gətirdiyi lənətdən qurtarmaq üçün Öz müqəddəs həyatından keçən Yaxşı Çoban idi. O həmçinin ölülərdən dirilən və Ona inanan hər bir şəxsə əbədi həyat verəndir. Buna görə də İsa deyə bildi: *"Yaxşı çoban Mənəm.... Mən quzular uğrunda canımı qurban verirəm ki,... sonra onu geri alım. Canımı Məndən heç kəs ala bilməz, amma onu Özüm verirəm. Onu verməyə də, sonra geri almağa da ixtiyarım var. Bu əmri Atamdan almışam."* (Yəhya 10: 14-18)

Şübhəsiz, İsa *"**Yaxşı** Çobandır"*. Çünki **yalnız O bizi o qədər sevdi ki, Öz həyatını belə bizə görə verdi!**

Sizinlə sağollaşmazdan əvvəl gəlin Rəbb İsanın bu sözlərinə qulaq asaq:

(Yəhya 10:9-15, 27-28) ***Qapı Mənəm****, kim Məndən girərsə, xilas olar.... Oğru yalnız qarət etmək, öldürmək və tələf etmək üçün gəlir. Mən isə gəldim ki, onlar həyata, bol həyata malik olsun.* ***Yaxşı çoban Mənəm****, yaxşı çoban qoyunlar uğrund****a canını qurban verər****. Qoyunların çobanı olmayan muzdur isə canavarın gəldiyini görəndə onları atıb qaçar...Yaxşı çoban Mənəm....* ***Quzularım səsimi eşidir, Mən də onları tanıyıram və Mənim ardımca gəlirlər. Mən onlara əbədi həyat verirəm. Onlar heç vaxt həlak olmayacaq və heç kim onları əlimdən qapmayacaq!"***

Dinləyən dost, **sən kimin ardınca gedirsən**? Sən **Yaxşı Çobanın** ardınca gedirsən? Yoxa başqasının ardınca?

Bizi dinlədiyiniz üçün sizə təşəkkür edirik və gələn dərsimizdə İsanın Allahın qəlbini dolduran mərhəmət haqqında öyrətdiklərinə qulaq asmağa dəvət edirik ....

İsa Məsihin Özü haqqında dediklərini yadda saxladıqca Allah sənə xeyir-dua versin:

***"Qapı Mənəm, kim Məndən girərsə, xilas olar! ... Yaxşı çoban Mənəm, yaxşı çoban qoyunlar uğrunda canını qurban verər!"*** **(Yəhya 10:9,10)**

77-ci Dərs

# Allahın Ürəyi

**Luka 18, 15**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək və Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Peyğəmbərlərin yazılarını oxuduqca biz Allahın **müqəddəs, saleh** olduğunu və günaha dözə bilmədiyini görürük. Həmçinin biz Onun **mərhəmətli və şəfqətli** olduğuna da görmüşük. Bu bizim üçün çox gözəl xəbərdir. Çünki bizim hamımız Onu çox incitdiyimizə görə bizim Onun mərhəmətinə ehtiyacımız var. Bizim günahlarımız Allaha qarşı nifrətdir və əgər O bizə mərhəmət etməsə, biz əbədilik məhkum olunacağıq! Bu gün biz Rəbb İsanın izdiahama söylədiyi iki məsələ qulaq asacağıq. Bu iki maraqlı hekayə vasitəsi ilə biz **Allahın ürəyini bürüyən böyük mərhəmət və günahların Onun mərhəmətini necə əldə edə bilmələri** haqda öyrənəcəyik.

Birinci məsəldə, biz **iki adam** görəcəyik: biri Allahın mərhəmətini əldə etməmişdir, digəri isə etmişdir. Biri Fəriseylərin qrupuna aid idi, duada, orucda və zəkat verməkdə çox səyli idi. İnsan gözlərində o çox dindar idi. O biri adam vergi yığan idi; bu o deməkdir ki, o insanların gözlərində böyük günahkar idi. Çünki əksər vergi yığanlar vicdansız idilər.

Fərisey və vergi yığan adamın məsəlinə qulaq as. Biz Lukanın İncili 18-ci fəsili oxuyuruq:

(Luka 18:9-14) *Özlərinin saleh olduğuna güvənib başqalarına xor baxan bəziləri üçün də İsa belə bir məsəl çəkdi: «Biri farisey, digəri isə vergiyığan olan* ***iki nəfər*** *dua etmək üçün məbədə girdi.* ***Farisey*** *ayaq üstə durub öz-****özünə*** *belə dua edirdi: "Ya Allah, Sənə şükürlər olsun ki, mən başqaları kimi soyğunçu, haqsız, zinakar ya da bu vergiyığan kimi deyiləm. Həftədə iki dəfə oruc tuturam, bütün qazandığımın onda birini verirəm".*
***Vergiyığan isə*** *uzaqda durub gözlərini göyə qaldırmağa belə, cəsarət etmirdi, amma sinəsinə vurub hey deyirdi:* ***"Ya Allah! Mən günahkara rəhm et!"*** *Sizə deyirəm ki, o farisey yox, vergiyığan evinə saleh sayılaraq getdi.* ***Çünki özünü yüksəldən hər kəs aşağı tutulacaq, özünü aşağı tutansa yüksəldiləcək».***

Isa bu qısa məsəl vasitəsi ilə bizə nə öyrədir? Qısaca, Allah Onun qarşısında öz qeyri-salehliyini etiraf edən hər bir kəsə mərhəmət edir və Onun qarşısında özünü saleh sayan hər bir kəsi isə məhkum edir. Müqəddəs Yazılar bəyan edərkən bunu deyir: ***"Allah məğrurlara qarşıdır, itaətkarlara isə lütf göstərər."*** (1 Peter 5:5) İnsanların hörmət etdiyinə, Allah nifrət edir. "**Mən** saleh adamam! **Mən** dualar edirəm! **Mən** oruc tuturam! **Mən** zəkat verirəm! **Mən** məscidə gedirəm! **Mən** kilsəyə gedirəm! **Mən** bunları və digər şeyləri edirəm!" Allah özü haqda belə fikirləşən adamı qəbul edə bilər? Bütün bu "**Mən**-mənlər" Allahı razı salır? Xeyr! Allahın ürəyi qürurdan gələn işlər ilə sevinə bilməz.

Allah qürurlu ürəyə nifrət edir. Öz səyi ilə Allaha yaxınlaşmağa çalışan Adəmin ilk oğlu Qabili xatırlayırsan? Allah onun qurbanını qəbul etdi? Xeyr, qəbul etmədi! Dostlar, Allah dəyişilməyib. Bu günə qədər Allahın ürəyi öz səyi ilə nəsə etməyə çalışan adamlara sevinmir. Çünki bizim səylərimiz Onun qarşısında kamil deyildir. Allahın istədiyi odur ki, biz ***"Ay Allah bu günahlı bəndəyə mərhəmət et!"*** deyən vergi yığan kimi öz günahlı vəziyyətimizi

dərk edək. Allahın ürəyini belə sınmış ürək sevindirə bilər. Amma Allah özü haqda belə deyən, " *Ya Allah, Sənə şükürlər olsun ki, mən başqaları kimi soyğunçu, haqsız, zinakar ya da bu vergiyığan kimi deyiləm,"* özünü yoldaşı ilə müqayisə edən Fərisey kimilərə nifrət edir.

Fəriseyin başa düşmədiyi o idi ki, Məhkəmə Günü, Allah bizi günahlı adamlarla müqayisə etməyəcəkdir. Əksinə, Allah bizi Öz müqəddəsliyi və kamil qanunu ilə müqayisə edəcəkdir. Qanun belə elan edir: *"Kim Qanunun hamısına riayət edərək birində büdrəyərsə, o bütün Qanuna qarşı təqsirkar olur!"* (Yaqub 2:10) *"Zina etmə!"* deyən Allah, həm də *"Yalan şəhadət etmə!"* də deyib. Əgər sən zina etməmisənsə, lakin yalan danışmısansa, onda sən Allahın qanununu pozmusan. Sən Cənnətə, Allahın hüzuruna daxil ola bilməzsən, çünki Müqəddəs Yazılar deyir: *"Oraya murdar olan heç bir şey, iyrənc iş görən və yalan danışan heç kim əsla girməyəcək."* (Vəhy 21:27) Buna görə də Adəmin övladlarına **Allahın mərhəməti** lazımdır. Əziz dost, məsəldəki vergi yığan kimi sən **Allahın mərhəmətini** əldə etmisən? Yoxsa, Fərisey kimi **öz əməllərinlə** saleh olmağa çalışırsan?

Gəlin ikinci Allahın ürəyi öz övladlarını sevən ata kimi rəhm və sevgi ilə dolu olduğunu göstərəan məsəli oxuyaq. Lukanın 15-ci fəslində belə yazılıb:

(Luka 15) *Bütün vergiyığanlar və günahkarlar İsanı dinləmək üçün Ona yaxınlaşırdılar. Fariseylər və ilahiyyatçılar isə «bu adam günahkarları qəbul edir və onlarla yemək yeyir» deyə deyinirdilər. Amma İsa onlara bu məsəli çəkdi....*

*İsa bunu da danışdı: «Bir adamın iki oğlu var idi. Oğlanlardan kiçiyi atasına dedi: "Ata! Var-dövlətindən payıma düşəni mənə ver". Atası da varını onların arasında bölüşdürdü. Bir neçə gün sonra kiçik oğul nəyi vardısa, yığıb uzaq bir diyara yollandı. Orada pozğun həyat sürüb var-dövlətini heç-puç etdi. Oğlan hər şeyini xərclədikdən sonra o ölkədə böyük bir aclıq oldu. O korluq çəkməyə başladı. Buna görə də oğlan gedib o ölkənin sakinlərindən birinin yanında iş tapdı. Bu adam onu öz otlaqlarına donuz otarmağa göndərdi. Donuzların yediyi keçibuynuzu qabıqları ilə qarnını doydurmağa şad olardı. Amma heç kim ona bir şey vermirdi.*

*Onda oğlan özünə gəlib dedi: "Atamın nə qədər muzdlu işçisi var, hamısının da doyunca yeməyə çörəyi var. Mən isə burada acından ölürəm! Durub atamın yanına gedəcəyəm və ona deyəcəyəm: ‹Ata, mən göyə və sənə qarşı günah etdim. Mən artıq sənin oğlun adlanmağa layiq deyiləm. Məni öz muzdlu işçilərinin biri kimi qəbul et›". O durub öz atasının yanına getdi. Oğul hələ uzaqda ikən atası onu gördü. Ona rəhmi gəldi və qaçıb onun boynuna sarıldı və öpdü. Oğul dedi: "Ata! Mən göyə və sənə qarşı günah etdim. Mən artıq sənin oğlun adlanmağa layiq deyiləm". Atası isə öz qullarına dedi: "Tez olun, ən gözəl xalat gətirin və onu geyindirin. Barmağına üzük və ayaqlarına çarıq taxın. Kökəldilmiş dananı gətirin, kəsin: gəlin yeyib-şadlanaq! Çünki bu oğlum ölmüşdü, yenə həyata qayıtdı. O itmişdi, tapıldı". Beləliklə, şadlıq etməyə başladılar.*

*Atanın böyük oğlu isə tarlada idi. Qayıdaraq evə yaxınlaşanda çalğı və rəqs səsləri eşitdi. O, nökərlərdən birini yanına çağırıb soruşdu: "Bu nədir?" Nökər ona dedi: "Qardaşın qayıdıb. Atan da onun sağ-salamat qayıtmasına görə kökəldilmiş dananı kəsib". Böyük oğul isə hirsləndi və içəri girmək istəmədi. Atası bayıra çıxıb ona yalvardı. Amma o, atasına belə cavab verdi: "Bax neçə ildir ki, sənin üçün qul kimi işləyirəm. Heç zaman sənin əmrindən çıxmamışam. Amma mənə bir oğlağı belə, heç vaxt qıymadın ki, dostlarımla şadlıq edim. Bu oğlun isə sənin bütün varını fahişə qadınlara sərf edib. Amma o qayıdanda sən onun üçün kökəldilmiş dananı kəsdin". Atası isə ona dedi: "Oğlum, axı sən həmişə mənimləsən və*

*bütün varım sənindir. Lakin sevinmək və şadlanmaq lazımdır. Çünki sənin bu qardaşın ölmüşdü, həyata qayıtdı. O itmişdi, tapıldı!"»*

Biz bu məftunedici məsəl vasitəsi ilə nə öyrənirik? Burada biz üç adam görürük: ata, kiçik oğul və böyük oğul.

Hekayədəki **ata,** Allahı təmsil edir.

**Kiçik oğul** günahlarından tövbə etmiş və mərhəmət üçün Allaha dönmüş adamın illüstrasiyasıdır.

**Böyük oğul** Allah qarşısında saleh olduqlarını düşünərək özlərini aldadan dindar adamları göstərir.

Gəlin bir az uzaq yerdə yaşayan, günahlı təbiətinin ardınca gedən kiçik oğul haqda düşünək. O kim oldu? Biz axırda onun Allahı və insanı incitdiyini necə dərk etdiyini gördük. O günahına görə kədərləndi və tövbə edərək dedi, *"Durub atamın yanına gedəcəyəm və ona deyəcəyəm: ‹Ata, mən göyə və sənə qarşı **günah etdim**. Mən artıq sənin oğlun adlanmağa layiq deyiləm. Məni öz muzdlu işçilərinin biri kimi qəbul et."* Beləliklə, biz kiçik oğulun arxasını donuz damına çevirib atasının evinə yola düşdüyünü gördük.

Bəs **ata** nə etdi? Öz var-dövlətini xərcləyən oğluna qəzəbli idi? O oğlunu sadəcə qul kimi geri götürdü? Xeyr! İsa dedi,

"*Oğul hələ uzaqda ikən atası onu gördü. Ona rəhmi gəldi və **qaçıb onun boynuna sarıldı və öpdü.** Oğul dedi: "Ata! Mən göyə və sənə qarşı günah etdim. Mən artıq sənin oğlun adlanmağa layiq deyiləm". Atası isə öz qullarına dedi: "Tez olun, ən gözəl xalat gətirin və onu geyindirin. Barmağına üzük və ayaqlarına çarıq taxın. Kökəldilmiş dananı gətirin, kəsin: gəlin yeyib-şadlanaq! Çünki bu oğlum ölmüşdü, yenə həyata qayıtdı. O itmişdi, tapıldı."*

Biz burdan öyrənə bilərik ki, Allah mərhəmət dolu o ata kimidir! **Allah günahkarları sevir** və onlara mərhəmət göstərmək istəyir, amma **O gözləyir** ki, hər bir günahkar öz günahından tövbə etsin və Allahın qoyduğu salehlik yoluna dönsün.

**Böyük oğul** haqda isə, biz möcüzəli bir şey gördük. Böyük oğulda atasında olan mərhəmətli ürək yox idi. Əksinə, o qəzəbləndi və atasına belə deyərək evə daxil olmaq istəmədi, "*Bax neçə ildir ki, sənin üçün qul kimi işləyirəm. Heç zaman sənin əmrindən çıxmamışam. Amma mənə bir oğlağı belə, heç vaxt qıymadın ki, dostlarımla şadlıq edim."* O dedi, "Bax! neçə ildir ki, sənin üçün qul kimi işləyirəm!" Amma böyük oğul başa düşmürdü ki, ata onun üçün **qul kimi** işləyən oğul istəmirdi. Onun istədiyi **onu ürəkdən sevən** və etdiyi işlərdən zövq alan oğul idi.

Bu günə qədər Adəmin övladlarının əksəriyyəti böyük oğul kimidirlər. Onlar özlərini "**Allahın qulu**" olmaqdan başqa heç nə hesab etmirlər. Lakin Allah istəmir ki, biz sadəcə qullar olaq. O istəyir ki, biz Onun **oğulları, qızları** olaq. İsanı öz Rəbbləri və Xilaskarları kimi qəbul edənlər haqda Müqəddəs Yazılar bəyan edir: *"Siz **köləlik** ruhunu almadınız ki, yenə də qorxu içində yaşayasınız; **övladlıq** Ruhunu aldınız. Elə o Ruhun vasitəsilə Allaha «Abba, Ata» deyə nida edirik!"* (Romalılar 8:15)

Əziz dost, sən özünü **Allahın qulu kimi görürsən yoxsa övladı**? İndicə oxuduğumuz məsəldə sən özünü necə görürsən? Öz günahını dərk edən və atasının mərhəmətini qəbul edən kiçik oğul kimisən? Yoxsa atası üçün qul kimi işləyən böyük oğul kimisən? Allah istəmir ki, sən **öz ağasından qorxan qul kimi olasan.** Allahın istədiyi odur ki, sən atasını sevən və onun iradəsini yerinə yetirməyə sevinən oğul kimi olasan. Allah səni sevir və sənə mərhəmətini göstərmək istəyir, amma O gözləyir ki, sən tövbə edəsən və Ona tərəf dönəsən. Yeşaya Peyğəmbər bunları yazıb: ***"Amma Rəbb sizə lütf göstərmək üçün gözləyir, yenə də sizə rəhm etməyə hazırdır, çünki Rəbb adil Allahdır, Onu intizarla gözləyənlər nə bəxtiyardır!*** (Yeşaya 30:18)

Məsəldəki ata necə öz kiçik oğlunun evə geri döndüyünü gözləyirdi, Şəfqətli, Mərhəmətli Allah da sənin Ona yaxınlaşmanı gözləyir. Allah istəyir ki, sən sınmış və təvazökar ürəklə tövbə edəsən. Əgər sən Allaha belə gəlsən və bütün qəlbinlə Onu axtarsan, onda əmin ola bilərsən ki, ata ürəyi olan, şəfqət dolu və mərhəmətli Allahla görüşəcəksən. Lakin qürurlu olan və Allahın böyük mərhəmətinə nifrət edən, Allahın mərhəmətsiz məhkəməsindən başqa heç nəyə ümid bəsləməsin!

Dinlədiyiniz üçün çox sağ olun. Gələn proqramda Allahın iradəsi ilə İsanın dörd gün məzarda olan ölü adamı necə diriltdiyini görəcəyik!....

Qoy Allah bu gün oxuduqlarımızı dərk etməkdə kömək olsun! Və yadda saxla:

***"Allah məğrurlara qarşıdır, itaətkarlara isə lütf göstərər."*** (1 Peter 5:5)

78-ci Dərs

# Dirilmə və Həyat

**Yəhya 11, 12**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

İndiyə qədər İncildən öyrəndiyimiz dərslərimizdə biz İsa Məsihin **çox adları** olduğunu gördük. Bu adlar bizə Onun kim olduğunu bilməkdə kömək edir. Biz artıq eşitmişik ki, İsa: *Başlanğıcda Allah Olan Söz, Allah-Taalanın Oğlu, Bəşər Oğlu, Allahın Quzusu, Xilaskar, Həyat Çörəyi, Dünyanın Nuru, İzzətli Rəbb, Qoyunların Qapısı və Yaxşı Çoban* adlandırıldı. Bu gün biz İsanın əlavə iki adını da eşidəcəyik: Onlar budur: ***"Dirilimə"*** və ***"Həyat"***

Biz İsanın Yəhudeya boyu gəzdiyini, onları öyrətdiyini, yaxşı işlər gördüyünü, xəstələrə şəfa verdiyini, şikəsləri sağaltdığını, korların gözlərini açdığını və pis ruhları çıxartdığını görmüşük. Böyük izdiham Onun ardınca gedirdi. Buna baxmayaraq Fəriseylər kimi tanınan dindar adamlar İsanın hədsiz paxıllığını çəkirdilər. Onlar İsanın nə danışdığı sözlərdəki müdrikliyi, nə də Onun etdiyi möcüzələri inkar edə bilmirdilər.

Bu gün biz İncil kitabını oxumağı davam edirik. Biz **İsanın etdiyi digər fövqəltəbii möcüzəni görəcəyik. Bu Onda Allahın izzətini göstərdi ki, insanlar Ona inansınlar.** Yəhyanın İncili, on birinci ayəni oxuyuruq:

(Yəhya 11) *Lazar adlı bir adam xəstələnmişdi. O, Məryəmlə bacısı Martanın yaşadığı Bet-Anya kəndindən idi. Rəbbin üzərinə ətirli yağ çəkib ayaqlarını saçları ilə silən həmin Məryəm idi. Xəstələnən Lazar onun qardaşı idi.*
*Bu səbəbdən iki bacı «ya Rəbb, sevdiyin adam xəstədir» deyə İsaya xəbər göndərdi. İsa bunu eşidib dedi: «Bu xəstəliyin nəticəsi ölüm yox, Allahın izzəti və Allah Oğlunun bununla izzət qazanması olacaq». İsa Martanı, onun bacısını və Lazarı sevirdi. Buna görə də Lazarın xəstələndiyini eşidəndə olduğu yerdə daha iki gün qaldı.*
*Sonra isə şagirdlərə «yenə Yəhudeyaya gedək» dedi. Şagirdlər Ona dedi: «Rabbi, oradakı Yəhudilər bir az əvvəl Səni daşqalaq etməyə çalışırdı. Sən yenə də oraya qayıdırsan?» İsa cavab verdi: «Gündə on iki saat yoxdurmu?.... Dostumuz Lazar uyuyub. Mən onu oyatmaq üçün gedirəm». Onda şagirdlər Ona dedi: «Əgər uyuyubsa, sağalacaq». İsa onun ölümü barədə danışmışdı, amma onlar elə bildilər ki, yuxuya getdiyini söyləyib. Onda İsa onlara açıqca dedi: «Lazar ölüb. Mən də sizin uğrunuzda, iman etməyiniz üçün orada olmadığıma sevinirəm. Amma gəlin onun yanına gedək».*

*İsa gəlib Lazarın artıq dörd gündən bəri qəbirdə olduğunu bildi. Bet-Anya Yerusəlimdən on beş stadi məsafəsində idi. Bir çox Yəhudi Marta və Məryəmə qardaşlarının ölümünə görə təsəlli verməyə gəlmişdi.*
*Marta İsanın gəldiyini eşidəndə Onu qarşılamağa çıxdı, ancaq Məryəm evdə oturmuşdu. Marta İsaya dedi: «Ya Rəbb, əgər Sən burada olsaydın, qardaşım ölməzdi.Ancaq bilirəm ki, Sən indi də Allahdan nə diləsən, O Sənə verəcək». İsa ona «qardaşın diriləcək» dedi. Marta Ona dedi: «Bilirəm ki, dirilmə zamanı, son gündə o da diriləcək». İsa ona dedi: «Dirilmə və həyat Mənəm. Mənə iman edən ölsə də, yaşayar, yaşayıb Mənə iman edən də heç vaxt ölməz. Buna inanırsanmı?» Marta Ona cavab verdi: «Bəli, ya Rəbb, inanıram ki, dünyaya gəlməli olan Allahın Oğlu Məsih Sənsən». Marta bunu söylədikdən sonra gedib bacısı Məryəmi*

*gizlicə çağırdı və dedi: «Müəllim buradadır və səni çağırır». Məryəm bunu eşidən kimi tez qalxıb İsanın yanına getdi.... Məryəm İsanın olduğu yerə gəlib Onu gördü və ayaqlarına düşüb dedi: «Ya Rəbb, əgər Sən burada olsaydın, qardaşım ölməzdi».*

*İsa ağladı. Onda Yəhudilər «Bax onu necə də sevirmiş!» söylədilər. Lakin onlardan bəzisi dedi: «Korun gözlərini açan bu Şəxs bir şey edə bilməzdi ki, bu adam ölməsin?» O zaman İsa yenə əhvalı pozulmuş halda qəbirin yanına gəldi. Qəbir bir mağara idi və ağzına daş qoyulmuşdu. İsa «daşı götürün» dedi. Mərhumun bacısı Marta Ona dedi: «Ya Rəbb, artıq iylənib, çünki öldüyü dörd gündür». İsa dedi: «Axı Mən sənə söyləmədimmi, iman etsən, Allahın izzətini görəcəksən?» Beləcə daşı götürdülər. İsa da başını yuxarı qaldırıb dedi: «Ey Ata, Məni eşitdiyin üçün Sənə şükür edirəm.*
*Bilirəm ki, Məni həmişə eşidirsən. Lakin bunu ətrafımda duran xalq üçün söylədim ki, Məni Sən göndərdiyinə inansınlar». Bu sözləri söylədikdən sonra* ***«Lazar, bayıra çıx!»*** *deyə bərkdən qışqırdı. Ölü də bayıra çıxdı. Onun əl-ayağı sarğılarla və üzü dəsmalla bağlanmışdı. İsa onlara* ***«onu açın və buraxın getsin»*** *dedi.*

Bu heyrətamiz hekayəni bitirməzdən əvvəl İsanın etdiyi bu qüdrətli möcüzə haqda bir az fikirləşək. Dünyanın yaranmasından bu günə qədər heç kim heç vaxt eşitməyib ki, kimsə dörd gün məzarda olan, çürüməyə və iylənməyə başlayan ölüyə həyat versin. Amma Lazarı ölülərdən dirildəndə İsa məhz belə etdi.

Ölümün qüdrəti Rəbb İsa üçün problem deyildir. Çünki O Allahın Sözüdür; göylərdən gəlmiş Allahın Həyatıdır. Necə Allahın Özündə həyat var, eləcə də Məsihin Özündə həyat var. Və necə Allah ölü bədənləri dirildə bilər, eləcə də Məsih istədiyi hər kəsə həyat verə bilər. Çünki Onun Özü **Həyat Mənbəyidir.** Buna görə də İsa Lazarı məzardan çağıranda, ölü bədən dirildi və məzardan çıxdı. Buna görə də İsa Lazarın bacısına deyə bildi, ***"Dirilmə və həyat Mənəm. Mənə iman edən ölsə də, yaşayar!"***

Indi isə gəlin hekayəni bitirək və Yəhudilərin İsanın Lazarı ölülərdən diriltdiyindən sonra nə etdiklərinə baxaq:

(Yəhya 11:45-57) *Onda Məryəmin yanına gələn və İsanın nə etdiyini görən Yəhudilərin bir çoxu* ***Ona iman etdi.*** *Lakin* ***onlardan bəzisi*** *fariseylərin yanına gedib İsanın nə etdiyini onlara danışdı. Onda başçı kahinlər və fariseylər Ali Şuranı toplayıb dedilər: «Nə edək? Bu Adam çoxlu əlamət göstərir. Əgər Ona mane olmasaq, hamı Ona iman edəcək. Romalılar da gəlib məbədimizi və millətimizi məhv edəcək».*
*Orada olanlardan biri, həmin il baş kahin olan* ***Qayafa*** *onlara dedi****: «Siz heç nə bilmirsiniz. Başa düşmürsünüz ki, bütün bu millətin məhv olmağındansa bir Adamın xalq uğrunda ölməsi sizin üçün daha yaxşıdır?» O bu sözləri özündən söyləmədi, lakin o il baş kahin olduğu üçün peyğəmbərlik edib xəbər verdi ki, İsa bu millətin uğrunda –təkcə millətin uğrunda deyil, Allahın hər tərəfə səpələnmiş övladlarını bir yerə toplamaq üçün öləcək.***
*Beləcə o gündən etibarən İsanı öldürməyi qərara aldılar. Buna görə də İsa daha Yəhudilərin arasında açıq gəzmirdi. Oradan çöllüyə yaxın diyara, Efrayim adlanan şəhərə getdi və şagirdlərlə orada qaldı.*
*Yəhudilərin Pasxa bayramı yaxınlaşırdı. Çoxlu adam paklanmaq üçün Pasxadan qabaq kəndlərdən Yerusəlimə getdi. Onlar İsanı axtarırdılar və məbəddə dayanıb bir-birlərinə deyirdilər: «Necə fikirləşirsiniz? O, bayrama heç gəlməyəcəkmi?» Başçı kahinlər və fariseylər Onu tutmaq məqsədi ilə «harada olduğunu kim bilirsə, göstərsin» deyə əmr vermişdilər.*

(Yəhya 12:1-11) *Pasxadan altı gün əvvəl İsa Bet-Anyaya gəldi. İsanın ölülər arasından diriltdiyi Lazar da orada idi. Orada İsanın şərəfinə ziyafət verdilər. Marta xidmət edirdi. Lazar da İsa ilə birgə süfrə arxasında oturanların arasında idi. Məryəm isə bir litra çox qiymətli xalis nard yağını götürərək İsanın ayaqlarına çəkib onları saçları ilə sildi. Yağın ətri evi bürüdü. Lakin İsanın şagirdlərindən biri, Ona xəyanət edəcək Yəhuda İskaryot dedi: «Nə üçün bu ətir üç yüz dinara satılıb yoxsullara verilmədi?» Bu sözü yoxsulların qayğısına qaldığı üçün deyil, oğru olduğuna görə söylədi, çünki özündə olan pul qutusuna qoyulanların bir hissəsini oğurlayırdı.*
*Onda İsa dedi: «Qadını rahat burax, qoy bunu Mənim dəfn günüm üçün saxlasın. Çünki yoxsullar həmişə sizin yanınızdadır, Mən isə həmişə yanınızda olmayacağam».*

*Yəhudilərdən böyük bir kütlə İsanın orada olduğunu öyrənəndə həm İsaya görə, həm də Onun ölülər arasından diriltdiyi Lazarı görmək üçün oraya gəldi.* ***Onda başçı kahinlər öz aralarında Lazarı da öldürməyi qərara aldılar. Çünki Lazara görə çoxlu Yəhudi gedib İsaya iman edirdi.***

İsanın onlara göstərdiyi möcüzəli əlamətə dini rəhbərlər necə reaskiya göstərdilər? Onların heç biri İsanın etdiyi möcüzəni inkar etməyə cəsarət tapmadı. Çünki hamı ölümdən dirilmiş adamı görmüşdür! Amma Baş Kahin və digər kahinlər nə etdilər? Onlar öz günahlarından tövbə edib göylərdən gəlmiş İsa Məsihə iman etdilər? **Xeyr, onlar tövbə etmədilər!** İsanın göstərdiyi bütün möcüzəli əlamətlər kahinlərin və onların şagirdlərinin tövbə etməsinə və İsanı öz Rəbbləri və Xilaskarları kimi qəbul etmələrinə təsir etmədi.

Bəs onda Baş Kahinlər nə etdilər? Onlar İsaya daha da çox nifrət etdilər və Onu öldürmək üçün birgə plan cızdılar! Onlar həmçinin İsanın ölülərdən diriltdiyi Lazarı da öldürməyi planlaşdırdılar. Çünki O bir çox Yəhudilərin kahinlərdən dönüb İsanın ardınca getməsinə səbəb olmuşdur. O dini rəhbərlərin ürəkləri necə də riyakar və Allahdan uzaq idi! **Onlar nə Allahı nə də ki, həqiqəti sevirdilər.** Onlar İsanın onların önündə etdiyi möcüzələrə məhəl qoymadılar. Onların düşündüyü yeganə şey öz rahatlıqları, öz vəzifələri, öz xeyirləri və pul qazanmaqları idi. Beləliklə, onlar İsanı öldürmək üçün birgə süi-qəsd hazırladılar. Çünki onlar fikirləşdilər ki, əgər onlar İsaya imkan versələr, bütün Yəhudilər onlardan dönəcək və İsanın ardınca gedəcəklər.

Sən bu dini rəhbərlər haqda nə fikirləşirsən? İsanı öldürmək fikrini onların ağlına kim saldı? Şeytan onları idarə edirdi. Çünki o Allaha və Onun Məsihinə nifrət edir. Şeytan fikirləşirdi ki, əgər Yəhudi rəhbərlər İsanı öldürsələr, Allahın Adəmin övladlarını onun hakimiyyətindən xilas etmə planı pozulacaqdır. Amma şeytan dərk etmirdi ki, **Allah Adəmin övladlarını şeytanın hakimiyyətindən xilas etmək üçün Məsihin ölümündən istifadə etməyi nəzərdə tutmuşdur**. Həm də şeytan və onunla gedənlər başa düşmürdülər ki, ölümün gücü Rəbb İsanı saxlaya bilməzdi. Torpaq onu çürüdə bilməzdi. Çünki **İsa Dirilmə və Həyatdır.** Buna görə də İsa Lazarın bacısına dedi, *"**Dirilmə və həyat Mənəm.** Mənə iman edən ölsə də, yaşayar,yaşayıb Mənə iman edən də heç vaxt ölməz. Buna inanırsanmı?"* (Yəhya 11:25,26)

Biz gələn dərsdə də sizi bizə qoşulmağa və İncil kitabını oxumağı davam etdirməyə dəvət edirik. Görəcəyik ki, necə İsa Yerusəlim şəhərinə eşşəyin üstündə gələrək uzun illər əvvəl Peyğəmbərlərin Məsih haqqında yazdıqlarını yerinə yetirəcək....

Isa Məsihin bu sözləri üzərində düşündükcə qoy Allah sənə xeyir-dua versin:

***"Dirilmə və həyat Mənəm. Mənə iman edən ölsə də, yaşayar, yaşayıb Mənə iman edən də heç vaxt ölməz. Buna inanırsanmı?"*** (Yəhya 11:25,26)

79-cu Dərs

# İsa Yerusəlimə Daxil Olur

**Luka 18-20 və.s**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz Rəbb İsanın dörd gün qəbirdə olmuş ölünü necə diriltdiyini gördük. Ölümün qüdrəti İsa üçün problem deyildir. Çünki Onun Özü Dirilmə və Həyatdır. Bu gün biz İncil kitabını oxumağı davam etdirəcəyik və İsanın öləcəyi Yerusəlim şəhərinə necə daxil olduğunu görəcəyik. **İsa Onunla baş verəcək bütün şeyləri bilirdi.** İsa bilirdi ki, Yəhudi dini rəhbərləri Onu, Ona işgəncə verəcək və Onu çarmıxa mıxlayacaq Romalıların əlinə verəcəklər. Amma yenə də bu məlumat Onu Yerusəlimə getməkdən saxlamadı. Bu haqda İncil deyir: *"Dünyadan ayrılacağı günlər yaxınlaşdıqca **İsa Yerusəlimə getmək qərarına gəldi**!"* (Luka 9:51) O Yerusəlimə yaxınıaşdıqca İsa şagirdlərinə dedi, *"Mənim alacağım bir vəftiz var. Bu vəftiz yerinə yetib qurtaranadək necə də təzyiq altında olmalıyam!"* (Luka 12:50)

Isa nə üçün qətiyyət ilə Yerusəlimə getməyə qərara aldı? O Özünü Onu öldürmək istəyənlərin əlinə vermək üçün etdi! Bu **heyrətamizdir!** Əgər sən bilirsənsə hansısa şəhərdə sənə əzab vermək və öldürmək istəyənlər var, sən o şəhərə getməyi planlaşdırarsan? İsa Məsih tam belə etdi. Isa bilirdi ki, Onun doğulmasının səbəbi dünyanın günahlarına görə qurban kimi ölmək idi. İsa Öz rahatlığını axtarmaq üçün bu dünyaya gəlməmişdir. Lakin O **uzun illər əvvəl peyğəmbərlərin** Məsihin əzab çəkməsi və Yerusəlimdən kənarda İbrahimin öz oğlunun əvəzinə qoç qurban verdiyi yerdə Onun qan tökəcəyi haqqında **yazıldıqlarını yerinə yetirmək üçün gəlmişdir.** Qurbanlıq qoçun rəmzinin İsada tamamlanması çox mühüm idi. Buna görə də İsa öz qurbanını gözləyən ac şirlərin yuvasına bənzəyən Yerusəlim şəhərinə getdi.

Indi isə gəlin İncil kitabını oxumağı davam etdirək:

*"Onlar **yola çıxıb Yerusəlimə gedirdilər**. İsa onların qabağında gedirdi. Şagirdləri isə heyrət bürümüşdü, Onun ardınca gələnlər qorxu içində idi. **İsa On İki şagirdi yenə bir tərəfə çəkib başına gələcək hadisələr barədə danışmağa başladı.**"* (Mark 10:32) *"Yerusəlimə qalxırıq, **Bəşər Oğlu üçün peyğəmbərlər vasitəsilə yazılanların hamısı tam yerinə yetəcək.**"* (Luka 18:31) *" Bəşər Oğlu başçı kahinlərə və ilahiyyatçılara **təslim olunacaq**. Onu **ölümə məhkum edib** başqa millətlərə təslim edəcəklər. Onlar Bəşər Oğlunu **ələ salacaq**, Ona **tüpürəcək və qamçılayıb** öldürəcəklər. **O, üç gündən sonra diriləcək.**"* (Mark 10:33,34)

(Luka 18:34-43) *Amma **şagirdlər bu sözlərdən heç bir şey başa düşmədilər**. Bu sözlər onlar üçün gizli saxlandı və onlar deyilənləri anlamırdılar. İsa Yerixoya yaxınlaşanda bir kor adam yol kənarında oturub dilənirdi.*
*Yanından çoxlu adamın keçdiyini eşitdikdə soruşdu «Nə olub?» Ona xəbər verdilər: «Nazaretli İsa buradan keçir». Onda o qışqırdı: «Ey Davud Oğlu İsa! Mənə rəhm elə!» Qabaqda gedənlər ona qadağan edib susdurmaq istədisə də, o «Ey Davud Oğlu! Mənə rəhm elə!» deyə daha ucadan bağırdı. İsa dayanıb əmr etdi ki, onu yanına gətirsinlər. Adam yaxınlaşarkən İsa ondan soruşdu: «Nə istəyirsən, sənin üçün edim?» O dedi: «Ya Rəbb, gözlərim açılsın». İsa ona dedi: «Qoy gözlərin açılsın, imanın səni xilas etdi». Həmin an bu*

*adamın gözləri açıldı və o, Allahı izzətləndirərək İsanın ardınca getdi. Bunu görən bütün xalq Allaha həmdlər etdi.*

(Matta 21:1-9) *Yerusəlimə yaxınlaşıb Zeytun dağının yamacındakı Bet-Faqeyə gəldikləri zaman İsa iki şagirdi göndərərək onlara dedi: «Qarşınızdakı kəndə gedin. Dərhal orada bağlanmış bir eşşəklə bir sıpa tapacaqsınız. Onları açıb Mənə gətirin. Kim sizə bir şey desə, ona "bunlar Rəbbə lazımdır, tezliklə onları geri göndərəcək" deyərsiniz». Bunlar da peyğəmbər vasitəsilə söylənən bu söz yerinə yetsin deyə baş verdi:*
*«Sion qızına deyin ki, "Bax Padşahın sənə tərəf gəlir; O itaətkardır və bir eşşəyə – Eşşəyin balası olan sıpaya minib gəlir"». Şagirdlər gedib İsanın əmr etdiyi kimi etdilər. Eşşəklə sıpanı gətirib üzərlərinə paltarlarını qoydular və İsa sıpanın belinə mindi. Camaatın çoxu öz paltarlarını yola sərdi. Bəzisi də ağaclardan budaqlar kəsib yola döşədi. İsanın önündə gedən və ardınca gələn xalq belə nida edirdi: «Davud Oğluna hosanna! Rəbbin ismi ilə Gələnə alqış olsun! Ən ucalarda hosanna!»*

(Luka 19:39-42) *İzdihamın arasından bəzi fariseylər Ona dedilər: «Müəllim, şagirdlərinə qadağan et!» Lakin İsa cavabında onlara dedi: «Sizə bunu deyirəm ki, əgər onlar sussa, daşlar dilə gələr!» İsa Yerusəlimə yaxınlaşanda ona baxıb şəhər üçün ağladı. O dedi: «Ah, kaş sən də bu gün sülhə aparan yolu tanıyaydın! Amma bu yol hələlik sənin nəzərindən gizlənib..... çünki Allahın sənə yaxınlaşdığı zamanı anlamadın».*

(Matta 21:10-16) *İsa Yerusəlimə daxil olanda bütün şəhər «Bu Kimdir?» deyərək sarsıldı. Camaat isə deyirdi: «Bu, Qalileyanın Nazaret şəhərindən olan İsa Peyğəmbərdir». İsa məbədə girib orada alver edənlərin hamısını qovdu. Sərrafların masalarını və göyərçin satanların kürsülərini çevirdi. Onlara belə dedi: «"Mənim evim dua evi adlandırılacaq" deyə yazılıb. Amma siz onu "quldur yuvasına" çevirmisiniz!»*

*İsa məbəddə Onun yanına gələn korlara və axsaqlara şəfa verdi. Lakin başçı kahinlər və ilahiyyatçılar Onun etdiyi heyrətamiz işləri və məbəddə «Davud Oğluna hosanna!» deyə bağıran uşaqları gördükdə acıqlandılar və Ona dedilər: «Bunların nə söylədiyini eşidirsənmi?» İsa da onlara dedi: «Bəli. "Körpələrin və çağaların ağzından kamil həmd aldın" sözünü heç oxumamısınızmı?»*

*"Bunu eşidən başçı kahinlər və ilahiyyatçılar İsanı öldürmək üçün yol axtarırdılar. Çünki bütün xalq Onun təliminə təəccübləndiyi üçün Ondan qorxurdular."* (Mark 11:18)

(Yəhya 12:23-33) *İsa cavabında dedi: «Bəşər Oğlunun izzətlənmək vaxtı gəldi. Doğrusunu, doğrusunu sizə deyirəm: əgər bir buğda dənəsi torpağa düşüb ölmürsə, tək qalır, amma ölürsə, çoxlu məhsul verir....*
*İndi ürəyim təlaş keçirir. Nə deyim? "Ey Ata, Məni bu andan xilas et" deyimmi? Lakin Mən elə bu an üçün gəldim. Ey Ata, Öz adını izzətləndir!» Bunun cavabında göydən «Öz adımı izzətləndirdim, yenə də izzətləndirəcəyəm» deyə bir səs gəldi. Orada duran xalqın bir qismi «göy guruldadı» dedi, başqaları isə «Onunla bir mələk danışdı» söylədi. İsa cavab verdi: «Bu səs Mənim üçün deyil, sizin üçün gəldi.*
*İndi isə bu dünyaya hökm veriləcək və bu dünyanın hökmdarı bayıra atılacaq. Mən yerdən yuxarı qaldırılsam, bütün insanları Özümə cəzb edəcəyəm».* 33 ***İsa bu sözü söyləməklə necə bir ölümlə öləcəyinə işarə etdi.***

Gəlin bir az burada dayanaq. Biz İsanın sıpanın üstündə Yerusəlimə daxil olduğunu və izdihamın Onu alqışladığını, Onu öz padşahları etmək istədiklərini gördük. Amma insanlar

İsanın Yerusəlimə daxil olmasının səbəbini başa düşmürdülər. Hətta İsanın şagirdləri də nə baş verəcəyini dərk etmirdilər. Onlar ümid edirdilər ki, İsa Yəhudiləri onların düşmənləri olan Romalıların hakimiyyətindən xilas edəcəkdir. Amma İsa buna görə dünyaya gəlməmişdir. **Isa Roma imperiyasını dağıtmaq üçün yox, lakin şeytanın imperiyasını dağıtmaq üçün gəlmişdir.** O korlanmış dünyanı dəyişmək üçün yox, **lakin insanların ürəklərini dəyişmək üçün gəlmişdir.** Həqiqətən, bir gün İsa Məsih dünyadakı insanları mühakimə etmək və yaradılmış dünyanı bərpa etmək üçün geri dönəcəkdir. Amma O birinci dəfə dünyaya gələndə, **qurban kimi ölmək üçün gəlmişdir.** O uzun illər əvvəl Allahın Öz peyğəmbərləri vasitəsi ilə vəd etdiyi kimi Adəmin övladlarını günahın cəzasindan xilas etmək üçün gəlmişdir.

Hekayəni davam etdiririk, oxuyuruk:

(Luka 19:47-48) *İsa hər gün məbəddə təlim öyrədirdi. Başçı kahinlər, ilahiyyatçılar və xalqın nüfuzlu adamları Onu öldürmək üçün yol axtarırdı, amma bunu necə edəcəklərini bilmirdilər. Çünki bütün xalq Onu böyük diqqətlə dinləyirdi.*

(Luka 20) *Günlərin birində İsa məbəddə xalqa təlim öyrədirdi və Müjdəni yayırdı. Başçı kahinlər, ilahiyyatçılarla ağsaqqallar yaxınlaşıb Ona dedilər: «De görək, Sən bu işləri hansı səlahiyyətlə edirsən? Sənə bu səlahiyyəti kim verib?» İsa onlara belə cavab verdi: «Mən də sizə bir sual verəcəyəm. Mənə deyin: Yəhyanın vəftizi göydən idimi, yoxsa insanlardan?» Onlarsa öz aralarında müzakirə edərək belə dedilər: «Əgər desək "göydən", "Bəs nə üçün ona inanmadınız?" deyəcək. Amma desək "insanlardan", bütün xalq bizi daşqalaq edər. Çünki xalq Yəhyanın peyğəmbər olmasına əmindir». Axırda Ona cavab verdilər: «Biz bilmirik haradandır». İsa da onlara dedi: «Bunları hansı səlahiyyətlə etdiyimi Mən də sizə demirəm».*
*İsa xalqa belə bir məsəl çəkməyə başladı: «Bir adam üzüm bağı saldı və bağı bağbanlara icarəyə verərək uzun müddətə başqa ölkəyə getdi. Məhsul vaxtı çatanda bağbanların yanına bir qul göndərdi ki, onlar üzüm bağının məhsulundan bir qədərini ona versinlər. Lakin bağbanlar qulu döyərək əliboş geri qaytardılar. Bağ sahibi başqa bir qul göndərdi, amma onlar bunu da döyüb biabır etdilər və əliboş geri qaytardılar. O, üçüncüsünü də göndərdi, amma onlar onu da yaralayıb qovdular. Onda bağ sahibi dedi: "Mən nə edim? Qoy öz sevimli oğlumu göndərim, bəlkə ona hörmət edərlər".*
*Amma bağbanlar onu gördükdə öz aralarında danışıb dedilər: "Varis budur. Gəlin onu öldürək ki, miras bizə qalsın". Beləcə onu bağdan kənara çıxarıb öldürdülər. Beləliklə, bağ sahibi onlara nə edəcək? Gəlib həmin bağbanları həlak edəcək və bağı başqalarına verəcək». Bunu eşidənlərsə dedi: «Qoy belə olmasın».*
*Amma İsa onların gözlərinin içinə baxıb dedi: «Bəs bu Yazının mənası nədir? **"Bənnaların rədd etdiyi daş Guşədaşı olub". Bu daşın üstünə yıxılan hər kəs parçalanacaq, daşsa kimin üzərinə düşərsə, onu əzəcək».***
*İlahiyyatçılar və başçı kahinlər başa düşdülər ki, İsa bu məsəli onlar barədə söylədi. Ona görə də həmin an Onu yaxalamaq üçün yol axtardılar, lakin xalqdan qorxdular.*

Pis işçilər vasitəsi ilə İsa Onu öldürməyi planlaşdıranlara xəbərdarlıq etdi. Sən bu məsəlin mənasını başa düşürsən? Bunu izah etmək elə də çətin deyil. Bu məsəldə, Rəbb İsa Allahı bağ sahibi ilə müqayisə edir. Üzüm bağı isə İsrail xalqıdır. Pis bağbanlar **Yəhudi dini rəhbərlərinin illüstrasiyasıdır.** Üzüm yığmaq üçün bağ sahibinin göndərdiyi və işçilərin pis rəftar etdiyi bu xidmətçilər isə **peyğəmbərlərdir.** İşçilərin öldürdüyü bağ sahibinin oğlu isə **Məsih olan İsanı** təmsil edir.

Biz kahinlərin və ilahiyyatçıların nə üçün belə qəzəbləndiklərini başa düşə bilərik. Onlar çox yaxşı bilirdilər ki, İsa onlar haqqında danışırdı! Onlar başa düşürdülər ki, İsa onları bağ sahibinin xidmətçilərini incidən və sonda onun oğlunu da öldürən pis işçilər ilə müqayisə edirdi. Beləliklə İsa onları **peyğəmbərlərin sözlərinə məhəl qoymayan** və **Allah-Taalanın Oğlu Məsihi öldürənlər** kimi ifşa etdi. Isa onlara yalnız məsəl demədi, həm də İsa onlara Məzmurdan Özü haqda sitat da gətirdi: ***"Bənnaların rədd etdiyi daş, Guşədaşı olub"****. Bu daşın üstünə yıxılan hər kəs parçalanacaq, daşsa kimin üzərinə düşərsə, onu əzəcək!"* (Luka 20:17,18; Zəbur 118:22) Bununla İsa dini rəhbərlərə xəbərdarlıq etdi ki, onların rədd etdikləri və öldürməyi planlaşdırdıqları **Xilaskar** son gündə onların **Hakimi** olacaqdır!

Dostlar, dinlədiyiniz üçün çox sağ olun. Allahın iradəsi ilə gələn dərsdə biz İsanın və dini rəhbərlərin heyrətamiz hekayəsini davam edəcəyik....

Müqəddəs Yazıların Məsih haqqında bəyan etdikləri haqda düşündükcə, Allah sənə xeyir-dua versin:

***"O, dünyada idi, dünya Onun vasitəsilə yarandı, amma dünya Onu tanımadı."*** (Yəhya 1:10)

80-ci Dərs

# Ağır və Düz Sözlər

**Matta 22-25**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz İsa Məsihin bilərəkdən ki, Yerusəlim onu öldürməyi birgə planlaşdıran kahinlər və ilahiyyatçılarla doludur, Onun necə Yerusəlim şəhərinə daxil olduğunu gördük! Isa Onunla baş verəcək hər bir şeyi bilirdi. Lakin bu Onu Yerusəlimə getməkdən çəkindirmədi. İsa bilirdi ki, O dünyanın günahlarına görə qurban kimi ölmək üçün doğulmuşdur. Kahinlərin Onu həbs etməsinə və çarmıxa mismarlamalarına yalnız bir neçə gün qalmışdır.

Buna görə də əziz dinləyicilər, biz xahiş edirik ki, bu gün, harada olduğunuzdan asılı olamayaraq siz Rəbb İsanın Yəhudi dini rəhbərlərə xəbərdarlıq etdiyinə və onları ikiüzlülüklərinə və pozğunluqlarına görə töhmət etdiyinə diqqət yetirəsən. Bu gün eşidəcəyimiz **sözlər ağır** və **doğrudurlar.** Bəzən həqiqəti eşitmək ağrılı gəlir. Bu günki dərsimiz belə ağrılı sözlərlə doludur. Atalar sözündə deyilir: "Həqiqət acı olar!"

Ötən dərsimizdə gördüyümüz kimi İsa Yerusəlimə daxil olandan sonra O hər gün məbədə girib insanları öyrədirdi. Hər gün dini rəhbərlər və ilahiyyatçılar İsanı dediyi hansısa sözdə tutmağı axtarırdılar ki, Onu öldürməyə bir səbəb olsun. Amma onlar İsaya diqqətlə qulaq asan, bir sözünü belə ötürməyən adamlardan qorxurdular.

Müqəddəs Yazılar deyir:

(Luka 20:20-26) *İsanı güdürdülər və yanına özlərini dürüst insan kimi göstərən bir neçə casus göndərdilər. Onu dediyi söz üstə tutub valinin hökm və səlahiyyətinə təslim etmək məqsədləri var idi. Onlar İsadan soruşdular: «Müəllim, biz bilirik ki, Sən düz danışırsan, təlim öyrədirsən və heç kimə tərəfkeşlik etmirsən, ancaq Allahın yolunu həqiqətə görə öyrədirsən. Bizim üçün qeysərə vergi verməyə icazə var ya yox?» Amma İsa onların hiyləsini başa düşüb belə dedi: «Mənə bir dinar göstərin. Onun üstündəki təsvir və yazı kimindir?» Onlar cavab verdilər: «Qeysərin». İsa onlara dedi:* ***«Onda qeysərin haqqını qeysərə, Allahın haqqını Allaha verin».*** *İsanı xalq qarşısında söz üstə tuta bilmədilər və Onun cavabına heyrət edib susdular.*

(Matta 22:24-29) *«Müəllim, Musa belə demişdir: "Əgər bir adam övladsız ölsə, qardaşı onun dul qalmış arvadını alıb ölən qardaşın nəslini davam etdirsin". Aramızda yeddi qardaş var idi. Birincisi bir arvad aldı və öldü. Uşağı olmadığından arvadı ilə qardaşı evləndi. İkincisi və üçüncüsü, hətta yeddincisinə qədər eləcə öldü.Hamısından sonra bu qadın da öldü. İndi ölülər diriləndə bu qadın o yeddi nəfərdən hansının arvadı olacaq? Çünki hamısı bu qadını almışdı». İsa cavab verib onlara dedi****: «Müqəddəs Yazıları və Allahın qüdrətini bilmədiyinizə görə yanılırsınız.***

(Luka 20:34-38) *İsa onlara belə cavab verdi: «Bu dövrün insanları evlənir və ərə gedir. Amma gələcək dövrə yetişməyə və ölülər arasından dirilməyə layiq sayılanlar isə nə evlənəcək, nə də ərə gedəcək. Artıq ölə də bilməzlər, çünki mələklərə bənzəyirlər və dirilmə*

*övladları olduqlarına görə onlar Allahın övladlarıdır. Amma ölülərin dirildiyini Musa da kolla bağlı əhvalatda Rəbbi "İbrahimin Allahı, İshaqın Allahı və Yaqubun Allahı" adlandıraraq göstərib. Allah ölülərin deyil, dirilərin Allahıdır. Çünki Onun yanında hamı diridir».*

(Matta 22:33-46) *Bunları eşidən camaat Onun təliminə təəccüblənirdi.* ***Fariseylər*** *İsanın sadukeyləri susdurduğunu eşidəndə bir yerə toplaşdılar. Onlardan biri olan qanunşünas İsanı sınamaq məqsədi ilə Ondan bunu soruşdu: «Müəllim, Qanunda ən böyük əmr hansıdır?» İsa ona dedi:* ***«"Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla və bütün düşüncənlə sev".*** *Bu, böyük və əsas əmrdir. Buna bənzəyən ikincisi budur:* ***"Qonşunu özün kimi sev".*** *Bütün Qanun və Peyğəmbərlərin sözləri bu iki əmrə əsaslanır». Fariseylər toplaşdıqda İsa onlardan bunu soruşdu:* ***«Məsih haqqında nə düşünürsünüz? O kimin Oğludur?»*** *Onlar da İsaya «Davudun Oğlu» dedilər. İsa onlara dedi: «Elə isə, nə üçün Davud Ruh vasitəsilə Ona "Ağa" deyə müraciət edir? "Rəbb mənim Ağama dedi: ‹Mən düşmənlərini ayaqlarının altına salanadək Sağımda otur›" deyib. Əgər Davud Ona "Ağa" deyə müraciət edirsə, O necə Davudun oğlu ola bilər?» Bunun cavabında İsaya kimsə bir söz deyə bilmədi.* ***O gündən sonra artıq heç kim Ondan bir şey soruşmağa cəsarət etmədi.***

(Matta 23:1-37) *Bundan sonra İsa camaata və şagirdlərinə müraciət edib dedi: «İlahiyyatçılar və fariseylər Musanın kürsüsündə oturmuşlar.... Amma onların etdiklərini etməyin****, çünki söyləyərlər, amma riayət etməzlər.***
*Ağır və çətin daşına bilən yükləri bağlayıb insanların çiyninə yükləyərlər, özləri isə bu yükləri daşımaq üçün barmaqlarını belə, tərpətmək istəməzlər. Onlar öz əməllərinin hamısını insanlar görsün deyə edərlər. Çünki onlar dua qutucuqlarını genişləndirib geyimlərinin qotazlarını uzadarlar. Ziyafətlərdə yuxarı başı və sinaqoqlarda baş kürsüləri tutmağı, bazar meydanlarında salam almağı, insanların onlara "Rabbi!" deyə xitab etməsini sevərlər. Amma kimsə sizi "Rabbi" deyə çağırmasın. Çünki sizin bir Müəlliminiz var. Siz hamınız isə qardaşsınız. Yer üzündə kimsəyə "ata" deməyin. Çünki bir Atanız var, O da Səmavi Atadır. Kimsə sizə "rəhbər" deməsin. Çünki bir Rəhbəriniz var, O da Məsihdir. \ Aranızda ən böyük olan xidmətçiniz olsun. ** ***Kim özünü yüksəldərsə, aşağı tutulacaq və kim özünü aşağı tutarsa, yüksəldiləcək.***

*Vay halınıza, ey ilahiyyatçılar və fariseylər – ikiüzlülər! Çünki siz Səmavi Padşahlığı insanların üzünə qapayırsınız. Nə özünüz girirsiniz, nə də girmək istəyənləri buraxırsınız.*

*Vay halınıza, ey ilahiyyatçılar və fariseylər – ikiüzlülər! Çünki siz dənizi və qurunu dolaşırsınız ki, bir nəfəri dinə gətirəsiniz. Dinə gətirdikdə isə onu özünüzdən ikiqat artıq cəhənnəmlik edirsiniz.*

*Vay halınıza, ey ilahiyyatçılar və fariseylər – ikiüzlülər! Çünki siz nanə, şüyüd və zirənin onda birini verirsiniz, lakin Qanunun daha vacib işlərini, ədaləti, mərhəməti və imanı atırsınız. Amma onda birini verməklə yanaşı bunları da yerinə yetirməli idiniz. 24 Ey kor rəhbər! Ağcaqanadı süzgəclə çıxarır, dəvəni isə udursunuz!*

***Vay halınıza****, ey ilahiyyatçılar və fariseylər – ikiüzlülər! Çünki siz kasanın və boşqabın bayır tərəfini təmizləyirsiniz, lakin onların daxili soyğunçuluq və pozğunluqla doludur. Sən, ey kor farisey! Əvvəlcə kasanın daxilini təmizlə ki, bayır tərəfi də təmiz olsun!*

***Vay halınıza,*** *ey ilahiyyatçılar və fariseylər – ikiüzlülər! Çünki siz ağardılmış məqbərələrə bənzəyirsiniz: onların bayır tərəfi gözəl görünür, daxili isə ölü sümükləri və hər cür murdarlıqla doludur. Siz də zahirən insanlara saleh görünürsünüz, daxilən isə ikiüzlülük və qanunsuzluqla dolusunuz.*

***Vay halınıza,*** *ey ilahiyyatçılar və fariseylər – ikiüzlülər! Çünki siz peyğəmbərlərə məqbərələr tikirsiniz, salehlərin abidələrini bəzəyirsiniz. "Biz ata-babalarımızın yaşadığı günlərdə yaşasaydıq, peyğəmbərlərin qanını tökməkdə onlarla şərik olmazdıq" deyirsiniz. Beləliklə, peyğəmbərləri öldürənlərin övladları olduğunuza özünüz şəhadət edirsiniz. Elə isə, ata-babalarınızın başladığı işi başa çatdırın! Siz ey ilanlar, gürzələr nəsli! Cəhənnəmə məhkum edilməkdən necə qaçacaqsınız?... Ey Yerusəlim, Yerusəlim! Peyğəmbərləri öldürən və ora göndərilənləri daşqalaq edən şəhər! Toyuq cücələrini qanadları altına yığan kimi Mən də dəfələrlə sənin övladlarını yığmaq istədim, s**iz isə istəmədiniz**!*

(Matta 24:1-31) *İsa məbəddən çıxıb gedərkən şagirdləri məbədin binalarını Ona göstərmək üçün yanına gəldilər. İsa onlara cavab verib dedi: «Bütün bunları görürsünüzmü? Sizə doğrusunu deyirəm: **onların daşı daş üstündə qalmayacaq, hamısı yerlə yeksan olacaq»**. İsa Zeytun dağında oturanda şagirdlər ayrılıqda Onun yanına gəlib dedilər: «Bizə söylə, bu dediklərin nə vaxt baş verəcək? Sənin zühurun və dövrün sonuna hansı əlamətlər olacaq?»*

*İsa onlara cavab verib dedi: **«Ehtiyatlı olun, qoy sizi heç kim aldatmasın.** Çünki Mənim adımla çox adam gəlib "Məsih mənəm" deyərək çoxlarını aldadacaq. Siz müharibələr və müharibə xəbərləri eşidəcəksiniz. Amma təlaşa düşməyin. Bunlar baş verməlidir, amma bu hələ hər şeyin axırı deyil. Çünki millət millətə, padşahlıq padşahlığa qarşı çıxacaq. Yerbəyer aclıq və zəlzələlər olacaq. Bütün bunlar sanki doğuş ağrılarının başlanğıcıdır. O zaman sizi əziyyətə təslim edib öldürəcəklər. Mənim adıma görə bütün millətlər sizə nifrət edəcək. Onda bir çoxu imandan büdrəyərək bir-birini təslim edəcək və bir-birinə nifrət edəcək. **Bir çox yalançı peyğəmbər törəyib çox adamı aldadacaq**.... O zaman əgər kimsə sizə desə ki, "bax, Məsih buradadır" yaxud da "oradadır", inanmayın. Çünki yalançı məsihlər və yalançı peyğəmbərlər törəyəcək. Onlar böyük əlamətlər və xariqələr göstərəcəklər ki, imkan taparlarsa, seçilmişləri də aldatsınlar. **Bax Mən sizə əvvəlcədən söyləmişəm**. Ona görə sizə "bax, O çöldədir" desələr də, çıxmayın. "Bax, O daxili otaqlardadır" desələr də, inanmayın. Çünki şimşək şərqdə çaxıb qərbdə belə, göründüyü kimi Bəşər Oğlunun zühuru da elə olacaq."*

*Amma o günlərin əzab-əziyyətindən dərhal sonra günəş tutulacaq, ay nurunu saçmayacaq, ulduzlar göydən töküləcək, səma cisimləri lərzəyə gələcək. O zaman Bəşər Oğlunun əlaməti göydə görünəcək. O vaxt yer üzünün bütün tayfaları şivən qaldıracaq və **Bəşər Oğlunun göyün buludları üzərində qüdrət və böyük izzətlə gəldiyini görəcək.** O, mələklərini uca şeypur səsi ilə göndərəcək. Mələklər də göylərin bir ucundan o biri ucuna qədər dörd külək istiqamətindən Onun seçdiklərini toplayacaq."*

(Matta 25:31-46) *Bəşər Oğlu bütün mələklərlə birlikdə izzəti ilə gələn zaman Öz izzətli taxtına oturacaq. Bütün millətlər Onun önündə toplaşacaq, O da qoyunları keçilərdən ayıran bir çoban kimi onları bir-birindən ayıracaq. Qoyunları sağına, keçiləri isə soluna qoyacaq. O zaman Padşah sağındakılara deyəcək: "Ey sizlər, Atamın xeyir-dua verdiyi adamlar! Gəlin, dünya yaranandan bəri sizin üçün hazırlanmış olan Padşahlığı irs alın.... O zaman solundakılara deyəcək: "Ey lənətə gəlmişlər, çəkilin önümdən! İblis ilə onun mələklərinə hazırlanmış olan əbədi oda yollanın! **Bunlar əbədi əzaba, salehlər isə əbədi həyata gedəcək!"***

Əziz dinləyicilər, burada Rəbb İsanın dini rəhbərlərə onların ikiüzlülüklərinə və ürəklərinin sərtliyinə görə necə nəsihət verdiyini eşitdik.  O Öz şagirdlərinə Ondan sonra gələn, özlərini peyğəmbər kimi göstərən, amma bir çox insanları aldadanlar haqqında da xəbərdarlıq etdiyini gördük. Sonda, bir gün Rəbb İsanın yer üzünə Öz qüdrətli mələkləri ilə geri dönüb, Allahın Məsih haqqında Xoş Xəbərini, günahkarların Xilaskarını rədd edənləri mühakimə edəcəyini eşitdik.

Bəli, bu gün biz bir neçə ağır söz eşitdik. Amma onlar yaxşı sözlərdir. Çünki onlar həqiqi sözlərdir. Və onlar ona inanan hər bir kəs üçün gözəl sözlərdir, çünki Rəbb İsa deyib, ***"Onda siz həqiqəti biləcəksiniz və həqiqət sizi azad edəcək!"*** (Yəhya 8:32)

Dostlar, dinlədiyiniz üçün çox sağ olun. Gələn dərsdə İsanın şagirdlərindən birinin İsanı, Onu öldürmək istəyənlərə satmaq üçün Baş Kahinin yanına getdiyi haqda öyrənəcəyik.

Rəbb İsanın belə deyərək bəyan etdiyi haqda düşündükcə, Allah sizə xeyir-dua versin,

***"Müqəddəs Yazıları və Allahın qüdrətini bilmədiyinizə görə yanılırsınız!" lakin "həqiqət sizi azad edəcək!"*** (Matta 22:29; Yəhya 8:32)

81-ci Dərs

# Son Şam Yeməyi

**Matta 26**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Müqəddəs Yazılardan biz hal-hazırda İsa Məsih haqda Xoş Xəbəri deyən İncil kitabını oxuyuruq. İsa Adəmin övladarını Şeytanın hakimiyyətindən xilas etmək üçün dünyaya gələn müqəddəs Qurtarıcıdır. **Qurtarıcı bütün digər adamlardan fərqlənirdi; O insan formasında gəlmiş, başanğıcda Allahla olan Sözdür.** İnsan olan İsa Öz doğuluşunda bənzərsiz idi. Çünki O Allahın Ruhunun vasitəsi ilə bakirə qızdan doğulmuşdur. İsa Öz xarakterində də bənzərsiz idi. Çünki O müqəddəs təbiət ilə doğulmuşdur; O heç vaxt günah işlətməmişdir. Onun əməlləri də bənzərsiz idi; heç kim heç vaxt Onun etdiyi möcüzələri etməmişdir. Rəbb İsada şeytan və pis ruhlar, külək və dəniz, xəstəliklər və ölüm üzərində səlahiyyət var idi. Onun təlimi də müqəyisə edilməz idi; hətta Onun düşmənləri deyirdi, *"Hələ indiyəcən heç bir insan belə danışmayıb!"* (Yəhya 7:46)

Bəli, İsa Məsih Öz doğuluşunda, Öz xarakterində, Öz əməllərində və Öz sözlərində bənzərsiz idi. Lakin bu hamı üçün Onun göylərdən gəlmiş Xilaskar olduğunu tanımağa səbəb olmadı. Adəmin övladlarının əksəriyyəti İsanın həqiqətən kim olduğunu başa düşmürdülər. Onlar İsanı peyğəmbər hesab edirdilər. Lakin onlar başa düşmürdülər ki, Allahın Özü onlara baş çəkməyə gəlmişdir! Yəhudi dini rəhbərlərinə gəldikdə isə, onlar nəyinki İsanın kim olduğunu anlaya bilmədilər, hətta onlar İsanı öldürməyi belə aralarında danışdılar! Ötən dərsimizdə biz İsanın dini rəhbərləri və İlahiyyatçıları ikiüzlülüklərinə və pozğunluqlarına görə necə məzəmmət etdiyini eşitdik. Lakin İsanın sözləri onların tövbə etməsinə səbəb olmadı. Sözün düzü dini rəhbərləri bir fikir izləyirdi: S**adəcə İsanı öldürmək!**

Rəbb İsa Yerusəlimdə öləcəyini və həmin o dini rəhbərlərin Onu öldürəcəyini bilirdi. Beləliklə biz İsanın Öz şagirdlərinə Kahinlərin və İlahiyyatçıların Onu ölümə məhkum edəcəklərini xəbərdarlıq etdiyini gördük. Onlar Onu Romalılara satacaqlar, Onu ələ salacaqlar, Ona tüpürəcəklər, Onu döyəcəklər və çarmıxa mismarlayacaqlar. Lakin üç gündən sonra O yenidən diriləcəkdir! Bununla İsa çarmıxdakı ölümü və məzardan dirilməsini qabaqcadan söylədi. Və İsa nəyinki **necə** öləcəyini və **harada** öləcəyini elan etdi, lakin oxuyacağımız fəsildə biz İsanın hətta **nə vaxt** öləcəyini də elan etdiyini görəcəyik!

Indi isə gəlin Mattanın İncili, 26-cı fəsili oxumaqda davam edək və İsanın Öz çarmıxa çəkilməsinə necə hazırlaşdığına qulaq asaq. Allahın Sözü deyir: (Matta 26) ***1*** *İsa bütün bu sözləri bitirəndən sonra şagirdlərinə dedi:* *2* *"İki gün sonra Pasxa bayramı olacağını bilirsiniz. Bəşər Oğlu çarmıxa çəkilmək üçün təslim ediləcək."*

İsa Öz şagirdlərinə nə dedi? O onlara xəbərdarlıq etdi ki, Adəm övladları **Onu Pasxa bayramı günü** Çarmıxa çəkəcəklər. Bu çox mühümdür. Tövratdakı dərsimizdə biz Pasxa haqda öyrənmişik. Pasxa Yəhudilərin təqviminə görə ilin ilk ayında baş verirdi. Bu Mart və Aprel aylarına düşür. Hər il bayramda Yəhudilər Musanın dövründə Misirin qəddar Fironu tərəfindən qul olduqları vaxtda nə baş verdiklərini yada salırlar. O vaxt Allah Öz saleh məhkəməsində və böyük planında Misirdə doğulan hər ilk oğlan uşağını ölümə məhkum etmişdir. Lakin Allah Ona inananlar və Ona itaət edənlər üçün qurtuluş yolu təmin etmişdir.

Allah hər bir İsrailli ailəsinə qüsursuz quzu qurban verməyi və onun qanını qapılarına sürtməyi əmr etmişdir. Allah belə deyərək vəd etmişdir, ***"Qanı görəndə yan keçəcəyəm!"*** (Çıxış 12:13) İsrail xalqı Allahın əmr etdiyi kimi etdi və nəticə etibarı ilə, Allah onların ilk doğulmuş oğlan uşaqlarını qurtardı. Allah onları **quzunun qanı ilə** qurtardı.

Min beş yüz ilə ərzində Yəhudilər hər il Pasxa Bayramında Misir torpağı üzərinə gələn bəlalardan Allahın onları necə xilas etdiklərini xatırlamaq üçün quzu qurban kəsərdilər. Amma Allah istəmirdi ki, onlar sadəcə **geri baxsınlar** və olanları xatırlasınlar. Bütün o qurbanlıq quzular vasitəsi ilə Allah istəyirdi ki, onlar **irəliyə baxsınlar** və Məsihin Öz qanını çarmıxda tökəcəyi günü qabaqcadan görsünlər. Məsihin tökəcəyi qan günahkarları bəlalardan daha pis olan cəhənnəmin əbədi alovu bəlasından xilas edəcəkdir! Qurtarıcının çarmıxdakı ölümü Allahın tələb etdiyi son və kamil qurban olacaqdır. Allah Öz mürdikliyində Qurtarıcının Pasxa Bayramı günü Öz qanını tökəcəyini və bununla da **rəmzi qurbanlıq quzunu** icra edəcəyini nəzərdə tutmuşdur. Beləliklə Qurtarıcı olan İsa Allahın xilaskarları Onun ədalətli mühakiməsindən xilas etmək üçün hazırladığı planı bitirəcəkdir.

Indi isə gəlin artıq oxuduğumuz ayələrlə başlayan İncil kitabına qayıdaq.

(Matta 26) *İsa bütün bu sözləri bitirəndən sonra şagirdlərinə dedi: «İki gün sonra Pasxa bayramı olacağını bilirsiniz. Bəşər Oğlu çarmıxa çəkilmək üçün təslim ediləcək». O zaman başçı kahinlər və xalqın ağsaqqalları Qayafa adlı baş kahinin həyətinə toplaşdılar. İsanı hiylə ilə tutub öldürmək üçün sui-qəsd hazırladılar. Amma deyirdilər: «Bunu bayramda etməyək, yoxsa xalq arasında qarışıqlıq düşər»....*
*O zaman On İki şagirddən Yəhuda İskaryot adlı biri başçı kahinlərin yanına gedib dedi: «Onu sizə təslim etsəm, mənə nə verərsiniz?» Onlar da Yəhudaya otuz gümüş təklif etdilər. O vaxtdan Yəhuda İsanı təslim etmək üçün fürsət axtarmağa başladı.*

(Matta 14) *Yəhyanın şagirdləri gəlib onun cəsədini götürdülər. Onu basdırdılar və gəlib İsaya bu barədə xəbər verdilər. İsa bunu eşidib qayığa minərək təkbaşına oradan kimsəsiz bir yerə çəkildi. Bunu eşidən camaat şəhərlərdən piyada Onun ardınca getdi. İsa sahilə düşəndə böyük bir izdiham gördü, onlara rəhmi gəldi və xəstələrinə şəfa verdi. Axşama yaxın şagirdlər Onun yanına gəlib dedilər: «Bura çöllükdür, vaxt da gecdir. Camaatı burax, qoy gedib kəndlərdən özlərinə yemək alsın». Amma İsa onlara dedi: «Getmələrinə ehtiyac yoxdur. Onlara yeməyi siz verin».*

(Luka 22) *Yemək vaxtı çatanda İsa həvarilərlə süfrəyə oturdu.*
*İsa onlara dedi: «Mən əzab çəkməzdən əvvəl bu Pasxa yeməyini sizinlə birgə yeməyi çox arzulayırdım. Sizə bunu deyirəm: Pasxa Allahın Padşahlığında yerinə yetənədək Mən bir daha onu yeməyəcəyəm». (Mark 14) Onlar süfrəyə oturub yemək yeyərkən İsa dedi: «Sizə doğrusunu deyirəm: sizlərdən biri – Mənimlə yemək yeyən biri Mənə xəyanət edəcək». Onlar kədərlənməyə başladılar və bir-bir Ondan soruşdular: «Mən deyiləm ki?»*
*İsa onlara dedi: «Siz On İki nəfərdən biridir. Mənimlə birlikdə çörəyini qaba batıran odur. Bəşər Oğlu Özü barəsində yazıldığı kimi gedir. Amma vay o adamın halına ki, Bəşər Oğluna xəyanət edir! O adam heç doğulmasaydı, onun üçün daha yaxşı olardı».*

(Matta 26) *Ona xəyanət edən Yəhuda «Rabbi, mən deyiləm ki?» deyə soruşdu. İsa da ona «sən dediyin kimidir» dedi.*

(Yəhya 13:30) *Yəhuda tikəni alan kimi dərhal bayıra çıxdı. Artıq gecə idi.*

(Mark 14:22-24) *Onlar yeyəndə İsa çörək götürdü, şükür duası edib onu böldü və şagirdlərə verərək dedi: «Alın! Bu Mənim bədənimdir». Sonra bir kasa götürdü və şükür edib onu da şagirdlərə verdi və hamısı oradan içdi. İsa onlara dedi: «Bu, Əhdin bağlanması üçün çoxları uğrunda axıdılan Mənim qanımdır.*

İsanın günahı silmək üçün Öz qanını qurban kimi tökməzdən əvvəl şagirləri ilə son şam yeməyi haqda İncildə yazılanlar bunlardır. İsa on iki şagirdinə onlardan birinin Onu satacağını bildirdi. O Yəhuda İskaryot idi. İnsan gözlərində Yəhuda sadiq şagird idi. Lakin öz ürəyində Yəhuda yalnız pulun və dünyəvi şeylərin qeydinə qalırdı. Buna görə də o Baş Kahinin yanına getdi və ona dedi, *"Onu sizə təslim etsəm, mənə nə verərsiniz?"* Beləliklə kahin ona 30 gümüş verdi. Bu hadisə Zəkəriyyə peyğəmbərin yüz illər əvvəl Məsihi otuz gümüşə satacaqları haqda dediklərinin yerinə yetməsi üçün baş verdi. (Bax Zəkəriyyə 11:12,13)

Amma indicə oxuduğumuzda ən vacib şey İsanın çörəyi və kasanı şagirləri ilə bölərkən dediyi sözlərdir. Onun dediklərini eşitdin? Gəlin yenidən oxuyaq:

(Mark 14:22-24) *Onlar yeyəndə İsa **çörək** götürdü, şükür duası edib onu böldü və şagirdlərə verərək dedi: «Alın! Bu Mənim **bədənimdir**». Sonra bir **kasa** götürdü və şükür edib onu da şagirdlərə verdi və hamısı oradan içdi. İsa onlara dedi: «Bu, Əhdin bağlanması üçün çoxları uğrunda axıdılan Mənim **qanımdır**.*

Beləliklə, biz İsanın Öz şagirdləri qarşısında necə iki rəmz qoyduğunu görürük: **çörəyin** rəmzi və **kasanın** rəmzi. İsanın qırdığı və şagirdlərinə verdiyi çörək Onun qurban kimi verəcəyi bədənini təsvir edirdi. Üzüm şirəsi olan kasa isə Qurtarıcı İsanın Adəmin övladlarının əbədiyyən Allahın hüzurunda yaşaya bilmələrindən ötrü günah borclarını ödəmək üçün tökdüyü qanın təsviri idi.

**Çörəyin və kasanın rəmzi** vasitəsi ilə İsa günahkarlar üçün Öz həyatını, Öz bədənini və Öz qanını vermək üçün gəldiyinin səbəbini şagirdlərinə dedi. Yer üzündə hər bir kəs sağ qalmaq üçün yemək yeməli və su içməlidirsə, eləcə də Allahla əbədiyyən göylərdə yaşamaq istəyən hər bir kəs inanmalıdır ki, İsa Məsih bizə əbədi həyat vermək üçün Öz bədənini və Öz qanını qurban etmişdir. Rəbb İsa Məsih əbədi həyat verə bilən yeganə Biridir və Onun tökdüyü qan səni və məni günahın gətirdiyi lənətdən xilas edə bilən Allahın yeganə əlacıdır.

Əgər bu dərsdən bir şey yadda saxlayacaqsınızsa, qoy o onda bu olsun: **İsa Məsih sənin yükünü daşımaq üçün dünyaya gəlmişdir.** Bu Allahın peyğəmbərlərinin **müjdəsidir**. Bu İbrahimin öz oğlunun yerinə olan qoçun **məğzidir**. Bağışlanma yolu Kamil Qurban Yoludur. Allah sənin günahlarını, sənin üçün Öz qanını tökmüş Müqəddəs Qurtarıcının qurbanı vasitəsi ilə bağışlaya bilər. Min illər Allah Adəmin övladlarının günahlarından yan keçmək üçün heyvan qurbanı tələb edirdi. Bu Allahın öz peyğəmbərlərinə həvalə etdiyi Köhnə Əhddir. Amma İsa Məsih isə Yeni Əhd gətirdi. Rəmzi heyvan qurbanlarını icra edən O idi.

İsa Məsihin Özü öldürülən son Pasxa Quzusu idi ki, Ona inanan hər bir kəs Allahın ədalətli məhkəməsindən xilas ola bilsin. Buna görə də Müqəddəs Yazılar deyir: *"Bizim Pasxa quzumuz olan Məsih qurban verildi."* (1 Korinfli lərə 5:7) *" Günahla əlaqəsi olmayan Məsihi Allah bizim uğrumuzda günah qurbanı verdi ki, biz Onda Allahın salehliyinə nail olaq."* (2 Korinflilərə 5:21)

**İsanın qanı hədsiz dəyərlidir.** İsanın qanının təmizləyici gücü haqda Allahın Sözündə nə deyildiyinə qulaq as:

***" İsanın qanı bizi hər günahdan təmizləyir!"*** (1 Yəhya 1:7) *" Bildiyiniz kimi, siz ata-babalarınızdan irs olaraq aldığınız puç həyat tərzindən qızıl ya gümüş kimi fani şeylərlə deyil**, qüsursuz və ləkəsiz quzuya bənzəyən Məsihin qiymətli qanı bahasına satın alınmısınız.** Dünya yaranmazdan əvvəl tanınmış Məsih bu axır zamanda sizə görə zühur etdi. Məsih vasitəsilə siz Onu ölülər arasından dirildib izzətləndirən Allaha iman edirsiniz. Beləliklə, imanınız və ümidiniz **Allaha** bağlıdır*. (1 Peter 1:18-21)

Sən bu gün eşitdiklərini diqqətlə nəzərdən keçirt. Çünki Allah bu həqiqətləri başa düşmək üçün sənə dərrakə vermək istəyir. Gələn dərsdə biz axırıncı şam yeməyi haqda hekayəni bitirəcəyik və dini rəhbərlərin İsanı öldürmək üçün Onu necə həbs etdiklərini görəcəyik....

Dərin mənası və böyük xeyir-dua olan bu ayə üzərində düşündükcə Allah sizə xeyir-dua versin,

***"İsanın qanı bizi hər günahdan təmizləyir!"*** (1Yəhya 1:7)

82-ci Dərs

# İsa Həbs Olunur

**Yəhya 14; Matta 26**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsdə biz İsanın ölümündən əvvəl Öz şagirdləri ilə yediyi **son şam yeməyi** haqda öyrəndik. Rəbb İsanın on iki şagirdinə, Onun on iki şagirdindən birinin Onu satacağını və Onun düşmənlərinə ələ verəcəyi haqda xəbərdarlıq etdiyini eşitdik. Biz İsanın çörəyi və kasanı şagirdlərinə verərək, bu kəsdiyim çörək mənin qurban kimi verəcəyim bədənimin rəmzidir və üzüm şirəsi olan kasa isə tökəcəyim qanın rəmzidir dediyini də gördük. Beləliklə İsa yenidən şagirdlərinə dünyaya gəlməsinin məqsədinin günahı yuyan və əbədi həyat verən qurban olduğunu göstərdi.

Bu gün biz İncil kitabını oxumağı və məbəd qoruyucularının həmin gecə gəlib Onu həbs edərkən danışdığı dərinmanlı və gözəl sözləri eşidəcəyik. Biz Yəhyanın İncili on dördüncü fəsili oxuyuruq. Dünyadan köçməsinin vaxtının çatdığını bilən İsa, Öz şagirdlərinə dedi,

(Yəhya 14) *Qoy ürəyiniz təlaşa düşməsin. Allaha iman edin, Mənə də iman edin. Atamın evində çoxlu məskən var. Əgər olmasaydı, sizə deyərdimmi ki, sizin üçün yer hazırlamağa gedirəm? Gedib sizin üçün yer hazırlayandan sonra yenə gəlib sizi Öz yanıma götürəcəyəm ki, Mənim olduğum yerdə siz də olasınız. Gedəcəyim yerə aparan yolu tanıyırsınız». Tomas İsaya dedi: «Ya Rəbb, hara gedəcəyini bilmirik, yolu necə tanıya bilərik?» İsa ona dedi: «Yol, həqiqət və həyat Mənəm. Mənim vasitəm olmadan heç kim Atanın yanına gələ bilməz. Əgər Məni tanısaydınız, Atamı da tanıyardınız. İndidən siz Onu tanıyırsınız, Onu görmüsünüz». Filip Ona dedi: «Ya Rəbb, Atanı bizə göstər, bu bizim üçün kifayətdir». İsa ona dedi: «Xeyli müddətdir ki, Mən sizinləyəm, Məni tanımadınmı, Filip? Məni görən, Atanı görmüş olur. Bəs sən niyə "Atanı bizə göstər" deyirsən? Mənim Atada, Atanın da Məndə olduğuna inanmırsanmı? Sizə söylədiyim sözləri Özümdən söyləmirəm, Məndə olan Ata Öz işlərini görür.*
*Mən Atadayam, Ata da Məndədir, bu sözümə inanın. Heç olmasa o işlərə görə inanın.*

*Əgər Məni sevirsinizsə, əmrlərimə riayət edəcəksiniz. Mən də Atadan xahiş edəcəyəm və O sizə başqa bir Vəsatətçi göndərəcək ki, daim sizinlə olsun. O, həqiqət Ruhudur. Onu dünya qəbul edə bilməz, çünki Onu nə görür, nə də tanıyır. Sizsə Onu tanıyırsınız, çünki sizinlə qalır və daxilinizdə olacaq. Sizi yetim qoymaram, yanınıza gələcəyəm. Az bir müddətdən sonra dünya daha Məni görməyəcək, amma siz Məni görəcəksiniz. Mən yaşadığım üçün siz də yaşayacaqsınız. O gün biləcəksiniz ki, Mən Atamdayam, siz Məndəsiniz və Mən sizdəyəm. Kim əmrlərimə bağlı qalıb onlara riayət edirsə, Məni sevən odur. Məni sevəni Atam sevəcək. Mən də onu sevib Özümü ona zahir edəcəyəm».... İsa ona cavab verdi: «Kim Məni sevsə, sözümə riayət edər, Atam da onu sevər və Biz onun yanına gəlib onunla məskən salarıq. Məni sevməyənsə sözlərimə riayət etməz. Eşitdiyiniz söz Mənim deyil, Məni göndərən Atanın sözüdür. Hələ yanınızda qalarkən sizə bu sözləri söylədim. Lakin Vəsatətçi – Atanın Mənim adımla göndərəcəyi Müqəddəs Ruh hər şeyi sizə öyrədəcək və söylədiyim bütün sözləri yadınıza salacaq. Aranızda sülh qoyub gedirəm, Öz sülhümü sizə verirəm. Mən onu sizə dünyanın verdiyi kimi vermirəm. Qoy ürəyiniz təlaşa düşməsin və qorxmayın.*

Rəbb İsa Öz şagirdlərinə təsəlli verdi və baş verəcək şeylərə hazırladı. İsanın onlara **Təsəlliverici** haqda dediklərini eşitdin? Bunu başa düşmək çox vacibdir. Çünki bu gün bəzi adamlar İsanın sözlərini təhrif edirlər və insanları inandırmağa çalışırlar ki, O başqa bir peyğəmbərin gəlişini elan edirdi. Lakin İsanın Təsəlliverici haqda dedikləri nə peyğəmbərə, nə də ki, başqa bir adama aid ola bilməz. Çünki İsa dedi ki, Təsəlliverici gəlib İsanın həqiqi şagirdlərinin daxilində yaşayacaq olan gözə görünməz ruh idi.

Təsəlliverici kimdir? Rəbb İsa bizə Təsəllivericinin kim olduğunu aydın deyir. İsanın dediklərinə yenidən qulaq as,

*"Mən də Atadan xahiş edəcəyəm və O sizə başqa bir Vəsatətçi göndərəcək ki, daim sizinlə olsun. O, həqiqət Ruhudur.. .O sizinlə qalır və daxilinizdə olacaq. Sizi yetim qoymaram, yanınıza gələcəyəm... Vəsatətçi – Atanın Mənim adımla göndərəcəyi Müqəddəs Ruh hər şeyi sizə öyrədəcək və söylədiyim bütün sözləri yadınıza salacaq."* (Yəhya 14:16-18,26)

Yenidən, sizdən soruşuruq: İsanın Öz şagirdlərinə vəd etdiyi Təsəlliverici kimdir? O Allahdan gələn və İsada olan **Müqəddəs Ruhdur**. O Allahın və İsanın Ruhudur. O Allahın İsaya şəxsi Xilaskarı və Rəbbi kimi inananların ürəklərində yerləşdirdiyi Müqəddəs Ruhdur. İsa Öz şagirdlərinə vəd etdi ki, O öləndən, diriləndən və göylərə qayıdandan sonra O onların ürəklərinə Öz Müqəddəs Ruhunu göndərəcəkdir ki, onları yenidən canlandıracaq, təmizləyəcək, qüvvətləndirəcək və *"hər həqiqətə yol göstərəcəkdir"* (Yəhya 16:13; həmçinin bax Titus 3:4-7) Allahın iradəsi ilə sonra Yerusəlimdə Onun vəd etdiyi kimi Müqəddəs Ruhun gəlib İsanın şagirdlərinin ürəklərində yaşamağa başlamasını öyrənəcəyik.

Sonrakı proqramda biz özünə yönələn günahlı şəxsdən Allahı sevən və Onu razı salmağa can atan adam edə bilən Təsəlliverici, Müqəddəs Ruh haqda daha çox öyrənəcəyik. İndi isə gəlin İncili oxumağa qayıdaq və İsanın şagirdləri ilə son şam yeməyi yediyi vaxtda baş verən qeyri-adi hadisəyə baxaq.

Müqəddəs Yazılar deyir:

(Matta 26:30-39) *Onlar ilahi oxuyandan **sonra çıxdılar** və Zeytun dağına tərəf getdilər. Onda İsa şagirdlərinə dedi: «Bu gecə hamınız Məni atıb gedəcəksiniz, çünki belə yazılıb:"Çobanı vuracağam, sürünün qoyunları pərən-pərən olacaq". Amma Mən diriləndən sonra sizdən qabaq Qalileyaya gedəcəyəm». Peter Ona cavab verib dedi: «Hamı Səni atıb getsə də, mən əsla atıb getməyəcəyəm». İsa ona dedi: «Sənə doğrusunu deyirəm: bu gecə xoruz banlamazdan əvvəl sən Məni üç dəfə inkar edəcəksən». Peter Ona dedi: «Əgər Səninlə birlikdə ölməyim lazım olsa belə, Səni əsla inkar etməyəcəyəm». Bütün şagirdlər də belə dedilər.*

*Sonra İsa şagirdlərlə birlikdə **Getsemani** adlanan bir yerə gəldi və onlara dedi: «Mən oraya gedib dua edərkən siz burada oturub-qalın». O, Peter ilə Zavdayın iki oğlunu Özü ilə apardı. Özündə bir kədər və narahatlıq hiss etməyə başladı. Onlara belə dedi: «**Ürəyimi elə dərin kədər bürüyüb, az qalır ki, ölüm**. Burada qalın və Mənimlə birlikdə oyaq olun». İsa bir qədər irəli getdi və üzüstə yerə qapanıb dua etdi: **«Ey Atam, mümkündürsə, qoy bu kasa Məndən yan keçsin. Amma Mənim yox, Sənin iradən olsun».***

Bir az burada dayanaq. İsanın içməyə qorxduğu əzab, iztirab kasası nədir? İsa nə üçün ölümə qədər kədərli idi? İsa Adəmin övladlarının günahlarına görə cəzanı daşımasının artıq vaxtının yaxınlaşmasını bildiyinə görə O təsvirediləz həyəcanda idi! **Allahın bütün peyğəmbərlərinin etdikləri peyğəmbərliklərin zamanı gəlib çatmışdır**! İnsanlar Məsihə işgəncə verəcəklər və çarmıxa mismarlayacaqlar. Lakin İsa üçün ən dəhşətli şey Onun göylərdə olan, Onu sevən və Onun sevdiyi Atası, bütün dünyanın günahını Onun ürəzinə qoymasını bilmək idi! Buna görə də İsa dua etdi: ***«Ey Atam, mümkündürsə, qoy bu kasa Məndən yan keçsin. Amma Mənim yox, Sənin iradən olsun».***

Sonra Müqəddəs Yazılar deyir:

(Matta 26:40-54) *İsa şagirdlərin yanına qayıdıb gördü ki, onlar yatıb. O, Peteri səslədi: «Məgər Mənimlə birlikdə bir saat oyaq qala bilməzdinizmi? Oyaq durub dua edin ki, sınağa düşməyəsiniz. Ruh həvəsli, cisim isə gücsüzdür». İsa yenə* ***ikinci dəfə*** *uzaqlaşdı və dua etdi: «Ey Atam, əgər Mən içmədən bu kasanın keçməsi mümkün deyilsə, qoy Sənin iradən olsun». İsa qayıdanda gördü ki, onlar yenə yatıb. Çünki onların gözləri yumulurdu. Onları tərk edib təkrarən uzaqlaşdı, yenə eyni sözlərlə* ***üçüncü dəfə*** *dua etdi. Sonra İsa şagirdlərin yanına qayıdıb onlara dedi: «Hələ də yatıb dincəlirsiniz? Budur, vaxt yaxınlaşıb və Bəşər Oğlu günahkarların əlinə təslim olunur. Qalxın gedək. Budur, Mənə xəyanət edən gəlir!»*

*İsa hələ danışarkən On İki şagirddən biri olan* ***Yəhuda*** *gəldi. Onun yanında başçı kahinlərin və xalqın ağsaqqallarının göndərdiyi əli qılınclı və dəyənəkli böyük bir dəstə adam var idi. İsaya xəyanət edən Yəhuda onlara işarə ilə bildirib demişdi: «Kimi öpsəm, İsa Odur, Onu tutun». O anda İsaya yaxınlaşıb «Salam, Rabbi!» deyərək Onu öpdü. İsa da ona «Dostum, nə üçün gəlmisən?» dedi. Elə bu vaxt İsaya yaxınlaşıb əl ataraq Onu* ***tutdular****.*
*Budur, İsa ilə birlikdə olanlardan biri əl atıb qılıncını çəkdi və baş kahinin qulunu vurub qulağını qopartdı. İsa ona dedi: «Qılıncını yerinə qoy, çünki qılınc çəkənlərin hamısı qılıncla məhv olacaq.* ***Yoxsa elə düşünürsən ki, Atamdan yardım istəyə bilmərəm? İstəsəm, dərhal Mənə on iki legiondan artıq mələk göndərər. "Bunların olması gərəkdir" deyən Müqəddəs Yazılar onda bəs necə yerinə yetərdi?»***

(Matta 26:55-57) *Həmin vaxt İsa camaata dedi: «Nə üçün quldur üstünə gələn kimi qılınc və dəyənəklərlə Məni tutmağa gəlmisiniz? Hər gün məbəddə oturub təlim verirdim, heç Məni tutmadınız. Amma* ***bunların hamısı peyğəmbərlərin Yazıları yerinə yetsin deyə baş verdi****». Onda bütün şagirdlər İsanı atıb qaçdılar. İsanı həbs edənlər Onu baş kahin Qayafanın yanına gətirdilər. İlahiyyatçılar və ağsaqqallar da oraya toplaşdı.*

Beləliklə bu gün biz İsanın Özünü Onu öldürmək istəyənlərə necə təslim etdiyini gördük. Bəlkə kimsə soruşa bilər: "Nə üçün İsa Özünü düşmənlərinin əlinə verməyə imkan verdi? O tufanı sakitləşdirə bildi, pis ruhları çıxarda bildi, korun gözünü açdı və ölünü diriltdi. **Bəs nə üçün O Özünü düşmənlərindən xilas etmədi?"** İsa Özü bizə səbəbini dedi. Şagirdlərindən biri Onu qorumağa çalışanda, İsa ona dedi,

*"Qılıncını yerinə qoy... Yoxsa elə düşünürsən ki, Atamdan yardım istəyə bilmərəm? İstəsəm, dərhal Mənə on iki legiondan artıq mələk göndərər.* ***"Bunların olması gərəkdir" deyən Müqəddəs Yazılar onda bəs necə yerinə yetərdi?"*** (Matta 26:52-54)

Nə üçün İsa imkan verdi ki, düşmənləri Onu tutsunlar? O, bunu davamlı olaraq Məsihin əzab çəkməsi və günahı aradan qaldıran qurban kimi Öz qanını tökməsi haqda Peyğəmbəmbərlərin Müqəddəs Yazılardakı peyğəmbərliklərini yerinə yetirilməsinə görə etdi. Saleh Qurtarıcı bizi

Allaha yaxınlaşdırmaq üçün qeyri –salehlərə görə ölməli idi. İsa Məsih peyğəmbərlərin sözlərini yerinə yetirmək üçün bu dünayaya gəlmişdir. O qurbanlıq quzunun məğzini yerinə yetirmək üçün gəlmişdir. O səni və məni günahlarımızdan xilas etmək üçün gəlmişdir. Buna görə də O Özünü düşmənlərin əlinə verməyə izn verdi. **İsa sənə və mənə görə Öz həyatını verdi.** Belə Xilaskarı göndərdiyinə görə Allaha şükür olsun!

Dostlar, biz bu gün burada dayanırıq. Gələn dərsdə baş kahinlərin və Yerusəlimlilərin, onların rəhbərlərinin İsanı məhkum etməkdə əməkdaşlıq etdiklərini, bununla da peyğəmbərlərin sözlərinin yerinə yetməsi görəcəyik...

İsanın şagirdlərinə dediklərini yadda saxladıqca Allah sənə xeyir-dua versin,

***"Mən canımı qurban verirəm ki, sonra onu geri alım. Canımı Məndən heç kəs ala bilməz, amma onu Özüm verirəm!"*** (Yəhya 10:17,18)

83-cü Dərs

# İsa Məhkum Olunur

**Matta 26,27; Yəhya 18,19**

Sülh olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Müqəddəs Yazıları oxuduqca peyğəmbərlərin günahkarları əbədi cəzadan xilas etmək üçün Allahın hazırladığı xilas planını elan etdiklərini eşitdik. O xilas planı nədir? Bu Məsihin çarmıxdakı ölümüdür. Allahın peyğəmbərləri saleh Məsih qüsursuz qurbanlıq quzu kimi qeyri-salehlərə görə, bizim günahlarımızı daşıyaraq Öz qanını tökərək ölməlidir deyə şəhadət etdilər. Bu Allahın Öz salehliyi ilə güzəştə getməyərək bizim günahlarımızı bağışlaması üçün yeganə yol idi. Bizim Müqəddəs Yazılardakı davamlı dərslərimizdə biz ən mühüm hekayəyə yaxınlaşırıq. Bu Məsihin ölümünün və dirilməsinin tarixi tərəfidir. Allahın iradəsi ilə indi və gələn dərslərdə biz İsa Məsihin dünyanın günahını daşıması üçün Öz həyatını qurban verməsinə baxacağıq.

Ötən dərsimizdə biz baş kahinlərin İsanın və şagirdlərinin harada olmasını onlara satacaq adamı aldıqlarını gördük. Biz onların **İsanı tutduqlarını** və apardıqlarını gördük. **Inanılmaz!** Nə üçün Allahın qüdrəti ilə dolu olan İsa imkan verdi ki, düşmənləri Onun tutsunlar? İsa, Ona inanan hər bir kəsin günahlarından bağışlanmanı əldə etmək üçün Peyğəmbərlərin qabaqcadan Məsihin əzab çəkməsi, ölməsi və üçüncü gündə ölülərdən dirilməsi gərəkdir yazılmış olduğunun yerinə yetirilməsi üçün buna imkan verdi. Necə ki, peyğəmbərlər peyğəmbərlik etmişdirlər ki, Məsih *"Kəsilməyə aparılan quzu kimi."* (Yeş. 53:7) olacaqdır.

İndi isə gəlin dini rəhbərlərin İsanı həbs etdikdən sonra **həmən qaranlıq gecədə** nə baş verdiklərini görmək üçün İncil kitabını oxumaqda davam edək. Müqəddəs Yazılar deyir:

(Mark 14:53-72) ***İsanı baş kahinin yanına gətirdilər. Başçı kahinlərin hamısı, ağsaqqallar və ilahiyyatçılar da oraya toplaşdı.*** *Peter uzaqdan baş kahinin həyatinə qədər İsanın ardınca gedirdi. O, mühafizəçilərlə birgə həyətdə, tonqalın ətrafında oturub qızınırdı.*
*Başçı kahinlər və Ali Şuranın hamısı İsanı edam etmək üçün* ***Onun əleyhinə şahidlik*** *ifadəsi axtarırdılar, amma* ***tapa bilmirdilər.*** *Çoxları Onun əleyhinə yalançı şahidlik etdi, lakin ifadələri bir-birinə uyğun gəlmirdi. Bəziləri qalxıb Onun əleyhinə yalançı şahidlik edərək dedilər: «Biz Onun belə dediyini eşitdik: "Mən əl ilə qurulan bu məbədi dağıdıb üç gün ərzində əl ilə qurulmayan başqa bir məbəd tikəcəyəm"».*
*Amma onların da ifadələri bir-birinə uyğun gəlmirdi. Baş kahin toplantı arasından ayağa qalxıb İsadan soruşdu: «Sənin heç cavabın yoxdur? Onlar Sənin əleyhinə bu nə ifadədir verirlər?» Amma İsa susmaqda davam etdi, heç cavab vermədi. Baş kahin yenə Ondan soruşdu: «Xeyir-dua Sahibi Olanın Oğlu Məsih Sənsənmi?» İsa ona dedi:* ***«Mənəm!*** *Siz Bəşər Oğlunun Qüdrətli Olanın sağında oturduğunu və göyün buludları ilə gəldiyini görəcəksiniz». Onda baş kahin əynindəki paltarını cırıb dedi: «Artıq şahidlərə nə ehtiyacımız var? Siz Onun küfr söylədiyini eşitdiniz! Bəs buna nə deyirsiniz?»* ***Onların hamısı İsa üçün hökm verdilər ki, O, ölüm cəzasına layiqdir.*** *Bəziləri Onun üstünə tüpürməyə, Onun gözlərini bağlayaraq yumruq vurmağa başladı və dedilər: «Peyğəmbərlik elə görək!» Mühafizəçilər də tutub Ona şillə vurdular.*
***Peter*** *aşağıda, həyətdə ikən baş kahinin qarabaşlarından biri gəldi. Qızınmaqda olan Peteri görən kimi onu diqqətlə süzüb dedi: «Sən də Nazaretli İsa ilə birlikdə idin». Amma Peter*

*bunu inkar edərək dedi: «Bilmirəm və başa düşmürəm, sən nə danışırsan». O, bayır qapının önünə çıxdı və bu anda xoruz banladı.*
*Qarabaş Peteri görəndə yenə yanındakılara deməyə başladı: «Bu da onlardandır». Peter yenə inkar etdi. Bir az sonra orada duranlar yenə ona dedi: «Doğrudan da, sən onlardansan, çünki Qalileyalısan». Peter isə özünü qarğıyıb and içərək dedi: «Dediyiniz o Adamı tanımıram». Həmin anda xoruz ikinci dəfə banladı. Peter İsanın «xoruz iki dəfə banlamazdan əvvəl sən Məni üç dəfə inkar edəcəksən» dediyi sözü yadına saldı. Ona görə ağlamağa başladı.*

(Matta 27:1-5) *Səhər açılanda bütün başçı kahinlərlə xalqın ağsaqqalları İsanı edam etmək üçün məşvərət etdilər. İsanın əl-qolunu bağlayaraq vali Pilatın yanına aparıb ona təslim etdilər. O zaman İsaya xəyanət edən* ***Yəhuda*** *Onun məhkum edildiyini görəndə peşman oldu. Otuz gümüşü başçı kahinlərə və ağsaqqallara geri gətirib «mən təqsirsiz qanı təslim etməklə günah işlətdim» dedi. Onlar isə ona «Bundan bizə nə? Özün bilərsən» dedilər. Yəhuda gümüş pulları məbədin içinə atıb oradan çıxdı, gedib özünü asdı.*

(Yəhya 18:28-38) *Sonra* ***Yəhudi başçıları İsanı Qayafanın yanından vali sarayına apardılar****. Səhər açılırdı. Amma özləri vali sarayına girmədilər ki, murdar olmasınlar və Pasxa yeməyini yeyə bilsinlər. Ona görə də* ***Pilat*** *bayıra, onların yanına çıxıb dedi: «Bu Adamı nədə ittiham edirsiniz?» Onlar Pilata cavab verdi: «Əgər bu Adam cinayətkar olmasaydı, Onu sənə təslim etməzdik». Pilat onlara dedi: «Onu siz götürüb öz Qanununuza görə mühakimə edin». Yəhudi başçıları Pilata dedi: «Bizim heç kəsi edam etməyə icazəmiz yoxdur». Onlar belə dedi ki, İsanın necə bir ölümlə öləcəyinə işarə edərək söylədiyi söz yerinə yetsin.*
*Pilat yenə vali sarayına girdi, İsanı çağırıb Ona dedi: «Yəhudilərin Padşahı Sənsənmi?» İsa cavab verdi: «Sən bunu özündənmi söyləyirsən, yoxsa başqaları sənə Mənim barəmdə danışdı?» Pilat dedi: «Məgər mən Yəhudiyəm? Səni Öz millətin və başçı kahinlər mənə təslim etdi. Söylə, nə etmisən?» İsa cavab verdi: «Mənim Padşahlığım bu dünyadan deyil. Əgər Mənim Padşahlığım bu dünyadan olsaydı, xidmətçilərim Yəhudi başçılarına təslim edilməməyim üçün döyüşərdi, amma indi Mənim Padşahlığım buradan deyil». Pilat ona dedi: «Demək, Sən Padşahsan?» İsa cavab verdi: «Sənin dediyin kimi Mən Padşaham. Mən həqiqət barədə şahadət etmək üçün doğulub dünyaya gəldim. Həqiqətdən olan hər kəs Mənim səsimə qulaq asar». Pilat Ona «Həqiqət nədir?» dedi. Bunu deyəndən sonra yenə bayıra, Yəhudilərin yanına çıxıb onlara dedi:* ***«Mən Onda heç bir təqsir görmürəm.***

(Luka 23:5-15) *Amma onlar təkid edərək deyirdilər: «Bu Adam Qalileyadan tutmuş bu yerə qədər bütün Yəhudeyada təlim öyrədərək xalqı təşvişə salır». Pilat Qalileya barədə eşidərək soruşdu: «Məgər bu Adam Qalileyalıdır?» 7 İsanın Hirodun idarə etdiyi vilayətdən olduğunu bildikdə Onu Hirodun yanına göndərdi. Çünki o günlər Hirod da Yerusəlimdə idi.* ***Hirod*** *İsanı gördükdə çox sevindi. Onun haqqında eşitdiyi şeylərə görə Onu çoxdan görmək istəyirdi. Ondan bir əlamət görməyi umurdu. Hirod Ona çox suallar verdi, amma İsa ona heç bir cavab vermədi.*
*Başçı kahinlər və ilahiyyatçılar durub Onu şiddətlə ittiham edirdilər. Hirod öz əsgərləri ilə Onu təhqir edib ələ saldı. Onun əyninə bir gözəl paltar geyindirib Pilatın yanına qaytardı. Əvvəllər düşmən olan Pilatla Hirod o gün bir-biri ilə dostlaşdı.*
*O zaman Pilat başçı kahinləri, rəhbərləri və xalqı toplayıb onlara dedi: «Siz bu Adamı mənim yanıma buna görə gətirdiniz ki, O, xalqı yoldan çıxarır. Budur, mən sizin qarşınızda məsələni araşdırıb bu Adamı sizin* ***irəli sürdüyünüz ittihamların heç birində təqsirkar görmədim****. Hirod da bir şey tapmadı. Çünki bu Adamı bizə geri göndərdi. Budur, O, ölüm cəzasına layiq heç bir şey etməyib.*

(Yəhya 18:39-40) *Axı sizdə bir adətdir ki, Pasxa zamanı mən sizin üçün bir nəfəri azad edirəm. İndi istəyirsinizsə, sizin üçün Yəhudilərin Padşahını azad edim?» Bunun cavabında onlar yenə bağırıb dedi: «Bu adamı yox,* ***Barabbanı azad et!»*** *Barabba isə bir quldur idi.*

(Luka 23:19-22) *Barabba şəhərdə üsyan qaldırmaq və adam öldürmək üstündə zindana atılmışdı. Pilat İsanı azad etmək istəyərək yenə də səsini ucaltdı. Amma onlar «Onu çarmıxa çək, çarmıxa çək!» deyə bağırırdı. Pilat üçüncü dəfə onlara dedi: «Axı O nə pislik edib? Mən Onda ölüm cəzasına layiq heç bir təqsir görmədim. Buna görə də Onu cəzalandırıb azad edəcəyəm».*

(Yəhya 19:1-12) *Onda Pilat İsanı aparıb* ***qamçılatdı****. Əsgərlər də* ***tikandan bir tac*** *hörüb Onun başına qoydular və Ona tünd qırmızı paltar geyindirdilər. Onlar İsanın yanına gəlib «Yəhudilərin Padşahı sağ olsun!» deyirdilər və* ***Ona şillə vururdular.***
*Pilat yenə bayıra çıxıb Yəhudilərə dedi: «Budur, Onu bayıra, sizin yanınıza gətirirəm ki, Onda bir təqsir görmədiyimi biləsiniz». O zaman İsa başında tikandan tac, əynində tünd qırmızı paltar bayıra çıxdı. Pilat onlara dedi: «O Adam budur!» Başçı kahinlər və mühafizəçilər Onu gördükdə* ***«Çarmıxa çək, çarmıxa çək!»*** *deyə bağırdı. Pilat onlara dedi: «Onu özünüz götürüb çarmıxa çəkin, çünki mən Onda bir təqsir görmürəm». Yəhudilər ona cavab verdilər: «Bizim bir qanunumuz var, bu qanuna görə* ***O ölməlidir, çünki Özünü Allahın Oğlu adlandırır».***
*Pilat bu sözü eşidəndə daha da qorxdu. Yenə vali sarayına girib İsadan soruşdu:* ***«Sən haradansan?»*** *Amma İsa ona cavab vermədi. Pilat Ona dedi: «Mənəmi cavab vermirsən? Bilmirsən ki, Səni azad etməyə yaxud çarmıxa çəkməyə səlahiyyətim var?» İsa ona cavab verdi: «Əgər sənə yuxarıdan verilməsəydi, Mənim üzərimdə heç bir səlahiyyətin olmazdı. Buna görə də Məni sənə təslim edənin günahı daha böyükdür».*
*Bundan sonra Pilat Onu azad etməyə çalışdı, ancaq Yəhudilər bağırıb dedilər: «Əgər bu Adamı azad etsən, qeysərin dostu deyilsən. Kim özünü padşah elan edirsə, qeysərə qarşı çıxmış olur».*

(Matta 27:24-25) *Pilat əlindən heç bir şeyin gəlmədiyini və əksinə, iğtişaşın gücləndiyini görərək su götürüb xalqın önündə əllərini yudu və belə dedi: «Mən bu Adamın qanı üçün təqsirkar deyiləm, qoy sizin boynunuzda qalsın». Bütün xalq cavab verib dedi: «Onun qanının məsuliyyəti bizim və övladlarımızın üzərinə olsun!»*

(Mark 15:15) ***Xalqı razı salmaq istəyən Pilat onlar üçün Barabbanı azad etdi. İsanı isə qamçılatdıqdan sonra çarmıxa çəkilməyə təslim etdi.***

Beləliklə hər şey Yeşaya peyğəmbərin yeddi yüz il əvvəl Məsih haqda yazdığı peyğəmbərliklər kimi yerinə yetdi: ***"Ona zülm etdilər, O iztirab çəkdi, amma ağzını açmadı. Kəsilməyə aparılan quzu kimi, qırxımçıların qabağında dilsiz qoyun kimi ağzını açmadı."*** (Yeşaya 53:7) Yeşaya Məsihin bu sözlərini də yazmışdır, ***"Məni döyənlər üçün belimi açdım, üzümü saqqalımı yolanlara tərəf uzatdım. Təhqirlərdən, tüpürcəklərdən üzümü gizlətmədim."*** (Yeşaya 50:6)

Bu gün biz Yəhudi dini rəhbərlərinin müqəddəs və saleh Məsihə iztirab verərək, incidərək və ölümə məhkum edərək Peyğəmbərlərin Yazılarını necə yerinə yetirdiklərini gördük. Nə üçün dini rəhbərlər İsanı ölümə məhkum etdilər? **Onlar həqiqətin işığına dözə bilmədikləri üçün** Onu məhkum etdilər. İsa onlara həqiqəti dedi və həqiqət onların ikiüzlülüklərini və piss niyyətlərini ifşa etdi. İsanın Özü Həqiqət idi! Nur dünyaya gəldi, lakin insanlar öz pis

əməllərinə görə qaranlığı nurdan üstün tutdular. Və Adəmin övladları Nura dözə bilmədiklərinə görə onların yeganə həll yolu bunu sönürməyə çalışmaq idi. Müqəddəs Yazılar bunu bəyan edir:

*"Nur qaranlıqda parlayır, qaranlıq isə onu bürüyə bilmədi....Bu dövrün hökmdarlarından heç biri onu anlamadı. Çünki anlasaydılar, izzətli Rəbbi çarmıxa çəkməzdilər.... O, dünyada idi, dünya Onun vasitəsilə yarandı, amma dünya Onu tanımadı. Öz diyarına gəldi, amma soydaşları Onu qəbul etmədi.* ***Lakin Onu qəbul edənlərin hamısına, adına iman edənlərə Allahın övladları olmaq ixtiyarını verdi."*** (Yəhya 1:5; 1 Korinflilərə 2:8; Yəhya 1:10-12)

Dostlar, dinlədiyiniz üçün çox sağ olun. Gələn dərsdə Adəmin övladlarının Davudun Məsih haqda öz Məzmurunda yazdıqlarını yerinə yetirdiklərini görmək üçün bizə qoşulmağı unutmayın. *"Ayaqlarımı, əllərimi deşdilər."* (Zəbur 22:16)....

Məsihin əzabları haqda Yeşaya peyğəmbərin uzun illər əvvəl yazdıqları haqda düşündükcə Allah sizə xeyir-dua versin:

***"Ona zülm etdilər, O iztirab çəkdi, amma ağzını açmadı. Kəsilməyə aparılan quzu kimi, qırxımçıların qabağında dilsiz qoyun kimi ağzını açmadı."*** (Yeşaya 53:7)

84-cü Dərs

# İsa Çarmıxa Çəkilir

**Matta 27; Mark 15; Luka 23;Yəhya 19**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz Yəhudi dini rəhbərlərin İsanı necə tutduqlarını, gecə vaxtı Baş Kahinin evinə apardıqlarını, Ona yalan böhtanlar atdıqlarını, mühakimə etdiklərini və çarmıxa çəkmək üçün Onu oranın başçısı olan Pilatın yanına apardıqlarını gördük. Əsgərlər İsanı vəhşicəsinə döydülər, sonra tikandan tac düzəldib Onun başına qoydular, Onu təhqir etdilər, üzünə zərbələr endirdilər, Ona tüpürdülər, çubuqla başına vurdular. **Beləliklə Adəmin övladları göylərdən gəlmiş, Saleh Olanı, İzzətli Rəbbi rədd etdilər.** İsaya işgəncə verən adamlar peyğəmbərlərin sözlərini bilmirdilər; buna baxmayaraq onlar peyğəmbərlərin Məsihin bu yolla günahkarların əlində əzab çəkməsi haqda yazdıqları sözləri yerinə yetirirdilər.

Bu gün biz İsa Məsihin necə əzab çəkməsi və çarmıxda ölməsi və bununla da uzun illər əvvəl Allahın peyğəmbərlərinin Onun böyük xilas planını necə yerinə yetirməsini görmək üçün İncil kitabını oxumağı davam etdirəcəyik. Bu günkü dərsə başlamazdan əvvəl sən bilməlisən ki, İsa yer üzündə yaşayanda, Roma hakimiyyəti xüsusi cinayətkarları çarmıxa mismarlamaqla edam edərdilər. Belə ölüm çarmıxaçəkmə adlanır. Bu ən qatı cinayətkarlar üçün saxlanılmış hədsiz dərəcədə ağrılı və biyabır olan bir ölüm idi.

Bəlkə sizlərdən kimsə düşünür ki, nə üçün Allah saleh Məsihin belə ağrılı və biyabır yolla ölməsini nəzərdə tutmuşdur. Isanın belə dəhşətli ölüm ilə ölməsinin səbəbi günahın çox dəhşətli cinayət olması idi. Günah dünyanın problemidir. Bizim hamımız günahkarıq, bizim günahlarımız müqəddəs və saleh olan Allahın qarşısında cinayətdir! Əgər Allah səni və məni Öz salehliyi ilə guzəştə getməyərək bağışlayacaqsa, onda **Allah gərək bizim günahlarımızı tam və ədalətlə mühakimə etsin.** O bizim günahlarımızı necə gəldi sadəcə bağışlaya bilməz. Allah saleh Allahdır və **hər** bir günahı düzgün cəzalandırmalıdır. Günahın əvəzi ölüm və cəhənnəmin əbədi alovudur. Bu cəza **bütöv** ödənilməlidir. Xoş Xəbər isə budur ki, Allah bizim günahlarımızı bütöv ödəmək üçün müqəddəs Qurtarıcı göndəribdir. İsa saleh və qüdrətli Qurtarıcıdır. O bizi günahlarımıza görə bizim üzərimizə gələn Allahın qəzəbindən xilas etmək üçün gəlmişdir.

Indi isə əziz dostlar, sizi İncil kitabından İsa və **Onun çarmıxdakı ölümü haqda müqəddəs hekayayə** qulaq asmağa dəvət edirik ki. Müqəddəs Yazılar deyir:

(Yəhya 19:16-17) ***Onda Pilat İsanı çarmıxa çəkilmək üçün onlara təslim etdi**. Əsgərlər İsanı götürüb apardılar. İsa çarmıxını Özü daşıyaraq ibranicə Qolqota, yəni «Kəllə yeri» adlanan yerə çıxdı.*

(Luka 23:26-37*) Əsgərlər İsanı apararkən kənd yerindən gələn Şimon adlı Kirenalı bir nəfəri yaxaladılar. Çarmıxı onun boynuna yükləyib İsanın ardınca daşımağa məcbur etdilər. İsanın ardınca böyük bir izdiham və Onun üçün ağlayıb nalə çəkən qadınlar gedirdi... İsa ilə birlikdə iki cinayətkar da edama aparıldı.*
*Kəllə adlanan yerə gələndə orada Onu və cinayətkarları – birini sağında, birini də solunda çarmıxa çəkdilər. Amma İsa deyirdi: **«Ata! Onları bağışla, çünki nə etdiklərini bilmirlər».***

*Püşk ataraq paltarlarını aralarında bölüşdürdülər. Camaat durub tamaşa edirdi. Onlarla birlikdə rəhbərlər də İsaya istehza edib deyirdilər: «Başqalarını xilas edirdi. Əgər O, Allahın seçdiyi Məsihdirsə, qoy Özünü də xilas etsin!» Əsgərlər də yaxınlaşıb Onu ələ saldı. Ona şərab sirkəsi təqdim edib belə dedilər: «Əgər Sən Yəhudilərin Padşahısansa, Özünü xilas et!»*

(Yəhya 19:19-24) *Pilat bir lövhə yazıb onu çarmıxın üstündə asdırdı. Orada belə yazılmışdı: «Yəhudilərin Padşahı Nazaretli İsa». Yəhudilərin bir çoxu bu lövhəni oxudu, çünki İsanın çarmıxa çəkildiyi yer şəhərə yaxın idi və lövhədə ibranicə, latınca və yunanca yazılmışdı. Bunu görüb Yəhudi başçı kahinləri Pilata dedi: «"Yəhudilərin Padşahı" yox, "Özünü Yəhudilərin Padşahı adlandıran" yaz». Pilat cavab verdi: «Nə yazdımsa, yazdım». Əsgərlər İsanı çarmıxa çəkdikləri zaman Onun paltarlarını götürüb hər əsgər üçün bir pay olmaqla dörd hissəyə böldülər. Tikişsiz və başdan-ayağa toxuma olan köynəyini götürdülər. Onlar bir-birinə dedi: «Bunu cırmayaq, püşk ataq, görək kimin olur». Müqəddəs Yazıdakı «Aralarında paltarlarımı bölüşdürdülər, Geyimim üçün püşk atdılar» sözü* ***yerinə yetsin deyə*** *əsgərlər bunu etdi.*

(Luka 23:39-43) *Çarmıxa asılmış cinayətkarlardan biri Ona böhtan ataraq deyirdi: «Məgər Sən Məsih deyilsən? Özünü də, bizi də xilas et!». O biri cinayətkarsa ona qadağan edərək deyirdi: «Sən heç Allahdan qorxmursan? Sən özün də eyni cəzaya məhkum olmusan! Biz ədalətlə məhkum olunmuşuq, çünki əməllərimizə layiq olan əvəzi alırıq. Bu Adamsa heç bir haqsızlıq etməmişdi». Sonra İsaya dedi: «Ay İsa, Öz Padşahlığına gələndə məni xatırla!» İsa ona dedi:* ***«Sənə doğrusunu deyirəm: bu gün sən Mənimlə birlikdə cənnətdə olacaqsan».***

(Mark 15:33-36) *Altıncı saatdan doqquzuncu saata qədər bütün yer üzünə qaranlıq çökdü. Doqquzuncu saatda İsa uca səslə nida edərək dedi:* ***«Elohi, Elohi, lema şavaqtani?» Bu «Ey Allahım, Allahım, niyə Məni tərk etdin?»*** *deməkdir. Orada dayananların bəzisi bunu eşidərkən dedilər: «Baxın, İlyası çağırır». Bir nəfər qaçıb bir süngəri şərab sirkəsi ilə doldurdu və bir qamışın ucuna keçirərək İsaya verdi ki, içsin və dedi: «Onu rahat buraxın, görək İlyas gəlib Onu çarmıxdan düşürəcəkmi?»* (İnsanlar İsanın dediklərini və nəyin baş verdiyini başa düşmədiklərinə görə belə dedilər. Bütün ölkə günün yarısından günortaya qədər qaranlığa büründü. Həmən o qaranlıq müddətdə **Allah Adəmin bütün övladlarının günahlarını müqəddəs Quratıcının üzərinə yüklədi ki,** Ona inanan heç bir kəs həlak olmasın! Biz İsanın bizim üçün çəkdiyi əzabların gərginliyini hətta təsvir etməyə belə başa bilmərik.)

(Yəhya 19:28-30) *Daha sonra İsa hər şeyin artıq tamam olduğunu bilərək Müqəddəs Yazı tam yerinə yetsin deyə* ***«Susadım!»*** *dedi. Orada şərab sirkəsi ilə dolu bir qab qoyulmuşdu. Bir süngəri şərab sirkəsinə batıraraq züfaya taxıb İsanın ağzına yaxınlaşdırdılar. İsa şərab sirkəsini daddı. Sonra* ***«tamam oldu»*** *dedi və başını əyib ruhunu tapşırdı.*

(Luka 23:46) *İsa uca səslə nida edərək dedi:* ***«Ey Ata! Ruhumu Sənin əlinə verirəm».*** *İsa bunu deyib axır nəfəsini verdi.*

(Mark 15:38-41) ***O anda məbədin pərdəsi yuxarıdan aşağıya qədər iki yerə parçalandı.*** *İsanın qarşısında duran yüzbaşı Onun axır nəfəsini belə verdiyini gördükdə «doğrudan da, bu Adam Allahın Oğlu idi» dedi. Olub-keçənlərə uzaqdan baxan qadınlar da var idi. Məcdəlli Məryəm, kiçik Yaqubun və Yusifin anası Məryəmlə Şalomit də onların arasında idi. İsa hələ Qalileyada olanda bu qadınlar Onun ardınca getmiş və Ona xidmət etmişdilər. Onunla birgə Yerusəlimə gələn xeyli qadın da orada idi.*

(Yəhya 19:31-42) *Hazırlıq günü olduğuna görə Yəhudi başçıları Pilatdan çarmıxa çəkilənlərin baldırlarının qırılmasını və cəsədlərin götürülməsini xahiş etdilər. Onlar cəsədlərin Şənbə günü çarmıxda qalmasını istəmirdilər, çünki o Şənbə günü böyük bir bayram idi. Onda əsgərlər gəlib əvvəl İsa ilə çarmıxa çəkilən bir adamın, sonra isə o biri adamın baldırlarını qırdılar. İsanın yanına gələndə isə Onun artıq öldüyünü görüb baldırlarını qırmadılar. Amma* ***əsgərlərdən biri Onun böyrünü nizə ilə deşdi, o anda oradan qan və su axdı.*** *Bunu görən adam özü şəhadət edir və onun şəhadəti doğrudur, sizin də iman etməyiniz üçün həqiqəti söylədiyini bilir.* ***Bunlar ona görə oldu ki, Müqəddəs Yazıdakı*** *«Onun bir sümüyü də qırılmayacaq» sözü* ***yerinə yetsin***. *Yenə başqa bir Yazıda «bədənini deşdikləri Şəxsə baxacaqlar» deyilir.*

*Bundan sonra* ***Arimateyalı Yusif Pilatdan İsanın cəsədini götürməyi xahiş etdi***. *Yusif İsanın şagirdi idi, amma Yəhudi başçılarından qorxduğu üçün bunu gizli saxlayırdı. Pilat ona izin verdi və Yusif gəlib İsanın cəsədini götürdü. Vaxtı ilə gecə ikən İsanın yanına gələn Nikodim də gəlib yüz litraya qədər qarışıq mirra və əzvay gətirdi. İsanın cəsədini götürüb Yəhudilərin dəfn adətinə uyğun olaraq ətirlərlə birgə kətan bezlərə sarıdılar. İsanın çarmıxa çəkildiyi yerdə bir bağça, bu bağçanın içində də hələ heç kəsin qoyulmadığı təzə bir qəbir var idi. Qəbir yaxında olduğuna görə İsanın cəsədini oraya qoydular, çünki o gün Yəhudilərin Hazırlıq günü idi.*

Dostlar, Məsihin hekayəsi məzar ilə bitmir! Sizi **"İsa Dirilib!"** adlı sonrakı dərsimizə dəvət etməyə biz necə də şadıq!

Bu gün eşitdiklərimiz həqiqətən valeh edicidir! Biz Adəmin övladlarının Həyatın Ağası olan Məsihə necə xor baxdıqlarını və Onu çarmıxa mismarlamaqla öldürdüklərini gördük. Amma biz bunu yadda saxlamalıyıq ki, Məsihin ölümü Allahın dünyanı yaratmazdan əvvəl hazırladığı xilas planının yerinə yetməsi idi.

Rəbb İsa ölməzdən əvvəl çarmıxda elan etdiyini eşitdin? O dedi, ***"Tamam oldu!"*** Nə üçün İsa dedi, *"Tamam oldu!"?* O xilas işini tamamladığına görə *"Tamam oldu!"* dedi. Sözsüz, dünyadaki dinlər "Tamam oldu!" demirlər. Onlar "Heç nə tamam olmayıb!" deyirlər. Sən öz yaxşı əməllərinlə özünü xilas etməlisən! Sən öz günahlarını silmək üçün işləməlisən! İşlə! Heçnə hələ tamam olmayıb! Əgər sən Cənnətə düşmək istəyirsənsə, qurbanlar ver, öz dini borclarını yerinə yetir, dua et, oruc tut, öz bədəninə əzab ver və.s və ilaxır!" Dinin müjdəsi budur!

Lakin Allahın insana olan Xoş Xəbəri budur: "Tamam oldu!!!" İnan və xilas ol! Məsih Öz qanı ilə sənin günah borcunu ödəyibdir! İsanın qanı ən pis günahkarı təmizləyə və dəyişdirə bilər! Bu səbəbə görə də İsa ölərkən tövbə edən cinayətkara deyə bildi, *"Sənə doğrusunu deyirəm: bu gün sən Mənimlə birlikdə cənnətdə olacaqsan."* (Luka 23:43)

Əziz dostlar, günahın cəzasindan səni xilas edən iş tamam olubdur. Allah İsanın qurbanı ilə kifayətlənibdir. Bizə daha Məsihdən əvvəl yaşamış ulu babalarımız kimi qoyun qurbanları gətirmək lazım deyildir. İsa Məsih Allahın kamil və son Qurbanıdır! Bizə yalnız Allahın Məsih və Onun qurbanı haqda şəhadət etdiyinə inanmaq qalır. ***"Tamam oldu!"*** İsa peyğəmbərlərin saleh Qurtarıcının əzabları və ölümü haqda qabaqcadan dediklərini yerinə yetirdi! İsa yer üzünə gəlməzdən yeddi yüz il əvvəl, Yeşaya peyğəmbər yazmışdır:

*"O heç bir zorakılıq etmədiyi, ağzından yalan söz çıxmadığı halda qəbri pis adamların yanında quruldu, dövlətli adamın yanında dəfn olundu.* ***. Bizim üsyankarlığımıza görə onun bədəni deşildi, şər əməllərimiz naminə əzildi, bizim əmin-amanlığımız üçün o cəza aldı, Onun yaraları ilə biz şəfa tapdıq. Hamımız qoyun kimi yolu azmışdıq, hər birimiz öz yolumuzla gedirdik. Rəbb hamımızın şər əməllərinin yükünü onun üzərinə qoydu!"*** (Yeşaya 53:9,5,6)

Bizim dinləyicimiz, sən həqiqətən peyğəmbərlərə inanırsan? Sən inanırsan ki, İsa Allahın peyğəmbərlərinin haqqında yazdıqları Xilas işini bitirən Yeganə biridir? Sən indi saleh Qurtarıcının ölümünün səbəbini başa düşürsən? **Sən və mən** bunun səbəbkarıyıq! Bizim günahlarımıza görə O qüsursuz quzu kimi öldü. Biz cəhənnəmdə əbədi cəzaya layiq idik. Lakin Allah, bizə olan sevgisinə görə İsanı göndərdi ki, O bizim cəzamıza görə əzab çəksin və günahlarımıza görə cəzanı daşısın. Müqəddəs Yazılar deyərək  bunu elan edir:

*"Saleh bir adam uğrunda kiminsə ölməsi çətin işdir; bəlkə də yaxşı bir adam uğrunda kimsə ölməyə cəsarət edər.* ***Lakin Allah bizə olan məhəbbətini bununla sübut edir ki, biz hələ günahkar ola-ola Məsih bizim uğrumuzda öldü!"*** (Romalılara 5:7,8) *"Günahla əlaqəsi olmayan Məsihi Allah bizim uğrumuzda günah qurbanı verdi ki,* ***biz Onda Allahın salehliyinə nail olaq****."* (2 Korinflilərə 5:21)

Mərhəmətli, Şəfqətli Allaha izzət olsun...***"Tamam oldu!"*** Allah İbrahimin qurbanının simvolunu yerinə yetirdi! Çünki İbrahimin öz oğlunun yerinə qüsursuz qoçu qurban etdiyi yerdə, günahsız Qurtarıcı, İsa bizim yerimizə Özünü qurban verdi ki, ***"Ona iman edən hər kəs*** *həlak olmasın, amma əbədi həyata malik olsun!"* (Yəhya 3:16)

İsa ölməzdən əvvəl çarmıxdan elan etdiyi sözlər haqqında düşündükcə, Allah sizə xeyir-dua versin. O dedi,

***"Tamam oldu!"*** (Yəhya 19:30)

85-ci Dərs

# İsa Dirilib!

**Matta 28; Luka 24; Yəhya 20**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz **İsa Məsihin** çarmıxda dünyanın günahına görə və **günahkarlara əbədi sülh qapısı açmaq üçün** necə **Öz qanını tökdüyünü** gördük. Hər şey Allahın peyğəmbərlərinin qabaqcadan dedikləri kimi baş verdi: Məsih təhqir olundu, şiddətli qamçılandı və çarmıxa mıxlandı. İbrahimin oğlunun yerinə ölən qüsursuz quzu kimi, günahsız Qurtarıcı olan İsa da bizim yerimizə öldü. İsa ölməzdən əvvəl qışqırdı, ***"Tamam oldu!"*** Allaha sükür olsun, İsa Məsih Allahın xilas planını tamamladı!

Məsihin çarmıxdakı ölümü Müqəddəs Yazılardakı ən mühüm xəbərdir. Çünki Allahın Öz salehliyi ilə güzəştə getməyərək bizim günahlarımızı bağışlamasının səbəbi bu ölümdür. Amma Məsihin ölümü ən mühüm xəbər olduğu halda, biz **ən gözəl xəbəri** oxumağa başlayacağıq. Çünki biz **Allahın İsanı ölülərdən necə diriltdiyini** eşidəcəyik.

Artıq oxuduğumuz kimi İsa çarmıxda ölәndən sonra əsgər nizəni götürdü və İsanın böyrünü deşdi və həmən dəqiqə oradan qan və su axdı ki, bu da İsanın ölü olduğunu sübut etdi. Biz həmçinin varlı adamın İsanın cəsədini götürüb onu özü üçün saxladığı yeni bir məzarda yerləşdirdiyini eşitdik. Məzarın girişində böyük bir daş var idi. Hər şey Allahın peyğəmbərlərinin qabaqcadan dedikləri kimi baş verdi.

Beləliklə İncildə yazılıb:

(Matta 27:62-66) *Ertəsi gün, yəni Hazırlıq günündən sonrakı gün başçı kahinlərlə fariseylər Pilatın yanına toplaşıb dedilər: «Ağa, biz xatırlayırıq ki, o yalançı hələ sağ ikən **"üç gün sonra diriləcəyəm"** demişdi. Ona görə də əmr et ki, üçüncü günə qədər qəbirin təhlükəsizliyi qorunsun. Yoxsa şagirdləri gəlib Onu oğurlayarlar və xalqa "O, ölülər arasından dirildi" deyərlər. Axırıncı yalan birincisindən daha pis olar». Pilat onlara dedi: «Bir dəstə keşikçi götürün, gedin, bacardığınız kimi qəbirin təhlükəsizliyini qoruyun». Onlar gedib qəbirin qarşısında keşikçi dəstəsi qoydular və qəbir daşına möhür basdılar. Beləliklə, qəbirin təhlükəsizliyi qorundu.*

(Matta 28:1-3) *Şənbə günü keçəndən sonra, **həftənin ilk günü** səhər dan yeri ağaranda Məcdəlli Məryəm və o biri Məryəm qəbiri görməyə gəldilər. Budur, böyük bir zəlzələ oldu. Çünki **Rəbbin bir mələyi göydən enib gələrək daşı bir tərəfə yuvarladı və üzərində oturdu.** Onun görünüşü şimşək kimi, paltarı isə qar kimi ağ idi. Keşikçilər qorxudan titrəyib ölü kimi oldular.*

Beləliklə qadınlar məzara yaxınlaşanda, (Luka 24:2-48) *Qəbirin qapısındakı daşı yuvarlanmış gördülər. Amma içəri girib Rəbb İsanın cəsədini tapmadılar. Onlar bundan çaşqınlıq içində olarkən şimşək kimi parıldayan paltar geymiş iki kişi qəflətən onların qarşısında peyda oldu. Qadınlar təlaş içində üzüstə yerə sərildi. Kişilər soruşdu: «Nə üçün siz Dirini ölülər arasında axtarırsınız? O burada yoxdur, O dirilmişdir! Hələ Qalileyada olarkən Onun sizə dediklərini yadınıza salın. Demişdi ki, "Bəşər Oğlu günahkar insanlara*

*təslim olmalı, çarmıxa çəkilməli və üçüncü gün dirilməlidir”». Qadınlar da İsanın sözlərini yada saldılar.*

*Qəbirdən qayıdan qadınlar bütün bunları On Bir şagirdə və başqa adamların hamısına xəbər verdilər. Həvarilərə bu xəbəri çatdıranlar Məcdəlli Məryəm, Yoxanna, Yaqubun anası Məryəm və onlarla birgə olan digər qadınlar idi. Amma bu sözlər həvarilərə mənasız göründü və qadınlara inanmadılar. Peter isə qalxıb qəbirə tərəf qaçdı. O əyilib yalnız kətan bezləri gördü və bu hadisəyə heyrət edərək öz evinə qayıtdı.*

*Elə o gün onlardan ikisi Yerusəlimdən altmış stadi uzaqlığında yerləşən Xamma adlı kəndə gedirdi. Onlar olub-keçən bütün bu hadisələr barədə öz aralarında söhbət edirdi. Onlar söhbət edərək öz aralarında müzakirə edərkən İsa Özü yaxınlaşıb onlarla birlikdə yol getdi. Amma onların gözləri bağlanmışdı, buna görə də Onu tanımadılar.*
*İsa onlardan soruşdu: «Siz yol gedə-gedə öz aranızda nə barədə danışırsınız?» Onlar qaşqabaqlı dayandılar.*
*Onlardan Kleopa adlı bir nəfər İsaya cavab verdi: «Yerusəlimdə qalıb və bu günlərdə orada baş vermiş hadisələrdən xəbəri olmayan bircə sənsənmi?» İsa onlara dedi: «Hansı hadisələrdən?» Onlar da Ona dedi: «Nazaretli İsa barəsindəki hadisələrdən. O, Allahın və bütün xalqın önündə əməldə və sözdə qüdrətli bir peyğəmbər idi. Bizim başçı kahin və rəhbərlərimiz Onu ölümə məhkum etmək üçün təslim edib çarmıxa çəkdirdilər. Biz də ümid edirdik ki, bu, İsrailin gələcək Satınalanıdır. Bundan əlavə, bu hadisələr artıq üç gündür ki, baş verib. Üstəlik bizim qadınlardan bəzisi də bizi mat qoydular: onlar səhər erkən qəbir üstünə gedib Onun cəsədini orada tapa bilməyiblər və gəlib dedilər ki, görüntüdə Onun diri olduğunu bəyan edən mələkləri görüblər. Bizimlə olan bəziləri qəbirə gedib oranı qadınların dediyi kimi olduğunu müəyyən etdilər, amma Onu görmədilər». Onda İsa onlara dedi: «Ey ağılsızlar və peyğəmbərlərin xəbər verdiklərinə inanmaq üçün ürəyində ləngiyənlər! Məsih bu əzabları çəkib Öz izzətinə qovuşmalı deyildimi?»*
*Sonra Musa ilə bütün Peyğəmbərlərdən başlayaraq Müqəddəs Yazıların hamısında Özü haqqında olanları onlara izah etdi.*

*Onlar getdikləri kəndə yaxınlaşdılar. İsa Özünü yoluna davam etmək istəyən kimi apardı. Amma onlar İsadan təkidlə xahiş edib dedilər: «Bizimlə qal, çünki axşam düşür və gün batmaq üzrədir». O da onlarla qalmaq üçün içəri girdi. İsa onlarla süfrəyə oturanda çörək götürüb şükür duası etdi, böldü və onlara verdi.*
*Bu anda onların gözləri açıldı və onlar İsanı tanıdı. Amma İsa onlar üçün görünməz oldu. Onlar bir-birlərinə dedi: «O, yolda bizimlə danışıb və Müqəddəs Yazıları bizə izah edəndə bizim ürəklərimiz alışıb-yanmırdımı?» Onlar elə o saat qalxıb Yerusəlimə qayıtdılar, On Bir şagirdi və onlarla birlikdə olanları bir yerdə toplaşmış gördülər. Bunlar deyirdi: «Rəbb, doğrudan da, dirilmiş və Şimona görünmüşdür». Onlar da yolda baş verənləri və çörəyi böldüyü zaman Onu necə tanıdıqlarını nəql etdilər.*
*Onlar bu barədə danışarkən İsa Özü aralarında durub onlara «Sizə salam olsun!» dedi. Onlarsa çaşıb dəhşətə gələrək bir ruh gördüklərini zənn etdilər. Amma İsa onlara dedi: «Nə üçün təlaşa düşürsünüz? Nəyə görə ürəklərinizə belə fikirlər gəlir? Əllərimə və ayaqlarıma baxın. Bu – Mən Özüməm! Mənə toxunun və baxın, çünki Məndə olduğunu gördüyünüz kimi ruhun əti və sümüyü olmur». İsa bunu deyib onlara əllərini və ayaqlarını göstərdi. Onlar hələ sevincdən inanmayıb heyrətlənərkən İsa onlara dedi: «Burada yeməyə bir şey varmı?» Ona bir tikə bişmiş balıq verdilər. İsa da yeməyi götürüb onların qabağında yedi.*

*Sonra İsa onlara dedi: «Sizinlə birgə olarkən söylədiyim sözlər bunlardır: Musanın Qanununda, Peyğəmbərlərin kitablarında və Zəburda Mənim haqqımda yazılanların yerinə yetirilməsi lazımdır». Bundan sonra Müqəddəs Yazıları anlamaq üçün onların zehnini açdı.*

*İsa onlara dedi: «Belə yazılıb: Məsih əzab çəkib üçüncü gün ölülər arasından dirilməlidir. Yerusəlimdən başlayaraq bütün millətlərə günahların bağışlanması üçün tövbə Onun adı ilə vəz edilməlidir. Siz bu hadisələrin şahidisiniz.*

(Yəhya 20:24-31) *Lakin On İki şagirddən biri ....Tomas İsa gələndə onların yanında deyildi. O biri şagirdlər Tomasa «Rəbbi gördük» deyəndə onlara söylədi: «Əgər Onun əllərində mıxların açdığı yaraları görməsəm, mıxların yerinə barmağımla toxunmasam, böyrünə də əlimi qoymasam, buna heç inanmaram». Səkkiz gün sonra İsanın şagirdləri yenə otaqda toplaşanda Tomas da onların yanında idi. Qapılar bağlı olsa da, İsa içəri girdi. O ortada durub «Sizə salam olsun!» dedi. Bundan sonra Tomasa söylədi: «Barmağını buraya uzat, əllərimə bax, əlini də uzat, böyrümə qoy. İmansız olma, imanlı ol!» Tomas cavab verib Ona* ***«Ya Rəbbim və Allahım!»*** *dedi. İsa ona dedi:* ***«Sən Məni gördüyün üçünmü iman etdin? Görmədən iman edənlər nə bəxtiyardır!»*** *İsa şagirdlərinin gözü önündə bir çox başqa əlamətlər də göstərdi ki, bu kitabda yazılmayıb.* ***Amma buradakılar onun üçün yazılıb ki, siz İsanın Məsih – Allahın Oğlu olduğuna inanasınız və iman edərək Onun adı ilə həyata malik olasınız.***

Bu gün eşitdiyimiz necə də həyəcanlı hekayədir! **İsa ölülərdən dirilib!** O insanın ən böyük düşmənlərindən biri olan ölümə qalib gəldi. Qəbir Onu saxlaya bilmədi. Üçüncü gündə kəpənək öz pupundan çıxdığı kimi İsa da ölüm paltarını əynindən çıxartdı. İsanın bədəninin olduğu yerdə yalnız kəfəni qalmışdır. Rəbb İsa Məsih Ona inanan hər bir kəsin bir gün əldə edəcəyi izzətli bədənlə dirildi! Buna görə də Müqəddəs Yazılar deyir:

*"Əslində Məsih ölülər arasından, vəfat edənlərin* ***ilki*** *olaraq dirildi. Ölüm bir insanın vasitəsilə gəldiyinə görə ölülərin dirilməsi də bir İnsan vasitəsilə gəlir.* ***Adəmdə hamı öldüyü kimi Məsihdə də hamı həyata qovuşacaq****!"* (1 Korinflilərə 15:20-22)

İsanın dirilməsi Onun Özünün kim elan etdiyinin Olduğunu sübut edir. İsanın ***"Dirilmə və həyat Mənəm. Mənə iman edən ölsə də, yaşayar!"*** (Yəhya 11:25) dediyini xatırlayırsan? İsa, Ona inanan hər bir kəsə əbədi həyat verməyi vəd edibdir. Amma əgər Onun Özü ölümə qalib gəlməsəydi, bəs onda O digərlərini necə ölümdən, günahdan və cəhənnəmdən xilas edə bilərdi?

Bəlkə belə bir hekayə kömək edər. Uşaq dənizin kənarında dalğalarda oynayır. Qəflətən güclü axın onu dənizə aparır. O sahilə qayıtmağa çox çalışır amma bacarmır. Əgər kimsə xilas etməsə uşaq öləcəkdir. Sahildə onun batdığını görən bir adam uşağa qışqırır, "Qorxma. Mən səni xilas edəcəyəm!" Beləliklə o adam uşaq olan yerə üzür, əfsus ki, axın onun üçün çox güclüdür. O və uşaq batırlar. O adam uşağı xilas etmək niyyətində idi. Lakin onda öz niyyətini yerinə yetirməyə kifayət qədər güc yox idi. Okeanın axını daha güclü idi. Oxşar olaraq biz də insanlara "Mənim ardımca gəl, mənə etibar et və sən Cənnətə düşəcəksən!" kimi deyən özlərini xilaskar adlandıranları eşidirik. Belə söz verənlərin yaxşı niyyətləri ola bilər. Lakin onlar vədlərini yerinə yetirə bilməzlər. Onlar hətta özlərini xilas edə bilməzlər. Çünki onlar günahın və ölümün hakimiyyətinə qətiyyən qalib gələ bilməzlər. Ölümün gücü onlar üçün çox qüdrətlidir və onlar öləndə onları dəfn edəcəklər, onların bədənləri qəbirlərində çürüyəcəkdir və onların ruhları Məhkəmə Gününü gözləyəcəkdir.

Amma Rəbb İsa ilə belə olmadı. İddia etdiyi Biri, O Özü idi! Hər şey Onun qabaqcadan dediyi kimi oldu. İsa günahı aradan qaldıran qurban kimi öldü, dəfn olundu və üçüncü gün O məzardan çıxdı! Peyğəmbərlər arasında heç biri heç vaxt ölüb, basdırılıb və sonra məzardan çıxıb və bir daha ölməyibdir! Amma İsa Məsih bunu etdi! O ölümə və məzara qalib gəldi! Ö günaha, şeytana, ölümə və cəhənnəmə qalib gəldi! Və hər şeydən ən gözəli isə budur ki, İsa

Məsihin ölümü və diriləsi haqda bu xoş xəbərə həqiqətən inanan hər bir kəs əbədiyyən Onun izzətinə şərik olacaqdır! Rəbb İsa ölülərdən diriləndən sonra bunu deyərək elan etdi, ***"Qorxma! Birinci və Sonuncu Olan, Diri Olan Mənəm. Mən ölmüşdüm, indi isə əbədi olaraq diriyəm. Ölümün və ölülər diyarının açarları Məndədir!"*** (Vəhy 1:17,18)

Allah İsanı həyata qaytardı ki, sən əmin olasan ki, O Allahın təyin etdiyi dünyanın Xilaskarı və Hakimidir. Müqəddəs Yazılar deyərək bunu elan edir:

***"Səma altında biz insanlara verilən başqa bir ad yoxdur ki, onun vasitəsilə xilas olaq!...*** *Allah Öz seçdiyi Şəxs vasitəsilə dünyanı ədalətlə mühakimə edəcəyi günü təyin edib****. Onu ölülər arasından diriltməklə hamının qarşısında bunu təsdiq edib... Əgər sən İsanın Rəbb olduğunu dilinlə iqrar edib Allahın Onu ölülər arasından diriltdiyinə ürəkdən inansan, xilas olacaqsan!...Rəbbin adını çağıran hər kəs xilas olacaq!"*** (Həvarilərin İşləri 4:12; 17:31; Romalilərə 10:9,13)

Dostlar, dinlədiyiniz üçün çox sağ olun. Allahın iradəsi ilə gələn proqramda Rəbb İsanın qırx gün ərzində Öz şagirdlərinə görünəndən və onlara sağ olması haqda çoxlu inandırıcı sübutlar göstərdikdən sonra necə göylərə qalxdığını görmək üçün biz İncili oxumaqda davam edəcəyik. ...

Bu gün eşitdiklərinin dərinliklərini qavramaqda Allah sənə kömək olsun və Onun Müqəddəs Sözündən olan bu ayəni diqqətlə nəzərdən keçir:

***"İsa bizim təqsirlərimizə görə ölümə təslim edildi və bizim saleh sayılmağımız üçün dirildi."*** (Romalılara 4:25)

86-cı Dərs

# İsa Göylərə Qalxır

**Matta 28; Luka 24; Həvvarilərin İşləri 1**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Biz Qüdrətli Xilaskar İsa Məsihin hekayəsindən ibarət olan müqəddəs İncil kitabını oxuyurduq. Artıq gördüyümüz kimi **İsa** sözünün mənası *Xilas edən Allah* deməkdir. **Məsih** yunan sözü olub *Allahın Məhs etdiyi* deməkdir. İsa Məsih Adəmin övladlarını günahın hakimiyyətindən xilas etmək üçün Allahın təyin etdiyi Biridir.

Amma gördüyümüz kimi insanların çoxu İsanın həqiqətən kim olduğunu dərk etmədilər. Bəzilər Onu peyğəmbər kimi qəbul edirdilər, lakin onlar başa düşmədilər ki, Onun Özü göylərdən gəlmiş və yer üzündə insan kimi peyda olan Allahın Kəlamı idi. Bəziləri baş kahinlər və Yəhudi rəhbərləri Onun paxıllığını çəkirdilr və axırda Onu çarmıxa çəkərək öldürdülər. Lakin Allah bunların hamısını əvvəlcədən planlaşdırmışdır və hər şeyi bilirdi. Məsihin çarmıxdakı ölümü uzun illər əvvəl Öz peyğəmbərləri vasitəsi ilə Allahın elan etdiyi plan ilə kamil uyğunluqda idi. Ötən dərsimizdə biz Allahın İsanı üçüncü gün ölülərdən diriltdiyini gördük. İsanın dirilməsi bunu sübut edir ki, Allah Adəmin övladlarını günahın hakimiyyətindən, ölüm qorxusundan və cəhənnəmin cəzasından qurtarmaq üçün İsanın öz qanını tökərək xilas etməsini qəbul etmişdir.

İsa diriləndən sonra biz gördük ki, O əsgərlərin Onun ayaqlarına və əllərinə vurduğu mismarların izlərini Öz şagirdlərinə göstərərək onalara göründü. Biz həm də oxuduq ki, İsa həqiqətən sağ olmasını sübut etmək üçün Öz şagirdləri ilə yemək də yedi. İncil kitabı İsanın qırx gün ərzində Öz şagirdlərinə görünməsini və onlara Allahın Padşahlığı haqda danışmasını nəql edir. Bir dəfə İsa eyni vaxta Öz şagirdlərindən beş yüzündən çoxuna göründü. (1 Korinflilərə 15:6) Amma İsanın bu gün sağ olmasının ən güclü sübutu budur ki, O Öz Müqəddəs Ruhu vasitəsi ilə Ona inananların və özlərini Onun hakimiyyətinə tabe edənlərin ürəklərində yaşamasıdır.

Bu gün Allahın köməkliyi ilə biz Allahın Rəbb İsaya verdiyi qüdrətli səlahiyyət haqqında eşidəcəyik və İsanın Öz şagirdlərindən ayrılıb göylərə qalxdığını görəcəyik. Biz bu günkü dərsimizi Mattanın İncilinin sonuncu fəsilindən başlayacağıq. Müqəddəs Yazılar deyir:

(Matta 28:16-20) *On Bir şagird Qalileyaya, İsanın onlara təyin etdiyi dağa getdi. İsanı gördükdə Ona səcdə qıldılar. Bəzisi isə şübhə etdi. İsa yaxınlaşıb onlara dedi: «Göydə və yer üzündə **bütün səlahiyyət** Mənə verilmişdir. Beləliklə, gedin, bütün millətləri Mənim şagirdim edin; onları Ata, Oğul və Müqəddəs Ruh adı ilə vəftiz edin; sizə əmr etdiyim hər şeyə riayət etməyi onlara öyrədin. Budur, Mən dövrün sonuna qədər hər gün sizinləyəm».*

İsa şagirdlərinə dedi, "*«Göydə və yer üzündə **bütün səlahiyyət** Mənə verilmişdir. Beləliklə, gedin, bütün millətləri Mənim şagirdim edin."* Nə üçün İsa dedi ki, göydə və yerdə bütün səlahiyyət Onda idi?

Musanın Tövratını oxuyarkən biz Allahın ilk insan olan Adəmi necə yaratdığını gördük. Biz oxuduq ki, Allah Adəmə yaratdığı hər şey üzərində səlahiyyət vermişdir. Allah istəyirdi ki,

Adəm Onunla yaşasın və əbədiyyən Onunla idarə etsin. Lakin Adəm xeyiri və şəri bilmə ağacının meyvəsindən yeyərək Allahın əmrinə itaətsizlik etdiyi gün O səlahiyyətdən məhrum oldu. Adəm bizim ulubabamız olduğuna görə və "Bir qoz bir çuvalı bərbad etdiyinə" görə, biz də Allahla yaşamaq və Onunla idarə etmək şərəfini itirmişik. Adəm kimi bizim hamımız Allahdan və Onun möhtəşəm izzətindən uzağıq, günah padşahlığında doğulmuşuq və günahkarıq.

Amma biz Allaha həmd edirik. Çünki Peyğəmbərlərin Yazıları göstərir ki, Allah Adəmin övladlarının Allaha qayıtması, Onun izzəti və padşahlığında paya malik olmaları üçün onlara **qapı** açmaq planı nəzərdə tutmuşdur. O "Qapı" insanların günahlarını yumaq və onları Allaha yaxınaşdırmaq üçün qurban kimi Öz qanını tökmək üçün göylərdən gəlmiş **müqəddəs Məsihdir**. İsa Məsih Adəm kimi sınağa çəkildi. Lakin İsa günah işlətmədi. O Allah kimi kamil və müqəddəs idi. Bu səbəbə görə Allah Onu **Oğlum** adlandırmaqdan utanmadı. Günahı aradan qaldıran qurban kimi Öz həyatını verəndən sonra, Allah Onu ölülərdən diriltdi, Onu hər şeyin Rəbbi etdi və Ona "*göylərdə və yerdə bütün səlahiyyəti"* həvalə etdi.

Bəlkə kimsə soruşa bilər, "Əgər İsa hər şeyin Rəbbidirsə, bəs onda nə üçün bizim dünyamız hələ də pis hadisələrlə və günahla doludur?" Müqəddəs Yazılar buna cavab verir:

*"**Adəmdə** hamı öldüyü kimi **Məsihdə** də hamı həyata qovuşacaq.**Hər biri öz növbəsi ilə** – ilk növbədə Məsih, sonra Məsihin zühurunda Məsihə məxsus olanlar həyata qovuşar. Bundan sonra O hər başçını, hər hakimi və qüvvəni aradan götürüb Padşahlığı Ata Allaha təslim edəcəyi zaman hər şey tamamlanacaq."* (1 Korinflilərə 15:22-24) *"Allah onların bütün göz yaşlarını siləcək. Artıq ölüm olmayacaq. Yas, nalə və ağrı bir daha olmayacaq. Çünki əvvəlki şeylər keçib getdi."* (Vəhy 21:4)

O ayələrdən və Allahın Sözündə olan digər ayələrdən biz öyrənirik ki, Allah bütün səlahiyyəti İsaya veribdir ki, O hər şey üzərində nəzarətə malik ola bilsin və hamını mühakimə edə bilsin. Amma O hələ hər şey üzərində həqiqi nəzarətə keçməyib, nə də dünyadakı insanları mühakimə etməyib. İsa bir gün yer üzünə qayıdacaqdır. O qayıdanda dünya üzərində nəzarəti əlinə alacaqdır və hər şeyi yeniləşdirəcəkdir.

Buna görə də, kim və harda olmağından asılı olmayaraq Allah sənə günahlarından tövbə etməyi əmr edir. Ona tərəf dön və Rəbb İsa Məsihin ölümü və dirilməsinə əsaslanan xilasın Xoş Xəbərinə inan. Əgər həqiqətən inansan, Allah sənin bütün günahlarını bağışlayacaqdır, ürəyini Müqəddəs Ruhun qüdrəti ilə yeniləşdirəcəkdir və sənə Allah əbədiyyən sülh verəcəkdir. Əgər sən Məsihə inansan, O Müqəddəs Ruhu ilə sənə gələcəkdir və Öz padşahlığını sənin ürəyində quracaqdır. Isa Məsih geri dönüb mühakimə etməyənə qədər dünyanı dəyişməyəcəkdir. Lakin O səni bu gün dəyişə bilər! Sən Onun padşahlığını sənin ürəyində qurmasına imkan verəcəksən?

Əziz dost, Allah sənin günahlarını aradan qaldıra bilən və sənə yeni və təmiz ürək verə bilən Xilaskar göndəribdir. Sən bilə **bilərsən** ki, əgər sən İsa Məsihin dünyanın Xilaskarı olması haqda həqiqətə inansan, əbədiyyəti Allah ilə Cənnətdə keçirəcəksən! Amma əgər sən Allahın göndərdiyi Xilaskarı qəbul etməsən, axır gündə O sənin hakimin olacaqdır! Buna görə də Müqəddəs Yazılar deyir:

*"Rəbb İsanın qüdrətli mələkləri ilə od-alov içərisində göydən zühur etdiyi zaman olacaq. **O zaman Rəbbimiz İsa Allahı tanımayanlardan və Özü barədə olan Müjdəyə itaət etməyənlərdən qisas alacaq**. Onlara Rəbbin hüzurundan və qüdrətinin izzətindən məhrum*

*qalıb əbədi olaraq məhv edilmə cəzası veriləcək. Bunlar Rəbbin Öz müqəddəsləri arasında izzət qazanmaq və bütün imanlıları heyrətə gətirmək üçün gəldiyi gün baş verəcək!"* (2 Saloniklilərə 1:7-10)

Dostlar, Allahın Sözü aydındır. O bizə deyir ki, kim İsa Məsihin çarmıxdakı ölümü və ölülərdən dirilməsi haqda Xoş Xəbərə həqiqətən inansa xilas olacaqdır! Amma kim inanmasa məhkum olunacaqdır! İsa sənin günah borcunu əbədiyyən silən qurban kimi Öz qanını tökdü. Lakin əgər sən ona öz ürəyində inanmasan onda İsanın sənin üçün tökdüyü qanın heç bir dəyəri yoxdur. Çünki Müqəddəs Yazılar deyir:

*" Çünki Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, **Ona iman edən hər kəs həlak olmasın**, amma əbədi həyata malik olsun...., **iman etməyən isə** artıq mühakimə olunub, çünki Allahın vahid Oğlunun adına iman etməyib."* (Yəhya 3:16,18)

Bəli, əgər sən İsa Məsihin Xoş Xəbərinə inanırsansa, onda xilas olacaqsan. Amma əgər inanmasan onda sən öz günahlarında məhv olacaqsan. Bu Allahın Adəmin övladları üçün göndərdiyi xilas sözüdür. Bu səbəbə görə İsa şagirdlərinə əmr etdi: *"Göydə və yer üzündə bütün səlahiyyət Mənə verilmişdir. Beləliklə, gedin, bütün millətləri Mənim şagirdim edin!"* (Matta 28:18,19)

İndi isə gəlin hekayəni davam etdirək. İsa ölülərdən diriləndən sonra qırx gün ərzində Öz şagirdlərinə göründü. Müqəddəs Yazılar deyir:

(Həvvarilərin İşləri 1:4-5) *"İsa onlarla duz-çörək kəsəndə bu əmri verdi: «Yerusəlimdən kənara çıxmayın, Atanın verdiyi, Məndən eşitdiyiniz vədin həyata keçməsini gözləyin. Belə ki Yəhya su ilə vəftiz edirdi, amma siz bir neçə gündən sonra Müqəddəs Ruhla vəftiz olacaqsınız."*

Biz artıq İsanın Öz şagirdlərinə Atanın onların ürəklərində yaşayan, onları təmizləyən, yeniləşdirən, qüvvətləndirən və bütün həqiqətlərə istiqamətləndirən Vəsatətçi Müqəddəs Ruhu göndərəcəyini vəd etdiyini oxumuşuq. (Yəhya 14:16) İndi isə biz Onun Öz şagirdlərinə tezliklə gələcək olan Müqəddəs Ruhu Yerusəlimdə gözlədiklərini əmr etdiyini eşidirik. Sonrakı dərsimizdə Allahın iradəsi ilə biz Müqəddəs Ruhun İsanın dediyi kimi Onun şagirdlərinin ürəklərini necə doldurduğunu görəcəyik.

İndi isə gəlin İsanın şagirdlərindən necə ayrıldığını və göylərə qaldığını oxuyaq. Müqəddəs Yazılar deyir:

(Həvvarilərin İşləri 1:6-11) *Həvarilər bir yerə toplaşanda İsadan soruşdular: «Ya Rəbb, İsraildə Padşahlığı indimi bərpa edəcəksən?» İsa cavab verdi: «Atanın hökmü ilə təyin olunan vaxtları və tarixləri bilmək sizin işiniz deyil. Amma Müqəddəs Ruh üzərinizə enəndə siz qüvvə alacaqsınız və Yerusəlimdə, bütün Yəhudeya və Samariyada, həmçinin yer üzünün qurtaracağınadək hər yerdə Mənim şahidlərim olacaqsınız».*

*İsa bunları deyəndən sonra **həvarilərin gözləri qarşısında yuxarı qaldırıldı. Bir bulud İsanı götürüb onlardan gizlədi.** İsa göyə qalxanda onlar səmaya baxırdılar. Elə həmin an ağ libaslı iki kişi onların yanında peyda olub soruşdu: «Ey Qalileyalılar, niyə səmaya baxa-baxa qalmısınız? Aranızdan götürülüb göyə qaldırılan İsanın aparıldığını necə gördünüzsə, elə də qayıdacaq».*

Beləliklə otuz üç il əvvəl Atasının evindən gəlmiş İsa yenidən göylərə qalxdı. Onun kiçik şagird qrupu gözləri önündə göylərə qalxması necə də ecaskar idi! Burada heç bir şübhə yox idi ki, üç il ardınca getdikləri İsa həqiqətən də peyğəmbərlərin haqqında danışdıqları Məsih idi! Öz doğuluşunda, ölümündə, dəfnində, dirilməsində və göylərə qalxmasında Nəzaretli İsa peyğəmbərlərin Onun haqqında yazdıqları hər bir şeyi yerinə yetirdi. Hətta O Davud peyğəmbərin Məzmurlarda peyğəmbərlik etdiyi kimi göylərə qalxdı.

Dostlar, sən bu gün Rəbb İsanın harada olduğunu bilirsən? Müqəddəs Yazılar bizə deyir: *"İsa Məsih göyə qalxıb və Allahın sağındadır. Mələklər, hakimlər və qüvvələr də Ona tabedir."* (1 Peter 3:22) Bəli, İsa bütün yaranan məxluqların Ona itaət etdiyi yer olan göylərdə, Allahın sağındadır. **Allaha həqiqətən məxsus olan bütün adamlar Rəbb İsa Məsihə tabedirlər.** Bəs sən necə? Sən özünü Allahın dünyanın Xilaskarı və Hakimi kimi seçdiyi İsa Məsihə tabe etdirsənmi?

Indicə oxuduğumuz kimi Rəbb İsa göylərə qalxandan sonra iki mələk Onun şagirdlərinə göründü və onlara dedi: *"Niyə səmaya baxa-baxa qalmısınız?* ***Aranızdan götürülüb göyə qaldırılan İsanın aparıldığını necə gördünüzsə, elə də qayıdacaq."*** Bəli, bir gün İsa Məsih buludlarda geri qayıdacaqdır. Sən Onun qayıdışına hazırsan? **O gün hamı Onu görəcəkdir və hamı biləcəkdir ki, O Allahın dünyanın Xilaskarı və Hakimi kimi təyin etdiyi Biridir!** Müqəddəs Yazılar bunu elan edir:

(Filiplilərə 2:5-11) *"Məsih İsa.... Allah surətində olduğu halda O Özünü Allaha bərabər tutmağı bir haqq saymadı. Lakin Özünü heç etdi və qul surətinə salıb insanlara oxşar oldu. İnsan şəklini alıb Özünü aşağı tutdu və ölümə qədər – çarmıx üzərində ölümə qədər itaət göstərdi. Buna görə də Allah Onu çox ucaltdı və Ona lütflə bütün adlardan ali bir ad verdi ki, göydə, yerdə və yerin altında olanların hamısı İsanın adına ehtiram edərək* ***diz*** *çöksün və* ***hər dil*** *Ata Allahın izzəti üçün İsa Məsihin Rəbb olduğunu bəyan etsin."*

Dostlar, biz bu gün burada bitiririk. Lakin ümid edirik ki, gələn proqramda Allahın İsa Məsihi öz Rəbbləri və Xilaskarları kimi qəbul edənlərin ürəklərinə Müqəddəs Ruhu necə göndərdiyini kəşf etmək üçün bizə qoşulacaqsınız....

İki mələyin şagirdlərə dediklərini yadda saxladıqca Allah sənə xeyir-dua versin,

"***Aranızdan götürülüb göyə qaldırılan İsanın aparıldığını necə gördünüzsə, elə də qayıdacaq."*** (Həvvarilərin İşləri 1:11)

87-ci Dərs

# Müqəddəs Ruh Gəlib!

**Həvvarilərin İşləri 1,2**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

İncil kitabındakı son dərslərimizdə biz **Rəbb İsanın Allahın Peyğəmbərlərinin Məsihin ölümü və dirilməsi haqda qabaqcadan yazdıqlarının hamısını necə yerinə yetirdiyini eşitdik**. Biz oxuduq ki, İsa Adəmin övladlarının günah borclarını ödəmək üçün mismarlandığı çarmıxda Öz qanını tökdü. Biz gördük ki, O çarmıxdan götürüldü və məzara qoyuldu. Amma üçüncü gündə Allah Onu ölülərdən dirilti! İsa diriləndən sonra qırx gün ərzində Öz sağ olmasını sübut edərək Öz şagirdlərinə göründü. Sonra ötən dərsimizdə biz İsanın şagirdlərinin gözü qabağında göylərə qalxdığını gördük.

**İsanın göylərə qalxmazdan əvvəl şagirdlərinə etdiyi son əmri xatırlayırsan?** Gəlin Onun dediklərini yenidən oxuyaq:

(Həvarilərin İşləri 1:4-10) *İsa onlarla bu əmri verdi: «Yerusəlimdən kənara çıxmayın, Atanın verdiyi, Məndən eşitdiyiniz vədin həyata keçməsini gözləyin. Belə ki Yəhya su ilə vəftiz edirdi, amma siz bir neçə gündən sonra* ***Müqəddəs Ruhla vəftiz olacaqsınız». ... Müqəddəs Ruh üzərinizə enəndə siz qüvvə alacaqsınız və Yerusəlimdə, bütün Yəhudeya və Samariyada, həmçinin yer üzünün qurtaracağınadək hər yerdə Mənim şahidlərim olacaqsınız».*** *İsa bunları deyəndən sonra həvarilərin gözləri qarşısında yuxarı qaldırıldı. Bir bulud İsanı götürüb onlardan gizlədi. İsa göyə qalxanda onlar səmaya baxırdılar. Elə həmin an ağ libaslı iki kişi onların yanında peyda olub*

İsa Öz şagirdlərindən ayrıldı və gəldiyi yerə, Cənnətə qayıtdı, Allahın sağ tərəfində oturdu. Bu gün O oradadır və geri dönüb dünyanı ədalətlə mühakimə edəcəyi anı gözləyir.

İsa göylərə qalxmazdan əvvəl şagirdlərinə nə əmr etdi? O əmr etdi ki, göylərdən gələcək olan Müqəddəs Ruhla dolana qədər Yerusəlimdə qalsınlar. Bəlkə sizlərdən kimsə hələ də fikirləşir: **Bu Müqəddəs Ruh kimdir?** Müqəddəs Ruh Allahın Ruhudur və İsanın Ruhudur. O Ata Allah və Oğul İsa ilə birdir və eyni zamanda fərdidir. O başlanğıcda Allah dünyanı yaradarkən Allah ilə idi. O erkən dövrlərdə Allahın Sözünü elan etmək üçün peyğəmbərləri ilhamlandıran Ruhdur. Müqəddəs Ruh bakirə Məryəmə gələn və müqəddəs Körpə olan İsanın doğulmasını təmin edən Haqq-Taalanın Ruhudur. O Məsih İsada olan Ruhdur. Həmçinin Müqəddəs Ruh İsanın şagirdlərinə vəd etdiyi Vəsatətçidir:

*"Mən də Atadan xahiş edəcəyəm və O sizə başqa bir Vəsatətçi göndərəcək ki, daim sizinlə olsun. O, həqiqət Ruhudur. Onu dünya qəbul edə bilməz, çünki Onu nə görür, nə də tanıyır. Sizsə Onu tanıyırsınız, çünki sizinlə qalır və daxilinizdə olacaq."* (Yəhya 14:16,17)

İsanın şagirdlərinə Vəsatətçi haqqında dediklərini başa düşmək çox vacibdir. Çünki bəziləri bu gün insanları inandırmağa çalışır ki, İsa başqa bir peyğəmbərin gəlişini elan edirdi. Lakin Rəbb İsanın vəd etdiyi Vəsatətçi insan ola bilməzdir. Çünki İsa aydın dedi ki, Vəsatətçi **təmiz Ruh idi**, heç kim Onu **görə bilməzdir** və O **əbədiyyən Məsihin şagirdlərinin daxilində yaşayacaqdır**. Beləliklə Müqəddəs Ruh Allahın Məsihə iman edən hər bir kəsin ürəyində

yerləşdirdiyi Ruhdur. O onları yeniləşdirir, təmizləyir, qüvvətləndirir, Özününkü kimi möhürləyir və əbədiyyən Öz hüzurunda pay verir.

Bu gün biz Allahın Əllinci Gün bayramı günü İsanın şagirdlərinin üzərinə necə Müqəddəs Ruhu tökdüyünü görəcəyik. Əllinci Gün yunan dilində Pentekost deməkdir. Bu Allahın Musanın dövründə İsraillilər üçün müəyyən etdiyi bayram idi. Sən bu haqda Tövrat kitabında oxuya bilərsən. Bu gün İsraillilər topladıqları buğdaların məhsulundan olan rifaha görə Allaha şükür edərdilər. Amma Pentekost bayramının bundan daha vacib mənası var idi. Pentekost günü uzun illər əvvəl Allahın Məsihə inanan hər bir kəsdə yaşamasına görə Müqəddəs Ruhu yerə göndərmək üçün nəzərdə tutduğu gün idi. Necə ki Pentekost günü Pasxa bayramından əlli gün sonra baş verirdi, eləcə də Allah İsa Məsihin ölüb dirilməsindən sonra Müqəddəs Ruhu yerə göndərməyi nəzərdə tutmuşdur.

İndi isə gəlin Allahın Sözünü oxumağı davam etdirək və İsanın şagirdlərini tərk edəndən və göylərə qalxandan sonra nə baş verdiyinə baxaq. Müqədddəs Yazılar deyir:

(Həvarilərin İşləri 1:12-14) *Bundan sonra həvarilər Zeytun dağı adlanan yerdən Yerusəlimə endi. Bu dağ Yerusəlimin yaxınlığındadır, oraya olan məsafə Şənbə yolu qədərdir. Onlar şəhərə girib qaldıqları evin yuxarı otağına çıxdılar. Oradakılar bunlar idi: Peter, Yəhya, Yaqub, Andrey, Filip, Tomas, Bartalmay, Matta, Halfay oğlu Yaqub, Millətçi Şimon və Yaqub oğlu Yəhuda. İsanın anası Məryəmlə qardaşları və başqa qadınlar da həvarilərlə birlikdə dayanmadan dua edirdi.*

(Həvarilərin İşləri 2:1-40) *Əllinci Gün bayramı zamanı onların hamısı bir yerə yığılmışdı. Birdən güclü külək uğultusu kimi göydən bir səs gəlib onlar oturan evin hər tərəfini bürüdü. Onlara göründü ki, nə isə alov kimi dillərə parçalanaraq hər birinin üstünə düşür. Onların hamısı Müqəddəs Ruhla doldu və Ruhun danışdırdığına görə başqa dillərdə danışmağa başladılar. Bu vaxt səma altında mövcud olan bütün millətlər arasından gələn mömin Yəhudilər Yerusəlimdə yaşayırdılar. Bu səs gələndə orada böyük izdiham toplandı. Hamı öz dilində danışıldığını eşidəndə çaş-baş qaldı. Mat qalaraq heyrət içində dedilər: «Bu danışanların hamısı Qalileyalı deyilmi? Bəs necə olur ki, biz hamımız öz ana dilimizi eşidirik? Biz Parfiyalılar, Midiyalılar, Elamlılar, Mesopotamiyada, Yəhudeyada, Kappadokiyada, Pontda və Asiya vilayətində, Frigiyada, Pamfiliyada, Misirdə və Liviyanın Kirenaya yaxın bölgələrində yaşayanlar, Romada yaşayan Yəhudilər və Yəhudi dinini qəbul edənlər, Kritlilər, Ərəblər eşidirik ki, onlar bizim dilimizdə Allahın əzəmətli işlərindən danışır». Hamı mat qalıb çaşqınlıq içində bir-birindən soruşurdu: «Bu nədir?» Bəziləri də rişxəndlə deyirdi: «Bunlar şirin şərabdan sərxoş olublar».*

*Peter On Bir həvari ilə bərabər irəli çıxdı və izdihama ucadan nida etdi: «Ey Yəhudilər və Yerusəlimin bütün sakinləri, sizə bildirirəm, sözlərimə qulaq asın. Bu adamlar fikirləşdiyiniz kimi sərxoş deyil. Hələ günün üçüncü saatıdır. Bu gördükləriniz Yoel peyğəmbər vasitəsilə əvvəlcədən deyilən hadisədir. Allah dedi ki, axır zamanda "Bütün bəşər üzərinə Ruhumdan tökəcəyəm. Oğullarınız və qızlarınız peyğəmbərlik edəcək... Rəbbin adını çağıran hər kəs xilas olacaq". Ey İsraillilər, bu sözlərimə qulaq asın! Bildiyiniz kimi Allahın aranızda Nazaretli İsa vasitəsilə yaratdığı möcüzələr, xariqələr və əlamətlər aydın göstərdi ki, O, Allahdan gələn Şəxsdir. Allahın əzəldən bilib müəyyən etdiyi məqsədə uyğun olaraq siz bu Şəxsi qanunsuzlara təslim edib onların əli ilə çarmıxa mıxlatdıraraq öldürdünüz. Allah isə ölüm əzablarını kəsərək Onu diriltdi. Çünki Onu ölüm tutub saxlaya bilməzdi. Davud da Onun barəsində demişdi: "Rəbbə əbədilik üz tutmuşam, Sağımda olduğu üçün sarsılmaram.*

*Elə bunun üçün qəlbim sevinir, dilim şad olur, Cismim belə, ümidlə yaşayır. Çünki məni ölülər diyarına atmazsan, Mömin insanını çürüməyə qoymazsan....*

*Qardaşlar, sizə cəsarətlə deməliyəm ki, doğrudan da, ulu babamız Davud ölüb və dəfn olunub. Onun qəbri bu günə qədər buradadır. Davud peyğəmbər idi və öz nəslindən bir Nəfəri onun taxtına çıxarmaq üçün Allahın and içərək Davuda vəd etdiyini bilirdi. Ona görə Məsihin dirilməsini əvvəlcədən görüb barəsində demişdi ki, Allah Onu ölülər diyarına atmaz, cismini çürüməyə qoymaz. Allah bu İsanı ölümdən diriltdi və hamımız buna şahid olduq. Allah Onu ucaltdı və sağ əlində oturtdu. O, vəd edilən Müqəddəs Ruhu Atadan götürüb sizin görüb-eşitdiyiniz kimi üstümüzə tökdü. Davud özü göylərə qalxmadı, amma belə dedi: "Rəbb mənim Ağama dedi: ‹Mən düşmənlərini ayaqlarının altına kətil kimi salanadək Sağımda otur›". Ona görə də qoy bütün İsrail xalqı möhkəm bilsin ki, Allah sizin çarmıxa çəkdiyiniz bu İsanı həm Rəbb, həm də Məsih təyin etmişdir».*

*Bu sözlər ona qulaq asanların ürəyinə ox kimi sancıldı. Onlar həm Peterdən, həm də o biri həvarilərdən soruşdular: «Qardaşlar, bəs biz nə edək?» Peter onlara cavab verdi: «Tövbə edin, hamınız İsa Məsihin adı ilə vəftiz olun. Onda günahlarınız bağışlanacaq və bəxşiş olaraq Müqəddəs Ruhu alacaqsınız. Çünki bu vəd siz, övladlarınız, uzaqdakıların hamısı – Allahımız Rəbbin çağırdığı hər kəs üçündür». Peter başqa çox söz deyib onlara xəbərdarlıq etdi və yalvardı: «Bu əyri nəsildən xilas olun».* Amin.

Əziz dinləyicilər, siz Peterin vəzını eşitdiz. Qısaca, o Yerusəlimdəki izdihama Allahın uzun illər əvvəl Öz peyğəmbərləri vasitəsi ilə vəd etdiyi İsa Məsihi göndərdiyini elan etdi. Peter onlara dedi: Siz Allahın göylərdən göndərdiyi Məsihə nifrət etdiniz! Siz Onu çarmıxa mismarlayaraq öldürdünüz, lakin Allah Onu ölülərdən diriltdi! Biz hamımız bunun şahidləriyik! Allah İsanı ucaldaraq sağ tərəfində otuzdurdu və vəd etdiyi Müqəddəs Ruhu göndərdi! Tövbə edin və Allaha tərəf dönün! Allahın peyğəmbərlərinin xəbərinə iman edin! Allahın Xilaskar və dünyanın Hakimi kimi təyin etdiyi İsaya inanın! ***"Onun barəsində bütün peyğəmbərlər şəhadət edir ki, Ona iman edən hər kəsin günahı Onun adı ilə bağışlanır!"*** (Həvarilərin İşləri 10:43)

Bununla həvvari Peter İsa Məsih vasitəsi ilə Xoş Xəbərin xilasını elan etdi. İzdiham Peterin sözlərini eşidəndə öz ürəklərində böyük ağrı hiss etdilər. Çünki indi onlar dərk etdilər ki, çarmıxa mismarladıqları Nəzaretli İsa göylərdən gəlmiş İzzətli Rəbb idi! Lağa qoyduqları və nifrət etdikləri bu İsa, uzun illər əvvəl Allahın Öz peyğəmbərləri vasitəsi ilə vəd etdiyi Məsih idi! Beləliklə həmən gün bir çoxları günahlarından tövbə etdilər, Allaha tərəf döndülər və Rəbb İsa Məsihə inandılar. Bu yeni şagirdlər İsa Məsihin ölümünə, dəfininə və dirilməsinə imanla günahlarından təmizləndiklərinin icmaya şahidlik olaraq suda vəftiz oldular. Suda vəftiz olmaq onların günahlarını təmizləmədi. Bu yalnız onların **daxilində** baş verən təmizlənmənin **xarici** əlaməti idi.

Müqəddəs Yazılar deyir:

*"Onun sözünü qəbul edənlər vəftiz oldu. O gün üç min nəfərə yaxın insan imanlılara qoşuldu. Onlar da özlərini həvarilərin təliminə, hər şeydə şərik olmağa, birgə çörək bölməyə və duaya həsr etdilər..... Şagirdlər isə sevinc və Müqəddəs Ruhla doldular."* (Həvarilərin İşləri 2:41,42; 13:52)

Beləliklə Pentekost günü, İsa Məsihə iman edənlərin cəmiyyəti, yəni Məsihin **Kilsəsi** meydana gəldi. Isanın Kilsəsi bina və ya din deyil. Kilsə sözü yunan dilində "*Ekklesia*"

mənası "çağırılmışlar" deməkdir. Bu gün həqiqi və yalançı imanlılar olduğu  kimi, həqiqi kilsə və yalançı kilsə də var. İsa Məsihin həqiqi kilsəsi Pentekost günündən bəri Məsihin kamil, tamamlanmış qurbanına səmimi imanla Adəmin ailəsindən Məsihin ailəsinə keçənlərdən ibarətdir.

Bu gün eşitdiyimiz Əllinci Gün bayramı təxminən iki min il bundan əvvəl baş vermişdir. Bəlkə bu kiminsə belə deməyinə səbəb olacaqdır, "Bu mənə aid deyil! Mən Məsihi çarmıxa çəkənlərdən biri deyiləm! Bunu Yəhudilər və Romalılar edibər! Mənim oraya heç bir aiddiyyatım yoxdur!" Amma Allahın Sözü bizə deyir ki, Məsih *"**Bizim** üsyankarlığımıza görə onun bədəni deşildi, şər əməllərimiz naminə əzildi!"* (Yeşaya 53:5) **Bizim** günahlar Onun ölümünə səbəb oldu. **Bizim** təqsizlərimiz üzündən Allah insanlara izn verdi ki, Onun Sevimlisini çarmıxa mismarlasınlar! İnsanlar İsanı çarmıxa çəkdilər, lakin Allah Onu ölülərdən diriltdi ki, Ona inanan hər kəsin Xilaskarı olsun və inanmayanların isə Hakimi. Beləliklə Müqəddəs Yazılar bəyan edir:

*"Allah... hər yerdə hamının tövbə etməsini insanlara əmr edir. Çünki Allah Öz seçdiyi Şəxs vasitəsilə dünyanı ədalətlə mühakimə edəcəyi günü təyin edib. Onu ölülər arasından diriltməklə hamının qarşısında bunu təsdiq edib!"* (Həvarilərin İşləri 17:30,31)

Bu söz üzərində diqqətlə düşün. Çünki sənin ədəbi taleyin buna necə münasibət bəsləməndən asılıdır. Dinlədiyiniz üçün çox sağ olun.

Həvari Peterin elan etdiyi haqqında düşündükcə, Allah sənə xeyir-dua versin,

***"Onun barəsində bütün peyğəmbərlər şəhadət edir ki, Ona iman edən hər kəsin günahı Onun adı ilə bağışlanır...və... bəxşiş olaraq Müqəddəs Ruhu alacaq!"*** (Həvarilərin İşləri 10:43; 2:38)

88-ci Dərs

# İsa Gələcək!

**Vəhy 19-22**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Bu gün biz Allahın Sözünün ardıcılıqla oxumağın 88-ci dərsinə gəlib çatmışıq. Gördüyümüz kimi yüz illər ərzində Allahın Ruhu Müqəddəs Yazıların birinci hissəsi olan Tövratı, Zəburu və peyğəmbərlərin kitablarını yazmaq üçün otuzdan çox peyğəmbəri ilhamlandırmışdır. Allahın Kitabının birinci hissəsi Əhdi-Ətiq adlanır. Bu hissədə bütün peyğəmbərlər Allah müqəddəs və salehdir, buna görə də günahı mühakimə etməlidir deyə bir müjdəni bölüşdülər. Amma Allah həmçinin mərhəmətlidir və Adəmin övladlarının günahda məhv olmalarını istəmir. Beləliklə biz Allahın peyğəmbərlər vasitəsi ilə bakirədən doğulacaq, müqəddəs həyat sürəcək və sonra Adəmin övladlarının günah borclarını ödəmək üçün çarmıxda Öz qanını tökəcək müqəddəs Məsihi, Qurtarıcını göndərməyi vəd etdiyini gördük. Əhdi-Ətiqin bütün peyğəmbərləri gələcək olan Məsih haqqında yazmışdılar.

Müqəddəs Yazıların ikinci hissəsi olan Əhdi-Cədiddə biz gördük ki, Allahın planlaşdırdığı vaxt gələndə peyğəmbərlər vasitəsi ilə vəd etdiyi kimi Məsihi, dünyanın Xilaskarını göndərdi. Məsih Nəzaretli İsa idi. Yer üzündə yaşamış Yeganə kamil, müqəddəs Şəxs. Isa Allahın qüdrəti ilə dolu idi. Çünki Onun Özü insan bədənində Allahın Sözü idi. Allah Onun haqqında bəyan etmişdir, *"Bu Mənim sevimli Oğlumdur, Ondan razıyam."* (Matta 3:17) Amma insanlar Allahın Müqəddəsini çarmıxa mismarlamaqla Onu öldürdülər. Lakin Allah üçüncü gün Onu ölülərdən diriltdi. İsa bir çox şahidlər tərəfindən göründükdən sonra, Allah Onu göylərə ən yüksən yerə ucaltdı. Amma hekayə burada bitmədi.

Allahın saleh xilas yolunun gözəl hekayəsinin başlanğıcı və sonu, əvəlli və axırı var. Bu şər dünyası İsa Məsihin axırını görməyibdir! Allahın Sözü deyir ki, Rəbb İsa şeytanı və şər mələkləri alovlu gölə atmaq, Məhkəmə Günü Adəmin övladlarını mühakimə etmək və bu qədim dünyanı yenidən qurmaq üçün gələcəkdir. Bizim bu günkü dərsimiz "**İsa gələcək!"** adlanır.

Biz Əhdi-Cədidin son kitabı olan ***Vəhydən*** oxuyacağıq. Vəhy kitabı dərinmənalı və güclü kitabdır. Çünki o son dövrlərdə nə baş verəcəyi, bu günki dünyanın axırı haqda elan edir. Vəhy kitabı iman edən hər bir kəs üçün izzətli qələbəsini elan edən iyirmi iki fəsildən ibarətdir. Amma iman etməyənlər üçün isə bu fəsillər böyük dəhşətlərdən ibarətdir. Çünki Vəhy kitabı aşkar edir ki, əgər sən İsa Məsihi öz Xilaskarın kimi rədd etsən, sonda O sənin Hakimin olacaqdır! Əgər sən Allahın Quzusunu qəbul etməsən, Allahın Aslanı ilə üzləşəcəksən. Çünki günahı aradan qaldıran qurbanlıq quzu kimi ölən İsa Məsih, mühakimə etmək üçün qüdrətli Aslan kimi geri dönəcəkdir! Müqəddəs Yazılar deyir: *"Rəbb İsanın qüdrətli mələkləri ilə od-alov içərisində göydən zühur etdiyi zaman olacaq. O zaman Rəbbimiz İsa Allahı tanımayanlardan və Özü barədə olan Müjdəyə itaət etməyənlərdən qisas alacaq."* (2 Saloniklilərə 1:7,8)

Indi isə gəlin diqqətlə Vəhy kitabından götürülmüş parçaya qulaq asaq. Rəbb İsa göylərə qalxandan sonra O Öz mələyini Yəhyaya göndərdi ki, ona dünyanın sonunda baş verəcək şeyləri aydın etsin. Birinci fəsildə Yəhya yazıb:

(Vəhy 1) ***Bu, İsa Məsihin vəhyidir. Allah bunu Ona verdi ki, tezliklə baş verməli hadisələri Öz qullarına aşkar etsin.*** *Məsih də bunu Öz mələyi vasitəsilə qulu Yəhyaya göndərərək bəyan etdi. Yəhya Allahın kəlamı və İsa Məsihin şəhadəti, yəni gördüyü hər şey barədə şəhadət etdi. Nə bəxtiyardır bu peyğəmbərlik sözlərini oxuyan, eşidənlər və orada yazılanlara riayət edənlər! Çünki vaxt yaxındır. Mən Yəhyadan Asiya vilayətindəki yeddi imanlılar cəmiyyətinə salam! Var Olan, Var Olmuş və Gəlməli Olandan, Onun taxtının önündəki yeddi ruhdan, həmçinin ölülər arasından ilk doğulan, yer üzünün padşahlarının başçısı olan sadiq şahid İsa Məsihdən sizə lütf və sülh olsun!* ***Bizi sevən, Öz qanı bahasına bizi günahlarımızdan azad edərək bizdən bir padşahlıq təşkil edən və bizi Öz Atası Allah üçün kahinlər təyin edən Şəxsə əbədi olaraq izzət və qüdrət olsun! Amin. Budur, O, buludlarla gəlir! Hər göz Onu görəcək, hətta Onun bədənini deşənlər də Onu görəcək. Yer üzünün bütün tayfaları Onun üçün ah-nalə edəcək. Bəli, belə olacaq. Amin.*** *Var olan, Var olmuş və Gəlməli olan Külli-İxtiyar Rəbb Allah deyir: «Alfa və Omeqa Mənəm!»*

On doqquzuncu fəsildə Yəhya yazıb:

(Vəhy 19) *Bundan sonra göydə böyük bir kütlənin səsinə bənzər uca bir səs eşitdim. Onlar deyirdi: «Rəbbə həmd edin! Xilas, izzət və qüdrət Allahımıza məxsusdur! Çünki Onun hökmləri həqiqi və ədalətlidir.... Mən böyük bir kütlənin, gur suların və güclü göy gurultusunun səsinə bənzər bir səs də eşitdim. Bu səs deyirdi: «Rəbbə həmd edin! Çünki Külli-İxtiyar Rəbb Allahımız Padşahlıq taxtına çıxdı!* ***[Rəbbimiz və Onun Məsihi Dünya üzərində Padşahlığa sahib oldu! O əbədi olaraq padşahlıq edəcək! -****11:15]*

*Mən gördüm ki, göy yarılıb və orada bir ağ at var. Onun belində oturan Süvari Sadiq və Haqq adlanır və ədalətlə hökm çıxararaq döyüşür. Onun gözləri odlu alova bənzəyir. Başında çoxlu sayda kiçik tac var və üzərində Özündən başqa heç kəsin bilmədiyi bir ad yazılıb. O, qana batmış bir paltar geyinib və* ***Onun adı Allahın Kəlamıdır.*** *Göydə olan ordular ağ, təmiz və incə kətan geyinərək ağ atların belində Onun ardınca gedirdi. Onun ağzından millətlərə zərbə vurmaq üçün iti bir qılınc çıxır. O, «dəmir əsa ilə onlara ağalıq edəcək». Külli-İxtiyar Allahın şiddətli qəzəb şərabının hazırlandığı üzümsıxanı Özü tapdalayacaq.*
*Onun paltarının və budunun üstündə bu ad yazılıb:* ***«Padşahların Padşahı və ağaların Ağası».***

(Vəhy 20) *Mən göydən enən bir mələyi gördüm. Onun əlində dibsiz dərinliyin açarı və böyük bir zəncir var idi.*
*O, əjdahanı –* ***iblis*** *və Şeytan deyilən o qədim ilanı tutub min il müddətinə zəncirlədi. Onu dibsiz dərinliyə atdı və qapısını bağlayıb möhürlədi ki, min il bitənə qədər millətləri daha aldada bilməsin. Bundan sonra isə o, qısa bir müddətə azad edilməlidir. Taxtları və onların üzərində oturanları da gördüm. Onlara hökm etmək ixtiyarı verildi. İsa barədə şəhadət və Allahın kəlamı uğrunda boynu vurulmuş canları da gördüm....Onlar dirilib Məsihlə birgə min il padşahlıq etdi.*

*Min il bitəndən sonra Şeytan atıldığı zindandan azad ediləcək. Oradan çıxacaq ki, yer üzünün dörd tərəfində olan millətləri .... döyüşə toplasın; onların sayı dəniz qumu qədər çoxdur. Onlar yer üzünün hər tərəfinə hücum edib müqəddəslərin düşərgəsini və sevimli şəhəri mühasirəyə aldılar. Lakin göydən od düşüb onları yandırıb-yaxdı.* ***Onları aldadan iblis də vəhşi heyvanın və yalançı peyğəmbərin atıldığı yerə – odlu kükürd gölünə atıldı. Bunlar gecə-gündüz, əbədi olaraq işgəncə çəkəcək.***

*Böyük ağ taxt və onun üstündə Oturanı gördüm. Yer və göy Onun önündən qaçdı və onlara yer tapılmadı. Mən gördüm ki, böyükdən kiçiyə qədər ölülər taxtın önündə dayanıb. Kitablar açıldı və həyat kitabı olan başqa bir kitab da açıldı. Ölülər kitablarda yazılanlara əsasən öz əməllərinə görə mühakimə olundu. Dəniz öz içində olan ölüləri, ölüm və ölülər diyarı da öz qoynunda olan ölüləri təslim etdi. Hər biri öz əməlinə görə mühakimə olundu. Ölüm və ölülər diyarı odlu gölə atıldı. Bu odlu göl ikinci ölümdür.* ***Kimin adı həyat kitabına yazılmayıbsa, o, odlu gölə atıldı!***

(Vəhy 21) *Mən* ***yeni bir göy və yeni bir yer gördüm****. Çünki əvvəlki yerlə əvvəlki göy keçib getmişdi, dəniz də artıq yox idi.... Taxtdan belə deyən uca bir səs eşitdim: «Budur, Allahın məskəni insanların arasındadır. Allah onlarla birgə məskən salacaq; onlar Onun xalqı olacaq, Allah Özü onların Allahı olaraq aralarında yaşayacaq. Allah onların bütün göz yaşlarını siləcək.* ***Artıq ölüm olmayacaq.*** *Yas, nalə və ağrı bir daha olmayacaq. Çünki əvvəlki şeylər keçib getdi». Taxtda Oturan dedi: «Budur, Mən hər şeyi yenidən qururam». Yenə dedi: «Yaz, çünki bu sözlər etibarlı və həqiqidir». O mənə dedi: «Tamam oldu! Alfa və Omeqa, Başlanğıc və Axır Mənəm****. Mən susayana həyat suyunun qaynağından müftə su verəcəyəm****. 7 Qalib gələn bunları irs alacaq; "Mən* ***ona Allah,*** *o isə* ***Mənə oğul*** *olacaq". Qorxaqların, imansızların, iyrənclərin, qatillərin, əxlaqsızların, sehrbazların, bütpərəstlərin və bütün yalançıların aqibəti isə od və kükürdlə yanan göldə olacaq; bu, ikinci ölümdür».*

(Vəhy 22) *Mələk mənə həyat suyu axan çayı göstərdi. Bu çay büllur kimi parlaq olub* ***Allahın və Quzunun taxtından çıxır*** *və şəhərin baş küçəsinin ortasından axırdı. Çayın hər iki tayında on iki cür meyvə gətirən həyat ağacı var idi. O ağac hər ay meyvə gətirir. Onun yarpaqları millətlərə şəfa vermək üçündür. Daha lənətlənən heç bir şey olmayacaq. Allahın və Quzunun taxtı orada olacaq və qulları Ona ibadət edəcək. Onlar Onun üzünü görəcək, alınlarında Onun adını daşıyacaqlar. Artıq gecə olmayacaq, heç kəsin çıraq və günəş işığına ehtiyacı olmayacaq. Çünki Rəbb Allah onlara işıq verəcək və onlar əbədi olaraq padşahlıq edəcək. Mələk mənə dedi: «Bu sözlər etibarlı və həqiqidir. Peyğəmbərlərin ruhlarına ilham verən Rəbb Allah mələyini göndərib ki, Öz qullarına tezliklə baş verməli hadisələri göstərsin».*

*İsa deyir: «****Budur, tezliklə gəlirəm****. Verəcəyim mükafat Mənimlədir və hər kəsə öz əməlinə görə əvəz verəcəyəm. Alfa və Omeqa, Birinci və Sonuncu, Başlanğıc və Axır Mənəm!» Xalatlarını günahdan təmizləyənlər nə bəxtiyardır! Bununla da həyat ağacından yeməyə icazələri olacaq, darvazalardan keçib şəhərə girəcəklər.*

*İt kimi murdarlar, sehrbazlar, əxlaqsızlar, qatillər, bütpərəstlər və yalanı sevib danışan hər kəssə kənarda qalacaq. Yenə deyir: «Mən İsa Öz mələyimi göndərdim ki, cəmiyyətlərə aid olan bu şəhadəti sizə versin. Mən Davudun Kökü və Nəsli, parlaq Dan Ulduzuyam». Ruh da, gəlin də deyir****: «Gəl!» Qoy eşidən də desin: «Gəl!» Susayan qoy gəlsin, arzu edən həyat suyunu müftə götürsün.***

*Mən bu kitabın peyğəmbərlik sözlərini eşidən hər kəsə xəbərdarlıq edirəm: kim bunlara bir şey artırarsa, Allah da ona bu kitabda yazılan bəlaları artıracaq; kim bu peyğəmbərlik kitabının sözlərindən bir şey götürərsə, Allah da bu kitabda yazılmış həyat ağacından və müqəddəs şəhərdən ona düşən payı götürəcək. Bunlara şəhadət edən deyir:* ***«Bəli, tezliklə gəlirəm!»*** *Amin. Gəl, ya Rəbb İsa! Rəbb İsanın lütfü hamıya yar olsun! Amin.*

Beləliklə, Allah Öz möcüzəli Kitabını yekunlaşdırır və Adəmin övladlarının çarmıxa mismarladıqları Rəbb İsa bir gün yer üzünə geri qayıdacaqdır. O Ona inananları Özü ilə olmaq üçün və Ona inanmayanları isə mühakimə etmək üçün gələcəkdir! Əziz dost, sən

Rəbb İsanın geri dönməsi ilə üzləşməyə arxayınsan? Sən İsanı öz Xilaskarın və Rəbbin kimi qəbul edənlərin arasındasan? Öz qəlbində inanırsan ki, Allah sənin günahlarını Rəbb İsa Məsihin üzərinə qoyub ki, Onun vasitəsi ilə Allah səni saleh saya bilər? **Sənin adın Həyat Kitabında yazılıb?** Sənin İsa Məsihlə münasibətin necədir? O sənin **Xilaskarındır**? Yoxsa O sənin **Hakimin** olacaqdır?

Sən Məsihin dönüşünə hazırsan? Əgər sən bu gün Allahın səsini eşitsən, qəlbini sərtləşdirmə. Çünki Müqəddəs Yazılar deyir:

*"Rəbb üçün bir gün min il kimidir, min ilsə bir gün kimidir. Bəziləri bunu gecikmə sayar, amma Rəbb vədini yerinə yetirməkdə gecikməz, lakin sizə görə səbir edir. Çünki O heç kəsin* ***həlak*** *olmasını istəmir, amma hər kəsin tövbə etməsini istəyir."* (2 Peter 3:8,9) *"Budur, indi münasib vaxt, budur,* ***indi*** *xilas günü!"* (2 Korinflilərə 6:2) ***"Bu cür böyük xilasa məhəl qoymasaq, biz necə qurtula bilərik?"*** (İbranilərə 2:3)

Əziz dostlar, diqqətlə qulaq asdığınıza görə çox sağ olun. Allaha dua edirik ki, Salehlik Yolu proqramında eşitdiyiniz hər bir söz həyatınıza xeyir-dua və Onun Sözünə inanan hər bir kəsə təmənnasız verdiyi Allahın "böyük xilasına" gətirsin!

Müqəddəs Yazılardakı İsanın son sözlərini xatırladıqca, Allah sənə xeyir-dua versin. Rəbb İsa Məsih deyib:

***"Bəli, tezliklə gəlirəm!"*** (Vəhy 22:20)

89-cu Dərs

# Xoş Xəbər!

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

İncil kitabındakı dərslərimizdə biz eşitdik ki, Rəbb İsa Məsih diriləndən sonra Öz şagirdlərinə əmr etdi, ***"Dünyanın hər tərəfinə gedin, bütün yaradılışa Müjdəni vəz edin."*** (Mark 16:15) İsa göylərə qaldırılandan sonra Pavel adlı bir adam var idi. O çox qəddar, amansız öz dinini qorumağa çalışan bir Fariseydən, özünü İsanın ardınca getməyə həsr edənə çevrildi. O yazmışdır:

*"Allahın Müjdəsini yaymaq üçün seçilmiş mən Pauldan salam! Allahın Öz peyğəmbərləri vasitəsilə Müqəddəs Yazılarda əvvəlcədən vəd etdiyi o **Müjdə**.... Mən **Müjdədən** utanmıram, çünki o, iman edən hər kəsin – əvvəlcə Yəhudinin, sonra da Yunanın xilası üçün Allahın qüdrətidir. **Müjdədə** Allahın salehliyi aşkar olur və bu salehlik tamamilə imanla əldə edilir. Necə ki yazılıb: «Saleh adam imanla yaşayacaq!"* (Romalilərə 1:1,2,16,17)

**Müjdə, müjdə, xoş xəbər, xoş xəbər!** Allahın Sözündə yenidən və yenidən deyilən bu xoş xəbər, bu müjdə nədir belə? Bu gün Allahın köməkliyi ilə biz Müqəddəs Yazılarda bəyan edilən Xoş Xəbər haqqında danışmaq istəyirik. Amma Xoş Xəbər haqqında danışmazdan əvvəl, biz **pis xəbəri** xatırlamalıyıq.

**Pis xəbər** nədir? Sən xatırlaya bilərsən ki, başlanğıcda, Allah göyləri və yeri yaradandan sonra, O Adəm və Həvvanı yaratdı və onları Cənnət adlanan bağda yerləşdirdi. Allah onları yaratdı ki, Onu tanısınlar, Onu sevsinlər və əbədiyyən Ona izzət gətirsinlər. Amma onları sınamaq üçün Allah Adəmə dedi: "Sən bağın ortasındakı ağacın meyvəsindən başqa bütün ağacların meyvələrindən yeyə bilərsən. Sən onun meyvəsini yeməməlisən. Çünki yediyin gün öləcəksən!" Pis xəbər budur ki, Adəm və Həvva qadağan olunmuş ağacdan yeməyə onları sövq edən ilan cildindəki iblisə qulaq asdılar. Adəm və Həvvanın günahı onlara və onların nəslinə yoluxdu, dünyaya bəla və ölüm gətirdi. Tez-tez eşitdiyimiz kimi: "Bir qoz bir çuvalı bərbad edir." Allahın Sözü pis xəbər deyərkən bunu nəzərdə tutur:

*"İnsanlar bir dəfə ölüb **ondan sonra mühakimə olunsunlar**!.... Rəbb saysız-hesabsız müqəddəs mələkləri ilə gəldi ki, hamını mühakimə etsin və Allaha qarşı gördükləri allahsız işlər və allahsız günahkarların Özünə qarşı inadkarcasına dedikləri bütün sözlər üçün məhkum etsin!"* (İbranilərə 9:27; Yəhuda 1:14,15)

Beləliklə **pis xəbər** budur ki, **bizim hamımız günahkarıq və Allahın ədalətli məhkəməsi ilə üzləşməliyik!**

Amma **Xoş Xəbər** budur ki, Cənnət Bağında mərhəmət dolu Allah elan etdi ki, bir gün O dünyaya günahdan ləkəsiz bir Şəxs göndərəcəkdir. Bu müqəddəs Şəxs, saleh **Qurtarıcı** Adəmin bütün nəslinin günahlarını ödəmək üçün Özünü qurban kimi öldürülməyə təslim edəcəkdir. Bizim layiq görüldüyümüz günaha görə olan cəzalar günahsız Qurtarıcının üstünə düşəcəkdir. Adəm və Həvvanın günah işlətdikləri gün Allahın elan etdiyi Xoş Xəbər budur.

Allah Qurtarıcının gəlməsini elan etmək üçün çox insanlardan istifadə etdi. Allahın hər bir peyğəmbəri Məsih haqda bir şey elan etdi ki, O gələndə hamı dərk etsin ki, Allahın təyin etdiyi Odur. Məsələn, Məsihdən təqribən yeddi yüz il əvvəl yaşamış Yeşaya peyğəmbər Məsihin necə doğulmasını peyğəmbərlik etmişdir, *"Budur, bakirə qız hamilə olub Oğlan doğacaq, adını İmmanuel qoyacaqlar». «İmmanuel» «Allah bizimlədir» deməkdir."* (Matta 1:23; Yeşaya 7:14) Mikeya adlı başqa bir peyğəmbər peyğəmbərlik etmişdir ki, Məsih göylərdən gələcəkdir və Bet-Lexem şəhərində doğulacaqdır. Bu Məsihin eynilə doğulduğu yerdir. Amma Mikeya bunu Məsihin doğuluşundan yüz illər əvvəl peyğəmbərlik etmişdir.

Amma peyğəmbərlər yalnız Məsihin doğuluşunu elan etmədilər. Amma onlar həm də Məsihin əzab çəkməsini və günahkarların yerinə ölməsini də peyğəmbərlik etdilər. Məsələn, Davud peyğəmbər yazmışdır ki, insanlar Məsihi lağa qoyacaqlar, Ona əzab verəcəklər, Onun əllərini və ayaqlarını deşəcəklər və öldürəcəklər. Və Davud yalnız Məsihin ölümünü elan etmədi, Allahın Onu ölülərdən dirildəcəyini də qabaqcadan dedi. Və bununla da Allah sübut edəcəkdir ki, O Adəmin övladlarını günahın cəzasından xilas etmək üçün Allahın göndərdiyi Xilaskardır.

İnsanların əksəriyyəti Məsihin doğuluşu haqda razılaşırlar, lakin çoxları isə Onun ölümü və dirilməsi mövzusunda büdrəyirlər. Onlar Allahın göndərdiyi Məsihin insanlar tərəfindən alçaldılmasına kənardan durub baxmasını başa düşmürlər. Əksər insanların başa düşmədikləri şey budur ki, sevən Allahın Özü Məsihin bizim günahlarımıza görə əzab çəkməsini qərara almışdır. Peyğəmbərlər də bunu elan etmişdilər, *"Amma Rəbb Özü onun bu iztirablarını istədi, çəkdiyi əziyyətlər Onun iradəsi idi!"* (Yeşaya 53:10)

Əgər biz həqiqətən peyğəmbərlərə inanırırqsa, onda biz onların yazdıqlarına da inanmalıyıq. Biz yadda saxlamalıyıq ki, peyğəmbərlər öz fikirlərini demirdilər. Allah onların ruhunda nə demək lazım olduğunu yerləşdirmişdir. Buna görə də, əgər biz peyğəmbərlərə inanmağı rədd ediriksə, onda biz əslində kimi rədd edirik? Biz Allahı rədd edirik. Çünki Onun Özü Məsihin günahı aradan qaldıran qurban kimi öləcəyini peyğəmbərlik etmək üçün onları ilhamlandırmışdır.

Allah Məsihin ölümünü ona görə nəzərdə tutdu ki, dünyanı sevir və kimsənin günahda həlak olmasını istəmir. Bu çox zəruri idi ki, saleh Şəxs qeyri-saleh insanlara görə ölsün ki, onları Allahın məhkəməsindən xilas etsin. Əvvəllər qoyun və keçilərin qurbanı bunun rəmzi idi. Bakirədən doğulmuş İsa Məsih, Allahın qüdrəti ilə Allahın verdiyi kamil və son qurbandır. Və artıq bizim günahlara görə kamil və daimi Qurbanımız olduğuna görə, qeyri-kamil, rəmzi qurbanlar gətirməyə ehtiyacımız yoxdur. Rəbb İsanın çarmıxda ölməzdən əvvəl elan etdiyi söz yadındadır? O dedi, ***"Tamam oldu!"*** (Yəhya 19:30) O bizim günah borcumuzu birdəfəlik və həmişəlik ödədi. Bizə qalan yeganə şey buna inanmaqdır! Oxuduğumuz kimi, Müqəddəs Yazılar deyir: İsa Məsihin ölümünün və dirilməsinin Xoş Xəbəri ***"İman edən hər kəsin** xilası üçün Allahın qüdrətidi!"* (Romalılara 1:16)

Təəssüf ki, bir çox insanlar İsanın ölümü və dirilməsinin yalnız uydurma olduğunu deyərək Ona inanmağı rədd edirlər. Amma biz İncili oxuyanda kəşf edirik ki, peyğəmbərlərin Məsih haqqında etdikləri bütün peyğəmbərliklər İsa Məsih tərəfindən yerinə yetirilmişdir. Onun doğuluşu, həyatı, ölümü, dirilməsi və göylərə qalxması haqda **hər şey....** Beləliklə İncil bəyan edir ki, *"Məsih günahlarımız üçün öldü, dəfn olundu və Müqəddəs Yazılara uyğun olaraq, üçüncü gün dirildi."* (1 Korinflilərə 15:3,4) **Hər şey peyğəmbərlərin qabaqcadan dedikləri kimi baş verdi.** İsaya nifrət edənlər Onu lağa qoydular, Ona əzab verdilər və öldürdülər və Onu sevənlər isə Onu dəfn etdilər. Lakin ölüm Onu qəbirdə saxlaya bilmədi. Biz gördük ki,

Onun çarmıxa çəkilməsindən üç gün sonra bir neçə qadın sübh tezdən durdu və İsanın qoyulduğu məzara getdi. Onlar gördülər ki, məzarın ağzı açıq içi isə boş idi! İsa ölüb diriləndən sonra, O qırx gün ərzində Özünü yenidən şagirdlərinə göstərdi. Beş yüz nəfərdən çox adam Onu dirilmədən sonra gördü. Bu həqiqət idi! Məsih insanların ən böyük düşmənlərindən biri olan ölümə qələbə çaldı! Isanın dirilməsi sübut etdi ki, Allah Onun qurbanını Adəmin övladlarının günahlarının tam ödənişi kimi qəbul etmişdir ki, Ona inanan hər bir kəs Onunla əbədi həyata şərik ola bilsin.

Xoş Xəbər budur. **Rəbb İsa Məsih sənin günahlarını götürmək üçün öldü və üçüncü gün məzardan çıxdı ki, sənə əbədi həyat versin.** Xoş Xəbərin məqsədi ona inanan hər bir kəsi xilas etməkdir. Buna görə də sən bu suala cavab verməlisən: **"Sən buna inanırsan?"** Allahın Sözü deyir: "Bu gün xilas günüdür! Əgər Xoş Xəbəri eşitsən, ürəyini sərtləşdirmə! İnan!" Xilas, bizim etdiyimiz işlərin nəticəsi deyil, çünki heç kim Cənnətə düşmək üçün kifayət qədər iş görə bilməz. Allah Öz böyük xilasını heç vaxt sənə satmayacaqdır; O bunu sənə **ərməğan etmək** istəyir! Yaxşı əməllər, dualar və oruclar sənə yaxşı hisslər verə bilər, amma onlar saleh Allahı razı salmır! Allahın Cənnətinə daxil olmaq üçün bir yol var.

1) Birinci sən günahkar olduğunu və Allahı razı salmağa gücün olmadığını dərk etməlisən.
2) Sonra inanmalısan ki, İsa Məsih günahı aradan qaldırmaq üçün çarmıxda ölmək və sənə əbədi həyat vermək üçün Allahın ölülərdən diriltdiyi Xilaskardır.

Əgər sən bu Xoş Xəbərə inansan, əmin ola bilərsən ki, öləndən sonra Cənnətə gedəcəksən. Çünki Allahın Özü bizə Öz Sözündə vəd edib ki, əgər biz Rəbb İsa Məsihin adına inansaq bizim əbədi həyatımız olacaqdır. (1 Yəhya 5:9-13)

**Məlik adlı bir kişinin şəxsi şəhadətini siznən bölüçmək istəyirik.** O deyir:

Mən sizə İsa Məsihə necə iman etməyim haqda danışım. Gənc olanda mən gündə beş dəfə dua etməyə və illik oruc tutmağa sadiq idim. Amma mən öləndən sonra hara gedəcəyimi bilmirdim. Hamıdan soruşurdum amma aydın cavab almırdım. Lakin mən İncil kitabını oxuyarkən kəşf etdim ki, mən öləndən sonra hara gedəcəyimi bilə bilərəm. Çünki İsa Məsihin Özü İncildə deyir: "*Doğrusunu, doğrusunu sizə deyirəm: Mənim sözümə qulaq asıb Məni Göndərənə inanan şəxs əbədi həyata malikdir və ona hökm çıxarılmayacaq, əksinə, ölümdən həyata keçib."* (Yəhya 5:24) O həmçinin deyib: "*Dirilmə və həyat Mənəm. Mənə iman edən ölsə də, yaşayar!"* (Yəhya 11:25) Beləliklə, mən özümü xilas etmək üçün etdiyim əməllərdən tövbə etdim və bütün peyğəmbərlərin ***" Ona iman edən hər kəsin günahı Onun adı ilə bağışlanır."*** (Həvarilərin İşləri 10:43) deyərək peyğəmbərlik etdikləri Məsihə iman etdim. Mən bütün ümidlərimi Rəbb İsa Məsihə bağladım. Və o vaxtdan bəri Allah ruhuma sülh veribdir. Mənim artıq vicdanım narahat deyil. Gələcəyim İsanın çarmıxdakı işinə görə işıqlıdır. Məsihin şagirdi kimi həyatımda bəzən çətinliklərlə üzləşirəm. Çünki mənim imanım qohumlarımın və dostlarımınkından fərqlənir. Amma mənim sülhüm var. Allahın sülhü mənim qəlbimi və düşüncələrimi doldurur. Və bunu mənə verən İsa deyir: *" Əgər dünya sizə nifrət edərsə, onda yada salın ki, sizdən əvvəl Mənə nifrət edib... Aranızda sülh qoyub gedirəm, Öz sülhümü sizə verirəm. Mən onu sizə dünyanın verdiyi kimi vermirəm. Qoy ürəyiniz təlaşa düşməsin və qorxmayın."* (Yəhya 15:18; 14:27) Dostlar, Rəbbin mənim üçün etdiklərini, O sənin üçün də edə bilər. O səndən bir şey istəyir: **O istəyir ki, bütün qəlbini Ona verəsən.** Qalanını isə O edəcəkdir.

Çünki Rəbb İsanın Özü deyib, *"Ey bütün yorğunlar və yükləri ağır olanlar, Mənim yanıma gəlin, Mən sizə rahatlıq verərəm. Mənim boyunduruğumu üzərinizə götürün və Məndən öyrənin. Çünki Mən həlim və qəlbən itaətkaram. Bununla canınıza rahatlıq taparsınız."* (Matta 11:28,29)

**Sən günahlarına görə yorğun və yüklüsən?** Canına rahatlıq tapmaq istəyirsən? Əgər sən Məsihin sənin üçün ölüb və dirilməsi haqda Xoş Xəbərə inansan, Allah sənin günahlarını bağışlayacaqdır, səni saleh sayacaq və adını Həyat Kitabında yazacaqdır. Əgər sən bu Xoş Xəbərə inansan, Allah səni Özününkü kimi möhürləyəcəkdir və İsanın Ruhunu sənin qəlbinə göndərəcəkdir. Səndə yaşayan Müqəddəs Ruh sənin ürəyini, həyatını, yaşayış tərzini dəyişdirəcəkdir. Çünki Müqəddəs Yazılar deyir: *"Kim Məsihdədirsə, yeni yaradılışdır, köhnə şeylər keçib-getdi, təzə şeylər gəldi!"* (2 Korinflilərə 5:17)

Dost, harada olmağından, hansı vəziyyətdə kişi və ya qadın, yaşlı və ya gənc olmağından asılı olmayaraq **əgər Ona inansan** Rəbb İsa Məsih sənə yeni həyat verəcək O sənin üçün öldü ki, sən əbədiyyən Allahla yaşaya biləsən. **Sən bu Xoş Xəbərə inanırsan?**

Dinlədiyin üçün çox sağ ol....

Allah sənə xeyir-dua versin. Səni Allahın Xoş Xəbərinin xilas ümidini hər bir kəs üçün verən Allahın gözəl təminatı haqda danışan  Müqəddəs Yazılardan bu ayə ilə ilə tərk edirik. Müqəddəs Yazılar deyir:

***" Allah bizi əməllərimizə görə deyil, öz məqsədinə və lütfünə görə xilas edib müqəddəs olmağa çağırdı. Zaman başlamazdan əvvəl o lütf bizə Məsih İsada verilmişdi, indi isə Xilaskarımız Məsih İsanın zühuru ilə üzə çıxdı. O, ölümü yox etdi, Müjdə vasitəsilə həyatı və ölməzliyi aşkar etdi."*** (2 Timoteyə 1:9,10)

90-cı Dərs

# İnsanın Sualları; Allahın Cavabları

**1-ci Hissə**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Əziz dostlar, *Salehlik Yolu* proqramına sadiq olaraq qulaq asdığınız üçün sizə dərin minnətdarlığımızı bildiririk. Qoy Allah hər birinizə xeyir-dua versin və Onun təmin etdiyi saleh Xilas yolunu başa düşməkdə sizə yardımçı olsun.

Bu və sonrakı proqramda biz bir az başqa bir şey etmək istəyirik. Biz bu proqrama qulaq asan adamlarda yaranan sualları sizinlə bölüşmək istəyirik. Hər bir suala cavab vermək üçün biz Müqəddəs Yazılardan istifadə edəcəyik. Çünki Allahın Sözü qaranlığı nurlandıran yeganə işıqdır. Məzmurda yazıldığı kimi: *"Sözün addımıma çıraqdır, yollarıma işıqdır!"* (Məzmur 119:105)

1) Birinci sual budur: ***Salehlik Yolu*** **proqramını yaradanlar hansı dindəndirlər?**

Uzun illər əvvəl biz Allahın **həqiqətlərini** axtarmağı qərara almışdıq. Biz özümüz üçün tək olan Allahın Sözünü bilmək istəyirdik. Tövrat, Zəbur, Peyğəmbərlərin Kitabları və İncil daxil olan Müqəddəs Kitabı diqqətlə oxuduq. Biz dərk etdik ki, İsa Məsih bütün peyğəmbərlərin yazdıqları Xilaskardır. İsa Adəmin övladlarının günah borclarını silmək üçün Allahın verdiyi kamil və son qurbandır və Ona inanan hər bir kəs əbədiyyən Allahın hüzurunda yaşaya bilər. Allahdan gələn İsa Məsih bizi Allaha apara bilən yeganə Biridir. Biz bütün ümidimizi Ona bağlamışıq.

Bəs onda biz kimik? Biz **İsa Məsihin şagirdləriyik.** Quran bizi *"Ahl al-kitab"* yəni *Kitab Adamları* adlandırır. Digərləri bizi *Məsihşçilər* adlandırır. Məsihçi *Məsihin adamları* deməkdir. Məsihçilərik deməklə biz sizə xatırlatmaq istəyirik ki, çoxları özlərini Məsihçi adlandırırlar, lakin bu o demək deyil ki, onlar həqiqətən Məsihin adamlarıdırlar. Necə ki, **"Halva halva deməklə ağız şirin olmur."** Eləcə də hər hansı bir şəxs sadəcə Məsihçi ailəsində doğulmaqla, özünü Məsihçi adlandırmaqla yaxud Məsihçilərin etdiyi işləri görməklə Məsihçi olmur. Din ilə məşğul olmaq sənə Allah ilə ünsiyyət verə bilməz. Yalnız İsa Məsih səni Allaha gətirə bilər. Biz Məsihin öz Xilaskarımız, Rəbbimiz və Dostumuz olmasına görə necə də xeyir-dualıyıq! O bizə Allah ilə gözəl ünsiyyət və ölüm ilə üzləşməyə cəsarət veribdir. O hər gün bizə Öz sadiqliyini və sevgisini göstərir. Rəbb İsa Məsihdə Allah bizə əbədi həyat ilə bağlı hər bir şeyi veribdir! Bizim qəlbimizin ehtiyacı olan hər bir şeyə Onda malikik!

2) Sonrakı sual budur: Mə**ni nə isə narahat edir. Mən peyğəmbərimiz Məhəmmədin Quran kitabında bütün müsəlmanlara Müqəddəs Kitabda olan Tövrat və İncilə inanmağı əmr etdiyini oxumuşam. Mən Müqəddəs Kitaba hörmət edirəm və onu oxumağa başlamışam. Amma dostlarım mənə deyirlər ki, biz Müqəddəs Kitaba etibar edə bilmərik. Çünki o dəyişdirilmişdir. Onlar deyirlər ki, mənim**

**oxuduğum Müqəddəs Kitab əsl Müqəddəs Kitabdan fərqlidir. Sən bu haqda nə deyirsən?**

Bu suala cavab verməzdən əvvəl, peyğəmbərlərin köhnə kitabları "dəyişdirilib" deyənlərə bir neçə sualımız var. Müqəddəs Kitabın dəyişdirilməsi fikrinin mənbəyi nədir? Belə ciddi bir iddiyanın əsası nədir? Bizə söylə, Müqəddəs Kitab nə vaxt dəyişdirilib? Kim onu dəyişdirib? O harada dəyişdirilib? Hansı dəyişikliklər edilib? Kimsə Müqəddəs Kitabın dəyişdirilməsinə heç olmasa bir sübut göstərə bilər?

Əgər sən səmimi olaraq Müqəddəs Kitab haqda faktlar araşdırsan, kəşf edəcəksən ki, Allah Öz peyğəmbərləri vastiəsi ilə yazdığı Öz müqəddəs Sözünü qorumuşdur. Müqəddəs Kitabın dəyişdirilmiş olduğunu bəyan edənlər sadəcə olaraq şayiələrə inanırlar. Müqəddəs Kitabın dəyişdirilməsi haqda iddianı dəstəkləməyə heç bir sübut yoxdur. Lakin Müqəddəs Kitabın **dəyişdirilməməsi** haqda çoxlu sübutlar vardır.

Bu gün dünyanın ən böyük muzeylərində və universitetlərində elm adamları İncilin qədim nüsxələrini qoruyub saxlayıblar. Bu nüsxələrdən çoxu Məhəmmədin dövründən yüz illər əvvəl mövcud idi. Əgər siz həmin o nüsxələri əlinizdə olan indiki kitab ilə müqayisə etsəniz, siz Allahın bizim üçün Öz Sözünü necə ehtiyatla qoruyub saxladığını kəşf edəcəksiniz. Bizim bu gün oxuduğumuz Müqəddəs Kitab Məhəmməd peyğəmbərin dövründə olan Müqəddəs Kitab ilə eynidir.

Peyğəmbərlər heyvan dərinlərindən və ya bitki liflərindən düzəlmiş perqament kağızların üzərində yazmışlar. Yəhudi mirzələr Allahın Sözünü təzə kağızlara köçürüblər. Bu təlim almış mirzələr köçürülmüş nüsxələrin əsl əlyazmalar ilə eyni olması üçün həddindən çox diqqətli idilər. Onlar hətta kitabdakı hərflərin sayına belə diqqət yetirirdilər və bu surətin əsl ilə eyni olduğuna təminat verirdi. Əgər orada bir səhv tapılsaydı, onda bütün kağız məhv edilirdi! Bu Yəhudi mirzələr inanırdılar ki, Allahın Sözünə müdaxilə etmək, Allahın Özünə müdaxilə etmək idi! Bəlkə siz məşhur Ölü Dəniz nüsxələrinin 1974-cü ildə kəşf edildiyi haqda eşitmisiniz. Bilirdinmi ki, bu Əhdi-Ətiqin nüsxələrinin üzü İsa doğulmazdan yüz il əvvəl çıxardılmışdır? Bu qədim mətnlər min illər sonra üzü çıxardılmış mətnlərnən uyğun idilər! Müqəddəs Kitab dəyişdirilməyibdir!

Heç kim Müqəddəs Kitabı dəyişdirə bilməz. Əgər kimsə Müqəddəs Kitabı dəyişmək istəsəydi, onda o Müqəddəs Kitabın bütün nüsxələrini dəyişməli idi. Bu qeyri-mümkündür! Məsihin dövründə, elm adamları Müqəddəs Kitabı İbranı, Arami və Yunan dillərindən **bir çox başqa dillərə** tərcümə etməyə başladılar. Heç kim dünyadakı bütün Müqəddəs Kitabları dəyişdirə bilməzdi! Bu gün Müqəddəs Kitab hissələrlə və bütöv olaraq iki mindən çox dildə yazılıbdır. Allah Öz Müqəddəs Sözünü qoruyub saxlayıbdır və Onun xidmətçiləri onu dünyadakı müxətlif dillərə tərcümə edirlər. Çünki Allah istəyir ki, hamı onu eşitsin, başa düşsün və ürəklərinə qəbul etsin və xilas olsun.

Qüdrətli Rəbb Allah Öz Sözünü şeytandan və onu dəyişdirməyə çalışanlardan qorumağa qadir deyilmi? Bəli, O bunu qoruya bilər və qoruyubdur da! Allah qadirdir! Allah böyükdür! Əlbəttə biz bilirik ki, dünyanın yaranmasından bu günə qədər şeytan insanların fikirlərində Allahın Sözünü dəyişdirməyə çalışıbdır. Məsələn: Müqəddəs Kitabın birinci hissəsində biz Allahın Adəmə belə dediyini eşitdik: *"Bu ağacın meyvəsindən yediyin gün **öləcəksən**!"* Lakin Şeytan Allahın dediyini inkar etdi və Adəm və Həvvaya dedi: *"Sən **ölməyəcəksən**!"* Beləliklə Şeytan Allahın Sözünü dəyişdirməyə çalışırdı. Bilidiyin kimi, Adəm və Həvva Şeytana qulaq

asmağı seçdilər və qadağan olunmuş meyvədən yedilər. Nəticə etibarı ilə onların ruhları öldü və bədənləri də Allahın dediyi kimi ölməyə başladı.

Əziz dostlar, Allahın Sözü etibarlıdır. İblis aldadandır və hiyləgərdir. Şeytan insanları aldatmaq və Müqəddəs Kitabın dəyişdirilmiş olduğuna inandırmaq istəyir. Lakin Rəbb İsa Məsih deyir: *"Müqəddəs Yazı pozula **bilməz!**"*(Yəhya 10:35) *"Yer və göy keçib gedəcək, amma Mənim sözlərim **əsla** keçib getməyəcək!"* (Matta 24:35)

3) İndi isə üçüncü sual. **Nə üçün siz İsanı Allahın Oğlu adlandırırsız? Allah doğmur və Allah doğlumayıbdır. Buna görə də İsa necə Onun Oğlu ola bilər?**

Biz bu mühüm suala çox cavab vermişik, yenə də cavab verməyə şad olacağıq. Belə bir mühüm məsələyə məhəl qoymamaq ciddi bir səhvdir! Sual verilir, "Nə üçün siz İsanı Allahın Oğlu adlandırırsınız? Birinci, biz dinləyicilərimizə xatırlatmalıyıq ki, biz İsaya *"Allahın Oğlu"* titulunu verməmişik! Allahın Özü İsanı Öz **Oğlu** adlandırıbdır! İkincisi, "Allahın Oğlu" adı o demək deyil ki, Allah arvad aldı və oğlu oldu! Gördüyümüz kimi İsanın Müqəddəs Kitabda yüzlərlə adı və titulları vardır. Bu adlar bizə Onun kim olduğunu daha yaxşı başa düşməyə kömək edir. Məsələn, O ***"qapı"*** adlandırılır, lakin bu o demək deyil ki, İsa taxtadan yaxud dəmirdən bir qapıdır. O həmçinin ***"Həyat Çörəyi"*** adlandırılır. Lakin bu o demək deyil ki, İsa yediyimiz undan hazırlanan çörəkdir. Allahın peyğəmbərləri Məsihi ***"Allahın Quzusu"*** adlandırıblar, lakin bu o demək deyil ki, O qoyunun qıvrım tüklü balasıdır. Oxşar olaraq da, Allah İsanı Oğlum adlandıranda sən bilməlisən ki, bu o demək deyil ki, Allah arvad aldı və ondan övladı oldu! Bu küfrdür! Allah, mələklər və peyğəmbərlər Məsihi "Allahın Oğlu" adlandırırlar, çünki O Allahdan gəlmişdir. İsa bakirə qızdan doğulmuşdur. Onun yerdə atası yox idi. Doğulmazdan əvvəl O göylərdə idi. Çünki O *"Kəlimət Allahdır"* və bu Allahla başlanğıcda olan ***Söz*** deməkdir. Müqəddəs Yazılar bəyan edirlər:

*"Başlanğıcda Kəlam var idi. Kəlam Allahla birlikdə idi. Kəlam Allah idi. Kəlam bəşər olub, lütf və həqiqətlə dolu olaraq aramızda məskən saldı; biz də Onun ehtişamını – Atadan gələn vahid Oğulun ehtişamını gördük. ... Allahı heç kəs heç vaxt görməyib, amma Atanın qucağında olan və Allah olan vahid Oğul Onu tanıtdı!"* (Yəhya 1:1,14,18)

İsa Allahın Əbədi Oğlu, insan bədənindən gələn Allahın Sözüdür.

Allahın Sözü nədir? Bəlkə sən belə cavab verəcəksən ki, Allahın Sözü Allahın Öz peyğəmbərlərini yazmaq üçün ilhamlandırdığı Müqəddəs Yazılardır. Sən düzsən. Allahın peyğəmbərlərinin Yazıları bizim üçün Allahın bizə göndərdiyi məktublar kimidir. Lakin izn ver biz səndən digər şəhərdə yaşayan yaxın dostun haqqında soruşaq. Sən nəyə üstünlük verərsən: sənin dostun sənə sadəcə **bir neçə məktub** yazsın, yoxsa gəlib sənə **şəxsən** baş çəksin? Əlbəttə ki sən istəyərsən ki, o şəxsən gəlib sənə baş çəksin ki, onunla üzbəüz danışa biləsən. Oxşar olaraq da Allah böyük olduğuna görə, Onun üçün hər şeyin mümkün olduğuna görə, Özünü və iradəsinin nə olduğunu insanlara tanıtmaq istədiyinə görə səncə O sadəcə bizə məktublar göndərərdi, yoxsa Özü şəxsən bizə baş çəkərdi? Dostlar, peyğəmbərlərin elan etdikləri xoş xəbər budur ki, **Allah Özü günahlı bəşəriyyətə baş çəkəcəkdir!**

Incil kitabında biz kəşf etdik ki, Allah Öz Sözünü İnsan şəklində yerə göndərdi ki, O insanların arasında yaşasın və onları öz günahlarından xilas etsin. Göylərdən gəlmiş O İnsan İsa Məsihdir. İsa Allahın Oğlu adlanmağa layiqdir. Çünki O başlanğıcda Allah ilə olan Sözdür. İsa Allahın Əbədi Oğludur, Allahın kamil təmsilçisidir. Allahın xasiyyətini insanlara

göstərəndir. Biz tez-tez gənc adamlara deyirik, "O atası kimidir!" İsa ilədə belədir. İsa Allahın surətini daşıyır. Isanı tanımaq, Allahı tanımaqdır və Onun necə olduğunu bilməkdir. Müqəddəs Yazılar deyir:

***"Allah qədim zamanlarda dəfələrlə və müxtəlif yollarla əcdadlarımıza peyğəmbərlər vasitəsilə müraciət etmişdi. Amma bu axır zamanda O bizə Oğul vasitəsilə müraciət etdi****; Onu hər şeyin varisi təyin etmişdi və Onun vasitəsilə kainatı yaratmışdı. Oğul Allahın izzətinin əksi və mahiyyətinin tam surətidir. O hər şeyi qüdrətli kəlamı ilə saxlayır. O, günahlardan təmizlənməni təmin edəndən sonra ucalarda möhtəşəm Allahın sağında oturdu."* (İbranlilərə 1:1-3)

Son bir söz. Allah demir ki, sən İsanın nə üçün Allahın Oğlu adlandırıldığını **tamlıqla** başa düşməlisən. Sən ona **inanmalısan.** Yadda saxla ki, Məzmurda bunu yazmaq üçün Davudu ilhamlandıran Allahın Özüdür: *"**Oğulu** öpün ki, qəzəblənməsin, yoxsa tutduğunuz yolda məhv olarsınız. Çünki qəzəbi tezliklə alovlanar. Ona pənah gətirənlərin hamısı nə bəxtiyardır!"* (Məz. 2:12) Allah həm də İncil kitabında bunu yazmaq üçün həvari Yəhyanı ilhamlandırandır:

*"İsa şagirdlərinin gözü önündə bir çox başqa əlamətlər də göstərdi ki, bu kitabda yazılmayıb. Amma buradakılar onun üçün yazılıb ki, **siz İsanın Məsih – Allahın Oğlu olduğuna inanasınız və iman edərək Onun adı ilə həyata malik olasınız.*** (Yəhya 20:30,31) ***" Oğula iman edən şəxs əbədi həyata malikdir, Oğula itaət etməyənsə həyat görməyəcək, lakin Allahın qəzəbi onun üzərində qalır!"*** (Yəhya 3:36)

Dinlədiyiniz üçün çox sağ olun. Allahın iradəsi ilə gələn proqramda biz daha çox suallar və cavablar ilə davam edəcəyik ...

Müqəddəs Kitabdan olan bu bəyanat haqqında düşündükcə Allah sənə xeyir-dua versin:

***"Bütün bəşər ota bənzər, onun bütün gözəlliyi çöl çiçəyi kimidir. Ot quruyar, çiçək tökülər, amma Rəbbin sözü əbədi qalar."*** (1 Peter 1:24,25)

91-ci Dərs

# İnsanın Sualları; Allahın Cavabları

**2-ci Hissə**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Biz ötən proqramda bizə qulaq asan adamlarda yaranan sualları cavablandırmağa başladıq. Başlamazdan əvvəl sizə bir şey xatırlatmaq istəyirik. Bu suallara cavab verməklə biz öz biliyimizə və ya digərlərin biliyinə güvənmirik. Biz yalnız Allahın Sözünə güvənirik. Bizdə sizin suallara cavablar yoxdur, lakin Allahda cavablar var və onları Müqəddəs Yazılarda bizə veribdir. Müqəddəs Kitab deyir: *"Allahın kəlamı canlı və təsirlidir, hər ikiağızlı qılıncdan da itidir, canla ruhu, oynaqlarla iliyi bir-birindən ayıraraq keçir, ürəyin fikir və niyyətlərini ayırd edir."* (İbranilərə 4:12)

1) Bu günə olan birinci sualımız budur: **Siz bir proqramda demişdiz: "Pis olan şey Allahdan gələ bilməz." Mən bununla razılaşmıram. Çünki mən inanıram ki, Allah yaxşı olan şeyi yaratmazdan əvvəl birinci pis şeyi yaratmışdır.**

İzn verin bu suala Müqəddəs Kitabda olan digər bir sual ilə cavab verək. *"Bir bulağın eyni gözündən şirin və acı su çıxarmı?"* (Yaqub 3:11) Bulaqdan həm şirin həm də acı su çıxmadığı kimi, Allah da həm xeyirin həm də şərin mənbəsi deyildir. Müqəddəs Yazılar deyir:

*"Allah **nurdur** və Onda zərrə qədər də **qaranlıq yoxdur**!"* **(1 Yəhya 1:5)** *" Sınağa düşəndə qoy heç kim «Allah məni sınağa çəkir» deməsin. Çünki **Allah pisliklə sınağa çəkilmir və Özü də heç kimi sınağa çəkmir**. Lakin hər kəs öz ehtirası ilə aparılıb yoldan çıxarılaraq sınağa çəkilir... Ey sevimli qardaşlarım,aldanmayın. hər yaxşı bəxşiş və hər kamil hədiyyə yuxarıdan, Özündə heç bir dəyişiklik ya dönüklük kölgəsi olmayan nurlar Atasından gəlir. O Öz iradəsinə görə həqiqət kəlamı ilə doğulmamıza səbəb oldu ki, biz Onun yaratdıqlarının bir növ nübarı olaq."* (Yaqub 1:13,14,16-18)

Allahın peyğəmbəri Habaqquq yazmışdır: *"Əzəldən bəri var olan Sən deyilsənmi? ... Sənin gözlərin çox təmizdir, **şəri görən gözün yoxdur**."* (Habaqquq 1:12,13) Buna görə də əgər Allah şərə dözə bilmirsə, onda biz inanmamalıyıq ki, O pis şey yarada bilər. Allah mələklər yaratmışıdır. Lakin onlardan biri Allaha qarşı üsyan edərək iblis oldu. Allah Adəmi yaratdı. Lakin Adəm Allaha itaətsizlik etməyi seçərək günahkar oldu. Allahın Sözü bizə öyrədir ki, iblis və qeyri-saleh ürək şərin mənbəyidir, Allah və Onun Sözü isə xeyirin mənbəyidir.

2) Sonrakı sual budur: **Əgər Allah müqəddəs və mərhəmətlidirsə, onda nə üçün O kənarda dayanır və dünyadakı müharibələrə, qatilliklərə və pisliklərə baxır? O çətinlikdə olan insanlara kömək edə bilməz?**

Həqiqətən Allah Mərhəmət Rəbbidir və O darda olan adamlara nə etmək lazımdırsa **artıq edibdir!** O saleh Qurtarıcı olan İsa Məsihi göndərdi ki, dünyanın günahlarına görə Onun çarmıxda ölməsi ilə insanları Özü ilə və sonra bir-birləri ilə barışdırsın. Amma insanların öz

aralarında həqiqətən barışmaları üçün onlar birinci Allah ilə barışmalıdırlar. Onlar İsanın Allahın göndərdiyi Xilaskar olmasına inanmalıdırlar və Ona itaət etməlidirlər. Bizim Allah ilə münasibətlərimiz düz olanda, onda insanlar ilə də münasibətlərimiz düz olur. Yalnız o zaman həqiqi sülh olacaqdır. Hər şey bizim Allaha cavabımızdan asılıdır. Biz Allahın təmin etdiyi əlacı qəbul etməliyik. Yadda saxla ki, bu dünyanı şər əməllərinə görə mühakimə edəcəkdir. Allahın Sözü deyir ki, Rəbb İsa Məsih həqiqəti qəbul etməyəni və ona itaət etməyən hər bir kəsi mühakimə etmək üçün dövrün sonunda geri qayıdacaqdır. Rəbb İsa Allahın bütün düşmənlərini məhv etdikdən sonra bütün bəşəriyyəti yeniləşdirəcəkdir. Və o zaman Müqəddəs Yazılarda yazılan bu sözlər yerinə yetəcəkdir: *"**Daha lənətlənən heç bir şey olmayacaq**.... Artıq ölüm olmayacaq. Yas, nalə və ağrı bir daha olmayacaq. Çünki əvvəlki şeylər keçib getdi."* (Vəhy 22:3; 21:4)

3) Bu günün üçüncü sualı budur: **Məni nə isə narahat edir. Mən həmişə inanmışam ki, əgər günah işlətsəm, həmin günah mənə təsir edəcəkdir. Amma mənim uşaqlarıma təsir etməyəcəkdir, çünki onlar günah işlətməyiblər. Siz isə deyirsiniz ki, bizim ulubabamız Adəm Cənnət Bağında işlətdiyi günah onun bütün nəslinə yayılıbdır, və Allah onları cəzalandırmalıdır. Bu necə ola bilər?**

Atalar sözündə deyilir ki, **"Bir çörük qoz bir çuvalı bərbad edir."** Bu düzdür. Elə deyilmi? Biz hamımız razıyıq ki, əgər sənin övladın varsa və onu evində böyüdürsənsə, o valideynlərindən yaxşı və pis xasiyyət götürəcəkdir. O sənin danışıq tərzini, yaşamağını, düşünməni və işləri etmə yolunu əks etdirəcəkdir. Bizim hamımız Adəm və Həvvanın ailəsinə məxsusuq. Bizim hamımız Allahın əmrinə itaətsizlik edənlərin nəslindən törəmişik. Biz ulubabalarımız kimi deyilik ki? Aramızda kim deyə bilər ki, heç bir dəfə də olsun Allahın əmrinə itaətsizlik etməyibdir? Bizim hamımız təqsirliyik! Bis Allaha itaətsizlik etmək təbiəti ilə doğulmuşuq. Biz bu itaətsizlik təbiətini kimdən götürmüşük? **Adəmdən**. Dəhşətli bir xəstəlik kimi Adəmin günahı hamımıza keçibdir. Biz bunu istəsək də istəməsək də, bu belədir. Allahın Sözü belə deyərkən bunu dəqiqliklə elan edir: *"**Günah bir insan** vasitəsilə, **ölüm də günah vasitəsilə** bu dünyaya gəldi. Beləcə **ölüm bütün insanlara** yayıldı, çünki **hamı günah etdi**."* (Romalılara 5:12) *" Deməli, necə ki **bir təqsir** üzündən bütün adamlar məhkum olundu, eləcə də **bir saleh əmələ görə** bütün adamlara yaşamaq üçün salehlik verildi."* (Romalılara 5:18)

4) Sonrakı sual budur: **Müqəddəs Kitab nə üçün iki hissəyə Əhdi-Ətiq və Əhdi-Cədidə bölünübdür?**

Qisaca, peyğəmbərlərin Əhdi-Ətiqdə yəni Birinci Əhddə yazdıqları bütün şeylər Məsihin doğulmasından əvvəl idi. Əhdi-Cəddiddə, Yeni Əhddə yazılan bütün şeylər isə Məsihin doğuluşundan sonra yazılmışdılar. Beləliklə, Allahın peyğəmbərləri Birinci Əhddə yazmışdırlar: "Allah Məsih **göndərəcəkdir**!" Amma Yeni Əhdin müjdəsi isə budur ki, "Allah peyğəmbərlər vasitəsi ilə dediyi kimi Məsihi **göndərdi**!" Biz Allaha minnətdarıq ki, Müqəddəs Kitabın iki hissəsi yəni Birinci Əhd və Yeni Əhd hissəsi vardır. Çünki o iki hissəyə görə biz görə bilərik ki, Allah uzun illər əvvəl vəd etdiyini yerinə yetirdi! Allah Tövratda, Zəburda və peyğəmbərlərin digər kitablarında ulubabalarımıza vəd etdiyi kimi Xilaskar olan İsa Məsihi göndərdi. Çaylar dənizə axdığı kimi, peyğəmbərlərin Yazıları da öz tamlığını Məsihdə tapırlar.

5) Başqa bir sual: **Çoxları deyir ki, insan cənnətə yaxud cəhənnəmə düşəcəyini bilə bilməz. Təkcə Allah bilir. Lakin siz deyirsiniz ki, əgər bu gün siz ölsəniz cənnətə gedəcəksiniz. Siz nəyə əsasən belə cəsarətli iddianı edirsiniz?**

Gəlin bu suala başqa bir sual ilə cavab verək. **Allah Öz Sözünə qarşı çıxa bilər?** Allah Öz Sözünü saxlamaqda sadiqdir? Allahın Sözü deyir:

*"Onun barəsində bütün peyğəmbərlər şəhadət edir ki, **Ona iman edən hər kəsin günahı Onun adı ilə bağışlanır**."* (Həvarilərin İşləri 10:43) *" Bunları sizə – Allahın Oğlunun adına iman edənlərə yazdım ki, **əbədi həyata malik olduğunuzu biləsiniz.**"* (1Yəhya 5:13)

Allah Öz Sözündə deyəndə ki, siz əbədi həyata malik olduğunuzu biləsiniz, onda biz kimik ki, deyək ki, heç kim əbədiyyətini harada keçirəcəyini bilə bilməz? Bəli əziz dost, sən öləndən sonra hara gedəcəyini bilə bilərsən! Sual budur: Sən həqiqətən Rəbb İsa Məsihə və Onun kamil qurbanına inanırsan? Yoxsa sən öz "yaxşı əməllərinə" etibar edirsən? Yalnız Məsihə həqiqətən etibar edənlər deyə bilər, "Mən **bilirəm** ki, mənim əbədi həyatım var!"

6) Digər dinləyicinin sualı: **İsa elan etdi ki, Ondan sonra Vəsatətçi gələcəkdir. İsa kimin haqqında danışırdı?**

"Parakletos" yunan sözüdür və *vəsatətçi, köməkçi* yaxud *müdafiəçi* deməkdir. Müqəddəs Yazılarda *parakletos* sözü həm İsa üçün (bax 1Yəhya 2:1) həm də Müqəddəs Ruh üçün işlədilir. Biz İncildə oxuduğumuz kimi, Rəbb İsa göylərə dönməzdən əvvəl Öz şagirdlərinə belə vəd etdi:

*" Mən də Atadan xahiş edəcəyəm və O sizə **başqa bir Vəsatətçi** göndərəcək ki, **daim sizinlə olsun**. O, həqiqət Ruhudur. Onu dünya qəbul edə bilməz, çünki Onu nə görür, nə də tanıyır. Sizsə Onu tanıyırsınız, çünki sizinlə qalır və daxilinizdə olacaq..... **Vəsatətçi** – Atanın Mənim adımla göndərəcəyi **Müqəddəs Ruh** hər şeyi sizə öyrədəcək və söylədiyim bütün sözləri yadınıza salacaq.... O gələndə günah, salehlik və mühakimə barədə dünyanı ifşa edəcək: günah barədə, çünki Mənə iman etmirlər.... «Yerusəlimdən kənara çıxmayın, Atanın verdiyi, Məndən eşitdiyiniz vədin həyata keçməsini gözləyin. Belə ki Yəhya su ilə vəftiz edirdi, amma siz bir neçə gündən sonra **Müqəddəs Ruhla** vəftiz olacaqsınız."* (Yəhya 14:16,17,26; 16:8,9; Həvarilərin İşləri 1:4,5)

Rəbb İsa dedi ki, Vəsatətçi insan yox Ruh idi. Heç kimin görə bilmədiyi Allahın Müqəddəs Ruhu idi. İsa şagirdlərinə dedi ki, O göylərə qayıdandan sonra Allah Müqəddəs Ruhu göndərəcək ki, onların ürəklərində yaşasın. Bir neçə dərs əvvəl biz Əllinci Günü bayramı, İsanın göylərə qalxmasından on gün sonra nə baş verdiyini gördük.

Qısaca, Vəsatətçi Xoş Xəbəri qəbul edənlərin ürəklərində gəlib yaşayan Məsihin Ruhudur. Əgər sən səmimən inansan, Müqəddəs Ruh sənin ürəyini təmizləyəcək, yeniləşdirəcək, səni Allahın övladı kimi möhürləyəcək və əbədiyyən Allahın müqəddəs hüzurunda pay verəcəkdir. Müqəddəs Yazılar deyərkən bunu elan edir:

*"Həqiqət kəlamını, xilasınızın Müjdəsini eşidib Məsihə iman edən zaman **siz də vəd olunmuş Müqəddəs Ruhla Onda möhürləndiniz.** Müqəddəs Ruh Allaha məxsus olanların satın alınmasından ötrü irsimiz üçün qoyulan girovdur. Belə ki Allahın izzətini mədh edək."* (Efeslilərə 1:13,14)

Iman edən bizlər üçün Müqəddəs Ruh bizim köməkçimiz, qüvvətimiz, bələdçimiz, müəllimimiz və.s.-dir. O bizim üçün o qədər işlər görür ki, hətta saymaqla qurtarmaz. Onun kömək etmək üsullarından biri bizim dualarımızdadır. *Əzbər dualar* ilə *Allaha həqiqətən dua*

*etmə* arasında böyük fərq var! Müqəddəs Ruh bizə Allaha həqiqətən dualar etməkdə kömək edir. Yazıldığı kimi: *"Ruh da bizə zəif olarkən kömək edir. Biz nə üçün və necə dua etmək lazım olduğunu bilmirik, lakin Ruh Özü dillə deyilməyən ahlarla vəsatətçilik edir."* (Romalılara 8:26) İsa Məsihin Xoş Xəbərinə həqiqətən inananlarda bu səmavi Qonaq var. Müqəddəs Ruh onların daxillərində yaşayır. Müqəddəs Yazılar deyir: ***"Kimdə Məsihin Ruhu yoxdursa, o adam Məsihə məxsus deyil."*** (Romalılara 8:9)

> 7) Sonuncu sual: **Sizin təliminizdən mən belə başa düşürəm ki, əgər mən İsa Məsihi öz Xilaskarım kimi qəbul etsəm Cənnətə gedəcəyəm. Bu o deməkdir ki, istədiyim kimi yaşaya bilərəm, pis işlər edə bilərəm və eyni zamanda öləndən sonra Cənnətə düşə bilərəm? Müqəddək Kitab nə öyrədir?**

Müqəddəs Kitab Romalılara məktub, altıncı fəsildə bu suala açıq cavab verir, *"Bəs nə deyə bilərik? Günah işlətməyi davam etdirək ki, Allahın lütfü çoxalsın? Əsla! İndi ki biz günaha münasibətdə ölmüşük, artıq günah içində necə yaşaya bilərik?* (Romalılara 6:1,2) İsa Məsihin çarmıxdakı ölümü və məzardan dirilməsi xəbəri günahkarları yalnız **günahın cəzasından** yox, həm də **günahın hakimiyyətindən** xilas etmək üçün Allahın saleh planıdır! Əgər sən Xoş Xəbəri səmimi imanla ürəyinə qəbul etsən, Allahın Sözü öyrədir ki, iman etdiyin anda Allah səndə iki işi yerinə yetirəcəkdir:

Birinci, Allah, vəd etdiyi kimi sənin **günahlarını bağışlayacaqdır**.

İkinci, Allah Müqəddəs Ruhun qüdrəti ilə sənin **qəlbini yeniləşdirəcəkdir**. Onda sən salehliyi sevməyə və pisliyə nifrət etməyə başlayacaqsan. Çünki Allah sənin daxilində Öz müqəddəs təbiətini yerləşdirəcəkdir. Beləliklə Müqəddəs Yazılar vəd edir:

*"Kim Məsihdədirsə, yeni yaradılışdır, köhnə şeylər keçib-getdi, təzə şeylər gəldi!"* (2 Korinflilərə 5:17) *"O Özünü bizim üçün fəda etdi ki, bizi* ***hər cür qanunsuzluqdan*** *satın alsın,* ***təmizləyib*** *Özünə məxsus və yaxşı işlərə səy göstərən bir xalq yaratsın."* (Titus 2:14)

Kimsə Rəbb İsa Məsihə həqiqətən inansa, o daha pis işlər görməyəcəkdir. Çünki Allah onun daxilinə Öz Müqəddəs Ruhunu yerləşdirmişdir və *"Müqəddəs Ruhun səmərəsi isə budur: məhəbbət, sevinc, sülh, səbir, xeyirxahlıq, yaxşılıq, sədaqət, həlimlik, nəfsə hakim olmaq."* (Qalatiyalılara 5:22,23)

Allahın iradəsi ilə gələn proqramda biz Məsihin ardıcılının necə yaşaması haqda suallara baxacağıq. Allah sənə xeyir-dua versin. Səninlə Davudun Məzmurundan olan bu ayə ilə sağollaşırıq:

***"Allahın yolu kamildir, Rəbbin kəlamı safdır, Rəbb Ona sığınanların sipəridir!"*** (Məzmur 18:30)

92-ci Dərs

# Məsihin Şagirdi Necə Yaşamalıdır?

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə söz verdiyimiz kimi, bu gün biz İsa Məsihin ardıcılının Allahı razı salması üçün necə yaşamasına baxmağı nəzərdə tutmuşuq. Məsihin şagirdinin ürəyində olan iman onun düşüncəsi, danışması və bütün yaşam tərzində özünü göstərməlidir.

Məsihin ardıcılının necə yaşamasına baxmazdan əvvəl, gəlin, Məsihin həqiqi şagirdi edən şeyləri yenidən nəzərdən keçirdək. Gördüyümüz kimi Məsihin şagirdi ilk olaraq özünü Allahın qarşısında günahkar olduğunu və öz əməlləri ilə Cənnətə düşə bilmədiyini etiraf edəndir. İkincisi, o Allahın peyğəmbərləri vasitəsi ilə Allahın Adəmin övladlarının günahlarını bağışlaya bilər haqda elan edilən plana inanandır. Bu İsa Məsihin çarmıxda ölməsi idi. Allah günahsız Qurtarıcını bizim günahlarımıza görə ölümə təslim etdi və Onu diriltdi ki, bizi saleh saysın.

Qısaca, İsa Məsihin şagirdi İsa Məsihin Xoş Xəbərinə bütün ürəyi ilə inanan və Allahın Öz Sözündə vəd etdiyi kimi bütün günahlarının bağışlanmasını bilən şəxsdir. Allah belə imanlını Öz övladı kimi qəbul edir. İncildə yazılıb: *"Onu qəbul edənlərin hamısına, adına iman edənlərə Allahın övladları olmaq ixtiyarını verdi. Onlar .... kişi istəyindən deyil, yalnız Allahdan doğuldu."* (Yəhya 1:12,13) Əziz dost, Allah istəyir ki, sən biləsən ki, əgər sən Məsihə və Onun qurbanına imanla Allahın övladı olsan heç vaxt məhv olmayacaqsan və O sənə Cənnətdə əbədiyyən Özü ilə yaşamaq hüququ verəcəkdir!

Bəlkə kimsə belə deyərək mübahisə edəcəkdir: "Eh, əgər Cənnətə düşmək Məsihin şagirdi üçün belə asandırsa, onda o necə istəsə yaşaya bilər və mühakimədən qorxmadan istədiyi günahı edə bilər. Çünki artıq Allah onun bütün günahlarını bağışlayıbdır!" Dostlar, bu fikir cəfəngdir! Belə düşünənlər hələ günahın nə olduğunu bilmirlər, nə də Müqəddəs olan Allahı tanımırlar. Günah pis şeydir. İsa Məsih bizi günahın hakimiyyətindən xilas etmək üçün gəlmişdir, O bizi günahda yaşamağa davam etməkdə dəstəkləmək üçün gəlməmişdir! Məsihə inanan şəxs artıq günaha qul deyildir. Həqiqətən, yalnız iblisə məxsus olanlar günahdan həzz ala bilərlər. Allahın xilas etdiyi və bağışladığı şəxsin dəyişilmiş qəlbi var. Allah onun ürəyini yuyur və təmizləyir. Allah bunları kimə edibsə, o şəxs bu şeylərdən yan keçəcəkdir. Müqəddəs Yazılar deyir: *"Kim Məsihdədirsə, yeni yaradılışdır, köhnə şeylər keçib-getdi, təzə şeylər gəldi!"* (2 Korinflilərə 5:17)

Bizə söylə, əgər sən təmiz, ağ paltar geyinmisənsə onda kirli yerdə oturacaqsanmı? Yaxud çirkli yerə gedəcəksənmi? Xeyr, sən paltarına ləkə sala bilən hər bir şeydən uzaq qaçacaqsan. Bu Allahın günahlarını bağışladığı hər bir kəs ilə də eynidir. Sən daha Allahı razı salmayan şeylər etməyəcəksən. Sən Rəbbi razı salmaq **istəyəcəksən**. Əgər kimsə sənə böyük məbləğdə pul bağışlasa, sən bilərəkdən onu incidərsən? Xeyr, sən onu razı salan hər bir şeyi edəcəksən. Oxşar olaraq, əgər Rəbb Allah sənin böyük günah borcunu bağışlayıbsa və səni əbədi cəzadan xilas edibsə, sən Ona təşəkkür etməməlisənmi və düşüncələrində, sözlərində və həyatın boyu əməllərinlə hörmət etməməlisənmi?

Rəbb İsaya məxsus olanlar haqda İncildə deyilənlərə qulaq as:

(Titus 3:3-7) *Çünki bir zamanlar biz də ağılsız, itaətsiz, yolunu azmış, müxtəlif ehtiraslar və zövqlərə qul olan, kin, paxıllıq içində yaşayan mənfur və bir-birimizə nifrət edən adamlar idik. Amma Xilaskarımız Allah xeyirxahlığını və insana olan sevgisini açıq göstərdiyi zaman bizim salehliklə etdiyimiz əməllərlə deyil, Öz mərhəmətinə görə bizi xilas etdi. Bunu bizi yumaqla, yəni Müqəddəs Ruhun bizi yenidən doğuzdurub təzələməsi ilə etdi. Allah Xilaskarımız İsa Məsih vasitəsilə üzərimizə bol-bol Müqəddəs Ruhu tökdü ki, Onun lütfü ilə saleh sayılıb ümidimiz olan əbədi həyatın varisi olaq.*

(1 Peter 1:14-16) *İtaətkar uşaqlar kimi cahil ikən qapıldığınız əvvəlki ehtiraslara uymayın. Amma sizi çağıran Allah müqəddəs olduğuna uyğun olaraq siz də bütün həyat tərzinizdə müqəddəs olun, necə ki yazılıb:* ***«Müqəddəs olun, çünki Mən müqəddəsəm».***

Biz Məsihin ardıcılının həyatını necə cəmləşdirə bilərik? Bəlkə belə: Allah istəyir ki, Onun övladları Onun xasiyyətini yer üzündə öz hərəkətləri ilə göstərsinlər. Sadəcə olaraq, **Allah istəyir ki, Onun övladları Onun kimi olsunlar. B**əs onda Allah necədir? Müqəddəs Yazılardakı dərslərimizdə biz Allahın iki mühüm xasiyyətinin görmüşük. Müqəddəslik və Məhəbbət. Allah Müqəddəs Olandır. O həmçinin Məhəbbət Allahıdır. Bəs onda Ona məxsus olanlar üçün Onun iradəsi nədir? **O istəyir ki, biz də Onun kimi müqəddəs olaq və bir-birimizi Onun bizi sevdiyi kimi sevək.**

Müqəddəs və sevən ürək Allaha məxsus olanları, Allaha məxsus olmayanlardan fərqləndirən cəhətdir. Bu haqda Allahın Sözü deyir:

(1 Yəhya 3) *Kimin Allahın övladı, kiminsə iblisin övladı olması bundan aydın olur: saleh iş görməyən, həmçinin qardaşını sevməyən hər kəs Allahdan deyil.*

(Titus 2:11-14) *Allahın bütün insanlara xilas gətirən lütfü zühur etdi.* ***Bu lütf bizi allahsızlığı və dünyəvi ehtirasları rədd edib,*** *bu dövrdə ağıllı-kamallı, saleh və möminliyə uyğun bir ömür sürməyi öyrədir. Bu ərəfədə bəxtiyarlıq gətirən ümidimizin gerçəkləşməsini, ulu Allah və Xilaskarımız İsa Məsihin izzətinin zühurunu gözləyək. O Özünü bizim üçün fəda etdi ki,* ***bizi hər cür qanunsuzluqdan satın alsın, təmizləyib Özünə məxsus və yaxşı işlərə səy göstərən bir xalq yaratsın.***

(Efeslilərə 4:25-32) *Buna görə* ***yalanı kənara atın****, hər biriniz öz qonşunuza həqiqəti söyləyin, çünki hamımız eyni bədənin üzvləriyik. Qəzəblənərkən günah işlətməyin. Günəş batmazdan əvvəl qəzəbinizi soyudub iblisə yer verməyin. Oğurluq edən* ***artıq oğurluq etməsin****, əksinə, zəhmət çəkib öz əlləri ilə yaxşı əməl etsin ki,* ***ehtiyacı olanlarla bölüşdürməyə*** *bir şeyi olsun. Ağzınızdan heç bir pis söz çıxmasın, amma eşidənlərə xeyir versin deyə lazım olanda başqalarının inkişafına səbəb olan sözlər deyin.* ***Allahın Müqəddəs Ruhunu kədərləndirməyin.*** *Çünki satınalınma günü üçün o Ruhla möhürləndiniz.* ***Qoy hər cürə kinlə birlikdə acılıq****, hiddət, qəzəb, çığırtı, böhtançılıq büsbütün* ***sizdən uzaq olsun.*** *Amma bir-birinizə qarşı xeyirxah, rəhmli olun və Allah Məsihdə sizi bağışladığı kimi siz də bir-birinizi bağışlayın.*

(Efeslilərə 5:1-8) *Beləliklə, sevimli övladlar kimi Allahdan nümunə götürün. Məsih bizi necə sevdisə, Özünü bizim üçün Allahın xoşuna gələn ətirli təqdim və qurban olaraq fəda etdisə, siz də məhəbbətdə elə həyat sürün. Əxlaqsızlığın, hər cür murdarlığın və yaxud*

*tamahkarlığın adı belə, aranızda çəkilməsin, çünki bunlar müqəddəslərə yaraşmaz. Ədəbsizlik, boşboğazlıq və yaxud kobud zarafat da olmasın. Bunlar sizə yaramaz. Bunun əvəzində qoy şükür olsun. Əlbəttə, bilirsiniz ki, heç bir əxlaqsız, murdar yaxud bütpərəstə tay olan tamahkar adam Məsihin və Allahın Padşahlığında irsə malik olmayacaq. Qoy heç kim sizi boş sözlərlə aldatmasın. Bu şeylərə görə Allahın qəzəbi itaətsiz adamların üzərinə gəlir. Buna görə də onların şəriki olmayın. Siz də bir zamanlar zülmət, indi isə Rəbdə nursunuz. Ona görə də* ***nur övladları kimi həyat sürün.***

(1 Yəhya 4:7, 20-21) *Ey sevimlilər, bir-birimizi sevək, çünki məhəbbət Allahdandır. Sevən hər kəs də Allahdan doğulub və Allahı tanıyır. Kim «mən Allahı sevirəm» deyir, amma öz qardaşına nifrət edirsə, yalançıdır. Axı gördüyü qardaşını sevməyən görmədiyi Allahı sevə bilməz. Bizim Ondan aldığımız əmr budur ki,* ***Allahı sevən gərək öz qardaşını da sevsin.***

Müqəddəs Yazılar İsa Məsihin ardınca gedənlərin həyat tərzi haqqında bunları deyir. Bunların hamısı o deməkdir ki, Məsihin şagirdi daha günah işlədə bilməz? Yaxud qonşusunu **həmişə** özünü sevdiyi kimi sevir? Xeyr! O hələ də günah işlədir, lakin o daha günahın içində yaşamır. Günah işlədəndə, o Allahın Sözündəki vəddən istifadə edə bilər: (1 Yəhya 1:7-9) ..... *İsanın qanı bizi hər günahdan təmizləyir. Əgər günahsız olduğumuzu iddia ediriksə, özümüzü aldadırıq və daxilimizdə həqiqət yoxdur. Amma* ***günahlarımızı etiraf ediriksə,*** *Allah sadiq və ədalətli olduğu üçün günahlarımızı bağışlayacaq və bizi hər haqsızlıqdan təmizləyəcək.*

İsaya məxsus olmaq **din** deyil, bu **münasibətdir.** Kimsə Məsihə məxsus olanda, o **müqəddəs Allahın məhəbbəti ilə ünsiyyətə gətirilir.** Adəm və Həvvanın günaha görə Allah ilə itirdikləri həmin yaxın münasibət İsanın çarmıxda tökdüyü qan ilə bərpa edilir. Allaha daha bizim təqsirlərimizi xatırlatmayacaqdır. Çünki İsa bizim günah borcumuzu ödəmişdir. Məsih ilə ünsiyyətimiz vasitəsi ilə Allah bizim səmavi Atamızdır və biz Onun övladlarıyıq. Müqəddəs Yazılar deyir: *" Onun vasitəsilə bir Ruhda Atanın hüzuruna çıxa bilərik. Deməli, artıq yad və qərib deyilsiniz, siz müqəddəslərlə birgə vətəndaş və* ***Allah ailəsinin üzvüsünüz.*** *"* (Efeslilərə 2:18,19)

Məsihə aid olanlar Allah ilə yer üzündə yaxın ünsiyətdən həzz ala bilərlər və göylərdəki əbədi varisliyi səbirsizliklə gözləyə bilərlər. Amma kimsə soruşa bilər, Məsihin şagirdi Allah ilə yer üzündə olan ünsiyyətindən necə faydalana bilər? Biz Allah ilə ünsiyyətimizdə necə böyüyə bilərik? Bu haqda Müqəddəs Yazılar bizə Allahın iradəsinin nə olduğunu və Allahın övladları kimi Onu razı salan həyat tərzi sürməyimizi və Allahın biliyində böyüməyimiz üçün **dörd məsuliyyət** verir.

1) Məsihin şagirdinin birinci məsuliyyəti **Allahın Sözü ilə qidalanmaqdır,** yəni onun üzərində düşünmək və ona itaət etmək istəyi ilə onu qəlbinə qəbul etmək. Müqəddəs Yazılar Allahın iradəsini açır. Allah Müqəddəs Kitab vasitəsi ilə bizimlə danışır. Allahın Sözü bizim ruhumuzu qidalandıran və qüvvətləndirən əlacdır. Bu gözəl qidadır. Allahı həqiqətən sevən şəxs Allahın Sözünü oxumağa yaxud dinləməyə məcbur edilməməlidir. Çünki o, özü Allahın Sözünə, yeməyə acdığı kimi acacaqdır. Əyyub peyğəmbər deyib: *"Gündəlik çörəkdən çox ağzından çıxan sözləri qiymətləndirdim!"* (Əyyub 23:12)

2) İkinci məsuliyyət göylərdə olan Atamıza, **Allaha dua etməkdir.** Allah ilə olduğu ünsiyyətdə böyümək istəyən hər bir kəs, Onun ilə tez-tez danışmaq istəyəcəkdir. Çünki Məsihin şagirdi üçün dua, öz yaxın dostun ilə danışdığın kimi Allah ilə danışmaqdır. Dua etməmiz üçün xüsusi vaxt yoxdur. Biz səmavi Atamız ilə gündüz yaxud gecə nə vaxt istəsək

danışa bilərik! Elə bir an olmamalıdır ki, bizim düşüncələrimiz Allahdan uzaq olsun. O istəyir ki, biz davamlı olaraq Onun varlığına və bizim üçün etdiklərinə görə Onu həmd edək, təşəkkür edək. O həmçinin bizi dəvət edir ki, qayğılarımızı Ona deyək. Məsihin şagirdi bilir ki, dua güclüdür. Rəbb İsanın Özü şagirdlərinə vəd etmişdir: *" Mənim adımla Məndən bir şey diləsəniz, onu edəcəyəm."* (Yəhya 14:14) və: *"Heç nəyin qayğısını çəkməyin, amma hər barədə xahişlərinizi Allaha dualarla, yalvarışlarla, şükür edə-edə bildirin."* (Filiplilərə 4:6)

3) Üçüncü məsuliyyət Rəbb İsa Məsihə inanan və Onu sevən digər imanlılar ilə **ünsiyyətdir**. Necə ki, kömür odda daha çox qaldıqca daha isti olur, eləcə də bizim başqa imanlılar ilə ünsiyyətimiz bizə Məsih üçün yaşamaqda və digərlərini də belə etməyə ruhlandıracaqdır. Allahın Sözü deyir:

*"Bir-birimizi məhəbbətə və xeyirxah əməllər etmək üçün necə həvəsləndirmək haqqında fikirləşək. Bəzi adamların vərdiş etdiyi kimi birgə yığışmağımızı tərk etməyək. Lakin qiyamət gününün yaxınlaşdığını gördükcə bir-birimizi daha çox ruhlandıraq."* (İbranilərə 10:24,25)

4) Məsihin şagirdinin dördüncü məsuliyyəti **Onun şahidi** olmaqdır. İsanın göylərə qalxmazdan əvvəl şagirdlərinə dediyi sözlərə qulaq as: *"İsa onlara dedi: "Belə yazılıb: Məsih əzab çəkib üçüncü gün ölülər arasından dirilməlidir. ...bütün millətlərə günahların bağışlanması üçün tövbə Onun adı ilə vəz edilməlidir. Siz bu hadisələrin şahidisiniz."* (Luka 24:46-48) Bəli, Məsihin şagirdləri digərlərinə ona iman edən hər bir kəsə əbədiyyən Allah ilə gözəl ünsiyyətdə olmaq üçün ölən İsa Məsihin Xoş Xəbərini başa salaraq öz Xilaskarları haqda deməlidirlər. Əlbəttə, bizim şəhadətimiz yalnız sözlər ilə məhdudlaşmamalıdır. Lakin müqəddəs həyat və məhəbbət ilə müşaiyət olunmalıdır. Məsih bizim müjdəmizi qüvvətləndirmək və təsdiq etmək üçün bu dəyişikliyi bizim həyatlarımızda edibdir. Çünki Müqəddəs Yazılar deyir: *"Allahın Padşahlığı sözdən deyil, gücdən ibarətdir!"* (1 Korinflilərə 4:20)

Əziz dinləyici, həyatında elə bir an olubdurmu ki, sən Xilaskar İsa Məsihlə görüşmüsən O sənin günahlarını bağışlayıb və ürəyini yeniləşdiribdir? **Sənin həyatın müqəddəslik və Allahın sevgisi ilə doludur?** Sən Rəbb İsanın həqiqi şagirdisən?

Dinlədiyin üçün çox sağ ol....

Müqəddəs Yazılarda deyilən bu sözlər haqda düşündükcə, Allah sənə xeyir-dua versin:

***"Allah nurdur və Onda zərrə qədər də qaranlıq yoxdur. Əgər biz «Allahla şərikliyimiz var» dediyimiz halda qaranlıqda gəziriksə, demək, yalan danışırıq və həqiqətə əməl etmirik.*** (1 Yəhya 1:5.6)

93-cü Dərs

# Təkrar 1:
# Adəm: Günah Problemi

**Yaradılış 1-4, və.s**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Uzun müddətdir ki, biz artıq peyğəmbərlərin yazılarını öyrənirik. Biz gördük ki, günahlı insanların Allah qarşısında saleh olmaları üçün salehlik yolunu göstərən Allahın Sözünü yazmaq üçün Allah min beş yüz il ərzində qırxdan artıq kişini ilhamlandırmışdır. Biz kəşf etdik ki, Allahın bütün həqiqi peyğəmbərləri xilas yolu haqda bir fikri və eyni müjdəni bölüşmüşdülər. Onların yazdıqları öz düşüncələrindən deyil, Allahın Ruhundan gəlirdi. Allahın köməkliyi ilə bu gün və gələn üç dərsdə biz Müqəddəs Yazılarda oxuduqlarımızın hamısını təkrarlamağı və qısaltmağı nəzərdə tuturuq. Bizim bu günki dərsimiz: **"Günah Problemi"** adlanır.

Indi isə gəlin **Allahın Özünün qoyduğu təmələ**, Allahın Öz peyğəmbəri Musanın zehninə qoyduğu Tövrat kitabına, Allahın Sözünün birinci hissəsinə qayıdaq. Birinci ayəni xatırlaya bilərsən? Orada deyilir: ***"Başlanğıcda Allah göyləri və yeri yaratdı."*** Bu ayədə biz gördük ki, başlanğıcda kainat, mələklər və insanlar yaradılmazdan əvvəl **yalnız Allah mövcud idi.** Allah Əbədiyyətin Rəbbidir, Əbədi Ruhdur. Onun başlanğıcı və sonu yoxdur. O hər şeyi görən və hər şeyi bilən Külli-İxtiyardır.

Birinci fəsildə biz Allahın altı gündə göyləri, yeri, okeanları və onun içində olan bütün şeyləri necə yaratdığını oxuduq. Allah yeri yaratmağı nəzərində tutduğu insan üçün hazırlayırdı. Buna görə də altıncı gün Allah dedi,

*"Öz surətimizə və bənzərimizə görə insanı yaradaq. Qoy o, dənizdəki heyvanlara, göydəki quşlara, yerdəki heyvanlara, bütün yer üzünə və yerdə sürünən canlıların hamısına hökmranlıq etsin». Allah insanı Öz surətində yaratdı, Allahın surətində yaratdı..."* (Yaradılış 1:26,27)

İnsan, Allahın **yaratdığı bütün məxluqlar arasında ən mühümüdür**. Allah insanı Öz surətində yaradıbdır! Allah insan ilə dərin və gözəl ünsiyyətdə olmağı nəzərində tutmuşdur. Buna görə də kişinin və qadının daxilində Allahı tanımaq üçün **ruh** yerləşdirdi. Onlara Allahı sevə bilən ürək və **azad iradə** verdi ki, Allaha itaət etmək yaxud itaət etməməyi özləri seçsinlər.

İkinci fəsildə biz oxuduq ki, Allah ilk insan olan Adəmi gözə gözəl görünən və yemək üçün dadlı meyvələr gətirən ağaclarla dolu bağda yerləşdirdi. Biz həmçinin Allahın Adəmin qabırğasından götürərək ona qadını təqdim etdiyini də gördük. Adəm onu Həvva adlandırdı. Allah kişiyə və qadına xeyir-dua verdi və onlara lazım olan hər şeyi verdi. Amma bir şey var idi ki, Allah bunu onlardan istəyirdi. Allah Öz surətində yaratdığı bu iki adamdan nə istəyirdi? O istəyirdi ki, onlar Onu bütün düşüncələri, bütün ürəkləri, bütün varlıqları ilə sevsinlər və bununla da əbədiyyən Onunla dərin və gözəl münasibətə malik olsunlar. Nəticə etibarı ilə onların ürəklərində olanı göstərmək üçün biz Allahın onların qarşısına necə sınaq

qoyduğunu gördük. Allah Adəmə bu əmri verdi: *"Bağdakı bütün ağacların bəhrəsindən istəyəndə yeyə bilərsən. Ancaq xeyirlə şəri bilmə ağacının meyvəsindən yemə, çünki ondan yeyən gün* ***hökmən öləcəksən!"*** (Yaradılış 2:16,17) Beləliklə Allah Adəmə Allahın qanundan kənara çıxmağın ölüm**,** yəni **əbədiyyən Allahdan ayrı düşmə** olduğunu xəbərdarlıq edərək onu sınadı.

Üçüncü fəsildə, Müqəddəs Yazılar nəql edir ki, bir gün Şeytan ilan cildində Adəm və Həvvaya yaxınlaşdı. O qadına dedi:

*"Doğrudanmı, Allah sizə "bağda olan heç bir ağacın bəhrələrindən yeməyin" deyib?» Qadın ilana dedi: «Bağdakı ağacların bəhrələrindən yeyə bilərik. Amma bağın ortasındakı ağacın meyvələri barədə Allah deyib: "Ondan yeməyin və ona toxunmayın, yoxsa öləcəksiniz!"» İlan qadına dedi: «Yox, əsla ölməzsiniz. Əksinə, Allah bilir ki, o meyvələrdən yediyiniz gün gözləriniz açılacaq və xeyirlə şəri bilərək Allah kimi olacaqsınız."* (Yaradılış 3:1-5)

Allah Onun qadağan etdiyi ağacdan yeyəndə Adəm və Həvvaya nə baş verəcəyi haqda nə demişdir? "Sən **öləcəksən**!" Şeytan nə dedi? "Sən **ölməyəcəksən**!" Adəm və Həvva kimin sözlərinə qulaq asmağı seçdi? Onlar Allahın Sözünə qulaq asmağı seçdilər, yoxsa Şeytanın Sözlərinə? **Onlar Allahın düşməni olan şeytanın Sözlərinə qulaq asmağı seçdilər!**

Ondan sonra Allah nə etdi? O sadəcə oturdu və Adəm və Həvvaya tamaşa etdi? Xeyr. Allah onlara xəbərdarlıq etdiyi kimi etdi. Onları çağırdı, mühakimə etdi, onları və yeri lənətlədi, sonra isə onlar üçün yaratdığı gözəl bağdan kənara çıxartdı. Həmən kədərli gündə Adəm və Həvva öz qəlblərində öldülər. Onlar **Allahdan,** həyat mənbəyindən **aralı düşdülər.** İndi onları gözləyən yeganə şey fiziki ölüm və əbədi cəza idi. Çünki Allahın dediyi kimi günahın əvəzi əbədi ölümdür.

Həqiqətən, günah dəhşətli fəlakətdir. Adəm və onun bütün nəsli tək bir günaha görə Allahdan ayrı düşdülər! Günah QİDS xəstəliyi kimidir. Bildiyin kimi, QİDS elə bir xəstəlikdir ki, insanlar öz aralarında ona yoluxurlar. Bu dünyanı bürüyən fəlakətdir. QİDS virusu insanın bədəninə daxil olanda, onu heç vaxt tərk etməyəcəkdir. QİDS-i olan adamlar onu övladlarına keçirə bilərlər. QİDS məhvedicidir. O kimdə varsa o adamı məhv edir. Günah da belədir. Günah hər yerdədir, hamıdadır və insanların əbədiyyən məhv olmasına səbəb olur. Amma Allaha çox şükür olsun ki, günah xəstəliyi ilə QİDS xəstəliyi arasında fərq var. QİDS-in hələ əlacı tapılmayıbdır, lakin günahı olan adamlar üçün əlac var! Allahın Özü əlacı təmin etdi. Əgər biz ondan istifadə etsək, o bizi əbədiyyən günahdan təmizləyəcəkdir.

Sən Adəm və Həvvanın günah işlətdikləri gündə Allahın verdiyi **gözəl vədi** xatırlayırsan? Bəli, günahın dünyaya daxil olduğu gündə Allah dünyaya Adəmin övladlarını şeytanın və günahın məhvedivi hakimiyyətindən qurtarmaq üçün müqəddəs Satınalanı göndərəcəyini vəd etdi.

Beləliklə biz İncildə gördük ki, Allah yer üzünə Xilaskarı göndərəcəyini vəd edəndən min illər sonra, Allahın təyin etdiyi vaxt gəlib çatanda kamil saleh İnsan dünyaya doğuldu; Onun cismani atası yox idi; O bakirə qızdan doğulmuşdur. Onun adı İsa idi və bu *Xilas edən Allah* deməkdir. Bəli, İsa Məsih Allahın Adəm və Həvva günah işlətdikləri gündə vəd etdiyi müqəddəs Satınalan idi. O yeganə Xilaskardır.

Gəlin dünyaya günah daxil olan gündə nə baş verdiyini təkrarlamağa qayıdaq. Sən Adəm və Həvvanın xeyiri və şəri bilmə ağacından yeyəndən sonra onların nə etdiklərini xatırlaya bilərsən? Onlar öz eyiblərini örtməyə çalışaraq özlərini əncir yarpağına bürüdülər. Günah işlətməzdən əvvəl onlar lüt idilər amma utanmırdılar. Allah onların özləri üçün düzəltdikləri paltarları qəbul etdi? Xeyr! Allah nə üçün o paltarları qəbul etmədi? Onlara öyrətmək istəyirdi ki, insan Allah qarşısında öz günah eyibini örtmək üçün elə bir şeyin olmadığını bilsin! Amma Allah Adəm və Həvva üçün nə isə etdi. Biz gördük ki, qüsursuz heyvanları öldürdü və dərilərindən Adəm və Həvva üçün paltar düzəldərək onlara geyindirdi. Bu yolla Allah Adəm və Həvvaya öyrətdi ki, günahın əvəzi ölümdür! Allah yalnız heyvanları qurban etmədi, lakin Adəmə və onun nəslinə Satınalan yer üzünə gələnə qədər günahı örtmək üçün qüsursuz heyvanı qurban gətirməni əmr etdi.

Beləliklə Allah onlara açıq olaraq göstərdi ki, xilasa yalnız bir yol var: **qüsursuz qurban yolu.** Allahın qoyduğu salehlik yolu əmr edirdi ki, insan günahı örtmək üçün qüsursuz heyvan seçməlidir və onu qurban kimi kəsməlidir. Bu qurbanlar Adəmin nəslinin günah borcunu ödəmək üçün gəlib çarmıxda Öz qanını tökəcək müqəddəs Xilaskarı təsvir edirdi. Beləliklə o heyvan qurbanları vasitəsi ilə Allah günahkarların qarşısına gəlib günahı aradan qaldıran kamil qurban kimi öləcək İsa Məsihin illüstrasiyasını qoydu. Bu yolla Allah Özünün saleh olduğunu göstərdi, *"Özü ədalətli olsun, İsaya olan imana əsaslananı da saleh saysın."* (Romalılara 3:26)

Adəmin günah hekayəsi və Allahın Satınalanı göndərmə haqda gözəl vədi olan fəsildən sonra, biz Adəmin ilk iki övladı, Qabil və Habil haqda oxuduq. Biz gördük ki, Habil Allaha Onun əmr etdiyini kimi günahı örtən qüsursuz quzunu qurban kimi gətirdi. Qabil isə Allahın lənətlədiyi torpaqdan becərdiklərini gətirərək Allaha öz səyi ilə yaxınlaşmağa çalışdı. Beləliklə Müqəddəs Yazılar deyir: *"Rəbb Habili və onun təqdimini qəbul etdi, ancaq Qabili və onun təqdimini qəbul etmədi."* (Yaradılış 4:4,5) Allah Qabilin qurbanını nə üçün qəbul etmədi? Gördüyümüz kimi, Allahın qoyduğu salehlik yolu bəyan edirdi ki, ***"Qan axıdılmadan bağışlanma olmur."*** (İbranlilərı 9:22) Amma Qabil Allahın qoyduğu qurban yoluna məhəl qoymadı. Qabil özünü Allaha inanan kimi aparırdı, lakin onun əməlləri bunu inkar etdi. Çünki o Allahın tələb etdiyi qan qurbanını təqdim etmədi. Buna görə də Allah Qabili və onun qurbanını rədd etdi. Amma Allah Habilin qurbanını qəbul etdi, onun günahlarını bağışladı. Çünki Habil Allahın Sözünə inanırdı və Ona quzunun qanını gətirdi.

Habil, Allahın günahlara görə Öz qanını tökən İsa Məsihə imanlarına görə saleh saydıqlarını illüstrasiya edir. Qabil isə Allahın göylərdən göndərdiyi Qurtarıcının qurbanını qəbul etməyənləri, öz səyləri ilə Allah qarşısında saleh olmağa çalışanları illüstrasiya edir. Bu günə qədər bu iki yol var: Habilin yolu və Qabilin yolu. Sən hansı yola gedirsən? Sən Allahın göndərdiyi müqəddəs Məsihin qurbanına əsaslanan salehik yolunu, Habilin yolunu qəbul etmisən? Yoxsa hələ də insan əməllərinə əsaslanan, dinin tələbləri olan qeyri-salehlik yolu, Qabilin yolu ilə gedirsən?

Əziz dinləyici, xahiş edirəm, unutmayasan ki, Allah salehdir və günaha baxa bilmir! Allah Adəm və Həvvaya, Qabil və Habilə və onların bütün nəsillərinə deyə bilməzdi: "Mən bilirəm sən günah işlətdin, amma eybi yoxdur! Burda elə bir şey yoxdur. Mən sadəcə sənin günah işlətməyini unudacağam!" Allah günahı belə bağışlaya bilərdi? Heç vaxt! Əgər Allah belə etsəydi, onda günahkar Allahın müqəddəsliyini necə dərk edərdi? Allah ədalətli Hakimdir və günahı cəzalandırmalıdır. Günahın əvəzi ölümdür! Buna görə də müqəddəs Xilaskar günahlara görə ölməli idi. O çarmıxda öləndə, mənim və sizin günahlarınızın cəzasını ödədi.

İncil kitabında Allahın qoyduğu salehlik yolu haqda yazılanlara qulaq as. Müqəddəs Yazılar deyir:

*"Beləcə ölüm bütün insanlara yayıldı, çünki hamı günah etdi."* (Romalılara 5:12) *" Heç kəsə fərq qoyulmur.Çünki hamı günah edib, Allahın izzətindən məhrum olub və Onun lütfü ilə də Məsih İsada satın alınmağa nail olaraq bir hədiyyə kimi saleh sayılır. Allah İsanı kəffarə qurbanı olaraq təqdim etdi ki, iman edənlərin günahları Onun qanı vasitəsilə bağışlansın. Bunu Öz salehliyini göstərmək üçün etdi. Çünki səbirli olub qabaqca edilən günahları cəzasız qoymuşdu. Bunu etdi ki, indiki zamanda salehliyini zahir etsin; beləcə Özü ədalətli olsun, İsaya olan imana əsaslananı da saleh saysın."* (Romalılara 3:22-26) *"Çünki günahın əvəzi ölümdür, Allahın ənamı isə Rəbbimiz Məsih İsada olan əbədi həyatdır."* (Romalılara 6:23)

Dinlədiyiniz üçün çox sağ olun. Allahın iraadəsi ilə gələn proqramda biz peyğəmbərlərin xəbərini təkrar edəcəyik və Allahın dünyaya Xilaskar göndərəcəyi haqda gözəl planının hissəsi olan İbrahimi necə çağırdığını yada salacağıq....

Həyatını dəyişdirə bilən Allahın Sözündə olan ayə üzərində düşündükcə, Allah sənə xeyir-dua versin:

***"Günahın əvəzi ölümdür, Allahın ənamı isə Rəbbimiz Məsih İsada olan əbədi həyatdır."*** (Romalılara 6:23)

94-cü Dərs

# Təkrar 2:
# İbrahim: İmanla Saleh

**Yaradılış 6-22, və.s**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Bu gün biz Allahın peyğəmbərlərinin xəbərlərini təkrarlayacağıq. Peyğəmbərlərin xəbəri hekayədir....**Allahın Hekayəsi**...günahda itmiş Adəmin övladlarını axtarmaq və xilas etmək üçün Allahın gözəl hekayəsidir. Qısaca, Allahın peyğəmbərlərinin xəbəri qeyri-saleh adamın Allah qarşısında necə saleh olması haqda Xoş Xəbərdir. Bizim bu günki təkrar dərsimizin adı: **"İmanla Saleh"** adlanır.

Hər bir hekayə kimi, Allahın kitabında olan hekayənin də başlanğıcı və sonu var. Ötən dərsimizdə biz ilk insan olan Adəmin Allahın düşməni Şeytanın ardınca getməsini seçdiyi haqda hekayənin başlanğıcını təkrarladıq. Adəmin bir günahı, onun bütün nəslinin günahda doğulmasına və onları cəhənnəmə aparmasına səbəb oldu. Bəzilər belə deyərək inkar etməyə çalışırlar: "Adəmin günahı onun öz problemi idi! Onun bizə təsiri yoxdur!" Amma belə deyənlər Peyğəmbərlərin Yazılarının bu cür bəyan etdiyinə məhəl qoymurlar: *"**Günah bir insan vasitəsilə**, ölüm də günah vasitəsilə bu dünyaya gəldi. Beləcə ölüm bütün insanlara yayıldı, çünki hamı günah etdi."* (Romalılara 5:12)

**"Bir çürük qoz bir çuvalı bərbad edir."** Buna oxşar olaraq, Adəmin günahının lənəti də onda qalmadı, lakin keçici xəstəlik kimi hamımıza yayıldı. Adəmin günahı hamının günahlı təbiətdə doğulmasının səbəbidir. "Ot öz kökü üstə bitər." Bənzər olaraq da, bizim hamımız ulubabamız Adəmdən bu təbiəti almışıq. Bir şey dəqiqdir ki, bizdə olan günahlı təbiət Allahın bizim üçün əlac təmin etdiyinə qədər, bizi əbədiyyən mühakimə edəcəkdir. Xoş xəbər budur ki, Rəbb Allah bizim üçün əlac təmin edibdir. Tövratda oxuduğumuz kimi Adəm və Həvva günah işlətdikləri gün Allah Öz mərhəmətində vəd etdi. O yer üzünə bakirə qızdan doğulacaq saleh Satınalanı göndərəcəyini vəd etdi. Bu Xilaskar Adəmin övladlarının günah borclarını ödəmək üçün qurban kimi Öz qanını tökəcəkdir.

İncildəki dərslərimizdə biz gördük ki, Allahın müəyyən etdiyi vaxtda O Vəd Etdiyini göndərdi. Allahın vəd etdiyi bu Xilaskar kimdir? O kamil saleh Olan, İsa Məsihdir. Allahın Sözünün günah işlədən Adəm ilə günah işlətməyən Məsihi necə fərqləndirdiyinə qulaq as. Müqəddəs Yazılar deyir:

*"Əgər bir adamın təqsiri üzündən **ölüm** həmin adamın vasitəsilə hökmranlıq etdisə, Allahın bol lütfünü və salehlik ənamını qəbul edənlər bir Adam, yəni İsa Məsih vasitəsilə daha qəti olaraq **həyatda** hökmranlıq edəcək.*
*Deməli, necə ki bir təqsir üzündən **bütün adamlar məhkum olundu**, eləcə də bir saleh əmələ görə **bütün adamlara yaşamaq üçün salehlik verildi.** Necə ki bir adamın itaətsizliyi üzündən bir çoxları **günahkar sayıldı,** eləcə də bir Adamın itaəti sayəsində bir çoxları **saleh sayılacaq**."* (Romalılara 5:17-19)

Bu **Adəmdə olanlar** və **İsa Məsihdə olanlar** barədə Müqəddəs Yazıların dedikləridir.

Bizim hamımız Adəmin bənzəyişində doğulmuşuq. Amma Allah Adəmin övladlarını öz ürəklərində yenidən doğulmağa çağırır. Adəm bənzəyişini kənara atıb, Məsih bənzəyişini götürməyə çağırır! Bu necə ola bilər? Bu yalnız imanla ola bilər! Müqəddəs Yazılar deyir ki, əgər sən ürəyində Rəbb İsa Məsihin sənin günahlarını ödədəyinə inansan, Allah sənin ürəyini təmizləməklə, Öz Müqəddəs Ruhunun qüdrəti ilə sənin yenidən doğulmana səbəb olacaqdır. Sən Məsihdə yeni məxluq olacaqsan; artıq özün üçün yox, sənin üçün Ölən və dirilən üçün yaşayacaqsan.

Indi isə gəlin Tövrat kitabına qayıdaq və Allahın dünyaya Satınalan göndərmək planı ilə necə hərəkət etdiyini xatırlayaraq təkrarlayaq. Bizim dərslərimizdə Adəmin iki oğlunu, Qabili və Habili gördük. Habil Allahın qurban kimi gələcək və Öz qanını tökəcək Satınalan barədə vədinə inanırdı. Qabil isə buna inanmırdı. Allah Qabili çağırdı ki, hesabat versin ki, tövbə etsin. Lakin Qabil qəzəbləndi və kiçik qardaşı Habili öldürdü.

Bundan sonra biz gördük ki, Adəmin övladlarının əksəriyyəti günahdan zövq alaraq Qabilin izi ilə getdi və bu səbəbə görə biz Nuhun dövrünə gəlib çatanda Müqəddəs Yazılar deyir: *"Rəbb gördü ki, yer üzündəki insanların şər əməlləri çoxdur və hər zaman* ***onların ürəyindəki fikirlər və niyyətlər pisliyə doğru yönəlir****."* (Yaradılış 6:5) Biz Allahın Adəmin övladlarını daşqınla necə məhv etməyi nəzərində tutduğunu gördük. Həmin o pozulmuş bir dövrdə, Nuh Allahın vədlərinə inanan yeganə adam idi. Nəticə etibarı ilə Allah Nuha əmr etdi ki, onun ailəsi və bir çox heyvanlar üçün sığınacaq olan gəmi tiksin. Yüz illərlə Allah Nuh gəmini tikdikcə günahkarlara səbr etdi. Buna baxmayaraq Nuhdan və onun ailəsindən başqa heç kim tövbə etmədi və Allahın Sözünə inanmadı. Beləliklə sonda Öz Sözünə sadiq olan Allah vəd etdiyi kimi etdi. Onun təmin etdiyi gəmiyə daxil olmaq istəməyən hər bir kəsi su ilə yer üzündən sildi.

Bundan sonra biz gördük ki, Nuhun nəsli sonradan Allahın Sözünü unutdu. Çünki onlar da Adəmin övladları idilər və təbiətən günahkar idilər. Sonra biz Babil qülləsi haqda və insanların necə dünyadakı bütün insanları bir yerə toplayaraq, böyük bir şəhər və hündür bir qüllə tikərək Allaha qarşı necə üsyan etmələri haqda oxuduq. Amma Allah onların dillərini qarışdıraraq onları məhkum etdi və yer üzünə səpələdi.

Sonra, biz İbrahimin gözəl hekayəsinə gəldik. Həqiqətən, Adəmin övladlarını günahın hakimiyyətindən xilas etmək üçün Allahın planında İbrahimin çox mühüm yeri var idi. İbrahimin atası bütpərəst idi və İbrahimin özü də Adəmin bütün nəsli kimi günahkar idi. Amma biz gördük ki, Öz gözəl planında, Allah İbrahimə göründü və ona atasının evindən və ölkəsindən çıxmağı buyurdu. Allah İbrahimdən yeni millət yaratmağı nəzərində tutmuşdur ki, onun vasitəsi ilə də Xilaskar dünyaya gələcəkdir. Biz Tövratda, Yaradılış kitabı 12-ci fəsildə bunu oxuyuruq, Allah İbrahimi çağıraraq dedi:

*"Öz torpağından, qohumlarının arasından, ata evindən çıx, sənə göstərəcəyim torpağa get. Səndən böyük bir millət törədəcəyəm, sənə xeyir-dua verəcəyəm, adını ucaldacağam və bərəkət qaynağı olacaqsan. Sənə xeyir-dua verənlərə xeyir-dua verəcəyəm, sənə lənət edənləri lənətləyəcəyəm.* ***Yer üzünün bütün tayfaları sənin vasitənlə xeyir-dua alacaq."***
(Yaradılış 12:1-3)

Nə üçün Allah İbrahimə əmr etdi ki, bağqa ölkəyə köçsün? Allah ondan yeni millət yaratmaq istəyirdi. Allah İbrahimdən nə üçün yeni millət yaratmaq istəyirdi? O millət vasitəsi ilə Allah Müqəddəs Yazıları yazan peyğəmbərləri çıxardacaqdır. Və həmin o millət vasitəsi ilə Allah

dünyaya Satınalanı göndərməyi məqsədində tutmuşdur. Buna görə də Allah İbrahimə dedi: *"Sənə xeyir-dua verəcəyəm......və yer üzünün bütün tayfaları sənin və nəslinin vasitəsilə xeyir-dua alacaq."*

**Allah İbrahimə verdiyi vədi yerinə yetirdi?** Bəli, yerinə yetirdi! İbrahimin 100 yaşı və onun arvadı Saranın 90 yaşı olanda Allah onlara vəd etdiyi kimi İshaq adlı oğul verdi. İshaqın Yaqub adlı oğlu oldu və onun da İsrail xalqını yaradan on iki oğlu oldu. Müqəddəs Yazıları bilənlər bilirlər ki, İsrail xalqı vasitəsi ilə Satınalan gəldi. Çünki İsanın anası Məryəm və Yusif İbrahimin nəslindən idilər. Beləliklə İncildəki birinci ayə deyir: *"Davudun Oğlu, **İbrahimin də Oğlu** olan İsa Məsihin nəsil şəcərəsi."* (Matta 1:1) Cismani görünüşü haqda İsa Məsih İbrahimin, İshaqın və Yaqubun nəslindən idi. Amma Müqəddəs ruhuna görə isə O Allah-Taalanın Oğlu, yer üzündə doğulmaq üçün göylərdən gəlmiş Allahın Sözü idi.

Gəlin İbrahimin hekayəsinə qayıdaq, çünki onun haqqında yadda saxlamalı mühüm bir şey var. Biz gördük ki, İbrahim də Adəmin bütün övladları kimi günahda doğulmuşdu. Amma Müqəddəs Yazılar deyir ki, bu gün İbrahim göylərdədir, Müqəddəs Olanın hüzurundadır və əbədiyyən orada olacaqdır! Indi biz soruşuruq: İbrahim Allahın onun günahlarını bağışlaması üçün, onu saleh sayması və göylərə qəbul etməsi üçün nə etdi? Müqəddəs Yazılar bu haqda nə deyir? Orda deyilir: *"İbram Rəbbə iman etdi və Rəbb bunu ona **salehlik** saydı."* (Yaradılış 15:6)

İbrahim Allaha və Onun ona dediklərinə inandı. Buna görə də Allah onu saleh saydı. Bu gün bizi dinləyən, sən Allahın Sözünə İbrahim inandığı kimi inanırsan? Biz səndən soruşmuruq ki, sən Allahın varlığına inanırsan, yaxud Onun Təkliniyinə inanırsan? İblisin özü də bilir ki, Allah var! Allahın istədiyi budur ki, sən Onun qoyduğu xilas yolu haqda dediklərinə İbrahim inandığı kimi inanasan! İbrahim bizə nəyə inanmalı olduğumuzu dedi. Sən İbrahimin dağda öz oğlunun yerinə qoyun qurban təqdim edərkən elan etdiyini xatırlayırsan? O dedi ki, *"Yandırma qurbanı olacaq quzunu Allah Özü hazırlayacaq."* (Yaradılış 22:8) və o qoyunu kəsəndən sonra dağın adını *Yahve-İre* adlandırdı və bu *Rəbb dağında hazırlanacaq* deməkdir. (Yaradılış 22:14) Nə üçün Allahın artıq qurbanlıq qoyun hazırladığı vaxtda o dağı *"Rəbb hazırlan**acaq**"* adlandırdı? İbrahim bir peyğəmbər kimi gələcəkdə baş verəcək şeyi elan edirdi. İbrahim, *"Rəbb hazırlanacaq"* deyəndə, o onun oğlunun yerinə qoyunun əvəz olunduğu dağda nəyin baş vercəyini qabaqcadan deyirdi. O, Ona inanan hər bir kəsin Allahın adil hökmündən xilas etmək üçün Satınalanın həmin dağda öz qanını tökəcəyi günə baxırdı.

İncildən öyrəndik ki, İsa Məsihi İbrahimin dövründən təxminən iki min il sonra İbrahimin peyğəmbərliyini yerinə yetirmək üçün yer üzünə gəldi. Bəli, Yerusəlimdən kənarda, İbrahimin öz oğlunun yerinə qoyunu qurban etdiyi yerdə, Xilaskar İsa Adəmin övladlarını xilas etmək üçün Öz qanını tökdü. Buna görə də, onlar İsanı çarmıxa mismarlayandan sonra, O ölməzdən əvvəl yüksək səslə qışqırdı: ***"Tamam oldu!"*** İsa nə üçün dedi, "Tamam oldu"? O bunu ona görə dedi ki, Onun çarmıxdakı ölümü Allahın uzun illər əvvəl Öz peyğəmbərləri vasitəsi ilə elan etdiyi xilas planını tamamladı**. İsanın ölümü İbrahimin qurbanını və bütün heyvan qurbanlarının rəmzini tamamladı və yerinə yetirdi!**

Bu gün bizi dinləyən, sən inanırsan ki, İsa Məsih Allahın göylərdən göndərdiyi kamil və son qurbanlıq "qoyundur"? Səndə İbrahimdə olan iman var? İncil kitabında İbrahimin imanı haqda deyilənə qulaq as:

(Romalılara 4:1-4, 22-25) *Bəs onda cismani əcdadımız İbrahim haqqında nə deyə bilərik? O nə əldə etdi? Əgər İbrahim öz əməlləri ilə saleh sayılsaydı, öyünməyə haqqı olardı,*

*amma Allahın önündə yox.  Müqəddəs Yazı nə deyir?*  ***«İbrahim Allaha iman etdi və bu ona salehlik sayıldı»....*** *Buna görə də imanı ona salehlik sayıldı.  «Salehlik sayıldı»* ***sözləri yalnız İbrahim üçün yazılmayıb;*** *Rəbbimiz İsanı ölülər arasından Dirildənə iman etməklə saleh sayılacaq* ***bizlər üçün də belə yazılmışdır****.  İsa bizim* ***təqsirlərimizə görə*** *ölümə təslim edildi və bizim* ***saleh sayılmağımız üçün*** *dirildi.*

Dinlədiyiniz üçün çox sağ olun. Ümid edirik ki, gələn proqramda da bizə qoşulacaqsınız. Allahın iradəsi ilə biz peyğəmbərlərin xəbərini təkrar etməyi davam edəcəyik və dünyaya Xilaskarın gəlməsini hazırlamaq üçün Allahın seçdiyi digər böyük peyğəmbərə baxacağıq. O Musa peyğəmbərdir....

Qoy Allah sizə xeyir-dua və Müqəddəs Yazıların bəyan etdiyinu başa düşmək üçün aydın qavrama versin:

***"İbrahim Allaha iman etdi və bu ona salehlik sayıldı."*** (Romalılara 4:4)

95-ci Dərs

# Təkrar 3:
# Musa: Allahın Müqəddəs Qanunu

**Çıxış 1-20, və.s**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Bu gün biz peyğəmbərlərin xəbərini, günahkar insanların Allah qarşısında necə saleh ola biləcəkləri haqda Xoş Xəbəri təkrarlamağı nəzərdə tutmuşuq. Biz hələ də Tövrat kitabını, Allahın Öz peyğəmbəri olan Musanın zehninə qoyduğu kitabı təkrarlayırıq. Gördüyümüz kimi Musanın Tövratı həqiqəti bilmək istəyənlər üçün çox dəyərlidir; bu eşitdiyimiz hər bir şeyin Allahdan olub olmadığını aydınlaşdırmaq üçün Allahın qoyduğu təməldir.

Tövratın başlanğıcında biz ulubabamız Adəmi gördük. Onun günahı Rəbb Allahın əvvəlcədən xəbərdarlıq etdiyi kimi keçici xəstəlik kimi kədər, ölüm və əbədi cəza gətirərək onun bütün nəslinə yayıldı. Lakin biz Müqəddəs Yazıların belə dediyinə görə Allaha təşəkkür edirik: *"Günah çoxalan yerdə Allahın lütfü daha da çoxaldı."* (Romalılara 5:20) Bəli, Adəm və Həvvanın günah işlətdikləri gün, Öz mərhəmətində Allahın Adəmin övladlarını günahın gətirdiyi lənətdən xilas etmək üçün bir gün dünyaya Satınalanı göndərəcəyini vəd etdi.

Ötən dəfəki təkrar dərsimizdə biz Allahın İbrahimə ondan peyğəmbərlərin və Satınalanın çıxacağı yeni bir milləti yaradacağını vəd edərək onu çağırdığını gördük. Beləliklə İbrahimin oğlu İshaq oldu, onun oğlu Yaqub oldu, onun da on iki oğlu oldu və onlardan İsrailin on iki qəbiləsi yarandı.

Indi isə gəlin təkrarlayaq və görək İbrahimin nəsli olan İsraillilərdən Allah necə istifadə etdi. Rəbb Allahın necə olmasını və günahkarların Onun adil hökmündən necə qurtulmalarını İsraillilərin vasitəsi ilə bəşəriyyətə öyrətdi. Bizim bu günkü dərsizim **"Allahın Müqəddəs Qanunu"** adlanır.

Tövratdakı dərslərimizdə biz Allahın uzun illər əvvəl İbrahimə bildirdiyi kimi, İsrail övladlarına Misir torpağında dörd yüz il qul olmağa izn verdiyini gördük. Allahın təyin etdiyi vaxt gəlib çatanda, O İsraillilər üçün Musanı göndərdi. Musa Misirin zalım padşahı olan Fironun evində böyümüş İsrailli idi.

Allah Musanı Firona göndərdi ki, desin: "Rəbb Allah deyir: **"Xalqımı burax** getsin və mənə ibadət etsin!" Lakin o imtina etdi və "Rəbb kimdir? mən heç vaxt İsrailliləri buraxmayacağam!" deyə lağa qoydu. Beləliklə Allah Öz qüdrətini və izzətini Firona və Misirlilərə 9 bəlanın İsraillilərdən başqa bütün insanların üzərinə gəlməsi vasitəsi ilə göstərdi. Amma Allahın Firon qarşısında etdiyi əlamətlər və möcüzələr onun tövbə etməsinə və Musanın sözlərinə itaət etməsinə səbəb olmadı. Allah Musaya dedi: "Mən Firona və Misirə başqa bir bəla da gətirəcəyəm.Ondan sonra o sizi buraxacaqdır!" Sən o bəlanı xatırlayırsan? Bəli, o hər bir evdə **ilk doğulan körpənin ölümü** idi.

Beləliklə, biz Allahın Fironun və Misirin evlərində ilk doğulanların ölümünü gördük. Amma O İsraillilərin ilk doğulanlarını xilas etdi. Çünki onlar Allahın əmrinə itaət edərək evlərinin qapılarına **quzunun qanını** çəkmişdilər. Allahın Özü vəd etmişdir: *"Sizin olduğunuz evlər üzərindəki qan sizin üçün əlamət olacaq. **Qanı görəndə yan keçəcəyəm** və Misir ölkəsini cəzalandırdığım zaman sizə məhvedici bəla gəlməyəcək!"* (Çıxış 12:13) Quzunun qanına görə Allah İsraillilərin ilk doğulanlarını məhv etməyərək onların evlərindən yan keçdi. Allah bu yolla İsrailliləri Fironun əlindən xilas etdi.

Gördüyümüz kimi, Pasxa gününün İsrail övladlarının Fironun hakimiyyətindən xilas olmasından **daha dərin mənası** vardır. Çünki Müqəddəs Yazılar deyir: *"Bu hadisələr ibrət dərsi olub onların başına gəldi və ....bizim üçün öyüd-nəsihət kimi yazılıb."* (1 Korinflilərə 10:11) İsraillilərin ilk övladlarını Allahın öldürməməsi və Firondan xilas etməsi üçün İsraillilərin evlərinin qapılarına sürtdükləri quzunun qanı hekayəsi illüstrasiyadır. Bu Allahın günahkarı firondan da daha zalım olan sahibi şeytandan xilas etmək üçün yaratdığı xilas yolunun illüstrasiyasıdır.

Allahın Sözü bizə göstərir ki, Adəmin bütün övladları **kölələr** kimidirlər. Bəlkə sizlərdən kimsə fikirləşir, "Bəli, biz bilirik ki, biz Allahın quluyuq!" Amma bu fikir Rəbb İsanın İncildə belə bəyan etdiyi ilə razılaşmır:
*"Doğrusunu, doğrusunu sizə deyirəm: günah edən hər kəs **günahın köləsidir."*** (Yəhya 8:34) Və Adəmin övladları da günahın kölәsi olduqlarına görə, onlar şeytanın da köləsidirlər. Çünki şeytan günahın sahibidir. Bir şey tam dəqiqdir ki, kim şeytanın köləsidirsə, o özünü heç cür azad edə bilməz! Kölə özünü azad edə bilər? O öz sahibinə nəsə verə bilər ki, onu azad etsin? Bu yaxşı sahib ilə alına bilər, amma şeytan kimi sahib ilə heç vaxt alınmaz. Firon kimi, şeytan da heç vaxt öz kölələrini buraxmaz! Heç vaxt! Eh! Adəmin övladları biz necə də lənətlənmişik! Bizi öz köləsi etmiş şeytanın hakimiyyətindən elə bir şəxs var ki, xilas etsin? Bəli, Allaha şükür olsun! Qurtarıcı var! Allah bizi azad etmək üçün Onu göndərdi! O göylərdən gəlmiş, Allahın bütün peyğəmbərlərinin şəhadət etdiyi qüdrətli və saleh Xilaskar, İsa Məsihdir!

**Tövratda** biz doğulacaq müqəddəs Satınalan vasitəsi ilə Şeytanın başını əzəcəyini Allahın necə vəd etdiyini oxuduq. **Məzmurda** biz eşitdik Davud peyğəmbər yazmışdır ki, Allahın Öz Oğlu adlandıacağı bu Satınalan dəhşətli yolla öləcəkdir, əzab çəkəcəkdir və Onun əlləri və ayaqları mismarlanacaqdır! **İncil** kitabında biz bu gözəl Satınalan haqda daha çox oxuyuruq. O kamil həyat sürmüş və bizim günahlarımıza görə çarmıxda ölmüş və yenidən ölülərdən dirilmiş Məryəmin oğlu İsadır. Bəli, İsa Allahın peyğəmbərlərinin uzun illər əvvəl günahkarların Xilaskarı haqda yazdıqlarını yerinə yetirəndir.

Allahın Sözü İsa Məsihi **"Allahın Quzusu"** adlandırır. Pasxa günü kəsilən quzular kimi İsa bizi məhkəmədən xilas etmək üçün Öz qanını tökdü. Allahın İsrail xalqını ilk Pasxada quzunun qanı ilə xilas etdiyindən təqribən min beş yüz il sonra, Allah Adəmin övladlarına izn verdi ki, Saleh Məsih olan İsanı çarmıxa mismarlasınlar. Və Onun çarmıxa mismarlanması Pasxa vaxtı idi. Beləliklə İsa İbrahimin qurbanının rəmzini yerinə yetirdiyi kimi, **İsa Pasxa quzusunun da rəmzini yerinə yetirdi.** Həmin gün İsanı çarmıxa çəkən adamlar bunu bilmədən edirdilər, amma Allah Məsihin qurbanını dünyanı yaratmazdan əvvəl planlaşdırmışdır. (Bax Vəhy 13:8; Həvarilərin İşləri 3:17)

Isa günah üçün kamil və son Qurbandır. İsa Məsihin qanı Adəmin övladlarını günahın hakimiyyətindən xilas etmək üçün Allahın tələbinə uyğun olaraq qoyduğu qanuni ödəniş idi. Müqəddəs Yazılar bəyan edir:

*"Bizim Pasxa quzumuz olan Məsih qurban verildi."* (1 Korinflilərə 5:7*) "Biz hələ gücsüz ikən Məsih müəyyən zamanda allahsız adamların uğrunda öldü. Saleh bir adam uğrunda kiminsə ölməsi çətin işdir; bəlkə də yaxşı bir adam uğrunda kimsə ölməyə cəsarət edər. Lakin Allah bizə olan məhəbbətini bununla sübut edir ki, biz hələ günahkar ola-ola Məsih bizim uğrumuzda öldü."* (Romalılara 5:6-8)

Gəlin indi Allahın İsraillilərə həvalə etdiyi müqəddəs qanun haqda öyrəndiyimizi xatırlayaq. Tövratdakı axtarışımızda biz Allahın Öz müqəddəsliyini və izzətini səhralıqda Sina dağına alovda və şimşəklə enərək Musaya və İsraillilərə necə göstərdiyini gördük. Beləliklə Allah Musanın Qanunu adlanan Öz On Əmrini və digər əmrlərini İsraillilərə verdi. Allah belə deyərək onlara əmr etdi, **"Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla, bütün gücünlə və bütün düşüncənlə sev.** Məndən başqa allahların olmasın! Özün üçün heç bir büt düzəltmə! Allahın Rəbbin adını boş yerə dilinə gətirmə! Şənbə gününü yadda saxlayıb təqdis et! **Qonşunu özün kimi sev:** Ata-anana hörmət et! Qətl etmə. Zina etmə. Oğurluq etmə. Heç kimə qarşı yalandan şahidlik etmə. Heç kimin evinə tamah salma!" Və bu müqəddəs əmrlərə Allah bunları da əlavə etdi: *"Kim Qanunun hamısına riayət edərək birində büdrəyərsə, o bütün Qanuna qarşı təqsirkar olur!"* (Yaqub 2:10) *"Qanun kitabında yazılan hər şeyə riayət etməyən, onu təsdiq etməyən hər kəsə lənət olsun!"* (Qalatiyalılara 3:10) Allahın Musaya həvalə etdiyi müqəddəs Qanun bunu bəyan edir!

Əziz dinləyici, sənin düşüncələrində və sözlərində, doğulandan ölənə qədər əməllərində tamamilə kamil olmanı tələb edən Allahın müqəddəs qanununu qoruyub saxlamısan? Hər gün və hər saat, gecə və gündüz sən Rəbbin olan Allahı bütün ürəyinlə, bütün qəlbinlə və bütün düşüncənlə sevməlisən. Həmçinin, öz qonşunu da özün kimi sevməlisən! Sən bu müqəddəs qanuna əməl etmisən? Sən və mən bilirik ki, buna əməl etməmişik! Müqəddəs Yazılar deyir: *"Saleh olan yoxdur, bir nəfər belə, yoxdur!"* (Romalılara 3:10) *"Əgər günahsız olduğumuzu iddia ediriksə, özümüzü aldadırıq və daxilimizdə həqiqət yoxdur."* (1 Yəhya 1:8) Bizim heç birimiz Allahın tələb etdiyi bütün şeylərə əməl etməmişik. Çünki bizim hamımız günahlı təbiətdə doğulmuşuq.

Bəlkə kimsə soruşa bilər: 'Əgər bizlərdən heç kim Musanın qanununa əməl edə bilmirsə, bəs onda Allah onu niyə veribdir? Allah hamının məhv olmasını istəyəndir?" Xeyr. Allah Məhəbbətdir və heç kimin məhv olmasını istəmir! Bəs onda Allah bilərək ki, heç kim Onun Müqəddəs qanununa əməl edə bilməyəcək, onda nə üçün günahkarlara Öz müqəddəs qanununu verdi? Allah bu suala cavab verib:

*"Qanuna əməl etməklə heç bir insan Allahın önündə saleh sayılmayacaq. Çünki Qanun vasitəsilə günah dərk olunur."* (Rom. 3:20) *"Müqəddəs Yazı bütün kainatı günahın əsiri elan etdi ki, İsa Məsihə olan imanla vəd olunan şeylər iman edənlərə verilsin."* (Qalatiyalılara 3:22)

Beləliklə biz öyrəndik ki, Allah Öz müqəddəs əmrlərini günahkarlara ona görə həvalə etdi ki, bizə Onun qarşısında qeyri-kamilliyimizi və günahın gətirdiyi lənəti bizim üçün daşıyan İsa Məsihə olan ehtiyacımızı göstərsin. İnsanlar arasında Rəbb İsa Məsih Allahın Musaya həvalə etdiyi müqəddəs qanuna əməl edən yeganə Biridir. Gördüyümüz kimi, İsa Adəmin nəslindən çox fərqli idi. Çünki onlarda olan günahlı təbiət Onda yox idi. İsa göylərdən gəlmiş, bakirədən doğulan Allahın Əbədi Sözüdür. İsa bizim kimi bədənə malik idi, amma Onda bizdəki şər təbiət yox idi. Buna görə də O yer üzündə olarkən, belə deyə bildi:

*"Sanmayın ki, Mən Qanun və Peyğəmbərlərin sözlərini ləğv etmək üçün gəldim. Mən onları ləğv etmək üçün yox, yerinə yetirmək üçün gəldim."* (Matta 5:17) İsanın dediklərini eşitdin? Bu çox dərinmənalı və gözəl həqiqətdir. İsa dedi ki, O Allahın Musaya həvalə etdiyi müqəddəs qanunu yerinə yetirmək üçün dünyaya gəlmişdir! Sən bunun nə demək olduğunu başa düşürsən? İsa Adəmin övladları olan bizlərin özümüz üçün heç vaxt edə bilməyəcəyimiz şeyi, bizim üçün etdi! O Allahın müqəddəs qanununu yerinə yetirdi, ondan sonra bizim üçün qanunun lənətini daşımaq üçün və bizi Allahın ədalətli məhkəməsindən xilas etmək üçün çarmıxda Öz qanını axıtdı!

İsa ölümə layiq deyildi. Çünki O heç vaxt günah işlətməmişdir. Amma Allahın peyğəmbərlər vasitəsi ilə vəd etdiyi xilas planını tamamlamaq üçün, Rəbb İsa Öz iradəsi ilə Öz həyatını verdi və bizim günahlara görə Öz qanını tökəndən sonra Allah üçüncü gün Onu ölülərdən diriltdi! Bu haqda Müqəddəs Yazıların elan etdiyinə qulaq as:

*"Məsih İsada olanlara heç bir məhkumluq yoxdur.... Beləcə cismani təbiət üzündən gücsüz olan Qanunun edə bilmədiyi şeyi Allah etdi: Öz Oğlunu günahlı cismin bənzərində günah qurbanı olaraq göndərib günahı Onun cismi ilə məhkum etdi."* (Romalılara 8:1,3)

Əziz dinləyici, sən ümidini nəyə bağlamısan? Sən günahların cəzasını daşımış Saleh Satınalan haqda Allahın Xoş Xəbərinə etibar edirsən? Yoxsa sən öz "yaxşı əməllərinə" bel bağlayırsan? Allahın Sözündə deyilən bu sözləri unutma:

*"Qanuna əməl etməyə əsaslananların hamısı lənət altındadır. Çünki yazılıb: «Qoy Qanun kitabında yazılan hər şeyə riayət etməyən, onu təsdiq etməyən hər kəsə lənət olsun!» Məsih bizim uğrumuzda lənətlənərək bizi Qanunun lənətindən satın aldı..... Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun!"* (Qalatiyalılara 3:10,13; Yəhya 3:16)

Dinlədiyiniz üçün çox sağ olun...

Gələn dərsdə Allahın iradəsi ilə biz Peyğəmbərlərin Yazılarını təkrarlayacağıq və İsa Məsihin Adəmin övladları üçün xilas qapısı və sülh gətirərək peyğəmbərlərin yazılarında yazılan hər şeyi necə yerinə yetirdiyinə baxacağıq!

Qoy Allah bu gün oxuduqlarımızı başa düşmək üçün sizə qavrama versin və Onun Sözündəki vədi yadda saxlamaq üçün kömək etsin:

***"Məsih İsada olanlara heç bir məhkumluq yoxdur."*** (Romalılara 8:1)

96-cı Dərs

# Təkrar 4:
# İsa Məsih: "Tamam Oldu!"

**Yəhya 19, İbranilərə 10**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Üç proqram əvvəl biz Allahın peyğəmbərlərinin xəbərini təkrarlamağa başladıq. Bu gün Allahın köməyi ilə biz təkrarlamağımızı bitirməyi nəzərdə tutmuşuq. Bizim bu günki proqramımız: **"Tamam oldu!"** adlanır.

Gördüyümüz kimi Allahın kitabı iki mühüm hissəyə, Əhdi-Ətiq və Əhdi-Cədiddə bölünüb. Əhdi-Ətiq Allahın gözəl Kitabının birinci hissəsidir. Orada Tövrat, Zəbur və peyğəmbərlərin digər yazıları vardır. Biz Allahın Kitabının birinci hissəsində ulubabamız Adəmin Allaha necə itaətsizlik etdiyini və bununla da bütün öz nəslini şeytanın padşahlığına gətirdiyini gördük. Biz həm də öyrəndik ki, Allah Adəmin övladlarını, Ona inanan hər bir kəsi xilas etmək, Allahın padşahlığına geri qaytarmaq üçün qüdrətli Xilaskar göndərəcəyini vəd etdi. Bu gözəl vəd Əhdi-Ətiqin mühüm hissəsi idi.

Yerə Xilaskar göndərmək planını canlandırmaq üçün, Allah yaşlı vaxtında İbrahimi çağırdı və ona dedi: *"Səndən böyük bir millət törədəcəyəm....yer üzünün bütün tayfaları sənin vasitənlə xeyir-dua alacaq."* (Yaradılış 12:2,3) Beləliklə, biz Allahın İbrahimi necə İsrail xalqının atası etdiyini gördük. Bu həmin o millət idi ki, Allah Peyğəmbərlərin Yazılarını onlara həvalə etmişdir. Min beş yüz ilə, Allah Öz sözünü Musa peyğəmbərdən başlayaraq Yəyha peyğəmbərə qədər onların zehnlərinə qoyaraq İsraillilərə göndərdi. Bu peyğəmbərlər vasitəsi ilə Allah Adəmin övladlarının qeyri-salehliyini məzəmmət etdi, Öz qanını tökərək onların günah borclarını ödəmək üçün saleh Qurtarıcının gələcəyini onlara açdı.

Gördüyümüz kimi Allahın günahkarlar üçün qoyduğu Əhdi-Ətiq heyvan qurbanı tələb edirdi. O bəyan edirdi ki, "qan tökülmədən günahların bağışlanması yoxdur. Çünki günahın əvəzi ölümdür!" İlk nəsildən insanların etdikləri bu heyvan qurbanları onların günahlarını həqiqətən ödəyə bilmirdi. Çünki heyvanın dəyəri ilə insanın dəyəri eyni deyildir. Misal üçün: əgər mənim oyuncaq maşınım varsa, mən maşın satana gedib onu həqiqi maşına, misal üçün Mersedesə dəyişə bilərəm? Əlbəttə ki, yox! Nə üçün? Çünki mənim oyuncaq maşınımla həqiqi maşının dəyəri eyni deyildir! Oxşar olaraq da, Allahın erkən nəsillərdə tələb etdiyi heyvan qurbanları da günahı yuya bilmirdi. Çünki heyvanın dəyəri ilə insanın dəyəri eyni deyildir. Gördüyümüz kimi heyvan qurbanı, Allahın yerə göndərəcəyi Yeni Əhd gətirən Saleh Satınalanın, həqiqi qurbanın rəmzi idi. Heyvan qurbanı hansısa müddətə günahı örtə bilirdi; amma həmişəlik təmizləyə bilmirdi.

Allahın Kitabının ikinci hissəsi Əhdi-Cədid yaxud İncil adlanır. O bizə Allahın insanlar ilə göylərdən gəlmiş Xilaskarın qanı vasitəsi ilə qoyduğu əhd haqqında danışır. İncil kitabı bizim günahlarımızdan bağışlanma əldə etmək üçün çarmıxda Öz qanını tökərək heyvan qurbanı rəmzini yerinə yetirən Xilaskar İsanın hekayəsidir. **Xilaskar** nə üçün göylərdən gəlməli idi? Sadəcə ona görə ki, Adəmin övladları günahı ağır bir yük kimi daşıyırlar. **Günahkar**

**günahkarı xilas edə bilməz.** Kor kora yol göstərə bilər? Xeyr. Oxşar olaraq da, günahkar da digər günahkarın günah cəzasını daşıya bilməz. Amma Allahın göndərdiyi Satınalan İsa Məsih heç bir günah yükü daşımırdı. Çünki O Allahın təmiz Ruhundan doğulmuş Oğlu idi, başlanğıcda Allah ilə olan Söz idi. O bakirə qızdan doğulmuşdur. Beləliklə Onda bizim kimi bədən var idi, lakin bizim kimi şər təbiətə malik deyildir. Onun üzərində günah yükü yox idi. Buna görə də Allah bizim bütün günah yükümüzü Onun üzərinə qoya bildi. Müqəddəs olan İsa bizim təqsirlərimizə görə öldü. Üç gündən sonra isə O ölülərdən diriləræk bizə yeni həyat verdi. O ölümə, məzara, şeytana və günaha qalib gəldi!

Bizim hamımız günahın quyusunda doğulmuşuq və göylərdən gəlmiş Məsihdən başqa elə bir qüvvə yoxdur ki, bizi xilıas edə bilsin. Əgər sən ümidini Ona bağlasan, O səni günahın quyusundan çıxardacaqdır. O Adəmin övladlarını öz günahlarından xilas etmək üçün göylərdən gəlmişdir. Və indi O Ona inanlar üçün vəsatət etmək üçün göylərə qayıdıbdir. Müqəddəs Yazılar deyir:

*"Bir Allah və Allahla insanlar arasında bir Vasitəçi vardır. O, İnsan olan Məsih İsadır. O hamını satın almaq üçün Özünü fidyə verdi!"* (1 Timoteyə 2:5,6) *"Bizə belə bir Baş Kahinin olması münasibdir ki, O, müqəddəs, günahsız, ləkəsiz, günahkarlardan ayrılmış... O, günahlardan təmizlənməni təmin edəndən sonra ucalarda möhtəşəm Allahın sağında oturdu.!"* (İbranilərə 7:26; 1:3)

İncildə gördüyümüz kimi İsa Məsih yer üzündə olanda bəziləri Ona inandı. İsanın kim olduğunu dərk edənlər çox sevindilər. Onlar bildilər ki, min illərlə Allahın peyğəmbərlərinin gələcək Məsih haqda elan etdiklərini onlar indi öz gözləri ilə görürdülər! İsanın şagirdləri arasında öz qohumlarını və dostlarını belə deyərək axtaranları gördük: ***"Biz Məsihi tapdıq!... Musanın Qanunda yazdığı, peyğəmbərlərin də bəhs etdiyi Şəxsi tapdıq!"*** (Yəhya 1:41,45)

Kədərlidir ki, İsanın dövründə yaşayan əksər insanlar **Onun həqiqətən kim olduğunu bilmirdilər.** Buna əsasən Müqəddəs Yazılar bəyan edir:

*"O, başlanğıcda Allahla birlikdə idi..... Kəlam bəşər olub, lütf və həqiqətlə dolu olaraq aramızda məskən saldı.... Nur qaranlıqda parlayır, qaranlıq isə onu bürüyə bilmədi.... O, dünyada idi, dünya Onun vasitəsilə yarandı, amma dünya Onu tanımadı. Öz diyarına gəldi, amma soydaşları Onu qəbul etmədi."* (Yəhya 1:2,14,5,10,11)

Gördüyümüz kimi çox insanlar Məsihin göstərdiyi əlamətlərin və möcüzələrin şahidi idilər. İsa xəstəliklərə, tufanlara, pis ruhlara, günaha və ölümə qalib gəldi. Buna baxmayaraq insanların əksəriyyəti İsanın kim olduğunu dərk etmədilər. Çünki şeytan onların zehnlərini kor etmişdir. İzdiham Ona toxundu və Onu sıxdı, lakin Onun kim olduğunu bilmədi! Onlar Onu peyğəmbərlərdən biri sandılar, lakin inanmadılar ki, Allahın tamlığı Onda idi.

Yəhudi dini rəhbərlərinə gəldikdə isə biz gördük ki, onlar İsandan qəti imtina edirdilər. Onlar Onu həddindən çox qısqanırdılar və sonda Onu çarmıxa mismarlamaqla öldürdülər! Lakin bu Allahın başlanğıcdan planında tutduğu kimi idi. Məsihin çarmıxdakı ölümü, uzun illər əvvəl Onun peyğəmbərlər vasitəsi ilə elan etdiyi müqəddəs planına əsasən idi. Buna görə də kahinlərin İsanı öldürmək üçün tutduqları gecədə İsa onu qorumaq istəyən Peterə dedi, *"Elə düşünürsən ki, Atamdan yardım istəyə bilmərəm? İstəsəm, dərhal Mənə on iki legiondan artıq mələk göndərər.* ***"Bunların olması gərəkdir" deyən Müqəddəs Yazılar onda bəs necə yerinə yetərdi?"*** (Matta 26:53,54)

İsa dünyaya nə üçün gəldiyini bilirdi. O uzun illər əvvəl peyğəmbərlərin elan etdikləri kimi Öz həyatını vermək, günahkarlar üçün Öz qanını tökmək üçün gəlmişdir. Isa İbrahimin qoyun qurbanı və bütün heyvan qurbanlarının rəmzini yerinə yetirmək üçün gəlmişdir. İsa Öz ruhunu Allaha verərkən Onun dediyi son sözü xatırlaya bilərsən? Bəli, Müqəddəs Yazılar deyir ki, İsa yüksək səslə qışqırdı, ***"Tamam oldu!"*** və sonra öldü. O öləndə Müqəddəs Yerin pərdəsi ortadan tən iki yerə bölündü. (Yəhya 19:30; Mark 15:37,38) İsa nə üçün qışqırdı, ***"Tamam oldu!"?*** və nə üçün məbəddə günahı örtmək üçün qan səpələdikləri yerin yəni Ən Müqəddəs Yerin pərdəsi iki yerə bölündü? Allah pərdəni iki yerə böldü və İsa *"Tamam oldu!"* deyərək elan etdi ki, hamı bilsin ki, Allah Adəmin övladlarının günahlarını **İsanın qanı vasitəsi** ilə bağışlayır və Öz hüzurunda əbədiyyən yaşamaq hüququ verir!

**Öz ölümü vasitəsi ilə Rəbb İsa Məsih peyğəmbərlərin sözlərini və heyvan qurbanı rəmzini yerinə yetirdi.** Və bizim gördüyümüz kimi Onun üçüncü gündə Dirilməsi bunun aydın sübutu idi ki, Allah əbədiyyən günahı ödəmək üçün Onun qurbanını tam ödəniş kimi qəbul etmişdir! Isa Məsih Ona inanan heç bir kəsin həlak olmaması, lakin əbədi həyata malik olması üçün Allahın dünyaya verdiyi kamil qurbandır!

Indi isə peyğəmbərlərin xəbərlərini təkrarlamaq üçün biz İsa Məsihin çarmıxda bizim günahlarımızı ödəmək üçün Öz qanını tökərkən verdiyi kamil və son qurban haqqında Allahın Sözündə olan bir neçı dərinmənalı və gözəl ayələrə qulaq asmağa dəvət edirik. Müqəddəs Yazılar deyir:

(İbranilərə 10:1-30) *Qanunda gələcək nemətlərin əsli deyil, kölgəsi vardır. Buna görə də Qanun ildən-ilə daimi bir surətdə təqdim olunan eyni qurbanlar vasitəsilə Allaha yaxınlaşanları əsla kamil edə bilməz. Əks təqdirdə, bu qurbanların təqdim olunmasına son qoyulardı. Çünki ibadət edənlər birdəfəlik təmizlənəndən sonra artıq günahlarına görə vicdan əzabı çəkməzdilər. Amma bu qurbanlar vasitəsilə insanlar ildən-ilə günahlarını yadlarına salır. Çünki* ***buğaların və təkələrin qanı ilə günahları aradan qaldırmaq qeyri-mümkündür.***
*Buna görə Məsih dünyaya gələndə deyir: «Qurban və təqdim istəmədin, Amma Mənə bir bədən hazırladın. Yandırma qurbanı, günah qurbanından xoşun gəlmədi. O zaman dedim: "Budur, gəlmişəm, Kitab tumarında Mənim haqqımda yazılıb. Ay Allah, Sənin iradəni yerinə yetirim"»..... Sonra dedi: «Budur, gəlmişəm, Sənin iradəni yerinə yetirim». Yəni, Məsih ikinci Əhdi qüvvəyə mindirmək üçün birincisini ləğv edir. Bu iradəyə əsasən biz İsa Məsihin bədəninin birdəfəlik təqdim olunmasına görə təqdis olunduq. Hər bir kahin hər gün xidmətini icra edərək əsla günahları aradan qaldıra bilməyən eyni qurbanları dəfələrlə təqdim edir.*
*Amma Məsih günahlar üçün yalnız bir qurban təqdim edəndən sonra əbədi olaraq Allahın sağında oturdu. O vaxtdan bəri O, düşmənlərinin Onun ayaqları altına kətil kimi salınmasını gözləyir. Çünki O yalnız bir təqdim vasitəsilə təqdis olunmaqda olanları həmişəlik kamilləşdirdi. Müqəddəs Ruh da bu haqda bizə şəhadət edir. Çünki əvvəl deyir: «"O günlərdən sonra onlarla bağlayacağım Əhd belədir" Rəbb bəyan edir, "Qanunlarımı onların ürəyinə qoyub zehinlərinə yazacağam"». Sonra deyir: «Günahlarını və qanunsuzluqlarını yada salmayacağam». Günahların bağışlanması olanda isə artıq günah üçün təqdim etmə yoxdur.*
*Beləliklə, ey qardaşlar, İsanın qanı sayəsində Ən Müqəddəs yerə daxil olmağa cəsarətimiz çatır. O bizə pərdədən, yəni Öz cismindən keçən yeni və canlı bir yol açmışdır. Həm də O, Allahın evi üçün cavabdeh olan böyük bir Kahinimizdir. Ona görə ....səmimi qəlblə Allaha yaxınlaşaq. Ümid verən əqidədən möhkəm tutaq, çünki vəd verən Allah sadiqdir. Bir-birimizi məhəbbətə və xeyirxah əməllər etmək üçün necə həvəsləndirmək haqqında*

*fikirləşək. ... Həqiqəti dərk edib qəbul edəndən sonra qəsdən günah etməkdə davam etsək, artıq günah üçün qurban qalmır. Lakin mühakimənin və Allahın düşmənlərini yandırıb-yaxan şiddətli alovun dəhşətlə gözlənməsi qalır. Musanın Qanununu heç sayan adam iki yaxud üç şahidin sözü ilə rəhm edilmədən öldürülür. Əgər bir nəfər Allahın Oğlunu tapdalayaraq təqdis edildiyi Əhdin qanını adi bir şey sayıb Allahın lütfkar Ruhunu təhqir edərsə, sizcə bundan nə qədər ağır cəzaya layiq sayılacaq?*
*Çünki «Qisas Mənimdir, əvəzini Mən verəcəyəm» və yenə də «Rəbb Öz xalqını mühakimə edəcək» deyəni tanıyırıq. Var olan Allahın əlinə düşmək dəhşətdir!*

***"Bu cür böyük xilasa məhəl qoymasaq, biz necə qurtula bilərik?"*** (İbranilərə 2:3)

Bu sözlərlə Allah bu gün hər birimizə xəbərdarlıq edir ki, İsa Məsihin qanında tapılan tək olan xilas yoluna etinasızlıq etməyək. **Allahın verdiyi Qurbana sayğısızlıq göstərən kəs bilməlidir ki, günaha görə başqa qurban yoxdur;** Allahın mərhəmətsiz məhkəməsindən başqa heç bir şey qalmır! İsa Məsih Allahın verdiyi Kamil Qurbandır və Ona inanan heç bir kəs məhv olmayacaq, lakin əbədi həyata malik olacaqdır. Çarmıxda İsa Məsih dedi, *"Tamam oldu!"* və İsa Allahın Sözü olduğu üçün O *"Tamam oldu!"* deyəndə bu Allahın Özünün ***"Tamam oldu!"*** deməyi idi. Üç gündən sonra Allah İsanı həyata qaytarmaqla Onun günaha görə etdiyi qurbandan tamamilə razı qaldığını sübut etdi.

Dost, sən dərk edirsənmi ki, İsa sənin günahlarına görə qiyməti ödüyüb? Sən inanırsanmı ki, İsa Məsih sənə görə Xilas işini bitirib? Yoxsa sən hələ də özünü əməllərinlə xilas etməyə çalışırsan?

Dinlədiyin üçün çox sağ ol....

Gələn görüşə qədər, Məsihin çarmıxda etdiyi elanın dərin mənası haqqında düşündükcə, qoy Allah sənə xeyir-dua versin...

***"Tamam oldu!"*** (Yəhya 19:30)

97-ci Dərs

# Cəhənnəm!

**Luka 16**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Müqəddəs Yazılar deyir:

*"Qorxaqların, imansızların, iyrənclərin, qatillərin....və bütün yalançıların aqibəti isə od və **kükürdlə yanan göldə** olacaq."* (Vəhy 21:8) *"Onlar qaranlıq çölə atılacaq..... İblis ilə onun mələklərinə hazırlanmış olan əbədi oda yollanın! Orada ağlaşma və diş qıcırtısı olacaq».* (Matta 8:12; 25:41) *"Bunlar **əbədi əzaba**, salehlər isə əbədi həyata gedəcək."* (Matta 25:46)

**Cəhənnəm!** Heç kim bu haqda danışmağı xoşlamır! Biz hətta bu haqda düşünmək belə istəmirik! Buna baxmayaraq, biz bu gün cəhənnəm mövzusunu öyrənməyi nəzərdə tutmuşuq. Çünki bu haqda Allahın deyiləsi çox sözləri var. Müqəddəs Yazılarda Allah insanların ora getməməkləri üçün yüzlərlə xəbərdarlıqlar veribdir. Bu gün və gələn dərsdə biz Müqəddəs Yazıların cəhənnəm və cənnət haqda nə öyrətdiklərinə baxacağıq və həmçinin biz necə əmin ola bilərik ki, cəhənnəmə yox, cənnətə gedəcəyik. Çox insanlar düşünürlər ki, heç kim gələcəkdə nəyin baş verəcəyini yaxud əbədiyyəti harada keçirəcəyini bilə bilməz. Onlar nə Allahın qoyduğu xilas yolunu nə də bizə əminlik verən Allahın gözəl vədlərini bilmədiklərinə görə belə fikirləşirlər. Allahın Sözü Cənnətə gedəcəyimizi necə əminliklə bilməmizi bizə deyirmi? Əlbəttə! Allahın Sözü deyir: *"Bunları sizə – Allahın Oğlunun adına iman edənlərə yazdım ki, **əbədi həyata malik olduğunuzu biləsiniz**!"* (1 Yəhya 5:13)

Əziz dinləyici, sən Allahın Sözünün bəyan etdiyi əbədi həyatı "bilirsən"? Sən öldüyün gündə sənin ruhunun hara gedəcəyini bilirsən? Əminsən ki, sən cəhənnəmə yox Cənnətə düşəcəksən? Əgər əmin deyilsənsə, onda bizim bu günkü dərsimiz sənin üçün çox maraqlı olmalıdır.

İncildə gördüyümüz kimi, İsa Məsih yer üzündə olanda, O tez-tez insanlara Cənnət və Cəhənnəm adlanan yer haqqında öyrədirdi. Lakin İsa onlara cənnətdən çox cəhənnəm haqda öyrədirdi. Çünki O cəhənnəmin dəhşətli cəzası haqda bilir və heç kimin ora getməsini istəmir. İndi isə gəlin İncil kitabına qayıdaq və İsanın izdihama cəhənnəm haqda öyrətməsinə qulaq asaq. İki ölən adam haqda hekayəyə qulaq as. Lukanın İncilində, on altıncı fəsildə İsa izdihama dedi:

(Luka 16:19-23) *Varlı bir adam var idi. O, tünd qırmızı və incə kətandan paltar geyərdi və hər gün cah-calal içində kef edərdi. Bütün bədəni yaralı olan Lazar adlı yoxsul bir adam da var idi. O, varlı adamın qapısı ağzına gətirilib uzanmışdı. Lazar varlı adamın süfrəsindən tökülən qırıntılarla qarnını doydurmaq arzusunda idi. İtlər də gəlib onun yaralarını yalayırdı.*
*Bir gün yoxsul adam öldü və mələklər onu **İbrahimin qucağına** apardı. Varlı adam da öldü və dəfn edildi. Varlı adam ölülər diyarında iztirab çəkəndə gözlərini qaldırıb uzaqda İbrahimi və onun qucağında Lazarı gördü.*

Gəlin burada dayanaq. Varlı adam və yoxsul Lazar ilə nə baş verdi? Yoxsul adam öləndən sonra hara getdi? Həmin anda onun ruhu Cənnətə, Allahın peyğəmbəri İbraihimin uzun

müddət olduğu yerə, Allahın hüzuruna getdi. Varlı adam isə hara getdi? Həmin anda onun ruhu cəhənnəmə, əzab-əziyyət olan yerə getdi.

Nə üçün yoxsul Lazar cənnətə və varlı adam isə cəhənnəmə düşdü? Birincisi, bunu bil ki, yoxsul olmaq o demək deyil ki, sən xilas olacaqsan və varlı olmaq o demək deyil ki, sən məhv olacaqsan! Yoxsul Lazar peyğəmbərlərin Yazılarında **Allahın bəyan etdiyi xilas yoluna diqqət yetirdiyinə görə** Cənnətə düşdü. Varlı adam isə **Allahın Sözünə məhəl qoymurdu.** O varlı adam bu günkü gün üzdən dindar görünən bir çox adamlar kimi idi. Onlar bilirlər ki, Allah və Peyğəmbərlərin Yazıları mövcüddür, lakin cəhənnəmə gedən yoldadırlar. Çünki onlar heç vaxt Müqəddəs Yazılarda Allahın peyğəmbərlərinin şəhadət etdikləri xilas yoluna inanmadılar. Hekayəmizdəki varlı adam kimi, yaxşı vaxt keçirtmək və var-dövlət əldə etmək onların canlarını xilas edə bilən Allahın Sözünə qulaq asmaqdan daha vacibdir.

Gəlin hekayəni davam etdirək və Allahın cəhənnəmdəki varlı adama qısa olaraq Cənnətdə olan İbrahim peyğəmbər ilə söhbət etməsinə icazə verməsinə qulaq asaq. Allah cəhənnəmdə olan adam vasitəsi ilə deyilən sözlərin mənasını başa düşməyimizi istəyir. Rəbb İsa hekayəni davam etdirərək dedi,

(Luka 16:23-31) *Varlı adam ölülər diyarında iztirab çəkəndə gözlərini qaldırıb uzaqda İbrahimi və onun qucağında Lazarı gördü. O uca səslə dedi: "Ey İbrahim ata, mənə rəhm et! Lazarı göndər, barmağının ucunu suya batırıb mənim dilimi sərinlətsin, çünki mən bu alov içində əzab çəkirəm".*
*Lakin İbrahim dedi: "Oğlum, yadına sal ki, sən öz həyatında yaxşı şeyləri, Lazar isə pis şeyləri almışdır. İndi isə o, təsəlli tapır, amma sən əzab çəkirsən.*
*Üstəlik, sizinlə bizim aramıza böyük bir uçurum qoyulmuşdur ki, nə buradan sizin tərəfinizə keçmək istəyənlər keçə bilir, nə də oradan bizim yanımıza gələ bilirlər". Varlı adam dedi: "Ata, elə isə yalvarıram sənə, Lazarı atamın evinə göndər. Çünki beş qardaşım var. Qoy onlara xəbərdarlıq etsin ki, onlar da bu iztirab yerinə gəlməsinlər".*
***İbrahim ona dedi: "Onlarda Musanın və Peyğəmbərlərin sözləri var. Qoy onlara qulaq assınlar".***
*Varlı adam isə dedi: "Xeyr, İbrahim ata! Əgər ölülərdən biri onların yanına gəlsə, onlar tövbə edərlər". Onda İbrahim ona dedi:* ***"Əgər onlar Musaya və Peyğəmbərlərə qulaq asmırlarsa, ölülərdən biri dirilsə belə, inanmazlar."***

Həqiqətən, Cəhənnəm adlanan yer elə bir dəhşətli yerdir ki, orada heç bir mərhəmət yoxdur. Cəhənnəmdəki varlı adam əzab-əziyyətdə idi və heç kim hətta bir damcı belə su verməklə onun əzabını azaltmırdı! Daha pisi isə, həmin bu varlı adam bu gün hələ də oradadır! O həm ruhunun, həm də bədəninin odlu gölə atıldığı anı, Mühakimə Gününü gözləyənədək cəhənnəmdədir. O İsa Məsihin Xoş Xəbərini rədd edən, peyğəmbərlərin xəbərinə itaət etməyən hər bir kəs ilə əbədiyyən orada olacaqdır. Müqəddəs Yazılar bunu bəyan edir: *"Kimin adı həyat kitabına yazılmayıbsa, o, odlu gölə atıldı.... od və kükürdlə... Onlara verilən işgəncənin tüstüsü əbədi olaraq qalxacaq. ...gecə-gündüz rahatlıq tapmayacaq!"* (Vəhy 20:15; 14:10,11) Bu haqda düşün! Allahın qoyduğu saleh xilas yolunu rədd edən hər bir kəs cəhənnəmə daxil olur, mövcüdlüğü heç vaxt bitmir, heç vaxt oradan çıxmayacaqdır və oradakı alov **heç vaxt** sönməyəcəkdir! **Heç vaxt! Heç vaxt! Əbədi olaraq!**

Bəziləri fikirləşirlər ki, günahkarlar cəhənnəmdə bir müddət əzab çəkəndən sonra, oradan çıxacaqlar və Cənnətə girəcəklər. Lakin bu fikir cəhənnəmi *"əbədi əzab"* (Matta 25:46) adlandıran Allahın Sözü ilə üst-üstə düşmür. Nəticə etibarı ilə Peyğəmbərlərin Yazılarında ölülər üçün dualar yoxdur. Ölülər üçün dua etmək Allahın Sözündən yox, insanların adət ən-

ənələrindən gəlir. Allahın Sözü deyir, *"Müəyyən edilmişdir ki, insanlar bir dəfə ölüb ondan sonra mühakimə olunsunlar!"* (İbranlilərə 9:27) Ölülər üçün dua etmək nə cəhənnəmdə olanların əzablarını azalda bilməz, nə də onları Mühakimə Günündən xilas edə bilməz. Cənnətdə olanlar haqda isə, onların bizim dualara ehtiyacı yoxdur. Çünki onlar Allahın hüzurunda və kamil xoşbəxtlikdədirlər!

Əziz dinləyici, qoy heç kim səni **boş sözlərlə aldatmasın**. Bəzi adamlar deyir: "Eh, Allah rəhmlidir! O öz bəndələrini cəhənnəmdə yanmaq üçün yaratmayıbdır! O bizlərə mərhəmət edəcəkdir və bizi Cənnətə qəbul edəcəkdir!" Belə danışanların fikirləri Allahın Sözünə əsaslanmır. Onlar şüurlu surətdə Allahın qoyduğu xilas yolunu rədd edərək bunu yalnız öz vicdanlarını sakitləşdirmək üçün deyirlər. Əgər onlar öz səhv fikilərindən Allaha tərəf dönməsələr və İsa Məsih vasitəsi ilə salehlik yoluna inanmasalar, bir gün onlar biləcəklər ki, həqiqətən cəhənnəm var! Lakin artıq tövbə etmək üçün **çox gec** olacaqdır!

Varlı adamın İbrahimdən nə xahiş etdiyini eşitdin? O xahiş etdi ki, Lazarı onun ailəsinə göndərsin və hələ sağ olan beş qardaşına xəbərdarlıq etsin ki, *"onlar bu iztirab yerinə gəlməsinlər!"* İbrahim ona necə cavab verdi? O dedi*:* ***"Onlarda Musanın və Peyğəmbərlərin sözləri var. Qoy onlara qulaq assınlar".*** Lakin varlı adam dedi: *"Xeyr, İbrahim ata! Əgər ölülərdən biri onların yanına gəlsə, onlar tövbə edərlər". Onda İbrahim ona dedi:* ***"Əgər onlar Musaya və Peyğəmbərlərə qulaq asmırlarsa, ölülərdən biri dirilsə belə, inanmazlar"***

Əziz dinləyici, səni cəhənnəmdən xilas edə bilən Allahın peyğəmbərlərinin Xoş Xəbərini bilirsən? Həmən o Xoş Xəbər Salehlik Yolu proqramında eşitdiyiniz xəbərdir. Qısaca, biz Allahın peyğəmbərlərinin yazdıqları xoş xəbər sənin günahlarını ödəmək üçün çarmıxda ölən və üçüncü gündə ölülərdən dirilən Allahın göndərdiyi müqəddəs Qurtarıcı barədə Xoş Xəbərin olduğunu görmüşük. **Əgər sən qəlbində inansan ki, O sənin günahlarına görə ölüb, onda sən cəhənnəmə getməyəcəksən!** Bu səni Allahın ədalətli məhkəməsindən xilas edə bilən Xoş Xəbərdir.

Birinci dərslərimizdə öyrəndiyimiz kimi, Allah cəhənnəmi insanlar üçün yox, şeytan və onun mələkləri üçün yaratmışdır. Amma ulubabamız Adəmə görə hər bir kəs Allahdan uzaq, şeytanın padşahlığında, cəhənnəmə aparan geniş yolda doğulur. Şübhəsiz ki, əgər Allah bizim üçün əlac təmin etməsəydi bizdə olan günahlı təbiət bizim əbədiyyən məhv olmamıza səbəb ola bilərdi. Çünki günahın əvəzi ölüm və əbədi cəhənnəmdir. Öz gücümüz ilə biz cəhənnəmdən qurtula bilmərik! Amma Allaha şükür edirik ki, O günahlarımızı bağışlamaq üçün plan qurmuşdur! O plan nədir? Bu **müqəddəs Məsihin ölümüdür.** İsa çarmıxda ölərkən Allah bizim günahlarımızın cəzasını Onun üzərinə qoydu. Necə ki, yazılmışdır: *"Günahla əlaqəsi olmayan Məsihi Allah bizim uğrumuzda günah qurbanı verdi ki, biz Onda Allahın salehliyinə nail olaq!"* (2 Korinflilərə 5:21)

Biz insanların İsaya necə əzab verdiklərini, döydüklərini, başına tikanlı tac qoyduqlarını, təhqir etdiklərini, üzünə şillə vurduqlarını, üzünə tüpürdüklərini və Onu çarmıxa mismarladıqlarını görmüşük! Allah günahlarımızın layiq olduğu cəzanı nümayiş etdirmək üçün insanlara izn verdi ki, günahsız Məsih ilə belə rəftar etsinlər. İnsanların İsaya etdikləri bütün o şeylərə biz layiq idik. Lakin Allah bizə olan böyük sevgisinə görə bizim günahlarımıza görə olan cəzanı müqəddəs Məsihin, Öz sevimlisinin, Əbədi Oğlunun üzərinə qoydu. Yadda saxla, İsanın çarmıxdakı əzabları insanların Ona etdikləri ilə məhdudlaşmırdı. Peyğəmbərlərin Yazıları bizə göstərir ki, İsa çarmıxda əzab çəkərkən, Allahın Özü insan ağlı dərk etməyən ağrını Onun üzərinə qoymuşdur. Allah İsanın üzərinə bizim günahlarımızın

əvəzi olan ödəməni, yəni bizim cəhənnəmimizi qoymuşdur! Əyyub peyğəmbər qabaqcadan Məsihin Allah tərəfindən çəkəcəyi gərgin əzablar haqqında demişdir: *"Allah məni haqsızlara təslim etdi, pislərin əlinə verdi....* ***Allah məni qəzəbi ilə parçalayır, Mənə nifrət edir, dişlərini qıcıdır, düşmənim gözlərini mənə dikir!"*** (Əyyub 16:11,9)

Günahın əvəzi ölmək, və Allahın qəzəbi ilə üzləşməkdir və İncilə inanmayan hər bir kəsi göndərdiyi  cəhənnəmin zülmətinə daxil omaqdır. Amma İsa bizə görə Allahın qəzəbini daşıdı ki, biz Allahın lütfünü əldə edə bilək. Oxuduğumuz kimi, İsa çarmıxda ölərkən o yer üç saat ərzində cəhənnəm kimi zülmətə büründü. O radələrdə İsa yüksən səslə qışqırdı, ***"Ey Allahım, Allahım, niyə Məni tərk etdin?!"*** Allah Öz sevimlisini, Məsihi çarmıxda nə üçün tərk etdi? Bizim günahlarımız bunun səbəbidir! İsa çarmıxda olarkən Allah bizim günahlarımızın cəzasını, **bizim cəhənnəmimizi** Onun üzərinə qoymuşdur!  Bu bizim ağlımızın dərk edə bilmədiyi həqiqətdir. Amma bir şey dəqiqdir ki, əgər sən Rəbb İsaya inansan, xilas olacaqsan və heç vaxt cəhənnəmə getməyəcəksən. çünki Allah səni Satınalanın qurbanına görə saleh sayacaqdır. İbrahimin oğlunu xilas edən qurbanlıq quzu kimi İsa Məsih səni ölümdən və cəhənnəmdən xilas etdi!

Allah sənin cəhənnəmini İsa Məsihin üzərinə qoydu. **Sən buna inanırsan?** Sən inanırsan ki, Salen olan İsa Məsih sənin günah borcunu ödəyib? Yoxsa sən bütün əbədiyyət boyu günah borcunu ödəmək üçün cəhənnəmə gedəcəksən? **Bu sənin öz işindir.** Sən nəyi seçirsən? **Cənnəti** yoxsa **cəhənnəmi?**

Dinlədiyiniz üçün çox sağ olun. Gələn dəfə sizi bu gün oxuduğumuzdan tamamilə fərqli bir şeyə qulaq asmağa dəvət edirik. Allahın iradəsi ilə biz Cənnət adlanan gözəl yer haqqında öyrənəcəyik.....

Allah sənə xeyir-dua versin. Biz Rəbb İsanın bu sözləri ilə sizinlə sağollaşırıq:

***"Dar qapıdan girin. Çünki həlaka aparan qapı geniş və yolu enlidir. Bu qapıdan girənlər çoxdur. Amma həyata aparan qapı dar və yolu ensizdir, onu tapanlar azdır."*** (Matta 7:13.14)

98-ci Dərs

# Cənnət

**Vəhy 21,22**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Ötən dərsimizdə biz heç vaxt cəzanın bitmədiyi **cəhənnəm** mövzusunu dərk etdik. Cəhənnəm şeytan və onun mələkləri üçün yaradılmış dəhşətli məkandır. Ora Allahın yaratdığı xilas yolunu inkar edən hər bir kəs getməli və əbədiyyən Allahdan ayrı düşməlidir! Müqəddəs Yazılar bunu bəyan edir, *"Kimin adı həyat kitabına yazılmayıbsa, o, odlu gölə atıldı!"* (Vəhy 20:15)

Əlbəttə, cəhənnəm insanın dərk edə biləcəyi ən dəhşətli mövzudur. Amma bu gün biz insanın anlayacağı ən gözəl mövzuya, ***Cənnət*** mövzusuna baxmağı nəzərdə tutmuşuq.

İnsanların Cənnət və ora düşmək üçün nə etməsi haqda çox müxtəlif fikirləri var. Misal üçün, şərq dininə mənsub olanlar inanırlar ki, müxtəlif həzz dərəcələrinə çoxlu müxtəlif cənnətlər var və insanın hansına getməsi onun əməllərindən asılıdır. Digərləri fikirləşirlər ki, insan birinci cəhənnəmdən keçməlidir və günahının borcunu ödədikdən sonra o Cənnətə keçəcəkdir. Amma digərləri də fikirləşirlər ki, Cənnət öz dini öhdəliklərinə sadiq olanlar üçün Allahın saxladığı yerdir, və orada insanlar yeyir-içir və həzz ardınca gedirlər. İnsanın Cənnət və ora düşmək haqda sözsüz çox fikirləri var. Amma bizim bu günkü marağımız insanların Cənnət haqda düşündükləri yox, Allahın Öz müqəddəs Sözündə o haqda nə dedikləridir!

Peyğəmbərlərin Yazılarında Cənnətin çox adları var. Ora *Göylər; Allahın taxtı; Allahın hüzuru; Allahın evi; Müqəddəs Allahın Məskəni; Müqəddəs Şəhər; Yaşayan Allahın Şəhəri; Səmavi Yerusəlim; mələklərin və Quzunun evi; Rəbb İsanın və Onun böyük izzətinin hüzuru; göylərdə adları yazılmış Allahın xalqının evi*. Rəbb İsa Cənnəti, "*Atamın evi,*" adlandırmışdır. Çünki O dünyaya gəlməzdən əvvəl orada idi.

Qısaca, Cənnət Allahın məskəndir. Gördüyümüz kimi Allah hər yerdədir; buna baxmayaraq xüsusi, müqəddəs, nurlu və gözəl bir yer vardır ki, Allah Öz izzəti ilə orada olur. O yerdə Haqq-Taalanın Oğlu İsa Külli-İxtiyarın sağında, Öz taxtında oturur, mühakimə etmək və hər şeyi yeniləşdirmək üçün dünyaya geri dönəcəyini gözləyir. Həmçinin Cənnət minlərlə və minlərlə mələklərin və Rəbb İsa Məsihin, Quzunun qanı ilə Allahın xilas etdiyi çox sayda insanların taxtı əhatə etdikləri yerdir.

İncilin axırıncı kitabı Vəhydə, axırıncı iki fəslində Allah həvari Yəhyaya göylərdə olan Müqəddəs Şəhəri göstərmişdir. Bu Allahın Həyat Kitabında adları yazılanlar üçün hazırladığı Cənnətdir. Bu Şəhər haqqında Müqəddəs Yazılar deyir:

(Vəhy 21:10-27) *O məni Ruhda böyük və uca bir dağın başına apardı. Oradan mənə göydən, Allahın yanından enən müqəddəs şəhəri ... göstərdi. Allahın ehtişamı orada idi; oradakı işıq ən qiymətli daş – büllur yaşəm daşı kimi parıldayırdı. Oranın böyük və uca divarı, on iki darvazası var idi. Darvazalarda on iki mələk durmuşdu. ....*

*Şəhər dördbucaqlı şəklində idi və oranın uzunluğu eninə bərabərdir..... Şəhər divarının təməlləri hər cür qiymətli daşla bəzədilmişdir... On iki darvaza on iki mirvaridən idi, hər darvaza bir mirvaridən düzəldilmişdi. Şəhərin baş küçəsi isə şüşə kimi şəffaf olan xalis qızıldan idi. Mən orada məbəd görmədim, çünki oranın məbədi* ***Külli-İxtiyar Rəbb Allah və Quzudur.*** *Şəhərin işıqlanması üçün nə günəşə, nə də aya ehtiyacı var, çünki* ***Allahın ehtişamı*** *oranı işıqlandırır, Quzu da oranın çırağıdır. Millətlər şəhərin işığında gəzəcək, yer üzünün padşahları cah-calalını oraya gətirəcək. Oranın darvazaları gündüz heç bağlanmayacaq, orada gecə olmayacaq. ...* ***Oraya murdar olan heç bir şey, iyrənc iş görən və yalan danışan heç kim əsla girməyəcək, yalnız adları Quzunun həyat kitabına yazılanlar girəcək.***

(Vəhy 22:1-5) *Mələk mənə həyat suyu axan çayı göstərdi. Bu çay büllur kimi parlaq olub* ***Allahın və Quzunun*** *taxtından çıxır və şəhərin baş küçəsinin ortasından axırdı. Çayın hər iki tayında on iki cür meyvə gətirən həyat ağacı var idi. O ağac hər ay meyvə gətirir. ... Daha lənətlənən heç bir şey olmayacaq.* ***Allahın və Quzunun taxtı*** *orada olacaq və qulları Ona ibadət edəcək. Onlar* ***Onun üzünü*** *görəcək, alınlarında* ***Onun adını*** *daşıyacaqlar. Artıq gecə olmayacaq, heç kəsin çıraq və günəş işığına ehtiyacı olmayacaq. Çünki* ***Rəbb Allah*** *onlara işıq verəcək və onlar əbədi olaraq padşahlıq edəcək.*

Beləliklə Allah Yəhyaya Onun Xilas Yolunu seçənlər üçün hazırladığı Müqəddəs Şəhəri göstərdi. Bu dərsin qalan hissəsini gəlin Allahın Öz Sözündə **Cənnətə aparan yol** haqda dediklərinə qulaq asaq. Biz necə əmin ola bilərik ki, biz cəhənnəmə yox Cənnətə gedəcəyik?

Sən İsa Məsihin Allahın evi və ora aparan yol haqqında şagirdlərinə dediklərini xatırlaya bilərsən? O onlara dedi:

(Yəhya 14:1-6) *Qoy ürəyiniz təlaşa düşməsin. Allaha iman edin, Mənə də iman edin. Atamın evində* ***çoxlu məskən var.*** *Əgər olmasaydı, sizə deyərdimmi ki,* ***sizin üçün yer hazırlamağa gedirəm****? Gedib sizin üçün yer hazırlayandan sonra yenə gəlib sizi Öz yanıma götürəcəyəm ki, Mənim olduğum yerdə siz də olasınız. Gedəcəyim yerə aparan yolu tanıyırsınız...* ***Yol, həqiqət*** *və* ***həyat*** *Mənəm.* ***Mənim vasitəm olmadan heç kim Atanın yanına gələ bilməz.***

İsa Məsihin dediyi sözlər bunlar idi. Onun Özü Yoldur. Müqəddəs Xilaskar olan Külli-İxtiyarın Oğlu vasitəsi ilə gəlməyən heç bir kəs Allahın müqəddəs hüzuruna daxil olmayacaqdır! **Heç vaxt!** Müqəddəs Yazılar bunu elan edir:

*"Səma altında biz insanlara verilən* ***başqa bir ad yoxdur*** *ki, onun vasitəsilə xilas olaq."* (Həvarilərin İşləri 4:12) *"Çünki bir Allah və Allahla insanlar arasında* ***bir Vasitəçi*** *vardır. O, İnsan olan Məsih İsadır. O hamını satın almaq üçün Özünü fidyə verdi..."* (1 Timoteyə 2:5,6)

Allahdan gələn Vasitəçi İsa Məsih Cənnətə aparan **Xilas Yoludur.** Günahkarları Allaha gətirmək üçün Məsih dünayaya gəldi, yer üzündə müqəddəs həyat sürdü, günaha görə Kamil Qurban kimi Öz qanını tökdü və üçüncü gündə ölülərdən dirildi. Onun vasitəçiliyi olmadan heç kim Allaha gedə bilməz. Sən buna inanırsan? Sən İsa Məsihin günahkarları Allahın hüzuruna aparan **tək yol** olduğunu görürsən? Bəlkə biz bunu **kiçik bir hekayə** ilə ifadə edə bilərik.

Cəngəlliyin ortasında, uzaq bir kənddə bir kişi yaşayırdı. O elə bir qəbiləyə məxsus idi ki, onlar paltar geyinmirdilər. Onlar sadəcə bellərinə kəmərə oxşar bir şey taxırdılar. Bu kişinin

bir parça torpağı var idi. Lakin ondan güclü bir adam gəldi və onun torpağını oğurladı və beləliklə onun becərmək üçün heç bir torpağı qalmadı. Heç kim onun torpağını geri qaytarmaq üçün kömək etmədi. Çünki onlara ödəyəsi pulu yox idi.

Bir gün o ölkənin hakimi olan Prezidenti görmək və ondan kömək istəmək üçün şəhərə getmək fikrinə düşdü. Çünki o eşitmişdir ki, Hakim ədalətli və şəfqətli adam idi. Beləliklə o qalxdı və yola düşdü. O böyük şəhərə və prezidentin sarayına çatana qədər getdi. Ah, necə də böyük və gözəl evdir! O evin darvazasına çatanda, çirkli və lüt olaraq ora daxil olmağa çalışarkən mühafizəçi ona dedi, "Ey! Sən nə edirsən?" O cavab verir: "Mən Presidentlə görüşmək istəyirəm." Mühafizəçi deyir: " Hah! Sən elə fikirləşirsən ki, kim necə istədi bura daxil ola bilər? Bir özünə bax! Bilmirsən ki, bura lüt və çirkli girmək olmaz? Get burdan ay kişi. Yoxsa səni həbsə ataram!"

Beləliklə, yazıq kişi geri döndü və getdi. Lakin o ruhdan düşmədi. O getdi və səhərdən axşama qədər diləndi. Sonra o özünə ucuz paltar aldı, geyindi və Hakimin sarayına qayıtdı. Darvazaya çatanda, mühafizəçi ona dedi: "Əynində paltar var, lakin səni ölkənin hakiminin yanına buraxmaq üçün sadə paltar kifayət deyildir. Hətta sən yaxşı geyinsən belə, daxil ola bilməzdin. Çünki Hakimin evinə **daxil olmaq üçün xüsusi icazən olmalıdır**. Ora daxil olmağa hüququn yoxdur! Get!

Bu sözlərdən kişi ruhdan düşərək dedi, "Nə faydası? Bütün bu əziyyətləri keçəndən sonra da mən hələ ölkənin Hakiminin yanına gedə bilmirəm!" Onun ümidi itdi və böyük narahatçılıq hissi ilə yolun kənarında oturdu. Amma, bütün bu şeylər baş verən zaman, ölkənin Hakimi onu görürdü. Hakimin böyük oğlu da orada idi. Hakim öz oğluna dedi, "Get və o adamın nə istədiyini öyrən." Hakimin oğlu bu kişiyə yaxınlaşaraq çöməldi və dedi, "Cənab, sizə necə kömək edə bilərəm? Sizi bura nə gətirib və nə üçün belə kədərlisiniz?" Kişi ona dedi, "Mən ölkənin Hakimini görmək istəyirəm, lakin bu qeyri-mümkündür. **Mənim bütün əziyyətlərim hədər idi!"**

Cavan adam ona dedi, "Mən ölkənin Hakiminin oğluyam və atam məni göndərdi ki, sənə kömək edim. Ardımca gəlin." Beləliklə o kişini prezidentin darvazasına gətirdi. Kasıb adamı içəri daxil olmağa qoymayan mühafizəçiyə yaxınlaşarkən və sarayın içərisinə daxil olarkən o onları böyük hörmətlə təzim etdi. Oğul kasıb adama geyinməyə qəşəng xələt verdi və birlikdə onlar prezidentin sarayına daxil oldular. Beləliklə, **Hakimin oğlunun köməyi və səlahiyyəti ilə kişi saraya daxil oldu və ölkənin Prezidentini görə bildi.**

Dostlar, Cənnətə, padşahların Padşahının sarayına daxil olmaq istəyən ilə də belədir. Kainatın Hakimi olan Allah yüksək və müqəddəsdir. Biz necə gəldi Onun hüzuruna daxil ola bilmərik! Biz öz zəhmətimiz ilə Onun hüzuruna daxil ola bilmərik. Bizim hamımız öz zəhməti ilə Prezidentin hüzuruna düşməyə çalışan o kasıb kişi kimiyik. Müqəddəs Yazılar deyir*: "Hamımız elə bil ki murdarlandıq, bütün saleh əməllərimiz murdar əskiyə bənzəyir."* (Yeşaya 64:6) Cənnət müqəddəs yerdir və *"Oraya murdar olan heç bir şey, iyrənc iş görən və yalan danışan heç kim əsla girməyəcək!"* (Vəhy 21:27) **Oradan gəlmiş Müqəddəs Olandan başqa heç kim bizi müqəddəs yerə apara bilməz!** O müqəddəs şəxs Külli-İxtiyarın Əbədi Oğlu, Allahın Quzusu, Cənnətdən gəlmiş, günahı aradan qaldırmaq üçün qurban kimi ölmüş, ölülərdən dirilmiş və Cənnətə qayıtmış İsa Məsihdir!

Onda, kim Cənnətə daxil ola bilər? Yalnız Xilaskar İsaya iman etmiş və Onun tökdüyü qan ilə təmizlənmiş şəxslər. Yalnız onlar Cənnətə daxil olacaqlar! Müqəddəs Yazılar bəyan edir:

*"Heç kəsə fərq qoyulmur. Çünki hamı günah edib, Allahın izzətindən məhrum olub  və Onun lütfü ilə də Məsih İsada satın alınmağa nail olaraq bir hədiyyə kimi saleh sayılır.  Allah İsanı kəffarə qurbanı olaraq təqdim etdi ki, iman edənlərin günahları Onun qanı vasitəsilə bağışlansın."* (Romalılara 3:22-25) *" Biz insanların şəhadətini qəbul edirik, amma Allahın şəhadəti bundan üstündür. Çünki bu, Allahın şəhadətidir; O Öz Oğlu barədə şəhadət edib. Allahın Oğluna iman edən kəs öz daxilində bu şəhadətə malikdir. Amma Allaha inanmayan Onu yalançı yerinə qoyub. Çünki Allahın Öz Oğlu barədə verdiyi şəhadətə inanmayıb.* ***Bu şəhadət ondan ibarətdir ki, Allah bizə əbədi həyat verib və bu həyat Onun Oğlundadır. Oğula malik olan şəxsin həyatı var, Allahın Oğluna malik olmayan şəxsin isə həyatı yoxdur.*** *Bunları sizə – Allahın Oğlunun adına iman edənlərə yazdım ki, əbədi həyata malik olduğunuzu biləsiniz.* (1 Yəhya 5:9-13)

Bu gün bizi dinləyən şəxs, sən əbədi həyatının olduğunu **bilirsən?** Əminsən ki, sən Cənnətə düşəcəksən və əbədiyyən Allahın hüzurunda şənlənəcəksən?  Allahın Oğlunun Adına iman gətirmisən? Sənin adın Quzunun həyat kitabında yazılıbdır?

Bu gün eşitdiklərin haqda diqqətlə düşün. Çünki Allah istəyir ki, sən bunların hamısını dərk edəsən....

Allahın Müqəddəs Sözündə olan bu güclü ayə üzərində düşündükcə, Allah sizə xeyir-dua versin:

***"Allahın Onu sevənlər üçün hazırladıqlarını nə göz görüb, nə qulaq eşidib, nə də insan ürəyi dərk edib."*** (1 Korinflilərə 2:9)

99-cu Dərs

# Sən İsa Haqqında Nə Düşünürsən?

**1-ci Hissə**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Uzun müddətdir ki, biz günahkarların Allah qarşısında saleh sayıla biləcəkləri Allahın qoyduğu salehlik yoluna baxmaq üçün Peyğəmbərlərin Yazılarını nəzərdən keçirirdik. Biz İsa Məsihin Allahın peyğəmbərlərinin yazılarını necə yerinə yetirdiyini gördük. Bu gün və sonrakı dərsdə biz bütün peyğəmbərlərin haqqında danışdıqları Yeganə Olanın izzətini sizinlə təkrarlamağı nəzərdə tuturuq. Peyğəmbərlərin yazılarını ardıcıllıqla öyrənməkdə son iki dərsimiz, **"Sən İsa Haqqında Nə Düşünürsən?"** adlanır.

Incildəki dərslərimizdə biz İsanın xalqdan ***"Məsih haqqında nə düşünürsünüz? O kimin Oğludur?"*** (Matta 22:42) soruşduğunu eşitdik. Bu, həyatda hər birimizin cavab verməli olduğu ən mühüm sualdır. Bizim bundan sonrakı taleyimiz bu suala cavabımızdan asılıdır! Tezliklə İsa Məsih geri dönəcəkdir və O gələndə Səndən Öz dövründəki insanlardan soruşduğu kimi soruşacaqdır, "Bəs sən necə? Sən mənim haqqımda nə düşünürsən?"

Bizim məqsədimiz İsanın həqiqətən kim olduğunu agah etməkdir. Bizim ən böyük qayğımız budur ki, heç kim sizi bu mövzuda aldatmasın. Biz sizdən rica edirik ki, İsa Məsihin sadəcə peyğəmbərlərdən biri olduğunu, yaxud insanlar arasında adi yaxsı bir adam olduğunu sanmayasınız. Xeyr, O **nadirdir!** Nə bu dünyada nə də gələcək dünyada Onun bərabəri yoxdur. Sən Onun haqqında nə düşünürsən? Səncə O kimdir? Isa Məsih haqda sizdən soruşmaq istədiyimiz on sual var. Beşini bu proqramda verəcəyik, beşini isə gələn.

1) **Birinci, sən Onun möcüzəli doğuluşu barədə nə düşünürsən?**

Heç kim Onun kimi doğulmamışdır. O *Məryəmin Oğlu* İsadır. Sən bilirsən ki, Yəhya *Zəkəriyyənin oğlu* adlandırılmışdır, Süleyman *Davudun oğlu*, İsmayıl *İbrahimin oğlu.* Hamı öz atasının soyadını daşıyır. Yaxud atasının adını öz adına əlavə edir. Lakin İsanın vəziyyətində isə nə üçün Onun anasının adı Onun adı ilə bağlanmışdır? Çünki Onun yer üzündə atası yox idi. O bakirə olan gənc qızdan doğulmuşdur. O Allahın qüdrəti ilə doğulmuşdur. Məsihin doğuluşundan təxminən yeddi yüz il əvvəl, Yeşaya peyğəmbər Onun necə doğulacağını belə demişdir, *"Bakirə qız hamilə olub oğlan doğacaq, adını İmmanuel qoyacaq. «İmmanuel» «Allah bizimlədir» deməkdir!"* (Yeşaya 7:14; Matta 1:23)

Allah ulubabamız Adəmi yerin tozundan yaratmışdır. Bizim hamımız, peyğəmbərlərin də olduğu kimi Adəmin nəslindənik. Biz yerdənik. Amma Rəbb İsa göylərdəndir. Bizim hamımız günahlarımıza görə çirkli torpaq kimiyik. Lakin İsa göylərdən gələn yağış kimidir. O Allah kimi müqəddəs və pak idi. İncil deyir: *"Məsih İsa **günahkarları xilas etmək üçün dünyaya gəldi.**"* (1 Timoteyə 1:15) İsa dünyaya gəlməzdən əvvəl Allahın hüzurunda idi. Çünki O Allahın Sözü və Allahın Ruhudur. Onun Özü bizi günahlarımızdan xilas etmək üçün gəlib insan bədəni almağı seçdi. O yuxarıdan gəldi.

Bir hekayədə dərin quyuya düşmüş iki nəfər haqqında danışılır. Biri digərinə dedi, "Ay adam, məni bu pis zalım yerdən xilas et! Məni bu bataqlıqdan çıxart!" Amma digəri ona dedi, "Axmaq, biz ikimiz də bu quyuda olduğumuz halda mən səni necə çıxarda bilərəm burdan?!" Onların ikisi də orada idi və heç biri o birinə kömək edə bilməzdir. Sonra onlar yuxarıdan quyuya salanmış kəndirdən tut deyən bir səs eşitdilər. **Yalnız quyuya düşməyən kimsə onlara kömək edə bilərdi.**

Peyğəmbərlərin ən yaxşıları belə bizi günahın dərinliklərindən xilas edə bilmədi. Çünki onların özləri də günahkar idilər. Amma İsa, insanlar kimi günahlı təbiətə malik deyildir. O yuxarıdan gəlmişdir. O bakirədən doğulmuşdur. Biz həmçinin gördük ki, Allah Öz mələyini göndərdi və müqəddəs Məsihin, dünyanın Xilaskarının doğuluşunu elan etmək üçün səmada böyük bir ulduz yerləşdirdi! Bunların hamısı necə də möcüzəli idi! Heç kim bu Adam kimi doğulmamışdır. O Öz doğuluşunda unikaldır. O müqayisə edilməzdir! Amma İsanın böyüklüyü Onun doğuluşu ilə bitmir. İsa həmçinin Öz xasiyyətində də nadirdir. Beləliklə ikinci sual budur:

2) **Sən Onun müqəddəs xasiyyəti haqqında nə düşünürsən?**

Isa kamil idi. O heç vaxt bir günah belə işlətməmişdir. O heç vaxt bağışlanma istəməmişdir. Çünki heç vaxt heç kimə qarşı günah işlətməmişdir. Allahdan qorxan hər bir kəs öz günahından tövbə etməli və bağışlanma istəməlidir. Bütün peyğəmbərlər bunu etmişdilər. Amma sən Allahın Sözünü başlanğıcdan sona qədər araşdıra bilərsən. Lakin bir ayə belə tapmayacaqsan ki, orada Rəbb İsanın bağışlanma istədiyini desin. Onun dostları da düşmənləri də şahid idilər ki, Onun heç bir səhv hərəkətini görməmişdilər. O heç vaxt günah işlətmədiyinə görə tövbəyə ehtiyacı yox idi. Dostlar, elə bir başqa adam yoxdur ki, o günahsız olsun. Rəbb İsa peyğəmbərdən üstündür. O yer üzündə insan forması almış Allahın Sözüdür. İsa həmçinin Öz Sözlərində də nadirdir.

3) **Sən Onun sözləri barədə nə düşünürsən?**

Bir gün Onun düşmənləri Onu həbs etmək üçün əsgərlər göndərdilər. Onlar çatanda və Onun təliminə qulaq asanda, Onu həbs etməmiş geri qayıtdılar. Onlar heyrətləndilər və dedilər, *"Hələ indiyəcən heç bir insan belə danışmayıb!"* (Yəhya 7:46)

Onun Özü barəsində dediklərinə fikir ver. ***"Dünyanın nuru Mənəm****. Mənim ardımca gələn heç vaxt qaranlıqda gəzməyəcək, həyat nuruna malik olacaq."* (Yəhya 8:12) Peyğəmbərlər qaranlıqda zəif işıq saçan ay və ulduzlar kimidirlər. Lakin İsa günəş kimidir. Günəş çıxdığı halda kimə ayın və ulduzların işığı lazımdır? Peyğəmbərlər Məsihi *"Salehlik günəşi"* (Malaki 4:2) adlandırdılar. Peyğəmbərlər kiçilən aypara kimidirlər. İsa isə günəşdir. Sən günəşin kiçildiyini görmüsən? Xeyr, o heç vaxt kiçilmir. O bütün materikləri işıqlandırır. İsa Məsih günəşdir. O heç vaxt yox olmayacaqdır. O dünyadakı bütün millətlər üçündür.

İsa dedi, ***"Yol, həqiqət və həyat Mənəm."*** (Yəhya 14:6) İsa göstərişlər verən "Bunu et, bu təlimi izlə. Yol odur. Bu əmrlərə əməl et...." deyən dini rəhbərlərdən fərqli idi. Rəbb İsa deyir, "Yol M**ənəm.** Mənə inan. Mənə gəl və əbədiyyən Allahın hüzurunda olmaq hüququna malik olacaqsan." **İsanın Özü yoldur.** Gəlin bunun nə demək olduğunu təssəvür edək.

Balaca bir oğlan böyük bir şəhərdə itib. Uşaq polisdən xahiş etdi ki, ona məhəlləyə geri qayıtmağı başa salsın. Polis ona dedi, "Düz get, ikinci döngədən sola dön, üçüncü tindən sağa dön, körpünü keç, dairə olacaq və sonra ikinci əsas yola keç...." Uşaq hönkürməyə

başlayır. Polis ona yolu başa saldı. Lakin uşaq çox çaşmışdır və ona başa salınan yol ilə getməyə qorxurdu. O zaman qonşuluqdan bir adam gəldi. Uşağın əlindən tutdu və onu apardı. Uşaq yeriməkdən yorulanda, o adam onu evə çatana qədər qucağında apardı. Polis işçisi **yolu başa salmışdır**. Amma digər adam isə **yolun özü idi**. Isa dedi: **Yol Mənəm.** Mən göylərə, Allahın evinə gedən yolam. *"Yol, həqiqət və həyat Mənəm. Mənim vasitəm olmadan heç kim Atanın yanına gələ bilməz."* (Yəhya 14:6) Heç kim heç vaxt Rəbb İsa kimi danışmayıbdır! O nadirdir. O müqayisə edilməzdir! Amma İsanın izzəti Onun doğuluşu, xasiyyəti və sözləri ilə məhdudlaşmır. Biz bunu həmçinin Onun əməllərində də görə bilərik.

4) **Sən İsanın qüdrətli işləri barədə nə düşünürsən?**

O hər şey edə bilər. Bütün səlahiyyət və hakimiyyət Ona verilibdir. Allahın etdiyi bütün işləri İsa yer üzündə etdi ki, insanlara haradan gəldiyini və kim olduğunu göstərsin. Allahdan başqa kim küləyi sakitləşdirə bilər? İsa küləyi sakitləşdirdi. Allahdan başqa kim ölünü dirildə bilər? İsa ölünü diriltdi. Allahdan başqa kim korun gözlərini aça bilər: İsa onu da etdi. O hər cür xəstəliyə şəfa verdi. Onun bir sözü ilə cinlər çıxdı. O çox insanların həyatlarını dəyişdi və onları günahdan xilas etdi. Allah bəzi peyğəmbərlərə xüsusi möcüzələri etmək üçün qüdrət vermişdir. Lakin Rəbb İsa möcüzələri Öz səlahiyyəti və qüdrəti ilə edirdi. O iflic adamın yanında duran və onun gözlərinə baxaraq belə deyə biləndir, ***"Sənə deyirəm,** qalx, yatağını götür, evinə get!"* (Luka 5:24) Adam qalxdı və Allaha həmd edərək evə getdi! Isa dərman yaxud sehrbazlıq ilə şəfa vermədi. Yalnız Öz sözünün səlahiyyəti və qüdrəti ilə O xəstələrə şəfa verdi.

Lazar adlı bir nəfər ölmüş və dəfn olunmuşdur. İsa gəlib çatanda Lazar artıq dörd gün idi ki, dəfn olunmuşdur. İsa məzara yaxınlaşdı və dedi, *"Lazar, bayıra çıx!"* (Yəhya 11:43) Adam məzardan çıxdı. İsada ölünü diriltmək səlahiyyəti var və buna görə O deyə bilir, ***"Dirilmə və həyat Mənəm!"*** (Yəhya 11:25) Gün gələcək ki, qəbirdə olanların hamısı Onun səsini eşidəcək və dirilib Onun önündə dayancaqdır. Əziz dinləyici, sən də əgər ölmüş olsan qəbirdən diriləcəksən. Hətta indi əgər sən Ona öz Xilaskarın və Rəbbin kimi iman etsən Rəbb İsa sənə yeni həyat və əbədiyyən cənnətdə yaşamaq hüququ verə bilər. İsa hələ də dünyanın hər bir tərəfində çox insanların həyatını kökündən dəyişir. O sənin həyatını da dəyişə bilər. Sən İsa barədə nə düşünürsən? Sən Onun işləri barədə nə düşünürsən? O nadirdir. O qüdrətlidir. O müqayisə edilməzdir! Biz bu gün bitirməzdən əvvəl izn verin İsa barədə sizdən daha bir sual soruşaq:

5) **Sən Onun adları və titulları barədə nə düşünürsən?**

Peyğəmbərlərin Yazılarında gördüyümüz kimi, İsanın yüzlərlə adları və titulları var. Bu adlar bizim Onu daha yaxşı tanımamıza kömək edir. Misal üçün: *İmmanuel....Kəlam... Bəşər Oğlu.... Allahın Quzusu... Qurtarıcı...S atınalan....X ilaskar.... Həyat Çörəyi... Həqiqi Meynə....Yaxşı Çoban.... Dünyanın Nuru....İzzətli Rəbb...Dirilmə... Alfa və Omeqa, Birinci və Sonuncu, Başlanğıq və Son....Qapı...Yol, Həqiqət və Həyat....və* ***Allahın Oğlu!***

Bir gördük ki, Allahın peyğəmbəri Musa *Allah adamı* adlandırılmışdır. İbrahim peyğəmbər *Allahın dostu* adlandırılmışdır. Amma yalnız Bir Şəxs ***Allahın Oğlu*** adlandırılmışdır. Bizə söylə, insana ən yaxın kim ola bilər dostu ya oğlu? Ürəyində olanı de. Bəli, İsa Allahın Oğlu adlandırıldı. Allah İsanı digərlərindən ayırmaq üçün Onu Öz Oğlu adlandırdı. Biz İncildə oxuduq ki, Allah İsa haqqında belə bəyan etmişdir, *"Bu Mənim sevimli Oğlumdur, Ondan razıyam, Ona qulaq asın!"* (Matta 17:5) Allah nə demək istəyirdi? Biz deyirik ki, oğul atasının kölgəsidir. Oğul atanın surətinin əksidir. İsa bizə Allahın necə olduğunu göstərir.

Müqəddəs Yazılar bəyan edir: *"Allahı heç kəs heç vaxt görməyib, amma Atanın qucağında olan və Allah olan vahid Oğul Onu tanıtdı."* (Yəhya 1:18) Sən Allahı tanımaq və əbədiyyən Onunla gözəl münasibətə malik olmaq istəyirsən? Onda Allahın Oğlum adlandırdığı Rəbb İsaya gəl. Oğul Atasının İsmi ilə danışa bilər. İsa insanlar arasında olanda bunu edirdi. Buna görə də O İmmanuel adlandırıldı və bu ***Allah bizimlədir*** deməkdir.

Bəziləri düşünürlər ki, Allah insan formasında yer üzündə peyda ola bilməz. Biz kimik ki, Allkahın qadir olub olmadığını  müzakirə edək? Amma belə düşünən kəs Allahın günahkarları xilas etmək üçün hazırladığı planını hələ də başa düşmür. Onun planı Allahın Əbədi Oğluna Özünü Adəmin övladlarına tanıtmaq və iblisin əlindən xilas etmək üçün yer üzündə insan bədənində gəlməsini məqbul hesab edirdi. Dostlar, **Allah Alidir** və O hər şey edə bilər. Allah istəyir ki, hamı Onu tanısın. Buna görə də O insan oldu və yer üzündə yaşadı.

Sən İsa Məsihin adları və titulları barədə nə düşünürsən? O müqayisə edilməzdir. Sən Onun doğuluşu, Xasiyyəti, Sözləri və İşləri barədə nə düşünürsən? Sən Onun kim olduğunu hesab edirsən? *"Sən Məsih haqqında nə düşünürsən? O kimin oğludur?* (Matta 22:42)

Allahın iradəsi ilə gələn dərsdə biz İsa haqqında insanları maraqlandıran daha beş suala cavab verəcəyik.....

Müqəddəs Yazılardan bu ayə üzərində düşündükcə, Allah sizə xeyir-dua versin:

***"Allahın tam bütövlüyü bədəncə Məsihdə yaşayır. Siz də Onda tamamlanmısınız."***
(Kolosselilərə 2:9,10)

100-cü Dərs

# Sən İsa Haqqında Nə Düşünürsən?

**2-ci Hissə**

**Sülh** olsun sizə! Sülh Allahının adı ilə sizləri salamlayırıq! O, istəyir ki, bizim hamımız Onun yaratdığı salehlik yolunu başa düşək, Ona itaət edək və Onunla həmişəlik əbədi sülhdə olaq. Biz bu gün də sizinlə olmağa və *Salehlik Yolu* proqramını sizə təqdim etməyə çox şadıq.

Bu gün biz ötən dərsizimdə "Sən İsa Haqqında Nə Düşünürsən?" adlı söhbətimizi davam etdirəcəyik. Bu sual çox vacibdir. Çünki əbədiyyəti harada keçirəcəyimiz bizim İsa Məsih barədə nə düşündüyümüzdən asılıdır. Ötən dərsizimizdə biz sizdən Onun möcüzəli doğuluşu, **müqəddəs xasiyyəti, gözəl sözləri, qüdrətli işləri və yüksək titulları** haqda nə düşündüyünüzü soruşduq. Bu gün İsa barədə sizə veriləsi digər beş sualımız da var. Birinci sual budur:

6) **Sən Onun ölümü barədə nə düşünürsən?**

Sən **harada** öləcəyini bilirsən? Yaxud **necə** öləcəyini bilirsən? Sən **nə vaxt** öləciyini bilirsən? Sən və mən etiraf etməliyik ki, biz bu şeylər barədə heç nə bilmirik. Lakin İsa bizim kimi deyildir. O harada öləcəyini bilirdi və bunu elan etdi. O Yerusəlimdə öləcəkdi. O həmçinin necə öləcəyini də qabaqcadan demişdir. O şagirdlərinə dedi,

*"Bax Yerusəlimə qalxırıq, Bəşər Oğlu üçün peyğəmbərlər vasitəsilə yazılanların hamısı tam yerinə yetəcək. Çünki O, başqa millətlərə təslim ediləcək. Onlar Onu ələ salıb təhqir edəcək, Ona tüpürəcək və qamçılayıb öldürəcəklər. O, üçüncü gün diriləcək."* (Luka 18:31-33)

O şagirdlərinə nə vaxt öləcəyini, yəni Yəhudilərin Pasxa bayramını keçirtmək üçün qoyun qurban verdikləri eyni gündə olacağını da demişdir. O Allahın Quzusu kimi, dünyanın günahını aradan qaldıran qurban kimi həmən gündə ölməli idi.

İsanın ölümü bütün digər ölümlərdən fərqli idi. Çünki Onun Özü **ölməyi seçdi.** Biz İsanın, *"Canımı Məndən heç kəs ala bilməz, amma onu Özüm verirəm. Onu verməyə də, sonra geri almağa da ixtiyarım var."* (Yəhya 10:18) dediyini eşitdik. İsa heç vaxt günah işlətməmişdir; buna görə də O ölümdən yan keçə bilərdi. O sadəcə olaraq ölümdən keçməmiş haradan gəlmişdirsə, ora da geri dönə bilərdi. Lakin O Atasının iradəsinə itaət etmək və günahkarlara olan sevgisinə görə ölməyi seçdi. O insanlara Onu çarmıxa mismarlamağa izn verməklə Öz həyatını bizə görə verdi. O günahlarımızın əhvini və Cənnətdə bizim üçün yerin olmasının təminatı üçün öldü. Məsihin dünyaya gəlməsindən təqribən yeddi yüz il əvvəl Allahın peyğəmbəri Yeşaya Satınalanın nə üçün öləcəyi barədə demişdir:

*"Bizim üsyankarlığımıza görə onun bədəni deşildi, şər əməllərimiz naminə əzildi, bizim əmin-amanlığımız üçün o cəza aldı, Onun yaraları ilə biz şəfa tapdıq. Hamımız qoyun kimi yolu azmışdıq, hər birimiz öz yolumuzla gedirdik. Rəbb hamımızın şər əməllərinin yükünü onun üzərinə qoydu."* (Yeşaya 53:5,6)

Sən və mən İsa Məsihin ölməsinin səbəbiyik. O qoyunlarına görə Öz canını verən Yaxşı Çobandır. Heç bir insan Onun kimi ölməyibdir. O müqayisə edilməzdir. O insanlar arasında nadirdir.

Hər bir kəsin cavab verməli olduğu digər mühüm bir sual budur:

7) **Onun dirilməsi olan ölüm üzərində qələbə barədə nə düşünürsən?**

İsa öldü və dəfn olundu. Onun düşmənləri qəbiri qorumaq üçün əllərindən gələn hər şeyi etdilər. Onlar qəbirin ağzını bağlamaq üçün böyük daş qoydular və onu möhkəm möhürlədilər. Əsgərlər qoydular ki, oranı qorusunlar. Amma onların bütün zəhmətləri İsanın ölülərdən dirilməsini dayandıra bilmədi. Həqiqətən Rəbb İsa üçüncü gün ölülərdən dirildi və Öz şagirdlərinə göründü. Ondan sonra O eyni vaxtda daha beş yüz nəfərə göründü. O insanlar Onu gördülər, Ona toxundular və Onun dirilməsindən sonra Onunla birlikdə yedilər. O onlara əllərində, ayaqlarında və böyründə olan yaralarını göstərdi. Bəli, O qabaqcadan deyildiyi kimi ölülərdən dirildi! Allah İsanın çarmıxdakı işindən və günahı ödəyən son Qurban olduğundan razı olduğunu dünyaya sübut etmək üçün Onu ölülərdən diriltdi.

Ölüm böyük düşməndir. Bizim ulubabalarımız ölüblər. Peyğəmbərlər də həmçinin ölüblər və onların cəsədləri öz qəbirlərindədir. Biz də bir gün öləcəyik. Lakin Allaha şükür olsun ki, **İsa Məsih ölümə qələbə çalıb!** O yaşayan Xilaskardır və Onun vasitəsi ilə Allaha gələn hər bir kəsi xilas edə bilir. Çünki O sağdır və Ona inanan hər bir kəs üçün vəsatət edir. Bu gün hansısa ölmüş peyğəmbərlərdən sağ olanı var? Xeyr, yoxdur. İsa Məsih qəbirə qələbə çalan Yeganə Biridir. Bu gün O sağdır və buna görə də Ona iman edənlər ölümdən qorxmurlar. Ölmək, sadəcə olaraq göylərə, Rəbbimiz ilə birlikdə olmağa getməkdir. Bəli, İsa nadir və müqayisə edilməzdir. Onun nə yerdə, nə də ki, göylərdə bərabari var. Sən Onun ölüm üzərində qələbəsi barədə nə düşünürsən? Digər sual:

8) **Sən Onun göylərə qalxması barədə nə düşünürsən?**

Rəbb İsa ölülərdən diriləndən sonra O qırx gün ərzində Öz şagirdlərinə göründü. Sonra biz onlarla sağollaşdığını, göylərə getdiyini və Allahın sağ tərəfində, ən şərəfli yerdə oturduğunu və bununla mələklərdən, peyğəmbərlərdən və bütün insanlardan daha üstün olduğunu göstərdiyini eşitdik! Buna görə də Müqəddəs Yazılar bəyan edir:

*"Allah Onu **çox ucaltdı** və Ona lütflə **bütün adlardan ali bir** ad verdi ki, göydə, yerdə və yerin altında olanların hamısı İsanın adına ehtiram edərək diz çöksün və hər dil Ata Allahın izzəti üçün İsa Məsihin **Rəbb** olduğunu bəyan etsin."* (Filiplilərə 2:9-11)

Bəli, İsa nadirdir. O müqayisə edilməzdir! Bununla əlaqəli cavab verəcəyin digər bir sual:

9) **Sən Onun yerə qayıdışı haqqında nə düşünürsən?**

Isa Məsih geri dönəcəkdir. O bunu bəyan edib. Peyğəmbərlər bunu bəyan ediblər. Mələklər də belə deyiblər. Məsihin bütün həqiqi şagirdləri Onun gəlişini gözləyirlər. O geri dönəcək və Öz xalqını göylərə aparacaqdır. O dünyanı ədalətlə mühakimə edəcək və bütün dünya üzərində hökm sürəcəkdir. O dünyanın Padşahı olacaqdır. Bütün düşmənlərinin Onun ayağı önündə diz çökənə qədər O min il padşahlıq edəcəkdir. Bəli, O tezliklə geri dönəcəkdir. Hamı Onun padşahların Padşahı, rəbblərin Rəbbi olduğunu etiraf edəcəkdir. O gəlir və sən Onun, Böyük Hakimin qarşısında dayanacaqsan. Onunla üzbəüz gəldiyin gündə O səndən soruşacaqdır, "**Sən Mənim haqqımda nə düşünürdün?**" Sən nə cavab verəcəksən? Əgər sən, "Mən düşünürdüm ki, sən sadəcə peyğəmbərlərdən biri idin," desən, onda O səndən nə üçün Ona səmimi qəlbdən inanmadığını soruşacaqdır və sən məhkum olunacaqsan. Çünki sən Onun Özü barədə dediklərinə, nə də ki, peyğəmbərlərin Onun göylərdən gəlmiş **Allahın Oğlu və**

**tək Xilaskar** olduğu haqqında yazdıqlarına inanmadın. Kim padşahlıq etməyə gələcəkdir? İbrahim, Musa, Davud yoxsa başqa bir peyğəmbər padşahlıq etməyə gələcəkdir? Xeyr. Rəbb İsa Məsih geri dönəcəkdir. O **Hakim** olacaqdır. Allah Onu ölülərdən diriltməklə bunu sübut etdi. O geri dönəcəkdir. Hər bir kəs Onu görəcəkdir. Hər bir diz Onun qarşısında çökəcəkdir. Hər bir dil *"İsa Məsih Rəbbdir!"* deyə elan edəcəkdir.

Indi isə biz sonuncu suala gəlib çatdıq:

10) **Onun səndən tələb etdikləri barədə nə düşünürsən?**

Rəbb İsa deyir, *"Ey bütün yorğunlar və yükləri ağır olanlar,* ***Mənim yanıma gəlin, Mən sizə rahatlıq verərəm.*** *Mənim boyunduruğumu üzərinizə götürün və Məndən öyrənin. Çünki Mən həlim və qəlbən itaətkaram. Bununla canınıza rahatlıq taparsınız."* (Matta 11:28,29) O bu gün səni çağırır. O ilk şagirdlərini Onun ardınca getməyə çağıranda, onlar hər şeylərini tərk etdilər: öz evlərini, ailələrini və öz işlərini. O istəyir ki, sən də elə edəsən. Bu o demək deyil ki, sən İsanın ardınca getmək üçün öz evini və işini qoymalısan. Amma sən bütün həyatını Ona təslim etməlisən və qəlbində birinci yeri Ona verməlisən. O istəyir ki, sən Ona etibar edəsən və Onu öz Xilaskarın və Sahibin kimi qəbul edəsən. O səni bütünlüklə istəyir. Sənin düşüncəni, qəlbini, bədənini və canını. Əgər O kim olduğunu iddia edəndirsə, onda Onun bütün tələb etdiyi şeylər məntiqidir.

Gördüyümüz kimi, İsa Məsih nadirdir və heç kim ilə müqayisə edilə bilməz. O **doğuluşunda, xasiyyətində, təlimində, işlərində, Öz adında və titullarında, əzablarında və ölümündə, dirilməsində, göylərə qalxmasında və geri dönməsində, Adəmin övladlarının ürəyini dəyişə biləcək Öz qüdrətində** nadirdir. Bu gün O sağdır. O Ona iman edən hər bir kəslədir. Tezliklə O geri dönəcəkdir. Nə yer üzündə və nə də ki, göylərdə Ona bənzəri yoxdur. Buna görə də Onda sənin həyatının Padşahı və Rəbbi olmaq səlahiyəti vardır! Rəbb İsa Məsih sənin Xilaskarın və Rəbbin olamq istəyir. Buna görə O çarmıxda öldü və sonra dirildi! Onda sənin günahlarını yumaq və əbədiyyən Allah ilə dərin və gözəl münasibət verə biləcək güc vardır. O sənə yeni həyat verə bilər. Ürəyini təmizləyə bilər və Müqəddəs Ruhun qüdrəti ilə səni yeniləşdirə bilər. Amma sən Ona və Onun qurbanına etibar etməlisən.

Təəssüf ki, çox insanlar İsa Məsihi böyük peyğəmbər sanırlar. Lakin Onu öz Rəbbləri və Xilaskarları kimi heç vaxt qəbul etməyiblər. İsaya sadəcə böyük bir peyğəmbər kimi inanmaq kifayət deyildir! **Sən Allah ilə razılaşmalısan ki, İsa *hər şeyin* Rəbbidir və O çarmıxda öləndə, *sənin* yerinə ölüb.** Adəmin övladları olan bizlərin hamısında ciddi problem var: bu **günahdır**. Öz böyük mərhəmətində Allah bizim problemə **əlac** təmin edibdir. Lakin **biz onu qəbul etməliyik.** Əgər mən xəstəyəmsə və həkimə gedirəmsə, o mənə dərman yazır. Beləliklə mən gedirəm və dərmanı alıb evə qayıdıram. Onu masaya qoyuram. Dərmana baxıram, dərman da mənə baxır. Bu məni sağaldacaq? Xeyr! Sağalmaq üçün mən dərmanı götürməliyəm və **göstərildiyi kimi** qəbul etməliyəm. Allahın dərmanı Rəbb İsa Məsih və Onun çarmıxda tökdüyü qandır.

Bəlkə kimsə soruşur, "Mən günahıma görə Allahın əlacını necə götürə bilərəm?" Çox sadə. Sən Allaha etiraf etməlisən ki, günahkarsan və sənin "yaxşı işlərin" Onun önündə çirkli bir əski kimidir və sən özünü Onun saleh məhkəməsindən xilas edə bilməzsən. Sən inanmalısan ki, Rəbb İsa Məsih sənin günahlarının cəzasını daşıyıbdir. İsa Məsih Allahı mühakimə tələbində tamamilə razı salıb. Əgər sən inansan ki, Məsih səni xilas etmək üçün ölüb və dirilibdir, onda Allah sənin günahlarını bağışlayacaqdır, Məsihin salehliyinə bürüyəcəkdir, Öz

Müqəddəs Ruhunu qəlbinə göndərəcəkdir və əbədiyyən Onunla yaşamaq hüququ verəcəkdir! Allaha izzət olsun. Əgər inansan, bu gün sən saleh ola bilərsən!

Əziz dost, sənə günah xəstəliyindən şəfa verə biləcək və cəhənnəmin əbədi alovundan xilas edə biləcək olan "Allahın dərmanını" götürmüsən? Allahın dərmanı olan **İsanın tökdüyü qana** xor baxan hər bir kəs bilməlidir ki, günahı sağaldan **başqa bir dərman yoxdur**. Heç yoxdur! Allahın Özü qarşısında günahkarı təmizləmək və saleh saymaq üçün göstərdiyi yol budur. Cənəttə **başqa yol yoxdur.**

Günahkarların Allahın Önündə saleh sayılmaları üçün Allahın təmin etdiyi yeganə yol və salehlik yolu haqqında Müqəddəs Yazılarda deyilənlərə diqqətlə qulaq as:

(Romalılara 3:20-27) *Qanuna əməl etməklə **heç bir insan Allahın önündə saleh sayılmayacaq**.... Amma indi Qanuna bağlı olmayaraq **Allahdan gələn salehlik** zahir olub. Buna Qanun da, Peyğəmbərlərin yazıları da şəhadət edir.**Allahdan gələn bu salehlik İsa Məsihə iman vasitəsilə Ona iman gətirənlərin hamısına verilir.** Heç kəsə fərq qoyulmur. Çünki hamı günah edib, Allahın izzətindən məhrum olub və Onun lütfü ilə də **Məsih İsada satın alınmağa nail olaraq bir hədiyyə kimi saleh sayılır...**. Bəs biz nə ilə öyünə bilərik? Heç bir şeylə. Hansı ehkama əsaslana bilərik? Qanuna əməl etmək ehkamınamı? Xeyr, yalnız **iman** ehkamına!*

*"Çünki **iman vasitəsilə**, lütflə xilas oldunuz. Bu, **sizin nailiyyətiniz deyil, Allahın hədiyyəsidir.** Əməllərlə deyil ki, heç kim öyünə bilməsin."* (Efeslilərə 2:8,9) *"Əgər sən İsanın Rəbb olduğunu dilinlə iqrar edib Allahın Onu ölülər arasından diriltdiyinə ürəkdən inansan, **xilas olacaqsan**.... Çünki «**Rəbbin** adını **çağıran** hər kəs **xilas olacaq**!"* (Romalılara 10:9,13)

Əziz dost, sən Rəbbin adını çağırmısan? Sən Allahın xilas hədiyyəsini qəbul etmisən? Yoxsa sən hələ də öz əməllərinlə xilas olmağa çalışırsan? Allahın Xilas yolunu rədd etməməyi səndən rica edirik. Allah sənin qəlbini bilir. Ona etiraf et ki, sən günahlısan və Onun müqəddəs qanununu pozmusan. Ona çox böyük mühakiməyə layiq olduğunu de. Sonra isə sənin yerinə, könüllü olaraq əzab çəkən, əbədi cəzanı götürən və məzardan dirilən günahsız Xilaskarı göndərdiyinə görə təşəkkür et!

Əziz dost, sən ancaq Allaha Onun qoyduğu salehlik yolu ilə gəlməlisən, başqa yolla heç gələ bilməzsən. Mərhəmətli, Şəfqətli Allah səni gəlməyə dəvət edir. Bu gün Ona gəl və xilas ol. *"Rəbb İsaya iman et, sən də, ev əhlin də xilas olarsınız."* (Həvarilərin İşləri 16:31)

Əgər sən ümidini bütün peyğəmbərlərin haqqında şəhadət etdiyi Yeganə Olana bağlamısansa, bizə bu barədə yaz....

Bu gün Müqəddəs Yazılarda bizim yüzüncü, sonuncu dərsimizdir. Bizə qoşulduğunuza görə çox sağ olun. Allahın Sözündə olan bu gözəl dua ilə sizinlə sağollaşırıq:

***"Sizi büdrəməkdən qoruyub Öz izzətli hüzuruna böyük sevinclə nöqsansız çıxarmağa qadir olan Xilaskarımız, yeganə Allaha Rəbbimiz İsa Məsih vasitəsilə əzəldən bəri, indi və əbədi olaraq izzət, əzəmət, qüdrət və səlahiyyət olsun! Amin."*** (Yəhuda 24,25)